COĞRAFİYA

ENSİKLOPEDİYASI

II kitab

- 11746 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

2012

Tərtib edənlər:

AMEA, akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun aparıcı elmi işçisi, i.e.n. - ***Eminov Z.N.***

Bakı şəhəri, H.Əliyev adına liseyin coğrafiya müəllimi, c.e.n. - ***Səmədov Q.M.***

Elmi redaktor:

AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru, professor - ***Məmmədov R.M.***

Rəyçilər:

AMEA, akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun baş elmi işçisi, c.e.n. - ***Həsənov M.S.***

AMEA, akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun baş elmi işçisi, c.e.n. - ***Əyyubov N.H.***

Bakı Dövlət Universiteti nəzdində "Gənc istedadlar" liseyinin coğrafiya müəllimi - ***Paşayev V.B.***

Bakı şəhəri, X.Quliyev adına 62 saylı tam orta məktəb-liseyin coğrafiya müəllimi - ***Kərimova İ.N.***

Coğrafiya ensiklopediyası. II kitab
Bakı: "Çaşıoğlu Multimedia", 2012 – 368 səh.

ISBN: 978-9952-27-317-5

© "Çaşıoğlu Multimedia", 2012

ÖN SÖZ

"Coğrafiya"da regional təhlillərdən qlobal problemlərin həllinə keçid əsas prinsipdir

Qloballaşan dünyada hər bir ölkənin yerini müəyyən etmək, onlar arasındakı qarşılıqlı münasibət formalarını öyrənmək, əlaqələrin möhkəmlənməsi ilə yanaşı onların müstəqilliyini və özünəməxsusluğunu qoruyub saxlamağa çalışmaq mühüm vəzifələrdir. Bu vəzifələrin yerinə yetirilməsi üçün ayrı-ayrı regionların, burada olan ölkələrin iqtisadi, sosial-mədəni və demoqrafik potensialının müəyyən edilməsi, onlardan səmərəli istifadə edilməsi yollarının təhlili və tədqiqi vacibdir. Bunun üçün regional coğrafi biliklərdən yararlanmaq lazım gəlir.

Dünyanın müxtəlif regionlarında baş verən iqtisadi, sosial-mədəni proseslər az vaxtda əksər ölkələri əhatə edir. Ona görə də dünya ölkələrini və onların regional qruplarını öyrənmək, iqtisadi-coğrafi və sosial-demoqrafik həyatında baş verən dəyişiklikləri izləmək çox vacibdir. XX əsrin sonu, XXI əsrin əvvəlində Avropada, Asiyada, eyni zamanda dünyanın digər regionlarında böyük miqyaslı siyasi, iqtisadi və demoqrafik dəyişikliklər baş vermişdir. Onları izləmək, baş verən proseslərdə hər bir ölkənin rolunu müəyyən etmək əksər oxucu kütləsində maraq doğurur. Artıq Azərbaycan da dünyada baş verən proseslərdə yaxından iştirak edir, əksər hallarda bu proseslərin təsirini hiss edir. Son zamanlar isə bir sıra çox nüfuzlu beynəlxalq tədbirlərin təşkilatçısı kimi ev sahibliyi edir. Bu mənada beynəlxalq aləmdə baş verən dəyişikliklərin Azərbaycan oxucusuna çatdırılması da son dərəcə mühüm əhəmiyyət kəsb edir.

Oxuculara təqdim edilən "Coğrafiya ensiklopediyası"nın ikinci cildində dünyanın ayrı-ayrı regionları və burada yerləşən ölkələr geniş şəkildə təhlil edilir. Burada ölkələr haqqında tarixi-coğrafi, fiziki və iqtisadi-coğrafi məlumatlar verilir, problemlər, onların həlli yolları təhlil olunur. Dünyanın əksər regionlarında bir neçə əsr davam edən azadlıq mübarizəsi nəticəsində çoxlu

müstəqil dövlətlər yaranmış və siyasi xəritə böyük dəyişikliklərə məruz qalmışdır. Bununla yanaşı, hələ də müstəmləkələr, asılı ərazilər qalmaqda davam edir. Kitabda müstəqil dövlətlərlə yanaşı müstəmləkələr və asılı ərazilər haqqında da geniş məlumatlar tapmaq olar.

Sonda Azərbaycan Respublikasının fiziki və iqtisadi coğrafiyası geniş təhlil olunur, inzibati rayonlar kartoqrafik məlumatlarla birlikdə verilir. Son vaxtlarda Azərbaycanın siyasi-inzibati quruluşunda, iqtisadi və mədəni həyatında baş verən dəyişikliklər burada geniş şəkildə öz əksini tapmışdır. İnanırıq ki, təqdim edilən vəsait oxucuların marağına səbəb olacaq və onları maraqlandıran sualların cavabını kitabın səhifələrində tapa biləcəklər.

Elmi redaktor
AMEA müxbir üzvü, texnika elmləri doktoru, professor R.M. Məmmədov

MATERİKLƏR VƏ QİTƏLƏR

ANTARKTİDA



Materiklər və qitələr

Adalar və yarımadalar

Arktika

Antarktika və Antarktida

Materiklər və qitələr

Yer kürəsinin 149 mln. km²-ni və ya 29%-ni quru sahəsi təşkil edir. O, materiklər və adalardan ibarətdir. ***Materik*** - hər tərəfdən okean və dənizlərin suları ilə əhatə olunan böyük quru sahələridir. Yer üzərində 6 materik ayrılır. Onlara ***kontinent*** də deyilir. Avrasiya, Afrika, Şimali Amerika, Cənubi Amerika, Antarktida və Avstraliya Yer üzərində olan materiklərdir. Avrasiyadan başqa hər bir materikin əsasını eyni adlı bir platforma təşkil edir. ***Materiklər*** iki sıranı əmələ gətirir. Onların Şimal cərgəsində Avrasiya və Şimali Amerika materikləri yerləşir. Cənubdakı sıra (ekvatorial da adlanır) Cənubi Amerika, Afrika və Avstraliya materiklərindən təşkil olunur. Antarktida bu sıralardan kənarda qalır. Şimal yarımkürəsində quru 39,3%, Cənub yarımkürəsində 19,1% təşkil edir. Quru sahəsinin çoxu Şimal yarımkürəsində yerləşir. Avrasiya bütün enliklərdə uzanır, Şimali Amerika isə tam quru qurşağı əmələ gətirir. Cənub yarımkürəsinin mülayim və subantarktika qurşaqlarında quru sahələri demək olar ki, yoxdur. Materiklər qurunun coğrafi bölgüləridir. Eyni zamanda, materikləri qitələrdən fərqləndirmək üçün onlara yalnız böyük quru sahələri daxil edilir. Yəni ətrafda yerləşən adalar materiklərə aid olmur. Yerin quru sahələri qitələrə də ayrılır. Tarixi-mədəni bölgü olan qitələrə onların ətrafında yerləşən adalar da daxil edilir. Lakin qurunun belə bölgüsü şərti xarakter daşıyır. Materiklərin öyrənilməsi zamanı adaların da təhlili verilir. Şimali və Cənubi Amerika materikləri Amerika qitəsi kimi qəbul edilir. Ona görə ki, kəşf edilərkən onlar vahid materik hesab edilirdi. Avrasiya materiki Avropa və Asiya qitələri kimi götürülür. Ona görə də Yerdə həm də 6 qitə ayrılır: Avropa, Asiya, Amerika, Afrika, Avstraliya və Okeaniya, Antarktida.

Coğrafi biliklərin inkişafına uyğun olaraq əvvəllər məlum olan Avropa, Asiya və Afrika ***Köhnə Dünya***, sonradan kəşf edilmiş Amerika ***Yeni Dünya*** adlanır. Onun sahəsi 42,5 mln. km²-dir.

Yarımadalar

Materiklərin okeana və ya dənizə daxil olan və üç tərəfdən su ilə əhatələnən hissəsi yarımada adlanır. Ərəbistan, Antarktika, Hind-Çin, Hindistan, Labrador, Skandinaviya dünyanın ən böyük yarımadalarıdır.

Mənşəyinə görə yarımadaların 3 növü vardır:

Ayrılmış yarımadalar əvvəllər materiklərin bir hissəsi olmuşlar. Hazırda onlar materiklərin suya daxil olmuş davamıdır. Pireney, Appenin, Skandinaviya yarımadaları ayrılmış yarımadalardır.

Birləşmiş yarımadalar əvvəllər materiklərin hissəsi olmamışdır. Sonradan quru sahələrinin hərəkəti nəticəsində bu yarımadalar materiklə birləşmişlər. Hindistan və Ərəbistan yarımadaları litosfer tavalarının hərəkəti nəticəsində Avrasiyaya birləşmişdir.

Akkumulyativ yarımadalar sahilə yaxın yerləşən adaların çay çöküntüləri ilə quruya birləşməsi nəticəsində əmələ gəlir. Dünya okeanı ilə əlaqəsi olmayan dəniz və göllərdə suyun səviyyəsinin aşağı düşməsi zamanı adalar yarımadalara çevrilir. Xəzər dənizinin sahillərində əvvəllər belə yarımadalar yaranmışdır. Hazırda suyun səviyyəsinin qalxması ilə onlar yenidən adaya çevrilmişlər.

Bəzən yarımada quru sahəsi ilə ensiz zolaqla birləşir və buna ***bərzəx*** deyilir. Onlar iki su sahəsini bir-birindən ayırır, quru sahələrini birləşdirir. Panama, Suveyş, Malakka dünyada ən iri bərzəxlərdir. Bir çox hallarda Qafqaz da bərzəx hesab edilir. Dayaz sahillərdə ensiz, uzun quru zolağı dəniz və okeanlara daxil olaraq ***dil*** yaradır. Onlar buradan axmaz, laqun, göl, buxta formasında su hövzəsini ayırır. Dillər əsasən alçaq düzənliklərdə yaranır. Məs. Azərbaycanın Xəzər dənizi sahillərində Kür dili (hazırda adaya çevrilmişdir) və Şah dili yerləşir. Qara dənizin Ukrayna sahillərində (Krımda) Arbat əqrəbi, Fedotov və Tendrov dilləri vardır.

Adalar

Hər tərəfdən su ilə əhatə edilən kiçik quru sahəsi ***ada*** adlanır. Yer üzərində olan adalar cəmi 9,9 mln. km² sahə tutur. Bu, quru sahəsinin 6,0%-nə bərabərdir. Onlar qrup şəklində yerləşdikdə ***arxipelaq*** əmələ gətirir. Məs. Böyük və Kiçik Zond, Böyük və Kiçik Antil, Yapon, Filippin, Kanada Arktikası arxipelaqları.

Adalar mənşəyinə görə materik, vulkan və mərcan qruplarına ayrılır. ***Materik mənşəli adalar*** əvvəllər materiklərin bir hissəsi olmuş, sonralar qurunun çökməsi və ya suyun səviyyəsinin qalxması ilə onlardan ayrılmış quru sahələridir. Materik mənşəli adaların sahəsi adətən böyük olur. Onlar geoloji quruluşuna və relyefinə görə yaxınlıqda yerləşən materiklərə oxşardır, materik yer qabığına malik olur. Məs. Qrenlandiya, Yeni Qvineya, Kalimantan, Madaqaskar materik mənşəli adalardır.

Vulkan mənşəli adalar okeanlarda vulkanların püskürməsi və onların konusunun suyun səthinə çıxması nəticəsində yaranır. Şimal Buzlu okeanından başqa digər okeanların hamısında vulkan mənşəli adalar vardır. İslandiya dünyada ən böyük vulkan mənşəli adadır. O, Orta okean silsiləsinin suyun səthinə çıxmış hissələridir. Havay, Kuril, Müqəddəs Yelena və Azor adaları da vulkan mənşəlidir.

Okean və dənizlərin ekvatorial, tropik enliklərində mərcan polipləri yaşayır. Bu ərazilərdə suyun temperaturu 20°C-dən çox olur. Onlar okean sularında olan əhənglə qidalanır və şaquli formada düz sütunlar, kollar formasında inkişaf edirlər. Poliplər suyun səthinə yaxın, yaxşı qızmış və şəffaf ərazilərdə (sahillərdə, sualtı dağların zirvələrində) yaşayırlar. Onlar az müddət də ömür sürür, öldükdən sonra daşlaşır. ***Mərcan mənşəli adalar*** skleti əhəng olan dəniz orqanizmlərinin - mərcan poliplərinin daşlaşması ilə yaranır. Onlar sahil rifi, sədd rifi və atoll formasında yaranır.

Sahil rifi sahilə birləşmiş formada olur. ***Sədd rifi*** sahildən bir az aralı olur. Onlar ***laqun*** adlanan su sahəsi ilə qurudan ayrılır. Dünyada ən böyük belə quru sahəsi Avstraliyanın şərqində olan Böyük Sədd rifidir. O, eni 35-140 km olan laqun ilə sahildən ayrılır, uzunluğu 2000 km-dir. Sahil və sədd rifləri Sakit okeanda, ekvatorial zonada olan bütün adaların ətrafında vardır. Atlantik okeanında isti Qolfstrim cərəyanının təsiri ilə Kiçik Antil və Baham adalarının sahillərində mərcan mənşəli adalar əmələ gəlmişdir.

Atoll okeanların mərkəzində əmələ gələn oraq və ya aypara formasında adadır. Atolların mərkəzində dərinliyi 40-70 m olan laqun bir və ya bir neçə boğazla okeana birləşir. Adaların eni 100-200 m, ümumi diametri 200 m-dən 60 km-ə qədərdir. Sakit okeanın hövzəsində vulkan və mərcan mənşəli adalar çoxdur.



Şimal Buzlu okeanı və onun ətraf əraziləri (Arktika)

Arktika

Şimal qütbünün ətraf ərazilərində yerləşən Şimal Buzlu okeanı və onun dənizləri, həmçinin Avrasiya və Şimali Amerika materiklərinin şimal sahilləri ***Arktika*** (yun. arktikos-şimal) adlanır. Arktikanın cənub sərhəddi iyulun 10°C izoterminə əsasən götürülür. Bu sərhəd ağacların şimal yayılma sərhəddinə uyğun gəlir. Arktikanın sahəsi 25 mln. km²-dir. Bəzən Şimal qütb dairəsinin daxili rayonları ***Arktika*** adlanır. Bu halda onun sahəsi 21 mln. km² olur. Şimal qütbü və onun ətraf rayonları nəhəng buz qatı ilə örtülür. Burada buzların sahəsi bütün Avropanın sahəsindən böyükdür. Bu buz örtüyünün əksər hissəsi Şimal Buzlu okeanında yerləşir. Qışda havanın temperaturu bəzən -60°C-yə düşür. Belə vəziyyətdə buzlar bütün okeanın səthini örtmüş olur. Yayda buz örtüyünün sahəsi nisbətən azalır, sahillərdən şimala çəkilir. Onlardan ayrılan nəhəng buz parçaları aysberqləri əmələ gətirir. Arktikada soyuq iqlim və sərt hava şəraiti olmasına baxmayaraq müxtəlif xalqların nümayəndələri yaşayır. Onlara Şimali Amerika inuitləri (eskimoslar), saamlar (loparlar) aiddir.

Antarktika və Antarktida

Yer kürəsinin Cənub qütb dairəsi daxilində yerləşən hissəsi Antarktika (yun. anti – əks + arktikos – şimal) adlanır. Bəzən onun sərhəddi 60°c.e. üzrə götürülür. Bu, Antarktika cəbhəsinin şimal sərhədlərinə uyğun gəlir. Antarktikaya Antarktida materiki ilə yanaşı, onun ətrafındakı adalar, Atlantik, Sakit və Hind okeanlarının cənub sahələrində olan sular da daxildir. Sahəsi 60 mln. km²-dir.

Antarktida planetin ən soyuq və digər materiklərdən uzaqda (1000 km-ə qədər) yerləşən quru sahəsidir. Materik Cənub qütbü ətrafında 12,5 mln. km², şelf buzlaqları və buzlarla materikə birləşən adalar da nəzərə alınmaqla 14 mln. km² ərazi tutur. Materikdə nəhəng dağ massivləri olan Antarktida Andları 5000 km məsafədə uzanır və 4000 m-dən çox hündürlüyü olan zirvələrə malikdir. Dağlar materiki iki qeyri-bərabər şərq və qərb sahələrinə bölür. Şərqi Antarktida materikin çox hissəsini tutur və demək olar ki, düzgün yarımdairə formasına malikdir. Qərbi Antarktidanın çox hissəsini dağlıq relyefə malik olan və Cənubi Amerikanın cənub hissəsinə tərəf uzanan Antarktika yarımadası tutur. Yarımadadan cənubda, Elsuert Torpağında eyni adlı dağlar yüksəlir. Dağların ən yüksək zirvəsi olan Vinson massivi (5140 m) eyni zamanda materikin ən hündür nöqtəsidir. Antarktidanın ərazisinin 95%-ə qədəri zireh kimi buz təbəqəsi ilə örtülmüşdür. Buzların orta qalınlığı 2300 m-ə yaxındır. Antarktidanın bəzi rayonlarında buzlar 4300 m hündürlüyündə örtük əmələ gətirir. Antarktidada olan buz-laqlarda planetin bütün su ehtiyatlarının 90%-dən çoxu toplanmışdır. Materikin kənarlarından mərkəzə doğru buzların qalınlığı artır, yəni Antarktidanı bir növ qalxana bənzətmək olar. Cənub qütbətrafı rayonlar təkcə planetin ən soyuq yeri deyildir. Materikin sahil zonaları və mərkəzi hissələri arasında olan yüksək atmosfer təzyiqi fərqi yaranması nəticəsində burada dünyada qeydə alınmış ən güclü (sürətli) küləklər (87 m/san.) əsir. Antarktida yerli və daimi əhalisi olmayan yeganə materikdir. Yayda burada elmi-tədqiqat işləri aparan alimlərin sayı 4000 nəfərə çatır, qışda isə 1000 nəfərə qədər azalır. Yazda və yayda bəzi hallarda materikə turist səfərləri təşkil edilir. Şərqi Antarktidanın buz təbəqəsinin altında yerləşən səthinin çox hissəsi okean səviyyəsindən aşağıda yerləşir. Bu ərazilər nəhəng buz kütləsinin təzyiqi ilə çökmüşdür. Qışda materiki əhatə edən dənizlər donarkən Antarktidanın buz örtüyünün sahəsi iki dəfə çoxalır. Yayda sahilboyu buzlar əriməyə başlayır. Bu zaman nəhəng buz parçaları olan aysberqlər qoparaq okeanlara düşür. Bəzən üzən buzlar sahilə yanaşaraq materikin buz örtüyü ilə birləşir və ***şelf buzlaqları*** əmələ gətirir. Şelf buzlaqları materikin sahəsinin 10%-ə qədərini tutur. Onlar arasında ən böyükləri Ronne və Ross buzlaqlarıdır. Materikin səthinin 5%-də buzlar

Antarktida materiki

yoxdur və bu ərazilər ***vahə*** adlanır. Antarktika vahələri Uilks Torpağı, Antarktika yarımadası, Viktoriya Torpağının cənub kənarları, Ross adasının çox hissəsində yayılır. Antarktida Andları (Transantarktika dağları) və Elsuert dağlarının valunlar və uçqunlarla örtülmüş bəzi vadilərinin dibi də buzdan azad olmuş ərazilərə aiddir. Qlobal istiləşmə nəticəsində Antarktidanın buz örtüyü əriməyə başlayır. Sərt iqlim şəraitinə baxmayaraq kruiz laynerləri materikə hər il 5-6 min nəfər turist gətirir. Onların əksəriyyəti Antarktika yarımadasında sahilə çıxır, ya da soyuq sahil sularında üzərək Ross adasının sahillərinə yaxınlaşırlar. Burada materikin fəaliyyətdə olan iki vulkanından ən hündürü Erebus (3794 m) yerləşir. Şərqi Antarktidada planetin ***Soyuqluq qütbü*** yerləşir. 1983-cü ildə sovet "Vostok" stansiyasında rekord dərəcədə aşağı temperatur (-89,2°C) qeydə alınmışdır. O vaxta qədər minimal temperatur -88,3°C idi. Burada ən yüksək temperatur (11°C) yayda Antarktika yarımadasının şimalında qeydə alınmışdır. Lakin çox vaxt orta yay temperaturu 0°C-dən yuxarı qalxmır. Qışda orta sutkalıq temperatur daxili rayonlarda -40°C-dən -70°C-yə qədər, sahil rayonlarında -20°C-dən -30°C-yə qədər olur. Antarktidada soyuğun təsiri insanın iliyinə işləyən güclü küləklərdə daha aydın hiss olunur, onların sürəti 300 km/saata çatır. Materikin daxili rayonları əsil səhralardır. Bu ərazilərdə yağıntıların orta illik miqdarı 50 mm-dən az olur, sahilboyu ərazilərdə isə bu göstərici 300 mm-dən çox olmur. Antarktidanın sərt iqlim şəraiti və digər materiklərdən təcrid olunması fauna və floranın müxtəlifliyinə səbəb olur. Quruda il boyu yalnız kiçik onurğasızlar yaşayır, onlara sərt soyuğa dözə bilən ərincək ***rotatorilər*** (yemi ağzının yanındakı bığları vasitəsilə tutan mikroskopik orqanizmlər) və bəzi qanadsız həşəratlar aiddir. Sahillərdə bitkilərdən nadir mamırlar, şibyələr, göbələklər, yosunlara rast gəlinir. Bəzi yerlərdə mamır və şibyələr sıx açıqyaşıl örtük əmələ gətirir. Yay dövründə materikdə suitilər, pinqvinlər və dəniz quşları, o cümlədən

İmperator pinqvinləri – öz qrupuna daxil olan heyvanlar arasında ən böyüyüdür. Onlar ilin çox hissəsini okeanda keçirirlər. Yalnız yumurta qoymaq üçün sahilə çıxırlar. Pinqvinlər sahildən 100 m-ə qədər məsafədə, materikin daxilinə yumurta qoyma yerlərinə gedirlər. Qalın piy qatı və islanmayan tüklər bu quşlara Antarktidanın sərt iqlim şəraitinə dözməyə və burada yaşamağa imkan verir.



Antarktidada ölkələrin ərazi iddiaları.
Antarktidada ayrı-ayrı ölkələrin ərazi iddiaları üst-üstə düşür. 1959-cu ildə Antarktika haqqında müqaviləni materikdə elmi stansiyalara malik olan 12 ölkə imzalamışdır. O zaman bütün ərazi iddiaları dondurulmuşdur. Müqavilə Antarktika ərazisinin yalnız dinc məqsədlərlə elmi tədqiqatlar aparılması üçün istifadə edilməsini nəzərdə tuturdu. Sonralar bu müqaviləyə daha 47 ölkə qoşulmuşdur.

albatros yaşayır. Antarktidanın ətraf sularında müxtəlif növ dəniz heyvanları və bitkilər çoxdur, burada məhsuldarlıq yüksəkdir. Okean suları planktonlarla – mikroskopik yosunlarla zəngindir. Onlar uzunluğu 5 sm-ə çatan, dəniz xərçənginə oxşar olan kril üçün qida mənbəyidir. Krillər isə nəhəng yuvalarda cəm halında toplanır, balıqlar, pinqvinlər, suiti və balinalar üçün qida mənbəyi rolunu oynayırlar. Balinaların bir çox növü yay mövsümündə bu enliklərə miqrasiya edir, krillərlə qidalanaraq, özünün piy ehtiyatını bərpa edir. Dünya ölkələrinin əksəriyyəti materikin ətrafında olan dənizlərdə balıq ovlayır. 1994-cü ildə Antarktida haqqında imzalanmış müqaviləyə əsasən burada balina ovu qadağan edilmişdir. Bu müqavilə əsasında başqa sənədlər də, o cümlədən Antarktikanın fauna və florasının mühafizəsi üzrə Razılaşma, Antarktika suitilərinin mühafizəsi üzrə Konvensiya, Antarktikanın dəniz bioehtiyatlarının qorunması sahəsində Konvensiya, Antarktikanın ətraf mühitinin qorunması sahəsində Protokol imzalanmışdır. Antarktidada müvəqqəti olaraq 70 elmi stansiyada 25 ölkənin nümayəndəsi yaşayır, buz materikinin ecazkar təbiətini tədqiq edirlər. Bu stansiyalarda Antarktidanın geoloji quruluşu, buz örtüyünün quruluşu və onun planetin iqliminə təsiri öyrənilir. Təmiz səma, maneələrin olmaması astronomik tədqiqatlar aparılmasına da imkan verir. Məhz burada 1985-ci ildə atmosferin ozon təbəqəsinin azalması müəyyən edilmişdir. Belə vəziyyət yerə gəlib çatan ultrabənövşəyi radiasiyanın artmasına gətirib çıxarır. Geoloji kəşfiyyatlar göstərmişdir ki, Antarktida Andlarında daş kömürün çox böyük ehtiyatları toplanmışdır. Antarktidada, həmçinin, dəmir filizi, xrom, qızıl və uran yataqları vardır. Güman edilir ki, materikin şelf zonasında təbii qaz və neft ehtiyatları mövcuddur. Lakin 1990-cı ildə beynəlxalq ictimaiyyət Antarktidada faydalı qazıntıların kəşfiyyatı və mənimsənilməsinin qadağan edilməsi haqqında qərar qəbul etmişdir. Materikin ekoloji vəziyyəti üçün ən böyük təhlükə ətraf mühitin çirklənməsi, xüsusilə qlobal istiləşmədir. Əgər qlobal istiləşmə davam edərsə, bu materik buzlaqlarının əriməsinə, okean səviyyəsinin 60 metr qalxmasına gətirib çıxara bilər. Bu isə bütün dünya üçün fəlakətli nəticələr verə bilər.

AVSTRALİYA VƏ OKEANİYA



Avstraliya
Okeaniya
Yeni Zelandiya
Mikroneziya
Melaneziya
Polineziya

AVSTRALİYA VƏ OKEANİYA

Avstraliya İttifaqı

Sahəsi: 7 702 315 km²
Əhalisi: 22,4 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 3 nəfər/km²
Paytaxtı: Kanberra (395 min nəfər)
Rəsmi dil: ingilis
Dini etiqad: protestantlıq, katolisizm
Pul vahidi: Avstraliya dolları
Dövlət quruluşu: Böyük Britaniya Şahzadəsinin başçı olduğu dövlət. Birlik üzvü
İnzibati ərazi quruluşu: federasiya

Avstraliyanın mərkəzi və qərb hissələrini səhralar tutur. Buna baxmayaraq zəngin mineral ehtiyatlar və yüksək səmərəli kənd təsərrüfatı Avstraliyanın inkişaf etmiş ölkəyə çevrilməsinə imkan vermişdir. Avstraliya altı ştata (Yeni Cənubi Uels, Kvinslend, Viktoriya, Qərbi Avstraliya, Cənubi Avstraliya, Tasmaniya), iki əraziyə (Şimal və Avstraliyanın paytaxt əraziləri) bölünür.

Avstraliyanın sahillərini Sakit və Hind okeanlarının suları yuyur, sahil xətlərinin uzunluğu 25760 km-dir. Onun tərkibinə sahəsi nisbətən böyük Tasmaniya adası ilə yanaşı, sahillərdə səpələnmiş çoxlu sayda kiçik adalar da daxildir. Son 30 milyon il ərzində Avstraliyada güclü tektonik hərəkətlər və dəyişiklik lər baş verməmişdir. Bu dövr ərzində su və külək onun səthini hamarlayaraq hündürlüyü kəskin fərqlənməyən sahəyə çevirmişdir. Ölkə ərazisinin 93%-i 600 metrdən az mütləq hündürlüyə malik olan düzənliklərdən ibarətdir. Avstraliyanın şimalında rütubətli yayı ilə fərqlənən subekvatorial iqlim, mərkəzində tropik səhra iqlimi, cənubunda subtropik iqlim hakimdir. Tasmaniyanın cənubunda qışı rütubətli keçən mülayim iqlim yaranır. Şimalda yanvarın orta temperaturu 29°C, iyulda 25°C, cənubda isə müvafiq olaraq 17°C və 8°C-dir. Ölkənin ərazisinin 3/4 hissəsini səhra və yarımsəhralar tutur. Avstraliya ən quraq materikdir. Sakit okean sahilləri boyu uzanan Böyük Suayrıcı sıra dağları yaşayış olmayan qərb ərazilərini əhalinin sıx məskunlaşdığı şərq hissədən ayırır. Burada immiqrantlar hesabına ölkənin ən müxtəlif dillərdə danışan sakinlərinin yaşadığı Sidney şəhəri yerləşir. Avstraliya materikinin Qondvanadan ayrılması və sonrakı 65 mln. il ərzində digər materiklərdən təcrid olunması nəticəsində burada planetin heç bir yerində rast gəlinməyən, özünəməxsus (endemik) bitki və heyvan növləri əmələ gəlmişdir. Onlar səhraların çətin şəraitinə uyğunlaşmışlar. Bu heyvanlara ördəkburun-yexidna, vambat, emu dəvəquşusu, kenquru, koala ayısı, çoxlu sayda tutuquşu növləri aiddir. Endemik heyvanlar, xüsusən kenquru bu materikin simvolları hesab olunur. Avstraliyanın heyvanlar aləminin bu qədər nadir nümayəndələrinin olması nəticəsində ölkənin gerbində emu dəvəquşusu və kenqurunun şəkli əks olunmuşdur. Kenqurunun uzun, güclü arxa ayaqları ona uzaq məsafələrə yemək dalınca getməyə imkan verir. O, ən böyük kisəli heyvandır. Qonur kenqurunun hündürlüyü 2 m-ə, çəkisi 85 kq-a çatır. Cənubi Avstraliya ştatında 3 mln. baş kenquru vardır. Vombat aylarla susuz qala bilir. Emu dəvəquşusu ölçüsünə görə dünyada ikinci yeri tutur. XIX əsrdə materikə gətirilmiş dəvə səhralarda səyahət zamanı qoşqu kimi istifadə edilmişdir. Hazırda Avstraliyada, başlıca olaraq, Şimal ərazisində 1 mln. başa qədər dəvə vardır. Avstraliyada iri yırtıcılar olmasa da, zəhərli həşəratlar və sürünənlər vardır. Onlar arasında pələng ilanı və dünyada ən güclü zəhərə malik olan taypan ilanı fərqlənir. İnsanların Avstraliyaya təxminən 50 min il bundan əvvəl gəlməsi ehtimal olunur. Materikin geniş ərazilərində məskunlaşaraq aborigenlər köçəri həyat tərzi sürmüş və özünəməxsus mədəniyyətlərini yaratmışlar. İndi yerli əhali Avstraliya əhalisinin 1%-ni təşkil edir. Onlar yaşayış üçün çətin

olan ərazilərə qovulmuşlar. Gəlmə əhalinin əksəriyyəti XVIII əsrdən başlayaraq bura gələn avropalıların nəsilləridir. Şəhər əhalisi böyük şəhər dairələrində - Melbrunda, Viktoriyada, Brisbendə, Kvinslenddə, Qərbi Avstraliyada olan Pertdə, Cənubi Avstraliyada yerləşən Adelaidada və ölkənin paytaxtı olan Kanberra şəhərində cəmlənir.

1770-ci ildə C.Kuk Avstraliyanın şərq sahillərinə çatmış, bu torpaları Yeni Cənubi Uels adlandırmış və Böyük Britaniyanın mülkü elan etmişdir. 1788-ci ildə ingilis gəmiləri ilk dəfə məhbusları Sidney körfəzinə gətirmişdir. İngilislərin gəlməsindən sonra yerli əhali təqiblərə və zorakılığa məruz qalmışdır. 1850-ci illərdən başlayaraq materikə olan sürgünlər dayandırılmış, bura Britaniyanın adi vətəndaşları gəlməyə başlamışlar. 1851-ci ildə Viktoriya ştatında qızıl yatağının kəşf edilməsi və sonrakı dövrlərdə olan "qızıl həyəcanı" Avropa və Asiyadan minlərlə insanı bura cəlb etdi. İkinci Dünya müharibəsindən sonra Avstraliyaya immiqrantların cəlb edilməsi üçün bir sıra qərarlar qəbul edilmişdir. Nəticədə ölkəyə 5,5 mln. nəfər immiqrant axını olmuşdur.

***Ayers-Rok** və ya yerli aborigenlərin Uluru (Müqəddəs) adlandırdığı dağ dünyada ən böyük qədim şahid dağdır. Onun hündürlüyü 335 m (okean səviyyəsindən mütləq hündürlüyü 867 m), diametri 8 km-dir.*

Miqrantların yarısından çoxu Böyük Britaniyadan gəlmişdir. Almaniya, İtaliya, Yunanıstan və Balkan ölkələrindən gələnlər də çoxluq təşkil edirdi. 1973-cü ilə qədər ölkəyə giriş üçün yalnız ağ dərili insanlara icazə verilirdi. Ona görə Asiyadan gələnlər və onların nəsilləri Avstraliyada 6%-dən çox deyildir. 1974-cü ildə məhdudlaşdırıcı miqrasiya siyasəti ləğv edilmiş, ölkəyə Cənub-Şərqi Asiya ölkələrindən çoxsaylı miqrasiya axını baş vermişdir. Avstraliyada 150-dən çox millətin nümayəndəsi yaşayır. Əhalinin 68%-i xristiandır, 15%-i isə özünü ateist hesab edir. Ölkədə ingilis dilində danışılsa da, çoxsaylı ləhcələrə rast gəlinir, yerli ifadələr və digər dillərdən keçən sözlər də çoxluq təşkil edir. Həyat səviyyəsi əsasən yüksəkdir, lakin varlılar və kasıbların gəlirləri arasındakı fərq böyükdür. Avstraliya ənənəvi ticarət tərəfdaşı olan Böyük Britaniya ilə əlaqələr saxlayır, ABŞ, Yaponiya və Asiya ölkələri də ticarəti genişləndirir. 1999-cu ildə keçirilmiş referendumda əhalinin çox hissəsi ölkənin başında Böyük Britaniyanın Şahzadəsini görmək istəmişdir. Lakin xeyli sayda avstraliyalı, xüsusən də gənclər respublika quruluşlu dövlətdə yaşamağı arzu edir. Avropalılar ilk dəfə materikə gələnə qədər burada 1 mln. nəfərdən çox yerli əhali yaşayırdı. Onlar ovçuluq, balıqçılıq və malların mübadiləsi vasitəsilə ticarətlə məşğul olurdular. İmmiqrantlar bura gələrkən yeni xəstəliklər gətirdilər, yerli əhalinin onlara qarşı immuniteti və mübarizə vasitələri yox idi. Minlərlə əhali vərəm, adi soyuqdəymə xəstəliyindən ölürdü. Daha çox insan gəlmələrlə toqquşmalarda həlak olmuşdur. Yerli əhaliyə vəhşi insanlar kimi münasibət bəslənirdi. Onlar diskriminasiyaya məruz qalır, torpaqlarından məhrum edilir, rezervasiyalara qovulurdular. Bu isə əhalinin həyat tərzinin dəyişməsinə gətirib çıxarırdı. Çox vaxt uşaqları valideynlərdən alaraq xüsusi evlərə verir, ya da özləri saxlayırdılar. 1967-ci ildə aborigenlər səsvermək hüququ qazandılar, onlara torpaq sahibi olmaq hüququ verdilər. Yerli əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması, onların təhsil və həyat səviyyəsinin yüksəldilməsi üçün tədbirlər görülür. Lakin hələlik onlar çox ağır şəraitdə yaşayır, orta ömür müddəti ölkənin ümumi göstəricisindən 15 il aşağıdır.

Avstraliya faydalı qazıntılarla çox zəngindir, onun dağ-mədən sənayesi dünyada yüksək inkişaf səviyyəsinə görə fərqlənir. Burada dünya üzrə dəmir filizinin 15%-i hasil edilir və dünyada üçüncü yeri tutur. Ölkənin müxtəlif yerlərində müəyyən edilən iri faydalı qazıntı yataqları bütün regionlarda dağ-mədən sənayesinin inkişafına imkan verir. Hasil edilən misin 70%-i Kvinslendin böyük mədənlərinin payına düşür, uran hasilatının əsas hissəsi Şimal ərazisi və Cənubi Avstraliyanın şaxtalarında aparılır. Ölkədə çıxarılan faydalı qazıntıların 38%-i, metal hasilatının 67%-i Qərbi Avstraliyanın payına düşür. Ştatda boksit və nikelin zəngin ehtiyatları cəmlənib. Avstraliyada çıxarılan qızılın 67%-i, dəmir filizinin 97%-i Qərbi Avstraliyanın payına düşür. 1970-ci ildə Qərbi Avstraliyanın şimal-şərqində kəşf edilən almaz yataqlarının istismarı bu qiymətli metalın istehsalında Avstraliyanın ilk beş dünya lideri sırasına daxil olmasına imkan vermişdir. Bu regionda yerləşən qızıl yataqları ölkədə hasil olunan bu qiymətli metalın 75%-ni verir. Dağ-mədən-sənayesindən əldə edilən gəlirin 17%-ni qızıl hasilatı verir. Onun ixracından əldə edilən gəlir dəmir filizi, neft, təbii qaz, buğda və yunun ixracından alınan gəlirdən çoxdur. XX əsrin ikinci yarısında Qərbi Avstraliyanın şelf zonasında zəngin neft yataqları aşkar edilmişdir.

Şərqi Avstraliya regionuna Kvinslend, Viktoriya, Yeni Cənubi Uels ştatları, həmçinin ölkənin paytaxtı Kanberra və Tasnamiya əraziləri aiddir. Zəngin təbii ehtiyatlara malik olan Şərqi Avstraliya ölkənin iqtisadi cəhətdən ən inkişaf etmiş və urbanizasiya səviyyəsi yüksək olan regionudur. 1901-ci ildə Avstraliya İttifaqı yaradılmış və ona dominion statusu verilmiş, 1927-ci ildə Kanberra hökumətin mənzil-qərargahına çevrilmişdir. Kanberra sahildən aralı yerləşən ölkənin ən böyük şəhəridir.

Kenquru yalnız Avstraliyada yaşayır

Şərqi Avstraliyada balıq ovu azdır və il ərzində 300 min tonu keçmir. Gəlirlərin yarısından çoxunu omar (onayaqlı dəniz xərçəngi), krevet və istridyə (dəniz ilbizi) kimi dəniz məhsulları verir. Şərq sahilboyu ərazilərdə ölkənin ən böyük kənd təsərrüfatı rayonu olan düzənlik zolağı yerləşir. Regionun relyefində əsas yeri tutan Böyük Suayrıcı sıra dağları şimaldan cənuba doğru Kvinslenddən Viktoriya ştatına qədər, bütün Sakit okean sahili boyunca uzanır, şərqdə yamacları sıldırımdır. Sıra dağların orta hündürlüyü 1200 m-dir. Yeni Cənubi Uelsdə olan Qarlı dağlarda materikin ən yüksək zirvəsi olan Kostyuşko (2228 m) dağı yüksəlir. Regionda böyük daş kömür yataqları vardır. Avstraliya bu yataqlar hesabına dünyanın ən böyük kömür ixrac edən dövlətlərindən birinə çevrilmişdir. Böyük Suayrıcı dağları qərbə tərəf tədricən alçalır və geniş yastı relyefə malik Böyük Artezian hövzəsinə keçir. Bura suyundan suvarmada istifadə olunan yeraltı suların ən böyük ehtiyatı toplanan ərazidir. Regionun ən böyük çay sistemi olan Murrey-Darlinqin ümumi uzunluğu 3750 km, sutoplayıcı hövzəsinin sahəsi isə 1 mln. km²-dən artıqdır. Şərqi Avstraliya avropalıların ilk dəfə məskunlaşdığı regiondur. Avstraliyanın şərq sahillərində ştatların inzibati mərkəzi olan üç böyük şəhər yerləşir. Viktoriya ştatının inzibati mərkəzi Melburn, Kvinslend ştatının mərkəzi Brisben və Yeni Cənubi Uels ştatının mərkəzi Sidney şəhərləridir. Mənzərəli buxtada yerləşən Sidney əhalisinin sayı ən çox olan şəhər və ölkənin əsas maliyyə mərkəzidir.

Böyük Sədd rifi

Kvinslendin sahilləri boyu təxminən 2 min km uzanan Böyük Sədd rifi təbiətin möcüzələrindən biridir, dünyada mərcan poliplərinin yaratdığı ən böyük rifdir. Dünyada ən böyük mərcan məhsulu olan ərazidə 350-dən çox polip növü vardır, bura 3 mindən çox rif daxildir, 350 min km²-dən çox sahə tutur. Mərcan rifləri il boyu suyunun temperaturu 22°-28°C olan ərazilərdə yayılmışdır. Onlar Yerdə mövcud olan ən müxtəlif növə aid heyvanların yaşaması üçün təbii mühit yaradır və Böyük Sədd rifinin ətrafında 1500 növ balıq yaşayır. Donqarlı balina və dünyada məlum olan 7 növ dəniz tısbağasından 6 növü bala vermək üçün bura gəlir. Mərcan adalarının dayaz sularında yosun pöhrəliklərində məhv olmaq təhlükəsi ilə qarşılaşan məməli növü olan düqon- dəniz inəyi gəzir, 200 növ quş özünə qida axtarışına çıxır. Hər il bu təbiət gözəlliyini və qeyri-adi mənzərəni seyr etmək üçün 2 mln. nəfərdən çox turist gəlir. Mərcan poliplərinə dəniz suyunun çirklənməsi və temperaturunun artması, turistlərin gəzməsi, onlarla qidalanan dəniz ulduzları ciddi ziyan vurur.

Dəyişilmiş biosistem

Avstraliyada olan bəzi heyvan növləri avropalılar tərəfindən gətirilmişdir. Gətirilən heyvan növlərinin bəziləri ətraf mühitə çox böyük ziyan vurmuşdur. Gətirilmiş dinqo itləri, tülkülər və siçovullar yerli fauna növlərini sıxışdırmış, bəzilərini məhv etmişlər. Qamışlıq qurbağası və dovşan sürətlə artaraq kənd təsərrüfatının əsas ziyanvericilərinə çevrilmişlər və materikin təbii ekosistemini pozurlar. Gətirilmiş digər heyvanlar isə əksinə, Avstraliyanın kənd təsərrüfatının əsasına çevrildi. Ölkədə 73 milyon başdan çox qoyun, 28 milyon baş iri buynuzlu mal-qara vardır. Kənd təsərrüfatında istifadə edilən torpaqların 90%-i otlaqlar üçün ayrılmışdır. Kvinslenddə iri buynuzlu mal-qaranın 1/3-i saxlanılır, Yeni Cənubi Uels ştatında 28 mln. baş qoyun vardır. Sürülər iri fermalarda saxlanılır və stansiyalar adlanır. Qoyun fermaları 12 min km²-ə qədər sahə tutur. Ona görə Avstraliya dünyada ən böyük ət və ət-süd məhsulları ixrac edən ölkədir, yun istehsalında qabaqcıl yer tutur.

Əhali və şəhərlər

Əhalinin əsas hissəsi orta və böyük yaşayış məntəqələrində, xüsusən şərq hissədə cəmlənir. Mərkəzi Avstraliya əhalisinin sayı az olan regiondur. Geniş ərazilərdə insanlar məskunlaşmayıb. Şimal ərazisi 1,34 mln. km² sahə tutsa da, burada cəmi 225 min nəfərə qədər əhali yaşayır. Bu isə ölkə əhalisinin 1%-dən bir qədər çoxunu təkil edir. Əhalinin bir hissəsi fəhlə qəsəbələrində, kənd təsərrüfatı mərkəzlərində və yerli tayfaların (aborigenlərin) yaşayış məntəqələrində yaşayır. Onların çox hissəsi Alis-Springsdə və ya Şimal ərazisinin əsas limanı və inzibati mərkəzi olan Darvində cəmlənir. Cənubi Avstraliyanın sahəsi nisbətən az (984 min km²) olsa da əhalinin sayı şimal qonşusuna nisbətən yeddi dəfə çoxdur.

Əhalinin 95%-i eni təqribən 45 km olan sahilboyu ərazilərdə məskunlaşmışdır. Onların da çox hissəsi ştatın inzibati mərkəzi və ölkənin beşinci böyük şəhəri olan Adelaidada cəmlənir. Şəhər meşə massivləriı ilə əhatə olunmuşdur, ətrafda sıx avtomobil yolları şəbəkəsi çəkilmişdir. Adelaidada və onun ətrafında yerləşən qaz emalı və dağmədən sənayesi müəssisələri, fermer təsərrüfatları və turizm sənayesi şəhərin büdcəsinin əsas gəlir mənbələridir. Avstraliyanın mərkəzi və şimal hissələrində yaşayan aborigenlər 200-dən çox dildə danışırlar. Yerli əhalinin mədəniyyətinin əsasında "yuxugörmə zamanı" haqqında təsəvvürlər durur. Bu zaman Dünya və bütün canlı aləm yaranmışdır. Aborigenlər öz əcdadlarını ilkin formada yatmış varlıqlar kimi təsəvvür edir. Onlar oyanaraq insanları və təbiəti yaratmışlar. Avstraliyanın yerli əhalisinin düşüncəsinə görə dünyanı yaradan hər bir tayfaya öz torpaqlarını da ayırmışdır. Bu torpaqlar müqəddəs sayılır, nə satıla, nə də hədiyyə edilə bilməz.

Şəhər hər il 6 mln. nəfər turist qəbul edir. Kvinslendin cənub-şərqində yerləşən Qold-Kost şəhərində 50 km-lik sahilboyu zolaqda yaradılmış mehmanxanalar və kurortlar kompleksində il ərzində 10 mln. nəfərdən çox turist istirahət edir.

Şimal ərazisi və Cənubi Avstraliya ştatını özündə birləşdirən ***Mərkəzi Avstraliya*** quraq iqlimi olan geniş ovalıq regiondur. Mərkəzi Avstraliyanın çox hissəsini səhralar (Tanami, Simpson və Böyük Viktoriya) tutur. Onlar tikanlı

Avstraliyanın yerli əhalisi olan aborigenlər

kolluqlardan (skreblendlərdən) ibarət olan yarımsəhralarla əhatə olunmuşdur. Regionun mərkəzində bir neçə dağ massivi yüksəlir. Onlara Alis-Springs şəhərindən qərbdə uzanan Mak-Donnell və Uluru (Ayers-Rok, 867 m) zirvəsindən cənubda yüksələn Masqreyv dağ silsilələri aiddir. Şimalda yarımsəhralar savannalara keçir, onlar da rütubətli tropik meşələr, sahilboyu ərazilərdə bataqlıqlarla əvəz olunur. Cənub vilayətlərində ovalıqlar üstünlük təşkil edir, onların relyefini sıx tropik meşələrlə örtmüş Flinders dağ silsiləsi pozur. Dağ massivinin şərqində və qərbində böyük göl çökəklikləri yerləşir. Eyr, Torrens, Blans, Qerdner və From gölləri ilin çox hissəsində duz qatı ilə örtülür, yalnız zaman-zaman su ilə dolur. Materikin ən böyük gölü olan Eyr okean səviyyəsindən 16 m aşağıda yerləşir. Onun sutoplayıcı hövzəsinin sahəsi 1 mln. km²-dir. Ayrı-ayrı vaxtlarda göldə su səthinin sahəsi 9 min km²-ə çatır. Avstraliyanın ən böyük çayı Murrey bu ərazidən keçərək Adelaidadan şərqdə okeana tökülür. Cənubi Avstraliya ölkənin ən quraq ştatı hesab olunur. Subtropik qurşağın mövcud olduğu sahilboyu ərazilərdə yağıntılar çox düşdüyü halda, daxili rayonlarda arid iqlim hakimdir və illik yağıntının miqdarı 300 mm-dən az olur. Şimal ərazisinin çox hissəsində də isti və quru iqlim üstünlük təşkil edir. Lakin ştatın sahilboyu ərazilərində il ərzində leysan xarakterli 1800 mm-ə qədər yağıntılar düşən rütubətli tropik iqlim hakimdir. Yağıntıların əsas hissəsi noyabrdan aprelə

qədər davam edən musson mövsümündə düşür. Hər iki ştatın quraq rayonlarında şərait imkan verən ərazilərdə iri buynuzlu mal-qara və qoyun saxlanılır. Cənubi Avstraliyanın cənubunda daha məhsuldar torpaqlar buğda, arpa, yulaf, meyvə-tərəvəzdən yüksək məhsuldarlıq əldə etməyə imkan verir. Barossa vadisində inkişaf etmiş suvarma sistemləri yaradılması ilə əlaqədar ölkədə ən çox üzüm toplanır. Avstraliyada şərabçılıq sənayesi son 20 ildə intensiv inkişaf etdirilir. Ölkədə istehsal edilən yüksək keyfiyyətli şərab dünyanın bir çox ölkələrinə ixrac edilir. Şimal ərazisinin sahilləri boyu tropik meyvə və tərəvəz, o cümlədən sitrus bitkiləri və banan yetişdirilir. Avstraliyanın yüksək səmərəli kənd təsərrüfatı təkcə ölkənin ərzaq məhsullarına olan tələbatını tam ödəmir, həm də ət, süd, pendir, yun, həmçinin buğda, şərab və meyvə ixracında dünyada aparıcı yerlərdən birini tutmasına imkan verir.

Ölkənin ən böyük ştatı olan ***Qərbi Avstraliya*** mineral ehtiyatlarla zəngindir. Ştatın cənub-qərbində torpaq və iqlim şəraiti kənd təsərrüfatının inkişafı üçün əlverişlidir. Geniş quraq ərazilərə malik olan Qərbi Avstraliyanın sahilləri cənubda və qərbdə Hind okeanının, şimalda Timor dənizinin suları ilə yuyulur. Ştatın sahəsi 2,5 mln. km²-dir. Ərazisinin çox hissəsi seyrək bitkilərdən ibarət orta yüksəkliyə malik yayladan ibarətdir. Qərbi Avstraliyanın daxili hissələrinin yarısından çoxunu Böyük Qumlu, Hibson və Böyük Viktoriya səhraları tutur. Hər üç səhrada meşələrdən ibarət savannalara, bataqlıqlara və duzlu göllərə rast gəlinməsinə baxmayaraq burada səhra iqlimi hakimdir. Havanın temperaturu 30°C-dən yuxarıdır, yağıntıların orta illik miqdarı 200 mm-dən azdır. Ştatın dağlıq rayonları bir-birindən təcrid olunmuşdur. Şimal-qərbdə Xamersli silsiləsi yüksəlir, şimalda faydalı qazıntılarla zəngin olan Kimberli yaylasının yastı zirvələri qalxır. Ştatın şimalında regionun ən böyük su hövzəsi olan Arqayl gölü vardır. Cənub-şərqdə isə əhəng daşından ibarət Nallarbor düzənliyi yerləşir. Burada səthin hamar olması Transavstraliya dəmir yolunun çəkilməsinə şərait yaratmışdır. Qərbi Avstraliya quraq rayon olsa da, onun geniş ərazisində iqlimin bir-birindən fərqlənən xüsusiyyətləri də vardır. Ucqar şimalda dövri olaraq siklonlar yaranan subekvatorial (yayda – dekabr-fevral aylarında ekvatorial hava kütlələrinin təsiri ilə bol yağıntı düşür), mərkəzdə quru tropik iqlim, cənubda isə Aralıq dənizi tipi (qış yağıntılı, yay quraq) mövcuddur. Şimalda və cənubda yağıntıların orta illik miqdarı 1600 mm-ə çatır. Materikin daxilinə doğru yağıntıların miqdarı azalır, yayda orta sutkalıq temperatur 30°C-dən yüksək olur, qışda isə tez-tez 0°C-dən aşağı düşür. Olbanidən şimalda yerləşən alçaq dağlıq tirələr regionda qar yağan yeganə yerdir. Cənub-qərbdə əsas kənd təsərrüfatı məhsulları istehsal edilən məhsuldar torpaqlar yerləşir. Ərazidə yulaf, tərəvəz, yağlı bitkilər, meyvə, həmçinin buğda əkilir. Ştat buğda yığımına görə ölkədə birinci yeri tutur. Regionun təsərrüfatının əsas sahəsi maldarlıqdır. Ştatın hökuməti tərəfindən nəzarət edilən ağac tədarükü və sahilboyu ərazilərdə aparılan balıq ovu onun inkişafına öz töhvəsini verir. 1960-cı illərdən intensiv əkinçilik və faydalı qazıntı hasilatı əsasında Qərbi Avstraliyanın iqtisadiyyatı ölkədə ən yüksək templə inkişaf edir. Bu sahələr ştatın büdcə gəlirlərinin 25%-ə qədərini verir. Son vaxtlarda sürətlə inkişaf edən turizm də ştatın inkişafında böyük rol oynayır. Sürətlə inkişaf edən və Pert şəhərinin ətrafında

Qərbi Avstraliyada eroziya nəticəsində yaranmış əhəngdaşı qayaları

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

cəmlənən sənaye müəssisələrində hasil edilən xammallar emal olunur. İri işgüzar və maliyyə mərkəzinə çevrilən Pert şəhəri Asiya ölkələri ilə ticarət əlaqələrini genişləndirməsinə imkan verir.

Əhalinin yerləşməsi

Qərbi Avstraliyada əhalinin sıxlığı hər km²-də 1 nəfərdən də azdır. Regionun təsərrüfatında əkinçilik aparıcı yer tutsa da, kənd rayonlarında əhalinin 15%-dən azı yaşayır. Cənub-qərb sahillərində ilk daimi yaşayış məskənləri 1820-ci illərdə yaranmışdır. Miqrantlar tədricən yaxınlıqda yerləşən əraziləri mənimsəyir və fermalar tikirdilər. 1850-ci illərdə qızıl yataqlarının tapılması "qızıl həyəcanına" və güclü immiqrasiya axınına səbəb olmuşdur. Nəticədə az vaxtda əhalinin sayı da sürətlə artmışdır. Qızıl hasilatından əldə edilən gəlir hesabına 1899-cu ildə Frimantl şəhəri yaxınlığıda süni buxta yaradılmışdır. Hazırda Frimantl şəhəri sürətlə inkişaf edən Pert ilə birləşmişdir. Ştatın 2237 min nəfər əhalisinin 1603 min nəfəri şəhərdə yaşayır. Ehtiyatla qorunan və bərpa olunan köhnə tarixi tikililər Pertin gözəl görünüşünü turistlər üçün də cəlbedici edir. Əhalisinin sayına görə ölkədə dördüncü yeri tutan Pert şəhərindən fərqli olaraq ştatın digər şəhərlərində əhalinin sayı 60 min nəfərdən azdır. Daxili rayonlarda yerləşən Kalqurli və Boulder şəhərlərinin faydalı qazıntıların çıxarılmasında rolu böyükdür. Hasil edilən xammallar Port-Xedlend limanında batkerlərə yüklənir.

Tasmaniya adası

Avstraliyanın ən kiçik ştatı olan Tasmaniyada 503 min nəfər əhali yaşayır. Ştat materikdən Bass boğazı ilə ayrılan eyni adlı adada yerləşir. Ştatın sahəsi Flinders, Kinq, Keyp-Barren və başqa adalar ilə birlikdə 68 min km²-dən çoxdur və Avstraliyanın ərazisinin 1%-dən azını təşkil edir. Hələ 9 min il əvvəl ada materiklə əlaqəli olmuşdur və geoloji cəhətdən Böyük Suayrıcı sıra dağlarının davamıdır. Tasmaniyanın çox hissəsini alçaq plato tutur. Adanı çoxlu sayda iti axan kiçik çaylar kəsir, onlarda SES-lər qurulmuşdur. Tasmaniyanın mərkəzi, şərq və şimal hissələrində əkin yerləri, çəmənliklər və üzümlüklər vardır. Qərbdə, təsərrüfat cəhətdən az mənimsənilmiş rayonlarda geniş ərazilər rütubətli meşələrlə örtülür. Meşələrdə Avstraliya üçün səciyyəvi olan ağac növləri üstünlük təşkil edir. Onlar arasında adanın simvolu hesab olunan mavi evkalipt ağacı geniş yayılmışdır. Tasmaniyanın uzun müddət təcrid olunması dünyanın başqa yerlərində rast gəlinməyən tasmaniya şeytanı, tasmaniya canavarı (və ya tilasin), yer tutuquşusu kimi qeyri-adi heyvan növlərinin yaranmasına səbəb olmuşdur. Meşə və dağ-mədən sənayesi Tasmaniyanın təsərrüfatında mühüm rol oynayır. Lakin ştatın hakimiyyət dairələri təbii landşaftın mümkün qədər qorunub saxlanmasına çalışır. Adanın ərazisinin 1/2 hissəsini qoruqlar təşkil edir. Əhalinin çox hissəsi əkinçilik və maldarlıqla məşğul olur. Az sayda sənaye müəssisələri adanın cənubunda olan Xobart şəhəri yaxınlığında cəmlənir. Xobart adanın əsas limanı və ölkənin Sidneydən sonra ikinci qədim şəhəridir. Tasmaniyanın aborigenlər tərəfindən məskunlaşması 35 min il əvvəl, hələ adanın materiklə bir yerdə olduğu vaxtda başlanmışdır. Avropalıların bura gəlməsindən sonra xəstəliklər və müharibələr yerli əhalinin kütləvi qırılmasına və sayının kəskin azalmasına gətirib çıxarmışdır. Hazırda onların payı 1%-ə qədərdir.

Okeaniya

Okeaniyaya Yeni Zelandiya, Tasmaniya və Yeni Qvineya kimi böyük adalar, həmçinin Sakit okeanda yerləşən 20 mindən çox kiçik ada daxildir. Avstraliya ilə birlikdə quru sahəsi 8,5 mln. km² olan bu ərazi Sakit okeanın az bir hissəsini tutur. Buradakı adalar əsasən vulkan (yüksək) və mərcan (hamar) mənşəlidirlər. Bu adalar vulkanların fəal olduğu litosfer tavalarının sərhədlərində yaranırlar. Mərcan mənşəli adalar da sualtı vulkanik dağların zirvələrində mərcan poliplərinin toplanması nəticəsində yaranır. Bəzən adalar etnik əlamətlərə görə qruplaşdırılır. Okeaniya adalarının şərqdə yerləşən ***Polineziya qrupu*** qövs şəklində Havay adalarından cənubda Yeni Zelandiyaya qədər uzanır. Bu adalardan qərbdə yerləşən ***Mikroneziya qrupuna*** Karolin, Marşal və Marian adaları daxildir. ***Melaneziya*** Okeaniyanın qərbini əhatə edərək, Yeni Qvineya, Fici, Solomon adalarını və bir sıra xırda adaları özündə birləşdirir. Arxeoloji tədqiqatlar göstərir ki, Yeni Qvineya adasında məskunlaşma təqribən 50 min il əvvəl başlanmışdır. Okeaniyanın digər yerlərində əhali məskunlaşması sonradan olmuşdur. B.e.ə. V və IV minilliklər arasında Cənubi və Cənub-Şərqi Asiya xalqları Okeaniya adalarının şimal və qərb kənarlarına çatmış, b.e.ə. I minillik ərzində Okeaniyanın ən uzaqda olan adalarını özlərinin hazırladığı gəmilərdə kəşf etmişlər. Hal-hazırda region əhalisinin sayı 15 mln. nəfərdir. Papua - Yeni Qvineya və bir çox müstəqil ada-dövlətləri dünyanın nisbətən zəif inkişaf etmiş ölkələridir. Adaların sakinlərinin çox hissəsi ənənəvi həyat tərzini saxlayır.

Yeni Zelandiya

Sahəsi: 270 534 km²
Əhalisi: 4,4 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 16,3 nəfər/km²
Paytaxtı: Vellinqton (431,4 min nəfər)
Rəsmi dillər: ingilis, maori
Dini etiqad: protestantlıq, katolisizm
Pul vahidi: Yeni Zelandiya dolları
Dövlət quruluşu: Böyük Britaniya Şahzadəsinin başçı olduğu dövlət. Birlik üzvi

Yeni Zelandiya adaları Sakit okeanın cənub hissəsində yerləşir. Əhalisi az olan adaların təbiəti ecazkar gözəlliyi və müxtəlifliyi ilə fərqlənir.

Yeni Zelandiya Avstraliyadan təxminən 1930 km cənub-şərqdə, iki böyük - Şimal və Cənub adasında və çoxsaylı kiçik adalarda yerləşir. Adaları eni 20 km-ə çatan Kuk boğazı ayırır. Ölkəyə Cənub adasından aşağıda olan Stüart, Okeaniyada Kuk, Niue və Tokelaunun tərkibində olan çoxsaylı adalar aiddir.

Yeni Zelandiyada kiçik ərazilərdə müxtəlif və rəngarəng təbii landşaftlar bir-birini əvəz edir. Burada fyordlar, buzlaqlar, dağlar, qum dyunları, düzənliklər, bataqlıqlar və göllər çoxdur. Şimal adasının relyefi vulkan püskürmələri nəticəsində formalaşmışdır. Nəhəng sönmüş vulkanın kraterində olan Taupo Yeni Zelandiyanın ən böyük gölüdür. Onun sahəsi 600 km²-dir. Ölkənin ən uzun çayı olan Uaikato bu göldən başlayaraq şimala doğru axır və Tasmaniya dənizinə tökülür. Adanın mərkəzində geniş yayla yerləşir. Burada dörd fəaliyyətdə olan vulkan arasında ən hündürü olan Raypexu vulkanının hündürlüyü 3000 m-dir. Tez-tez zəif yeraltı təkanlar, bəzən isə güclü zəlzələlər baş verir. Platoda möcüzəli təbiət hadisələrinə rast gəlinir: qeyzerlərin güclü fəvvarələri, palçıq "qazanları", isti və soyuq mineral bulaqları vardır. Rotorua vadisindən 20 km cənubda intensiv geotermal sular rayonunda vulkan mənşəli Vayotapu gölü yerləşir. Gölün qaynayan mineral suyunun temperaturu 60°C-yə çatır. Ona görə suyun üzərində daim buxar qalxır. Adanın sahilləri ilə yüksək olmayan dağ silsilələri və təpəli düzənliklər uzanır. Şimal adasının sahilləri kəskin şəkildə parçalanmışdır. Sahildəki təbii buxtada iki böyük şəhər - Oklend və Vellinqton yerləşir. Cənub adasının relyefində dağlar üstünlük təşkil edir. Cənubi Alp silsilələri bütün ada boyu uzanır. Bu dağlarda böyük Tasman buzlağı, həmçinin başı daim qarla örtülü olan, ölkənin ən yüksək zirvəsi Kuk dağı (3754 m) vardır. Bu dağı yerli əhali olan maorilər "Aorangi" – "buludlara baş vuran" adlandırırlar. Pik ətrafında hündürlüyü 3000 m-dən çox olan daha 22 zirvə vardır.

Yeni Zelandiya yaxınlığında ada

Yeni Zelandiyanın ərazisinin çox hissəsi mülayim iqlim qurşağında yerləşir. Ölkənin yalnız şimal hissəsi subtropik qurşağa keçir. Cənub adasında iqlim daha sərtdir. Adaların sahəsi kiçik olduğuna görə okean hava kütlələri yumşaldıcı təsir göstərir, temperaturun kəskin dəyişməsi müşahidə edilmir. Qışda temperatur yalnız Cənub adasının dağlarında 0°C-dən aşağı düşür, yay isə sərin keçir. Yayda temperatur bəzi hallarda 25°C-dən yuxarı qalxır. Yağıntılar il boyu bərabər paylanır, lakin ərazi üzrə qeyri-bərabər düşür. Cənubi Alp dağlarının ətəklərində ildə 7000 mm-dən artıq yağıntı düşür. Yeni Zelandiyanın ən quraq ərazisi isə Otaqo yarımadasıdır. Burada yağıntı ildə 300 mm-dən az olur. Dünyanın qalan regionlarından uzun müddət təcrid olunduğuna görə Yeni Zelandiyada endemik bitki və heyvan növləri vardır. Onlara planetimizin başqa yerlərində rast gəlinmir. Adada yırtıcı heyvanlar olmadığına görə çox kiçik kivi və kakapo quşları uçmaq qabiliyyətini itirmişdir. Yerli heyvanlarından məməlilər qrupuna iki uçan siçovul növü aiddir. Ölkənin 1/4 hissəsini tutan meşələrdə dünyada ən hündür ağac növlərindən olan kauri şamı bitir. Ölkənin ərazisinin təqribən yarısı əkinçilik və maldarlıq üçün yararlıdır. Yeni Zelandiya dünyaya kərə yağı ixrac edən əsas ölkədir, yun, yağ, pendir, ət məhsulları da ixrac edir. Ölkədə taxıl bitkiləri, tərəvəz, üzüm, meyvə və mayaotu becərilir. Son 40 ildə kənd təsərrüfatı texnika ilə təmin edilmiş və müasir səviyyədə qurulmuş, dünyanın ən məhsuldar təsərrüfatlarından birinə çevrilmişdir. Ölkədə 38 mln. baş qoyun, 9,6 mln. baş mal-qara, 13 mln. toyuq saxlanılır. Kənd təsərrüfatı ölkənin təsərrüfatında əsas yeri tutduğuna görə yüngül və yeyinti sənayesi məhsulları istehsalı, o cümlədən yun və dəri emalı üstünlük təşkil edir. Sənayedə mineral xammalların hasilatı, emalı, müxtəlif maşın və avadanlıqların istehsalı sahələri vardır. Gətirmə xammalların baha başa gəlməsi ağır sənayenin



inkişafına mane olur. Ona görə ölkə yerli xammal olan dəmirli qumlardan yüksək keyfiyyətli polad əridir, titan-maqnetitli qara qumların istismarı davam edir, əridilən poladın bir hissəsi ixrac olunur. Meşə və ağac emalı, kağız-sellüloz istehsalı da sənayenin əsas sahələrindən biridir və ixrac olunan məhsullar arasında xüsusi yer tutur. Xammal kimi süni əkilən meşə sahələrindən istifadə olunur. Cənub adasının dağ çaylarında ucuz elektrik enerjisi alınır. Onun 80%-i SES-lər və geotermal enerjinin payına düşür. Yeni Zelandiyada əmək qabiliyyətli əhalinin 3/4 hissəsi xidmət sahələrində - bank işi, sığorta və turizm sənayesində çalışır. Hər il ölkəyə 3,2 milyon nəfərdən çox turist gəlir. Onları bura maorilərin mədəniyyəti ilə tanış olmaq, gözəl və füsunkar təbiəti seyr etmək, əlverişli iqlim və əhalinin qonaqpərvərliyi cəlb edir.

Mikroneziya
Mikroneziya Federativ Ştatları

Sahəsi: 701 km²
Əhalisi: 125 min nəfər (2009)
Əhalinin sıxlığı: 178 nəfər/km²
Paytaxtı: Palikir (7 min nəfər)
Rəsmi dillər: ingilis, ponape, tunqaru
Dini etiqad: katolik (50%), protestantlıq (45%)
Pul vahidi: ABŞ dolları
Dövlət quruluşu: respublika

Mikroneziya Federativ Ştatları Sakit okeanda olan Karolin arxipelaqındakı 607 adada yerləşir. Bu ölkənin xalqları müxtəlif mədəniyyətə və dillərə malikdir.

Federativ dövlətin tərkibinə dörd ştat (Yap, Ponpei, Truk və Kosrae) daxildir. Ölkə keçmiş metropoliyası ABŞ-la sıx ticarət əlaqələri saxlayır. Ştatların adı yerləşdikləri ən böyük adalara uyğun gəlir. Geoloji quruluşuna görə mərcan mənşəli adalar alçaq, vulkan mənşəli adalar nisbətən yüksəkdir. Mikroneziya ekvatorial formasında yağıntılara malik rütubətli tropik iqlimə malikdir. Adalar Sakit okean akvatoriyasında 1,6 mln. km² sahədə yayılsa da, quru sahəsi cəmi 700 km²-dir.

Mikroneziyada asfalt örtüyü çəkilmiş yolun uzunluğu cəmi 42 km-dir. Kiçik yaşayış məntəqələrinin bir çoxunda elektrik enerjisi və su xətləri yoxdur. Adada əsasən natural təsərrüfat qaydaları üstünlük təşkil edir. Sakinlər kokos, banan, taro, yams, batat, maniok, tərəvəz becərir, ev quşları və donuz saxlayır. Son dövrlərdə balıqçılığın rolu artır. Ölkə gəlirlərinin çox hissəsini ABŞ-dan ayrılan təmənnasız kömək təşkil edir.

Yap adasının sakinləri qədim mədəniyyətini, o cümlədən, qəbilə başçılarını, rəqslərini, daş bünövrələrdə, palma ağacı yarpaqlarından yaşayış yerlərini saxlamışlar. Mikroneziyalılar yerli dinə inansa da, formal olaraq əhalinin çox hissəsi xristian dininə etiqad edir.

Marşall Adaları Respublikası

Sahəsi: 181 km²
Əhalisi: 62 min nəfər (2007)
Əhalinin sıxlığı: 342,5 nəfər/ km²
Paytaxtı: Macuro (20,0 min nəfər)
Rəsmi dillər: ingilis
Dini etiqad: protestantlıq (90%), katolisizm (9%)
Pul vahidi: ABŞ dolları
Dövlət quruluşu: respublika

Marşall adaları 1986-cı ilə qədər ABŞ-ın qəyyumluğu altında olmuşdur. Respublikanın ərazisinə 34 mərcan adası, 1150 digər adalar daxildir. Onlardan yalnız 20-də yaşayış vardır.



Marşall arxipelağındakı adalar iki sırada, 1300 km məsafədə paralel yerləşmiş mərcan adalarından, atoll və riflərdən ibarətdir. Şərqdəki adalar Ratak – "gündoğan", qərbdəki adalar isə Ralik – "günbatan" adlanır. Bu iki adalar həlqəsini 200 km-lik su akvatoriyası ayırır. Kvacaleyn atollu dünyada ən böyük (16 km²) mərcan mənşəli quru sahələrindən biridir, 1700 km² laqun əmələ gətirir. Adaları ispan dəniz səyyahı Alonso Salasar 1526-cı ildə kəşf etmişdir. 1788-ci ildə ingilislər T.Hilbert və C.Marşall adada tədqiqatlar aparmış, sonralar Marşallın şərəfinə adlandırılmışdır. XX əsrin ortalarında Bikini də daxil olmaqla bəzi adalarda nüvə sınaqları keçirilmişdir. Ona görə ərazi radioaktiv çirklənməyə məruz qalmışdır. Kvacaleyn atollunda ABŞ-ın hərbi bazası yerləşir, ölkəyə icarə haqqı ödəyir. Ölkənin təsərrüfatının əsasını fosforit hasilatı təşkil edir. Paytaxt Macuro eyni adlı atollda yerləşir. Burada ölkə əhalisinin 40%-i yaşayır. Sakinlərin hər 10 nəfərindən biri turizmdə çalışır. Kvacaleyn və Macurodan kənarda yaşayan əhalinin əsas hissəsi natural təsərrüfatlarda kokos, taro, çörək ağacı becərir və balıq ovu ilə məşğul olur. Maşın və avadanlıqlar, ərzaq, yanacaq, içkilər, tütün məmulatları idxal edilir.

Marşall Respublikasında adalardan biri

Nauru Respublikası

Sahəsi: 21 km²
Əhalisi: 13,0 min nəfər (2006)
Əhalinin sıxlığı: 485,7 nəfər/ km²
İnzibati mərkəzi: Yaren (4,9 min nəfər)
Rəsmi dillər: ingilis, nauru, kiribati
Dini etiqad: protestantlıq (58%), katolisizm (24%)
Pul vahidi: Avstraliya dolları
Dövlət quruluşu: respublika

Mikroneziyada yerləşən Naurunun təsərrüfatının əsasını fosforit hasilatı təşkil edir. Ölkənin rəsmi paytaxtı yoxdur.



Nauru adasının çox hissəsi sualtı vulkanın zirvəsində yaranan atolldan ibarət platodur. Burada fosforit hasilatı yerli əhalinin yeganə məşğuliyyət sahəsidir. Bu mineralın 100 ildən çox müddətdə çıxarılması adanın landşaftına ciddi ziyan vurmuşdur. Onun ehtiyatı sürətlə azalır, artıq tükənmək üzrədir. Adada təbii limanlar yoxdur, gəmilər kənarda boşaldılır. Ölkəyə içməli su, yanacaq və ərzaq idxal olunur. Naurunun qarışıq əhalisi naurululardan (58%) ibarətdir. Əhalinin 26%-i digər Okeaniya adalarından gəlmişdir, çinli və avropalıların hər biri 8% təşkil edirlər.

Kiribati Respublikası

Sahəsi: 811 km² və Banaba adası
Əhalisi: 108 min nəfər (2006)
Əhalinin sıxlığı: 137,4 nəfər/ km²
Paytaxtı: Bairiki (Tarava) (28 min nəfər)
Rəsmi dillər: ingilis, kiribati
Dini etiqad: katolisizm (53%), protestantlıq (41%), yerli dini etiqadlar
Pul vahidi: Avstraliya dolları
Dövlət quruluşu: respublika

Kiribati Respublikası 33 ada və atolldan ibarətdir. Okeaniyada bu adalar 5 mln. km² ərazidə yayılmışdır.



Kiribatinin tərkibinə Mikroneziyaya daxil olan Hilbert, Polineziyada olan Layn (Mərkəzi Polineziya Sporadları), Feniks adaları və Banaba adası daxildir. Respublikanın ovalıqlardan ibarət əksər adaları okean səviyyəsindən cəmi bir neçə metr yuxarı qalxır. Qlobal istiləşmə nəticəsində okeanın səviyyəsinin qalxması Kiribati və Okeaniyanın digər ölkələrində səthi ovalıq olan adaların su altında qalması təhlükəsini yaradır. Milad günü ən böyük ada olsa da, ən çox əhali ölkənin paytaxtının da yerləşdiyi Tarava atolludur. 1979-cu ilə qədər ölkə Böyük Britaniya müstəmləkəsi olmuşdur. Çox hissəsi xristian olan Kiribati sakinləri özlərini hilbertli sayır. Ölkənin ağır həyat tərzi keçirən kasıb əhalisi əkinçilik və balıqçılıqla məşğul olur. Adaların çox hissəsi əkinçiliyə az yararlı olsa da, burada tropik bitkilər olan banan, kokos palması, taro, papayya, çörək ağacı becərilir. Kopra ixracından az miqdar gəlir əldə olunur. Adalarda ekvatorial iqlim hakimdir, orta illik temperatur 27°C-dir. Şimalda yerləşən adalarda ildə 3000 mm yağıntı düşür, cənubda iqlim nisbətən qurudur. Buna baxmayaraq ölkə quraqlıqdan əziyyət çəkir. 1999-cu ildə hətta fövqəladə vəziyyət elan edilmişdir. 1990-cı ildə Tarava atolundan əhalinin bir hissəsi daha az mənimsənilmiş adalara köçürülmüşdür. Ölkədə palma yağı, mebel, duzlu balıq, kopra, suvenir istehsalı üzrə kustar müəssisələr vardır.

Quam və Şimali Marian adaları
Quam adası

Sahəsi: 549 km²
Əhalisi: 178 min nəfər (2007)
İnzibati mərkəzi: Aqanya(Xaqatna; 1,1 min nəfər)
Rəsmi dillər: ingilis, çamorro
Dini etiqad: katolisizm
Pul vahidi: ABŞ dolları
Dövlət quruluşu: ABŞ-ın mülkü

ABŞ-ın mülkləri olan Quam adası və Şimali Marian adaları 1521-ci ildə F.Magellan tərəfindən kəşf edilmişdir. Quam Marian adalarında ən böyük adadır. Burada ABŞ-ın Sakit okean zonasında ən böyük hərbi bazası yerləşir. XVI əsrdən İspanlara məxsus olan ada 1838-ci ildə ABŞ-a keçmişdir.



Quam adası vulkan fəaliyyəti nəticəsində yaranmışdır və hazırda da bir neçə fəaliyyətdə olan vulkan vardır. Adanın şimalı mərcan əhəng daşlarından ibarət olan düzənlik, cənub hissəsi isə təpəli yüksəklikdir. Yerli fauna növləri, ilk növbədə boz ağac ilanları quşlara ciddi ziyan vurur. Artıq onların 9 növünün nəsli kəsilmişdir. Palma ağacları ilə əhatə olunan Quam çimərlikləri turistləri özünə cəlb edir (ildə 1,5 mln. nəfər). Bu sahə valyuta gəlirlərinin əsas mənbəyidir. Turizm sənayesi və adanın 1/3-ni tutan Amerika bazasında işləyən sakinlərin hesabına burada həyat səviyyəsi regionun digər ölkələri ilə müqayisədə yüksəkdir.

Şimali Marian adaları

Sahəsi: 477 km²
Əhalisi: 87 min nəfər (2009)
İnzibati mərkəzi: Saypan (62 min nəfər)
Rəsmi dillər: ingilis, çamorro
Dini etiqad: katolisizm
Pul vahidi: ABŞ dolları
Dövlət quruluşu: ABŞ-ın mülkü

Şimali Marian adalarına 7 vulkan mənşəli ada, bir neçə mərcan atollu daxildir.

Saypan, Tinian və Rota adalarında turizm inkişaf etmişdir. Tropik iqlim və vulkan mənşəli süxurlar üzərində yaranmış məhsuldar torpaqlar əkinçiliyin inkişaf etdirilməsinə şərait yaradır. Ada sakinləri şəkər qamışı, kokos, manikok və tərəvəz becərirlər. Əhalinin əksər hissəsi Saypan adasında yaşayır.

Palau Respublikası

Sahəsi: 458 km²
Əhalisi: 20,7 min nəfər (2010)
Əhalinin sıxlığı: 45,2 nəfər/ km²
Paytaxtı: Nqerulmud (400 nəfər)
Rəsmi dillər: ingilis, palau
Dini etiqad: katolisizm (45%), protestantlıq (30%), yerli dini etiqadlar
Pul vahidi: ABŞ dolları
Dövlət quruluşu: respublika



Palau Respublikası Karolin adalarına daxildir. Adaların çox hissəsi 100 km-dən çox uzunluğu olan sədd rifinin yaratdığı böyük laqunun daxilində yerləşir.



Palau Respublikası dünyada əhalisinin sayı az olan dörd ölkədən biridir. Ölkəyə aid 200-dən çox adadan yalnız səkkizində əhali məskunlaşmışdır. Əhalinin əksər hissəsi ən böyük ada olan Babeltuapda və son vaxtlara qədər ölkənin paytaxtının (Melekeok) yerləşdiyi Kororda cəmlənir.

Adalarda rütubətli tropik iqlim (yağıntı 800-2000 mm/il) hakimdir. Onları dəmir-beton körpülər birləşdirir. Palau dünyada iqtisadiyyatı zəif potensiala malik ölkələrdən biridir. Lakin əhalinin həyat səviyyəsi regionun digər ölkələri ilə müqayisədə yüksəkdir. Palaunun təmiz sahilboyu suları dünyada suyun altında üzmək üçün ən əlverişli yerlərdəndir. Ona görə turizm ölkə iqtisadiyyatının sürətlə inkişaf edən sahələrindən biridir. Balıq ovuna lisenziya verilməsi ilə ölkə xeyli xarici valyuta əldə edir. İqtisadi yardım göstərdiyinə görə Palau hökuməti öz ərazisində ABŞ-ın hərbi bazalarının yerləşməsinə icazə vermişdir. Kənd təsərrüfatında kokos palması, batat, kakao, maniok, tropik meyvələr və tərəvəz becərilir, sənayedə kopra və suvenirlər istehsal olunur.

Palau adalarında tam təcrid olunmuş halda inkişaf edən, özünəməxsus ekosistemə malik olan çoxlu sayda laqunlar və göllər vardır. Bu, hər bir su hövzəsində nadir bitki və heyvan növünün yaranmasına səbəb olmuşdur. Rok Aylends adaları sıx tropik bitkilərlə örtülür.

Melaneziya
Papua - Yeni Qvineya Müstəqil dövləti

Sahəsi: 462 840 km²
Əhalisi: 6,8 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 14,7 nəfər/km²
Paytaxtı: Port-Morsbi (325 min nəfər)
Rəsmi dillər: ingilis, tok-pisin
Dini etiqad: yerli dinlər (10%), katolisizm (30%), protestantlıq (60%)
Pul vahidi: kina
Dövlət quruluşu: Böyük Britaniya Şahzadəsinin başçı olduğu dövlət. Birlik üzvü

Zəngin təbii ehtiyatlara malik olan Papua - Yeni Qvineya Sakit okeanın böyük və 300-dən çox kiçik adalarında yerləşmişdir. Ölkənin əhalisi 700-dən çox dildə danışır.

Papua - Yeni Qvineya Müstəqil Dövləti Qvineya adasının şərq hissəsini (Qərbi

İndoneziyaya aiddir), Bismark arxipelağını, Solomon adalarının şimal hissələrini və bir sıra kiçik adaları (300-dən çox) əhatə edir. Dağlıq relyefə malik olan bu adalar vulkan mənşəli olsalar da, onların arasında mərcan adalarına da rast gəlinir. Yeni Qvineya adalarının sahili ovalıq və düzənliklərdir, mərkəzə doğru dağlarla əvəz olunur. Burada olan Vilhelm dağı (4509 m) Okeaniyada ən hündür zirvədir. Landşaftın rəngarəngliyi ölkədə müxtəlif bitki və heyvan növlərinin olmasına şərait yaradır. Planetimizdə olan bütün canlı növlərinin 5%-i adada vardır. Ölkə ornitofaunanın zənginliyinə görə dünyada fərqlənir. Dekabr-mart ayları burada çox yağıntılı olur. Dağlıq ərazilərdə hər vadidə iqlim müxtəlifliyi özünü göstərir. İl boyu temperatur 25°C-dən 28°C-yə qədər olur, düzənliklərdə 1000-4000 mm, dağlarda 6500 mm yağıntı düşür. Papua - Yeni Qvineyanın ərazisinin 80%-ni tropik meşələr tutur, lakin onların sahəsi intensiv olaraq azalır. Meşə sahələrinin 1/3 hissəsi meşə sənayesi müəssisələrinə verilmişdir. Meşə sənayesi təsər-rüfatın əsas sahələrindən biridir. Lakin ölkədə əsas rolu hasilat sənayesi oynayır. Burada mine-ral-xammal ehtiyatları – qızıl, gümüş, mis, nikel, kobalt, həmçinin neft və təbii qaz hasil olunur. İnfrastrukturun zəif inkişafı onlardan tam isti-fadə edilməsinə imkan vermir. Əhalinin 70%-i daxili istehlaka xidmət edən əkinçiliklə məşğul olur. Əkin üçün yararlı torpaqlar ölkə ərazisinin cəmi 2%-ni təşkil edir. Qəhvə, şəkər qamışı, kokos palması, çay, batat və bəzi digər ixrac məhsulları becərilir. Paytaxt Port-Morsbidə balıq məhsulları, kopra (hind qozu ləpəsi), palma yağı, ağac emalı məhsulları istehsal olunur. Ölkənin coğrafi xüsusiyyətləri ilə əlaqədar müxtəlif tayfalar ayrılmış, birbirindən fərlənən xalqlar yaranmışdır. Nəticədə Papua - Yeni Qvineyada müxtəlif adət-ənənələrə, mədəniyyətə və dilə malik əhali formalaşmışdır. Sahilboyu ərazilərin sakinləri xarici mühitlə əlaqə saxlamayan, yüksək dağlıq ərazilərdə yaşayan, tayfalardan fərqlənir. Papua - Yeni Qvineyada əhalinin əksəriyyəti xristiandır, lakin yerli dinlərə, ilahi qüvvələrə inam insanların düşüncəsinə böyük təsir göstərir.

Solomon adaları

Sahəsi: 28 370 km²
Əhalisi: 567 min nəfər (2007)
Əhalinin sıxlığı: 20,0 nəfər/km²
Paytaxtı: Xoniara (55 min nəfər)
Rəsmi dillər: ingilis, pica, 47 yerli dil
Dini etiqad: protestantlıq (78%), katolisizm (18%), ənənvi dinə inananlar
Pul vahidi: Solomon adaları dolları
Dövlət quruluşu: Böyük Britaniya Şahzadəsinin başçı olduğu dövlət. Birlik üzvü

Solomon adalarına bir neçə yüz mərcan adaları, atollar, 6 iri vulkan mənşəli ada daxildir. Adalar 655 km²-dən çox bir ərazidə səpələnmişdir.

Solomon adaları iki cərgədə şimal-qərbdən cənub-şərqə doğru 1400 km məsafədə uzanır. Adalar dağ silsilələrindən ibarətdir, yalnız sahilboyu hissələri ensiz ovalıqlar tutur. Solomon adalarında 4500 tropik bitki növü vardır. Onların bir çoxu tibbdə, tikintidə, paltar və ərzaq məhsullarının hazırlanmasında istifadə olunur. Əsas əmtəə məhsullarına palma yağı, hind qozu ləpəsi (kopra), kakao aiddir. Batat, yams, çəltik və tropik bitkilər daxili istehlak üçün becərilir. Ölkədə meşə sənayesi sürətlə inkişaf etdirilmiş, nəticədə meşələrin 10%-i qırılmışdır. Adada balıq ovlanması (xüsusilə tunes) inkişaf etdirilir. Əhalinin əsas hissəsi altı böyük adada yaşayır: Malaita, Quadalkanal, Yeni Corciya, San-Kristobal, Santa-İsabel və Şuazel. Ən böyük ada olan Quadalkanalda ölkənin paytaxtı və əsas limanı Xoniara yerləşir. Solomon adalarında əhalinin məskunlaşması b.e.ə. I minillikdən gec olmayaraq başlamışdır. Bura ilk dəfə Bismark arxipelaqı və Yeni Qvineyadan olan papuas tayfaları gəlmişlər. Sonra adalara 100-dən çox dildə danışan, hazırda adaların əhalisinin əsas hissəsini təşkil edən melaneziyalılar, daha sonra polineziyalılar köçmüşdür. Son illər adada tez-tez dini və etnik münaqişələr baş verir.

Solomon adasının sahilləri

Vanuatu Respublikası

Sahəsi: 12 190 km²
Əhalisi: 243 min nəfər (2010)
Əhalinin sıxlığı: 199 nəfər/km²
Paytaxtı: Port-Vila (46 min nəfər)
Rəsmi dillər: bislam, ingilis, fransız
Dini etiqad: protestantlıq (60%), katolilisizm (15%), yerli dinlərə inananlar (8%)
Pul vahidi: vatu
Dövlət quruluşu: respublika

Vanuatu arxipelağına Yeni Hebrid arxipelağı, Melaneziyada Banke və Torres adalarına aid olan 80 ada daxildir. Onlar mənzərəli landşaftı ilə məşhurdur.



Vanuatu dövlətinin yerləşdiyi Yeni Hebrid arxipelaqı 1606-cı ildə ispan dəniz səyyahı Pedro Fernando Kiros tərəfindən kəşf olunmuşdur.

1980-ci ilə qədər ölkə Böyük Britaniya və Fransa tərəfindən birlikdə idarə olunurdu. Rütubətli tropik iqlimə malik olan adalarda illik yağıntıların miqdarı 2500-3000 mm-ə qədərdir, dekabr-mart aylarında tez-tez siklonlar yaranır. Adalarda tez-tez zəlzələlər baş verir, lakin zəif olur. Əmək qabiliyyətli əhalisinin əsas hissəsi istehlak xarakterli əkinçilik və balıqçılıqla məşğul olur, kokos palması, yams, batat, kakao, qəhvə, şəkər qamışı becərir. Lakin ölkənin əsas gəlirləri turizm və ofşor zonalarda fəaliyyət göstərən banklardan əldə olunan vəsaitin hesabına formalaşır. Sənayedə ağac emal edilir, ərzaq və toxuculuq məhsulları istehsal olunur. Vanuatunun gözəl mənzərəsi, dərin dərələri, sıx tropik meşələrlə örtülmüş dağları, şəffaf dəniz suyu, çimərlikləri və mağaralar kompleksi ölkəyə çoxlu turist cəlb edir. Okeaniyada mədəniyyətinə görə çox müxtəlif olması ilə fərqlənən Vanuatu əhalisinin 80%-i Efate, Espiritu-Santo və Ambrim də daxil olmaqla 11 adada yaşayır. Sakinlərin 98%-i nivanautu xalqının nümayəndələridir. Yerli əhali 100-dən çox dildə danışır. Az sayda ingilis, fransız, avstraliyalı, Yeni Zelandiyalı, Cənub-Şərqi Asiyadan köçənlər yaşayır. Milli zəmində münaqişələr az olur.

Fici Respublikası

Sahəsi: 18 272 km²
Əhalisi: 919 min nəfər (2006)
Əhalinin sıxlığı: 50,3 nəfər/ km²
Paytaxtı: Suva (177,3 min nəfər)
Rəsmi dillər: ingilis, hind, fici
Dini etiqad: protestantlıq (37%), hinduizm(38%), islam (18%)
Pul vahidi: fici dolları
Dövlət quruluşu: respublika

Fici Respublikası Yeni Zelandiyadan 2000 km şimalda yerləşir. Ölkə Okeaniyanın ən yüksək inkişaf etmiş ada-dövlətidir. Ölkənin paytaxtı Okeaniyanın ən böyük şəhərlərindən biridir. Fici sakinləri arasında reqbi oyunu (futbol oyununun bir növü) çox məşhurdur. Ölkə 1970-ci ildə müstəqillik əldə etmişdir.

Fici Suveren Demokratik Respublikasının yerləşdiyi 2 böyük, 330 kiçik adadan üçdə birində əhali məskunlaşmışdır. Əhalinin əsas hissəsi sahəcə daha böyük olan Viti-Levu və Vanua-Levu adalarında yaşayır. Onlar və çoxlu sayda digər adalar vulkan mənşəlidir. Adalarda tropik iqlim formalaşır. İl ərzində 1500-4000 mm yağıntı düşür. Əhalinin 70%-dən çoxu əkinçiliklə məşğul olur, banan, kakao, kokos, mais, şəkər qamışı becərirlər. Fici aldığından 1,5 dəfə çox ərzaq məhsulu ixrac edir. Meşə sənayesi və balıqçılıq da iqtisadiyyatda mühüm rol oynayır. Təsərrüfatın aparıcı sahəsi dövlətin nəzarətində olan şəkər sənayesidir. Şəkər ixracı xarici valyuta gəlirinin yarısından çoxunu verir. 2000-ci il hadisələrinə qədər ən çox gəliri turizm sənayesi gətirirdi. Ficidə neft və təbii qaz ehtiyatları yoxdur. Viti-Levuda qurulan SES-lər enerjinin 3/4 hissəsini verir. Burada, həmçinin şəxsi mülkiyyətə aid ən böyük Vatakoula qızıl hasilatı müəssisəsi yerləşir. Burada 1600 nəfər işləyir. Ficini bəzən "Okeaniyanın dörd yol ayrıcı" adlandırırlar. Adalara tarix boyu olan miqrasiya axını əfsanəvi lapita xalqına gedib çıxır. Hesab edilir ki, onlar Ficiyə 3500 il əvvəl gəlmişlər. Hazırda adalarda

az sayda avropalılar və çinlilərdən başqa, iki iri qrup üstünlük təşkil edir. Onlara ficilər və ingilislərin müstəmləkəçiliyi dövründə (1874-1970) bu ərazıyə plantasiyalarda işləmək üçün gətirilən hindlilər aiddir. İki etnik qrup arasında ziddiyyətlər siyasi qeyri-sabitlik fonunda 1987-ci ildən 2006-cı ilə qədər dəfələrlə zorakılığın yaranmasına səbəb olmuşdur.

Yeni Kaledoniya

Sahəsi: 18 576 km²
Əhalisi: 222,0 min. nəfər (2007)
İnzibati mərkəzi: Numea (85 min nəfər)
Rəsmi dil: fransız
Dini etiqad: katolisizm (60%), protestantlıq (30%)
Pul vahidi: frank
Dövlət quruluşu: daxili özünüidarə hüququ olan Fransanın xarici mülkü

Fransanın xarici ərazisi olan Yeni Kaledoniya 80 kiçik və əhalinin 90%-nin yaşadığı bir böyük vulkan mənşəli adadan ibarətdir.

Melaneziyalı kanaklardan ibarət əhali əkinçilik və balıqçılıqla məşğul olur, turizm sahəsində çalışırlar. Lakin ölkənin təsərrüfatının əsasını dəmir-nikel filizlərinin hasilatı təşil edir. Bu sahə ixrac gəlirlərinin 85%-ni verir. Yeni Kaledoniya 1774-cü ildə ingilis səyyahı C.Kuk tərəfindən kəşf edilmişdir. 1853-cü ildə fransızlar onu öz mülkü elan etmişlər. Əhalinin 43%-dən çoxunu yerli xalqlar olan kanaklar, nisbətən az hissəsini Cənub-Şərqi Asiyadan gələnlər, 37%-ə qədərini fransız müstəmləkəçilərinin nəsilləri olan kaldoşlar təşkil edir. Yerli əhali və koldoşlar arasında uzun illərdir ki, münaqişə davam edir.

Polineziya
Tuvalu

Sahəsi: 26 km²
Əhalisi: 12 min nəfər
Əhalinin sıxlığı: 461,5 nəfər/ km²
Paytaxtı: Funafuti (Fonqafale; 5,4 min nəfər)
Rəsmi dillər: ingilis, tuvalu
Dini etiqad: protestantlıq
Pul vahidi: Tuvalu dolları
Dövlət quruluşu: Böyük Britaniya şahzadəsinin başçılıq etdiyi dövlət. Birlik üzvü

Tuvalu Polineziyada 9 mərcan atollundan ibarətdir. Bu cavan dövlət 2000-ci ildə BMT-yə üzv qəbul edilmişdir.

Dünyanın ən kiçik və təcrid olunmuş ölkələrindən biri olan **Tuvalu** 1978-ci ilədək Böyük Britaniya müstəmləkəsi olan Ellis və Hilbert adalarının bir hissəsi olmuşdur. Ölkənin

əhalisi natural kənd təsərrüfatı ilə məşğul olur. Adaların ovalıqda yerləşən şoran torpaqlarında yalnız kokos palması bitir. Əhalinin əsas məşğulliyyəti kokos toplanması, toyuq, ördək və donuz saxlamaqdır. Kopra ixrac edilən əsas məhsuldur. Ölkəyə ərzaq gətirilir. Hesablamalara görə 2050-ci ilə qədər adalar okean səviyyəsinin qalxması ilə əlaqədar sular altında qalacaqdır. Ona görə sakinlərin Yeni Zelandiya və ya Fici adalarına köçürülməsi üzrə layihələr hazırlanır. İş yerləri az olduğuna görə ölkə əhalisinin xeyli hissəsi xaricdə işləyir. Balıq ehtiyatları onun əsas təbii sərvətidir. Onun ovlanması üçün lisenziyalar xarici şirkətlərə satılır (ABŞ, Koreya Respublikası və s.). Beynəlxalq yardım və poçt markalarının satılması mühüm rol oynayır, qayıq istehsal olunur. Ölkənin internetdə identifikasiya kodu və veb-saytından Kanadanın mətbuat şirkətlərinə istifadə hüququ verməsi dövlət xəzinəsinə milyonlarla dollar gəlir gətirir.

Samoa Müstəqil Dövləti

Sahəsi: 2831 km²
Əhalisi: 214,0 min nəfər (2006)
Əhalinin sıxlığı: 75,6 nəfər/ km²
Paytaxtı: Apia (36 min nəfər)
Rəsmi dillər: samoa, ingilis
Dini etiqad: protestantlıq, katolisizm
Pul vahidi: tala
Dövlət quruluşu: respublika

Samoa Okeaniyanın qədim ənənələr ən çox qorunan ölkəsidir. O, Polineziyada ilk dəfə olaraq, 1961-ci ildə öz müstəqilliyini qazanmışdır. 1997-ci ilə qədər Qərbi Samoa adlanmışdır.

Samoa Respublikası Savayi və Upolu kimi iki böyük adadan, iki nisbətən kiçik və beş əhali yaşamayan adadan ibarətdir. Mərcan polipləri ilə əhatə olunan böyük adalar vulkan mənşəli

sualtı silsilələrin suyun səthinə çıxan zirvələridir. Onlar sıx tropik meşələrlə örtülür, kiçik, lakin sürətlə axan çaylar vardır. Sahil boyu ensiz ovalıq zolağı ilə əhatə olunur. Ölkədə tropik iqlim hakimdir, orta illik temperatur 27°C, yağıntıların illik miqdarı 2500 mm-dən 7000 mm-ə qədərdir. Samoa aqrar ölkədir, əhalinin 66%-i kənd yerlərində yaşayır. Kənd təsərrüfatında kokos, kakao ləpəsi, qəhvə becərilir, iri buynuzlu malqara, donuz saxlanılır. Əkinçiliklə başlıca olaraq kiçik təsərrüfatlarda məşğul olurlar. Lakin ixraca gedən, bərk oduncaqlı, kokos palması, banan yetişdirilən iri təsərrüfatlar da vardır. Balıq ovu irigövdəli qayıqlar olan katamaranlarda aparılır. Bu sahə ada sakinlərinin ənənəvi peşələrindən biridir. Samoalılar adətən icmalarda yaşayır. Onlar satılması mümkün olmayan ərazinin 80%-də yaşayır. Hər bir icmanın real hakimiyyətə malik olan başçıları vardır. Meşələrin qırılması və torpaqların eroziyası ciddi problemlərdir. Meşələrin yarısı qırılmış, yerli faunanın bir çox növlərinin yaşayış yeri məhv olmuşdur. Hökumət meşələrin nəzarətsiz qırılmasını məhdudlaşdıran və ölkənin müəyyən

Apia şəhərinin mərkəzi

rayonlarını nəzarətə götürən qanunlar qəbul etmişdir. Ölkədə enerji tələbatının 35%-i istehsal olunur. Ona görə başqa məhsullarla yanaşı, enerji daşıyıcıları da idxal olunur. Turizm sənayesinin inkişaf etməsinə baxmayaraq ölkənin böyük xarici borcu vardır, işsizlik yüksək səviyyədədir. Minlərlə samoalı yaxşı yaşamaq üçün ABŞ, Yeni Zelandiya və Şərqi Samoaya gedir. Sənayedə kənd təsərrüfatı məhsullarının emalı, ərzaq, paltar, ayaqqabı, suvenir, tütün məmulatı istehsalı üzrə kiçik müəssisələr vardır.

Tonqa Krallığı

Sahəsi: 748 km²
Əhalisi: 117 min nəfər (2006)
Əhalinin sıxlığı: 156,4 nəfər/ km²
Paytaxtı: Nukualofa (34 min nəfər)
Rəsmi dillər: tonqa, ingilis
Dini etiqad: metodizm (43%), katolisizm (15%)
Pul vahidi: panqa
Dövlət quruluşu: monarxiya

Ficidən 600 km şərqdə yerləşən Tonqa Krallığının tərkibinə 3 qrup böyük, 172 kiçik ada daxildir. Onlardan yalnız 40-da əhali yaşayır. Tonqa Okeaniyada olan yeganə monarxiya quruluşlu dövlətdir.

Tonqada adalar iki sırada yerləşir. Vulkan mənşəli dağlıq relyefə malik olan adalar, o cümlədən Tonqatapu, Xaapay və Vavau adaları dərinliyinə görə Marian çökəkliyindən sonra ikinci yeri tutan Tonqa novundan (10882 m) qərbdədir. Qərbdə ovalıqlardan ibarət mərcan adaları və atollar vardır. Sıx tropik meşələrlə örtülmüş bu adalarda fəaliyyətdə olan vulkanlar yüksəlir. Tonqada yay və qış temperaturları arasındakı fərq Sakit okeanın əksər adalarına nisbətən böyükdür. Adalar Sakit okeanda olan siklonların cənub qurşağında yerləşir, tez-tez

tropik qasırğalar və tufanlar təsir göstərir. Orta aylıq temperatur 20°C-dən 27°C-yə qədərdir. İl ərzində 2000 mm-ə qədər yağıntı düşür. Ən böyük ada olan Tonqatapuda əhalinin 2/3 hissəsi yaşayır, onların 30%-i əkinçiliklə məşğul olur. Becərilən banan, sarıkök, maniok və batat daxili tələbatda istifadə edilir. Balıqçılıq və turizm sahələrinin rolu böyükdür. Sənətkarlıq və tikiş məhsulları istehsal olunur. Elektrik enerjisi istehsal üçün yanacaq idxal edilir.

Nukualofa şəhəri

Uollis və Futuna

Sahəsi: 274 km²
Əhalisi: 16 min nəfər (2006)
İnzibati mərkəzi: Mata-Utu (1300 nəfər)
Rəsmi dillər: fransız, futuna
Dini etiqad: katolisizm
Pul vahidi: Sakit okean frankı
Dövlət quruluşu: Fransanın mülkü

Fransanın xarici ərazisi olan vulkan mənşəli Uollis və Futuna Sakit okean regionunda ən geri qalmış ərazilərdən biridir.

Uollis arxipelaqı 20 kiçik adadan ibarətdir, sıldırım qayalar və su ilə dolmuş vulkan kraterləri səciyyəvidir. Futuna adasının mərkəzi hissəsi 500 metrə qədər qalxır. Adalar üçün tropik iqlim səciyyəvidir. Uollis arxipelaqı 1767-ci ildə onu kəşf etmiş ingilis səyyahı Semyuel Uollisin şərəfinə adlandırılmışdır. Səyyah adaları Böyük Britaniyanın mülkü elan etmişdir. 1842-ci ildə hər iki arxipelaq Fransanın mülkiyyətinə keçmişdir. Əmək qabiliyyətli əhalinin 80%-i natural təsərrüfatla məşğul olur, kokos, çörək ağacı, manqo və tərəvəz becərir, həmçinin toyuq və donuz saxlayır, balıqçılıqla da məşğul olurlar. Yerli hakimiyyət Fransadan kömək alır. Ətrafda olan sularda balıq ovlamaq üçün Yaponiya və Koreya Respublikası şirkətlərinə xüsusi lisenziyalar satılır. Ətraf sularda sualtı turizmi inkişaf etdirmək nəzərdə tutulur.

Şərqi Samoa

Sahəsi: 199 km²
Əhalisi: 65 min nəfər (2009)
İnzibati mərkəzi: Paqo-Paqo (5000 nəfər)
Rəsmi dillər: ingilis, samoa
Dini etiqad: protestantlıq (80%), katolisizm (20%)
Pul vahidi: ABŞ dolları
Dövlət quruluşu: ABŞ-ın mülkü

ABŞ-ın mülkü olan Şərqi Samoa iki mərcan atolunda və altı vulkan mənşəli adada yerləşir. Onlardan ən böyüyü Tutuila adasıdır.



Okeaniyanın digər ölkələrinə nisbətən Şərqi Samoaya az turist gəlir. Təsərrüfatda balıqçılıq xüsusi əhəmiyyət kəsb edir. ABŞ-da istehlak edilən dondurulmuş və konserv olunmuş tunes balığının 1/4-i ərazinin əsas şəhəri olan Paqo-Paqoda yerləşən müəssisədən gəlir. Paqo-Paqo buxtası Sakit okeanın ən gözəl və dərin buxtalarından biridir. Buxta milyon illər əvvəl vulkan kraterinin dəniz suyu ilə dolması nəticəsində yaranmışdır. Tutuila adasında əhalinin əsas hissəsi cəmlənir. Şərqi Samoa sakinləri hələ də iri ailə icmalarında yaşayaraq, keçmişin adətlərini qoruyub saxlayırlar. Lakin gənclər ənənəvi həyat tərzindən imtina edərək qərb dəyərlərinə üstünlük verir. Şərqi Samoa kəskin parçalanmış relyefə malik olan vulkan mənşəli adalardır. Adaların səthi mərkəzdəki

yüksək rayonlardan sahillərə doğru alçalır, dik qayalar və buxtalar bir-birini əvəz edir. Adaların daxili rayonlarını örtən sıx tropik meşələr çoxlu sayda quş növlərinin, həmçinin kərtənkələ, uçan tülkü, ilan, siçovulun yaşamasına imkan verir. Burada rütubətli tropik iqlim hakimdir, illik yağıntının miqdarı 5000 mm-dən çox olur və əsasən leysan yağışları formasında düşür. Dekabrdan martadək güclü qasırğalar olur.

Niue

Sahəsi: 259 km²
Əhalisi: 2100 nəfər (2006)
İnzibati mərkəzi: Alofi (600 nəfər)
Rəsmi dillər: ingilis, niue
Din: protestantlıq
Pul vahidi: Yeni Zelandiya dolları
Dövlət quruluşu: Yeni Zelandiyanın mülkü

Dünyanın ən böyük mərcan adası olan Niue Yeni Zelandiyanın mülküdür. O, metropoliyadan təxminən 2500 km aralı yerləşir.

Niue Sakit okeanın cənubunda, Polineziyada ellipis (oval) formasında adadır. Adanı 1774-cü ildə C.Kuk kəşf etmiş, ilk ingilislər bura 1830-cu ildə gəlmişdir. Niueyin daxilində okean səviyyəsindən 60 m-dək qalxan plato okeana tərəf sıldırım şəklində enir. Əhalinin çox hissəsi sıx palma və banan ağaclarından ibarət meşələrin yayıldığı sahilboyu məhsuldar torpaqlarda məskunlaşır. Burada torpaqlar yüksək keyfiyyətli olmasa da, ərazinin 1/4 hissəsi əkinçilik üçün yararlıdır. Adada banan və kokos becərilir, lakin səth axını - çaylar yoxdur. İl ərzində 2000 mm yağıntı düşür. Sular torpaqdan və məsaməli əhəngdaşı süxurlarından hoparaq okeana axır. Ada sakinləri yağış suyunu saxlayır və istifadə edirlər. Hər il Niueyə gələn 4,0 min nəfər turistlərə xidmət onun gəlirinin əsas hissəsini təşkil edir. Yeni Zelandiyanın maliyyə yardımı ilə adada infrastruktur sahələr inkişaf etdirilir, televiziya kanalları və telefon şəbəkəsi açılmışdır. Lakin xeyli sayda ada sakini işləmək üçün Yeni Zelandiyaya getmiş, nəticədə son 40 ildə əhalinin sayı 2,0 dəfə azalmışdır. Bu ölkə miqrasiyanın qarşısını almaq üçün adaya investisiya qoyur, iş yerləri yaradır. Niue xalqı Samoa və Tonqa sakinlərinin bura gəlməsi nəticəsində formalaşmış, uzun illər öz dilləri yaranmışdır. Bütün Niue əhalisi Yeni Zelandiyanın vətəndaşlarıdır.

Kuk adaları

Sahəsi: 237 km²
Əhalisi: 19,6 min nəfər
İnzibati mərkəzi: Avarua (14,2 min nəfər)
Rəsmi dillər: ingilis, maori
Dini etiqad: katolisizm
Pul vahidi: Yeni Zenlandiya dolları
Dövlət quruluşu: Yeni Zelandiyanın mülkü

Kuk adaları iki qrup vulkan və mərcan mənşəli adalardan ibarətdir. Onlar Sakit okeanda 2,2 mln. km² əraziyə səpələnir. Adalar 1770-ci ildə C.Kuk tərəfindən kəşf edilmişdir.

Kuk adaları 6 mərcan mənşəli atolldan və 9 vulkan mənşəli adalardan təşkil olunur. Əhali ən böyük ada olan Rarotonqada yaşayır.

Avarua şəhəri də burada yerləşir. Sakinləri Yeni Zelandiyada yaşayan maori xalqı ilə etnik cəhətdən əlaqəlidir. Ona görə maori dili ingilis dili ilə bərabər işlədilir.

Əhali balıq ovlayır, ananas və başqa tropik meyvələr becərir. Lakin ən çox gəliri turizm və ofşor banklar gətirir. Onlar vergi vermir, illik üzvlük haqqı ödəyir. Süni mirvari yetişdirilir. Adalar Yeni Zelandiya ilə sıx əlaqəlidir, onun əsas ticarət müttəfiqidir.

Fransa Polineziyası

Sahəsi: 4,2 min km² (quru sahəsi 3,4 min km²)
Əhalisi: 279 min nəfər (2006)
İnzibati mərkəzi: Papeete (132 min nəfər)
Rəsmi dillər: fransız, taiti
Dini etiqad: katolisizm
Pul vahidi: Sakit okean frankı
Dövlət quruluşu: Fransa mülkü

Okeaniyanın şərq kənarlarında yerləşən Fransa Polineziyasının tərkibinə daxil olan beş arxipelaqda 120 ada vardır.

Fransa Polineziyasına Markiz, Cəmiyyət, Qambye, Tubuai və Tuamotu adaları aiddir. Bütün böyük adalar vulkan mənşəlidir. Onlar floranın müxtəlifliyi ilə fərqlənir. Ada sakinlərinin



sevimli bəzək bitlisi olan tiare böyük çiçəklər açır. Böyük adalarda əhalinin əsas məşğuliyyəti turistlərə xidmət etməkdir. Ayrı-ayrı adalarında əhali əkinçilik və heyvandarlıqla məşğul olur. Əhalinin 75%-i Cəmiyyət adalarının tərkibinə daxil olan Taiti adasında yaşayır, inzibati mərkəz olan Papeete şəhəri də adada yerləşir. Fransa Polineziyası süni mirvari istehsalında dünya lideridir. Fransa hərbi bazaları adalarda xeyli iş yeri yaradır və çoxlu gəlir gətirir. 1990-cı ildə Mururua atolunda nüvə silahını sınaqdan keçirilməsi ciddi etirazlara səbəb olmuşdur.

Fransa Polineziyasının şimal və cənub adaları arasındakı məsafə 2 min km-dən çoxdur. Bu əraziləri dünyanın cənnət guşəsi adlandırırlar. 2001-ci ildə adalarda 200 min nəfər turist olmuşdur. Mərcan polipləri ilə əhatələnən Bora-Borada inzibatı ərazinin ən dəbdəbəli və bahalı mehmanxanaları yerləşir. Bura varlı turistlərin sevimli istirahət yeridir.

AFRİKA

Şimali Afrika

Şərqi Afrika

Qərbi Afrika

Mərkəzi Afrika

Cənubi Afrika

AFRİKA
Şimali Afrika

Misir Ərəb Respublikası

Sahəsi: 1 001450 km²
Əhalisi: 80,4 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 80,3 nəfər/km²
Paytaxtı: Qahirə (12,2 mln. nəfər)
Əsas dil: ərəb
Dini etiqad: islam (sünnilər 94%), xristian (6%)
Pul vahidi: misir funtu
Dövlət quruluşu: respublika

Ən qədim sivilizasiyanın vətəni olan Misir indiyə kimi səyyahları cəlb edir və heyran qoyur.

MƏR Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında (ərazisinin 6%-ə qədəri) yerləşir. Şimalda və şərqdə dəniz suları ilə əhatə olunur. Ərazisinin 90%-ni quraq səhralar tutur. Nil çayı onun ərazisini iki hissəyə ayırır. Qərbdə olan Liviya səhrasında alçaq qumlu və daşlı yaylalar növbələşir. Çaylar olmayan yerlərdə vaxtaşırı düşən yağıntılar alçaq yerlərə axır və müvəqqəti şorsulu göllər əmələ gəlir. Nil çayının sağ sahilindən Qırmızı dənizə qədər az sahədə yayılan Ərəbistan səhrası dağlıq relyefə malikdir. Sinay yarımadası materikdən Qırmızı dənizə aid olan Süveyş körfəzi və Süveyş kanalı ilə ayrılır. Yarımadanın şimalını səhralar tutur, cənubda olan dağlarda Misirin ən yüksək zirvəsi olan Katerin (2637 m) dağı yüksəlir. Misirdə iqlim qurudur. Aralıq dənizi sahillərindəki ən rütubətli rayonlarda yağıntıların illik miqdarı 200 mm-ə qədərdir. Əksər yerlərdə 50-100 mm-dən az yağıntı düşür, cənubda bəzi yerlərdə 3 mm olur. Yayda sutkalıq temperatur amplitudu çox böyük olur. Gündüzlər havanın temperaturu +50°C-yə çatır, gecələr isə hətta 0°C-dən aşağı düşür. Yanvarın orta temperaturu 16°C, iyulda 29°C-dir. Aprel-mayda Böyük Səhradan 50 gündən artıq əsən isti quru külək ***xəmsin*** adlanır.

Nil çayı

Nil uzunluğuna görə (6671 km) dünyada birinci çaydır. Başlanğıcını Ekvatorial Afrikadan götürür, Misiri cənubdan şimala kəsib keçir. Qahirədən şimalda çayın məcrası iki qola ayrılır, geniş məhsuldar delta əmələ gətirir. Qədim dövrlərdən Nil misirlilər üçün su mənbəyi və əsas nəqliyyat arteriyası olmuşdur. Çayın gətirdiyi lillər torpaqları münbitləşdirir. Hazırda da ölkə əhalisinin əsas hissəsi onun ərazisinin 4%-ni tutan Nil çayının vadisi və deltasında cəmlənir. Misirlilərin ¼-i kənd təsərrüfatında çalışır. Nilin sahilləri dünyanın ən məhsuldar torpaq sahələrindən biridir. Ölkənin əsas kənd təsərrüfatı sahələrində pambıq, qarğıdalı, düyü, şəkər qamışı, sitrus meyvələri, həmçinin meyvə-tərəvəz becərilir. 1960-cı illərdə ölkənin cənubunda tikilmiş Nasir su anbarı və Asuan SES çayın su rejimini nizamlamağa və daşqınların qarşısını almağa imkan verir.

Misirdə zəngin neft-qaz ehtiyatı vardır. Afrikada Nigeriya, Liviya, Əlcəzair və Anqoladan sonra neft hasilatında beşinci yeri tutur. Tikinti materialları – qum, daş, çınqıl, gips və əhəng daşı ehtiyatı çoxdur. Dəmir filizi, fosforit və manqan hasil edilir. Əmək qabiliyyətli əhalinin 25%-i sənayedə çalışır, kənd təsərrüfatı məhsulları, mineral xammallar emal olunur. Məşğul əhalinin çox hissəsi toxuculuq və tikiş

sənayesi müəssisələrində çalışır, turistlər üçün dulusçuluq, ətriyyat, dekorativ-tətbiqi incəsənət məhsulları istehsal olunur. Ölkəyə 2008-ci ildə 13 milyon nəfər turist gəlmişdir. Onlar Misir ehramları və qədim şəhərlərin tikililəri ilə tanış olur və Nil çayında səyahətə çıxırlar. Ölkə əhalisinin 98%-i ya qədim misirlilərin (həmitlər), ya da 642-ci ildə Misiri işğal etmiş ərəblərin nəsilləridir. Ölkə əhalisi ildə 1,8 mln. nəfər artır. Kənd əhalisinin şəhərlərə axını ciddi problemlər yaradır.

Sosialist Xalq Liviya Ərəb Cümhuriyyəti

Sahəsi: 1777 060 km²
Əhalisi: 6,6 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 4 nəfər/km²
Paytaxtı: Tripoli (rəsmi, 2006 min nəfər), Surt (qanunverici və inzibati, 120 min nəfər)
Rəsmi dil: ərəb
Dini etiqad: islam
Pul vahidi: Liviya dinarı
Dövlət quruluşu: respublika

Liviya əhalisi az olan səhra ölkəsidir. Zəngin neft ehtiyatından istifadə ölkənin gəlirlərinin əsas hissəsini təşkil edir.

Ölkənin şimal hissəsini Aralıq dənizinin suları yuyur. Əhali əsasən sahilboyu zonada məskunlaşır. Ölkənin cənubunda və Böyük Səhranın şimal-şərq rayonlarında olan vahələrdə kiçik yaşayış məntəqələri vardır. Bu ərazilərdə olan yeraltı sular boru kəmərləri ilə şimal rayonlarına gətirilir. Şimalda subtropik iqlimin Aralıq dənizi tipi (yanvarın orta temperaturu 12°C, iyul 28°C-dir), cənubda isə kəskin sutkalıq temperatur fərqi və çox quru olan tropik iqlim xarakterikdir. İllik yağıntıların miqdarı 250-300 mm-dir. Becərilən torpaqlar



ölkənin 1%-dən az hissəsini tutur. Arpa, tütün, çay, xurma, əncir və üzüm, zeytun, sitrus meyvələri yetişdirilir. Heyvandarlıqda qoyun, keçi və toyuq saxlanması əkinçiliyə nisbətən daha böyük rol oynayır. Neft-qaz hasilatı və emalı, toxuculuq, gön-dəri, tikinti materialları istehsalı, kənd təsərrüfatı, tikinti, avtomobil texnikası yığılması sənayenin əsas sahələridir.

1951-ci ilə qədər İtaliya müstəmləkəsində olan Liviya müstəqil krallığa çevrildi. 1969-cu ildə polkovnik M.Qəddafinin hakimiyyətə gəlməsi ilə ölkədə milli, dini (islam) və sosializm ideyalarına əsaslanan hərbi rejim quruldu. 2011-ci ilin əvvəlində NATO koalisiya qüvvələrinin köməyi ilə başlanan qiyam ilin sonunda M.Qəddafinin öldürülməsi ilə nəticələndi və yeni hakimiyyət strukturları yaradıldı. 1950-ci illərdə neft ehtiyatları kəşf edilənə qədər Liviya xarici kömək və ərzaq idxalından asılı olan yoxsul ölkə idi. Son vaxtlarda sutkada 1,9 mln. barrel neft hasil olunurdu. Ölkənin ixracı valyuta gəlirlərinin 99%-ni təmin edir. Bu gəlirlər sosial rifahın yüksəlməsinə, ölkədə pulsuz təhsil və səhiyyə sistemi yaradılmasına imkan vermişdir. Lakin mövcud hərbi diktatura rejimi ölkənin təcrid olunmasına gətirib çıxarır, insan haqlarının qorunmasına mane olurdu.

Əlcəzair Xalq Demokratik Respublikası

Sahəsi: 2 381 741 km²
Əhalisi: 36,0 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 15,1 nəfər/km²
Paytaxtı: Əlcəzair (2,948 mln. nəfər)
Əsas dillər: ərəb, bərbər
Dini etiqad: islam (99%)
Pul vahidi: Əlcəzair dinarı
Dövlət quruluşu: respublika

Əlcəzairin ərazisinin çox hissəsini Böyük Səhra tutur, ölkənin əsas təbii sərvəti neft və təbii qazdır. O, 1962-ci ildə Fransa ilə müharibədən sonra öz müstəqilliyini qazanmışdır.

Aralıq dənizi sahilləri boyunca uzanan ensiz təpəli düzənlik kənd təsərrüfatı məhsullarının becərilməsi üçün əlverişli olduğundan Əlcəzairin əhalinin çox hissəsi də burada məskunlaşmışdır. Bu əraziləri ölkənin daxili rayonlarından Atlas dağları və bitki örtüyü olmayan yüksək yaylalar ayırır. Ərazinin 80%-ni Böyük Səhra tutur. Sahilboyu ərazilərdə iqlim istidir, orta illik yağıntılar 1000 mm, dağlarda 510 mm-ə qədərdir. Orta temperatur yanvarda 10°C, avqustda 25°C-dir. Əlcəzair əhalisinin

Təssilin-Əcərdə qayaüstü təsvirlər

75%-ni ərəblər, 24%-ni bərbərlər, 1%-ə qədərini əsasən avropalılar olmaqla digər xalqlar təşkil edirlər. Kənd təsərrüfatında buğda, ərik, xurma, zeytun, tərəvəz, sitrus meyvələri becərilir. Əmək qabiliyyətli əhalinin 13%-ə qədəri bu sahədə çalışır. Ölkənin təsərrüfatının əsasını neft-qaz çıxarılması və emalı, metallurgiya, neft-kimya, sement, yüngül və yeyinti sənayesi sahələri təşkil edir. Əlcəzair Afrikada ən çox neft ehtiyatlarına malik ölkələrdən biridir, təbii qaz ehtiyatına görə isə dünyada beşinci dövlətdir. Son vaxtlar iqtisadi vəziyyət çətinləşir, işsizlik artır və qiymətlər yüksəlir.

Mərakeş Krallığı

Sahəsi: 458 730 km²
Əhalisi: 31,9 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 70 nəfər/km²
Paytaxtı: Rabat (1616 min nəfər)
Əsas dillər: ərəb, bərabər
Dini etiqad: islam (sünni təriqəti)
Pul vahidi: dirhəm
Dövlət quruluşu: konstitusiyalı monarxiya

Mərakeş Afrikada monarxiya dövlət quruluşuna malik yeganə ərəb ölkəsidir. 1956-cı ildə Fransa və İspaniya müstəmləkəsindən azad olmuşdur. Mərakeşin Qərbi Böyük Səhranı işğal etməsi nəticəsində yerli partizan dəstəsi olan və ölkənin müstəqilliyi uğrunda çıxış edən POLİSARİO ilə münaqişə vəziyyətindədir. Ölkə ərazisində iki ispan eksklavı (Seuta və Melilya) qalır.

Mərakeş Pireney yarımadasından eni 13-27 km olan Cəbəlüttariq boğazı ilə ayrılır. Aralıq dənizinin sahili boyu Rif (Əl-Rif) dağları, həmçinin daha yüksək Atlas dağları uzanır. Dağların yamacı boyu bəzi yerləri sıx subtropik meşələr örtür. Dağlarda çoxlu yağış və qar yağır, əmələ gələn çaylar düzənliyə axıb gəlir. Atlas dağlarında tez-tez zəlzələlər baş verir. Ən güclü zəlzələ 1960-cı ildə Aqadirdə baş vermiş, 12 min nəfər həlak olmuşdur. Ölkənin cənub və cənub-şərqini Böyük Səhra tutur. Əhalinin 70%-



Bərbərlərin yaşadığı kənd

ni ərəblər, 29%-ni bərbərlər təşkil edir. Əhalinin yarıya qədəri kənd təsərrüfatında çalışır və balıqçılıqla məşğul olur. Taxıl, şəkər çuğunduru, finikiya palması (xurma), zeytun və sitrus meyvələri yetişdirilir. Hər il 0,75 mln. ton balıq ovlanır. 2000-ci ildə ölkənin şimal-qərbində neft tapılmışdır. Son zamanlar hasilat sənayesi ilə yanaşı emal sənayesi (kimya, fosforit və neft emalı) inkişaf edir. Ən mühüm liman Kasablanka, ən böyük şəhər Mərakeşdir. Turizmin rolu getdikcə artır. 2009-cu ildə Mərakeşə 4,1 milyon nəfərdən artıq turist gəlmişdir.

Demokratik Ərəb Respublikası (Qərbi Böyük Səhra)

Sahəsi: 266,0 min km²
Əhalisi: 486,5 min nəfər (2010)
Əhalinin sıxlığı: 2 nəfər/km²
Paytaxtı: Əl-Əyyun (180 min nəfər)
Əsas dillər: ərəb, bərbər
Dini etiqad: islam (sünni təriqəti)

Qərbi Böyük Səhra 1975-ci ilə qədər İspaniyanın müstəmləkəsi olmuş, sonra Mərakeş və Mavri-taniyanın idarəçiliyinə verilmişdir. Hazırda Mərakeş ölkəni tam işğal etmişdir. Qərbi Böyük Səhranı 70 ölkə tanımışdır, lakin hələ də müstəqillik uğrunda mübarizə davam edir.

Ərazi Afrikanın şimal-qərbində yerləşir. Tropik səhra iqlimi şəraitində sutkalıq temperatur gecə 0°C-dən günortadan sonra 65°C-yə

qədər dəyişir. Əhali arasında ərəb-bərbər mənşəli yarımköçəri tayfalar üstünlük təşkil edir. Burada zəngin fosforit yataqları vardır. 1300 km-lik sahil zonası balıqla zəngindir. Son geoloji axtarışlar neft və qaz yataqları olduğunu müəyyən etmişdir. Əhali əsasən köçəri heyvandarlıqla məşğul olur, dəvə və keçi saxlayır, sahil boyu suvarılan torpaqlarda arpa, buğda, darı, tərəvəz, xurma, zeytun, əncir becərilir. Xarici şirkətlər fosforit hasil edir.

Tunis Respublikası

Sahəsi: 163610 km²
Əhalisi: 10,5 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 64 nəfər/km²
Paytaxtı: Tunis (2,14 mln. nəfər)
Rəsmi dil: ərəb
Dini etiqad: islam (sünni təriqəti)
Pul vahidi: Tunis dinarı
Dövlət quruluşu: respublika

Tunis 1956-cı ildə müstəqilliyini elan etmiş ən kiçik Məğrib (Günbatan) ölkəsidir. Ölkədə Şərq təmtərağı antik incəliklə uzlaşır. Tunis ətraf ərazilərə nisbətən sosial-iqtisadi cəhətdən daha çox inkişaf etmişdir.

Tunisin ərazisinin 1/3 hissəsi Böyük Səhrada yerləşir. Ölkənin şimalındakı Aralıq dənizi sahilindən cənuba doğru getdikcə sıx bitkilərlə

Qədim Roma dövründən qalan amfiteatr

örtülmüş dağlar yastı quraq yaylalarla əvəz olunur. Atlas dağları iki silsilə əmələ gətirir. Onlardan birində ölkənin ən yüksək nöqtəsi olan Şanbi dağı (1544 m) yüksəlir. Dağlar dənizə tərəf getdikcə alçalır. Dağlardan cənubda bir neçə göl, sonra seyrək vahələri və yaşayış məntəqələri olan səhralar yerləşir. Tunisin mərkəzi hissəsində şorsulu Əl-Cərid (Şott-Əl-Cərid) gölü vardır. Ölkənin 2/3 hissəsi suvarma tətbiq olunarsa əkinçiliyə yararlıdır. Əsas məhsuldar torpaqlar ölkənin şimalında cəmlənmişdir. Kənd təsərrüfatı bitkilərinə taxıl, meyvə-tərəvəz, üzüm, sitrus bitkiləri, zeytun daxildir. Mal-qara, dəvə, qoyun, keçi saxlanılır. Kənd təsərrüfatı, sənaye, faydalı qazıntıların hasilatı, turizm eyni əhəmiyyətli aparıcı sahələrdir. Sənayenin əsas hissəsi paytaxt ətrafında cəmlənmişdir. Ən çox inkişaf etmiş sahələrə toxuculuq, tikiş, gön-dəri, yeyinti, kimya, qara metal məmulatı istehsalı, fosfor, qurğuşun və neft hasilatı aiddir. 2007-ci ildə ölkəyə 6,7 mln. nəfər turist gəlmişdir.

Mavritaniya İslam Respublikası

Sahəsi: 1030700 km²
Əhalisi: 3,4 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 3,3 nəfər/km²
Paytaxtı: Nuakşot (847 min nəfər)
Əsas dillər: ərəb, volof, fula (tukulor)
Dini etiqad: islam (sünni təriqəti)
Pul vahidi: uqiya
Dövlət quruluşu: respublika



Mavritaniya əvvəllər Fransanın müstəmləkəsi olmuş, 1960-cı ildə müstəqillik qazanmışdır. Bu dövrdən sonra ərəb ölkələri ilə əlaqələri genişlənir, lakin regionun geri qalmış ölkələrindən biridir.

Mavritaniya Böyük Səhrada və Sahelin yarımsəhra zonasında yerləşir. Əkinçilik Seneqal çayının kənarlarında və Atlantik sahillərinin bəzi rayonlarında mümkündür. Natural təsərrüfatla məşğul olan əkinçilər xurma, taxıl və paxlalı bitkilər, araxis, darı, düyü becərir. Köçəri maldarlar xırda və iri buynuzlu mal-qara, şimalda dəvə saxlayırlar. Sahilboyu şelf ərazilərdə ov əhəmiyyətli balıqlar çoxdur. Dövlət bu sahəni öz nəzarətində saxlayır. Ona görə ki, büdcə

Nuakşot şəhərinin ümumi görünüşü

gəlirlərinin əsas hissəsini bu sahə verir. Dəmir filizi ixracı da mühüm əhəmiyyət kəsb edir. Balıqçılıq və dəmir filizi hasilatı ixrac gəlirlərinin 99%-ni verir. Ölkədə qızıl, mis, neft hasil olunur, həmçinin, iri gips ehtiyatlarına malikdir. Mavrlar ərəblər və bərbərlərin nəsilləridir, ölkə əhalisinin böyük əksəriyyətini təşkil edir. Respublikanın siyasi strukturunda onların üstünlük təşkil etməsi müxtəlif etnik qruplara məxsus olan qaradərili əhali arasında narazılıq yaradır. Bu narazılıqlar milli-etnik münaqişələrə səbəb olur. Qaradərili insanlar ölkə əhalisinin 30%-ni təşkil edir.

Şərqi Afrika
Sudan Respublikası

Sahəsi: 1886068 km²
Əhalisi: 30894 min nəfər (2008)
Əhalinin sıxlığı: 16,4 nəfər/km²
Paytaxtı: Xartum (4273 min nəfər)
Əsas dillər: ərəb, nilot, nubiya, beca
Dini etiqad: islam (95%), xristian (1%), ənənəvi yerli dinlər (4%)
Pul vahidi: Sudan funtu (2007-ci ildən)
Dövlət quruluşu: respublika

Sudan uzun illər milli-etnik münaqişələr davam edən ölkələrdən biridir. Nəticə olaraq 2011-ci ildə onun cənub hissəsi ayrılaraq müstəqil ölkə kimi tanınmışdır. Sudan bölgənin ən kasıb ölkələrindən biridir.

Sudan ərazisinin əksər hissəsini geniş yayla-lar tutur, burada mütləq hündürlük 300 m-dən 1000 m-ə qədərdir. Onun mərkəzi hissəsi hamardır, şərq və qərb istiqamətlərdə mütləq hündürlük artır. Qərbdə Darfur (Marra d., 3088 m), cənubda Kardofan yaylaları yüksəlir. Ölkə ərazisini Nil çayı cənubdan şimala kəsib keçir, çay Ağ və Mavi Nilin birləşməsindən yaranır. Çayların birləşdiyi yerdə ölkənin paytaxtı Xar-tum şəhəri yerləşir. Çayların sahillərində ol-duqca məhsuldar torpaqlar yayılmışdır. Şimalda yerləşən və Nil çayı ilə ayrılan Liviya və Nubi-ya səhraları bitki örtüyündən məhrumdur, az mirdarda quru otlar, dənli bitkilər, seyrək ağaclar bitir. Mərkəzdə və cənubdakı gilli düzənliklərdə savannalar, çaylar boyu seyrək meşələr yayılır. Əhalinin əksəriyyəti (70%) ərəblərdən ibarətdir və islam dini üstünlük təşkil edir, be-calar 6%, digərləri 3%-dir. Əhalinin sayı sürətlə (ildə 2,15%) artır, əsasən (52%) zənciləridir. Gəlirlərin əsas hissəsi kənd təsərrüfatı və neft hasilatından əldə olunur. Sudan 1999-cu ildən neft ixrac edir. Sənaye zəif inkişaf etmişdir, nef-tin hasilatı və emalı, pambıq emalı, toxuculuq, kənd təsərrüfatı məhsullarının emalı, ayaqqabı

Qədim Misirin abidələri

istehsalı, avtomobil yığımı sahələri vardır. Əhalinin 80%-i kənd təsərrüfatında çalışır, bu sahə daxili məhsulun 1/3-ni verir. Əhali pambıq, araxis, kalış, darı, buğda, yapışqan, şəkər qamışı, kassava (tapioka), manqo, papayya, banan, şirin kartof becərir, mal-qara, qoyun, keçi, saxlayır, balıqçılıqla məşğul olur. Qırmızı dəniz sahilində Port-Sudan böyük limandır.

Cənubi Sudan Respublikası

Sahəsi: 619745 km²
Əhalisi: 8260490 nəfər (2008)
Əhalinin sıxlığı: 13,3 nəfər/km²
Paytaxtı: Cuba
Əsas dillər: nilot, dinka, ubanqa
Dini etiqad: xristianlıq, ənənəvi yerli dinlər
Pul vahidi: Cənubi Sudan funtu
Dövlət quruluşu: respublika

Cənubi Sudan dünyanın siyasi xəritəsində yaranmış sonuncu müstəqil dövlətdir. 9-16 yanvar 2011-ci ildə Sudanın cənubunda müstəqil dövlətin yaradılması məsələsi ilə əlaqədar referendum keçirilmişdir. Elan edilmiş ilkin nəticələrə görə sakinlərin böyük əksəriyyəti müstəqillik üçün səs verdilər. 9 iyul 2011-ci ildə Cənubi Sudan dünyanın 194-cü ölkəsi kimi öz müstəqilliyini elan etdi. 14 iyul 2011-ci ildə BMT-yə qəbul edilmişdir.

Cənubi Sudan şərqdə Efiopiya, cənubda Keniya, Uqanda, Konqo Demokratik Respubli-kası, qərbdə MAR, şimalda Sudan ilə həmsər-həddir. Ölkənin okeana çıxışı yoxdur. Quraq dövr az müddət davam edir və əsasən qışda yaranır, şimala getdikcə quraq dövr çoxalır. Yağıntıların illik miqdarı şimalda 700 mm, cənub-qərbdə 1400 mm-dir. Cənubda bitən ekvatorial meşələr, şimala doğru subekvatorial və seyrək meşələrlə əvəz olunur. Əhalinin çox hissəsi ekvatorial irqə daxildir, nilot xalqlarının nümayəndələridir. Onlar arasında dinka, nuer, azande, bari və şilluk xalqlarının sayı çoxdur. Ölkənin təsərrüfatı hələlik çox zəif potensiala malikdir, dünyanın ən kasıb ölkələrindən biridir. Əhali əsasən kənd təsərrüfatında çalışır, daxili istehlak üçün məhsul becərirlər. Lakin ölkədə olan neft ehtiyatlarından istifadə ediməsi onun yaxın vaxtlarda inkişafına kömək edə bilər.

Somali Demokratik Respublikası

Sahəsi: 637 657 km²
Əhalisi: 9,4 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 14,7 nəfər/km²
Paytaxtı: Moqadişo (1,1 mln. nəfər)
Əsas dillər: ərəb, somali
Dini etiqad: islam
Pul vahidi: somali şillinqi
Dövlət quruluşu: respublika

Somali 1960-cı ildə müstəqillik qazanmışdır. Ölkənin müasir ərazisi iki müstəmləkənin - İtaliya və Böyük Britaniya Somali mülklərinin birləşməsi nəticəsində yaranmışdır.



Somalinin ərazisi əsasən təpəli düzənliklərdən ibarətdir. İqlimi qurudur, temperatur qışda 23°C, yayda 34°C-dir, yağıntıların miqdarı şimalda və şərqdə 50 mm-dən cənubda və qərbdə 150 mm-ə qədər dəyişir.

Cənub-qərbdə qarğıdalı, banan, şəkər qamışı və pambıq becərilir. Əhalinin yarıya qədəri köçəri heyvandarlıqla məşğul olur. Sənaye dağ-mədən, kənd təsərrüfatı məhsullarının ilkin emalı, xüsusilə dəri məmulatları istehsalından ibarətdir.

1991-ci ildə hərbi diktatura rejimi devrilmişdir. Tayfalar arasında mübarizənin gərginləşməsi, Efiopiya ilə aparılan müharibə, şiddətli quraqlıq nəticəsində Somalidə çoxlu qaçqınlar əmələ gəlmişdir. Dünya ölkələri humanitar yardımlar göstərir. Ölkənin şimal hissəsi Somalilend Respublikası kimi müstəqillik elan etmişdir.

Efiopiya Federativ Demokratik Respublikası

Sahəsi: 1127127 km²
Əhalisi: 85 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 75,4 nəfər/km²
Paytaxtı: Əddis-Əbəbə (3,1 mln. nəfər)
Əsas dillər: əmhara, oromo, tiqray, somali
Dini etiqad: islam (45%), provoslav (40%), ənənəvi yerli dinlər (15%)
Pul vahidi: birr
Dövlət quruluşu: respublika

Efiopiya dünyanın ən qədim dövlətlərindəndir. O, müstəmləkə olmayan az sayda Afrika ölkələrindən biridir.

Əvvəllər çox vaxt Həbəşistan adlandırılan Efiopiya əsasən dağlıq ölkədir, Şərqi Afrika sınma zonası onu iki hissəsə ayırır. Ölkə ərazisinin 3/4 hissəsi dəniz səviyyəsindən 1400 metrdən çox yüksəklikdə yerləşir. Şimalda Tana gölü vardır. Şərq hissəni yarımsəhralardan ibarət düzənlik, şimal ovalıq hissə isə dünyanın ən isti yerlərindən biri olan Danakil (Afar) səhrası və vadisidir. Səhrada temperatur 50°C-dən yuxarı olur. Düzənliklərdə ildə orta hesabla 200-500



Əddis-Əbəbə şəhəri

mm, dağlarda 1000-2000 mm yağıntı düşür. Əhalinin 80%-i kəndlərdə yaşayır. Əsas əmtəə məhsulu qəhvədir, qarğıdalı, sorqo, teff, tərəvəz əkilir. Qəhvə dağlıq Qaffa əyalətində becərilir, bitkinin adı da buradan götürülmüşdür. Kənd təsərrüfatında əsas sahələrdən biri də heyvandarlıqdır. Quraqlıq, zəlzələ və müharibələr Efiopiyanın təsərrüfatına ciddi ziyan vurur. Toxuculuq məhsulları istehsal olunur. Efiopiya dünyanın geridə qalmış, kasıb ölkələrindən biridir.

Eritreya Dövləti

Sahəsi: 121100 km²
Əhalisi: 5,0 mln nəfər
Əhalinin sıxlığı: 43 nəfər/km²
Paytaxtı: Əsmərə (506 min nəfər)
Əsas dillər: tiqray, ərəb, afar, ingilis
Dini etiqad: provoslav (50%), islam (50%)
Pul vahidi: nakfa
Dövlət quruluşu: respublika

Eritreya Afrikanın ən yeni dövlətlərindən biridir. Ölkə 1993-cü ildə Efiopiyadan ayrılaraq müstəqillik əldə etmişdir. O, Qırmızı dənizin sahilləri boyu 1000 km-ə qədər uzanır.

Efiopiyanın keçmiş əyaləti olan ölkə isti və quraq sahilboyu düzənliyi tutur. Sonra hündürlüyü okean səviyyəsindən 1500 m-dən 3000



m-ə qədər yüksəkliyi olan yaylaya keçir. Dağlıq ərazilərdə yağıntılar bir qədər çox düşür, lakin kifayət qədər deyildir. Ölkə tez-tez quraqlıqdan əziyyət çəkir. Ərazinin 5%-i əkinçilik üçün yararlıdır. Eritreya 1952-ci ildə BMT-nin qərarı ilə idarə olunmaq üçün Efiopiyaya verildi. Əhali 40 il ərzində müstəqillik uğrunda müharibə apardı. Bu zaman yüz minlərlə insan həlak olmuş, infrastruktur və meşələrin xeyli hissəsi məhv edilmişdir. 1990-cı illərin ortalarından ölkədə neft kəşfiyyatı aparılır. Sahilboyu şelf zonasında neft ehtiyatlarının kifayət qədər olduğu güman edilir. Əhali qəhvə, tərəvəz becərir, mal-qara saxlayır. Əhalinin 70%-i beynəlxalq təşkilatlardan ərzaq yardımı alır. Eritreya çoxmillətli ölkədir və əhalinin 80-85%-ni tiqray və tiqre xalqları təşkil edir. 1998-2000-ci illərdə Eritreya mübahisəli ərazilər uğrunda Efiopiya ilə müharibə aparmışdır.

Cibuti Respublikası

Sahəsi: 23 200 km²
Əhalisi: 873,2 min nəfər (2010)
Əhalinin sıxlığı: 38 nəfər/km²
Paytaxtı: Cibuti (350 min nəfər)
Əsas dillər: somali, ərəb, afar, fransız
Dini etiqad: islam (sünnilər 94%), xristianlar (6%)
Pul vahidi: cibuti frankı
Dövlət quruluşu: respublika

Əvvəllər Fransanın müstəmləkəsi olmuş Cibuti Qırmızı dənizə girişdə yerləşir. Ölkənin eyni adlı paytaxtı regionun ən böyük limanlarından biridir. Cibuti 1977-ci ildə müstəqillik əldə etsə də, indiyə qədər keçmiş metropoliyasından yardım alır.

Cibutinin landşaftı yaylalar və dağ massivlərindən ibarətdir. Bütün ərazini tək-tək vahələri və duzlu gölləri olan isti (yanvarın orta temperaturu 26°C, iyul 40°C) səhralar tutur. Cibutinin mərkəzində olan Assal gölündə duz hasil olunur. Göl okean səviyyəsindən 157 m aşağıda yerləşir, Afrikanın ən alçaq nöqtəsi hesab olunur. Yağıntılar əsasən dağlarda düşür, lakin onların miqdarı 320 mm-dən çox deyil, qalan yerlərdə 50-150 mm-dək azalır. Əhalinin 2/3-si paytaxtda və onun ətrafında yaşayır, tərəvəz, qəhvə becərir, az miqdarda dəri, emal olunur, yeyinti məhsulları istehsal edilir. Qırmızı dənizdən Hind okeanına çıxışda strateji mövqe tutan paytaxt liman şəhəri əhəmiyyətli rol oynayır. Hər il Efiopiyanın milyonlarla ton qəhvə xammalı Cibutidəki limandan dünya bazarına çıxarılır. Kənd təsərrüfatında əsas yeri heyvandarlıq tutur. İki əsas afar və issa xalqları arasında olan narazılıqlar vaxtaşırı toqquşmalara səbəb olur.

Keniya Respublikası

Sahəsi: 582 246 km²
Əhalisi: 40,0 mln. nəfər
Əhalinin sıxlığı: 68,7 nəfər/km²
Paytaxtı: Nayrobi (3,1 mln. nəfər)
Əsas dillər: suaxili, ingilis, luo, kikuyyu
Dini etiqad: protestantlıq (45%), katolisizm (35%), islam (10%), ənənəvi yerli dinlər (10%)
Pul vahidi: Keniya şillinqi
Dövlət quruluşu: respublika

Böyük Britaniya müstəmləkəçiliyi dövründə yaradılmış iqtisadi baza və siyasi sabitlik Keniyada təsərrüfatın davamlı olaraq inkişaf etməsinə imkan verir. Subekvatorial qurşaqda yerləşən ölkədə yanvarın orta temperaturu 21°C, iyulda 18°C-dir. İl ərzində 250 mm-dən 2000 mm-ə qədər yağıntı düşür.

Ölkənin şimalından cənubuna doğru keçən Şərqi Afrika sınma zonasında rift dərəsinin dərinliyi 600 m, eni 14-85 km-ə çatır. Rift vadisi boyu göl çökəklikləri yerləşir. Onlar arasında ölkənin ən böyük gölü olan Rudolf (Turkana) fərqlənir. Viktoriya gölünün sahilləri və Uqanda

Keniya zirvəsi

ilə sərhəddə yüksəklik və yaylalar yerləşir. Şərqdə Afrikada hündürlüyünə görə ikinci zirvə olan sönmüş Keniya (5199 m) vulkanı yerləşir. Şərqə doğru dağlar hündür otlu savannalardan ibarət düzənliklərə keçir, onlar sahil boyu ovalıqlarla əvəz olunur. Burada ölkənin əsas limanı və ikinci şəhəri olan Mombasa yerləşir. Ölkədə zəngin heyvanlar və bitki aləmini mühafizə etmək üçün çoxlu qoruqlar və milli parklar yaradılmışdır. Hər il ölkəyə gələn 1,7 mln. nəfər turist lisenziyalar alır və milli parklarda ov edir. Turizm ölkə büdcəsinin əsas gəlir mənbəyidir. Əhalinin əksəriyyəti sahilboyu ərazilərdə məskunlaşır. Onların 2/3 hissəsini bantu ailəsinə aid kikuyyu, luxya və kamba xalqları təşkil edir. Yerli əhali şimalda maldarlıq, cənubda əkinçiliklə məşğul olur, çay, qəhvə, tütün, sizal, meyvə, pambıq, çəltik, şəkər qamışı əkirlər. Sənayedə yeyinti, toxuculuq məhsulları, mebel, plastik kütlə, tikinti materialları istehsal olunur.

Tanzaniya Birləşmiş Respublikası

Sahəsi: 945 037 km²
Əhalisi: 45,0 mln. nəfər
Əhalinin sıxlığı: 47,6 nəfər/km²
Paytaxtı: Dodoma (rəsmi və qanunverici;324 min nəfər); Dar-əs-Salam (inzibati; 2660 min nəfər)
Əsas dillər: suaxili, ingilis, nyamvezi, kixexe
Dini etiqad: katolik, islam, ənənəvi yerli dinlər
Pul vahidi: Tanzaniya şillinqi
Dövlət quruluşu: respublika

Tanzaniya iki hissədən - əvvəllər Tanqanika adlanan materik hissəsindən, Hind okeanında yerləşən Zənzibar, Pemba və Mafiya adalarından ibarətdir. Bu ərazilər 1964-cü ildə birləşdirilərək ölkə təşkil edilmişdir.

Tanzaniyanın relyefi müxtəlifdir. Hind okeanının sahilində sıx tropik bitkilərlə örtülən ovalıq yerləşir. Ölkənin çox hissəsini orta hündürlüyü 1200 m-ə çatan, savanna və tropik seyrək meşələrlə örtülən, şimalda daha quraq olan Şərqi Afrika yaylası tutur. Ən isti ayın orta temperaturu 26°C, ən soyuq ayın orta temperaturu 17°C-dir. İl ərzində düşən yağıntıların miqdarı 500-1500 mm-dir.

Ölkə ərazisinin 1/3-ni qoruqlar və milli parklar tutur. Meşələr ölkənin 44%-ni örtür. Serengeti milli parkında (1,5 mln.ha) 200-dən çox quş növü, 35 növ məməli heyvanlar, o cümlədən şir, bəbir, fil və çox nadir qara kərgədan yaşayır. Mənzərəli təbiət və heyvanlar aləminin müxtəlifliyi hər il 650 min nəfər turist cəlb edir (2009). Tanzaniyada qızıl, almaz hasil edilsə də, ixracın əsasını kənd təsərrüfatı məhsulları (maniok, banan, qarğıdalı, darı, qəhvə, pambıq, çay, sorqo, yer fındığı və kokos) təşkil edir. Bu sahədə əmək qabiliyyətli əhalinin 80%-ə qədəri çalışır. Hasilat, neft və ağac emalı, sement, toxuculuq, gön-dəri, kustar sənaye sahələri vardır.

Göllərdən keçən sərhədlər

Tanzaniyanın cənub-qərbindən və şimal-şərqindən Şərqi Afrika rift zonası keçir. Hər ikisi fəaliyyətdə olan vulkanların da olduğu dağlarla əhatə olunur. Materikin ən yüksək zirvəsi olan Kilimancaro (5895 m) vulkanı da burada, Keniya ilə sərhəddə yüksəlir. Rift zonalarının şərqdə olan qolu ölkənin şimalındakı yüksəklikləri ayırır, qərbdə Nyasa (Malavi) və Tanqanika göllərinin daxil olduğu tektonik qırılma zonası dövlət sərhəddi rolunu oynayır. Tektonik çökəklikdə yerləşən Tanqanika gölü dərinliyinə görə (1470 m) yalnız Baykaldan geri qalır. Şimalda Afrikanın ən böyük gölü olan Viktoriyanın təxminən yarısı yerləşir və Uqanda ilə sərhəddədir.

Uqanda Respublikası

Sahəsi: 241 040 km²
Əhalisi: 33,8 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 140,2 nəfər/km²
Paytaxtı: Kampala (1790 min nəfər)
Əsas dillər: ingilis, suaxili, luqanda (qanda), teso
Dini etiqad: katolisizm, protestantlıq, islam, yerli ənənəvi dinlər
Pul vahidi: yeni Uqanda şillinqi
Dövlət quruluşu: respublika

Məhsuldar yüksəkliklər və dağlar ölkəsi olan Uqanda ekvator zonasında yerləşir. Ölkə 1962-ci ildə Böyük Britaniyanın müstəmləkəsindən azad olmuşdur.

Uqandanın şimalı hündürlüyü 1500 m-ə çatan nadir şahid dağları olan geniş yastı düzənlikdən ibarətdir. Cənubda isə yastı zirvəli təpələr yüksəlir. Keniya ilə sərhəddə uzanan dağ silsilələrinin ən hündür zirvəsi olan Elqon

(4221 m) sönmüş vulkanıdır. Qərbdə isə Ruvenzori dağ massivində ən hündür zirvə olan Margerita (5109 m) piki yüksəlir. Orta illik temperatur 21°C, yağıntıların illik miqdarı 750-1200 mm, Viktoriya gölünün sahillərində 1500-1600 mm-dir. Aprel-may və sentyabr-oktyabr ayları yağıntılı mövsümdür. Ölkə ərazisinin 1/5 hissəsini tutan çoxsaylı çaylar və göllərdə çox böyük şirin su ehtiyatları toplanmışdır. Ən böyük göllərə Uqandanın mərkəzində yerləşən Koqa və Mobutu-Sese-Seko (Albert), rift zonası boyu olan Eduard gölü və materikin ən böyük gölü olan Viktoriya aiddir. Uqanda zəngin meşə ehtiyatlarına malikdir. Son 40 il ərzində meşələrin 25%-i qırılmışdır və xeyli hissəsi yanacaq kimi istifadə edilir. Elektrik enerjisi SES-lərdə istehsal olunur. Ölkədə dağ-mədən və emal sənayesi zəif inkişaf etmişdir. Kənd əhalisi ərzaq məhsulları (qəhvə, pambıq, çay, tütün, çəltik, banan, qarğıdalı, sorqo) toplayır. İxrac gəlirlərinin xeyli hissəsi qəhvə, balıq və meyvələrdən əldə olunur. Son vaxtlarda olan sabitlik iqtisadi inkişafa imkan verir. Sənayedə toxuculuq, yeyinti, hasilat, tikinti materialları, ağac tədarükü sahələri fəaliyyət göstərir. Uqandа şirin su hövzələrində balıq ovlanan dünyanın əsas ölkələrindən biridir. 2001-ci ildə göllərdə 218 min ton balıq tutulmuşdur.

Zambiya Respublikası

Sahəsi: 752614 km²
Əhalisi: 13,3 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 17,7 nəfər/km²
Paytaxtı: Lusaka (2,0 mln. nəfər)
Əsas dillər: ingilis, nyanca, kaonde, lunda
Dini etiqad: protestantlıq (70%), hinduizm (30%)
Pul vahidi: Zambiya kvaçası
Dövlət quruluşu: respublika

Zambiya 1964-cü ildə Böyük Britaniya müstəmləkəsindən azad olmuşdur. 1980-ci ilədək Şimali Redeziya adlanmışdır.

Zambiyanı zəif məskunlaşmış şərq və əhalinin çox hissəsinin yaşadığı qərb hissələrinə ayırmaq olar. Ölkənin ərazisi dərin çay dərələri, göl çökəklikləri və çoxsaylı bataqlıqları olan orta yüksəkliyə malik təpəli yaylalarda yerləşir. Ərazinin 4/5 hissəsi Zambezi çayının hövzəsinə daxildir (ölkənin adı da buradan götürülmüşdür). Sürətlə axan bu çayın üzərində çoxlu astanalar və şəlalələr vardır. Şimalda tektonik mənşəli Tanqanika, Mveru və Banqveulu gölləri yerləşir.

Subekvatorial iqlimin xas olduğu bu ərazilər yüksəkdə yerləşdiyinə görə Afrikanın digər regionları ilə müqayisədə çox isti olmur. Ən isti ayın (oktyabr) orta temperaturu 23°-27°C-dir, 600-1400 mm yağıntı düşür.

D.Livinqstounun abidəsi

Zambiyada çoxlu qoruqlar və milli parklar vardır. Lakin ovlanma nəticəsində onların sayı sürətlə azalır. Zambiya aqrar ölkədir, əhalinin çox hissəsi kənd təsərrüfatında çalışır, mais (qarğıdalı), şəkər qamışı, tütün, pambıq, maniok, buğda becərilir. Ölkə özünü ərzaqla tam təmin edir. Zambiyada 73-ə qədər etnik qrup yaşayır və onlar arasında münaqişələr az hallarda olur. Zambezi çayı ölkənin cənub sərhəddinin çox hissəsi ilə axır. Orta axarında dünyanın ən böyük şəlalələrindən biri olan Viktoriya əmələ gəlir. Burada su 120 m hündürlükdən tökülür, şəlalənin eni 1800 m-dən çoxdur. Şəlalədən 100 km aşağıda Kariba su anbarı yerləşir. Burada tikilən SES təkcə Zambiyanı yox, qonşu dövlətləri də enerji ilə təmin edir. Zambiyanın əsas təbii sərvətləri olan mis və kobalt ixrac edilir. Ölkənin mərkəzində böyük mis ehtiyatının olduğu sənaye regionu Kopperbelt ("Mis qurşağı") adlanır. Burada hasil və emal edilən mis ölkənin ixrac məhsullarının 64%-ni təşkil edir. Zambiyanın firuzə rəngli malaxiti çox məşhurdur.

Ruanda Respublikası

Sahəsi: 26338 km²
Əhalisi: 10,4 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 394,9 nəfər/km²
Paytaxtı: Kiqali (900 min nəfər)
Əsas dillər: ruanda, fransız, ingilis
Dini etiqad: katolisizm (56%), protestantlıq (26%), islam (sünni təriqəti), ənənəvi yerli dinlər
Pul vahidi: ruanda frankı
Dövlət quruluşu: respublika

"Minlərlə təpələr ölkəsi" adlandırılan Ruandа Afrikada əhalinin sıxlığının ən çox olduğu ölkədir. Burada yaşayan əhalinin əksəriyyəti kənd təsərrüfatında məşğul olur.

Ruandanın ərazisində çətin keçilən tropik meşələrlə örtülmüş dağlar (hündürlüyü 1500-2000 m-ə qədər) geniş ərazi tutur. İl ərzində 1000 mm-dən 1500 mm-dək yağıntı düşür, orta illik temperatur 19°C-dir.

Kənd təsərrüfatında qəhvə, çay, piretrum (həşəratı qırmaq üçün poroşok), sor-

qo, qarğıdalı, maniok, kartof, banan əkilir. Ölkənin sənayesi gön-dəri, ayaqqabı, toxuculuq, yeyinti, əczaçılıq, sement istehsalı sahələrindən ibarətdir. Gələcəkdə Kivu gölünün akvatoriyasından təbii qaz yataqlarının işlənməsi və tropik meşələrin şimalında yayılmış dünyanın ən böyük dağ qorillalarına tamaşa etmək üçün turizm sənayesini inkişaf etdirmək nəzərdə tutulur.

Etnik münaqişələr hələ də davam edir

Etnik çoxluq təşkil edən xutu və sayı az olan tutsi tayfaları arasında əsrlərlə davam edən düşmənçilik 1962-ci ildə Belçikadan müstəqilliyini qazandıqdan sonra ölkə sakinlərinin kütləvi məhvinə səbəb olmuşdur. Yalnız 1994-cü ildə baş vermiş qarşıdurmalarda 0,5 mln. nəfərə qədər adam öldürülmüş, 2 mln. nəfərdən çoxu qonşu ölkələrdə qaçqın düşmüşdür. Vətəndaş müharibəsi nəticəsində təsərrüfatı dağılmış ölkədə aclıq və səfalət tüğyan edir.

Burundi Respublikası

Sahəsi: 27834 km²
Əhalisi: 8,5 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 305,4 nəfər/km²
Paytaxtı: Bujumbura (447 min nəfər), Qiteqa (26 min nəfər)
Əsas dillər: fransız, rundi (kirundi)
Dini etiqad: katolisizm (56%), protestantlıq (26%), islam (sünni təriqəti), ənənəvi yerli dinlər
Pul vahidi: Burundi frankı
Dövlət quruluşu: respublika

Burundi ekvatordan cənubda yerləşən kiçik dövlətdir. Ölkə tutsi və xutu xalqları arasında olan etnik münaqişələrdən daim əziyyət çəkir. Yayı daha rütubətli olan ekvatorial iqlim şəraitində il ərzində 800 mm-dən 1600 mm-ə qədər yağıntı düşür.

Burundi Tanqanika gölünün şimal-şərqində, Nil və Konqo çaylarının suayrıcısında yerləşir. Gölün şimal sahilində yerləşən Bujumbura şəhəri ölkənin əsas limanıdır. Təpələrin məhsuldar yamaclarında ölkənin əsas əmtəəlik məhsulu olan qəhvə, həmçinin çay, pambıq, banan, şəkər qamışı, maniok, qarğıdalı becərilir. Sənayedə kənd təsərrüfatı xammallarının emalı, toxuculuq, ayaqqabı, kustar sənətkarlıq inkişaf edir. Burundi Afrikada əhalisi sıx olan ölkələrdən biridir. Doğum səviyyəsi yüksəkdir, ona görə ailələrdə uşaqların sayı çoxdur. Əhalinin 14%-ni təşkil edən tutsilər hökumətdə aparıcı mövqe tutur. Belə vəziyyət etnik üstünlüyə malik olan xutu xalqlarının narazılığına səbəb olur, silahlı toqquşmalara gətirib çıxarır. Nəticədə son vaxtlarda 200 min nəfər həlak olmuşdur, 1 mln. nəfər isə qaçqın düşərək qonşu ölkələrdə məskən salır.

Malavi Respublikası

Sahəsi: 118 484 km²
Əhalisi: 15,4 mln. nəfər
Əhalinin sıxlığı: 130,0 nəfər/km²
Paytaxtı: Lilonqve (850,0 min nəfər)
Əsas dillər: ingilis, nyanca, çeva, lambe
Dini etiqad: protestantlıq (39%), katolisizm (25%), islam (15%), ənənəvi yerli dinlər (8%)
Pul vahidi: Malavi kvaçası
Dövlət quruluşu: respublika

Malavi Afrikanın ən kasıb və zəif inkişaf etmiş dövlətlərindən biridir. Respublika Nyasa (Malavi) gölünün qərb sahilində zolaq şəklində yerləşir. Göl ölkənin 1/5-ni tutur. Nyasa gölü Şərqi Afrika rift zonasında yerləşən tektonik mənşəli göldür. 1891-1964-cü illərdə ölkə B.Britaniyanın müstəmləkəsi olmuş və Nyasaland adlanmışdır. Ekvatorial iqlim şəraitində qış (may-oktyabr) quru, yay (noyabr-aprel) yağıntılı keçir, orta aylıq temperatur 15°C-dən aşağıdır.

Ölkə ərazisinin çox hissəsini yüksəkliklər, yaylalar və dağlar tutur. Cənub-şərqdə yüksələn Mulanco dağ massivində ən hündür nöqtə Sapitva (3002 m) zirvəsidir. Ölkənin ərazisinin 50%-dən çoxu meşələr ilə örtülüdür. Onlar sürətlə əkin yeri və yanacaq üçün qırılır. Malavi çay (Keniyadan sonra) və tütün (Zimbabvedən sonra) istehsalı ilə yanaşı, onların ixracına görə də Afrikada ikinci yeri tutur. Daxili tələbatı ödəmək üçün batat, kalış, qarğıdalı (mais), pambıq, araxis, meyvə-tərəvəz becərilir. Nyasa gölündə balıqçılıq inkişaf etdirilir. Hər il 60 min ton balıq ovlanır. Ölkədə sənaye demək olar ki, yoxdur, dağ-mədən, toxuculuq, yeyinti sahələri yaradılmışdır, mineral ehtiyatlar kifayət etmir. Elektrik enerjisinin 90%-i SES-lərdə istehsal olunur. Regionun digər ölkələrindən fərqli olaraq Malavidə milli-dini və dini zəmində münaqişələr baş vermir. Xəstəliklərin, yoxsulluğun yayılması, tibbi xidmətlərin aşağı səviyyəsi əhalinin sayının artımını ləngidir. Burada orta ömür müddəti 50 ildir. 15 yaşadək uşaqlar əhalinin 45%-ə qədərini təşkil edirlər.

Komor Adaları və Mayotta Komor Adaları İttifaqı

Sahəsi: 1862 km²
Əhalisi: 669 min nəfər (2010)
Əhalinin sıxlığı: 359,3 nəfər/km²
Paytaxtı: Moroni (60,2 min nəfər)
Əsas dillər: komor, fransız, ərəb
Dini etiqad: islam
Pul vahidi: Komor frankı
Əsas ixrac məhsulları: vanil, mixək, ilanq-ilanq
Dövlət quruluşu: respublika



Mayotta

Sahəsi: 376 km²
Əhalisi: 186 min nəfər
Əhalinin sıxlığı: 494,7 nəfər/km²
Paytaxtı: Mamudzu (53 min nəfər)
Əsas dillər: maxor, fransız
Dini etiqad: islam
Pul vahidi: avro
Əsas ixrac məhsulları: vanil, ilanq-ilanq
Dövlət quruluşu: Fransanın xarici ərazisi

Komor Adaları İttifaqı və Fransanın xarici ərazisi olan Mayotta adası Afrikanın şərq sahili ilə Madaqaskar arasındakı arxipelaqda yerləşir. Komor Adaları əvvəllər Fransanın müstəmləkəsi olmuş, 1975-ci ildə müstəqil olmuşdur.

Komor Adaları İttifaqının tərkibinə üç böyük və bir sıra kiçik adalar daxildir. Adalar vulkan mənşəlidir. Nqazica arxipelaqın ən cavan və böyük adasıdır. Onun ən yüksək zirvəsi fəaliyyətdə olan Kartala vulkanıdır (2361 m). Burada qanadları açılmış halda 1,7 metrə qədər olan uçan tülkü diqqəti cəlb edir. Ada sakinlərinin əksəriyyəti balıqçılıqla məşğul olur, kiçik torpaq sahələrini becərərək ərzaq üçün manikok, çəltik, qarğıdalı, vanil, kokos və batat əkir, həmçinin ixrac üçün qəhvə və ədviyyat becərirlər. Ətriyyat və mebel məhsulları istehsal olunur.

Mayotta adasının statusu hələ də öz həllini tapmamışdır. BMT-nin bu adanın Komor Adalarının tərkibinə verilməsi haqqında qərar qəbul etməsinə baxmayaraq, ada sakinləri 1976-cı ildə keçirilən referenduma əsasən Fransanın tərkibində qalmağa səs vermişlər.

Seyşel Adaları Respublikası

Sahəsi: 455 km²
Əhalisi: 87 min nəfər (2010)
Paytaxtı: Viktoriya şəhəri (85 min nəfər)
Əsas dillər: kreol, ingilis, fransız
Dini etiqad: katolisizm
Pul vahidi: Seyşel rupisi
Dövlət quruluşu: respublika

Seyşel Adaları Respublikası Hind okeanının qərbində, Afrikadan 1600 km şərqdə yerləşir. Əvvəllər Böyük Britaniyanın müstəmləkəsi olmuş adalar 1976-cı ildə öz müstəqilliyini qazanmışdır.



Ölkənin ərazisinə 115 ada daxildir. Böyük adaların çox hissəsi kristallik süxurlardan, xüsusilə də qranitdən təşkil olunur, kiçik adalar mərcan atollarıdır. Vulkan mənşəli Qranit adalarının hündürlüyü 600 m-dən çoxdur və çoxunda kiçik çaylar vardır. Mərcan adalarının hündürlüyü isə nadir hallarda 9 metrdən yuxarı qalxır və şirin su mənbəyi yoxdur. Burada 46 adada yaşayış olsa da, əhalinin 98%-i dörd adada yaşayır. Mae, Praslen, Siluet və Felisite adaları Seyşel adaları arasında ən böyükləri və sıx məskunlaşmış olanlardır. Mae ən böyük və sıx məskunlaşan adadır. Burada tropik iqlim hakimdir, yağıntıların miqdarı yüksəklikdən asılıdır, yüksəklik artdıqca yağıntılar da artır (4000 mm). Orta illik temperatur 25°C-dir. Adaların çoxu sıx bitkilərlə örtülür. Kənd təsərrüfatı üçün təmizlənmiş torpaq sahələrində çay, tütün, banan, batat, darçın, kopra, tropik meyvələr, o cümlədən manqo, ananas və s. becərilir. Ağ qumla örtülmüş çimərlikləri, isti iqlimi və zəngin təbiəti bura hər il 300 min nəfərdən çox turistin gəlməsinə səbəb olur. Əmək qabiliyyətli əhalinin 30%-i bu sahədə çalışır. Buna görə də ada sakinlərinin həyat səviyyəsi yüksəkdir.

Reyunon

Sahəsi: 2510 km²
Əhalisi: 794 min nəfər (2006)
Paytaxtı: Sen-Deni (172 min nəfər)
Əsas dillər: fransız, kreol
Dini etiqad: katolisizm
Pul vahidi: avro
Dövlət quruluşu: Fransanın mülkü



Fransanın xarici departamenti olan Reyunon Hind okeanının qərb hissəsində yerləşir. Reyunon Maskaren adaları arasında ən böyüyüdür (adalara Mavrikiy və Rodriges adaları da daxildir). Adanın uzunluğu 75 km-dir. Bu vulkan mənşəli adanın çox hissəsini dağlar tutur, onlardan ən hündürü adanın mərkəzində olan Piton-de-Nej dağıdır (3069 m).

Ada tropik iqlim qurşağında yerləşsə də yüksəkliyə doğru hava sərinləşir, yağıntıların miqdarı yüksəklikdən asılı olaraq çox dəyişir. Cənub və şərqdə leysan yağıntıları ildə 4000 mm, şimalda və qərbdə isə il ərzində 1000 mm-ə qədər rütubət gətirir. Ada siklonların müntəzəm olaraq hərəkət etdiyi zonada yerləşir və güclü leysan yağması ilə müşahidə olunur. Təsərrüfatda kənd təsərrüfatı məhsullarının becərilməsi üstünlük təşkil edir. Adada şəkər qamışı becərilən əsas bitkidir, həmçinin rom, vanil, efir yağı da ixrac edilir. 1988-ci ildən turizm yüksək sürətlə inkişaf edir. Gözəl landşaftı, qumlu çimərlikləri, zəngin və rəngarəng gülçiçəkləri turist axınına səbəb olur.

Mavriki Respublikası

Sahəsi: 2040 km²
Əhalisi: 1269 min nəfər
Əhalinin sıxlığı: 622,1 nəfər/km²
Paytaxtı: Port-Lui (175 min nəfər)
Əsas dillər: ingilis, kreol, bxocpuri, hindi, tamil
Dini etiqad: hinduizm (50%), katolisizm, islam, buddizm
Pul vahidi: Mavriki rupisi
Dövlət quruluşu: respublika

Mavriki Respublikası Hind okeanında eyni adlı adanı və çoxlu kiçik adaları əhatə edir. Ölkə Madaqaskardan 800 km şərqdə yerləşir.

1598-ci ildə hollandiyalılar Mavrikiyə gəldikdən sonra burada insan yaşamağa başlamışdır. Ada əvvəlcə fransızların, sonra isə ingilislərin müstəmləkəsi olmuş, 1968-ci ildə müstəqillik qazanmışdır. Vulkan mənşəli adanın cənub rayonları dağlıq, mərkəzi hissəsi yayla, şimal hissəsi ovalıqdan ibarətdir. Əhalinin 68%-i XIX əsrdə adaya gətirilmiş hindli işçilərinin nəsilləri olan hindli-mavrikililərdir. Kreollar (metislər) əhalinin 27%-ni təşkil edir. Avropalı və çinlilərdən ibarət milli azlıqlar vardır. Şəkər qamışı, çay, çəltik, meyvə-tərəvəz və tütün becərilir.

Liberiya Respublikası

Sahəsi: 111 370 km²
Əhalisi: 4,1 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 36,8 nəfər/km²
Paytaxtı: Monroviya (1015 min nəfər)
Əsas dillər: ingilis, krio, kpelle
Dini etiqad: ənənəvi yerli dinlər (40%), islam (40%), protestantlıq (20%)
Pul vahidi: Liberiya dolları
Dövlət quruluşu: respublika

1847-ci ildə ABŞ-dan gəlmiş mühacir-qullar tərəfindən yaradılmış Liberiya, Efiopiya kimi sonrakı dövrlərdə həmişə müstəqil olmuşdur.

Ölkənin sahilləri qayalıqlar, laqunlar və qumlu dayazlıqlarla əhatə olunur. Əhali əsasən sahilboyu ovalıqda yaşayır. Şimala doğru düzənliklər yaylalar və alçaq dağlara keçir. Burada ölkənin ən hündür zirvəsi Vuteve dağı (1381 m) yüksəlir. Liberiyanın ərazisinin 1/3 hissəsini ekvatorial meşələr tutur. Sahil boyu il ərzində 5000 mm, daxili rayonlarda 1500-2000 mm yağıntı düşür, orta aylıq temperatur 23°C-dir.

Qanlı vətəndaş müharibəsi (1990-1997) Liberiyanın təsərrüfatına ciddi ziyan vurmuş, 10 min nəfərdən artıq adam həlak olmuş, əhalinin yarıya qədəri qaçqın düşmüş, ölkənin paytaxtı Monroviya dağıdılmışdır. İş yerləri bağlanmış, insanlar işsiz qalmışdır. Müharibəyə qədər heveya (kauçuk) ağacı plantasiyalarına və dəmir filizi şaxtalarına malik olan xarici şirkətlərdə xeyli işçi çalışırdı, kauçuk və dəmir filizi ixracından xeyli gəlir əldə edilirdi. Hazırda əmək qabiliyyətli əhalinin 3/4 hissəsi dənli bitkilər, çəltik, qəhvə, tütün, kauçuk, yağlı palma, meyvə və tərəvəz becərilməsi ilə məşğul olur. Ucuz vergi və qeydiyyat haqlarına görə dünya ticarət gəmilərinin 20%-i Liberiya bayrağı altında üzür və onun limanlarında qeydiyyata alınmşdır.

Toqo Respublikası

Sahəsi: 56 785 km²
Əhalisi: 6,8 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 119,8 nəfər/km²
Paytaxtı: Lome (1377 min nəfər)
Əsas dillər: fransız, eve, kabre, qurma
Dini etiqad: ənənəvi yerli dinlər (50%), katolisizm (35%), islam (15%)
Pul vahidi: Afrika frankı
Dövlət quruluşu: respublika

Toqo Qvineya körfəzindən materikin daxilinə doğru ensiz zolaq şəklində 540 km uzanır. Ölkədə Afrikanın təbiətinin bütün müxtəlifliyi özünü göstərir, paytaxtı Lome regional əhəmiyyətli limandır.

Toqoda düzənliklərin əsas hissəsini seyrək baobab ağacları bitən, yüksək otlardan ibarət savannalar tutur. Çayların vadilərində həmişəyaşıl meşələr, daxili rayonlarda yağlı palma bitir. Cənubda ekvatorial iqlim şəraitində iki yağıntılı mövsüm, şimalda bir yağıntılı mövsüm olur, ildə 600-1700 mm yağıntı düşür. Əmək qabiliyyətli əhalinin 65%-nin məşğul olduğu kənd təsərrüfatında kiçik torpaq payları üstünlük təşkil edir. Kənd əhalisi yams, qarğıdalı,

darı, kakao, qəhvə, manikok, kalış, meyvə-tərəvəz becərir. ***Yams*** - əhalinin əsas ərzaq məhsullarından biridir. Bitkinin kökündən un alınır və ya qaynadıb yeyirlər. Ölkə əhalinin ərzaq tələbatını tam ödəyə bilir. Zəngin və yüksək keyfiyyətli fosforit yataqlarından hasil edilən xammal dövlət büdcəsinə xeyli vəsaitin gəlməsini təmin edir. Əhalinin etnik tərkibi müxtəlifdir. Kabre və eve xalqları arasında gərgin münasibətlər vardır.

Kot-d'İvuar Respublikası

Sahəsi: 320783 km²
Əhalisi: 22,0 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 68,6 nəfər/km²
Paytaxtı: Yamusukro (rəsmi paytaxtı; 300 min nəfər), Abican (inzibati paytaxtı; 4,2 mln. nəfər)
Əsas dillər: fransız, akan, malinke, kru
Dini etiqad: katolisizm (34%), islam (27%), ənənəvi yerli dinlər (15%), digərləri (24%)
Pul vahidi: Afrika frankı
Dövlət quruluşu: respublika

Fransız dilindən tərcümədə Kot-d'İvuar "Fil Dişi Sahili" deməkdir. Bu ad ərazidə fillərin kütləvi ovlanması ilə əlaqədar yaranmışdır. Fransanın keşmiş müstəmləkələri arasında Kot-d'İvuar siyasi sabitliyi ilə fərqlənir.

Kot-d'İvuar geniş düzənlikdə yerləşir. Sahilboyu əraziləri əhatə edən laqunlar, bataqlıqlar və qum dayazlıqları gəmilərin hərəkətini çətinləşdirir. Fransa gəmilərinin Abicana yaxınlaşması üçün 1950-ci ildə kanal çəkilmişdir. Şimalda savannalar yayılır, qərbə doğru relyef yüksəlir, mərkəzi rayonlar ekvatorial meşələrlə örtülür. Orta illik temperatur 27°C,

Abican şəhəri

illik yağıntıların miqdarı cənubda 2400 mm, şimalda 1100-1800 mm-ə qədərdir. Əkinçilik əmək qabiliyyətli əhalinin əsas məşğuliyyət sahəsidir. Ölkədə daxili istehlak və ya satış üçün məhsul istehsal edən çoxsaylı kiçik təsərrüfatlar olsa da, aqrar sahə yüksək məhsuldarlığı ilə fərqlənir. Kot-d'İvuar dünyada kakao ləpəsi, qəhvə istehsalında, eləcə də ixracında qabaqcıl ölkələrdən biridir. 1983-cü ildə paytaxt Kosu su anbarı sahilində yerləşən Yamusukro şəhərinə köçürüldü. Lakin Abican iri inzibati, təsərrüfat, mədəni mərkəz, ən çox əhaliyə malik şəhər olaraq qalır. Siyasi sabitliyin qorunması və metropoliyadan olan maliyyə dəstəyi nəticəsində ölkə 1960-1970-ci illərdə Afrikanın ən çiçəklənən ölkələrindən birinə çevrilmişdir. Şimalda yaşayan müsəlmanlar və cənubdakı xristianlar arasında silahlı qarşıdurmalar baş verir.

Qana Respublikası

Sahəsi: 238 533 km²
Əhalisi: 24,0 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 101 nəfər/km²
Paytaxtı: Akkra (2906 min nəfər)
Əsas dillər: ingilis, akan, xausa, mosi
Dini etiqad: ənənəvi yerli dinlər (38%), islam (30%), katolisizm (24%), digər dinlər (8%)
Pul vahidi: sedi
Dövlət quruluşu: respublika

Qana Afrikanın firavan və sabit inkişaf edən ölkələrindən biridir. Onun davamlı inkişafının əsas səbəbi məhsuldar torpaqların və zəngin mineral ehtiyatların olmasıdır. 1957-ci ildə müstəqillik əldə edənə qədər Qana Qızıl Sahil adı ilə B.Britaniyanın müstəmləkəsi olmuşdur.

Qananın ərazisinin çox hissəsini düzənliklər tutur. Yalnız Toqo ilə sərhəd boyu alçaq dağ silsiləsi vardır, ən hündür nöqtə 880 m-dir

(Afacato dağı). Ağ və Qara Volta çaylarının birləşməsindən yaranan Volta çayının hövzəsi ölkə ərazisinin yarısından çoxunu tutur. Çayın aşağı axarında Akasumbo bəndi yaradılmışdır. Volta çayı üzərində Qərbi Afrikanın ən böyük Volta su anbarı yerləşir. Ölkənin bütün enerji tələbatını SES-lər ödəyir.

İqlim və təsərrüfat

Qanada subekvatorial iqlim şəraitində orta illik temperatur +26°C-dir. Yağıntılar iki mövsümdə düşür: mart-iyul və sentyabr-oktyabr aylarında illik normanın demək olar hamısı düşür. Şimalda 1000 mm, cənubda 2050 mm yağıntı olur. Qışda az yağır. Qananın düzənlik hissəsini savannalar tutur. Ekvatorial meşələr cənubda ərazinin 10%-ni örtür. Bununla yanaşı Qana Afrikada oduncaq istehsalında ikinci yeri tutur. İqlim şəraiti kakao ağacı plantasiyaları üçün əlverişlidir. Onun məhsulu ixracatda mühüm yer tutur, həmçinin çəltik, qəhvə, araxis, qarğıdalı, banan, darı, kalış becərilir. Qana öz əvvəlki adını doğruldaraq qızıl hasilatında Afrikada üçüncü yeri tutur (2006-cı ildə 66,2 t). Ölkədə almaz, boksit, manqan da hasil olunur, yeyinti, neft, ağac emalı, alüminium əridilməsi sahələri vardır.

1966-1981-ci illərdə hərbi çevrilişlər olmasına baxmayaraq, Qana siyasi cəhətdən ətraf ölkələrə nisbətən daha sabitdir, 1992-ci ildən isə davamlı olaraq inkişaf edir.

Nigeriya Federativ Respublikası

Sahəsi: 923 103 km²
Əhalisi: 158,3 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 171,5 nəfər/km²
Paytaxtı: Abuca (778,5 min nəfər)
Əsas dillər: ingilis, xausa, yoruba, iqbo, fula (fulani)
Dini etiqad: islam (50%), protestantlıq, katolisizm (birlikdə 40%), ənənəvi yerli dinlər (10%)
Pul vahidi: nayra
Dövlət quruluşu: respublika

Nigeriya Afrikanın ən sıx məskunlaşmış və çoxmillətli ölkəsidir. 1960-cı ildə müstəqillik əldə etdikdən sonra Nigeriyada bir neçə silahlı münaqişə, o cümlədən 1967-1970-ci illərdə vətəndaş müharibəsi olmuşdur. Bu zaman iqbo separatçıları Biafra ayalətini respublika elan etmişdilər. 1999-cu ildə 15 illik hərbi rejimdən sonra sülh şəraitində mülki hökumət qurulmuşdur.

Nigeriyanın ərazisini okeandan qumlu çimərliklər, ensiz zolaq şəklində uzanan bataqlıqlar ayırır. Ölkənin cənub hissəsi dənizsahili düzənlikdə yerləşir, şimala doğru relyefin yüksəkliyi artaraq, pilləkən formalı Cos yaylasına keçir. Əsas su arteriyası və ən böyük çay olan Niger ölkəni şimal-qərbdən cənuba tərəf kəsib-keçir, Qvineya körfəzinə tökülərkən sahəsi 36 min km² olan delta əmələ gətirir. Sahilboyu ərazilərdə yağıntıların illik miqdarı 1800-3800 mm, ölkənin şimalında 25 mm-dən azdır. Çayların vadilərində və sahillərdə yağıntıların çoxluğu dənli bitkilərdən, xüsusilə çəltikdən yüksək məhsul almağa imkan verir. Sahilboyu düzənlikləri rütubətli ekvatorial meşələr örtür, burada bitən qırmızı ağac yüksək qiymətləndirilir. Şimala doğru meşələr seyrəlir, əsas əkinçilik rayonları olan yüksək otlu savannalara keçir, sonra Sahelin yarımsəhraları yaranır, onlar səhralarla əvəz olunur.

Təsərrüfatın neftdən asılılığı

Nigeriya faydalı qazıntılarla, o cümlədən qalay, dəmir filizi, niobiy, daş kömür, sink və qurğuşunla zəngindir. Lakin ölkənin iqtisadi inkişafının əsas amili neft hasilatı aparılmasıdır. Dünya bazarında aparıcı neft hasilatçılarından biri olan Nigeriyada sutkada 2,3 mln. barrelə qədər neft çıxarılır. Çıxarılan neftin 90%-i ixrac olunur. Neft ixrac məhsullarının 95%-ni təşkil edir. Lakin ölkədə dövlət səviyyəsində yaranan korrupsiya nəticəsində əldə edilən sərvətlərin geniş əhali təbəqəsinin həyat şəraitinin yaxşılaşmasına təsiri azdır. Təsərrüfatın neftdən asılılığı iqtisadi inkişaf üçün problemdir. Dünya bazarındakı qiymətlər gəlirlərə ciddi təsir göstərir. Təbii qaz və digər faydalı qazıntıların hasilatı hələlik azdır. Sənayenin neft, qaz, kənd təsərrüfatı məhsullarının emalı, kimya, elektrotexnika, ağac emalı sahələri vardır.

Əkinçilikdə işçi qüvvəsinin 40%-i məşğul olur. Plantasiyalarda ixrac üçün kakao, kauçuk ağacı, pambıq becərilir. Kiçik kəndli təsərrüfatlarında kalış, çəltik, araxis, şəkər qamışı, qarğıdalı, darı, taro və yams əkilir. Əhalinin sayının sürətlə artması ilə əlaqədar ərzaq idxal etmək zərurəti yaranır. Etnik müxtəlifliklə yanaşı ölkədə dini prinsiplərə görə qruplaşma da vardır. Ölkənin şimalında müsəlmanlar, cənubda xristianlar və ənənəvi yerli dinlərə sitayiş edənlər yaşayır.

Materikin ən çoxmillətli ölkəsi

Avropadan müstəmləkəçilərin gəlişindən xeyli əvvəl Nigeriyanın ərazisində böyük imperiyalar və şəhər-dövlətlər mövcud olmuşdur. Hələ X-XII əsrlərdə burada yoruba (İfe), xausa (Katsina, Kano, Kanem-Bornu), edo (Benin) xalqlarının ilkin feodal dövlətləri yaranmışdır. XII-XV əsrlərdə regionun dövlətlərində, tacir-müsəlmanlar tərəfindən səhradan keçməklə bura gətirilmiş islam qəbul edilmişdir. Yorubo, xausa və iqbo xalqları əhalinin 50%-ə qədərini təşkil edir. Qalan əhali 250-dən çox müxtəlif etnik qruplara daxildir.

Niger Respublikası

Sahəsi: 1267 min km²
Əhalisi: 15,9 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 12,6 nəfər/km²
Paytaxtı: Niamey (1033 min)
Əsas dillər: fransız, xausa, cerma-sonqay
Dini etiqad: islam (80%), ənənəvi yerli dinlər
Pul vahidi: Afrika frankı
Dövlət quruluşu: respublika

Nigerin ərazisinin çox hissəsini Böyük Səhra və Sahelin yarımsəhraları tutur. Əhali əsasən ölkənin cənubundan axan Niger çayının sahillərində yaşayır. Niger dünyanın ən geri qalmış və kasıb ölkələrindən biridir.

Nigerin okeana çıxışı yoxdur. Ölkənin 2/3 hissəsini tutan Böyük Səhranın sahəsi torpaqların səhralaşması şəraitində getdikcə cənuba irəliləyir. Cənubda qalan hissəsini isə yarımsəhralar tutur. Yağıntılar şimalda 100 mm-ə qədər, cənubda 800 mm-dir. İstifadə üçün ölkə ərazisinin cəmi 4%-i yararlı olsa da, əmək qabiliyyətli əhalinin 90%-i kənd təsərrüfatı ilə (darı, maniok, qarğıdalı, çəltik, araxis, palma, tərəvəz), onun əsas sahəsi olan heyvandarlıqla məşğul olur. 1980-ci ildən ölkədə böyük həcmdə uran çıxarılır. Onun ixrac qiymətinin artması dövlət büdcəsinə daxil olan vəsaitlər artır. Ölkədə qalay, kömür, duz və fosforit hasilatı da aparılır. Əhalinin milli tərkibi müxtəlifdir. Əsas etnik qruplara xausa (55%), cerma (21%-ə qədər), fulbe və tuareqlər aiddir. Xausalar əsasən cənub və mərkəzi hissədə yaşayırlar. Tuareqlər şimalda yaşayır və köçəri həyat tərzi keçirirlər. Niger əhalinin artım tempinə görə (ildə 3,4%) dünyada ilk yerlərdən birini tutur. Bu da ölkə üçün böyük iqtisadi və sosial çətinliklər yaradır.

Burkina-Faso Respublikası

Sahəsi: 274 122 km²
Əhalisi: 16,2 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 59,1 nəfər/km²
Paytaxtı: Uaqaduqu (1475 min nəfər)
Əsas dillər: fransız, mosi, fula (fulani), qurma
Dini etiqad: islam (50%), ənənəvi yerli dinlər (40%), katolisizm (10%)
Pul vahidi: Afrika frankı
Dövlət quruluşu: respublika

Böyük Səhradan cənubda yerləşən və okeana çıxışı olmayan Burkino-Faso 1895-1984-cü illərdə Yuxarı Volta adlanmışdır. 1895-ci ildən müstəqillik əldə etdiyi 1960-cı ilə qədər Fransanın müstəmləkəsi olmuşdur.

Burkina-Faso Böyük Səhradan savannalara keçid zonası olan yarımsəhra Saheldə alçaq təpəlik platoda (yaylada) yerləşir. Siyasi cəhətdən qeyri-stabillik, tez-tez baş verən quraqlıq və Böyük Səhranın genişlənməsi nəticəsində geniş otlaq sahələrinin səhralaşması ölkənin iqtisadi inkişaf tempini ləngidir. Əhalinin çox hissəsi cənubda yaşayır, kənd təsərrüfatı ilə məşğul olur, kalış, qarğıdalı, darı, düyü, yams və s. bitkilər becərilir. Pambıq, şəkər qamışı, araxis də əkinçilikdə əsas əmtəə ixrac məhsullarıdır. Heyvandarlıq mühüm sahədir. İri buynuzlu malqara, qoyun və keçilərin sayı quraqlıqlara görə getdikcə azalır. Dağ-mədən sənayesi obyektləri fəaliyyət göstərir. Burkina-Faso əhalisinin əksər hissəsini mosi xalqı təşkil edir. Orta əsrlərdə mosilər əzəmətli Yatenqa, Uaqaduqu və başqa dövlətlərini yaratmışlar.

Benin Respublikası

Sahəsi: 112 622 km²
Əhalisi: 9,8 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 87,0 nəfər/km²
Paytaxtı: Porto-Novo (rəsmi paytaxtı; 224 min nəfər), Kotonu (inzibati paytaxtı; 879 min nəfər)
Əsas dillər: fransız, fon, yoruba, aca
Dini etiqad: ənənəvi yerli dinlər (50%), katolisizm (30%), islam (20%)
Pul vahidi: Afrika frankı
Dövlət quruluşu: respublika

Əvvəllər Daqomeya adlanan Benin Qərbi Afrikanin kiçik ölkələrindən biridir. Benin Qvineya körfəzindən Niger çayına qədər 670 km məsafədə uzanan ölkədir.

Benin savannalar ilə örtülən yüksəklikdə yerləşir. Yalnız okean sahili ovalıqlarda olan bataqlıqlar və çayların vadilərində ekvatorial meşələr yayılmışdır. Ölkənin şimalında subekvatorial iqlim hakimdir, yağıntılar şimaldan cənuba doğru artır (1000-2000 mm). Şimal rayonlar üçün səhralaşma əsas problemdir. Cənubda yaşayan əhali qarğıdalı, manikok, düyü, tütün, yams, şimalda daha çox darı və kalış (Hindistan darısı) becərir. Mühüm əmtəə məhsulları qəhvə, yağlı palmadır. Şimal rayonlarında pambıq becərilir, lakin əhalinin əsas məşğuliyyət sahəsi maldarlıqdır, balıqçılıq inkişaf edir, kənd təsərrüfatı məhsulları emal olunur. Benində

Benində savanna zonası

çoxlu etnik qrup yaşayır. Onlardan ən böyüyü əhalinin 40%-ni təşkil edən fon xalqıdır. XVII əsrdə bu ərazilərdə paytaxtı Abomey olan Daqomeya dövləri yaranmışdır. Ölkə XIX əsrin sonundan 1960-cı ilə qədər Fransanın müstəmləkəsi, 1960-cı ildə müstəqil olmuş, 1975-ci ildə Benin adlanmışdır. Müstəqilliyin ilk illərində bir neçə hərbi çevriliş olsa da, 1991-ci ildə ölkədə ilk seçkilər keçirilmişdir.

Qambiya Respublikası

Sahəsi: 10 689 km²
Əhalisi: 1,8 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 168,4 nəfər/km²
Paytaxtı Bancul (524 min nəfər)
Əsas dillər: ingilis, malenke, fula (fulani)
Dini etiqad: islam (90%)
Pul vahidi: dalasi
Dövlət quruluşu: respublika

Afrikanın ən kiçik dövlətlərindən biri olan Qambiya uzunluğu 350 km, eni 80 km-ə qədər zolaq şəklində Atlantik okeanından Seneqalın daxilinə doğru uzanır. Qambiya eyniadlı çayın sahillərində yerləşir və üç tərəfdən Seneqal ilə əhatə olunur. Ölkə 1965-ci ildə B.Britaniya müstəmləkəsindən azad olmuşdur. Paytaxt Bancul eyni adlı adada, Afrikanın qərb sahillərində ən mənzərəli yerdə, təbii və dərin buxtada salınmış şəhərdir. Müstəqillik Parkı şəhəri materiklə birləşdirir.

Ölkədə iqlim şəraiti istidir (orta illik temperatur 26°C), yay (iyun-oktyabr) rütubətli və qış (noyabr-may) quraq keçir. Ərazisinin çox hissəsini savannalar tutur. Yalnız çayın mənsəbində tropik meşələr və manqrlar yayılır. Ölkəyə əsas valyuta gətirən (təxminən 50%) və ixrac olunan yeganə bitki araxisdir. Əsas ərzaq bitkisi isə çəltik, darı, qarğıdalıdır. Sənaye əkinçilik məhsullarının emalı və toxuculuq ilə təmsil olunur. Qambiya əhalisinin etnik tərkibi müxtəlifdir. Kənd əhalisinin çoxu işləmək üçün şəhərə gedir, burada əmək haqqı 3-4 dəfə yüksəkdir. Onlar xidmət sahələrində və turizm sənayesində çalışır. Hər il ölkəyə 100 min nəfər turist gəlir. Bu sahə dövlət büdcəsinin ən gəlirli sahəsinə çevrilməklə yanaşı, kustar sənayenin də inkişafına imkan verir.

Qvineya-Bisau Respublikası

Sahəsi: 36 125 km²
Əhalisi: 1,6 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 44,3 nəfər/km²
Paytaxtı: Bisau (420 min nəfər)
Əsas dillər: portuqal, kreol, balante, fula (fulani), malenke
Dini etiqad: ənənəvi yerli dinlər (yarıya qədər), islam (45%), xristianlıq (5%)
Pul vahidi: Afrika frankı
Dövlət quruluşu: respublika

Qvineya-Bisau 1973-cü ildə Portuqaliyanın müstəmləkəsindən azad ilk ölkə olsa da, siyasi sabitlik yoxdur. O, dünyanın ən kasıb ölkələrindən biridir və xarici maliyyə yardımından asılıdır.

Ərazisinin yarısını bataqlıqlaşmış ovalıqlar tutur, mərkəzi və cənub hissələrində isə dağlıq yayla yüksəlir. Sahil xətləri çoxsaylı çayların estuariləri ilə parçalanmışdır. Sahil boyunca 60-dan çox müxtəlif ölçüdə ada vardır. Onlardan ən böyükləri Bijaqoş adalarıdır. Rütubətli tropik

iqlimin xas olduğu ölkədə çoxlu yağıntı düşür (1200-2500 mm). Atlantik okeanı sahillərini manqr cəngəlikləri əhatə edir. Onlardan sonra yaranan rütubətli tropik meşələrdə qiymətli ağac növləri vardır. Ölkənin daxili ərazilərində yağıntının miqdarı azalır və savanna zonası əmələ gəlir. Qalay, boksit və mis yataqları kəşf edilmiş, şelf zonada isə perspektiv neft yataqları müəyyən edilmişdir. Lakin bu ehtiyatlar hələlik az istifadə olunur. Əmək qabiliyyətli əhalinin 80%-i əkinçilik (çəltik, qarğıdalı, keşyu və araxis ləpəsi, yağlı palma, darı, kalış) və balıqçılıqla məşğul olur. Əhalinin etnik tərkibi müxtəlifdir. Əsas xalqlara balante (32%), fulbe (22%), malenke (13%) aiddir. Ölkədə vətəndaş müharibəsi gedir, bir neçə dəfə dövlət çevrilişi olmuşdur. Əhalinin çox hissəsi yoxsul, 58%-i savadsızdır, uşaqların 11%-i yetkinlik yaşına qədər yaşamır.

Afrikanın əksər ölkələrində əhali hələ də komalarda yaşayır

Seneqal Respublikası

Sahəsi: 196 712 km²
Əhalisi: 12,5 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 63,6 nəfər/km²
Paytaxtı: Dakar (2446 min nəfər)
Əsas dillər: fransız, volof, fula (tukulor), serer
Dini etiqad: islam (92%)
Pul vahidi: Afrika frankı
Dövlət quruluşu: respublika

Seneqal 1960-cı ildə müstəqillik qazandıqdan sonra da əvvəlki metropoliyası Fransa ilə sıx əlaqələrə malikdir. Buna görə onun təsərrüfatı qonşu ölkələrlə müqayisədə daha yaxşı inkişaf etmişdir. Paytaxtı Dakar ölkənin ən böyük şəhəridir. O, Afrikanın ucqar qərb nöqtəsi olan Almadi burnunun da olduğu Yaşıl Burun yarımadasında yerləşir.

Seneqalın qərb sahillərini Atlantik okeanının suları yuyur. Ölkə ovalıqda yerləşir. Cənub-şərqdə okean səviyyəsindən 500 m-dək hündürlükdə olan yüksəklik vardır. Orta illik temperatur 25°C-dir. Seneqalın əksər hissəsini savannalar örtür, lakin cənubda illik yağıntıların 1500 mm-ə qədər düşdüyü ərazilərdə rütubətli tropik meşələr yayılmışdır. Əsas çay olan Seneqal Mavritaniya ilə təbii sərhəd rolunu oynayır. Hər il çayın daşması nəticəsində geniş ərazilərdə məhsuldar lil toplanır. Bu

isə dənli bitkilərin becərilməsinə imkan verir. Əmək qabiliyyətli əhalinin 77%-i əkinçiliklə məşğul olur. Təsərrüfatın aparıcı bitki olan araxisdən asılılığını azaltmaq üçün hökumət şəkər qamışı, çəltik, darı, kalış, pambıq, tərəvəz əkilməsini həvəsləndirən tədbirlər görür. Seneqalda əhalinin etnik tərkibi kifayət qədər müxtəlifdir. Sayı çox olan etnik qruplara volof (43%) və tukuler (23%) xalqları aiddir. Seneqal qonşu dövlətlərə nisbətən daha sabit və firavan ölkədir. Burada kommunikasiya və nəqliyyat yaxşı inkişaf etmişdir, iqtisadi potensial getdikcə güclənir.

Kabo-Verde Respublikası

Sahəsi: 4033 km²
Əhalisi: 509 min nəfər
Əhalinin sıxlığı: 126 nəfər/km²
Paytaxtı: Praya (125 min nəfər)
Əsas dillər: portuqal, kreol
Dini etiqad: katolisizm (90%)
Pul vahidi: eskudo
Dövlət quruluşu: respublika





Kabo-Verde dövləti Afrikanın qərb sahillərinə yaxın Yaşıl Burun adalarında yerləşir. Ölkə 1975-ci ildə Portuqaliyanın müstəmləkəsindən azad olaraq müstəqillik qazanmışdır.

Respublika on böyük və beş kiçik vulkan mənşəli adalarda yerləşir. Ən yüksək nöqtəsi fəaliyyətdə olan Foqu (2829 m) vulkanıdır. Ölkə əhalisinin 70%-dən çoxu afrikalılarla avropalıların nikahından olan mulatlardır.

Əhalinin yarısından çoxu Santyaqu adasında yaşayır. Adaların iqlimi isti və quraqdır, orta aylıq temperatur yanvar-fevralda 22°C, sentyabr-oktyabrda 25°C-dir, il ərzində 100-300 mm arasında yağıntı düşür. Ölkə su çatışmadığından əziyyət çəkir.

Suvarma əkinçiliyi (qarğıdalı, tütün, banan, qəhvə, şəkər qamışı, meyvə-tərəvəz) yalnız vadilərin ayrı-ayrı hissələrində mümkündür. Ərzaq məhsullarının çox hissəsi idxal olunur. Avropa İttifaqı təhsil və səhiyyənin inkişaf etdirilməsinə yardım göstərir. Adalara getdikcə daha çox sayda turist gəlir. Yüngül, yeyinti, gəmi təmiri, kustar sənaye sahələri vardır.

Kabo-Verde dünyanın əsas turizm mərkəzlərindən birinə çevrilir

Mərkəzi Afrika Kamerun Respublikası

Sahəsi: 475 442 km²
Əhalisi: 20,0 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 42,1 nəfər/km²
Paytaxtı: Yaunde (1,4 mln. nəfər)
Əsas dillər: fransız, ingilis, fanq, bamileke
Dini etiqad: katolisizm (50%), ənənəvi yerli dinlər (25%), islam (25%)
Pul vahidi: Afrika frankı
Dövlət quruluşu: respublika

Kamerun 1961-ci ildə müstəqillik qazanmışdır. Hökumətin apardığı çevik siyasət nəticəsində ölkədə siyasi stabillik qorunur.

Kamerunun cənubunda sahilboyu ovalıq yerləşir. Onlar rütubətli ekvatorial meşələrlə örtülmüş yaylalara keçir. Şimalda Çad gölünə qədər savannalar yayılır. Şimal-qərbdə Nigeriya ilə sərhəddə sıra dağlar ucalır. Ən hündür zirvə fəaliyyətdə olan Kamerun vulkanıdır (4070 m). Massivin qərb yamacı dünyanın ən çox yağıntı düşən yerlərindən biridir, ildə 10 000 mm-dən çox yağıntı düşür. Kamerunda 210-dan artıq xalq yaşayır. Onlardan ən böyükləri fanq, bamileke, duala və fulbe xalqlarıdır. Kamerunun zəngin ağac ehtiyatları meşə sənayesinin inkişaf etməsinə səbəb olmuşdur. Ölkə qiymətli qırmızı, eben və tik (hind palıdı) ağac növlərini ixrac edir. Ölkənin iqtisadi inkişafında neft və qalay hasilatının da rolu böyükdür. Enerji istehsalının 90%-i SES-lərin payına düşür, istehsal olunan enerjinin yarıya qədəri alüminium sənayesində istifadə edilir. Neft emalı, toxuculuq sahələri vardır. Bir sıra ərzaq məhsulları, o cümlədən qəhvə, kakao, banan ixrac edən ölkə özünü ərzaq məhsulları (qarğıdalı, darı) ilə təmin edir, pambıq becərilir.

Mərkəzi Afrika Respublikası (MAR)

Sahəsi: 622 436 km²
Əhalisi: 4,8 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 77,1 nəfər/km²
Paytaxtı: Banqi (747 min nəfər)
Əsas dillər: fransız, sanqo, qvaya
Dini etiqad: protestantlıq (50%), ənənəvi yerli dinlər (35%), islam (sünni etiqadı 15%)
Pul vahidi: Afrika frankı
Dövlət quruluşu: respublika

MAR 1960-cı ildə Fransanın müstəmləkəsindən azad olmuşdur. Onun tarixi bir-birinin ardınca olan dövlət çevrilişi sırasında ibarətdir.

MAR-ın ərazisinin çox hissəsini hündürlüyü 600 m-dən 900 m-ə qədər olan Azande yaylası tutur. Şimal-qərbdə Baqaranqa və Bakore, şimal-şərqdə Fertit dağları uzanır. Cənubda ekvatorial meşələr vardır. Meşələrin bir hissəsi qorilla və bəbirlərin mühafizəsi üçün qoruq elan edilmişdir. Ərazinin qalan hissəsini savanna və seyrək meşələr örtür, şimalda onlar yarımsəhralara keçir. Dünyanın ən kasıb

ölkələrindən biri olan MAR-ın əhalisinin 80%-i ***natural kənd təsərrüfatı*** (becərdikləri məhsulu bazarda başqa bir məhsula dəyişirlər) ilə məşğul olur, qəhvə, pambıq, qarğıdalı, banan, tütün əkilir. Ölkədə uran, dəmir filizi və mis ehtiyatları olsa da, yalnız almaz hasil olunur. Bu sahə ixrac gəlirlərinin 40%-ni təmin edir.

Ekvator Qvineyası Respublikası

Sahəsi: 28051 km²
Əhalisi: 1015 min nəfər
Əhalinin sıxlığı: 36,2 nəfər/km²
Paytaxtı: Malabo (96 min nəfər)
Əsas dillər: ispan, fransız, fanq, bubi
Dini etiqad: katolisizm (80%), ənənəvi yerli dinlər
Pul vahidi: Afrika frankı
Dövlət quruluşu: respublika

Ekvator Qvineyasının ərazisi materik hissəsindən və beş adadan ibarətdir. Ölkənin paytaxtı Malabo bu adaların ən böyüyü olan Biokoda yerləşir.

Ekvator Qvineyasının materikdə yerləşən hissəsi (ümumi adı Mbini, əvvəllər Rio-Muni) alçaq (1200 m-dək) dağ silsilələri olan yüksəklikdən ibarətdir.

Ərazinin yarısından çoxu keçilməz tropik meşələrlə örtülür. Müxtəlif növ heyvanlar aləminə timsah, fil, bəbir, qorilla və şimpanze daxildir. Meşələrin nəzarətsiz qırılması onların bir çox növlərini məhv olmaq təhlükəsi qarşısında qoyur. Ən böyük ada olan Biokonun landşaftı materikdəki ərazisi ilə təzad təşkil edir. Adada bir sıra sönmüş vulkanlar yerləşir, onlardan ən yüksəyi Malabo (3008 m) vulkanıdır. Vulkanların kraterində mənzərəli göllər yerləşir, yamaclar boyu şəffaf sulu çaylar axır.

Vulkan mənşəli süxurlar üzərində yaranan məhsuldar torpaqlarda kakaonun əkinlərindən yüksək məhsul götürülür. XX əsrin sonuna qədər təsərrüfatın əsasını kakao, qəhvə, pambıq becərilməsi, qiymətli ağacların tədarükü təşkil edirdi. Onlar keçmiş metropoliya olan İspaniyaya və Fransaya ixrac olunurdu. Daxili tələbat üçün yams, maniok, çəltik və banan yetişdirilir.

Ölkə 1778-ci ildə İspaniyanın müstəmləkəsi olmuş, 1968-ci ildə müstəqillik qazanmışdır. Uzun illərin hərbi diktatura rejimi ölkənin müflis olmasına və əhalinin kasıblaşmasına gətirib çıxarmışdır. 1980-ci ildə şelf zonasında neft yataqları kəşf edilmişdir. Ölkə iri neft ixracatçılarından biridir, hər gün 115 min barrel neft çıxarılır. Lakin gəlirlər az sayda insanların rifahının yaxşılaşmasına xidmət edir, əhalinin əsas hissəsi yoxsulluq şəraitində yaşayır.

San Tome və Prinsipi Respublikası

Sahəsi: 1001 km²
Əhalisi: 200 min nəfər (2010)
Əhalinin sıxlığı: 200,0 nəfər/km²
Paytaxtı: San-Tome (58 min nəfər)
Əsas dillər: portuqal, kreol
Dini etiqad: katolisizm (böyük əksəriyyəti)
Pul vahidi: dobra
Dövlət quruluşu: respublika

Afrikanın ən az sahəyə malik olan bu ölkəsi Qvineya körfəzinin sahillərində yerləşir. Bir-birindən 150 km məsafədə yerləşən San-Tome və Prinsipi adaları vulkan mənşəlidir.

Arxipelaqda ekvatorial iqlim hakimdir, bol yağıntı düşür (1000-1100 mm, dağlarda 3000 mm) və sıx rütubətli ekvatorial meşələrlə örtülür. Sahilboyu rayonlarda banan, manqo, qəhvə, badam, kakao ağacı, kokos palması, papayya (yemiş ağacı), kinə və çörək ağacları bitir.

XV əsrdən 1975-ci ildədək Portuqaliyanın müstəmləkəsi olmuş ölkənin əhalisi özünəməxsus mədəniyyət yaratmış Afrika qulları və avropalı müstəmləkəçilərin nəsillərindən ibarətdir.

İxrac olunan kakao və qəhvənin əvəzinə, ölkəyə ərzaq və yanacaq gətirilir. Respublika Afrikanın ən kasıb dövlətlərdən biridir, təsərrüfatı xarici köməkdən çox asılıdır.

Çad Respublikası

Sahəsi: 1284 min km²
Əhalisi: 11,5 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 9,0 nəfər/km²
Paytaxtı: Ncamena (993 min nəfər)
Əsas dillər: fransız, ərəb, sara
Dini etiqad: islam (55%), katolisizm, protestantlıq (birlikdə 35%), ənənəvi yerli dinlər (10%)
Pul vahidi: Afrika frankı
Dövlət quruluşu: respublika

Çad dünyanın ən kasıb ölkələrindən biridir. Okean və dənizlərdən 1600 km-dən çox uzaqda olan ölkənin şimal rayonları Böyük Səhranın qumları ilə örtülür.

Çadın ərazisinin çox hissəsini yastı düzənliklər tutur. Ölkənin ucqar şimalında vulkan mənşəli silsilələri olan Tibesti yaylası yerləşir. Yaylanın yüksək nöqtəsi olan Emi-Kusi (3415 m) dağının (sönmüş vulkanın) kraterinin diametri 13 km, dərinliyi 300 m-dir. Çadın şimalında az miqdarda yağıntısı (100 mm-dən 1000 mm-ə qədər) olan isti və quru tropik iqlim, cənubunda isə qışın isti və quru, yayın rütubətli (1000-1400 mm) olduğu subekvatorial iqlim hakimdir. Orta temperatur şimalda 15°-35°C, cənubda 24°-35°C-dir. Əhalinin çox

hissəsinin yaşadığı ölkənin cənubundakı savanna zonası əsas əkinçilik (pambıq, darı, qarğıdalı, çəltik) rayonudur. Təsərrüfatın gələcək inkişafı ölkənin cənub-qərbində kəşf edilmiş iri neft yataqlarının istismarı ilə əlaqədardır. Lakin 1960-cı ildə Fransadan müstəqillik əldə etdikdən sonra başlanan vətəndaş müharibəsi ölkənin inkişafına mane olur.

Qabon Respublikası

Sahəsi: 267667 km²
Əhalisi: 1,8 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 6,1 nəfər/km²
Paytaxtı: Librevil (662 min nəfər)
Əsas dillər: fransız, fanq, punu-sira
Dini etiqad: katolisizm (75%), protestantlıq, ənənəvi yerli dinlər
Pul vahidi: Afrika frankı
Dövlət quruluşu: respublika

Afrikada Fransanın keşmiş müstəmləkə ölkələri arasında Qabon əhalisinin sayına görə sonuncu yeri tutsa da, meşələrin sahəsinə və faydalı qazıntıların ehtiyatına görə qabaqcıl yerlərdən birini tutur.

Qabonda sahilboyu ovalıqlar ölkənin daxilinə doğru getdikcə, rütubətli ekvatorial meşələrlə örtülən alçaq dağ silsilələri və yüksəkliklərlə əvəz olunur. Bir çox Afrika dövlətlərindən fərqli olaraq 1960-cı ildə müstəqillik qazandıqdan sonra Qabonda siyasi sabitlik qorunub saxlanmışdır. Əhalinin xeyli hissəsi yoxsulluq şəraitində yaşasa da, Qabon materikin böyük nailiyyətlər əldə etmiş ölkələrinə aiddir. Bu, ilk növbədə neft satışı hesabına mümkün olur, sutkada 248 min barrel neft çıxarılır. Qabonda hələlik istifadə edilməyən böyük dəmir filizi və marqan yataqları vardır. Hasilat, neft emalı, kimya, toxuculuq, meşə, yeyinti, kustar sənaye sahələri vardır, maniok, banan, kakao, qəhvə əkilir.

Konqo Demokratik Respublikası

Sahəsi: 2344 856 km²
Əhalisi: 67,8 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 28,9 nəfər/km²
Paytaxtı: Kinşasa (8,4 mln. nəfər)
Əsas dillər: fransız, suaxili, linqala, luba, monokutuba
Dini etiqad: katolisizm (50%), protestantlıq (20%), islam, ənənəvi yerli dinlər
Pul vahidi: yeni Konqo frankı
Dövlət quruluşu: respublika

Konqo DR mineral ehtiyatlarla ən zəngin olan ölkələr sırasına daxil olsa da, uzun illər mövcud olan diktatura rejimi onu dünyanın ən kasıb ölkələrindən birinə çevirmişdir. Konqo DR 1997-ci ilə qədər Zair adlanırdı.

Konqo DR sahəsinə görə Afrika ölkələri arasında ikinci yeri tutur. O, 1960-cı ildə Belçikanın müstəmləkəsindən azad olmuşdur. Ölkə materikin mərkəzində, ekvatorun hər iki tərəfində yerləşir, Atlantik okeanında 40 km-ə qədər sahil xəttinə malikdir. Konqo DR-in xeyli hissəsi (40%-ə qədəri) pilləkən formalı yaylalarla

əhatə olunan yastı Konqo çökəkliyində yerləşir. Şərq sərhədləri boyu ən yüksək nöqtəsi Marqerita (5109 m) piki olan dağ silsilələri yüksəlir. Ekvatorial iqlim şəraitində ən çox yağıntılar mərkəzi əyalətlərdə düşür. Ekvator boyu ölkənin yarısını rütubətli ekvatorial meşələr örtür, cənubda və ucqar şimalda savannalar, seyrək meşələr yaranır. Zəif inkişaf etmiş yol şəbəkəsi meşələrin kütləvi qırılmasına mane olur. Bununla yanaşı, əhali tərəfindən ağac tədarükü aparılması və əkinlər üçün meşələrin qırılması onların sahəsinin azalmasına gətirib çıxarır. Əhalinin əsas məşğuliyyəti əkinçilikdir, qəhvə, yağlı palma, kakao, kauçuk, şəkər qamışı, manikok, yams (şirin kartof), çəltik, araxis və meyvə becərilir. Konqo kobalt, mis və almaz hasilatına görə dünyanın aparıcı ölkələri sırasına daxildir. Neft emalı, toxuculuq, yeyinti, ağac emalı sahələri vardır. Belçika tərəfindən müstəmləkə dövründə ölkənin sərvətlərinin vəhşicəsinə istismarı, vətəndaş müharibəsi, korrupsiyalaşmış hökumət təsərrüfatın inkişafına ciddi ziyan vurur. Ona görə Konqo DR hər nəfərə düşən gəlirə görə dünyada son yerlərdən birini tutur.

Niraqonqo vulkanı (3470 m)

Konqo çayı

Konqo Respublikası

Sahəsi: 342 min km²
Əhalisi: 4002 min nəfər (2010)
Əhalinin sıxlığı: 11,7 nəfər/km²
Paytaxtı: Brazzavil (1408 min nəfər)
Əsas dillər: fransız, konqo, monokutuba
Dini etiqad: katolisizm, ənənəvi yerli dinlər, protestantlıq
Pul vahidi: Afrika frankı
Dövlət quruluşu: respublika

Konqo 1960-cı ildə Fransanın müstəmləkəsindən azad olmuşdur. 1964-1991-ci illərdə qeyri-kapitalist inkişaf yolu seçmişdir. Həmin dövrdən çoxpartiyalı sistem mövcuddur.

Konqo Respublikası Konqo çayının aşağı axarında yerləşir, cənub-şərqdə Atlantik okeanına çıxışı vardır. Sahilboyu ovalıqlar şimala doğru getdikcə Mayombe dağları ilə əvəz olunur, sonra geniş Bateke yaylasına keçir. Ölkənin şimalı və şimal-şərqində bataqlıqlarla örtülmüş rütubətli ekvatorial meşələr yayılır. Meşələr ölkə ərazisinin yarıya qədərini örtür. Cənubda yüksək otlu savannalar geniş sahə tutur.

1970-ci ildə ölkədə, əsasən, şelf zonasında tapılmış neft əsas təbii ehtiyatdır, onun hasilatı və satışı ixrac gəlirlərinin 90%-ni təmin edir, qismən emal olunur. Dağ-mədən və ağac emalı sənayesi də mühüm əhəmiyyət kəsb edir. Kənd təsərrüfatında əhalinin 1/3-nə qədəri çalışır, daxili tələbat üçün qəhvə, kakao, maniok, batat, yams, çəltik, şəkər qamışı, kassava və qarğıdalı becərilir.

Nəqliyyat və energetika zəif inkişaf etmişdir. Ayrı-ayrı rayonlarla əlaqə yaratmaq üçün çay şəbəkəsi və torpaq yollardan istifadə olunur. Konqonun sənayesinin əsas hissəsi ölkənin əsas limanı olan Puent-Nuarda cəmlənir.

Zəngin təbii ehtiyatlardan istifadə edilməsi əsasında Konqo Afrikada yüksək həyat səviyyəsinə nail olmuş və materikin ən firavan ölkələrindən birinə çevrilmişdir. Yaşlı əhali arasında savadlılıq səviyyəsi 63%-ə çatır.

Anqola Respublikası

Sahəsi: 1246700 km²
Əhalisi: 19,0 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 15,2 nəfər/km²
Paytaxtı: Luanda (2262 min nəfər)
Əsas dillər: portuqal, umbundu, kimbundu
Dini etiqad: katolisizm (65%), protestantlıq (20%), ənənəvi yerli dinlər (15%)
Pul vahidi: yeni kvanza
Dövlət quruluşu: respublika

Anqola 1974-cü ildə Portuqaliya müstəmləkəsindən azad olmuşdur. Ölkə neft və almaz ilə zəngin olsa da, vətəndaş müharibəsi iqtisadi və sosial inkişafda başlıca problem olaraq qalır. Müharibə 2002-ci ildə başa çatmışdır.

Anqola hündürlüyü 1000 m-dən çox olan dağlıq yaylada yerləşir. Onun daha çox yuxarı qalxmış hissəsi Bie platosudur. Burada ölkənin ən hündür zirvəsi olan Moko dağı (2610 m) yüksəlir. Qərbdə dağlıq yayla dik yamaclara malikdir və sahil boyu eni 50 km-dən 160 km-ə qədər olan ovalıqla əvəz olunur. Atlantik okeanının sahilləri boyunca 1500 km-ə qədər uzanan ovalıq seyrək meşələr, savannalar və yarımsəhralarla örtülür. Ölkədə böyük göllər olmasa da, çoxsaylı çaylar axır, ərazisinin çox hissəsini tropik qurşaq tutur. Sahilboyu

Anqolada su ilə təminat əsas problemlərdən biridir

ovalıqlarda quru tropik iqlim (tropik passat), daxili rayonlardakı yaylalarda rütubətli iqlim (ekvatorial musson) hakimdir. Sahillərdə il ərzində 50 mm-ə qədər, yaylanın cənubunda 600-800 mm, şimalda 1500 mm yağıntı düşür. Orta temperatur sentyabrda 21°C, iyulda 16°C-dir.

Anqolanın şimalında və Kabinda anklavında sıx rütubətli tropik meşələr, daxili rayonlarda tropik seyrək meşələr və savannalar yayılmışdır. Anqolada, xüsusilə, Kabinda anklavının (Ölkənin digər ölkələrin əhatəsində yerləşən hissəsi) şelf zonasında zəngin neft yataqları vardır, sutkada 2,0 mln. barrelə qədər hasilat aparılır. Ölkədə almaz, dəmir və mis filizlərinin böyük ehtiyatları da müəyyən edilmişdir. Anqola, həmçinin, böyük hidroenerji potensialına və məhsuldar torpaqlara malikdir, az miqdarda qəhvə, banan, sizal, pambıq, maniok becərilir.

Lakin belə təbii-iqtisadi imkanlara malik olan ölkənin təsərrüfatı çoxillik silahlı toqquşmalar nəticəsində tənəzzülə uğramış, sənaye müəssisələri, kommunukasiya şəbəkəsi dağılmışdır. Silahlı münaqişə UNİTA (Anqolanın tam müstəqilliyi uğrunda Milli İttifaq) və MPLA (Anqolanın Azadlığı Uğrunda Xalq Hərəkatı) arasında getmişdir.

Müqəddəs Yelena adası

Sahəsi: 122,0 km²
Əhalisi: 7,6 min nəfər (2006)
İnzibati mərkəzi: Ceymstaun (1400 nəfər)
Rəsmi dil: ingilis
Dini etiqad: protestantlıq
Pul vahidi: yerli buraxılış olan B.Britaniya funtu
Dövlət quruluşu: Böyük Britaniyanın mülkü



Adalar qrupuna Müqəddəs Yelena, Tristan-de-Kunya və Vozneseniya adaları daxildir.

2010-cu ildə bu ərazilər yeni rəsmi ad almışdır. Onlara Müqəddəs Yelena adası adı verilmiş və B.Britaniyanın xarici ərazisi olmuşdur. Müqəddəs Yelena adası Afrikanın cənub-qərbində yerləşir. Adanın dağlıq relyefi vadilərlə parçalanmışdır. Əhalinin yarısı Ceymstaunda yaşayır. Burada təbii buxta və liman vardır, kartof, qarğıdalı və kətan becərilir. Ada B.Britaniyadan olan subsidiyalar hesabına yaşayır. Müqəddəs Yelena adası Fransa imperatoru N.Bonapartın sürgün edildiyi son yerdir. Vulkan mənşəli Tristan-da-Kunya adalarının az saylı əhalisi kartof becərir, lanqust tutur. Vulkan mənşəli Vozneseniya adası Müqəddəs Yelena adasından şimal-qərbdədir və hərbi baza kimi istifadə olunur.

Cənubi Afrika Botsvana Respublikası

Sahəsi: 581730 km²
Əhalisi: 1,9 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 3,3 nəfər/km²
Paytaxtı: Qaborone (308 min nəfər)
Əsas dillər: ingilis, tsvana, şona
Dini etiqad: katolisizm, protestant (birlikdə 50%), ənənəvi yerli dinlər
Pul vahidi: pula
Dövlət quruluşu: respublika



Botsvana ərazisinin əsas hissəsini Kalaxari səhrası tutur. Burada qumun tərkibində dəmir-oksidinin çox olması ilə əlaqədar səhradakı barxanlar qırmızımtıl rəngdədir. Ölkə 1966-cı ildə B.Britaniya müstəmləkəsindən azad olmuşdur.

Dünya okeanına çıxışı olmayan Botsvana geniş ərazidə olan və aşağı əyilmiş yaylanın bir hissəsini tutur. Burada səhralar, savannalar və seyrək meşələr yanaşı yerləşir. Ölkənin şərqində alçaq dağlar yüksəlir. Şimal-qərbdə Okovanqo çayı dünyada ən böyük materik-daxili bataqlıqlaşmış delta əmələ gətirir. Ona görə vəhşi heyvanlar, ilk növbədə quşlar üçün əlverişli məskəndir. Orta temperatur yanvarda 24°C, iyulda 16°C-dir, illik yağıntılar 500-600 mm təşkil edir. Əhalinin 79%-dən çoxunu Bantu dil ailəsinə aid tsvana xalqı təşkil edir. Ölkənin 60 min nəfərə qədər sakini san etnik qrupuna daxildir. Avropalı müstəmləkəçilər onları buşmen (yəni "meşə adamı") adlandırır. Buşmenlər Kalaxaridə yaşayır, köçəri həyat sürür, heyvandarlıqla məşğul olurlar. Onlar ənənəvi peşələri olan ovçuluq və yığıcılıqla da məşğul olur. 1967-ci ildə Orapa rayonunda almaz yataqları kəşf edildikdən sonra Botsvana onun hasilatına görə dünyada üçüncü yeri tutur. Sənayedə yeyinti, toxuculuq, tikinti məhsulları istehsal olunur. Heyvandarlıq mühüm təsərrüfat əhəmiyyəti kəsb edir. Botsvana Svazilenddən sonra QİÇS xəstəliyinin yayılmasına görə dünyada ikinci yeri tutur. Yaşlı əhalinin 24%-i bu xəstəliyə tutulmuşdur.

Namibiya Respublikası

Sahəsi: 824269 km²
Əhalisi: 2,2 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 3,0 nəfər/km²
Paytaxtı: Vindhuk (313 min nəfər)
Əsas dillər: ingilis, afrikaans, alman, ovambo, kavanqo, namo
Dini etiqad: katolisizm, protestantlıq (birlikdə 80%), ənənəvi yerli dinlər (20%)
Pul vahidi: Namibiya dolları; Cənubi Afrika randı
Dövlət quruluşu: respublika

Afrikanın cənub-qərbində yerləşən Namibiya 1990-cı ildə müstəqillik qazanmışdır. O, əhalisi az olduğuna görə zəif məskunaşmış olsa da, təbii sərvətlərlə çox zəngin olan ölkədir.

Namibiya 1915-ci ilədək Almaniyanın müstəmləkəsi, 1990-cı ilədək isə qonşu CAR-ın idarəçiliyi altında olmuşdur. Ərazinin çox

hissəsini hündürlüyü 970-2000 m arasında olan, qərbdə sahilboyu Namibiya, şərqdə Kalaxari səhraları arasında olan yaylalar tutur. Ölkədə iqlim isti və quraqdır, Namibiyada il ərzində 50 mm, şimal-şərqdə 500-700 mm yağıntı düşür. Yalnız mərkəzi hissə təsərrüfat cəhətdən istifadəyə, əsasən heyvandarlıq üçün yararlıdır. Ölkə ərazisinin 46%-ni çəmənlik və otlaqlar tutur. Namibiyanın fauna (heyvanlar) aləmi çox müxtəlifdir. Ölkədə bir neçə milli park və qoruq vardır. Namibiya qeyri-yanacaq faydalı qazıntıların, o cümlədən almaz, uran, mis, qurğuşun, qalay, gümüş, qızıl və manqan hasilatına görə Afrikada dördüncü yeri tutur, ət və balıq sənayesi obyektlər vardır.

Zimbabve Respublikası

Sahəsi: 390 757 km²
Əhalisi: 12,6 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 32,3 nəfər/km²
Paytaxtı: Xarare (1881 min nəfər)
Əsas dillər: ingilis, şona, ndebele
Dini etiqad: protestantlıq (70%), ənənəvi yerli dinlər (30%-ə qədər), katolisizm
Pul vahidi: Zimbabve dolları
Dövlət quruluşu: respublika

B.Britaniyanın müstəmləkəsində olduğu illərdə Zimbabve Cənubi Rodeziya, 1965-1980-ci illərdə Rodeziya adlanmışdır.

Zimbabve ərazisinin çox hissəsini Matabele və Maşona yaylaları tutur. Şərqdə yerləşən İnyanqa dağında ölkənin ən hündür nöqtəsi olan İyanqani zirvəsi (2592 m) yüksəlir. Şimalda Zambiya ilə sərhəd boyu Zambezi çayı axır, orta axarında böyük Kariba su anbarı qurulmuşdur. Çayda 1955-1960-cı illərdə tikilmiş Kariba SES-i qonşu Zambiya ilə birlikdə ölkəni enerji ilə təmin edir. Zimbabvenin cənub sərhəddindən Limpopo çayı keçir.

Şəhərlərə intensiv miqrasiyalara baxmayaraq, əhalinin 63%-i kəndlərdə yaşayır və natural təsərrüfatla məşğul olur. Əsas ərzaq məhsullarına araxis, qarğıdalı, qəhvə, şəkər qamışı, tərəvəz və çəltik aiddir.

Mühüm ixrac bitkiləri pambıq və tütündür. Heyvandarlıqda iri buynuzlu mal-qara saxlanması üstünlük təşkil edir.

Zimbabve faydalı qazıntıların, o cümlədən qızıl, nikel, platin və asbestin böyük ehtiyatlarına malikdir. Dağ-mədən, metal emalı, kimya sənayesinin inkişaf səviyyəsinə görə Zimbabve Afrikada CAR-dan sonra ikinci yeri tutur.

Mozambik Respublikası

Sahəsi: 801590 km²
Əhalisi: 23,4 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 29,2 nəfər/km²
Paytaxtı: Maputu (1775 min nəfər)
Əsas dillər: portuqal, tsonqa, makya
Dini etiqad: ənənəvi yerli dinlər (50%), katolisizm (30%), islam (20%)
Pul vahidi: metikal
Dövlət quruluşu: respublika

Mozambik geniş əraziyə və milli-etnik müxtəlifliyə malik ölkədir. Burada vətəndaş müharibəsi, daşqın və quraqlıqların nəticələrinin aradan qaldırılması ciddi problemdir.



Mozambikin ərazisinin 40%-ə qədərini tutan ovalıqlar Hind okeanının sahilləri boyu 2500 km məsafədə uzanır. Ölkənin şimalında Şərqi Afrika yaylası, qərbində isə ən yüksək zirvəsi olan Binqa dağının (2436 m) da yerləşdiyi Matabele çıxıntısı yüksəlir. Məhsuldar torpaqların çatışmazlığına baxmayaraq, əhalinin çox hissəsi əkinçiliklə məşğuldur, qarğıdalı, manikok, şəkər qamışı, pambıq, tütün, qəhvə, araxis, kokos palması və yer fındığı becərilir. Təsərrüfatda ən mühüm rol oynayan balıq sənayesi dünya bazarına dəniz məhsulları (krevet) çıxarır. Dağ-mədən sənayesi zəif inkişaf etmişdir. Kənd təsərrüfatı məhsulları emal olunur, mis, dəmir filizi, uran, kömür, təbii qaz ehtiyatlarından istifadə edilməsi üçün investorlar lazımdır. Əhalinin həyat səviyyəsi çox aşağıdır. Minlərlə insan aclıq və xəstəliklərdən, o cümlədən QİÇS xəstəliyinin sürətlə yayılmasından ölür.

Mozambikdə məscid

1975-ci ildə Portuqaliyadan müstəqillik əldə etdikdən sonra ölkədə sosializm inkişaf yolu seçmiş Mozambikin Azadlıq Cəbhəsi (FRELİMO) ilə CAR-ın himayə etdiyi Mozambik Xalq Müqavimətinin (RENAMO) üsyançıları arasında vətəndaş müharibəsi başlanmışdır. Müharibə 1990-cı illərdə başa çatsa da, ölkədə şəhərlər dağılmış, sənaye və nəqliyyat sistemi tənəzzülə uğramışdır. Basdırılmış 3 milyondan çox mina əhalinin həyatı və sağlamlığı üçün ciddi təhlükə yaradır.

Madaqaskar Respublikası

Sahəsi 587041 km²
Əhalisi 20,1 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 34,2 nəfər/km²
Paytaxtı: Antananarivu (17 mln nəfər)
Əsas dillər: malaqasi, fransız, ingilis
Dini etiqad: ənənəvi yerli dinlər (52%), katolisizm, protestantlıq (birlikdə 41%), islam (7%)
Pul vahidi: ariari
Dövlət quruluşu: respublika



Madaqaskar böyüklüyünə görə dünyada dördüncü yeri tutan adada yerləşir. Ölkə iqtisadi cəhətdən çox kasıbdır. Bununla yanaşı çoxsaylı nadir bitki və heyvan növləri olması ilə tanınır.

Adada yaşayan malaqasilər qarışıq mənşəli xalqlardır. Ən böyük qrup indoneziyalıların nəsilləridir. Güman edilir ki, min ildən də əvvəl Cənub-Şərqi Asiyadan olan mühacirlər adada məskunlaşmışlar. Əhalinin əsas məşğuliyyəti ya kənd təsərrüfatında, ya da onun məhsullarını emal edən, ərzaq məhsulları, sizal kəndirləri, şəkər, toxuculuq məmulatı istehsal edən sənayedə çalışır. Əhalinin əsas ərzaq məhsulu düyüdür. Adada qəhvə, vanil, mixək, istiot, şəkər qamışı və tütün becərilir. Ölkədə olan 10 mln. baş iri buynuzlu mal-qaranın əsas hissəsini donqarlı zebu antilopu təşkil edir. Dünyanın ən kasıb ölkələrindən biri olan Madaqaskar sürətlə artan (ildə 3%) əhalinin təminatı üçün ərzaq idxal edir. Təhsil və səhiyyənin səviyyəsi yüksək deyil, lakin son illərdə malyariya xəstəliyinin kökü kəsilmişdir. Madaqaskar adası, təqribən 50 milyon il əvvəl materikdən ayrılmışdır. Hazırda ada Afrikanın sahillərindən 400 km şərqdə yerləşir və ondan Mozambik boğazı ilə ayrılır. Adanın şimalından cənubuna doğru dağlıq yayla uzanır, şərqə doğru sıldırım yamacla okeana enir. Qərbdə sahilboyu ərazi düzənlik relyefə malikdir. Çayların vadilərində əkinçilik üçün yararlı olan məhsuldar qırmızı torpaqlar üstünlük təşkil edir. Adadakı bitki və heyvan növlərinin 75%-dən çoxuna planetimizin başqa yerlərində rast gəlinmir. Xarici dövlətlər tərəfindən edilən yardımlar əsas hissəsi torpaqların eroziyası və meşələrin qırılması nəticəsində məhv olmaq təhlükəsi ilə üzləşmiş olan nadir bitki və heyvan növlərinin qorunması üçün nəzərdə tutulur. Primatlar dəstəsinə aid olan yarımeymun lemurlara təbii halda yalnız Madaqaskar adasında rast gəlinir.

Cənubi Afrika Respublikası

Sahəsi: 1224691 km²
Əhalisi: 49,9 mln nəfər (2010)
Əhalinin sıxlığı: 40,8 nəfər/km²
Paytaxtı: Pretoriya (rəsmi və inzibati; 1787 min nəfər), Keyptaun (qanunverici; 2872 min nəfər)
Əsas dillər: ingilis, afrikaans, zulu, soto, tsvana, kosa (kxosa)
Dini etiqad: ənənəvi yerli dinlər, katolisizm, protestantlıq (xristianlar – 80%)
Pul vahidi: rand
Dövlət quruluşu: respublika

CAR mineral resurslarla zəngin olan, çoxmillətli və Afrikanın iqtisadi cəhətdən ən yüksək inkişaf etmiş ölkəsidir. O, 1961-ci ildə respublika elan edilmişdir.

Ölkənin qərb sahillərini Atlantik okeanının, cənub və şərq sahillərini isə Hind okeanının suları yuyur. Əsas hissəsi kənarlara doğru qalxan, Böyük Çıxıntının dik yamacları ilə məhdudlaşan Cənubi Afrika yaylasının cənub kənarında yerləşir. Çıxıntının ən yüksək hissəsi Hind okeanının sahilləri boyu qövs formasında yerləşən Əjdaha dağlarıdır. Atlantik və Hind okeanlarının sahilləri boyu eni 30 km-dən 100 km-ə qədər olan məhsuldar ovalıqlar Böyük Çıxıntıya birləşir. Ölkənin cənub kənarında hündürlüyü 2326 m-ə çatan Kap dağları uzanır. Şərqdə savannalar, şimal-şərqdə subtropik meşələr və codyarpaqlı kolluqlar, dağların yamaclarında subtropik və musson meşələri, daxili rayonlarda savannalar, qərbdə yarımsəhradan ibarət yayla və dağlararası vadi olan Karru təbii vilayəti ayrılır. Burada üç sahə ayrılır. Kiçik Karru (300-600 m) Kap dağlarında vadidir. Böyük Karru (450-750 m) Kap dağları ilə Böyük Çıxıntı arasında çökəklikdir. Yuxarı Karru (1000-1500 m) Böyük Çıxıntı və Oranj çayı arasında yayladır. Veld Cənubi Afrikada eroziya ilə parçalanmış yayladır. Onlar şərqdə Əjdaha dağlarından qərbdə Kalaxari səhrasına, şimalda Limpopo çayının vadisinə doğru pilləkən formasında alçalır. Burada Yüksək, Orta Buşveld (Kolluq Veld) və Alçaq Veld fərqləndirilir. CAR-da heyvanlar aləmi çox müxtəlifliyi ilə fərqlənir. Burada məməlilərin 200-dən çox növü, o cümlədən nəhəng heyvanlar olan fil, şir, bəbir, zebr, kərgədan, çoxsaylı quşlar, sürünənlər və həşəratlar yaşayır. Ölkənin ərazisində 30 milli park və qoruq yaradılmışdır. CAR-da olan çox zəngin bitkilər aləminin 16 minə

qədər növü vardır. CAR Afrikanın sənayecə ən yüksək inkişaf etmiş ölkəsidir. Keyptaun, Yohannesburq, Port-Yelizaveta, Durban kimi iri sənaye mərkəzlərində kimya məhsulları, kağız, parça, avtomobil və elektronika məhsulları istehsal edilir. İqtisadi nailiyyətlər müxtəlif növ faydalı qazıntı yataqlarının istifadə edilməsi ilə əlaqədardır. Ölkə qızıl, platin, almaz, xrom, manqan filizlərinin hasilatına görə dünyada birinci yeri tutur, uran, dəmir filizi, mis, asbest də hasil olunur. Zəngin kömür yataqları elektrik enerjisi almaq üçün istifadə olunur. Yerli afrikalıların yaşadığı ərazilərin enerji ilə təminatı vacib problem kimi qarşıda durur. Onların 80%-i Vahid Energetika Şəbəkəsinə qoşulmamışdır. CAR əhalisinin təqribən 3/4 hissəsi Afrikanın yerli xalqı olan bantulardan ibarətdir. Onlardan sayı nisbətən çox olanlara zulu və kosa xalqları aiddir. Əhalinin 10%-ə qədəri Avropadan olan miqrantların nəsilləridir ki, onlar iki qrupa ayrılır. Birinci qrupa aid olan afrikanerlər və ya burlar afrikaans dilində danışan, ağ dərili əhalinin 60%-ni təşkil edən holland, fransız və alman müstəmləkəçilərinin nəsilləridir. İkinci qrupa Britaniya adalarından gələn ingilis dilli əhalinin nəsilləri daxildir. Əhalinin 9%-ə qədərini qarışıq Afrika-Avropa mənşəli metislər, 3%-ə qədərini Asiyadan, ilk növbədə Hindistandan olan mühacirlər təşkil edir.

Təbii şərait və əkinçilik

CAR-da tropik və subtropik iqlimin müxtəlif tipləri yayılmışdır. Regionlar temperatur rejiminə görə bir-birindən fərqlənir. Ən yüksək temperaturu (51,7°C) Kalaxaridə, ən aşağı temperaturu isə Keyptaundan cənub-şərqdə Saterlenddə -15°C qeydə alınmışdır. İqlimə relyef və okean cərəyanları böyük təsir göstərir. Soyuq Bengel cərəyanı temperaturu aşağı salır, quru hava şəraiti yaradır. İsti Mozambik cərəyanı isə əksənə təsir göstərir. Əjdaha dağları okeandan gələn rütubətli hava axınlarını daxili rayonlara buraxmır. Ona görə şərq rayonlarda il ərzində 1500-2000 mm, mərkəzi yaylalarda 250 mm-dən 750 mm-ə qədər yağıntı olduğu halda, qərbdə 200 mm-ə çatmır. Qərbdən şərqə axan Limpopo çayı Hind okeanına tökülür, Zimbabve və Botsvana arasında təbii sərhəd rolunu oynayır. Afrikanın ən uzun (2090 km) çaylarından biri olan Oranj öz başlanğıcını Yüksək Velddən götürür, ölkənin Namibiya ilə sərhədləri boyu keçərək Atlantik okeanına tökülür. Əkinçiliyi inkişaf etdirmək məqsədilə çox sıx suvarma kanalları şəbəkəsi çəkilmişdir. CAR özünün dənli bitkilər, şəkər qamışı və tərəvəzə olan tələbatını ödəyir, qarğıdalı, kartof əkilir. Heyvandarlıqda qoyun, keçi, iri buynuzlu malqara saxlanılır. CAR meyvə və şərab ixrac edir.

Urbanizasiya səviyyəsi 60%-dir, əsas şəhərlərə Yohannesburq (1886-cı ildə salınmışdır, 6,4 mln. nəfər), Keyptaun (1652-ci ildə salınmışdır, 2,0 mln. nəfər), Durban (1,0 mln. nəfər), Port-Yelizaveta (0,8 mln. nəfər) aiddir. Əhalinin 90%-i ölkənin şərqində cəmlənmişdir, Keyptaun şəhərinin ətrafından başqa qərb rayonları zəif məskunlaşır. Ölkənin yoxsul əhalisinin 20%-i sosial şəraiti olmayan daxmalarda yaşayır. CAR-ın qara dərili yerli əhalisinə qarşı 1948-ci ildə ***aparteid dövlət siyasəti*** – ayrı yaşamaq haqqında qanun qəbul edilmişdir. Dərisinin rəngi müxtəlif olan insanlar ayrı-ayrı yaşamalı, işləməli və təhsil almalıdır. Ağların metislər və afrikalılarla nikahı qadağan edilmişdir, qara dərili insanların yaşaması üçün xüsusi ərazilər ayrılmışdır. Onların siyasi, iqtisadi və vətəndaş hüquqları yox idi. 1991-ci ildə qanun ləğv edilmiş, 1994-cü ildə keçirilən parlament seçkilərində bütün əhali iştirak etmişdir.

Keyptaun şəhəri

Svazilend Krallığı

Sahəsi: 17363 km²
Əhalisi: 1,2 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 69,1 nəfər/km²
Paytaxtı: Mbabane (78 min nəfər), Lobamba (4 min nəfər)
Əsas dillər: ingilis, svazi
Dini etiqad: protestantlıq (60%), ənənəvi yerli dinlər (30%), islam (10%)
Pul vahidi: lilangeni
Dövlət quruluşu: konstitusiyalı monarxiya

Böyük Britaniyadan 1968-ci ildə müstəqilliyini qazanmış Svazilenddə ənənəvi sənətkarlıqla yanaşı müasir sənaye sahələri də fəaliyyət göstərir.



Svazilendin relyefi pilləkən formasında üç yayladan ibarətdir: qərbdə qışı quru, soyuq, yayı isti və rütubətli keçən dağlıq Yüksək Veld, mərkəzdə yüksək otlarla örtülmüş Orta Veld və şərqdə kolluqlardan ibarət Buşveld yerləşir. Subtropik iqlimə və məhsuldar torpaqlara malik olan Orta Velddə bu aqrar ölkənin əhalisinin əsas hissəsi cəmlənir. Burada qara mal saxlanır, qarğıdalı, şəkər qamışı, tütün, pambıq, meyvə becərilir. Daha quru və isti iqlimə malik olan Buşveld zəif mənimsənilmişdir. Svazilenddə sənayenin əsas sahələrinə asbest (dünyada dördüncü yer tutur), almaz, kömür hasilatı, şəkər və oduncaq istehsalı aiddir. Əhalinin 95%-ni təşkil edən svazlar qədim ənənələrini saxlayır. Ölkə hakimiyyəti irsən keçən Şahzadə tərəfindən idarə olunur. Şahzadə qanunverici hakimiyyəti yerinə yetirir, nazirləri və senat üzvlərini təyin edir. Ölkədə siyasi partiyalar qadağan edilmişdir. Ona görə siyasi islahatlar aparılması tələb olunur. Ölkənin iki paytaxtı vardır. İcraedici orqanlar və nazirliklər Mbabanedə, Şahzadənin iqamətgahı və parlament isə Lobambada yerləşir. Svazilend QİÇS xəstəliyinin yayılmasına görə (əhalinin 26%-i) dünyada birinci yeri tutur.

Lesoto Krallığı

Sahəsi: 30355 km²
Əhalisi: 1881 min nəfər (2010)
Əhalinin sıxlığı: 62 nəfər/km²
Paytaxtı: Maseru (227,8 min nəfər)
Əsas dillər: ingilis, lesoto
Dini etiqad: katolisizm, protestant (birlikdə 90%), ənənəvi yerli dinlər
Pul vahidi: loti
Dövlət quruluşu: konstitusiyalı monarxiya

Lesoto 1966-cı ildə Böyük Britaniyadan müstəqilliyini qazanmış aqrar ölkədir. Ölkənin təsərrüfatı qonşu CAR ilə ticarət əlaqələri əsasında inkişaf edir. Bütün ölkəni əhatə edən Basuto yaylasında 1400 m-dən aşağı olan ərazilər yoxdur. Ona görə Lesotonu "Afrikanın damı" adlandırırlar.

Qərb hissəsində olan alçaq təpəli düzənlik əsas əkinçilik rayonudur. Burada qarğıdalı, buğda, paxla, kökümeyvəli bitkilər, tərəvəz becərilir. Geniş əraziləri əhatə edən otlaqlarda iri və xırda buynuzlu mal-qaranın həddən artıq otarılması torpaqların eroziyasına səbəb olur. Almazdan başqa ölkədə əhəmiyyətli mineral xammallar yoxdur. Dağlıq relyef SES-lərdə istehsal olunan elektik enerjisi hesabına daxili tələbatı ödəməklə yanaşı, qonşu CAR-a da ixrac olunur. Əhalinin çox hissəsini əkinçilk və maldarlıqla məşğul olan suto (basuto) xalqı təşkil edir. Ölkədə böyük sənaye müəssisələri yoxdur. Kişilərin çoxu işləmək üçün CAR-a gedir. Əhalisinin 49%-i yoxsulluq şəraitində yaşayır.

ŞİMALİ AMERİKA

Kanada

ABŞ

Qrenlandiya adası

Bermud adaları

ŞİMALİ AMERİKA

Kanada

Sahəsi: 9 970 610 km²
Əhalisi: 34,1 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 3,4 nəfər/km²
Paytaxt: Ottava (337, 0 min nəfər, şəhərətrafı ilə 1, 22 mln. nəfər)
Rəsmi dillər: ingilis, fransız
Dini etiqad: katolisizm (46%), protestantlıq (44%)
Pul vahidi: Kanada dolları
Dövlət quruluşu: dövlət başçısı Böyük Britaniya Şahzadəsi olan konstitusiyalı monarxiya (ölkədə general-qubernatorla təmsil olunur). Birlik üzvü

Kanada Şimali Amerika materikinin şimalında yerləşir, onun ərazisinin 2/5 hissəsini tutur. Ölkə ərazisinin 1/3-i Şimal qütb dairəsindən şimaldadır. Sahilləri, xüsusilə şimal hissəsi həddən artıq parçalandığına görə Kanada dünyada ən uzun sahil xətlərinə malikdir. Ona görə sahillərində çoxlu sayda adalar və yarımadalar vardır. Onlar arasında Kanada Arktikası arxipelaqına daxil olan Baffin Torpağı, Viktoriya, Elsmir, Devon adaları, şərq sahillərdə Nyufaundlend adası, qərbdə Vankuver adası vardır. Labrador, Yeni Şotlandiya, Butiya, Melvill burada olan yarımadalara aiddir.

Kanada sahəsinə görə dünyada Rusiyadan sonra ikinci böyük ölkədir. Şimalda Şimal Buzlu okeanı, şərqdə Atlantik okeanı, qərbdə Sakit okeanın suları ilə əhatə olunur. ABŞ ilə qərbdə Alyaska ştatında, cənubda 6400 km-dən çox məsafədə həmsərhəddir. Kanadanın sahəsinin 1/6-nə qədərini adalar tutur. Onlar arasında sahəsinə görə dünyada 5-ci yeri tutan Baffin Torpağı adası (476068 km²) da vardır. Kanada dünyada böyük və kiçik çayların, göllərin sayına görə qabaqcıl yer tutur. Ölkə dünya su ehtiyatlarının 25%-dən çoxuna malikdir, burada hər birinin sahəsi 1300 km²-dən çox olan 30 göl yerləşir. Makkenzi-Pis-River (4221 km) Kanadada ən uzun çay sistemidir. Lakin gəmiçilik və ticarət üçün daha böyük əhəmiyyət kəsb edən Müqəddəs Lavrentiya çayı Böyük gölləri Atlantik okeanı ilə birləşdirərək 4000 km-dən çox uzunluğa malik olan daxili su yolu yaradır. Kanada meşə ehtiyatlarına görə dünyada ən zəngin ölkədir, ərazisinin 35%-dən çoxu meşələrlə örtülüdür. Bu meşələrdə şam, küknar, sidr, ağcaqayın ağacları üstünlük təşkil edir. Kanadanın çox hissəsi 1867-ci ildə "Şimali Amerika Britaniyası haqqında" Akt əsasında birləşdirilmişdir. Akt Kanada federativ dövlətinin konstitusiya əsasını təşkil etmişdir. Lakin Britaniya parlamenti bu Akta lazım gəldikdə dəyişiklik etmək hüququnu özündə saxlamışdır. Ölkə müstəqillik hüququnu yalnız 1931-ci ildə əldə etmişdir. Kanada parlamenti iki palatadan ibarətdir. Senatın üzvləri təyin edilir və deputatlar 75 yaşa qədər fəaliyyət göstərir. İcmalar palatasının üzvləri 5 ildən bir seçilir. Hökumət icmalar palatasını buraxa və yeni seçkilər təyin edə bilər. Kanada 10 əyalətə (Ontario, Kvebek, Nyu-Bransuik, Şahzadə Eduard adası, Nyufaundlend, Manitoba, Saskaçevan, Alberta, Britaniya Kolumbiyası və Yeni Şotlandiya) və şimalda yerləşən 3 əraziyə (Yukon, Nunavut və Şimal-Qərb ərazisi) bölünür. Əyalətlər yerli səviyyədə qərarlar qəbul etmək hüququna malikdirlər. Kanada dünyada əhalisinin sıxlığı ən az olan ölkələrdən biridir, şimalda əhali yaşamır. Əhalinin çox hissəsi ölkənin cənub-

Bizon Şimali Amerikada quruda yaşayan ən böyük məməli heyvandır. XIX əsrdə avropalı miqrantların odlu silahla gəlişinə qədər ABŞ-ın mərkəzi rayonlarında 50 mln. başa qədər bizon yaşayırdı

şərqində, ABŞ-la sərhəddə yaxın ərazilərdə, Böyük göllərin və Müqəddəs Lavrentiya çayının sahillərində cəmlənmişdir. Əhalisinin sayına görə Toronto (5613 min nəfər), Monreal (3815 min nəfər) və Vankuver şəhərləri irəlidədir. Avropa mənşəli xalqlar Kanadanın əhalisinin 2/3 hissəsini təşkil edir. Kanadanın yerli əhalisi eskimoslar və hindulardır. Eskimoslar ölkənin şimalında yaşayırlar, ənənəvi həyat tərzini və dillərini qoruyub saxlayırlar. Kanadanın landşaftı ilk növbədə qədim və müasir buzlaşmanın təsiri ilə formalaşmışdır. Ölkənin şimalında hazırda mövcud olan buzlaqlar IV dövrdə ölkənin bütün ərazisini örtən nəhəng buz qatının qalıqlarıdır. IV dövrdə olan buzlaqların gördüyü işlərə Şahzadə Eduard adası və Yeni Şotlandiya yarımadasında olan alçaq təpəliklər, Eri və Ontario gölləri arasında olan əzəmətli Niaqara şəlaləsi aiddir. Ölkənin şimalında olan moren çöküntüləri, göl çökəklikləri, sahillərin müasir forması da qədim buzlaqların fəaliyyətinin nəticələridir. Ontario, Kvebek, Nyu-Bransuik, Şahzadə Eduard adası, Nyufaundlend və Yeni Şotlandiya əyalətləri Şərqi Kanadaya aiddir. Fiziki-coğrafi şəraitinə görə Şərqi Kanadanı üç hissəyə ayırmaq olar: Şimal və qərbdə Kanada qalxanı; şərqdə Appalaç dağları; onlar arasında Böyük göllər və Müqəddəs Lavrentiya çayı boyu olan məhsuldar torpaqlara malik düzənliklər. Kanada qalxanı ölkə ərazisinin təxminən yarısını tutur, yer səthinə yaxın yerləşən möhkəm qneys və qranit süxurlarından təşkil olunmuşdur. Qalxanı təşkil edən süxurların yaşı 3 mlrd. ildən çoxdur. Qalınlığı az olan torpaqlarda tayqa meşələri yayılmışdır. Atlantik okeanının sahillərində yerləşən dörd əyalət sahəsinə görə Kanadanın ən kiçik əyalətləridir. Avropalılar yeni kəşf edilmiş ərazilərə gələrkən ilk dəfə məhz bu-

Kanadada hökumət evinin memarlığında ingilis arxitektura üslubu hiss olunur

rada məskunlaşmağa başladılar. Bu əyalətlərin əsas hissəsini tutan Appalaç dağlarının çox hissəsi sıx meşələrlə örtülüdür. Çox vaxt təpələr arasında məhsuldar vadilər yerləşir. Kənd təsərrüfatı əyalətlərdə ən mühüm sahədir. Kanadanın əyalətləri arasında Şahzadə Eduard adası sahəsinə görə ən kiçiyidir. Cəmi 5660 km² sahə tutan ada Müqəddəs Lavrentiya körfəzində yerləşir, aypara formasına malikdir. Adanın yarısı sıx meşələrlə örtülüdür. Meşələrdə ağcaqayın və tozağacı kimi enliyarpaqlı ağaclarla yanaşı, iynəyarpaqlı ağ şam ağacları da çoxdur. Adanın 141 min nəfərə çatan əhalisinin əsas məşğuliyyət sahələri kənd təsərrüfatı və balıqçılıqdır. Burada olan torpaqların dörddə biri fermerlərə məxsusdur. Onlar heyvandarlıqla məşğul olur (əsasən südçülük), giləmeyvə (moruq, qaragilə) və tərəvəz (noxud, paxla, kartof) becərirlər. Nyufaundlend Kanadada balıqçılığın ənənəvi mərkəzidir. Adanın şərq sahillərində yerləşən Böyük Nyufaundlend bankası 400 km məsafədə uzanan şelf zonasıdır. Burada soyuq Labrador cərəyanı cənubdan gələn isti Qolfstrim cərəyanı ilə toqquşur. Ona görə bu rayon balıq ehtiyatları ilə zəngindir. Lakin balıq ovuna ciddi kvotalar (məhdudiyyətlər) qoyulmuşdur. Bu isə əhalinin məşğulluğu və gəlirlərinə mənfi təsir göstərmişdir. Nyu-Bransuik əyaləti Kvebek əyaləti və cənubda ABŞ-ın Men ştatı ilə həmsərhəddir. Əyalətin sahəsi 73440 km², əhalisinin sayı 749 min nəfərdir. Əhalinin çoxu Fandi körfəzi və Müqəddəs Lavrentiyada iri balıq ovçuluğu müəssisələrində, həmçinin mədənlərdə və bir çox sənaye obyektlərində çalışır. Əyalətin çox hissəsi meşələrlə örtülüdür. Ona görə ağac tədarükü və ağac emalı, əsasən də kağız və taxta istehsalı yerli iqtisadiyyatın əsas sahələridir. Nyu-Bransuikin alçaq bataqlıq sahilləri quşüzümünün geniş ərazidə bitməsi üçün əlverişli şərait yaradır. Yeni Şotlandiya Nyu-Bransuikdən cənub-şərqdə eyniadlı yarımadanı əhatə edir. Sahəsi 55490 km²-dir. 1605-ci ildə fransız Samuel de Şampleyn Fandi körfəzinin sahillərində Por-Ru-ayal (hazırda Port-Royal) məntəqəsinin əsasını qoymuş və bu əraziləri Akadiya adlandırmışdır. 1713-cü ildə Fransanın ispan mülkləri uğrunda müharibədə məğlubiyyətindən sonra Utrext sülh müqaviləsi imzalanmışdır. Onun əsasında Hudzon körfəzi rayonunda ərazilər və Akadiya İngiltərəyə verildi. Bu dövrdən sonra ərazilər Yeni Şotlandiya adlanır. Əyalət ilkin vaxtlardan gəmiqayırmanın inkişafına görə fərqlənir və bu sahə hazırda da təsərrüfatın əsas sahələrindən biridir. Əyalətdə kömür və başqa faydalı qazıntıların hasilatı, həmçinin balıqçılıq inkişaf edir. Yeni Şotlandiyanın ən böyük şəhəri olan Qalifaks bütün il ərzində donmayan, mühüm əhəmiyyəti olan limandır. Əyalətin çox hissəsi meşələrlə örtülüdür. İynəyarpaqlı ağaclar arasında qırmızı küknar geniş yayılmışdır. Ontario və Kvebek əyalətlərinin cənub hissəsi Kanadada sənaye istehsalı və kənd təsərrüfatının inkişaf səviyyəsinə görə qabaqcıl mövqe tutur. Burada Kanada əhalisinin 50%-i yaşayır, sənaye məhsullarının 70%-ə qədəri istehsal olunur. Ontario sahəsinə görə əyalətlər arasında ikinci yeri tutur. Getdikcə daha çox insan bura köçür. Ontario gölünün əyilmiş sahilləri boyu Kanadanın əsas sənaye rayonu uzanır, bu ərazilər "Qızıl nal" rayonu kimi məşhurdur. Bu rayonda iri metallurgiya, avtomobil, gəmi və təyyarə zavodları, həmçinin ət istehsalı müəssisələri fəaliyyət göstərir. Yerli fermerlər gəlirlərin 60%-ni heyvandarlıqdan alır.

Böyük göllərin əhəmiyyəti

Ontario və Eri gölləri şaxtalı günlərin sayını azaldaraq iqlimə yumşaldıcı təsir göstərir. Buna görə regionda meyvələr, hətta ərik və armud da yetişdirmək mümkündür. Əyalətin cənub-şərqində, Ontario gölünün şimal sahillərində Kanadanın ən böyük şəhəri olan Toronto sakinlərinin əsas fəxri olan obyektlərə dünyada ən hündür teleqüllə və üstü hərəkət edən stadion aiddir. Müqəddəs Lavrentiya çayı üzrə olan su yolu 1959-cu ildə istifadəyə verilmişdir, Böyük göllərdən Atlantik okeanına çıxışdır. 2007-ci ildə yalnız Monrealdan Ontario gölünə qədər 2,0 min gəmi keçmiş, 50 mln. ton yük daşınmışdır.

Kanadada moren mənşəli göllər çoxdur

Qərbi Kanadanın tərkibinə yüksək dağlıq ərazilərdə yerləşən Britaniya Kolumbiyası və göllər zonasında yerləşən üç əyalət – Monitoba, Saskaçevan və Alberta daxildir. Region faydalı qazıntılarla zəngindir. Qərbi Kanada regionuna daxil edilən dörd əyalətdən üçü əsasən Böyük Düzənliklərdə yerləşir. Məhsuldar torpaqlar Alberta, Saskaçevan və Monitoba əyalətlərinin çox hissəsini tutur. Albertada iri neft və təbii qaz yataqları müəyyən edilmişdir. Digər əyalətlərdə sink, qurğuşun və gümüş ehtiyatı vardır. Monitoba əyalətində 100 minə qədər göl var, onların çox hissəsi buzlaq mənşəlidir. Saskaçevanın şimalında da çoxlu sayda çaylar və göllər vardır. Albertanın cənub-şərq rayonlarını Qayalı dağlar və onun dağətəyi sahələri tutur. Qərb əyalətlərinin şimal rayonları sıx meşələrlə örtülmüşdür. Ona görə ağac tədarükü təsərrüfatın ən mühüm sahələrinə aiddir.

Fransız dilli Kanada

Kanadada ingilis və fransız dillərinin rəsmi dövlət dili kimi istifadə edilməsi tarixi məskunlaşma ilə əlaqədardır. XVII əsrdən başlayaraq materikə eyni vaxtda ingilis və fransız mühacirlər gəlmiş və məskən salmışlar. Ərazi uğrunda olan münaqişələr bir neçə müharibəyə səbəb olmuş (1756-1763), nəticədə ingilislər ölkəyə nəzarəti tam ələ keçirmişlər. Lakin fransız miqrantlar da burada qalmışlar. Onlar əsasən Kvebek əyalətində cəmlənmişlər. Kvebekdə fransız dilini ana dili hesab edən kanadalıların 90%-ə qədəri yaşayır. Burada 1608-ci ildə fransız Samuel de Şampleyn xəz-dəri faktoriyası (şirkəti) təşkil etmişdir. ***Faktoriya*** *- Avropa tacirlərinin müstəmləkə ölkələrində təşkil etdiyi ticarət məntəqəsidir. Fransız kanadalıların problemi kifayət qədər ciddi olaraq qalır. Kvebek sakinləri əyalətə müstəqillik verilməsi uğrunda mübarizə aparırlar. Kvebek əyaləti zəngin təbii ehtiyatlara və məhsuldar torpaqlara malikdir. Burada müxtəlif faydalı qazıntılar hasil edilir. SES-lərdə elektrik enerjisi istehsalına görə Kvebek Kanadada birinci yeri tutur. Əyalətin müxtəlif tipli landşaftları səfalı olduğuna görə region Kanadada "Gözəl əyalət" adını almışdır. Müqəddəs Lavrentiya çayının sahilləri boyu yerləşən düzənliklər şərqdə Appalaç dağlarının kənar silsilələri, şimalda Lavrentiya yüksəkliyinə qədər uzanır. Belə çaylardan biri üzərində məşhur Monmoransi şəlaləsi yaranmışdır. Onun hündürlüyü Niaqaradan iki dəfə çoxdur, təbiəti daha mənzərəlidir. Əyalətin mərkəzi şəhəri Kvebek olsa da, ən böyük şəhər Monrealdır. O, mühüm liman və maliyyə mərkəzidir, iki çayın əhatə etdiyi adada yerləşir.*

Britaniya Kolumbiyası Kanadanın Sakit okeana çıxışı olan yeganə əyalətdir. Onun ərazisini iki böyük dağ silsiləsi kəsib keçir. Britaniya Kolumbiyası Albertadan Qayalı dağlarla ayrılır. Qayalı dağlardan qərbdə sıx meşələr, təbii çəmənliklər və çoxsaylı göllər yerləşir. Digər dağ massivi olan Sahil sıra dağları sahil xətlərinin formalaşmasında mühüm rol

oynamışdır. Dağlardan aşağı hərəkər edən buzlar sahilləri parçalamış, cilalamış, çoxlu sayda adalar və fyordlar yaratmışdır. Şimalda Şahzadə Şarlotta adaları, cənubda uzunluğu 460 km olan Vankuver adası yerləşir. Əyalət səfalı təbiəti ilə məşhurdur, çoxsaylı vəhşi heyvanların, o cümlədən qrizli ayısı, qara ayı, sığın, həmçinin müxtəlif su quşlarının yaşayış yeridir. Qrizli ayısı iri və güclü olmaqla, planetin quruda yaşayan ən böyük yırtıcı heyvanlardan biridir. Onlar bir növ kimi məhv olmaq təhlükəsi qarşısındadır. Əyalətin təbii mühitini qorumaq üçün 675 park və qoruq yaradılmışdır. Bu ərazilər hər il 24 mln. nəfər turist cəlb edir. Britaniya Kolumbiyasında Kanadanın əmtəəlik ağac ehtiyatlarının əsas hissəsi toplanır. Onlar tikinti materialları, kağız istehsalı üçün xammal, taxta istehsalı və başqa məqsədlər üçün istifadə edilir. Əyalətdə yaşayan 4,5 mln. nəfər əhalinin çox hissəsi ağac emalı, dağ-mədən sənayesi, turizm sənayesi sahələri və xidmət sferasında məşğul olur. Əhalinin çox hissəsi cənub-qərbdə cəmlənmişdir və onların 60%-i iki şəhərdə yaşayırlar. Əyalətin mərkəzi Viktoriya şəhəri Vankuver adasında yerləşir. Şəhər 1843-cü ildə yaradılmış ilk daimi Avropa koloniyasının yerində salınmışdır (***koloniya*** – başqa bir ölkədə əcnəbilərin yaşaması üçün ayrılmış yer və ya məhəllədir). Vankuver - böyüklüyünə görə Kanadanın üçüncü şəhəridir, əlverişli təbii limanda yerləşməsi nəticəsində dəniz ticarətinin mərkəzinə çevrilmişdir. Britaniya Kolumbiyası Yaponiya, Çin və digər Asiya ölkələri ilə ticarət əlaqələrini genişləndirir. Əyalətin əhalisinin çox hissəsi Britaniya mənşəli olsa da, burada yerli əhali və digər Avropa ölkələrindən gələnlər də çoxdur. Yerli Çin icması Şimali Amerikada San-Fransisko icmasından sonra sayına görə ikinci yeri tutur. Sakit və Atlantik okeanlarından uzaqda yerləşən Üç Göl əyalətində kəskin temperatur tərəddüdünə malik olan kontinental iqlim səciyyəvidir. Bu ərazilərdə yay çox isti, qış çox soyuq keçir. Manitoba əyalətinin ən böyük şəhəri olan Vinnipeqdə yanvarın orta temperatur -20°C, iyulun orta temperaturu +20°C-dir. Sakit okeana nisbətən yaxın olan Albertanın cənub-qərb rayonlarında "çinuk" adlanan isti okean küləklərinin təsiri ilə əlaqədar qışda temperaturlar nisbətən yuxarı olur. Hər üç əyalətdə iqlim kifayət qədər qurudur. Burada il ərzində cəmi 380 mm-dən 440 mm-ə qədər yağıntı düşür. Lakin yayda da, qışda da buludsuz günlər çoxdur. Saskaçevan əyalətində olan Estevan şəhəri Kanadanın "günəşli paytaxtı" hesab olunur. Burada il ərzində günəşli saatların orta illik miqdarı 2500 saata çatır. Britaniya Kolumbiyasının şərq kənarlarında da kontinental iqlim səciyyəvidir, lakin iqlim şəraitinə Sakit okeana yaxınlıq güclü təsir göstərir. Okeandan gələn isti və rütubətli hava axınları təkcə qışda havanı yumşaltmır, həm də bol yağıntı gətirir. Bura il ərzində 1300 mm-dən 3800 mm-ə qədər yağıntı düşür. İsti yaya və geniş əraziləri tutan, məhsuldar torpaqlara malik olan düzənliklər hər üç əyalətdə məhsuldar kənd təsərrüfatının inkişafına imkan verir. Alberta Kanadada mal əti istehsalına görə birinci yeri tutur. Ətin yalnız 13%-i əyalət daxilində istehlak edilir, yarısı ölkənin digər rayonlarına daşınır, qalan 30%-i satış üçün ABŞ-a gedir. Saskaçevanda ölkədə yığılan taxılın yarısı becərilir. Çovdar, yağ alınması üçün kətan və başqa bitki əkinləri də geniş ərazi tutur. Kanada arpanın dünyada ən böyük

Vankuver şəhərinin ümumi görünüşü

istehsalçısıdır. Hər il orta hesabla 13,4 mln. tondan çox arpa yığılır. Məhsulun 90%-dən çoxunu Qərbi Kanada verir. Arpa əkinlərinin əsas hissəsi Böyük Düzənliklərdə yerləşir. Kanadanın mərkəzində yerləşən Manitoba kənd təsərrüfatı və ərzaq məhsullarının ticarəti, daşınması və paylanmasının mühüm mərkəzidir. Britaniya Kolumbiyasında tərəvəzçilik və bağçılıq, südlük heyvandarlıq inkişaf etdirilir. Yeyinti sənayesi hər üç əyalətin təsərrüfatında mühüm rol oynayır. Ölkənin qərbində yanacaq faydalı qazıntıları başlıca olaraq Saskaçevan və Albertada hasil olunur. Alberta Kanadanın təbii qaza olan tələbatının 90%-ni təmin edir. Saskaçevan 18 mindən çox neft quyusu vardır, ölkənin neft hasilatının 1/5-i burada hasil olunur. Şimali Kanadaya Yukon, Şimal-Qərb ərazisi və Nunavut əyalətləri daxildir. Bu torpaqların 4/5 hissəsi arktika təbii zonasının səhralarından ibarətdir. Bu ərazilərdə qar ilin doqquz ayında yerdə qalır, dünyanın ən zəif mənimsənilmiş rayonları sırasına daxildir. Şimal-Qərb ərazisi və Nunavutda hər nəfərə 46 km², Yukonda 14 km² ərazi düşür. Yukonun sahəsi 483450 km²-dir, lakin onun əhalisinin yarısından çoxu inzibati mərkəz olan Uaytxops şəhərində yaşayır. Regionun şimal hissəsi tundradır, şibyə, otlar, alçaq boylu kolluqlar və cırtdan boylu ağaclar bitir. Bu ərazilər qızıl, sink, qurğuşun yataqları ilə zəngindir. Bura Kanadanın yeganə əyalətləridir ki, aborigen xalqlar olan hindular və inuitlər (eskimoslar) əhalinin əsas hissəsini təşkil edir. Onların yaşayışının əsas mənbəyi ovçuluq, balıqçılıq, faydalı qazıntıların hasilatı və ağac tədarüküdür. İnuitlər qışda buz üzərində dəliklər açaraq arktika qızılbalığı və başqa balıqlar tuturlar. 1999-cu ildə Şimal-Qərb ərazisi və Yukonun sərhədləri dəyişdirilmiş və Nunavut ərazisi təşkil edilmişdir. Tərkibinə Şimal Buzlu okeanında olan və Kanada Arktikası arxipelaqını formalaşdıran minlərlə ada daxildir. Hərfi mənası "Bütün ölkə" olan Nunavut inuitlərin özünü idarə etmə hüququ olan ərazisidir. İnuitlər ərazinin ümumi əhalisinin 85%-ni təşkil edirlər, sayı 30 min nəfərə yaxındır.

Amerika Birləşmiş Ştatları

Sahəsi: 9 372 610 km²
Əhalisi: 309,6 mln. nəfər (2010)
Paytaxt: Vaşinqton (588,2 min nəfər, şəhərətrafı ilə 5281 min nəfər)
Rəsmi dil: ingilis (cənubda ispan dili geniş istifadə olunur)
Dini etiqad: protestantlıq (56%), katolisizm (28%)
Pul vahidi: ABŞ dolları
Dövlət quruluşu: respublika

ABŞ dünyada sahəsinə görə dördüncü, əhalisinin sayına görə üçüncü ölkədir. Təbii ehtiyatlarla zəngin olan ölkə dünya iqtisadiyyatında lider rolunu oynayır. ABŞ-ın materik hissəsi Şimali Amerikada köndələn olaraq Sakit okeandan Atlantik okeanına qədər uzanan 48 ştatdan ibarətdir. Qalan iki ştata Qərbi Kanada ilə həmsərhəd olan, materikin şimal-qərbində yerləşən Alyaska və Sakit okeanda olan Havay adalarındakı eyniadlı ştat daxildir.

Ölkənin qərbində Qayalı dağlar 4000 m-dən yüksək zirvələrə malik olan silsilələr əmələ gətirir. Şərqdə 2400 km məsafədə Appalaç dağları uzanır. İki dağ silsiləsi arasında geniş daxili düzənliklər yerləşir. Sahilboyu Atlantiksahili və Meksikasahili ovalıqlar geniş əraziləri əhatə edir. ABŞ ərazisində min illər ərzində hindu tayfaları məskunlaşmışdır. İngilislər ilk məskənləri şərq sahillərində XVII-XVIII əsrlərdə salmışlar. Müstəqillik uğrunda mübarizə (1775-1781) metropoliyanın məğlubiyyəti ilə nəticələnmiş və ingilis müstəmləkələri müstəqillik əldə etmişlər. 4 iyul ABŞ-da müstəqillik günüdür, hər il ölkədə böyük təmtəraq və atəşfəşanlıqla qeyd edilir. 1776-cı ilin bu günü Müstəqillik Bəyannaməsi qəbul edilmişdir. ABŞ əhalisinin etnik və irqi tərkibi çox müxtəlifdir. Bu, müxtəlif qitələrdən olan immiqrasiya və Afrikadan qulların gətirilməsinin nəticəsidir. Ölkə əhalisinin

təxminən 69,8%-i Avropa mənşəlidir, 13,2%-i ispandilli xalqlardır, 12,8%-i afroamerikalılar, 3%-i asiyalılar, 1,2%-i yerli əhali olan hindulardan ibarətdir. ABŞ-da hakimiyyət 50 ştat və federal hökumət arasında bölünmüşdür. Federal hökumət xarici siyasəti müəyyən edir, digər ölkələrlə müqavilələr imzalayır, silahlı qüvvələri saxlayır, dövriyyəyə pul buraxır, onu çap etdirir. Federal hökumət Kolumbiya mahalında yerləşən Vaşinqtonda fəaliyyət göstərir. Federal hökumət bura 1790-cı ildə köçmüşdür. Potomak çayının şərq sahilində olan Vaşinqtonda yerləşən federal müəssisələrdə şəhərin daimi iş yerinə malik olan hər üç sakinindən biri çalışır. ABŞ-ın Ali Qanunverici orqanı Konqress iki palatadan ibarətdir: nümayəndələr palatası və senat. Hər iki palatanın üzvləri əhali tərəfindən seçilir. Qanunların şərh edilməsində son söz Ali Məhkəməyə məxsusdur. ABŞ Prezidentinin rəsmi iqamətgahı Ağ Evdir. ABŞ-da davamlı dinamik inkişafa və yüksək iqtisadi potensiala malik təsərrüfat sistemi qurulmasına iqtisadi fəaliyyət azadlığı, qanunların düzgün işləməsi, insanların əməksevərliyi, dövlət və hakimiyyət orqanlarının ölkənin inkişafı üçün fəaliyyət göstərməsi və zəngin təbii ehtiyatların olması imkan verir. ABŞ-da dünya üzrə kəşf edilmiş kömür yataqlarının 115-dən çoxu yerləşir. Ölkə ərazisinin yarısından çoxu kənd təsərrüfatı məqsədləri üçün istifadə edilir. ABŞ-ın mərkəzində olan Böyük Düzənliklər və şimal-qərbdə yerləşən prerilərdə buğda, qarğıdalı və başqa dənli bitkilər yetişdirilir. Ölkədə saxlanılan 90 mln. baş mal-qara üçün qərb regionunda geniş otlaq sahələri vardır. Uzun sahil xətləri çoxsaylı körfəzlər və buxtalarla parçalanmışdır. ABŞ-ın şərqinə Yeni İngiltərənin altı şimal-şərq

Kolorado ştatı

ştatı, Nyu-York ştatı və Orta Atlantika ştatları olan Nyu-Cersi, Dilaver, Merilend, Pensilvaniya, Virginiya və Qərbi Virginiya aiddir. Şimal-şərq regionunun altı ştatı – Men, Nyu-Hempşir, Rod-Aylend, Vermond, Konnektikut və Massaçusets ümumi ad altında birləşir və Yeni İngiltərə adlanır. Burada yeni şəhər və kəndlərin əsasını qoyan ilk avropalı köçkünlər sahilə çıxmışlar. Regionun landşaftı cənuba və ölkənin daxilinə getdikcə dəyişir. Cənuba getdikcə Atlantik sahili areal genişlənir, qərbdə materik tərəfdə Appalaç dağ sistemi ilə məhdudlaşır. Appalaç dağlıq massivinə Vermontun Yaşıl dağları, Nyu-York ştatında Katskill dağları, Corciya, Şimali Karolina, Qərbi Virginiya və Virginiya ştatlarından keçən Blu-Ric silsilələri daxildir. Appalaç faydalı qazıntılarla, o cümlədən kömür, dəmir filizi və sinklə zəngindir. Regionda olan meşələrin çox hissəsi torpaqların kənd təsərrüfatında və tikintidə istifadə edilməsi üçün qırılmışdır. Buna baxmayaraq Qərbi Virginiya ərazisinin 75%-i, Virginiyanın 60%-i, Pensilvaniyanın 55%-i, Merilend ştatının 43%-i meşələrlə örtülüdür. Şərqdə yerləşən əksər ştatlarda kənd təsərrüfatının geniş inkişaf etməsinə baxmayaraq təsərrüfatda sənaye və xidmət sahələri daha böyük əhəmiyyət kəsb edir. Nyu-Cersi ştatında kənd təsərrüfatı ümumi gəlirlərin cəmi 1%-ni verir. Yeni İngiltərənin əsas mərkəzi yüksək inkişaf etmiş sənayeyə malik olan və çoxsaylı universitetlərin yerləşdiyi Massaçusets ştatı hesab olunur. Burada okeanın sahillərində regionun əsas şəhəri olan Boston yerləşir. Konnektikut metal emalı sənayesi müəssisələri və dünyanın ən nüfuzlu universitetləri ilə (Nyu-Heyvendə Yel) məşhurdur. Yeni İngiltərədə olan tədris müəssisələrinə Massaçusets Texnologiya İnstitutu və Harvard Universiteti də daxildir. Vermont ştatının təsərrüfatında üstünlük təşkil edən kənd təsərrüfatından başqa turizm də mühüm yer tutur. Turistləri həm regionun tarixi keçmişinə aid obyektlər, həm də müxtəlif mənzərələr cəlb edir.

İlk məskənlər mərhələsi

*ABŞ-ın yaranma tarixi şərq ştatlarında başlanmışdır. Sahil boyu əlverişli limanlar, məhsuldar torpaqlar, zəngin faydalı qazıntı yataqları bura ilk avropalıları cəlb etmişdir. İlk ingilis koloniyası bir qrup London tacirlərinin maliyyə dəstəyi ilə 1607-ci ildə müasir Virginiya ştatının ərazisində olan Ceymstaunda salınmışdır. Bu dövrdə koloniyalar yaradılmasına "əhalinin sayının çoxalmasına" qarşı vasitə kimi baxılırdı. 1620-ci ildə ingilis puritanları (**Puritanlar** – XVI-XVII əsrlərdə şahzadənin qeyri-məhdud hakimiyyətinə - absolyutizmə və anqlikan kilsəsinə qarşı çıxan ingilis və şotland burjuasiyasının dini-siyasi hərəkatının üzvləri) dini təqibdən qurtarmaq üçün Massaçusets torpaqlarında məskən saldılar və Plimutda koloniyanın əsasını qoydular. Britaniya idarəçiliyinə qarşı ilk çıxış - Boston çay dəstgahı (1773) Massaçusets ştatında olan Boston limanında baş vermişdir. Saratoq yaxınlığında olan böyük döyüş (1777) müəyyən mənada müstəqillik uğrunda müharibənin gedişini müəyyən etmiş və bu döyüş Nyu-York ştatı ərazisində baş vermişdir. 1778-ci ildə Fransa amerikalıları müdafiə etmək üçün qoşun və gəmilər göndərdi. 1756-1763-cü illərdəki müharibədən sonra Kanadadan qovulduqları üçün fransızlar Şimali Amerikada Britaniyanın mövqeyini zəiflətmək məqsədilə üsullar axtarırdılar. 1783-cü ildə Britaniya keçmiş müstəmləkəsinin müstəqilliyini tanıdı. ABŞ-da konstitusiya 1787-ci ildə Filadelfiyada qəbul edilmişdir. Bu dövrdən sonra konstitusiyaya 27 düzəliş edilmişdir, lakin onun əsas müddəaları bu günə qədər qüvvədə qalır.*

Kapitoliya

Nyu-York şəhəri

Nyu-York ştatının cənub-şərqində eyniadlı nəhəng meqalopolis yerləşir. Şəhər Hudzon çayının mənsəbində xəz faktoriyası kimi yaranmışdır. Hazırda planetin ən böyük və zəngin şəhərlərindən, biznes və maliyyənin dünya üzrə mərkəzlərindən biridir. Nyu-Yorkun dünya əhəmiyyətli muzeyləri, müasir qalereyaları, gözəl bağları, parkları, göydələnləri və təmtəraqlı restoranları vardır. Şəhər materikdə və 50 adada yerləşir, onlardan ən böyüyü Manhetten adasıdır. 2000-ci ilin siyahıyaalmasına görə şəhər əhalisinin 68%-ni ağlar, 16%-ni qaralar, 6%-ni asiyalılar və Sakit okean adalarından çıxanlar və 10%-ni digər irqlərin nümayəndələri təşkil edir.

Missuri və Missisipi

Missuri çayı ABŞ-ın mərkəzi rayonlarından axır. Uzunluğuna görə o yalnız Missisipidən geri qalır və bu çaya Sent-Luis şəhərindən bir qədər şimalda tökülür. Böyük göllər rayonundan Meksika körfəzinə qədər çayın hövzəsi 31 ştatın ərazisini tamamilə və ya qismən əhatə edir. Missisipi öz başlanğıcını Minnesota ştatından götürür, çayın qollarının ümumi sayı 250-dən çoxdur. 2900 km-ə qədər məsafədə gəmiçiliyə yararlı olan Missisipi dünyada ən çox istifadə edilən çay yollarından biridir. Böyük barjalar və gəmilər iri həcmli yüklər olan neft məhsulları, kömür, şəkər, çınqıl və dəmir filizi daşıyır. Missisipi çayı üzərində iri SES-lər və su anbarları qurulmuşdur. Missisipi çoxlu meandrlara malikdir. Çay Cənubi Luiziananı kəsib keçir və Yeni Orlean yaxınlığında Meksika körfəzinə tökülür. Mənsəbdə su sərfi saniyədə 19 mln. litrdir. Əsas məcradan hər iki tərəfdə olan axmazlar göstərir ki, son 5 min il ərzində bərk axımın həcminin dəyişməsi və insanın fəaliyyəti ilə çayın aşağı axarında məcranın yeri güclü şəkildə dəyişmişdir. Nəticədə sahəsi 12 min km² olan böyük delta formalaşmışdır. Cənub ştatlarından keçən çayın hər iki tərəfində geniş allüvial düzənliklər yerləşir. Eni 60 km-dən 120 km-ə qədər olan bu ərazini çay uzun illər ərzində yaratmışdır. Bu ovalıqlarda daim daşqın təhlükəsi vardır. Ona qarşı mübarizə aparmaq üçün sahillər boyu bəndlər və torpaq layları qurulur, onların uzunluğu 2575 km-ə çatır. Deltanın bataqlıq olan kənarlarında sərv ağaclarından olan meşələr yaranır.

Dünyada dənli bitkilərin ən böyük əkinlərinin də yerləşdiyi Orta Qərb və Böyük göllər regionu iri sənaye və ticarət mərkəzi kimi ABŞ-ın təsərrüfatında mühüm rol oynayır. ABŞ-ın bu regionu ərazisində bir neçə dağlıq tirələr, o cümlədən Kanzasda Smoki-Hils, Cənubi Dakota və Vayominqdə Blek-Hils yerləşir. Cənubi və Şimali Dakotada, Nebraskanın şimal-qərbində bedlend (yararsız) sahələri vardır. ABŞ-ın orta qərb hissəsini Böyük Düzənliklər tutur. "Taxıl qurşağı" adlanan region Ohayonun qərbindən Nebraskanın mərkəzinə qədər uzanır, bura dünyada taxıl yığımına görə əsas yerlərdən biridir. Böyük Düzənliklər Qayalı dağlar və Missisipi çayı arasındakı geniş əraziləri tutur. Bu düzənliklərdə Şimali Dakota, Cənubi Dakota, Montana, Vayominq, Kolorado, Nebraska və Kanzas, həmçinin nisbətən cənubda olan Oklaxoma, Nyu-Meksiko və Texas ştatları yerləşir. Qədim dövrlərdə düzənliklərin çox hissəsini daxili dəniz tutmuşdur. Bunun nəticəsində formalaşan çöküntü süxurları yerin altında üfüqi laylar əmələ gətirir. Sakit okeandan əsən küləklərin gətirdiyi rütubətin qarşısını kəsən Kordilyer dağları iqlimə böyük təsir göstərir. Qışda az miqdarda qar yağır, yay quru keçir, nadir hallarda leysan yağışları yağır, toz burulğanlarına səbəb olan güclü küləklər əsir. Yaxın keçmişə qədər Böyük Düzənliklər dünyanın ən böyük çöllərindən biri idi, burada ümumi sayı 50 mln. başdan çox olan bizon sürüləri gəzirdi. Bu çöllər məhsuldar torpaqları ilə tanınırdı. XIX əsrdən başlayaraq uzun illər boyu intensiv şumlanma torpaqların eroziyasına səbəb olmuşdur. Lakin təsərrüfatın müasir texnologiya əsasında qurulması və suvarma torpaqlardan istifadəyə imkan verir. Çöllərdə çoxlu sayda mal-qara otarılır, həmçinin taxıl, çovdar, arpa və yonca əkilir. Burada dünya bazarına daxil olan taxılın 75%-i becərilir. Cənubi Dakotada qızıl, Şimali Dakotada, Nebraskada və Kanzasda iri neft və qaz yataqları istismar olunur. Son buzlaşma zamanı buzların çay vadilərini genişləndirməsi və dərinləşdirməsi nəticəsində beş böyük

ABŞ-ın simvolu olan Azadlıq heykəli 93,5 m hündürlüyə malikdir və Nyu-York limanındakı adada yerləşir. Heykəl ABŞ-ın müstəqil ölkə elan edilməsinin 100 illiyi münasibətilə Fransa tərəfindən hədiyyə edilmişdir.

göl yaranmışdır. Onlarda dünyadakı şirin su ehtiyatının 20%-i, ABŞ-ın şirin sularının 90%-i toplanmışdır. Böyük göllər arasında yalnız Miçiqan tamamilə ABŞ ərazisində yerləşir, qalan dörd göl – Eri, Ontario, Huron və Yuxarı ABŞ və Kanadanın sərhəddindədir. Yuxarı göldən axan su digər göllərdən keçərək Müqəddəs Lavrentiya çayı vasitəsilə eyni adlı körfəzdə dənizə tökülür. Göllər təxminən 750 min km² sahədən su toplayır, gəmiçilik kanalı ilə Hudzon çayı və Misisipinın hövzəsi ilə əlaqəlidir. 1970-ci illərin əvvəllərində göllər sənaye tullantıları ilə həddən artıq çirklənmişdir. Lakin xüsusi ekoloji proqramın həyata keçirilməsi nəticəsində flora və fauna bərpa edilmiş, suyun keyfiyyəti yaxşılaşmışdır. Böyük göllər rayonunun ştatlarında ölkə əhalisinin təxminən 1/5 hissəsi yaşayır. Bu ştatlar ABŞ-ın sənaye mərkəzini əmələ gətirir. Burada avtomobil və sənaye avadanlığı kimi maşınqayırma məhsullarının çox hissəsi istehsal edilir. Regionda ağır sənaye müəssisələri xammal mənbələrinə - dəmir filizi və kömür ehtiyatlarına yaxındır və XIX - XX əsrlərdə yaradılmışdır. Cənub-şərq hissələrdə su yolu yaradılmışdır. Böyük göllərin sahillərində əsas sənaye və ticarət mərkəzlərinə çevrilən, mühüm nəqliyyat qovşaqları olan iri şəhərlər yaranmışdır. Onlara Eri gölü sahilində olan Klivlend, Miçiqan gölü sahilindəki Miluoki və Çikaqo, Eri və Huron gölləri arasında olan Detroyt şəhəri aiddir. Çikaqo şəhəri böyüklüyünə görə ABŞ-da Nyu-York və Los-Ancelesdən sonra üçüncü yeri tutur. Əlverişli mövqeyinə görə Çikaqo ən mühüm hava, su və quru nəqliyyatı qovşaqlarından biridir. Çikaqo şəhərində fəaliyyət göstərən "Ford" şirkətinə aid olan zavodda il ərzində 250 min avtomobil istehsal edilir.

"Yersiz gəldi, yerli qaç"

Avropalı mühacirlər ilkin vaxtlarda kənd təsərrüfatı ilə məşğul olmaq və faydalı qazıntıları çıxarmaq üçün daha çox torpağı zəbt edirdilər. Bu isə gərginliyin artmasına və münaqişələr yaranmasına gətirib çıxarırdı. XIX əsrdə böhran ən yüksək səviyyəyə çatdı. Əsasən Avropadan olan mühacirlər hindu tayfalarının qida mənbəyi olan milyonlarla bizonu öldürür və qərbə tərəf irəliləyərək hinduların torpaqlarını zəbt edirdilər. Bu münaqişələr əsasən Orta qərbdə və Böyük göllərin sahillərindəki ştatlarda baş verirdi. Məsələn, 1832-ci ildə sok və foks tayfalarının zorla köçürülməsi Viskonsin və İllinoysda "Qara Qırğı" müharibəsinə gətirib çıxardı. Müharibə sok tayfası başçısının adı ilə adlanırdı. Ən böyük toqquşma general Kasterin başçılığı ilə ABŞ süvariləri, "Quduz At" və "Oturaq Öküz" adlı rəhbərlərin başçılığı ilə siu və şayen tayfalarının birləşmiş qüvvələri arasında Montana ştatında Litl-Biqxorn (1876) yaxınlığında olmuşdur. Döyüşdə hindular amerikan ordusunun süvari korpusunu məhv etdilər. Lakin 1890-cı ildə federal qoşun dəstələri siu hindularını əsir götürdü, hindular isə müqavimət göstərdilər. Cənubi Dakotada Vunded-Ni çayı yaxınlığındakı döyüşdə yüzlərlə hindu döyüşçüsü, qadınlar, uşaqlar vəhşicasinə məhv edildi. Bu gün yerli amerikalılar ölkənin ümumi əhalisinin 1,2%-dən azını təşkil edir. Hinduların ən böyük qrupu çerokilərdir (19%), onlardan sonrakı sıranı navaxi və siu tayfaları tutur. ABŞ hindularının 1/5-i ***rezervasiyalarda*** *– ölkənin hökuməti tərəfindən ayrılmış torpaqlarda, cənub ştatlarında – Oklaxoma, Nyu-Meksiko, Arizona və Kaliforniyada daha çox yaşayırlar. Bu ştatların hər birində yerli amerikalıların sayı 200 min nəfərdən çoxdur.*

Ağır sənayenin bir çox sahələrində yaranan iqtisadi problemlər, daha ucuz idxal məhsulları ilə

olan rəqabət son dövrlərdə ştatlarda rəhbərləri yeni sahələr, o cümlədən maliyyə işi, elektronika və turizm sahələrini inkişaf etdirməyə məcbur edir. İqlim şəraitinin və torpaqların müxtəlifliyi səmərəli və intensiv kənd təsərrüfatını inkişaf etdirməyə imkan verir. Məsələn, İllinoys ştatının ərazisinin 75%-dən çoxunu fermalar tutur. Bura ABŞ-da ən böyük soya istehsalı mərkəzidir. Viskonsin mühüm südlük maldarlıq mərkəzi kimi tanınır. Burada ölkə üzrə südün 10%-dən çoxu və xeyli miqdarda pendir istehsal olunur. Miçiqan gilas və alma bağları ilə məşhurdur. ABŞ-da toplanan buğda məhsulunun 1/5 hisəsini Kanzas ştatı verir. Ştatda yığılan buğdanın yarıya qədəri ixrac edilir.

Appalaç dağ silsiləsi cənub ştatlarında da davam edir. Tennesi ştatının şərq rayonlarını, Şimali Corciyanı, şimal-şərqi Alabamanı Kamberlend dağları və platosu kəsib keçir. Qərbdə Arkanzas və Oklaxoma ştatlarının cənub-şərqində uzanan Uoşito dağları yerləşir. Floridanın sahilləri laqunlar, buxtalar və çaylarla kəsilmişdir. Körfəzə dörd ştatın çıxışı daha çoxdur. Texas ştatının şərq hissəsini Böyük Düzənliklər tutur, qalan hissəsində dağlar və səhralardan ibarət vadilər yerləşir. Mərkəzi hissəsindən Qayalı dağlar keçir, bitki örtüyü iynəyarpaqlı ağaclardan ibarətdir. ABŞ-ın cənub ştatları landşaft zonalarına və iqliminə görə fərqlənir. Bir neçə ştatın iqlimi rütubətli və mülayimdir, İndiana və Floridada qızmar və rütubətli yaya, isti qışa malik subtropik iqlim hakimdir. Ən cənub ştatlarda – Florida və Texasda ərazinin çox hissəsində hava il boyu isti keçir. Meksika körfəzini əhatə edən ştatlarda tez-tez leysan yağışları ilə müşayət olunan tufanlar olur. Orta hesabla hər il Meksika körfəzinin sahillərinə beşdən səkkizə qədər tropik qasırğa hücum çəkir. 2005-ci ildə Yeni Orlean şəhəri "Katrina" qasırğası nəticəsində tamamilə dağılmışdır. Pambıq ən mühüm qeyri-ərzaq bitkisidir. Dünyada pambıqdan toxunan parçaların yarıya qədəri ABŞ-da istehsal olunur. 2001-ci ildə ABŞ pambıq yığımına görə dünyada ikinci yeri tutmuşdur. Onun çox hissəsi cənub ştatlarında yerləşən pambıq qurşağında becərilir. Bu regionda iqlim şəraiti pambığın yetişməsi üçün çox əlverişlidir. Bu kənd təsərrüfatı bitkisi ərazidə ilk avropalılar məskən salandan bəri yetişdirilir. Hazırda pambıq əkinlərinin çox hissəsi qərbə tərəf yerini dəyişir, Kaliforniya və Arizonaya keçir. Lakin Missisipi, Arkanzas, Luiziana və Texas pambığın əsas istehsalçıları olaraq qalır.

Problemi quldarlıq sistemi həll edir

Pambıq, tütün, çəltik və şəkər qamışı cənub ştatlarında ilk avropalı miqrantların becərdiyi mühüm kənd təsərrüfatı bitkiləri idi. Ferma və plantasiyaların inkişafı prosesində çoxlu işçi qüvvəsi tələb olunurdu, çıxış yolunu quldarlıqda görürdülər. Qul tacirləri cənub ştatlarına milyonlarla qaradərili afrikalı gətirirdilər. 1790-cı ildə qaradərili qullar cənub əyalətlərinin əhalisinin 1/3-ni təşkil edirdi. Qullarla qeyri-insani davranış getdikcə böyük narazılığa səbəb oldu, Şimal və Cənubun arasında parçalanmaya gətirib çıxardı. 1860-1861-ci illərdə 11 cənub ştatı ABŞ-dan ayrılaraq Amerika Ştatları Konfederasiyasını yaratdılar. Birləşmənin məqsədi ölkədə quldarlığı qoruyub saxlamaq idi. 12 aprel 1861-ci ildə Konfederasiyanın qoşunları Samter istehkamını tutdular. Bu, vətəndaş müharibəsinin (1861-1865) başlanğıcı oldu. Cənub ştatları müharibədə uduzdular, onların təsərrüfatı dağıldı. Quldarlıq ləğv edilsə də, onilliklər ərzində afroamerikalıların həyat şəraiti demək olar ki, dəyişmədi. Quldarlığın yerində ***yardarlıq sistemi*** *yarandı (**Yardarlıq** – icarə haqqı məhsul ilə ödənilən torpaq icarəsi). Qaradərili və ağ yoxsullar məhsul verməyə məcbur edilməklə torpağa bağlı oldular. Lakin az vaxtdan sonra sənayecə inkişaf etmiş şimal rayonlarına kütləvi miqrasiya başlandı.*

ABŞ-ın cənub-şərq ştatlarında təsərrüfat strukturunu təkmilləşdirməyə imkan verən digər sahələr də inkişaf etdirilir. Soya və araxis kimi əmtəəlik bitkilər becərilir. Alabama, Şimali Karolina, Arkanzas və Corciya ABŞ-da quşçuluğun inkişafına görə aparıcı yeri tutur. Florida sitrus meyvələrinin əsas istehsalçısıdır. Dəniz sahillərində balıqçılıqla məşğul olurlar, Luizianada yengəc (krab) və dəniz xərçəngi

Florida ştatında sahilboyu ərazi

(krevet) tutulur. Meksika körfəzində, Luiziana və Missisipi ştatlarında hasil edilən neft kimya sənayesində xammal kimi istifadə olunur. Regionda maşınqayırma və elektronika, o cümlədən Amerika ordusu və NASA (Milli Aerokosmik Agentlik) üçün avadanlıqlar istehsal edən müəssisələrin sayı artır. Turizm mühüm gəlir mənbəyinə çevrilmişdir. Yeni Orlean və Mayami-Biç çoxlu sayda xarici turist cəlb edir. Yabanı təbiət həvəskarları arasında Florida bataqlıqları məşhurdur, burada Everqleyds milli parkı yaradılmışdır. Günəş şüaları altında dincəlmək istəyənlər Atlantik okeanı və Meksika körfəzi sahillərindəki kurortlara üz tutur. Cənubun isti iqlimi digər ştatlardan olan təqaüdçülər üçün əsil istirahət yerləridir. Texas ABŞ-da sahəsinə görə ikinci, əhalisinin sayına görə üçüncü ştatdır. Onun qərb sahələri Böyük Düzənliklərdə və onun cənubunda yerləşir. Ştat ölkədə ən mühüm kənd təsərrüfatı rayonlarından biridir. O, qarpızdan ispanağa qədər ən müxtəlif bitkilərin yığımına görə birinci yeri tutur. Ənənəvi olaraq iri buynuzlu mal-qara saxlanması aparıcı mövqeyini saxlayır. Ştatda 15 mln. baş iri buynuzlu mal-qara vardır (2000-ci il). Zəngin yanacaq faydalı qazıntı yataqlarının olması və onların istismarı nəticəsində Texas ətraf ştatlara nisbətən sürətlə inkişaf etmişdir. Neftin hasilatı və emalından, həmçinin emal sənayesinin digər sahələrindən əldə edilən gəlirlər hesabına müasir şəhərlər və aqlomerasiyalar yaradılmışdır. Onlara ştatın mərkəzi şəhəri olan Ostin, iri aqlomerasiyalar olan Dallas və Hyuston aiddir. Hyustonda NASA-nın kosmik tədqiqatlar mərkəzi yerləşir. ABŞ-ın qərbində yüksək vulkanik dağlar, cənubda Böyük Kanyon və yastı qumlu səhralar yerləşir. Burada San-Fransisko və Los-Anceles kimi iri şəhərlərlə yanaşı, regionda ölkənin ən az mənimsənilmiş əraziləri də vardır. Yüksək inkişaf etmiş rayonlar və yüksək texnologiyaya malik mərkəzlər yerli xalqların min illərlə yaşadığı sahələrlə yanaşıdır. Bu regionda ABŞ-ın ən yüksək və ən alçaq, həmçinin ən quru və ən rütubətli əraziləri yerləşir. Materikin mərkəzində yerləşən əzəmətli Qayalı dağlar ABŞ-ın qərbini şərqdəki ştatlardan ayırır. Qayalı dağlar bütün Aydaho ştatını kəsib keçir və Kanadanın ərazisinə doğru uzanır. Cənuba doğru yastı səhralardan ibarət böyük vilayətlər şimali Meksikada da davam edir. Kaliforniya ştatı mürəkkəb relyefi ilə fərqlənir. Burada tektonik tavalar arasında olan və San-Andreas qırılması adlanan iri zona vardır. Qırılma ştat boyu 1050 km məsafədə uzanır. Kaliforniyanın mərkəzini böyük vadi tutur, şərqdən Syerra-Nevada dağları, qərbdən Sahil sıra dağlarının qolları ilə əhatə olunur. Kaliforniyanın ən alçaq rayonları vadinin mərkəzində, Sakit okean sahilinin çox hissəsi boyu Sahil silsiləsindən qərbdə, həmçinin cənub-şərqdə olan səhra rayonlarında, o cümlədən Moxave səhrasında yerləşir. Mərkəzi Kaliforniyadan şimalda Sakit okeanın Şimal-Qərb regionu ayrılır. O, Şimali Kaliforniyadan başlanır, Oreqon və Vaşinqton ştatlarına qədər gedir. Onun əsas hissəsini Sahil silsilələri və ölkənin daxili hissəsində yüksələn Kaskad dağları tutur. Kaliforniya və Sakit okeanın Şimal-Qərbindən şərqdə olan landşaftları dağlar arası hövzələr və platolar, o cümlədən şərqdən Qayalı dağlarla haşiyələnən Böyük Hövzə müəyyən edir. ABŞ-ın qərbində şimal və cənub sahələri bir-birindən kəskin fərqlənir. Arizonanın çox hissəsi, Nevada və Cənubi Kaliforniyanın bir hissəsi isti və quru səhralardır. Regionda olan ən böyük Sonora

səhrası eyni zamanda Şimali Amerikada da ən geniş sahə tutur. Səhranın sahəsi 310 min km²-dir, Meksikanın şimal-qərbindən Arizonanın cənub-qərbinə və Kaliforniyanın cənub-şərqinə qədər uzanır.

Böyük Hövzə

Böyük Hövzə ABŞ-ın qərbində yayladır, qərbdə Syerra-Nevada və Kaskad dağları, şərqdə Qayalı dağlar arasında yerləşir. Yaylanın okeana çıxışı yoxdur. Çaylar və onların qollarının suları səhralarda itir və ya torpağa hoparaq okean və dənizlərə axa bilmir. Böyük Hövzənin sahəsi 500 min km²-dir, çoxlu sayda yüksək olmayan silsilələrdən, öz aralarında əlaqəli olan geniş çökəkliklərdən (vadilərdən) ibarətdir. O, Nevadanın çox hissəsini, Yutanın qərb yarısını, həmçinin Oreqona, Oydaxo və Kaliforniyanın az hissəsini tutur. Böyük Hövzənin eni şimalda maksimuma çatır. Cənuba doğru yayla daralır, mütləq hündürlüyü azalır. Syerra-Nevada dağ silsiləsi Sakit okeandan gələn rütubətli havanı yaylaya buraxmır. Nəticədə hövzənin çox hissəsində səhra iqlimi formalaşır, il ərzində 150 mm-dən 300 mm-ə qədər yağıntı düşür. Süni suvarılan rayonlardan başqa digər ərazilərdə bitki və heyvanat aləmi kasıbdır. Regionun ən böyük gölü şimali Yutada olan Böyük Duzlu göldür. Göl dağlardakı qarın əriməsi və bir neçə kiçik çayın gətirdiyi sular hesabına qidalanır. Bu kiçik gölün orta hesabla sahəsi 4400 km²-dir. Lakin buxarlanma və ona daxil olan suyun miqdarından asılı olaraq gölün sahəsi dəyişir. Böyük Duzlu göl dünyada ən duzlu göllərdən biridir (300‰). Gölün sahilində duz hasilatı və emalı zavodları fəaliyyət göstərir.

Kaliforniya və Nevadada həddən artıq quru səhra olan Ölüm vadisində il ərzində cəmi 50 mm yağıntı düşür. Burada ABŞ-da müşahidə edilən ən yüksək temperatur (+56,7°C) qeydə alınmışdır. Oydaho, Oreqon və Vaşinqton kimi şimal ştatlarında hava xeyli soyuqdur, burada orta temperatur 7°C-dən 12°C-yə qədər tərəddüd edir, ən alçaq temperatur isə (-51,1°C) Aydahoda müşahidə edilmişdir. Bu ştatları zirvələri 4000 m-dən yuxarı olan bir sıra dağ silsilələri kəsib keçir. Vaşinqton və Oreqonda ABŞ-ın ən rütubətli yerləri qeydə alınmışdır.



Arizona ştatında aşınmaya məruz qalmış dağlar

Bu ərazilərdə orta hesabla hər il 2000 mm-dən çox yağıntı düşür. Hər üç ştatda meşələr böyük əraziləri örtür. Meşə təsərrüfatı regionun təsərrüfatında mühüm rol oynayır. Kaliforniya ştatı ABŞ-da əhalisinin sayına görə birinci, sahəsinə görə üçüncü yeri tutur. Burada 36 mln. nəfər əhali yaşayır. Cəmi 25 il əvvəl onların sayı 13,6 mln nəfərdən az idi. Ştatın tarixi Amerikan çayında qızıl tapıldıqdan və bu rayonu əhatə edən "qızıl həyəcanı"nından sonra başlamışdır. Hazırda Kaliforniya mərkəzi Hollivud olan kino sənayesi və əyləncələrlə yox, həm də biznes üçün əlverişli imkanlar olması ilə məşhurdur. Kaliforniyada dünyada yüksək texnologiya və kompüter istehsalı üzrə ən iri və ən gəlirli mərkəzlərdən biri olan məşhur Silikon (Silisium) vadisi yerləşir. Burada aparıcı kompüter və onların proqram təminatının istehsalçılarının mənzil-qərargahı və tədqiqat mərkəzləri yerləşir. Kaliforniyada ənənəvi sahələr də, məsələn, aviakosmik və gəmiqayırma sənayesi də mövcuddur. Lakin ştatın ən iri şəhərlərində - San-Fransisko və Los-Ancelesdə aparıcı sahə elektronika və xidmət sənayesidir. Onlara əyləncə sektoru, turizm və bank işi də aiddir. San-Fransisko-konun ***metropoliten*** ərazisində (şəhər ətrafı ilə birlikdə) 4,2 mln. nəfərdən çox əhali vardır. Los-Ancelesin metropoliten sahəsində əhalinin sayı 12,873 mln. nəfərdir və ABŞ-ın qərbində ən böyük şəhərdir. Bu meqalopolis böyük sahilboyu düzənlikdə inkişaf etmişdir, çox güclü

avtomagistral şəbəkəsi ilə əlaqələnmişdir, onlar ətraf mühitin ciddi çirklənməsinə səbəb olur. Los-Anceles əvvəllər Meksikaya aid olmuşdur. 1850-ci ildə şəhər statusu alarkən burada əhalinin sayı 1600 nəfər idi. 150 il ərzində Los-Anceles meqalopolisə çevrilmişdir. Şəhərdən 11 km şimal-qərbdə dünya əhəmiyyətli kino sənayesi və videobiznes mərkəzi olan məşhur Hollivud yerləşir. Los-Angelesdən cənubda Los-Anceles-Lonq-Biç limanı yerləşir. Bu, ABŞ-ın Sakit okean sahilində ən böyük ticarət limanıdır.

Kaliforniya dünyada ərzaq istehsal edən 10 əsas bölgədən biridir. Burada ABŞ-ın meyvə-tərəvəzinin yarısı becərilir, südün 15%-i istehsal olunur, dünyada ən böyük şərab istehsalı müəssisəsi yerləşir. Ernest Hallonun şirkəti gündə 2 mln. şüşə şərab istehsal edir. Kaliforniyada kənd təsərrüfatının inkişafına məhsuldar torpaqların olması və iqlim əlverişli şərait yaradır. Ştatın çox hissəsində isti subtropik iqlim hakimdir, çoxsaylı istilik sevən bitkilərin vegetasiyası üçün əlverişlidir. Ayrı-ayrı ərazilərin iqlimi Sakit okeana yaxınlığı və okean səviyyəsindən hündürlüyündən asılı olaraq kəskin fərqlənir. İqlim şəraitinin rəngarəngliyi müxtəlif bitkilərin becərilməsinə imkan verir. Kaliforniyada 200-dən çox kənd təsərrüfatı bitkisi becərilir. Onlar arasında üzüm və sitrus meyvələri də vardır. Geniş miqyaslı tədqiqat işlərinin aparılması və investisiyalar yeni texnologiyanın istifadə edilməsinə imkan verir. İntensiv irriqasiya geniş tətbiq edilir. Bunun nəticəsində Kaliforniya vadisində ştatın kənd təsərrüfatı məhsullarının yarısı istehsal edilir. Böyük Hövzə Şimali Amerikada insanın yaşaması üçün ən əlverişsiz rayondur. Onun ərazisinin çox hissəsi məskunlaşmamışdır, lakin burada iri şəhərlər də vardır. Çox da inkişaf etməyən aqrar bölmənin əsasını iri buynuzlu mal-qara və qoyun saxlanılması təşkil edir. Regionun əsas sərvətləri faydalı qazıntılardır. Gümüş, qızıl və başqa metalların yataqlarının istismar edilməsi nəticəsində Nevada ştatının mərkəzi Karson-Siti kimi məntəqə inkişaf etmişdir. Bu gün Nevada ABŞ-da qızıl və civənin aparıcı istehsalçısı olaraq qalır. Yuta ştatı gümüş, mis və dəmir filizinin hasilatı üzrə ilk yerlərdən birini tutur. Solt-Leyk-Siti iri sənaye mərkəzidir. Burada Son Gün Müqəddəslərinin Xaçpərəst İsa kilsəsi, yəni mormonların sektasının kilsəsi yerləşir. 1840-cı illərin sonunda ilk fatehlər olan mormonlar bu şəhərin əsasını qoydular. O dövrdən indiyə qədər ştatın ərazisində mormonların çoxsaylı icması mövcuddur. 1950-ci illərdə Nevada nüvə silahının sınaq meydanına çevrilmişdir. Bu isə ştatın ekologiyasına və onun sakinlərinin sağlamlığına ciddi ziyan vurdu. Nevadada şəhərlərin inkişafı və əhalinin sayının artması xeyli dərəcədə 1931-ci ildə oyun biznesinin qanuniləşdirilməsi ilə əlaqədardır. Las-Veqasda ilk kazino 1941-ci ildə açılmışdır. Şəhərin 1,5 mln. nəfər əhalisinin məşğulluqla təminatı onun dünyada ən böyük oyun mərkəzi statusuna malik olmasından asılıdır. Şəhərdə mehmanxanalar və müasir konsert zalları tikilmişdir. Xidmət sahələrinin işçiləri fermerlərdən sonra əmək qabiliyyətli əhali arasında məşğulluq strukturunda ikinci qrupu təşkil edir.

Alyaska

Alyaska ABŞ-ın ən böyük ştatıdır, Şimali Amerikanın şimal-qərb kənarında yerləşir. Onu Avrasiyadan eni 85 km olan Beringq boğazı ayırır. 1530693 km² sahəsi olan ştatın ərazisinin arktika və subarktika qurşaqlarında tundra təbii zonası, cənubda isti cərəyanların təsiri ilə tayqa meşələri yaranır. Burada yüzlərlə kiçik göl əmələ gəlmişdir. Cənubda qərbə tərəf ayrılan Alyaska yarımadası Aleut adalar qövsü ilə davam edir və Beringq dənizini Sakit okeandan ayırır. Alyaskanın relyefi çox mürəkkəbdir.

Yüksək dağ silsilələri ştatın daxilində və Sakit okean sahili boyunca yüksəlir. Ştatda 39 dağ silsiləsi (Alyaska, Bruks dağları) vardır. ABŞ-da olan 20 ən yüksək zirvədən 17-si, o cümlədən materikin ən hündür nöqtəsi olan Mak-Kinli (6194 m) dağı buradadır. Yerli əhali bu dağı Denali adlandırır, mənası "yüksək" deməkdir. Geniş əraziyə malik, çox hissəsi qar və buzla örtülü olan bu diyar 1867-ci ildə Rusiyadan alınmışdır. Güman edilir ki, Şimali Amerikaya ilk insanlar 30 min il əvvəl Berinq boğazından keçərək gəlmişdir. O dövrdə iki materik arasında quru əlaqəsi olmuşdur. Onların nəsilləri olan inuitlər və aleut xalqları Alyaska əhalisinin 10%-ə qədərini təşkil edir. Ştat əhalisinin sayı isə 683 min nəfərdir. Neft hasilatından əldə edilən gəlir Alyaskanın ümumi gəlirlərinin 1/3-ni təşkil edir. 1970-ci illərdə uzunluğu 1287 km olan Trans-alyaska neft kəməri çəkilmişdir. Alyaskanın şimal sahillərində, Pradxo-Bey şəhəri yaxınlığında hasil edilən xam neft kəmər vasitəsilə cənubda olan Valdir şəhərinə daşınır. Meşə təsərrüfatı və balıqçılıq mühüm sahələrdir. Son vaxtlarda turizm inkişaf edir. Turistləri sərt təbii şəraitə malik mənzərələr, milli parklar cəlb edir. Burada məməlilərin müxtəlif növlərinin nümayəndələri, o cümlədən qara, qonur və ağ ayılar, həmçinin Amerikanın şimal maralları olan karibu sürüləri yaşayır.

Havay adaları

Sakit okeanın mərkəzində yerləşən Havay adaları qrupuna eyni adlı adadan başqa daha 132 ada və atoll daxildir. 1959-cu ildə bu adalar ABŞ-ın 50-ci ştatına çevrilmişdir. Onlar okeanda 2400 km-lik qövs əmələ gətirir. Burada vulkan zirvələri, sıldırım qayalar, qumlu çimərliklər və dərin, meşələrlə örtülmüş vadilər yanaşı yerləşir. Kiçik adaların bir hissəsi mərcan atollarıdır, əksəriyyəti isə Sakit okeanın dibindən 9000 m-dən çox yuxarı qalxan və konusu suyun səthinə çıxan nəhəng vulkanların zirvələridir.



Yalnız Havay adasında olan vulkanlar – Mauna-Loa (4169 m) və Kilauea (1247 m) fəaliyyətdədir. Lakin zəlzələlər bütün regionda baş verir. Havay adalarının landşaftı çox müxtəlifdir. Adalarda tropik iqlim hakimdir, şimal-şərq passatları bol yağıntı gətirir. Ona görə adaların çox hissəsi sıx tropik bitkilərlə örtülür. Vulkan mənşəli süxurlar üzərində yaranan torpaqlar çox məhsuldardır. Ona görə burada şəkər qamışının geniş plantasiyaları vardır, banan, ananas və başqa meyvələr də becərilir. Havay adasından başqa daha 7 böyük ada vardır. Onlardan biri olan ***Oaxu adasında*** ştatın ümumi 1283 min nəfər əhalisinin 2/3-si yaşayır. Burada ştatın ən



Havay adaları dünyanın ən mühüm turizm mərkəzlərindən biridir

böyük şəhəri və inzibati mərkəzi olan Honolulu yerləşir. Adanın əhalisi etnik tərkibinə görə çox müxtəlifdir. Onların əsas hissəsini avropalılar (31%), yaponlar (20%), filippinlilər (14%) və polineziyalılar (13%) təşkil edir. Təsərrüfatda balıqçılıq mühüm rol oynayır, lakin gəlirin əsas hissəsi turizmdən əldə edilir. Bu sahə hər il 10 mlrd. dollardan çox gəlir gətirir. Gözəl iqlim, qumlu çimərliklər, Sakit okean sularında serfinq üçün əla şərait dünyanın hər yerindən Havay adalarına turistlər cəlb edir.

Qrenlandiya adası

Sahəsi: 2 175 600 km²
Əhalisi: 57 min nəfər (2010)
Əhalinin sıxlığı: 0,03 nəfər/km²
İnzibati mərkəzi: Nuk (13700 nəfər)
Rəsmi dil: qrenland (eskimos-aleut dillərindən biridir)
Dini etiqad: protestantlıq
Pul vahidi: danimarka kronu
Dövlət quruluşu: Danimarkanın yerli özünüidarəetmə hakimiyyəti olan mülkü

Qrenlandiya sahəsinə görə dünyanın ən böyük adasıdır, hərfi mənası "yaşıl ölkə" və ya "yaşıl yer" deməkdir. Adanın qərbi və cənub-qərbindən isti Qərbi Qrelandiya cərəyanı keçdiyinə görə sahilboyu ərazilərdə çəmənliklər əmələ gəlir. Ona görə də X əsrdə adaya gələn vikinqlər əraziyə belə ad vermişlər.

Qrenlandiyanın ərazisinin çox hissəsi Şimal qütb dairəsindən şimaldadır. Onun təbii şəraitini və mənzərəsini də ərazisinin 80%-ni örtən nəhəng buzlaqlar müəyyən edir. Okeana tərəf sürüşən buzlar çoxsaylı fyordlara və çatlara malik olan kəskin parçalanmış sahil xətləri yaratmışdır. Bu ərazilərdə iqlim daxili vilayətlərə nisbətən çox sərt və soyuq deyildir. Adanın bütün ərazisinin yalnız 1%-i əkinçiliyə yararlıdır. Bəzi cənub rayonlarda çuğundur və turneps (yemlik şalğam növü) kimi şaxtaya davamlı tərəvəz yetişdirilir. Ət istehsalı üçün qoyun, keçi və şimal maralı saxlanılır. Sahil suları qızıl balıq və treska, həmçinin krevetka (dəniz xərçəngi) ilə zəngindir. Balıq vətəgələri Qrenlandiyada təsərrüfatın əsas sahəsidir, ada dünyada dəniz xərçəngi ovunda əsas yer tutur. Adanın ərazisində dəmir yolu yoxdur, avtomobil yollarının uzunluğu cəmi 150 km-dir. Əsas

nəqliyyat növü kimi it qoşqularından istifadə olunur.

Qrenlandiyanın sayı az olan bütün əhalisi sahilboyu (əsasən cənub-şərqdə) rayonlarda yaşayır. Əhali inuitlərin (eskimosların), danimarkalı və norveçli köçkünlərin nəsilləridir. Bütün sakinlər Danimarka vətəndaşlarıdır. 1979-cu ildə uzun müddət davam edən mübarizədən sonra adanın sakinləri yerli idarəetmə hüququ əldə etdilər. 2009-cu ildən Qrenlandiyaya geniş muxtariyyət statusu verilmişdir. Danimarkanın səlahiyyətində yalnız xarici siyasət, müdafiə və maliyyə məsələləri qalmışdır. Qrenlandiyanın əhalisi Danimarkanın parlamentinə iki nümayəndə seçir. Adanın 31 üzvdən ibarət olan və 4 illiyə seçilən parlamenti "landstinq" adlanır. Qrenlandiya 1972-ci ildə Aİ-yə daxil olmuş, 1982-ci ildə buradan çıxmışdır.

Bermud adaları

Sahəsi: 59 km²
Əhalisi: 64 min nəfər (2006)
İnzibati mərkəzi: Hamilton (11,5 min nəfər)
Rəsmi dil: ingilis
Dini etiqad: katolisizm (15%), protestantlıq (66%)
Pul vahidi: Bermud dolları
Dövlət quruluşu: Böyük Britaniyanın mülkü

Bermud adaları Atlantik okeanında, ABŞ-ın sahillərindən 900 km məsafədə yerləşir. Onlar dünyanın ən şimal enliklərində yaranan mərcan mənşəli adalardır. Mərcan piflərinin yaranmasına isti Qolfstrim cərəyanı təsir edir. Adalar 1522-ci ildə ispan dənizçisi X.Bermudes tərəfindən kəşf edilmişdir və onun adını daşıyır.

Bermud adalarına 138-dən çox ada daxildir. Onlar vulkan mənşəli süxurlar üzərində mərcanların formalaşması və inkişafı prosesində əmələ gəlmişdir. Əhalinin su ilə təminatı üçün yağış suları toplanır. İsti Qolfstrim cərəyanının



təsiri ilə yumşaq və rütubətli iqlim formalaşır. Adalarda çoxlu bitki növləri, o cümlədən mənqr cəngəlliklər geniş yayılır. Lakin burada əkinçiliklə məşğul olmaq demək olar ki, mümkün deyildir, yeganə ixrac edilən kənd təsərrüfatı məhsulu güllərdir. 1990-cı illərdə turistlərin sayı azalmışdır, lakin turizm təsərrüfatın ən mühüm sahəsi olaraq qalır. Turistlərin 80%-i ABŞ-dan gəlir. Bermud adalarında xidmət sənayesi, o cümlədən sığorta işi inkişaf etmişdir, həmçinin xüsusi vergi sistemi qəbul edilmişdir. Bu sistem adaları dünyada ən cəlbedici ***ofşor***, yəni **vergi** və digər maliyyə əməliyyatlarının aparılması zamanı xüsusi güzəştlər verilən zonalar hesab etməyə imkan verir. Adalarda ilk ingilis yaşayış məntəqəsi 1609-cu ildə salınmışdır. O dövrdən Bermud adaları Böyük Britaniyanın müstəmləkəsi olaraq qalır. Ərazi 1968-ci ildə özünüidarə etmək hüququ almışdır. Qaradərili qulların, portuqal və ingilis miqrantlarının nəsillərindən ibarət olan əhalinin həyat səviyyəsi çox yüksəkdir. 1995-ci ildə Bermud adalarının sakinləri tam müstəqilliyin əleyhinə səs vermişlər.

LATIN AMERİKASI

Meksika
Mərkəzi Amerika
Karib dənizi hövzəsi ölkələri
Cənubi Amerika. And ölkələri
Cənubi Amerikanın şimal-şərqi
La-Plata hövzəsi ölkələri
Braziliya
Folklend adaları
Cənubi Atlantika adaları

LATIN AMERİKASI

Meksika Birləşmiş Ştatları

Sahəsi: 1958 201 km²
Əhalisi: 110,6 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 56,5 nəfər/km²
Paytaxt: Mexiko (şəhər ətrafı ilə birlikdə 19232 min nəfər)
Rəsmi dil: ispan
Din etiqad: katolisizm (90%-dən çox)
Pul vahidi: Meksika pesosu
Dövlət quruluşu: respublika

Meksika Birləşmiş Ştatları dünyada ən böyük ispandilli ölkədir, sahəsinə görə şimal qonşusu ABŞ-dan 5 dəfə kiçikdir.

Meksika 32 inzibati regiona - 31 ştata və paytaxt Mexikonun yerləşdiyi federal dairəyə bölünür. Bu nəhəng meqalopolisin sərhədləri federal dairənin hüdudlarından çıxmışdır. Şəhər inkişaf edərək ona yaxın olan kiçik məntəqələri özünə birləşdirir. Təxmini hesablamalara görə 19 mln. nəfərə qədər əhali ilə Mexiko dünyanın ən böyük meqalopolislərindən biridir. Hər tərəfdən dağlarla əhatə olunan şəhərdə ölkənin sənaye potensialının yarısından çoxu cəmlənir. Meksika Şimali və Cənubi Amerikanı birləşdirən bərzəxin ən şimal və geniş hissəsində yerləşir. Qərbdə Meksika sahillərini Sakit okeanın və Kaliforniya körfəzinin, şərqdə Meksika körfəzi və Karib dənizinin suları yuyur. Sahillərdə olan bir neçə ada Meksikaya aiddir. İri çaylar və göllər nisbətən azdır. Ən böyük göl olan Çapalanın sahəsi 1080 km²-dir. O, ölkənin ikinci böyük şəhəri olan Qvadalxara yaxınlığında yerləşir. Ən böyük çay Rio-Qrande (Rio-Bravo-del-Norte də adlanır) Meksika və ABŞ-ın Texas ştatı arasında 2000 km sərhəd boyu axaraq Meksika körfəzinə tökülür.

Təbii şəraiti

Ölkə ərazisinin çox hissəsini Meksika dağlıq yaylası tutur, ətraflar dağlıq silsilələrlə əhatə olunur. Şərqdə və qərbdə dağlar ensiz sahilboyu düzənliklərə keçir. Cənub-şərqdə yerləşən Yukatan yarımadası əsasən əhəngdaşılardan təşkil olunur, orta hesabla dəniz səviyyəsindən 30 m-dən yuxarı qalxmır. Yarımada sıx rütubətli tropik meşələrlə örtülüdür. Meksikanın ərazisinə forması və relyefinə görə Yukatandan kəskin fərqlənən Kaliforniya yarımadası da daxildir. O, ABŞ-ın Kaliforniya ştatından cənuba doğru 1225 km uzanır və Kaliforniya körfəzini Sakit okeandan ayırır. Yarımadanın çox hissəsi hündürlüyü 3000 m-dən yüksək olan dağ silsilələrindən ibarətdir.

Meksikanın mərkəzində olan yüksək yayla geniş ərazi tutur. Yaylanın şimalında iri relyef formaları olmasa da, şərqdə və qərbdə iki böyük dağ silsiləsi ilə əhatə olunur: Şərqi Syerra-Madre və Qərbi Syerra-Madre dağları. Yayla Meksikanın sahəsinin yarıya qədərini tutur və qərbdən şərqə tərəf tədricən alçalır. Cənubda onun hündürlüyü artır, çoxsaylı vulkanik silsilələrlə parçalanmış region əmələ gətirir. Verakrus və Pueblo şəhərləri arasında ölkənin ən hündür nöqtəsi olan Çitlatepetl (Orisaba) vulkanı (5610 m) yüksəlir. Mərkəzi yaylanı əhatə edən dağların digər tərəfində geniş sahilboyu ovalıqlar yerləşir.

Meksikada başı qarlı zirvələrdən isti, quru səhralara və rütubətli tropik meşələrə qədər landşaftlara rast gəlinir. İqlim şəraiti okean səviyyəsindən olan yüksəklikdən və coğrafi enlikdən asılı olaraq dəyişir. 910 m-dən aşağı olan vilayətlər "tyerra kalyente" (isti ölkə), 910 m-dən 1800 m hündürlüyə qədər olan ərazilər "tyerra templada" (mülayim ölkə), 1800 m-dən yuxarı olan hissələr "tyerra-trita" (soyuq ölkə) adlandırılır. Məsələn, Mexiko şəhəri tyerra-templada zonasında yerləşir. Burada hava sərindir, iqlim qurudur, il ərzində temperatur az-orta hesabla 12°C-dən 17°C-yə qədər tərəddüd edir. Meksikanın şimalında subtropik iqlim, cənubda tropik iqlim yaranır. Şimalda havanın maksimum temperaturu xeyli yüksəkdir, bəzən 45°C-yə çatır. Belə güclü istilər və az miqdarda yağıntı olduğu şəraitdə geniş ərazilərdə səhralar

və yarımsəhralar yaranır. Ayrı-ayrı yerlərdə il ərazində 250 mm-dən az yağıntı düşür. Mərkəzi və Cənubi Meksikanın çox hissəsində iqlim nisbətən qurudur. Yalnız ölkənin ucqar cənubu və cənub-şərqində olan tropik rayonlarda bol yağıntı düşür. Meksikanın ən rütubətli vilayətləri cənubda və Yukatan yarımadasında yerləşir. Burada il ərzində 3000 mm-dən çox yağıntı olur. Meksikada təbii-iqlim şəraiti və landşaft zonalarının həddən artıq müxtəlifliyi çoxsaylı bitki və heyvan növlərinin mövcud olmasına imkan yaradır. Şimaldakı ən isti və quraq səhra rayonlarında seyrək bitki örtüyü, o cümlədən yukka (zanbaq fəsiləsindən bitki), çoxsaylı kaktus növləri və nəhəng kaktus növü olan saquaro bitir. Quraq vilayətlərdə, həmçinin, həşəratlar, kərtənkələlər, kayotlar, armadil (dəri əvəzinə buynuz təbəqəsi ilə örtülmüş heyvan) yaşayır. Meşələr ölkənin 20%-ə qədərini örtür və ümumi sahəsi 550 min km²-dir. Ucqar cənubda isti və rütubətli tropik meşələr yayılır. Meşələrdə meymunlar, yaquarlar, müxtəlif növ quşlar və kərtənkələlər yaşayışır. Syerra-Madre silsiləsi və digər dağların yamaclarında şam və digər iynəyarpaqlı ağaclardan ibarət olan meşələr geniş yayılmışdır. Onların yuxarı sərhəddi 4000 metrə qədər qalxır. Meşələrdə ayı, vəhşi donuz və oselot (Amerikada yaşayan sarı xallı dərisi olan vəhşi pişik) kimi heyvanlar yaşayır. Meşələrin qırılması və çox heyvan növlərinin təbii yaşayış mühiti məhv edildiyinə görə onlar da məhv olmaq təhlükəsi qarşısında qalmışdır. Meksikada qədim olmeklərin mədəniyyəti b.e.ə. XII-V əsrlərdə çiçəklənmişdir. Bu mədəniyyət Meksikanın daha sonrakı mədəniyyətinin, xüsusilə mayyaların yüksək inkişaf etmiş sivilizasiyasının formalaşmasına təsir göstərmişdir. Asteklər Meksikaya 1200-ci ildə gəlmiş və müasir Mexikonun yerində Tenoçtitlan adlı paytaxt şəhərini qurmuşlar. Asteklərin var-dövləti və zəngin diyar olması haqqında məlumatlar ispan konkistadorlarının diqqətini onların regiona gəldiyi ilkin vaxtlardan cəlb etdi və XVI əsrin əvvəlində astek sivilizasiyası məhv edildi. İspanların XVI əsrdə Yeni İspaniya adlandırdığı Meksika 1821-ci ilə qədər İspaniya müstəmləkəsi altında olmuşdur. Əhalinin 30%-ə qədərini yerli əhali, 60%-ni ən böyük etnik qrup olan metislər təşkil edir.

Mayya xalqları bütün Meksikada yaşayır. Onlar bu ərazilərdə insanı heyrətə salan şəhərlər və tikililər yaratmışlar. Belə qədim piramidalardan biri "Kitabələr Məbədi" adlanır. O, Vilyaermosa şəhərindən 110 km cənub-şərqdə olan Palenkada yerləşir.

Mexikoda müstəqillik heykəli

Onlar ispanlar və hinduların nəsilləridir. Meksika mədəniyyəti ispan və hindu ənənələri əsasında formalaşmışdır. Müstəqillik əldə edilməsi Meksikanın mədəni inkişafına müsbət təsir göstərmişdir. Meksika mətbəxində çili bibərinin 200-ə qədər növü istifadə edilir. Kənd və meşə təsərrüfatı, balıqçılıq ölkənin Ümumi Daxili Məhsulunda üstünlük təşkil edir. Kənd təsərrüfatının inkişafında suvarma ən ciddi problemlərdən biri olaraq qalır. Ölkədən əsasən qəhvə və şəkər ixrac olunur. ***Sizal*** (aqava) bitkisinin yarpaqlarından alınan lifdən dənizçilikdə istifadə olunan kəndir hazırlanır. Meksikanın Yukatan yarımadasında ən böyük şəhər olan Meridada xüsusi kanat fabriki vardır. Meksika bir çox mineralların böyük ehtiyatlarına malikdir, dünyada gümüş hasilatına görə birinci, sink və qurğuşun istehsalında əsas yerlərdən birini tutur. Ölkə böyük neft ehtiyatlarına da malikdir, onların əsas hissəsi dənizdə yerləşir. Neft və təbii qazın hasilatı təsərrüfatın digər sahələrinə nisbətən daha çox gəlir gətirir. Emal sənayesinə yeyinti, kağız və tikiş sənayesi aiddir. Ölkə avtomobil yığımında dünyada üçüncü yeri tutur. Sənayenin əsas xüsusiyyəti (xüsusilə Mexiko və ABŞ sərhədlərinə yaxın ra-yonlarda) makiladoras müəssisələrinin fəaliyyət göstərməsidir. Yalnız ixrac üçün işləyən belə müəssisələrdə məşhur şirkətlərin lisenziyası əsasında məhsul istehsal olunur. Şimali Meksikada 2000-dən çox paltar, ayaqqabı, kompü-ter və digər məhsullar hazırlayan makiladoras yerləşir.

Mərkəzi Amerika
Qvatemala Respublikası

Sahəsi: 108 889 km²
Əhalisi: 14,4 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 132,2 nəfər/km²
Paytaxt: Qvatemala (3104 min nəfər)
Rəsmi dillər: ispan, mayya
Din: katolisizm (80%), protestantlıq
Pul vahidi: ketsal
Dövlət quruluşu: respublika

Qvatemala Respublikası dağlıq ölkədir, lakin onun ərazisinin çox hissəsini tropik meşələr tutur. Qvatemala Mərkəzi Amerikada tropik meşələrin ən çox sahə tutduğu ölkədir. Hər il tropik meşələrin 17%-i ağac tədarükü prosesində və əkinçiliyin inkişafı üçün məhv edilir, burada yaşayan heyvanlar məhv olmaq təhlükəsi qarşısında qalır.

Dağlar Qvatemalanın ərazisinin 2/3-ni tutur. Onlar 3000 m-dən yuxarı qalxır. Cənubda yüksələn dağlar cavandır, burada 30-dan çox vulkan vardır, onlardan beşi fəaliyyətdədir. Taxumulko (4220 m) Mərkəzi Amerikada ən yüksək zirvədir. Qvatemalanın Sakit okean sahilləri boyu ensiz düzənliklərdə dağlardan yuyulan

Tikal milli parkında mayyalılara aid tikili

vulkan küllü süxurlar üzərində məhsuldar torpaqlar yaranmışdır. Sakit okean sahillərində orta aylıq temperatur 23°-27°C-dən yuxarı qalxır. 1800 m-dən yuxarıda temperatur 10°C-dən 16°C-yə qədər qeydə alınır. Əsasən iyun-sentyabr aylarında düşən yağıntıların illik miqdarı 800 mm-ə yaxındır. Qvatemalanın şimalında ölkənin 1/3 hissəsini tutan Peten ovalığı yerləşir. Regionun çox hissəsini müxtəlif növ heyvanların, o cümlədən yaquarın yaşayış yeri olan sıx tropik meşələr örtür. Pişikkimilər ailəsinin bu nümayəndəsi Mərkəzi Amerikada ən böyük yırtıcıdır. Qvatemala 300-900-cu illərdə qədim mayya sivilizasiyasının mərkəzlərindən biri olmuşdur. Ölkə əhalisinin yarıya qədəri qədim mayyaların və digər yerli hindu xalqlarının nəsilləridir. Qalan hissəsi ladinolar – ispan dilli metislərdir. Əmək qabiliyyətli əhalinin 50%-i kənd təsərrüfatında çalışır. Taxıl, və meyvə-tərəvəz daxili istehlak üçün becərilir. Ən vacib ixrac bitkisi qəhvədir, pambıq, sarıkök əkilir. Ölkə dünyada çox məşhur ədviyyat olan hilin ən böyük istehsalçılarından biridir. Toxuculuq, yeyinti, kağız və kimya sənayesi obyektləri vardır. Hazırda ölkədə təhsil və səhiyyədə çoxsaylı problemlər vardır. Qvatemalanın yaşlı əhalisinin 36%-i oxuyub yaza bilmir. Quraq dövrdə ölkəyə gələn 1,5 mln. nəfər turist qədim mayya məskənlərinin xarabalıqlarını gəzməyə çalışır. Onların əsas hissəsi ABŞ və Meksikanın payına düşür. Bu sirli sivilizasiyanın ən iri şəhərlərindən biri olan Tikal daha mənzərəlidir.

Beliz

Sahəsi: 22 965 km²
Əhalisi: 333 min nəfər (2010)
Əhalinin sıxlığı: 14,5 nəfər/km²
Paytaxt: Belmopan (20 min nəfər)
Rəsmi dillər: ingilis, kreol
Din etiqad: katolisizm (62%-dən çox), protestantlıq (30%)
Pul vahidi: Beliz dolları
Dövlət quruluşu: B.Britaniya Şahzadəsinin başçı olduğu ölkələr birliyinin üzvü

Karib dənizi sahillərində yerləşən Beliz kiçik ölkələr sırasına aiddir. 1973-cü ilə qədər Britaniya Hondurası adlanan ölkə 1981-ci ildə müstəqillik qazanmışdır.

Belizdə iki coğrafi vilayət aydın fərqlənir. Burada müxtəlif landşaft və fauna elementləri vardır. Ölkənin Meksika ilə həmsərhəd olan şimal yarısını ovalıqlar tutur, sahilboyu zonada bataqlıqlar yaranır. Orta aylıq temperatur 26°C, yağıntıların illik miqdarı 2000 mm-dir. Cənubda otlardan ibarət savannalar yerləşir. Belizin ərazisinin 40%-ni örtən rütubətli tropik meşələrdə qiymətli ağac növləri olan qırmızı ağac, karib şamı, palisandr ağacı (bahalı mebel hazırlamaq üçün işlədilən tropik ağac) və qətranından saqqız hazırlanan çikle ağacı

Mayyaların Belizdə olan Altun-Xa Piramidası Mərkəzi Amerikanın ən qədim tikililərindən biridir. Belə diqqətəlayiq yerlərə hər il milyonlarla turuist gəlir. Turizm burada olan kasıb ölkələrdə əhalinin əsas gəlir mənbəyidir, onların iş yerləri ilə təminatına imkan verir.

bitir. Meşələrin mənimsənilməsi imkanları məhdudlaşır. Ona görə ki, çox zəngin fauna və florası ilə birlikdə meşə massivlərinin əsas hissəsi qoruq elan edilmişdir. Belizin sahilləri boyu mərcan həlqəsi yaranmışdır və kiçik qumlu adalar vardır. 290 km məsafədə uzanan bu mərcan rifləri Qərb yarımkürəsində ən böyükdür. Hər il Belizə bir neçə min nəfər turist gəlir. Beliz əvvəllər mayya imperiyasının tərkibinə daxil olmuşdur. O dövrdən burada qədim şəhərlərin xarabalıqları qalmışdır. Əhalinin 75%-i metislər və kreollardan ibarətdir. Rəsmi dil ingilis dili olsa da, əhalinin çoxu kreol dilində danışır. Əhalinin yarısından çoxu kəndlərdə yaşayır. Onlar ağac qırmaqla, şəkər qamışı, sitrus meyvələri, pambıq, qarğıdalı və çəltik əkməklə məşğul olur. Ölkənin rəsmi paytaxtı Belmopan şəhəridir. Lakin Beliz daha böyük şəhərdir. Şəhərdə ölkə əhalisinin 20%-ə qədəri yaşayır.

Honduras Respublikası

Sahəsi: 112 088 km²
Əhalisi: 8,0 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 71 nəfər/km²
Paytaxt: Tequsiqalpa (1416 min nəfər)
Rəsmi dillər: ispan
Din etiqad: katolisizm (97%)
Pul vahidi: lempira
Dövlət quruluşu: respublika

Honduras Mərkəzi Amerikanın sahəsinə görə üçüncü ölkəsidir, Nikaraqua, Qvatemala və Salvador ilə həmsərhəddir.

Honduranın Sakit okeana az, Karib dənizinə geniş məsafədə çıxır. Dənizdə sahil boyu bir neçə liman, o cümlədən La-Seyba yerləşir. Şimal sahillərə yaxın məsafədə Baiya adaları vardır. Adaları 1502-ci ildə X.Kolumb kəşf etmişdir. Onun dəniz səviyyəsindən ən alçaq yerləri sahilboyu ərazilərdir. Ölkənin çox hissəsini dağlar tutur. Vulkanların fəaliyyəti nəticəsində yaranan ən yüksək zirvələr qərb və mərkəzi rayonlardadır. Sahilboyu tropik meşələr böyük ərazi tutur. Dağlarda palıd və şam ağaclarından ibarət meşələr üstünlük təşkil edir. Meşələrdə bir sıra qiymətli ağac növlərinə (qırmızı, abnos ağacları) rast gəlinir.

Honduras Latın Amerikasının geri qalmış ölkələrindən biridir. Xarici köməklər və investisiyaların iştirakı ilə yeyinti sənayesi üzrə fabriklər, həmçinin rom (tünd içki növü), yağ, sement və kağız istehsalı üçün fabriklər tikilmişdir. Honduras dünyada banan ixrac edən aparıcı ölkələrdən biridir. Bu bitki ölkənin gəlirinin 14%-ni təmin edir. Karib dənizi sahilləri

Tequsiqalpa şəhəri

üçün müasir istehsal üsulları səciyyəvidir. Burada xarici banan şirkətləri ixrac üçün olan plantasiyalar ətrafında xüsusi anklav zonaları yaratmışdır. Ölkənin dağlıq hissəsində yerləşən metal filizi yataqları, o cümlədən gümüş, sink, qurğuşun və qızıl mədənlərinin fəaliyyətinə baxmayaraq, təsərrüfat zəif templə inkişaf edir, kənd təsərrüfatı natural xarakterə malikdir. Ölkədə torpaqların yalnız 25%-i əkilir. Yerli əhalinin əksəriyyəti iri xarici şirkətlərə məxsus olan qəhvə və banan plantasiyalarında işləyir. Ölkədə olan yaylaların əksər hissəsi əkinçilik üçün yararlı deyildir. Elektrik enerjisinin 80%-i dağ çaylarında qurulan SES-lərdən alınır.

El-Salvador Respublikası

Sahəsi: 21041 km²
Əhalisi: 7,3 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 346,9 nəfər/km²
Paytaxtı: San-Salvador (1731 min nəfər)
Rəsmi dil: ispan
Din etiqad: katolisizm (75%), protestantlıq (15%)
Pul vahidi: Salvador kolonu
Dövlət quruluşu: respublika

El-Salvador Respublikası Mərkəzi Amerikada ən kiçik ölkədir. Relyefi ovalıqlar və yüksək vulkanların növbələşməsi ilə fərqlənir. Dünya Bankının məlumatına görə ölkə əhalisinin 1/3-i yoxsul vəziyyətdədir.

Salvadorda Sakit okeanın 320 km-lik sahilləri boyu ensiz düzənliklər uzanır, onları böyük mərkəzi plato əvəz edir. Burada 20 vulkan və dərin vadilərə malik olan bir neçə dağ silsilələri yüksəlir. Ölkə ərazisindən 280-dən çox çay və onların iri qolları axır, əksər hissəsi Sakit okeana tökülür. Əvvəllər ölkənin çox hissəsi meşələrlə örtülü olmuş, lakin onlar əkin sahələrini artırmaq üçün qırılmışdır. Hazırda meşələr ölkə ərazisinin yalnız 6%-ə qədərini tutur. Salvadorun iqlimi tropik tiplidir. Qvatemala ilə sərhəddə olan yüksək silsilələr və vulkanların zirvələrindən başqa ölkənin çox hissəsində havanın temperaturu yanvarda 22°C, apreldə 25°C-dir. İl ərzində iki mövsüm ayrılır: quru şimal küləkləri üstünlük təşkil edən noyabr-aprel ayları quraq dövrdür. Bu zaman, yağıntılar demək olar ki, olmur. May-oktyabr ayları arasında Sakit okeandan əsən küləklər ölkənin bütün ərazisinə bol yağıntı (600 mm-dən 1800 mm-ə qədər) gətirir.

Salvador Mərkəzi Amerikada ən sıx məskunlaşmış ölkədir. Əhalinin əsas hissəsi hindular və metislərdir. Vulkanların yamacları məhsuldar torpaqlarla örtülüdür. Bu ərazilər qədim dövrlərdən əkinçiləri özünə cəlb edir. Salvador əsasən aqrar ölkədir, təsərrüfat başlıca olaraq qəhvə istehsalına əsaslanır. Ananasla yanaşı pambıq, şəkər qamışı, qarğıdalı, darı, küncüt, tütün, avokado, manqo (isti ölkələrdə bitən ətirli və şirin meyvəli ağac və bu ağacın

meyvəsi) və papay-ya becərilir. Ölkədə faydalı qazıntılar azdır. Salvador xeyli dərəcədə neftin ixracından asılıdır. Lakin SES-lər ölkənin elektrik enerjisinə olan tələbatının yarısını ödəyir. Enerjinin 10%-i iri Geo İES-lərdə istehsal olunur. Mərkəzi Amerikanın digər ölkələri kimi Salvador da 1821-ci ildə İspaniyadan ayrılaraq müstəqillik elan etmişdir. Demək olar ki, əsr yarım ərzində ölkəni hərbi çevrilişlər və müharibələr sarsıtmışdır. Partizan qruplaşmaları və hökumət qoşunları arasında olan 13 illik viranedici vətəndaş müharibəsi 75 min nəfər insanın ölümünə səbəb olmuş və 1991-ci ildə başa çatmışdır. Salvadorun əsas ticarət müttəfiqi ABŞ-dır. Onun payına ixracatın 48%-i düşür.

Nikaraqua Respublikası

Sahəsi: 130 670 km²
Əhalisi: 6,0 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 45,9 nəfər/km²
Paytaxtı: Manaqua (1,3 mln. nəfər)
Rəsmi dil: ispan
Din etiqad: katolisizm (85%), protestantlıq (15%)
Pul vahidi: qızıl kordoba
Dövlət quruluşu: respublika

Nikaraqua Mərkəzi Amerikanın ən gözəl ölkələrindən biri hesab olunur. Lakin dağıdıcı zəlzələlər və müharibələr ölkənin inkişafına imkan vermir.

Nikaraqua sahəsinə görə Mərkəzi Amerikanın ən böyük ölkəsidir, eni 540 km-dir. Ölkə həm Sakit okeana, həm də Atlantik okeanına (Karib dənizinə) çıxışa malik olmaqla 480 km sahil xəttinə malikdir. Nikaraquanın təbiəti çox müxtəlifdir. Karib dənizinin sahilləri boyu ölkənin şərq regionları Moskit sahilləri kimi tanınır. Bir hissəsi tropik meşələrlə örtülmüş, çoxsaylı laqunlar və çay deltaları ilə parçalanmış

düzənliklər ölkənin daxilinə doğru 70 km gedir. Nikaraquada maydan oktyabra qədər rütubətli mövsüm hakim olur. Ölkənin şərqində il ərzində 2500-3000 mm, bəzi yerlərdə 6000 mm yağıntı düşür. Nikaraquanın qərb hissəsində iqlim daha qurudur, burada otlu savannalar üstünlük təşkil edir. Ölkəni kəsib keçən iki uzun dağ silsiləsində 40-dan çox fəaliyyətdə olan vulkan vardır. Fəaliyyət göstərən vulkan zonasında tez-tez zəlzələlər olur. Məsələn, 1992-ci ildə baş verən güclü zəlzələ 16 min nəfəri evsiz qoymuşdur. Nikaraquanın qərb hissəsini daim ləpələr və qasırğalar dağıdır. 1998-ci ildə "Mitç" qasırğası Salvador və Hondurası viran qoymaqla yanaşı, 1800 nikaraqualının ölümünə, banan, şəkər qamışı və qəhvə plantasiyalarının xeyli hissəsinin məhvinə səbəb olmuşdur.

Nikaraquanın paytaxtı Manaqua eyni adlı gölün cənub sahilində yerləşir. Şəhər 1931 və 1972-ci illərdə baş vermiş zəlzələlər nəticəsində ziyan çəkmişdir. Şəhərin bəzi məhəllələri indiyə qədər bərpa edilməmişdir.

Nikaraquanın cənub hissəsində nəhəng çökəkliklər vardır. Bu çökəkliklərdə Manaqua gölü və Mərkəzi Amerikada ən böyük Nikaraqua gölü yerləşir, gölün uzunluğu 177 km-dir, eni 58 km-ə çatır. Göldə 400-dən çox ada vardır, onların bir hissəsi vulkanların konusudur. Adaların mənzərəli mövqeyi turistləri cəlb edir. Göl dünyada yeganə şirin sulu hövzədir ki,

Nikaraqua gölü

qılınc-balıq və köpək balığı kimi okean canlıları yaşayır. Alimlər müəyyən etmişlər ki, bu balıqlar göldən axan dörd iri çaydan biri olan San-Xuan çayı ilə Karib dənizindən bura gəlmişdir.

Nikaraqua əhalisinin çox hissəsi Sakit okeanla Nikaraqua və Manaqua göllərinin sahilləri arasındakı ovalıqlarda yaşayır. Bu regionda torpaqlar çox məhsuldardır. Burada şəkər qamışı, qəhvə, kakao, pambıq, qarğıdalı, çəltik, banan, sitrus və paxlalı bitkilər becərilir. Onlar həm daxili istehlak üçün istifadə edilir, həm də ixrac olunur.

Ölkəni 40 ildən çox öz şəxsi mülkiyyəti kimi Samosanın ailəsi idarə etmişdir (1936-1979). 1979-cu ildə olan inqilab nəticəsində onları Sandiniya hökuməti əvəz etdi. Sandiniyalılar özlərinin milli dirçəliş proqramını iri malikanələr, banklar və bəzi sənaye müəssisələrinin milliləşdirilməsi ilə başladılar. Lakin yeni hökumətə ABŞ-ın dəstəyi ilə Kontras dəstələri mane olurdu. 1990-cı il seçkilərində Sandiniya davamçıları məğlubiyyətə uğradı. Hakimiyyətə çoxpartiyalı müxalifət bloku gəldi. Təsərrüfatı yenidən qurmaq üçün hökumət yeni sahələri inkişaf etdirir.

Ölkədə neft emalı, dağ-mədən, kimya, yüngül və yeyinti sənayesi sahələri inkişaf edir. 2005-ci ildə hökumət Atlantik okeanını Sakit okeanla birləşdirəcək kanalın tikilməsi haqqında qərar elan etmişdir.

Kosta-Rika Respublikası

Sahəsi: 51100 km²
Əhalisi: 4,6 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 90 nəfər/km²
Paytaxtı: San-Xose (1,5 mln. nəfər)
Rəsmi dil: ispan
Din etiqad: katolisizm (80%)
Pul vahidi: Kosta-Rika kolonu
Dövlət quruluşu: respublika

Kosta-Rika Respublikası Mərkəzi Amerikanın davamlı inkişaf edən və çiçəklənən ölkələrindən biridir. Kənd əhalisinin əsas məşğuliyyət sahəsi və gəlir mənbəyi qəhvə istehsalıdır.

Kosta-Rika ensiz Mərkəzi Amerika bərzəxini bütün eni boyu tutur. Ölkənin hər iki sahilboyu hissəsi əsasən ovalıqdır. Şərq hissələr qərbə nisbətən daha çox yağıntı alır. Lakin hər iki sahil üçün mənqr bataqlıqları və ağ qumlu çimərliklər səciyyəvidir. Kosta-Rikanın mərkəzində və cənubunda vulkan mənşəli parçalanmış dağlar yüksəlir. Ölkənin mərkəzində əsas dağ silsilələri arasında böyük yayla yerləşir. Burada ölkə əhalisinin əksəriyyəti yaşayır. Subekvatorial

qurşaqda yerləşən ölkədə yanvarın orta temperaturu 23°C, iyulda 25°C-dir. İllik yağıntıların miqdarı 2000 mm-dən 5000 mm-ə qədər olur. Kosta-Rikanın təxminən 1/3-i rütubətli tropik meşələrlə örtülüdür. 1000 növdən çox səhləb çiçəyi bitir. Kosta-Rikanın əhalisi əsasən Avropa mənşəlidir, belə vəziyyət region ölkələri üçün səciyyəvi deyildir. Yerli hindular burada əhalinin 1%-dən azını təşkil edir, 3%-ə yaxın əhali qaradərilidir. Əmək qabiliyyətli əhalinin 14%-i kənd təsərrüfatında məşğuldur, şəkər qamışı, kakao, qarğıdalı, pambıq, tütün əkilir. Banan və qəhvə ixracı ölkənin gəlirinin 50%-ə qədərini təmin edir. Kosta-Rika regionda qəhvə becərilməsi və ixracı başlanan ilk ölkədir. Qəhvə plantasiyaları ölkə əhalisinin demək olar ki, yarısını işlə təmin edir. Kosta-Rikada elektrik enerjisi başlıca olaraq SES-lərdə istehsal olunur. Boksit hasilatı, həmçinin turizm mühüm əhəmiyyət kəsb edir, yeyinti, toxuculuq, kimya, ağac emalı sahələri yaradılmışdır. 1948-ci ildəki vətəndaş müharibəsindən sonra Kosta-Rika həmişə sülh şəraitində yaşamışdır. Burada sosial müdafiə sistemi Mərkəzi Amerikada ən yüksək inkişaf etməsi ilə fərqlənir. 15 yaşa qədər uşaqlar üçün təhsil məcburi və pulsuzdur. Kosta-Rikada Mərkəzi Amerika Universiteti yerləşir. Ölkənin xərclərinin 25%-ə qədəri səhiyyə sisteminə sərf edilir. Bu, Mərkəzi Amerikada ən yaxşı göstəricidir. ABŞ tərəfindən köməyin azalması, ölkəyə idxal edilən neftin qiymətinin artması, qəhvə və bananın satış qiymətinin aşağı düşməsi böyük xarici borcun yaranmasına səbəb olmuşdur.

Panama kanalı materikin şərq və qərb sahilləri arasında əlaqə yaradılmasında mühüm rol oynayır

Panama Respublikası

Sahəsi: 75990 km²
Əhalisi: 3,5 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 46 nəfər/km²
Paytaxtı: Panama (892 min nəfər)
Rəsmi dil: ispan
Din etiqad: katolisizm (86%), protestantlıq (14%)
Pul vahidi: balboa, ABŞ dolları
Dövlət quruluşu: respublika

Panama Respublikası Şimali və Cənubi Amerikanı birləşdirir. Ölkəni kəsib keçən 81 km uzunluğunda kanal Sakit və Atlantik okeanlarını su yolu ilə əlaqələndirir. Gəmiçilikdən və bank işindən əldə edilən gəlirlər, həmçinin Panama kanalından istifadəyə görə olan ödənişlər hesabına ölkənin paytaxtı regionda ən zəngin şəhərlərdən birinə çevrilmişdir.



Panama eyni adlı bərzəxdə Şimali və Cənubi Amerikanı birləşdirən qurunun ən ensiz yerində yerləşir. Ölkənin sahilləri boyu iki dağ silsiləsi uzanır. Onlar arasında çoxlu sayda kiçik təpələr, göllər, 400-dən çox çay və onun qolları vardır. Burada sıx tropik meşələr yaranır. Panamada 2,0 min növdən çox tropik bitkiyə rast gəlinir. Qərbdə olan Sakit okean tərəfdə yağıntılar azdır, kol pöhrəlikləri yayılır. Belə pöhrəliklər ölkənin

cənubunda olan Daryen milli parkında praktiki olaraq təbii halda qorunur. Sakit okean tərəfdə olan Panama körfəzində adaların sayı 100-dən çoxdur. Panama kanalı dünyada ən böyük mühəndis tikililərindən biridir. Panama kanalı ABŞ tərəfindən 1904-1914-cü illərdə bərzəxin ən alçaq hissəsində çəkilmişdir. Uzunluğu 81 km, minimum dərinliyi 12 m-dir. Kanaldan hər il 14 mindən çox gəmi keçir. Buradan istifadəyə görə olan haqq Panamanın əsas gəlir mənbəyini təşkil edir. Gəmilər hər iki istiqamətdə hərəkət edə bilir. Panama kanalında olan Miraflores gölü və Sakit okeanda suyun səviyyələri arasında fərq olduğuna görə şlüzlərdə gəmilər 16,8 m qalxır və enir. Marşrut üç nəhəng şlüz sistemindən keçir, onların köməyi ilə suyun səviyyəsi 26 m qalxır və enir. Panama 1903-cü ildə ABŞ-ın köməyi ilə Kolumbiyadan ayrılaraq müstəqilliyə nail olmuşdur. 1999-cu ilin sonunda 20 illik keçid dövründən sonra Panama kanal üzərində nəzarəti tam öz əlinə almışdır. 2007-ci ildə ölkə hökuməti kanalın genişləndirilməsi haqqında planını elan etmişdir. Bu işin 2014-cü ildə başa çatması nəzərdə tutulur. Kanal üzərində tam nəzarət Panamanın beynəlxalq gəmiçilik, ticarət və maliyyə mərkəzinə çevrilməsinə imkan vermişdir. Panamanın təsərrüfatı əsasən beynəlxalq nəqliyyat sisteminə xidmət göstərməyə əsaslanır. Bu sahədə ölkənin bütün işçi qüvvəsinin yarısı çalışır. Kanal ətrafında azad ticarət zonası yaradılmışdır. Vergilərin olmamasına görə Panama bankları dünyanın hər tərəfindən müştəriləri özünə cəlb edir. Bank fəaliyyəti haqqında qanunlar paketinin qəbul edilməsi ilə əlaqədar 1980-ci illərin əvvəllərində Panama böyüklüyünə görə altıncı dünya maliyyə mərkəzinə çevrilmişdir. Xarici şirkətlərə məxsus olan çoxlu sayda ticarət gəmiləri donanması Panamanın bayrağı ilə qeydiyyatdan keçmişdir. Becərilən bitkilərə çəltik, buğda, tütün, sitrus meyvələri və paxlalılar aiddir. İxrac üçün banan, qəhvə, şəkər qamışı əkilir. Lakin bir çox ərzaq məhsullarını idxal etmək lazım gəlir. Panamanın təəərrüfatında balıqçılıq mühüm rol oynayır.

Karib dənizi hövzəsi ölkələri
Kuba Respublikası

Sahəsi:110861 km²
Əhalisi: 11,4 mln. nəfər (2006)
Əhalinin sıxlığı: 102,8 nəfər/km²
Paytaxtı: Havana (2,4 mln. nəfər)
Rəsmi dil: ispan
Din etiqad: katolisizm (85%)
Pul vahidi: Kuba pesosu
Dövlət quruluşu: respublika

Kuba Karib hövzəsinin ən böyük adasıdır, bənzəri olmayan ölkədir. Uzun və ensiz formada olan ada ABŞ-ın Florida ştatından cəmi 144 km cənubdadır. Belə yaxın olmasına baxmayaraq onlar uzun illərdir ki, qarşıdurma münasibətində yaşayırlar.

Kubada Vinyales vadisi

Kuba enlik istiqamətində 1260 km məsafədə uzanır, eni 191 km-dir. Şimalda və şərqdə Atlantik okeanının, cənubda Karib dənizinin suları ilə yuyulur, qərb kənarları Meksika körfəzinin sularına çatır. Ölkə ABŞ-dan Florida boğazı ilə, Haiti adasından Küləktutan boğazla ayrılır. Kubanın ən yaxın qonşusu olan Yamaykaya qədər məsafə 139 km-dir. Kubaya böyük ada olan Xuventud (Gənclik adası) və çoxsaylı kiçik adalar daxildir. Yüzlərlə təbii buxtaların, riflərin, yarımadaların olması ilə əlaqədar Kubanın sa-

hil xətlərinin uzunluğu 3735 km-dir. Kubada qonşu adalara nisbətən dağlar azdır. Yaylalar qurunun 1/4-ni tutur. Cənubi Kubanı Antil adaları qövsünün əsas dağ silsiləsi olan Syerra-Maestra dağları kəsib keçir. Kubanın qalan əraziləri ovalıqdır. Kuba Meksikadakı Yukatan yarımadası, Florida və Baham adalarındakı əhəngdaşlı platformalarla eyni mənşəyə malik olan platformanın bir hissəsidir. Adalarda tropik iqlim hakimdir, orta aylıq temperatur 25°C, yağıntıların orta illik miqdarı 1400 mm-dir. Çaylar böyük təsərrüfat əhəmiyyətinə malik deyildir. Ən böyük çayı olan Kauto qərbdən şərqə axır. Çay yalnız aşağı axarında kiçik gəmilər üçün yararlıdır. Ölkənin 20%-ə qədəri şam və qırmızı ağaclardan ibarət olan meşələrlə örtülüdür. Kənd təsərrüfatına yararlı torpaqların 80%-ə qədəri yağış sularının qırmızı qumlara təsiri nəticəsində formalaşmışdır. Bununla əlaqədar məhsuldar qırmızı torpaqlar yaranmışdır. Torpaqların çox hissəsini 4-6 mln. baş iri buynuzlu mal-qara üçün istifadə edilən otlaqlar və bir çox mədəni bitkilərin, o cümlədən çəltik, qəhvə, sitrus meyvələri, tərəvəz və tütün əkinləri tutur. Qamış şəkəri satışı Kubanın ixracının çox hissəsini təşkil edir. Şəkər sənayesində dərin böhran yaranmışdır. 2009-cu ildə cəmi 1,3 mln. ton şəkər istehsal edilmişdir və onun ixracı getdikcə azalır. Kuba əhalisi ən mühüm bitki olan tütünü Kubada və Karib hövzəsinin bəzi adalarında toplayır. Becərilən tütündən siqar istehsal olunur. 2004-cü ildə Kuba 230 mln. siqar ixrac etmişdir. Ən bahalı siqarlar əl ilə bükülür. Kuba Qərb yarımkürəsində yeganə sosialist ölkəsidir. 1898-ci ildə İspaniyadan müstəqillik əldə etsə də, 1930-cu ilə qədər ABŞ-ın güclü təsiri altında qalmışdır. 1959-cu ildə hakimiyyətə Fidel Kastro gəlmişdir. 2008-ci ildə onu qardaşı R.Kastro əvəz etmişdir. 1962-ci ildə adada, Sovet raketlərinin yerləşdirilməsi cəhdi Karib böhranının yaranmasına gətirib çıxardı. ABŞ tərəfindən davam edən embarqo (qadağalar) nəticəsində Kuba təsərrüfatı çətinliklərlə qarşılaşır. Nikel yataqlarının daha geniş istifadə edilməsi və turizmin inkişafı vəziyyətdən bir qədər çıxmağa kömək edir.

Kayman adaları

Sahəsi: 259 km²
Əhalisi: 45,4 min nəfər (2006)
Paytaxtı: Corctaun (21 min nəfər)
Rəsmi dil: ingilis
Din etiqad: protestantlıq
Pul vahidi: Kayman adaları dolları
Dövlət quruluşu: Böyük Britaniyanın mülkü

Kayman adalarını təşkil edən üç ada Yamaykadan 290 km şimal-qərbdə yerləşir. Onlar özünün gözəl çimərlikləri ilə şöhrət qazanmışdır.



Kayman-Brak, Böyük və Kiçik Kayman adalarında yerləşən ərazilər əlverişli çimərliklərə malik ovalıqlardan ibarətdir. Qurunun 1/3-i manqr cəngəllikləri ilə örtülüdür. Adalarda çaylar yoxdur. Ərazinin bir hissəsini qiymətli ağac növləri, əsasən maxoqoni ağaclarından ibarət olan rütubətli meşələr tutur, palma və çörək ağacı bitir. Dövlət fermalarında tısbağa saxlanılır. Çoxsaylı turistlərə suvenirlər hazırlamaq üçün onların qını və dərisindən istifadə olunur. Arxipelaqda ən böyük ada olan Kayman-Brak 19 km uzunluğa, 1,6 km enə malikdir. Onun sahil sularında çoxsaylı mağaralar və qəzaya uğrayan gəmilərin qalıqları vardır. Onlar dalğıcları çox cəlb edir. Kiçik Kayman cəmi 8 km uzunluğa malikdir. Onun çox hissəsi iquana və quşlar üçün qoruqdur. Adaların əhalisinin yarısından çoxu inzibati mərkəz olan Corctaunda yaşayır. Şəhərdə beynəlxalq maliyyə şirkətlərinin və adalarda qəbul edilmiş vergi güzəştlərindən istifadə edən ölkələrin 500-dən çox bankının ofisləri yerləşir. Adalar 1503-cü ildə Kolumb tərəfindən kəşf edilmişdir. 1863-cü ildən onlar Yamaykadan idarə edilmişdir. 1962-ci ildə Yamayka müstəqillik alarkən adalar Böyük Britaniyanın müstəmləkəsi olaraq qalmışdır.

Yamayka

Sahəsi: 10991 km²
Əhalisi: 2692 min nəfər (2010)
Əhalinin sıxlığı: 250 nəfər/km²
Paytaxtı: Kinqston (1,2 mln. nəfər)
Rəsmi dil: ingilis
Dini etiqad: protestantlıq (60%-dən çox)
Pul vahidi: Yamayka dolları
Dövlət quruluşu: Böyük Britaniya şəhzadəsinin başçılığı ilə dövlət, Birlik üzvü

Yamaykada möcüzəli şəkildə cah-cəlal və yoxsulluq birləşir. Yamayka əhalinin kifayət qədər sıx yaşadığı adalardan biridir. Ölkə Kubadan 145 km cənubda yerləşir, inzibati cəhətdən 14 dairəyə bölünür. Adanın uzunluğu 225 km-dir.

Karib hövzəsinin əksər digər adalarında olduğu kimi Yamaykanın sahilləri boyu çimərliklər vardır. Lakin adanın çox hissəsi dağlıqdır. Şimal-qərbdə əhəngdaşı süxurları bir neçə sıldırım silsilələr və çoxlu mağaraları olan yastı vadilər yaradır. Şimal-şərqdə Blu-Mauntins (Mavi dağlar) adanın əsas dağ silsiləsidir. Onun ən yüksək zirvəsi olan Blu-Mauntin dağı (2256 m) bütün Karib hövzəsinin ən hündür nöqtəsi hesab olunur. Çay şəbəkəsi sıx və bolsulu olsa da qısadır. Ovalıqlarda əsasən fermalar yerləşir. Bu ərazilərdə ixrac edilən banan, qəhvə, kakao, tərəvəz, sitrus meyvələri, şəkər qamışı becərilir, onların istehsalı və satışı daim aşağı düşür. Kənd təsərrüfatında Yamaykanın əmək qabiliyyətli əhalisinin təxminən 1/5-i çalışır. Adada 440 min baş keçi, o qədər də iri buynuzlu mal-qara saxlanılır. Yamayka dünyada boksit ehtiyatlarına görə dördüncü, hasilatına görə ikinci yeri tutur. Bu sahə ölkənin ən mühüm təsərrüfat sahələrindən biridir. Boksit Yamaykanın ixracının 50%-dən çoxunu təşkil edir. Boksit hasilatından sonra yüksək turşululuğu ilə fərqlənən çirkli göllər əmələ gəlir. Onlar da bitki örtüyünə məhvedici təsir göstərir. Ölkə üçün turizm əsas gəlir mənbələrindən biridir. 2008-ci ildə adaya 3,2 mln. nəfər turist gəlmişdir. Ölkənin daxili bazarlarında istifadə edilən kənd təsərrüfatı məhsullarına bibər, banan, tütün, manqo və yams aiddir. Yamayka praktiki olaraq dünyada Yamayka bibəri istehsal edilən yeganə

ölkədir. Kinqston Yamaykanın paytaxtı və Karib hövzəsində ən böyük liman, regionun ingilis dilli ölkələrində ən böyük şəhərdir. Şəhərin əsası 1692-ci ildə köhnə paytaxt Port-Royal zəlzələ nəticəsində tamamilə dağıldıqdan sonra qoyulmuşdur. Burada liman vardır, neft emal olunur, tikiş və yeyinti sənayesi (rom, şəkər istehsalı) mərkəzidir. Şəhərin arxitekturası ənənəvi müstəmləkə üslubu, müasir göydələnlər, varlı malikanələr və yoxsul-səfillər məhəllələrinin növbələşməsindən ibarətdir.

Baham Adaları Birliyi

Sahəsi: 13 939 km²
Əhalisi: 347 min nəfər (2009)
Əhalinin sıxlığı: 24,9 nəfər/km²
Paytaxtı: Nassau (211 min nəfər)
Rəsmi dil: ingilis
Din etiqad: protestantlıq (50%), katolisizm (20%)
Pul vahidi: Baham dolları
Dövlət quruluşu: Böyük Britaniya şəhzadəsinin başçılığı ilə dövlət, Birlik üzvü.

Baham adaları 700 adadan və 2400 rifdən ibarət arxipelaqda yerləşir. O, regionun ən çiçəklənən ölkələrindən biridir. Baham adaları Karib hövzəsinin şimal-qərbində 233 min km² ərazidə səpələnmişdir, ən yaxın quru sahələri Florida yarımadası və cənubda Kuba adasıdır. Adaların yalnız 40-a yaxını mənimsənilmişdir. Ölkə 1973-cü ildə müstəqil olmuşdur.

Adaların çoxu alçaqdır, manqr kolluqları və riflərlə əhatə olunmuşdur. Əhəngdaşı süxurları, karst relyef formaları geniş yayılır, çaylar yoxdur. Enliyarpaqlı meşələrdə yerləşən səhləb çiçəyi və başqa gözəl, incə ətiri olan çiçəkli bitkilər bitir. Fauna elementləri arasında quşların sayı, o cümlədən qızılqaz çoxdur. Gündüzün orta temperaturu az hallarda 18°C-dən aşağı düşür. İlin 310 günü günəşli keçir. Gözəl mənzərələr, palmalarla əhatə olunan çimərliklər, təmiz dəniz, isti hava bütün il ərzində Bahama minlərlə turist cəlb edir. Ən böyük ada Andros olsa da, sənaye Böyük Baham adasında, xüsusilə Friport şəhərində cəmlənmişdir. Adalarda şəkər qamışı, ananas, sitrus bitkiləri, tərəvəz becərilir, gəmilər təmir olunur, dəmir konstruksiyaları, kağız, rom, pivə, suvenirlər istehsal olunur. Vergi güzəştləri, əmanətlərin gizli qalmasının təminatı Baham adalarını biznesmenlər və maliyyəçilər üçün cəlbedici edir.

Terks və Kaykos

Sahəsi: 430 km²
Əhalisi: 33 min nəfər (2009)
İnzibati mərkəz: Kobern-Taun (5 min nəfər)
Rəsmi dil: ingilis
Din etiqad: protestantlıq (metodizm)
Pul vahidi: ABŞ dolları
Dövlət quruluşu: Böyük Britaniyanın mülkü

Terks və Kaykos Böyük Britaniyanın mülküdür. Baham adaları arxipelaqının cənub-şərqində iki eyni adlı adalar qrupunu əhatə edir.

Terks və Kaykos Baham adaları həlqəsinin davamıdır. Ərazi 30-dan çox adadan ibarətdir. Onların səkkizi məskunlaşmışdır. İki adalar qrupu 35 km-lik Terks-Aylend boğazı ilə ayrılır, dərinliyi 2200 m-dir. Qurunun çox hissəsini kolluqlar və kaktuslarla örtülən qumlar və qayalar tutur. Bütün il ərzində orta aylıq temperatur 24°C-dən 32°C-yə qədər olur. İl ərzində 540-720 mm yağıntı düşür. Suvarma paxlalılar, buğda və sit-rus meyvələri yetişdirməyə imkan verir. Hələ 1678-ci ildə Bermud adalarından olan tacirlər suyun buxarlandırılması və duz alınması üçün hovuzlar qazmışdılar, sonra duz daşınır və satılırdı. Duz istehsalı 1960-cı illərə qədər ən mühüm sahə olaraq qalırdı. Əsas gəlir mənbəyi turizm, balıqçılıq və maliyyə xidmətidir. Adalarda ofşor zonaları yaradılmışdır, onun daxilində vergi güzəştləri fəaliyyət göstərir. 2009-cu ildə Böyük Britaniya korrupsiya faktları ilə əlaqədar adalarda birbaşa idarəetmə tətbiq etmişdir.

Haiti Respublikası

Sahəsi: 27 750 km²
Əhalisi: 9923 min nəfər (2009)
Əhalinin sıxlığı: 357,6 nəfər/km²
Paytaxtı: Port-o-Prens (2296 min nəfər)
Rəsmi dillər: fransız, kreol
Dini etiqad: katolisizm (80%), vudu
Pul vahidi: qurts
Dövlət quruluşu: respublika

Haiti Respublikası eyni adlı adanın qərbində onun sahəsinin 1/3-ni tutur. Onun təsərrüfatının əsasını faydalı qazıntıların hasilatı və kənd təsərrüfatı təşkil edir.

Haiti beş silsiləsi olan dağlıq ölkədir. Onlar bir-birindən dərin vadilər və düzənliklərlə ayrılır. Ovalıqlar sıx məskunlaşmışdır. Əhalinin 80%-ə qədəri kənd yerlərində yaşayır. Adanın çox hissəsində torpaqlar eroziyaya məruz qalmışdır. Bir vaxtlar geniş ərazi tutan meşələr əkin sahələrini genişləndirmək və ağac istehsalı üçün qırılmışdır. Torpaqların yalnız 1/3-i istifadə etmək və əkinçilik üçün yararlıdır. Kənd təsərrüfatında kiçik torpaq sahibkarlığı üstündür. Onların məhsulu daxili ərzaq təminatı üçün güclə çatır. Ən geniş yayılmış bitkilər buğda, tütün, tərəvəz, çəltik, banan və kassavadır. İri plantasiyalarda ixrac məhsulları – qəhvə, sizal və şəkər qamışı becərilir. Orta aylıq temperatur 23°-28°C (dağlarda 16°C), illik yağıntılar 500 mm-dən 2000 mm-ə qədərdir.

Haiti əhalisinin 95%-i ispan və fransız müstəmləkəçiləri tərəfindən gətirilən qaradərili qulların nəsilləridir. Haiti 1804-cü ildə üsyanı nəticəsində Fransadan ayrılmış və müstəqillik qazanmışdır. Sonra dünyada analoqu olmayan iki əsrlik çevrilişlər, üsyanlar, o cümlədən Duvalye ailəsinin çoxillik diktaturası tarixi

başlanmışdır. 2010-cu ildə adada 230 min nəfərin həlak olduğu dağıdıcı zəlzələ baş verdi. Bu zəlzələnin nəticəsində ölkə sosial və humanitar fəlakət səviyyəsinə çatdı, müstəqil mövcud olması mümkünsüz oldu. Dünya ictimaiyyəti bu böhranın nəticələrinin aradan qaldırılması üçün Haitiyə yardım göstərir.

Dominikan Respublikası

Sahəsi: 48433 km²
Əhalisi: 10,1 mln. nəfər (2007)
Əhalinin sıxlığı: 208,5 nəfər/km²
Paytaxtı: Santo-Dominqo (3 310 min nəfər)
Rəsmi dil: ispan
Din etiqad: katolisizm (95%)
Pul vahidi: Dominikan pesosu
Dövlət quruluşu: respublika

Dominikan Respublikası Haiti adasının şərq hissəsini tutur. O, Karib hövzəsinin sahəsinə və əhalisinin sayına görə ikinci ölkəsidir.

Dominikan Respublikası dağ silsilələri arasındakı vadilərdə və sahilboyu ovalıqlarda geniş məhsuldar torpaqlara malik olan dağlıq ölkədir. Burada ən müxtəlif bitkilər, o cümlədən tütün, çəltik, qəhvə, şəkər qamışı və kakao becərilir. 2000-ci ildə 1,29 mln. ton meyvə və giləmeyvə toplanmışdır. Dominikan Respublikasının təsərrüfatı təkcə Haitidən deyil, Karib regionunun əksər ölkələrindən daha yüksək templə inkişaf edir. Burada iri faydalı qazıntı yataqları, o cümlədən nikel və qızıl isitsmar edilir. Tikinti və telekommunikasiya sənayesi sürətlə inkişaf etdirilir. Turizm mühüm əhəmiyyət kəsb edir. Ölkənin təbii sərhədlərə malik olan limanlarında kruiz laynerləri dayanır. Onlar turistlər üçün dəniz gəzintiləri təşkilində istifadə olunur. Ölkə daxilində bir sıra azad ticarət zonaları yaradılmışdır. Paltar, ayaqqabı və elektronika məhsulları istehsal edən xarici şirkətlərdə 200 min nəfərdən çox adam işləyir. Ada X.Kolumb tərəfindən 1492-ci ildə, onun birinci səyahəti zamanı kəşf edilmişdir. 1496-cı ildə onun qardaşı Bartolomeo Santa-Dominqo şəhərinin əsasını qoymuşdur. Şəhər avropalıların Amerikada ən qədim yaşayış məskənidir.

Sent-Kits və Nevis Federasiyası

Sahəsi: 269 km²
Əhalisi: 49,3 min nəfər (2009)
Əhalinin sıxlığı: 183,3 nəfər/km²
Paytaxtı: Baster (17 min nəfər)
Rəsmi dillər: ingilis, kreol
Din etiqad: protestantlıq (80%)
Pul vahidi: Şərqi Karib dolları
Dövlət quruluşu: Böyük Britaniya Şahzadəsinin başçı olduğu dövlət

Sent-Kits və Nevis 1620-ci ildə Karib regionunda ilk Britaniya müstəmləkəsi olmuşdur. Eni 3 km-ə qədər olan boğazla ayrılan iki adadan ibarətdir. Sent-Kits və Nevis vulkan mənşəli adalardır, hər birinin mərkəzində vulkan piki yüksəlir.

Adaların sahilləri boyu qumlu çimərliklər yerləşir. İqlim bol yağıntıları olan tropik tipli-dir, lakin yağıntılı mövsüm yoxdur. Yağıntılar il



ərzində bərabər paylanır, miqdarı 1300 mm-ə çatır. Orta illik temperatur 27°C-dir. Adalar tayfunların keçdiyi zonada yerləşir, onlar böyük dağıntılar törədir. Xeyli ərazilər əkin üçün təmizlənsə də, adalarda geniş rütubətli meşələr qalır. Sahillərdə dəniz quşları, o cümlədən qutanlar yuva qurur. Demək olar ki, bütün energetika gətirilən yanacağa əsaslanır. Adalarda şəkər qamışı, ananas, manqo, avokado, papayya becərilir, şəkər, pambıq, kokos yağı, alkoqollu içkilər istehsal olunur. Bir vaxtlar adalarda hindu tayfaları olan kariblər və aravaklar məskən salmışdılar. Hazırda əhali demək olar ki, tamamilə Afrika və Avropa-Afrika mənşəli qarışıq insanlardan ibarətdir. Adalar 1983-cü ildə Böyük Britaniyadan müstəqillik əldə etmişdir. 1998-ci ildə Nevisdə federasiyadan çıxmaq üçün səsvermə keçirildi. Lakin bu layihə seçicilərin lazım olan 2/3 hissəsini yığa bilmədi.

Antiqua və Barbuda

Sahəsi: 442 km²
Əhalisi: 86,7 min nəfər (2009)
Əhalinin sıxlığı: 196,2 nəfər/km²
Paytaxtı: Sent-Cons (45 min nəfər)
Rəsmi dillər: ingilis, kreol
Dini etiqad: protestantlıq (70%)
Pul vahidi: Şərqi Karib dolları
Dövlət quruluşu: Birlik tərkibində dövlət

Antiqua və Barbuda XVII əsrdə Böyük Britaniyanın müstəmləkəsi olmuş, 1981-ci ildə müstəqillik qazanmışdır. Ölkənin təsərrüfatı tamamilə turizmdən asılıdır. Antiqua və Barbuda Kiçik Antil adalarının şərq hissəsində üç adanı əhatə edir.

Onlar arasında Antiqua ən böyüyüdür. Burada ölkə əhalisinin 98%-ə qədəri yaşayır. Əhalinin qalan hissəsi mərcan mənşəli ovalıqlardan ibarət Barbudada yaşayır, çox kiçik olan üçüncü ada mənimsənilməmişdir. Antiqua və Barbudanın da aid edildiyi Küləktutan adalar qrupuna daxil olan digər adalardan fərqli olaraq Antiquada meşələr və çaylar yoxdur. Burada bitki örtüyü çox kasıbdır, şirin su azdır. Adaya 1000 mm-ə qədər yağıntı düşməsinə baxmayaraq tez-tez quraqlıqlar olur. Şirin suyu artezian quyularından alırlar. Orta temperatur 24°-30°C-dir. Adalarda heyvanlar demək olar ki yoxdur, lakin 100 növdən çox quş məskən salmışdır. Ölkədə şəkər qamışı, pambıq, manqo əkilir, toxuculuq, yeyinti (rom) sahələri vardır, məişət texnikası istehsal olunur. Sahilboyu sular balıq və xərçənglə zəngindir. Mərcan mənşəli adaların ekosisteminin qorunması üçün dəniz parkları yaradılmışdır. 1970-ci ildə şəkər zavodlarının bağlanmasından sonra ölkənin təsərrüfatı turizmin inkişafına əsaslanır, həmçinin maliyyə və bank işi inkişaf edir. Antiquada ABŞ-a iki hərbi baza icarəyə verilmişdir. Əhalinin 90%-i adalara gətirilən qaradərili qulların nəsilləridir.

Dominika Birliyi

Sahəsi: 739 km²
Əhalisi: 71 min nəfər (2009)
Paytaxtı: Rozo (27 min nəfər)
Rəsmi dillər: ingilis, kreol
Dini etiqad: katolisizm (80%), protestantlıq (15%)
Pul vahidi: Şərqi Karib dolları
Dövlət quruluşu: respublika

Dominika Birliyi Kiçik Antil adalarında eyni adlı adada dövlətdir. 1978-ci ilə qədər Dominika Böyük Britaniyanın mülkü olmuşdur.



Dominika çoxsaylı isti su mənbələri olan dağlıq relyefə malik vulkan mənşəli adadır. Ölkədə çoxlu parklar və qoruqlar yaradılmışdır. Dağlar sıx meşə və kolluqlarla örtülüdür. Ada-da 130 növə qədər quş məskən salır. Elektrik enerjisinin çox hissəsi adanın mərkəzində tikilən SES-lərdə istehsal olunur. Yerli hindu əhalisi avropalılara uzun müddət müqavimət göstərmişdir. Ada yalnız XVIII əsrin sonun-da müstəmləkəyə çevrilmişdir. Burada hindu tayfalarına aid olan kariblərin 3000 nəfərə qədər nümayəndəsi yaşayır. Banan, kokos palması, manqo, kakao, sitrus bitkiləri, tütün becərilir. Ona görə təsərrüfat iqlim şəraitindən və beynəlxalq konyukturanın (vəziyyətin) dəyişməsindən çox asılıdır. Sənayedə kənd təsərrüfatı məhsulları, ağac emal edilir.

Sent-Lüsiya

Sahəsi: 617 km²
Əhalisi: 172,6 min nəfər (2009)
Əhalinin sıxlığı: 279,7 nəfər/km²
Paytaxtı: Kastri (62 min nəfər)
Rəsmi dillər: ingilis, kreol
Din etiqad: katolisizm (90%)
Pul vahidi: Şərqi Karib dolları
Dövlət quruluşu: Böyük Britaniya Şahzadəsinin başçılığı ilə dövlət, Birlik üzvü

Sent-Lüsiya adası İspaniya tərəfindən işğal edilmiş, sonra Fransa tərəfindən tutulmuş, 1814-cü ildə Böyük Britaniyanın müstəmləkəsi olmuşdur. 1979-cu ildə müstəqillik əldə etmişdir.

Sent-Lüsiya adası vulkan mənşəlidir. Küləktutan adalar qrupuna daxildir. Adanın mərkəzi hissəsində vadilərlə parçalanmış yüksək olmayan dağlar yüksəlir. Bu dağlardan çoxsaylı çaylar və onların qolları axır. Dağlar bütün istiqamətlərdə aşınma nəticəsində alçalır. Adanın cənubunda 18 vulkan gümbəzi və çoxsaylı kraterlərdən ibarət zəncirvari həlqələr uzanır. Qərb sahilində Sufrier şəhəri yaxınlığında Jalüzi-Planteyşen limanı üzərində Pti-Piton (750 m) və Qro-Piton (798 m) sönmüş vulkanlarının sıx meşələrlə örtülmüş konusları yerləşir. Sufrier sönmüş vulkanın krateri yaxınlığında kükürdlü bulaqların qaynayıb səthə çıxması yaxın keçmişdə olan vulkan fəaliyyətinin əlamətidiir.

Burada kükürd yataqları yerləşir. Heyvanlar aləmində quşlar üstünlük təşkil edir. Adanın cənub-qərbində bir çox çimərlik vulkan mənşəli qara qumla örtülüdür. Tropik iqlim şəraitində il ərzində 2000 mm-dən 4000 mm-ə qədər yağıntı düşür, orta illik temperatur 26°C-dir. Sent-Lüsiya Karib hövzəsində aparıcı banan istehsalçılarından biridir, kokos palması, manqo, kakao, şəkər qamışı, sitrus meyvələri becərilir. Ölkədə balıq ovu aparılır.

Tropik enliklərin suları canlı aləmlə zəngindir

Sent-Vinsent və Qrenadina

Sahəsi: 389 km²
Əhalisi: 117,8 min nəfər (2006)
Əhalinin sıxlığı: 302,8 nəfər/km²
Paytaxtı: Kinqstaun (26 min nəfər)
Rəsmi dillər: ingilis, kreol
Dini etiqad: metodizm (28%), anqlikanlıq (47%)
Pul vahidi: Şərqi Karib dolları
Dövlət quruluşu: Böyük Britaniya Şahzadəsinin başçılığı ilə dövlət, Birlik üzvü

Sent-Vinsent və Qrenadina dövlətinə böyük Sent-Vinsent adası və Qrenadina arxipelaqının şimal hissəsi daxildir.

Qrenadina arxipelaqı vulkan mənşəli 600 adadan ibarət zəncirvari həlqədir. Sent-Vinsent

adası ölkənin ərazisinin 89%-ni təşkil edir.

Burada əhalinin 95%-i yaşayır. Şimalda adanın 1/3 hissəsini geniş dağlıq massiv tu-tur. O, XX əsrdə bir neçə dəfə püskürmüş fəaliyyətdə olan Süfrier vulkanının yamaclarında əmələ gəlmişdir. Adanın mərkəzi və cənub vilayətlərində sıldırım dağ yamacları üstünlük təşkil edir. Onlar sahillərə tərəf enir, şərqdə isə sıldırım qayalar və qara qumlu çimərliklər vardır. Qrenadina arxipelaqının adaları mərcan rifləri ilə əhatə olunur. Onlardan bəziləri, o cümlədən Müstik və Bekiya adaları varlı ingilislər üçün eksklüziv kurortlara çevrilmişdir.

Ən mühüm kənd təsərrüfat bitkisi banandır. Bundan başqa, manqo, kokos qozu, sitrus meyvələri, cövüz (muskat qozu) becərilir. Sent-Vinsent və Qrenadina kulinariyada tətbiq edilən, tərkibində nişasta olan kökümeyvəli marantanın dünyada ən böyük istehsalçısıdır. Ölkədə həmçinin yeyinti, sement zavodları, rom istehsalı müəssisələri vardır. Sent-Vinsent və Qrenadina əksər qonşu ada-ölkələrindən kasıbdır. Burada işsizlik yüksək səviyyədədir. Bu-nunla əlaqədar iqtisadi fəal əhali digər region-lara miqrasiya edir.

Barbados

Sahəsi: 430 km²
Əhalisi: 280 min nəfər (2009)
Əhalinin sıxlığı: 651,2 nəfər/km²
Paytaxtı: Brictaun (98,7 min nəfər)
Rəsmi dillər: ingilis, kreol
Dini etiqad: protestantlıq (70%)
Pul vahidi: Barbados dolları
Dövlət quruluşu: Böyük Britaniya Şahzadəsinin başçılığı ilə dövlət, Birlik üzvü

Barbados Karib hövzəsinin ən şərqdə yerləşən ada ölkəsidir. Adanın uzunluğu şimaldan cənuba 34 km, maksimal eni 23 km-dir.



Barbados mərcan qumlarından təşkil olunmuş sualtı Barbados silsiləsinin zirvəsidir. Şimalda yüksək olmayan təpələr vardır. Qərb sahillərində ağ qumlu çimərliklər uzanır və əsasən qayalıqdır. Ada demək olar hər yerdə mərcan rifləri ilə əhatə olunur. Təsərrüfatın əsasını kənd təsərrüfatı (pambıq, maniok, meyvə-tərəvəz), həmçinin turizm təşkil edir. Adada il ərzində 1400 mm-ə qədər yağıntı düşür, onlar əsasən iyul-oktyabr aylarında yağır. Bu gün becərilən torpaqların 50%-ə qədəri yenə də şəkər qamışı əkinlərinə ayrılmışdır. Turizm sferasında əmək qabiliyyətli əhalinin 1/3-i çalışır. Adada tapılan neft ölkənin energetika tələbatının təxminən 1/3-ni təmin edir. Paytaxt Brictaunun əsası 1628-ci ildə qoyulmuşdur. Əhalinin 90%-i Afrika mənşəlidir. Barbados əhalisini "bacanlar" adlandırırlar. Onların 1/3 qədəri Brictaun və onun ətrafında yaşayır. İlkin vaxtlarda Barbados hindu tayfaları olan aravaklar tərəfindən məskunlaşmışdır. Onları buradan təxminən 1200-ci ildə döyüşkən kariblər qovmuşdur. Ada 1627-ci ilə qədər məskunlaşmamış qalmışdır. Həmin dövrdə burada ingilis köçkünlər yaşayış məntəqəsinin (koloniya) əsasını qoymuşlar. Barbados 1968-ci ildə müstəqil olmuşdur. İngilis adət-ənənələrinin saxlanması ilə əlaqədar Barbadosu çox vaxt "Kiçik İngiltərə" adlandırırlar. Brictaun adanın ən böyük limanıdır. Sənayedə rom, pivə, mebel, kağız istehsal olunur.

Qrenada

Sahəsi: 344 km²
Əhalisi: 107,1 min nəfər (2009)
Əhalinin sıxlığı: 357 nəfər/km²
Paytaxtı: Sent-Corces (37 min nəfər)
Rəsmi dillər: ingilis, kreol
Dini etiqad: katolisizm (57%), protestantlıq
Pul vahidi: Şərqi Karib dolları
Dövlət quruluşu: Böyük Britaniya Şahzadəsinin başçılığı ilə dövlət, Birlik üzvü

Qrenada eyni adlı böyük adanı və Qrenadina adalarının cənub hissəsini, o cümlədən Karriaku adasını əhatə edir.

Qrenada adası vulkan mənşəlidir, landşaftı çox müxtəlifdir. Adanın mərkəzində meşələrlə örtülmüş dağ massivi (Sent-Katerin dağı, 840 m) yerləşir. Dağların yamaclarından çoxsaylı kiçik çaylar axır, yeraltı su mənbələri vardır. Massivin yuxarı hissəsində meşələr arasında göllərə çevrilmiş vulkan kraterlərinə rast gəlinir. Sahillər boyu ovalıqlar yerləşir. Qrenadada tropik iqlim hakimdir, orta aylıq temperatur 27°C-dir. Sahillərdə il ərzində 1500 mm yağıntı düşür. Dağların yamaclarında iki dəfə çox yağıntı olur. Məhsuldar qara torpaqlarda çoxlu sayda bitkilər bitir. Qrenada "Ədviyyat adası" kimi məşhurdur. O, cövüz (muskat qozu) və cövüz qabığı (ədviyyat) ixrac edən ən böyük ölkədir. Bu məhsul muskat adlı qoz növündən hazırlanır. Burada geniş ərazidə darçın, mixək, bibər və sarıkök də becərilir, xeyli məhsul yığılır. Ən mühüm əmtəə məhsullarına limon, kokos və banan aiddir. 1650-ci ildən 1762-ci ilə qədər Qrenada fransız müstəmləkəsi olmuşdur. Sonra onu ingilislər tutmuşlar. 1974-cü ildə müstəqillik əldə etdikdən sonra adada iki hərbi çevriliş (1979 və 1983) olmuşdur. Bundan sonra Qrenadaya Amerika qoşunları çıxarılmış və yeni hökumət təşkil edilmişdir. Paytaxta yaxın olan Poynt-Salinada beynəlxalq hava limanı tikildikdən sonra turizm mühüm əhəmiyyət kəsb etmişdir.

Trinidad və Tobaqo Respublikası

Sahəsi: 5128 km²
Əhalisi: 1,4 mln. nəfər (2009)
Əhalinin sıxlığı: 273 nəfər/km²
Paytaxtı: Port-of-Speyn (455 min nəfər)
Rəsmi dillər: ingilis, kreol
Dini etiqad: katolisizm, protestantlıq, hinduizm
Pul vahidi: Trinidad və Tobaqo dolları
Dövlət quruluşu: respublika

Trinidad və Tobaqo Karib hövzəsində ən cənubda yerləşən adalardır. O, Karib dənizi sahilində neft ehtiyatlarına malik olan az sayda ölkələrdən biridir. Yaxınlıqda olan 5 kiçik ada da bura daxildir.

Trinidad Orinoko çayının okeana töküldüyü yerdə, Venesuela sahillərinə yaxın yerləşir. Geoloji cəhətdən ada Cənubi Amerikanın davamıdır. Adaların heyvanat aləmi müxtəlifdir, Cənubi Amerikanın faunasına oxşardır. Əsas təbii ehtiyat olan neft və qazın hasilatı həm quruda, həm də dənizdə aparılır. Adanın cənub-qərbində qeyri-adi göl yerləşir, dərinliyi 60 m olan çökəklik bitum (asfalt) ilə dolmuşdur. Bu, dünyada ən böyük təbii bitum yatağıdır.

Ölkə etnik tərkibinin müxtəlifliyi ilə fərqlənir. Afroamerikalıların əhali arasında payı 40%, mulatlar 18%, hindular 40%-dir. Milli azlıqlar arasında avropalıların nəsilləri, venesuelalılar və çinlilər fərqlənir. Trinidadda 30-dan artıq neft yatağı istismar olunur. 2007-ci ildə adada neftin ümumi hasilatı 59,6 mln. barrel olmuşdur. Kənd təsərrüfatında şəkər qamışı, qəhvə, kakao, sitrus meyvələri, çəltik becərilir. Sənayedə neftin hasilatı, emalı, elektrotexnika, gəmi və avtomobilqayırma, yeyinti sənayesi sahələri yaradılmışdır.

Puerto-Riko

Sahəsi: 8870 km²
Əhalisi: 3 954 min nəfər (2007)
İnzibati mərkəz: San-Xuan (2 601 min nəfər)
Rəsmi dillər: ispan, ingilis
Din etiqad: katolisizm (85%)
Pul vahidi: ABŞ dolları
Dövlət quruluşu: ABŞ-ın yerli özünüidarə etmə hüququ olan mülkü

ABŞ-ın mülkü olan Puerto-Riko eyni adlı adanı və bir sıra ətraf adaları əhatə edir. Puerto-Riko Böyük Antil adaları arasında şərq kənarda yerləşir.

Puerto-Riko adası Dominikan Respublikasından Mona boğazı ilə ayrılır. Dağlar ərazinin 3/5 hissəsini tutur. 1493-cü ildə Kolumb tərəfindən kəşf edilən ada 1898-ci ilə qədər İspaniyanın müstəmləkəsi olmuşdur. Bu dövrdən sonra ABŞ-ın hakimiyyətinə keçmişdir. Aşağı vergi və ucuz işçi qüvvəsi olması nəticəsində cəlb edilən ABŞ şirkətləri burada öz müəssisələrini açmışlar.

San-Xuan şəhəri regionun turizm mərkəzlərindən biridir

Adada neft-kimya, toxuculuq və əczaçılıq sahələri inkişaf etmişdir. Puerto-Rikodan ixracın 90%-i ABŞ-a yönəlir. Sahilboyu düzənliklərin əhalisi südlük maldarlıq və qəhvə becərilməsi ilə məşğul olur. Adanın iqtisadiyyatı turizm də daxil olmaqla xidmət sənayesindən çox asılıdır. Əhali ***rom*** zavodlarında işləyir. Bu alkoqollu içki bir çox ölkələrə ixrac olunur. Rom istehsalı üçün əsas xammal şəkərdir. Yerli idarəetmə hüququna malik olan, Panama kanalına gedən yolun üzərində yerləşən ada gəmiçilik və ticarətdən çoxlu gəlir əldə edir. San-Xuan şəhərinin Karib regionunda ən böyük təbii limanlardan birində yerləşməsi buna əlverişli şərait yaradır. Günəşli isti iqlim və çimərliklər turistləri cəlb edir.

Virginiya adaları

Puerto-Rikodan şərqdə yerləşən bu adalar iqtisadi cəhətdən inkişaf etmiş ABŞ-ın müstəmləkəsinə və nisbətən geri qalmış Böyük Britaniya ərazisinə bölünür.

Virginiya adaları (ABŞ)

Sahəsi: 352 km²
Əhalisi: 110 min nəfər (2007)
İnzibati mərkəz: Şarlotta-Amaliya (28 min nəfər)
Rəsmi dil: ingilis
Dini etiqad: protestantlıq (baptizm), katolisizm
Pul vahidi: ABŞ dolları
Dövlət quruluşu: ABŞ-ın mülkü

ABŞ-ın Virginiya adalarının təsərrüfatı əsasən turizmdən asılıdır. Adalara hər il mln. nəfərdən çox turist gəlir. ABŞ Virginiya adalarını 1917-ci ildə Danimarkadan almışdır. Ərazi çoxlu sayda kiçik, dağlıq, vulkan mənşəli adalardan ibarətdir. Santa-Krus adasında neftayırma zavodu tikilmişdir. Onun məhsulları Virginiya adalarının praktiki olaraq bütün ixracını təşkil edir.

Virginiya adaları (Böyük Britaniya)

Sahəsi: 153 km²
Əhalisi: 23 min nəfər (2005)
İnzibati mərkəz: Rod-Taun (8500 nəfər)
Rəsmi dil: ingilis
Dini etiqad: protestantlıq (anqlikanlıq), katolisizm
Pul vahidi: ABŞ dolları
Dövlət quruluşu: Böyük Britaniyanın mülkü

Britaniya Virginiyası adalarının inzibati mərkəzi adalar qrupundan ən böyük olan Tortola adasında yerləşir. Adaların əksəriyyəti vulkan mənşəlidir. Burada sahəsinə görə ikinci yeri tutan Aneqada adası müstəsnalıq təşkil edir və mərcan-əhəngdaşlı atolldan ibarətdir.

Adaların sakinləri rom istehsalı, mal-qara saxlanması və balıqçılıqla məşğul olur. Lakin gəlirlərin 75%-i turizmdən əldə olunur.

Angilya və Montserrat

Angilya yastı əhəngdaşlı mərcan adasıdır. Monserrat daha çox dağlıq relyefə malik adadır, yeddi fəaliyyətdə olan vulkana malikdir.

Angilya

Sahəsi: 91 km²
Əhalisi: 13,4 min nəfər (2007)
İnzibati mərkəz: Valli (1200 nəfər)
Rəsmi dillər: ingilis, kreol
Dini etiqad: protestantlıq, katolisizm
Pul vahidi: Şərqi Karib dolları
Dövlət quruluşu: Böyük Britaniyanın mülkü

Angilya quru iqlimi olan alçaq adadır. 1650-ci ildə müstəmləkəyə çevrilmişdir. Əhali afrikalılar və avropalıların nəsilləridir. Omar tutulması, duz hasilatı və turizm əsas gəlir mənbələridir.



Montserrat

Sahəsi: 101 km²
Əhalisi: 9400 nəfər (2006)
Müvəqqəti inzibati mərkəz: Breyds (200 nəfər)
Rəsmi dil: ingilis
Dini etiqad: protestantlıq
Pul vahidi: Şərqi Karib dolları
Dövlət quruluşu: Böyük Britaniyanın mülkü

Montserratın təsərrüfatı daha müxtəlifdir. Burada tərəvəzçilik, pambıqçılıq, həmçinin milli sənətkarlıq (kustar sənaye) inkişaf etmişdir. 1995-ci ildə Sufriyer-Xills vulkanının püskürməsi adanın paytaxtı Plimut şəhərini dağıdıb məhv etdi. 1997-ci ildə əhalinin çox hissəsi Montserratı tərk etdi. Daimi sakinlər onun şimal hissəsində yaşayır. Müvəqqəti paytaxt olan Breyds şəhəri də burada yerləşir. Hazırda adanın cənub hisəsinə giriş və çıxış qadağan edilmişdir. Montserratın ziyan çəkmiş hissəsində ən azı 10 il yaşamaq mümkün olmayacaq.

Qvadelupa

Sahəsi: 1780 km²
Əhalisi: 450 min nəfər (2007)
İnzibati mərkəz: Bas-Ter (46 min nəfər)
Rəsmi dil: fransız
Dini etiqad: katolisizm
Pul vahidi: avro
Dövlət quruluşu: Fransanın mülkü

Fransanın xarici departamenti olan Qvadelupaya vulkan mənşəli Bas-Ter və mərcan mənşəli ovalıqdan ibarət Qrand-Ter adası aiddir.

Qvadelupa ensiz bərzəxlə birləşmiş adadan, bir neçə kiçik adadan ibarətdir. Bas-Ter adasında fəaliyyətdə olan Sufriyer vulkanının zirvəsi Karib hövzəsində ən rütubətli yerlərdən biridir. Burada il ərzində 8000 mm-dən çox yağıntı düşür. Sahilboyu rayonlar 1300 mm yağıntı alır. Qvadelupanın inzibati mərkəzi Bas-Ter adasında yerləşir. Lakin Qrand-Ter adasında əhalinin sıxlığı daha yüksəkdir. Puent-a-Pitr əsas liman və ticarət mərkəzidir. Onun əsasında kənd təsərrüfatı və turizm durur. Kənd təsərrüfatında şəkər qamışı və banan becərilir. 2007-ci ilə qədər xarici departament olan Qvadelupanın tərkibinə Sen-Bartelmi və Müqəddəs Martina adasının şimal hissəsi (cənubu Niderlanda aiddir) daxil idi. Hazırda onların ərazisi Fransanın tərkibində Sen-Bartelmi və Sen-Marten adı ilə ayrıca xarici icma təşkil edir.

Martinika

Sahəsi: 1128 km²
Əhalisi: 431 min nəfər (2006)
İnzibati mərkəzi: For-de-Frans (133 min nəfər)
Rəsmi dil: fransız
Dini etiqad: katolisizm (85%)
Pul vahidi: avro
Dövlət quruluşu: Fransanın mülkü

Martinika Karib dənizində kəskin parçalanmış sahil xətləri, dağ meşələri və ensiz vadiləri olan adalardan biridir. Ada orta hesabla dəniz səviyyəsindən 900 m-dən yüksəkdir.

Adanın cənub hissəsinin hündürlüyü nisbətən azdır. Ən yüksək nöqtə Montan-Pele vulkanıdır (1397 m). 1902-ci ildə onun püskürməsi Sen-Pyer şəhərini dağıtmış, bu zaman 28 min nəfərdən çox insan məhv olmuşdur. Martinika adasının 1/3-i meşələrlə örtülüdür. Meşələrdə çoxlu sayda qiymətli ağac



növləri bitir. Ada Fransa tərəfindən 1635-ci ildə tutulmuşdur. Burada Venesuela, Trinidad və Tobaqodan gətirilən xam neftin emal edilməsi üçün neftayırma zavodu tikilmişdir. Martinikanın əhalisinin çox hissəsi Afrika və ya qarışıq Afrika-Avropa mənşəlidir. Gəlirin əsas hissəsi kənd təsərrüfatından, xidmət sənayesindən, xüsusilə turizmdən əldə olunur.

Aruba, Kürasao, Sint-Marten

Aruba, Kürasao və Bonayre Kiçik Antil arxipelaqının cənub hissəsində yerləşir. Sint-Marten (Müqəddəs Martin adasının cənub hissəsi), Sent-Estatius və Saba arxipelaqın şimal hissəsindədir. 1 yanvar 1986-cı ildə Aruba Niderland Antil adalarının tərkibindən çıxmış, Niderland krallığının tərkibində özünü idarə edən dövlət olmuşdur. 2010-cu ildə konstitusiya islahatı nəticəsində Kürasao və Sint-Marten də Niderland krallığı tərkibində yerli idarəetmə hüququna malik dövlətə çevrilmişdir. Bonayre, Saba və Sent-Estatius Niderland krallığında xüsusi bələdiyyə statusu almışlar. Kürosaonun əsas şəhəri olan Villemstad şəhərində evlərin çoxu holland üslubunda tikilmişdir.



Aruba

Sahəsi: 193 km²
Əhalisi: 106 min nəfər (2006)
Paytaxtı: Oranestad (26 min nəfər)
Rəsmi dillər: holland, papyamento
Dini etiqad: katolisizm
Pul vahidi: florin

Kürosao

Sahəsi: 444 km²
Əhalisi: 142 min nəfər (2009)
İnzibati mərkəzi: Villemstad (119 min nəfər)
Rəsmi dillər: holland, papyamento
Dini etiqad: katolisizm
Pul vahidi: florin

Sint-Marten

Sahəsi: 34 km²
Əhalisi: 41 min nəfər (2009)
Paytaxtı: Filipsburq (29 min nəfər)
Rəsmi dillər: holland, ingilis
Dini etiqad: protestantlıq
Pul vahidi: florin
Əsas ixracatı: reeksport
Dövlət quruluşu: Niderland Krallığı tərkibində yerli özünüidarəetmə hüququ olan dövlət

CƏNUBİ AMERİKA

And ölkələri
Venesuela Respublikası

Sahəsi: 912 050 km²
Əhalisi: 29,3 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 32,1 nəfər/km²
Paytaxtı: Karakas (3875 min nəfər)
Rəsmi dil: ispan
Din etiqad: katolisizm (96%)
Pul vahidi: bolivar
Dövlət quruluşu: respublika

1917-ci ildə Venesuelada neft ehtiyatları kəşf edilmişdir. Keçən müddət ərzində yoxsul Venesuela materikin ən varlı ölkəsinə çevrilmişdir.

Venesuelanın şimalda Karib dənizinə, şərqdə Atlantik okeanına çıxışı vardır. Burada Venesuelaya aid olan 70-ə yaxın ada yerləşir. Ölkənin materikdə yerləşən hissəsi bir neçə coğrafi vilayətə ayrılır. Mərkəzdə yastı düzənlik olan lyanosun bitki örtüyü ayrı-ayrı sahələrdə kolluqlar və ağac qrupları olan dənli bitkilərdən ibarətdir. Cənub və cənub-şərqini qranitdən təşkil olunmuş Qviana yaylası tutur. Burada əhalinin sıxlığı azdır, dəmir və manqan filizlərinin yataqları kəşf edilmişdir. Lyanos zonası və Qviana yaylasının çox hissəsi uzunluğu 2740 km olan Orinoko çayının hövzəsində yerləşir. Venesuelanın şimal hissəsi ensiz sahilboyu düzənliklərdən və yüksək dağlardan, o cümlədən And dağlarının iki qolundan təşkil olunur. Venesuelanın Kolumbiya ilə sərhəddinin bir hissəsi bu dağlardan keçir. Dağlarda ölkənin ən yüksək zirvəsi – Bolivar piki (5007 m) yerləşir. Bu silsilələr arasında Marakaybo gölünü əhatə edən bataqlıqlardan ibarət ovalıq vardır. Ölkədə subekvatorial, ekvatorial, dağlarda mülayim iqlim hakimdir. Orta aylıq temperatur 28°C-dir. Marakaybo gölü əslində Karib dənizinin iri dayaz sulu laqunudur. Göl Venesuela körfəzindən cənuba doğru təxminən 210 km məsafədə uzanır. Bu su hövzəsinə çoxlu sayda çay tökülür. Onlardan bəziləri mühüm gəmiçilik yolu kimi istifadə olunur. Göldə və onun ətrafında neft ehtiyatlarının kəşf edilməsi Venesuela təsərrüfatının yenidən qurulmasına imkan vermişdir. İlk quyu 1914-cü ildə qazılmışdır. 1975-ci ildə neft hasilatı milliləşdirildi. Son vaxtların məlumatlarına əsasən Venesuela neft ehtiyatlarına görə dünyada birinci yeri tutur. Ölkədə gün ərzində 2,6 mln. barrelə qədər neft hasil olunur. Gölün ətrafında neftayırma zavodları və neft terminalları yaradılmışdır. Onlar Marakaybo gölünün sahillərindəki Kabimas və Marakaybo limanı kimi iri şəhərlərin inkişafına səbəb olmuşdur. Venesuela çox sayda faydalı qazıntılarla zəngin olsa da, xam və emal edilmiş neft ölkənin ixrac gəlirlərinin 4/5 hissəsini verir. Venesuela ərazisi ispanların işğalına qədər hindu tayfaları tərəfindən məskunlaşmışdır. X.Kolumb 1 avqust 1498-ci ildə Venesuela sahillərinə ayaq basan ilk avropalı olmuşdur. Bu, onun Yeni Dünyaya üçüncü ekspedisiyası zamanı olmuşdur. Yerli əhalinin suda diraklər üzərindəki evlərini gördükdə səyyah yeni əraziləri Venesuela, yəni "Kiçik Venetsiya" adlandırdı. XIX əsrin əvvəlinə qədər ölkə İspaniyanın hakimiyyəti altında olmuşdur. XVII əsrin sonu və XVIII əsrin əvvəlində müstəqillik uğrunda hərəkat başlanmışdır. Lakin yalnız

Venesuelada Ros-Rokes arxepelaqı

1821-ci ildə üsyançılar general Simon Bolivarın başçılığı ilə ispanlar üzərində qələbə çaldılar. Venesuela Ekvador və Kolumbiya ilə birlikdə Böyük Kolumbiya Respublikasını yarandı. 1830-cu ildə Venesuela Böyük Kolumbiyadan ayrıldı və müstəqil dövlətə çevrildi. Hindu və Avropa mənşəli qarışıq əhali (metislər) bütün əhalinin 2/3 hissəsini, təmiz yerli amerikalılar, əhalinin yalnız 2%-ni təşkil edir. Yanomama hinduları Cənubi Venesuelada və Şimali Braziliyanın ətraf rayonlarında, Orinoko çayı sahillərinin meşələrində yaşayırlar. Yanomamaların sayı 10 min nəfərdən 17 min nəfərə qədərdir. Venesuelada istifadə edilməyən torpaqlar geniş ərazi tutur. Ölkənin yarısında çöllər, 2/5-də müxtəlif tipli meşələr yayılmışdır. Becərilən torpaqlarda banan, qarğıdalı, çəltik, tərəvəz, gül, maniok, qəhvə, yukka (zanbaq fəsiləsindən lifli bitki) və kakao əkilir. Ölkədə 15 mln. başa yaxın iri buynuzlu mal-qara, 4,5 mln. baş donuz, 4 mln. baş keçi saxlanılır. Venesuelalıların 93%-i şəhərlərdə yaşayır. Ölkənin ən böyük şəhəri və paytaxtı Karakasdır. Əsası 400 il əvvəl qoyulmuşdur. Şəhər mənzərəli vadidə, dəniz səviyyəsindən 900 m yüksəklikdə yerləşir. Neft yataqlarının kəşf edilməsindən sonra Karakas yüksək səviyyəli müasir şəhərə çevrilmişdir. Böyüklüyünə görə ikinci şəhər olan Marakayboda 1,25 mln. nəfərdən çox əhali yaşayır və neft hasilatı mərkəzidir.

Kolumbiya Respublikası

Sahəsi: 1141568 km²
Əhalisi: 45,5 mln. nəfər (2010)
Paytaxtı: Boqota (Santa-Fe-de-Boqota, 8494 min nəfər)
Rəsmi dil: ispan
Dini etiqad: katolisizm (90%)
Pul vahidi: Kolumbiya pesosu
Dövlət quruluşu: respublika

Nadir təbiəti, məhsuldar torpaqları, faydalı qazıntıların zəngin ehtiyatlarına baxmayaraq, Kolumbiya siyasi qeyri-sabitliyin mənfi təsiri ilə əlaqədar çoxsaylı problemlərlə qarşılaşır. Paytaxt Boqota iki dağ arasındakı maili düzənlikdə yerləşir. Şəhərdə Cənubi Amerikada ən qədim iki universitet vardır. Onlara əsası 1580-ci ildə qoyulan Santa-Tomas və əsası 1622-ci ildə qoyulan Xavyer Yepiskop Universitetləri aiddir.



Kolumbiyanın Cənubi Panama ilə olan qısa sərhəddi eyni zamanda Cənubi Amerika materikinin şimal sərhəddidir. Ölkənin qərb hissəsi

Maqdalena çayının mənsəbinə yaxın San-Avqustin arxeoloji parkında məlum olmayan sivilizasiyaya mənsub bir neçə yüz daş heykəl tapılmışdır

əsasən dağlıqdır. Buradan üç iri And silsiləsi - Şərqi, Mərkəzi və Qərbi Kordilyer sıra dağları yüksəlir. Silsilələr arasında dərin vadilər yerləşir. Bu vadilərdən şərqdə olan dərə üzrə Maqdalena çayı şimala doğru axır. Üç And silsiləsindən əlavə Qərbi Kolumbiyanın şimalını ayrıca Syerra-Nevada-de-Santa-Marta dağlıq sistemi tutur. Bu, dünyada ən yüksək sahilboyu silsilədir, onun ən yüksək zirvəsi olan Kristobal-Kolon (5775 m) eyni zamanda Kolumbiyanın ən yüksək nöqtəsidir. Ölkə ərazisinin yarısından çoxunu düzənliklər tutur. Lyanosdan cənuba doğru Amazon çayının hövzəsinin tərkibinə daxil olan ovalıqlar yerləşir. Onlar sıx rütubətli tropik meşələrlə örtülüdür. Bu regionun çayları hövzənin uzaqda olan vilayətləri ilə ən mühüm, bəzən yeganə əlaqə vasitəsidir. Ölkə ekvatorial və subekvatorial enliklərdə yerləşdiyinə görə əsasən tropik iqlim hakimdir və il ərzində az dəyişir. Lakin ərazilərin mütləq hündürlüyündən və onun dağ silsilələrinə nisbətən yerləşməsindən asılı olaraq temperatur və yağıntılarda böyük fərqlər vardır. 3000 m-dən yuxarıda iqlim soyuqdur, temperatur -18°C-dən 13°C-yə qədər dəyişir. And dağlarında 4500 m-dən yuxarı dağ zirvələri daimi buz və qarla örtülüdür. Kolumbiyada, düzənliklərdə yağıntılı və quru mövsüm, dağlarda iki quru, iki yağıntl mövsüm yaranır. Kolumbiya çoxsaylı bitki və heyvanların vətənidir, dünyanın bioloji cəhətdən ən müxtəlif tipli ölkələrindən biri hesab olunur. Burada 130 mindən çox bitki növü müəyyən edilmişdir. Düzənliklərdə və alçaq dağlıq qurşaqda meymun, puma, yaquar, pekar, tapir, armadil, oxlu kirpi, tənbəl, opossum, ilan və kərtənkələnin müxtəlif növləri, çaylarda timsah, tısbağa və balıqlar yaşayır. Kolumbiyada 1500-dən çox quş növü müəyyən edilmişdir. Bu, dünyanın hər hansı ölkəsində olan göstəriciyə nisbətən çoxdur. 1990-1995-ci illərdə otlaq və əkin sahələrinin genişləndirilməsi və oduncaq tədarükü üçün ağacların qırılması nəticəsində meşələrin sahəsi 1,3 mln. ha azalmışdır. Əhalinin tərkibində metislər – hindular və ağ dərililər arasındakı qarışıq nikahdan olanların nəsilləri üstünlük təşkil edir (58%). Əhalinin 10%-dən azı təmiz hindulardır, bəzi kiçik hindu qrupları hətta öz ana dilini saxlaya bilmişdir. Kolumbiya mis, qurğuşun və civənin böyük ehtiyatına malikdir. 2008-ci ildə başlıca olaraq kiçik yataqlarda 45 ton qızıl hasil edilmişdir. Boqotadan şimal-şərqdə zümrüd çıxarılır. Kolumbiya kömür ehtiyatlarına görə Cənubi Amerikada birinci yeri tutur. Neft mədənləri orta hesabla sutkada 670 min barrel neft verir. Neft yataqlarının əksəriyyəti Maqdalena vadisində və Venesuela ilə sərhəddə yaxın yerləşir. Elektrik enerjisinin 70%-i sürətlə axan çoxsaylı dağ çayları üzərindəki SES-lərdə istehsal olunur. Kolumbiya müxtəlif iqlim zonalarında yerləşən məhsuldar torpaqlara malikdir. Kənd təsərrüfatında əhalinin 18%-dən çoxu məşğul olur. Ən mühüm əmtəəlik bitki qəhvədir. And dağlarının yamaclarında qəhvənin xüsusi ətirli növü becərilir. Qərbi Kolumbiyada yerləşən Manisales şəhəri qəhvə, kakao, qızıl satışında və ixracında mühüm mərkəzdir. Banan, pambıq, qarğıdalı, çəltik və kartof mühüm əhəmiyyət kəsb edir. Ən gəlirli bitki yarpaqlarından kokoin alınan koka və mari-xuana istehsalında istifadə edilən çətənədir. Kolumbiya bu narkotik maddələrin dünyada ən böyük istehsalçısıdır. Kolumbiya artıq on illərdir ki, vətəndaş müharibəsi şəraitində yaşayır.

Ekvador Respublikası

Sahəsi: 269 178 km²
Əhalisi: 14203 min nəfər (2010)
Əhalinin sıxlığı: 52 nəfər/km²
Paytaxtı: Kito (1,9 mln. nəfər)
Rəsmi dillər: ispan, keçua
Dini etiqad: katolisizm
Pul vahidi: ABŞ dolları
Dövlət quruluşu: respublika

Ekvador And ölkələri arasında sahəsinə görə ən kiçiyidir. Lakin çox təzadlı və müxtəlifliyi ilə fərqlənən bir ölkədir. Sakit okeanda yerləşən məşhur Qalapaqos adaları Ekvadora məxsusdur.

Ekvador üç coğrafi vilayətə bölünür, şərqdə və qərbdə dağlarla ayrılan düzənliklər yerləşir. Bu dağlar And silsiləsinə aid olan iki dağ sistemindən ibarətdir. Dağlarda hündürlüyü 4000 m-dən çox olan 22 zirvə və 30-a yaxın vulkan vardır. Onlar arasında hündürlüyün 5847 m olan Kotopaxi vulkanının konusu dünyada ən hündür fəaliyyətdə olan vulkanlardan biridir. Dağlardan qərbdə Sakit okeana çıxan düzənlik yerləşir. Sahilboyu manqr ağacları bitən geniş duzlu bataqlıqlar vardır. Sahilboyu ərazilərin şimal hissəsi əsasən tropik meşələrlə örtülüdür. Cənuba doğru iqlim quraqlaşır və bitki örtüyü seyrəlir. And dağlarından şərqdə Amazon ovalığının Ekvadora aid olan hissələri sıx rütubətli ekvatorial meşələrdir. Yağıntıların orta illik miqdarı cənubda 100 mm, And dağlarının şərq ətəklərində 6000 mm-dir. Orta illik temperatur 26°C, dağlarda 7°C-dən 21°C-yə qədərdir. Kənd təsərrüfatı və neft hasilatı əsas yer tutur. Becərilən bitkilərə banan, kakao, qəhvə, çəltik və şəkər qamışı aiddir. Ölkədə hər il 400 min ton balıq tutulur. Manqr bataqlıqlarında yengəc saxlanması üçün fermalar yaradılmışdır. Onlar mühüm ixrac məhsuluna çevrilmişdir. Ekvadorda 2,1 mln. baş qoyun saxlanılır. Ölkənin ən yüksək zirvəsi olan Çimboroso sönmüş vulkanının (6266 m) adı yerli keçua dilində "Qarlı dağ" deməkdir. Vulkanın 4600 m-dən yüksək sahələri daimi qar və buzla örtülüdür. Ekvadorda gündə 486 min barrel neft hasil olunur. Ona

Boliviya, Peru və Ekvadorun yerli hindu xalqları lamalarla yük daşıyır, onun ətindən ərzaq kimi istifadə edir, yunu və dərisindən paltar, piyindən şam hazırlayırlar.

görə neft Ekvadorun ixracatında əsas məhsul olaraq qalır. Dağ çayları elektrik enerjisinin 70%-dən çoxunun SES-lərdə istehsal edilməsinə imkan verir. Dağlarda mədən sənayesi əsasən cənubda Oryente vilayətində cəmlənmişdir. Burada 1995-ci ildən qızıl hasilatının artımı müşahidə edilir. Ekvador XIX əsrdə müstəqillik qazanmış, 1904-1942-ci illərdə Peru ilə olan müharibə nəticəsində böyük ərazilər itirmişdir. Ekvadorda yerli hindu əhalisinin payı 25% təşkil edir. Onların əksəriyyəti keçua dilində danışırlar. Əhalinin daha 65%-i qarışıq Avropa və hindu mənşəli insanlardır. Ölkədə şəhər əhalisinin payı 66%-ə qədər artmışdır. Cənubi Amerikanın paytaxt şəhərlərindən ən qədimi olan Kito-da müstəmləkə dövründən ispan üslubunda olan binalar, o cümlədən 86 kilsə qalmışdır. Okeanın sahilində yerləşən Quayakil ölkənin ən böyük şəhəri və əsas ticarət-sənaye mərkəzidir. Şəhərdə 2,5 mln. nəfərdən çox əhali yaşayır.

Qalapaqos adaları

Qalapaqos sahildən təxminən 1000 km məsafədə yerləşir, 19 adadan, çoxsaylı kiçik adalar və qayalardan ibarətdir. Onların çoxu soyumuş lavadan əmələ gəlmişdir. Adaların sahilləri də lava ilə örtüldüyünə görə burada bitki örtüyü xeyli kasıbdır. Bəzi yerlərdə inklərə aid keramika (saxsı) qalıqları tapılmışdır. Lakin Qalapaqos daimi məskunlaşmamış ada olmuşdur. Digər quru sahələrindən təcrid olunmuş adalarda çoxlu sayda qeyri-adi bitki və heyvan növlərinə rast gəlinir. Güman edilir ki, Qalapaqos adalarında olan fauna bura Cənubi və Mərkəzi Amerikadan gəlmiş, onlar yerli şəraitə adaptasiya olunmuş (uyğunlaşmış), yeni növlər yaranmışdır. Məsələn, dəniz iquanası yeganə üzə bilən və yosunla qidalanan kərtənkələ növüdür. Digər qeyri-adi varlıqlara uça bilməyən qarabattaq və fil tısbağaları, həmçinin ekvatorial enliklərdə yaşayan yeganə pinqvin növü olan qalapaqos pinqvinləri aiddir. Adalarda yaşayan fil tısbağalarının uzunluğu metrdən, çəkisi 250 kq-dan çoxdur, 100 ildən çox yaşaya bilir. Onlar quruda yaşayan heyvanlar arasında ən uzunömürlüdürlər. Nadir təbii mühitin qorunub saxlanması üçün Ekvadorun hakimiyyət orqanları adalara gələnlərin sayını məhdudlaşdırır.

Peru Respublikası

Sahəsi: 1285216 km²
Əhalisi: 29,5 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 23 nəfər/km²
Paytaxtı: Lima (8473 min nəfər)
Rəsmi dillər: ispan, keçua, aymara
Dini etiqad: katolisizm (90%), protestantlıq (10%)
Pul vahidi: yeni sol
Dövlət quruluşu: respublika

Peru Cənubi Amerikanın sahəsinə görə üçüncü ölkəsidir. Sakit okeanın sahilləri boyu yerləşən ölkənin daxili rayonlarının landşaftını And dağları müəyyən edir.

Peru üç coğrafi vilayətə bölünür. Onlara Sakit okeanın sahilləri, And dağlarının şərq yamacları və Amazon çayının hövzəsindəki düzənliklərin olduğu selva aiddir. Vilayətləri bir-birindən ayıran dağlıq sahə syerradır. Ensiz sahilboyu düzənlik təxminən 2410 km uzanır. Düzənlikdə səhra landşaftı yaranır (Limada 50 mm yağıntı olur). Buna baxmayaraq, sahilboyu vadilərdə müasir irriqasiya texnologiyasına əsaslanan kənd təsərrüfatı inkişaf etmişdir. Əksinə, cəngəlliklərdə bol yağıntı düşür və ayrı-ayrı yerlərdə il ərzində 3800 mm-ə çatır. Selva Peru ərazisinin yarısından çoxunu tutur. Düzənliklər rütubətli ekvatorial meşələrlə örtülüdür. Sıx meşələrlə örtülü düzənliklər Amazon hövzəsinin bir hissəsidir. Burada Perunun ən uzun çayları olan Ukayali və Maranyon axır. İkitos şəhərindən 80 km cənubda bu çaylar qovuşur və Amazon çayını əmələ gətirir. And dağları Peru ərazisinin təxminən 30%-ni tutur, burada 4850 m-dən yuxarı qalxan 170-dən çox zirvə vardır. Temperatur yüksəklikdən asılı olaraq -7°C-dən 21°C-yə qədər dəyişir. Peru və Boliviyanın sərhəddində dəniz səviyyəsindən (3812 m) hündürlükdə Titikaka gölü yerləşir. Sahəsi 8500 km² olan Titikaka dünyada ən hündürdə olan göldür. Peru bir neçə qədim mədəniyyətin, o cümlədən naska, çimu və çavin sivilizasiyasının vətənidir. Ölkə həmçinin Böyük İnklər imperiyasının mərkəzi olmuşdur, onun paytaxtı Perunun cənubunda Kusko şəhərində yerləşirdi. İnklərin müqəddəs vadisində Kusko şəhəri də daxil olmaqla çoxlu sayda qədim şəhərlər, Saksauaman və Maçu-Pikçu kimi nəhəng daş qalalar yerləşir. İspanların işğalı dövründə olan böyük dağıntılara baxmayaraq, Perunun bir çox rayonlarında inklərin qədim sivilizasiyasının izləri qalmışdır. Onlar ölkəyə gələn milyonlarla turistin baş çəkdiyi əsas mərkəzlərdir. Görməli yerlərdən biri 1911-ci ildə arxeoloqlar tərəfindən açılmış qədim Maçu-Pikçu qala-şəhəridir. Şəhər dağların yuxarı hissəsində, qayalarda yonulmuş terraslarda yerləşir. Peru əhalisinin 37%-ə qədəri qarışıq avropalı və hindu mənşəli olanlardır. Əhalinin ən böyük hissəsini (45%) yerli amerikalılar təşkil edir. 1975-ci ilə qədər yeganə rəsmi dil ispan dili olmuşdur. Sonra ona hindu keçua dili də əlavə edilmişdir. 1980-ci ildə daha bir yerli aymara dili də rəsmi dil olmuşdur. Peruda hindular yalnız dillərini deyil, həm də özünəməxsus mədəniyyətlərini, o cümlədən geyimlərini qoruyub saxlamışlar. Perunun təsərrüfatının ən mühüm sahələri neft və təbii qaz, həmçinin metal filizlərinin hasilatıdır. Ölkə dünyanın ən böyük gümüş, qurğuşun və mis hasilatçıları sırasına daxildir. Suvarılan torpaqlarda müxtəlif bitkilər, əsasən də qarğıdalı, şəkər qamışı, pambıq, çəltik və kartof becərilir. Alternativ bitkilərin becərilməsi sahəsində hökumətin təşəbbüslərinə baxmayaraq, Perunun şərq rayonlarında kokain istehsalı üçün istifadə edilən koka ən mühüm bitki olaraq qalır. Balıqçılıq da mühüm əhəmiyyət kəsb edir. Lakin kənd təsərrüfatı kimi bu sahəyə də El-Nino cərəyanı böyük ziyan vurur. Bu mövsümi isti cərəyan Peru sahillərində balıqların sayının kəskin azalmasına səbəb olur, əkinləri məhv edən böyük daşqınlar və sürüşmələr əmələ gətirir. Sənayedə qara və əlvan metallurgiya, neft emalı, kimya, toxuculuq, gön-dəri sahələri inkişaf edir.

Boliviya Çoxmillətli Dövləti

Sahəsi: 1098581 km²
Əhalisi: 10,6 mln. nəfər (2010)
Paytaxtı: rəsmi olaraq Sukre (265 min nəfər), faktiki olaraq La-Pas (1726 min nəfər)
Rəsmi dillər: ispan, keçua, aymara
Dini etiqad: katolisizm (90%)
Pul vahidi: boliviano
Dövlət quruluşu: respublika

Boliviya Cənubi Amerikanın kasıb ölkələrindən biridir. Ölkə əhalisinin çox hissəsi And dağlarının silsilələri arasında yerləşən yüksək dağlıq Altiplano platosunda yaşayır.

Boliviya materikin mərkəzində yerləşir və okeana çıxışı yoxdur. Ölkədə ən böyük su

hövzəsi Peru ilə sərhəddə olan Titikaka gölüdür. Dağlar Boliviyanın qərb hissəsində təxminən şimaldan cənuba doğru uzanır. Ən qərbdə yerləşən silsilədə bir sıra fəaliyyətdə olan vulkan vardır. Boliviyanın hər iki paytaxtının yerləşdiyi şərqdəki silsilə daha sıx məskunlaşmışdır. Onun şərq yamacları sıx meşələrlə örtülüdür. Bu region Boliviyada olan Andların ən rütubətli hissəsidir. Burada hər il 1350 mm-ə yaxın yağıntı düşür. Yağıntılar bir qayda olaraq il ərzində cəmi üç ay olur. Şərqə və şimala doğru getdikcə Oryente adlanan geniş ovalıq başlanır. Boliviyada Andın iki silsiləsi arasında yerləşən Altiplano platosunun uzunluğu 800 km-ə yaxın, eni 320 km-dən çoxdur. Altiplano dəniz səviyyəsindən 3650 m-ə qədər yüksəklikdə olan bir sıra çökəkliklərdən ibarətdir. Onlardan ikisini Titikaka və Poopo gölləri tutur, qalan bir neçəsində şoranlıqlar yerləşir. Yay tufanlarını yanvar və fevralda yağıntılar gətirir. Platoda soyuq küləklər əsir. Ona görə burada orta temperatur 12°C-dən yuxarı qalxmır, qışda 0°C-dən aşağı düşür. Torpaqlar az məhsuldardır, onların üzərində əsasən otlar, kolluqlar və quru ağaclar bitir. Lakin belə sərt təbii şəraiti olan ərazilərdə hindu keçua və aymaraların 70%-ə qədəri yaşayır. Onların bir hissəsi şəhərlərdə yaşayır və Oruro yaxınlığındakı mədənlərdə işləyir, digərləri torpaqları becərir, alpaka və lama sürüləri otarır. Kənd təsərrüfatı bitkilərinə qarğıdalı, qəhvə, şəkər qamışı, kakao, koka, pambıq, kartof, buğda və soya aiddir. Onlar əsasən daxili istehlak üçün istifadə olunur. Boliviya hökuməti insanları Altiplanodan Oryente əyalətinə köçürməyə çalışır. Burada yanacaq faydalı qazıntıların kəşf edilməsi, iri miqyaslı meşə tədarükü aparılması, tropik bitkilərin becərilməsi iqtisadi artıma imkan verir. Hazırda Oryente Boliviyanın iqtisadi inkişafının əsas mərkəzidir. Oryentenin əsas şəhəri olan Santa-Krusda və onun ətraflarında əhalinin sayı xeyli dərəcədə artmışdır. XVI əsrdə ispan işğalçıları Boliviyaya gəldikdə burada böyük gümüş yataqları kəşf etdilər. Potosidə olan mədənlər dünyada ən böyük yataqlar kimi məşhur oldu. 1895-ci ildən ölkədə hasil edilən əsas metal qalaydır. Boliviya XX əsrin birinci yarısında dünyada ən böyük qalay istehsalçısı olmuşdur və indiyə qədər ilk onluğa daxildir. Burada gümüş ehtiyatları çoxdan tükənmişdir. Hazırda digər faydalı qazıntıların hasilatı genişlənir. 1980-ci illərdə ən mühüm mineral-xammal rolu qalaydan sinkə keçmişdir. Digər hasil edilən metallar arasında volfram, uran, mis və qurğuşun vardır. Ölkədə neft-qaz ehtiyatlarının olmasına baxmayaraq, elektrik enerjisinin yarıya qədəri SES-lərdə istehsal olunur. Təbii qaz Boliviyanın ən mühüm ixrac məhsuludur, onun payına valyuta gəlirinin 50%-dən çoxu düşür. 1825-ci ildə müstəqillik əldə edilməsindən və 1826-cı ildə ilk konstitusiyanın təsdiq edilməsindən sonra ölkədə 190-a yaxın dövlət çevrilişi olmuş, 17 konstitusiya fəaliyyət göstərmişdir. Əhalinin 40%-i kənd təsərrüfatında çalışır, özlərini qida ilə təmin etmək üçün əkinçiliklə məşğul olur, heyvan saxlayır, çətinliklə yaşayış üçün vasitələr əldə edirlər. Boliviya kəndliləri koka becərirlər. O, qadağan edilmiş kokain istehsalı üçün istifadə edilir. La-Pas ən yüksək dağlıq zonada yerləşən paytaxt şəhəridir. Şəhər 3250 m-dən 4100 m-ə qədər yüksəklikdədir. La-Pas ölkənin əsas sənaye mərkəzidir. Burada Boliviyanın bütün emal sənayesinin 2/3-dən çoxu cəmlənmişdir.

Çili Respublikası

Sahəsi: 756 626 km²
Əhalisi: 17,3 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 22,9 nəfər/km²
Paytaxtı: Santyaqo (6886 min nəfər), qanunverici orqan Valparaisoda yerləşir (804 min nəfər)
Rəsmi dillər: ispan, araukan
Dini etiqad: katolisizm (89%), protestantlıq (11%)
Pul vahidi: Çili pesosu
Dövlət quruluşu: respublika

Çilidə praktiki olaraq cənub yarımkürəsinin bütün təbii və iqlim zonaları mövcuddur. Dinamik olaraq inkişaf edən bu ölkədə vulkanlar, buzlu səhralar və mülayim iqlimi olan düzənliklər vardır.

Çili digər ölkələrə nisbətən Sakit okeana daha geniş məsafədə çıxır. Sakit okeanın cənub hissəsində, materikdən 3700 km aralıda yerləşən Pasxa adası, materikə yaxın bir neçə digər adalar, həmçinin ucqar cənubda olan Odlu Torpaq adasının qərb hissəsi də ölkəyə aiddir. Ölkənin ərazisi şimalda Arika şəhərindən cənubda Horn burnuna qədər 4300 km uzanır. Bununla belə onun eni heç yerdə 360 km-i ötmür, orta hesabla 175 km-dir. Çilinin landşaftında And dağları üstünlük təşkil edir, dağlar bütün ölkəni kəsib keçir. And dağlarının yamaclarında il boyu

And dağları dünyanın ən böyük dağlıq qurşaqlarından biridir

dağ-xizək kurortları fəaliyyət göstərir. Ölkənin şimal tropik rayonlarında dünyanın ən quraq yerlərindən biri olan Atakama səhrası yerləşir. Orta temperatur 12°C-dən 22°C-yə qədər-dir. Onun bəzi rayonlarında heç vaxt yağıntı olmur. Atakamadan cənubda Çilinin əksər şəhərləri və kənd təsərrüfatı torpaqlarının olduğu mərkəzi vadilər təsərrüfat cəhətdən ən inkişaf etmiş ərazilərdir. Burada ölkə əhalisinin 75%-ə qədəri toplanır. Cənuba getdikcə vadinin mülayim iqlimi soyuq iqlimlə əvəz olunur. Orta temperatur 3°C-dən 14°C-yə qədər olur. Burada çoxlu yağıntı düşür, ayrı-ayrı yerlərdə il ərzində 2000-4000 mm-ə qədər, hətta 7000 mm olur. Çili əhalisinin əksəriyyəti metislərdir. Yerli amerikalılar, əsasən, hindu araukanlar Çilidəki And dağlarının şimal rayonlarında və ölkənin cənub sahillərində yaşayırlar. Ölkənin əsas limanı Valparaisodur. Çilinin təsərrüfatının əsasını faydalı qazıntıların, o cümlədən duz və metalların hasilatı təşkil edir. Çili dünyada ən böyük mis istehsalçısı olaraq qalır, toxuculuq, balıq emalı, kustar sənaye sahələri vardır, avtomobil yığılır. Ölkənin mərkəzində buğda, qarğıdalı, kartof, ixrac üçün meyvə və bütün dünyada məşhur olan çili şərabları üçün üzüm becərilir. And dağlarından sürətlə axan çaylarda tikilmiş SES-lərdə elektrik enerjisinin yarısından çoxu istehsal olunur.

Cənubi Amerikanın şimal-şərqi Qayana

Sahəsi: 215 083 km²
Əhalisi: 784,8 min nəfər (2009)
Əhalinin sıxlığı: 3,7 nəfər/km²
Paytaxtı: Corctaun (138 min nəfər)
Rəsmi dillər: kreol, ingilis, karib
Dini etiqad: hinduizm, katolisizm, protestantlıq, anqlikan kilsəsi
Pul vahidi: Qayana dolları
Dövlət quruluşu: respublika

Böyük Britaniyanın mütəmləkəsi olan Qayana 1966-cı ildə müstəqillik qazanmışdır. "Qayana" yerli hindu dilində "çoxlu çaylar ölkəsi" deməkdir.

Qayananın daxili vilayətləri sıx meşələrlə (80%-i) örtülüdür. Burada insan yaşamır. Əhalinin 90%-i Atlantik okeanının sahilləri boyu nisbətən ensiz düzənliklərdə yaşayır. Bu torpaqların bir hissəsi dəniz suyunun qurudulması nəticəsində əldə edilmişdir. Bunun üçün 200 km-dən çox bənd və kanal çəkilmişdir. Eni 64 km-dən çox olmayan sahilboyu düzənliklərdə çəltik, şəkər qamışı, kokos, banan, sitrus meyvələri, buğda və qəhvə becərilir. Qayananın qalan hissəsini

Qayanada Kayetur şəlaləsi

kristallik süxurlardan təşkil olunan Qviana yaylası tutur. Qayana bolsulu çaylar ölkəsidir. Lakin bu çaylar mənsəbdə olan çöküntülər və orta axarda olan astanalara görə uzun məsafədə gəmiçiliyə yararlı deyildir. Qayananın ən uzun çayı Essekibodur. Çayın uzunluğu 1010 km olsa da, yalnız 65 km məsafədə kiçik gəmilər üzür. Qayananın bir çox çaylarında almaz hasilatı aparılır. Lakin Qayananın əsas faydalı qazıntısı boksitdir.

Qayanada ilk müstəmləkəçilər hollandlar olmuşdur. Onlar 1615-ci ildə Essekibo çayı sahillərində yaşayış yerinin əsasını qoymuşlar. Hollandlar müxtəlif bitkilər, o cümlədən şəkər qamışı və kakao becərir, Afrikadan qullar gətirirdilər. XIX əsrin əvvəlində İngiltərə holland müstəmləkələri olan Berbis, Demeraru və Essekibonu işğal etdi. 1831-ci ildə bu ərazilər Britaniya Qvianasına çevrildilər. 1834-cü ildə quldarlığın ləğv edilməsi ilə yaranan işçi qüvvəsi çatışmazlığını aradan qaldırmaq üçün Avropa, Afrika və Asiyadan, əsasən də Hindistandan fəhlələr gətirilirdi. Bu gün Qayana əhalisinin yarısını hindilərin nəsilləri təşkil edir, 43%-i Afrika mənşəlidir.

Surinam Respublikası

Sahəsi: 163 270 km²
Əhalisi: 524,4 min nəfər (2009)
Əhalinin sıxlığı: 3,2 nəfər/km²
Paytaxtı: Paramaribo (243 min nəfər)
Rəsmi dillər: Surinam kreolu, hindi, holland
Dini etiqad: hinduizm (27,4%), katolisizm (22,8%), islam (sünni təriqəti, 19,6%)
Pul vahidi: Surinam quldeni
Dövlət quruluşu: respublika

Surinamın əhalisinin sayı çox deyildir. Lakin Cənubi Amerikada əhalinin ən mürəkkəb etnik tərkibi burada müşahidə olunur.

Surinam üç coğrafi vilayətdən ibarətdir: ensiz və bəzi yerlərdə bataqlıq olan sahilboyu düzənlik, otlardan ibarət olan savannalar, meşələrlə örtülmüş kiçik plato və geniş ərazi tutan sıx tropik meşələr. Rütubətli meşələr ölkə ərazisinin 90%-ni tutur. Surinamda ən böyük süni su hövzəsi Brokoponda su anbarıdır ki, burada SES də yaradılmışdır. Kənd təsərrüfatı üçün torpaqların az bir hissəsi yararlıdır. Kənd təsərrüfatı məhsullarının 60%-ni çəltik təşkil edir, həmçinin, şəkər qamışı, banan, sitrus meyvələri, qəhvə, kakao becərilir. Surinamın təsərrüfatının əsasını alüminium filizinin-boksitin hasilatı, emalı və ixracı təşkil edir. Az miqdarda ağac tədarük olunur. 1651-ci ildə ingilislər Surinam çaylarının sahillərində plantasiya yaratdılar və yaşayış məntəqəsinin əsasını qoydular. Hazırda onun yerində Panamaribo şəhəri yerləşir. 1667-ci ildə İngiltərə və Niderland Amerikada öz müstəmləkələrini dəyişdilər, ingilislər Surinamda olan torpaqlarını verib əvəzində Yeni Amsterdam (indiki Nyu-York) koloniyasını aldılar. Plantasiyalarda işləmək üçün Afrikadan, Asiyadan qullar gətirirdilər. Əhalinin 37%-ə qədəri hindli, 31%-i kreol, 15%-i indoneziya mənşəlidir. Surinamda çoxlu sayda çinli yaşayır, həmçinin yerli tayfaların nümayəndələri də vardır. Niderland Surinama 1975-ci ildə müstəqillik vermişdir. Bununla yanaşı, ölkəyə hərtərəfli kömək göstərməyə davam edir, turistlərin 80%-i hollandlardır. 1991-ci ilə qədər ölkədə siyasi qeyri-sabitlik olmuşdur.

Fransa Qvianası

Sahəsi: 86504 km²
Əhalisi: 213 min nəfər (2009)
İnzibati mərkəz: Kayenna (77 min nəfər)
Rəsmi dil: fransız
Dini etiqad: katolisizm
Pul vahidi: avro
Dövlət quruluşu: Fransanın mülkü



Qviana Fransanın xarici departamentidir. Ölkə sahilboyu düzənliklərin ensiz zolağını tutur. Düzənliklər yaylalara keçir. Onlar sıx tropik meşələrlə örtülüdür.

Qviana Cənubi Amerikada sonuncu Fransa müstəmləkəsidir. Maroni çayı boyu torpaqlar Surinam və Fransa Qvianası arasında mübahisə obyektidir. Ölkənin çox hissəsi rütubətli tropik meşələrlə (90%-ə qədəri) örtülüdür. Meşələrdə ağac tədarükü aparılır. Meşə müstəmləkənin bir çox sakinləri üçün qidalanma mənbəyidir. Bura-

da meymun, tapir, qarışqayeyən, oselot (vəhşi pişik), yaquar və çoxsaylı sürünənlər, o cümlədən kayman (timsah növlərindən biri) yaşayır. Qviana da tropik iqlim hakimdir, xüsusilə, ölkənin daxilinə bol yağıntı düşür. Rütubətli mövsüm yanvardan iyuna qədərdir. Okean sahilində yerləşən inzibati mərkəz Kayennada il ərzində 3800 mm-ə qədər yağıntı düşür. Qviana banan, şəkər, alüminium filizi və meşə materialı ixrac edir. Ölkə ərazisinin yalnız 1%-i becərilir. Ona görə tələbatı ödəmək üçün ərzaq idxal edilir. Fransızlar Kayennada 1637-ci ildə ilk koloniya yaratmışlar. 1852-ci ildən sonrakı 100 il ərzində Qviana həbsxanalar ilə məşhur olmuşdur. Atlantik okeanında kiçik adada – Şeytan adasında yerləşən həbsxanaya Fransadan ən təhlükəli cinayətkarlar sürgün edilmişdir. 1946-cı ildə Qviana Fransanın xarici departamenti statusu almışdır. Fransa parlamentində Qviana 2 deputat və 1 senatorla təmsil olunur. Kuru şəhərində kosmik tədqiqatlar üzrə Fransa Milli Mərkəzi və Kosmodrom yerləşir. Kuru Avropa Kosmik Agentliyinin səyi nəticəsində dünyanın ən mühüm kosmodromlarından birinə çevrilmişdir. Kosmodromdan raketlər buraxılması Kuru ətrafında minlərlə turist toplayır. Qviana əhalisinin əksəriyyəti sahillərdə yaşayır. Onlar əsasən kreollardır. Ölkənin daxilindəki tropik meşələrdə və yaylalarda yerli hinduların kiçik tayfaları yaşayır. Fransa Qvianada Cənubi Amerika üzrə ən yüksək həyat səviyyəsindən birini təmin edir.

La-Plata hövzəsi ölkələri
Paraqvay Respublikası

Sahəsi: 406 752 km²
Əhalisi: 6,6 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 16 nəfər/km²
Paytaxtı: Asunson (1,66 mln. nəfər)
Rəsmi dillər: ispan, quarani
Dini etiqad: katolisizm (90%)
Pul vahidi: quarani (qvarani)
Dövlət quruluşu: respublika

Paraqvay uzun illər dünyanın digər ölkələrindən təcrid olunmuşdur. Ölkə iki coğrafi vilayətə ayrılır. Onun cənub-şərqində əhali daha sıxdır.



Paraqvayın Argentina ilə olan sərhəddi Parana, Paraqvay və Pilkomayo çayları üzrə keçir. Bundan başqa Paraqvay çayı ölkəni kəskin fərqlənən iki coğrafi vilayətə ayırır. Çaydan şərqdə suvarılan məhsuldar ovalıqlar yerləşir. Vadilər üzərində ayrı-ayrı yerlərdə təpəliklər yüksəlir, Braziliya ilə sərhəddə onlar yüksək olmayan dağlara çevrilir. Paraqvay çayından qərbdə Çako vilayəti yerləşir. Bura geniş ərazi tutan otluq düzənlikdir, dəniz səviyyəsindən orta hesabla 125 m yüksəklikdədir, ölkənin 60%-

Asunson şəhərində Prezident sarayı

dən çoxunu tutur. Rütubətli yay mövsümündə Çakonun böyük hissəsi sular altında qalır və bataqlığa çevrilir. Subtropik iqlim şəraitində iyulun orta temperaturu 18°C, yanvar 28°C-dir. Yağıntılar qərbdə 700 mm, şərqdə 2000 mm-dir. Paraqvay əhalisinin çox hissəsi hinduların nəsilləridir. Əhalinin yarısı kəndlərdə yaşayır və soya, qəhvə, kassava, pambıq, şəkər qamışı, buğda, banan, şirin kartof becərir. Paraqvayda 10,5 mln. baş iri buynuzlu mal-qara, həmçinin qoyun və at saxlanılır. Ölkədə yolların 50%-nin örtüyü yoxdur. Paraqvayın sənayesi ətraf ölkələrə nisbətən zəif inkişaf etmişdir. Bununla yanaşı, İtaypu SES-nin istehsal etdiyi elektrik enerjisi sənayenin inkişafına imkan verir. Asunson şəhəri yüksək olmayan təpələrdə, Paraqvay çayının sahilində, Pilkomayo çayının ona töküldüyü yerdə salınmışdır. Şəhər Syudad-del-Este ilə birlikdə ölkənin əsas sənaye və ticarət mərkəzləridir.

Argentina Respublikası

Sahəsi: 27668.90 km²
Əhalisi: 40,5 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 15 nəfər/km²
Paytaxtı: Buenos-Ayres (3,0 mln. nəfər, şəhərətrafı ilə 14,0 mln. nəfər)
Rəsmi dil: ispan
Dini etiqad: katolisizm (90%)
Pul vahidi: peso
Dövlət quruluşu: respublika

Argentina Cənubi Amerikada sahəsinə görə ikinci ölkədir. Ölkənin geniş çəmənliklərində otarılan mal-qaranın sayına görə Argentina dünyada ilk yerlərdən birini tutur. Vaxtaşırı baş verən iqtisadi böhranlar ölkənin iqtisadi inkişafında böyük problemlər yaradır.

Argentina Cənubi Amerikanın cənub-şərq hissəsini tutur. Ölkənin ərazisində 4 təbii vilayət ayrılır. Hündürlüyü 6960 m olan Akonkaqua zirvəsinin də daxil olduğu And dağları onun qərbində yerləşir. Argentina Andları zəif məskunlaşmışdır. Şimalda olan Qran-Çakonun Argentinaya məxsus olan hissəsində geniş düzənliklər, meşələr və bataqlıqlar vardır. Ondan

Argentinada olduğu kimi az sayda ölkədə polo oyunu (at üstündə top oyunu) yayılmışdır. Polo üçün dünyada ən yaxşı poni (alçaq boylu at cinsi) Argentinada və ABŞ-ın cənub-şərqində bəslənir.

cənubda pampa, daha sonra Pataqoniya ayrılır. Argentina şimaldan cənuba təxminən 3300 km uzandığına görə ölkənin iqlimi müxtəlifdir. Şimal-şərqdə kiçik rayon tropik iqlim zonasında yerləşir, Qran-Çako subtropik zonaya aiddir. Argentinanın böyük hissəsində mülayim iqlim üstünlük təşkil edir. Bu zonada cənuba getdikcə iqlim soyuyur. Yağıntıların miqdarı da müxtəlif yerlərdə eyni deyildir. Buenos-Ayresdə ildə orta hesabla 950 mm yağıntı düşür. Cənuba və qərbə getdikcə yağıntılar azalır. And dağlarında isti, quru zondas küləkləri əsir. Argentinanın ən cənub vilayəti olan Pataqoniya platosu şərqdə Atlantik okeanı sahillərindən Cənubi Andın ətəklərinə qədər uzanır, 777 min km² sahə tutur. Bir hissəsi Çiliyə aid olan Pataqoniyanın açıq çöllərində daim küləklər əsir, sərt iqlim şəraiti və kasıb bitki örtüyü ilə fərqlənir. Cənubi Pataqoniyanın iqlimi soyuq və qurudur. Burada il ərzində 250 mm-dən az yağıntı düşür. Buna səbəb soyuq Folklend cərəyanının keçməsidir. Belə şərait orada iri fermalar yaradılması, yonca, tərəvəz və meyvə əkilməsinə, çoxsaylı qoyun sürüləri saxlanmasına imkan verir. Argentinada saxlanan 15 mln. baş qoyunun xeyli hissəsi Pataqoniyanın payına düşür. Region üçün turizm mühüm əhəmiyyət kəsb etməyə başlayır. Argentinada 20-dən çox milli park yaradılmışdır. Onların əksəriyyəti qoruqlar və digər qorunan ərazilərlə birlikdə Pataqoniyada yerləşir. Lakin ölkənin təsərrüfatı üçün Pataqoniyada kəşf edilən iri neft-qaz, kömür, həmçinin metal filizi (dəmir, volfram, qurğuşun və qızıl) yataqları daha böyük əhəmiyyət kəsb edir. Pampa sözü keçua dilində "hamar (yastı) yer" mənasını verir. İqlim şəraitinə görə region iki hissəyə ayrılır. Daha rütubətli rayonlar okeana yaxın yerləşir. Burada yağıntıların miqdarı mülayimdən ifrat dərəcəyə qədər dəyişir, torpaq qatı qalındır, ağırdır və məhsuldardır. Pampanın quraq rayonları ölkənin daxilindədir. Onların sahəsi böyükdür, lakin az mənimsənilmişdir. Hazırda regionun çox hissəsi kənd təsərrüfatında istifadə edilir. Regionda baş sayı 52 mln.-dan çox olan iri buynuzlu mal-qara saxlanılır. İspan Sebastyan Kabo 1525-ci ildə ilk dəfə Argentina torpaqlarına ayaq basmış, Paraqvay və Panama çayları ilə şimala tərəf irəliləmişdir. Hindular tərəfindən verilmiş gümüş bəzək əşyaları onu inandırır ki, bu ərazilər gümüş ilə zəngindir. Argentina öz adını buradan almışdır (argentium-gümüş). 1580-ci ildə ispanlar Buenos-Ayresin yerində koloniyanın əsasını qoydular. 1806-1807-ci illərdə Böyük Britaniyanın basqın cəhdlərini dəf edən ölkə 1816-cı ildə İspaniyadan ayrılaraq müstəqil olduğunu elan etdi. Bundan sonra hakimiyyət uğrunda uzun müddətli mübarizə başlandı. 1870-ci ildə ölkənin yerli əhalisi ilə bir neçə müharibə oldu, nəticədə onların sayı kəskin şəkildə azaldı. Bu gün Argentinada cəmi 700 min nəfərə yaxın hindu yaşayır. XIX əsrin sonu, XX əsrin əvvəllərində Argentinaya Avropadan, əsasən də İtaliya, İspaniya, Böyük Britaniyadan, eləcə də Yaxın Şərqdən, ilk növbədə Suriya və Livandan immiqrantlar axıb gəldi. Onlar ölkənin kənd təsərrüfatını və infrastrukturunu – dəmir yolları və limanlarını yenidən qurdular. Argentinanın əhalisinin tərkibi digər ölkələrə nisbətən mürəkkəbdir. İtalyan-argentin, ingilis-argentin və yəhudi icmalarının sayı çoxdur. 2002-ci ildə olan iqtisadi böhrana qədər Cənubi Amerikanın digər ölkələri ilə müqayisədə Argentinada həyat səviyyəsi yüksək olmuşdur.

Uruqvay Şərq Respublikası

Sahəsi: 176 215 km²
Əhalisi: 3,6 mln. nəfər (2006)
Əhalinin sıxlığı: 20,4 nəfər/km²
Paytaxtı: Montevideo (1750 min nəfər)
Rəsmi dil: ispan
Dini etiqad: katolisizm (66%)
Pul vahidi: Uruqvay pesosu
Dövlət quruluşu: respublika

Uruqvay Cənubi Amerikanın cənubunda kiçik ölkədir. Onun relyefi düzənlik və alçaq təpələrdən ibarətdir. Torpaqların çox hissəsində otlaqlar yayılır. Uruqvay subtropik iqlim qurşağında yerləşir.

Burada bol yağıntısı (ildə 950 mm) olan mülayim-isti iqlim tipi hakimdir. Qışda (iyul) orta temperatur 10°C, yayda (yanvar) 22°C olur. Qışda soyuq qasırğa külәkləri – pamperos külәkləri əsir. Ölkənin təbii bitki örtüyü yüksək otlardan ibarət pampalardır, meşələr azdır. Ərazinin 90%-ə qədəri kənd təsərrüfatına yararlıdır. Torpaqların 1/10-də qarğıdalı, buğda, üzüm, kətan, günəbaxan, çəltik əkilir. Qalan ərazilərdə iri buynuzlu mal-qara və qoyunların iri sürüləri otlayır. Ölkənin təpəlik pampa zonasında 16 mln. baş qoyun otarılır. Ölkə dünyada iri yun ixracatçısıdır. Mülayim iqlim bütün qış ərzində mal-qaranı otarmağa imkan verir. Son vaxtlar turizm və bank işi xeyli gəlir gətirir. Uruqvayda demək olar ki, yerli hindu əhalisi qalmamışdır. Təmiz hindulara və metislərə əhalinin 1%-dən azı aiddir. Əhalinin böyük əksəriyyəti Avropadan gələnlərin nəsilləri, həmçinin Boliviya və Argentinadan köçənlərdir. Uruqvayın paytaxtı Montevideo La-Plata körfəzinin şimal sahillərində yerləşir. Montevideo ölkənin əsas limanı, ticarət, sənaye və elm mərkəzidir. Burada Dövlət Universiteti yerləşir. Şəhər biznesin, həmçinin yeyinti və yun emalı sənayesi sahələrinin əsas mərkəzidir. Kəndlərdən kütləvi miqrasiya nəticəsində Montevideo və onun ətraf rayonlarında ölkə əhalisinin yarıya qədəri yaşayır. Uruqvay səmərəli dövlət sosial təminat sistemi yaradılan ilk Cənubi Amerika ölkəsidir. Burada yüksək savadlılıq (98%) və səhiyyə sistemi mövcuddur.

Braziliya Federativ Respublikası

Sahəsi: 8547404 km²
Əhalisi: 194,7 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 23 nəfər/km²
Paytaxtı: Brazilia (3508 min nəfər)
Rəsmi dil: portuqal
Dini etiqad: katolisizm (90%)
Pul vahidi: real
Dövlət quruluşu: respublika

Braziliya Cənubi Amerikanın ən böyük ölkəsidir və materikin sahəsinin 47,9%-ni tutur. Ölkə üçün çoxsahəli iqtisadiyyat, əhalinin sayının sürətli artımı, həmçinin təbiətin və faydalı qazıntıların zənginliyi səciyyəvidir.

Braziliya Çili və Ekvadordan başqa Cənubi Amerikanın bütün ölkələri ilə həmsərhəddir. Ölkə 26 ştata və Brazilia şəhərinin yerləşdiyi bir federal dairəyə bölünür. Braziliyanın şimal hissəsini tutan Qviana yaylası Surinam və Qvianada da davam edir. Burada ölkənin ən yüksək nöqtəsi (3014 m) olan və yalnız 1950-ci illərdə müəyyən edilən Neblina dağı yüksəlir. Braziliyanın şimalı və qərbində Amazonka çayı və onun yüzlərlə qolunun axdığı Amazon ovalığı yerləşir. Burada planetin ən böyük rütubətli tropik (ekvatorial) meşə massivi – selva yayılır. Ölkənin mərkəzi və cənubunu Braziliya yaylası tutur. Bu geniş plato qədim süxurlardan təşkil olunmuş, alçaq dağ silsilələri ilə bir neçə hissəyə bölünmüşdür. Braziliya yaylasının çox hissəsi kolluqlar və meşələrlə örtülüdür. Atlantik okeanının sahilləri boyu 2600 km-lik ***klif*** (abraziya nəticəsində yaranan sıldırım qayalıq) uzanır və Böyük Pilləkən adlanır. Amazon ovalığı Cənubi Amerikanın bir sıra ölkələrinin ərazisində yerləşsə də, çox hissəsi Braziliyadadır. Ölkə ərazisinin 40%-ə qədərini tutan Amazon ovalığı dünyada ən böyük ovalıqdır, ən az məskunlaşmış və mənimsənilmiş ərazilərdən biridir. Rütubətli meşələrdə fauna və floranın zənginliyi yağıntıların çoxluğu, yüksək temperatur və çayların gətirdiyi məhsuldar lillərin çoxluğu ilə əlaqədardır. Amazon meşələrində nə qədər bitki və heyvan növünün olduğu bilinmir. Alimlər onların sayının 5 milyona çatdığını güman edir. Bu isə dünyanın bütün bioloji növlərinin 1/3-nə qədəri deməkdir. Rütubətli meşələrin sahəsi qismən meşə yanğınları, əsasən də insanların təsərrüfat fəaliyyəti nəticəsində 1970-ci illərin əvvəlindən indiyə qədər 15% azalmışdır. Ayrı-ayrı illərdə 35 min km²-ə qədər meşələr məhv edilib. Amazon selvasının xilas edilməsi beynəlxalq problemə çevrilmişdir. Müxtəlif təşəbbüslər və kömək proqramları qırılmanın azalması və ya dayandırılmasına xidmət edir. Hökumət meşələrin məhv olmasını dayandırmaq üçün qanunvericilik tədbirləri görür. Braziliya tropik ölkə olsa da, onun ərazisində yaşayış üçün əlverişsiz rayonlar azdır. İqlim ümumən isti və rütubətlidir. Platoda orta sutkalıq temperatur 19°C-dən yuxarı qalxmır, sahilboyu rayonlarda bir qədər istidir. Braziliyada ən isti vilayətlər şimal-şərqdə yerləşir. Burada may ayından noyabr ayına qədər olan quru mövsümdə 38°C-dən yuxarı temperatur müşahidə olunur. Ölkənin çox hissəsində yağıntıların səviyyəsi mülayimdir, ən rütubətli rayonlar Amazon ovalığındadır (3000-5000 mm). Braziliya dünyada ən çox qəhvə becərilən ölkədir. 2001-ci ildə 2,6 mln. ton istehsal edilmişdir. Onun çox hissəsi ixraca gedir. Digər mühüm ixrac bitkiləri şəkər qamışı, soya paxlası, kakao, qarğıdalı və portağaldır. Yerli istehlak üçün kartof, pambıq, tütün, çəltik becərilir. Braziliya faydalı qazıntıların ehtiyatına görə dünyada ilk yerlərdən birini tutur. Lakin ölkə ərə-zisi tam tədqiq edilməmişdir. Braziliyada dəmir filizi ehtiyatları ən azı 48 mlrd. ton qiymətləndirilir. Elektrik enerjisinin 90%-i SES-lərdə istehsal olunur. Hökumətin idxalı məhdudlaşdırmasından sonra avtomobilqayırma, kimya, toxuculuq, tikiş və digər sənaye sahələri müvəffəqiyyətlə inkişaf edir. Braziliya əhalisinin yarıya qədəri 30 yaşa qədər cavan insanlardır. Son 60 ildə ölkə əhalisi 3 dəfədən çox artmışdır. Əhalinin etnik tərkibi çox müxtəlifdir, yerli amerikalılar onun əhalisinin 1%-dən azını təşkil edir. Braziliyada məskunlaşan ilk avropalılar portuqallar olmuşdur. XVI əsrdən XIX əsrə qədər onlar Braziliyaya Afrikadan 3-4 mln. nəfərdən çox qaradərili qul gətirmişlər. Braziliya sakinlərinin əksəriyyəti qarışıq avropalı (54,7%), mulat (40%), afrikalı (5,2%) və hindu mənşəli insanların nəsilləridir. Ölkədə dünyada olan ən böyük yapon icması vardır. Sayı 2 mln. nəfərdən çox olan yaponlar 1920-ci illərdə ölkəyə gələn yoxsul kəndlilərin nəsilləridir. Braziliya üçün kənd rayonlarından şəhərlərə kütləvi köçmə səciyyəvidir. İri şəhərlər ətrafında bütöv yoxsullar məhəllələri yaranmışdır (onlara favel deyilir). Bir vaxtlar Amazon meşələrində bir neçə milyon nəfər hindu yaşayırdı. Hazırda onların sayı 200 min nəfərə qədər azalmışdır. Amazon hövzəsində məskunlaşan tayfalara tikuna, yanomama, şavante və quajajara aiddir. Cənubi Amerikanın əksər ölkələrindən fərqli olaraq Braziliyada çoxlu iri şəhərlər vardır. Ölkənin ən böyük şəhəri San-Paulu, ən məşhuru Rio-de-Janeyro, rəsmi və mədəni paytaxt Braziliadır. O, ölkənin daxili vilayətlərinin mənimsənilməsi layihəsi çərçivəsində 1950-ci illərdə salınmışdır. Paytaxtda ölkənin hökuməti və çoxsaylı xarici səfirliklər yerləşir. Ölkənin ən böyük şəhəri olan San-Paulu Braziliyanın ən qədim müstəmləkə məntəqələrindən biridir. 1554-cü ildə əsası qoyulan şəhər platoda dəniz səviyyəsindən 760 m hündürlükdə yerləşir. Şəhər yalnız son 120 ildə sürətlə inkişaf etmişdir. Əvvəlcə qəhvənin istehsalı və ixracı, sonra ağır sənayenin inkişafı gəlirlərin artmasına və iş yerlərinin çoxalmasına gətirib çıxardı. Bu gün San-Paulu 19226 min nəfər əhalinin yaşadığı şəhər aqlomerasiyasının mərkəzidir. Cənubi Amerikada ən böyük meqapolis, dünyada böyüklüyünə görə üçüncü şəhərdir. Atlantik okeanından 75 km məsafədə yerləşən şəhərdə 20 mindən çox zavod və fabrik cəmlənmişdir. Şəhər, həmçinin, Braziliyanın maliyyə mərkəzidir. Rio-de-Janeyro əsasən turizm və işgüzar mərkəzdir. 1960-cı ilə qədər o, Braziliyanın paytaxtı olmuş, indi də ölkənin əsas metropoliyasıdır. Hər il Braziliyaya gələn 5 mln. nəfər turistin əsas hissəsi məhz bu şəhərə baş çəkir. Rio-de-Janeyro şəhəri üzərində Korkovado dağında 787 m hündürlükdə Xilaskar Xaç Atasının heykəli ucalır.

Folklend adaları

Sahəsi: 12170 km²
Əhalisi: 2500 nəfər (2009)
İnzibati mərkəzi: Port-Stenli (2100 nəfər)
Rəsmi dil: ingilis
Dini etiqad: protestantlıq
Pul vahidi: funt
Dövlət quruluşu: Böyük Britaniyanın mülkü

Atlantik okeanının cənubunda yerləşən Folklend adaları Böyük Britaniyaya məxsusdur. Onlara iddia edən argentinalılar ərazini Malvin adaları adlandırırlar. Folklend iki əsas adadan – Şərqi və Qərbi Folklenddən, 200-ə yaxın kiçik adalardan ibarətdir.

İki əsas ada təpəlikdir, onların sahilləri su ilə dolmuş çoxsaylı çay vadiləri ilə parçalanmışdır. Burada iqlim soyuq, çox küləkli və rütubətlidir. Orta qış temperaturu 1,7°C, orta yay temperaturu 9,4°C təşkil edir. İl ərzində 250 günə qədər yağış yağır. Demək olar ki, daim 31 km/saat sürətlə külək əsir. Adaların bitki örtüyü otlar və

alçaqboylu kolluqlardan ibarətdir. Çəmənliklər çoxsaylı qoyun sürüləri üçün otlaq kimi istifadə olunur. Qərbi Folklenddə böyüklüyünə görə ikinci məntəqə olan Port-Hovardda daimi olaraq 20 nəfərə qədər adam yaşayır. Burada yerləşən fermada 500 min baş qoyun saxlanılır.

Adalarda ən böyük məntəqə olan Port-Stenli Şərqi Folklenddə yerləşir. Bu şəhərdə ada əhalisinin 85%-i yaşayır. Arxipelaqda bir hospital (səhra xəstəxanası) vardır. Stenlidə əksər köhnə binalar yerli daşlardan və qəzaya uğramış gəmilərin qalıqlarından qurulmuşdur. Əhalinin yarısını Folklenddə qərarlaşan ingilis hərbçiləri təşkil edir. Hazırda adalara müxtəlif məhsullar, o cümlədən ərzaq, kömür, neft gətirmək lazım gəlir. Adalardan yun və dəri daşıyırlar. Son 150 ildə Argentina və Böyük Britaniya arasında Folklend adalarının kimə məxsus olması məsələsində mübarizə gedir. 1833-cü ildə ingilislər Folklend adalarını işğal etmişlər. 1982-ci ildə bu mübahisə hərbi əməliyyatlara və Böyük Britaniya ilə diplomatik münasibətlərin kəsilməsinə gətirib çıxarmışdır. Bu vaxt hərbi əməliyyatların dayandırılması haqqında müvəqqəti müqavilə imzalandı. Hazırda adalar balıq satışı və neftin mənimsənilməsi üçün xarici şirkətlərə lisenziya satışı vasitəsilə müstəqilliyini bərpa etməyə çalışır.

Cənubi Atlantika adaları

Cənubi Atlantikanın soyuq sularında səhralar və buzlarla örtülmüş bir neçə adalar qrupu vardır. Onların tərkibinə Cənubi Georgiya və Cənubi Sandviç adaları daxildir.

Cənubi Georgiya Cənubi Atlantikanın adaları arasında ən böyüyüdür. Folklend adalarından təxminən 1300 km cənub-şərqdə yerləşir. Sahil xətləri çox parçalanmış, dağlıq relyefə malik bu ada əsasən buzlarla örtülüdür. Adanın az saylı əhalisi başlıca olaraq hərbçilər və alimlərdən ibarətdir. Cənubi Sandviç adaları Cənubi Georgiyadan 760 km cənub-şərqdə vulkan mənşəli, buzlarla örtülmüş altı adadan ibarətdir. Bu adalar və Cənubi Georgiya Böyük Britaniya və Argentina arasında mübahisə obyekti olaraq qalır. Papua Pinqvini Cənubi Sandviç adalarında məskən salır. Onlar pinqvinlər arasında ölçüsünə görə üçüncü yeri tutur. Pinqvinlər sahilboyu qayalarda yaşayır. Atlantik okeanının cənubunda Böyük Britaniyaya məxsus olan Cənubi Orkney adaları, Antarktidanın sahillərində Cənubi Şetland adaları yerləşir.

AVROPA

Qərbi Avropa

Şimali Avropa

Mərkəzi Avropa

Cənubi Avropa

Şərqi Avropa

Rusiya

AVROPA

Qərbi Avropa. Şimali Avropa
Norveç Krallığı

Sahəsi: 385,4 min km²
Əhalisi: 4,9 min nəfər (2010)
Əhalinin sıxlığı: 12,7 nəfər/ km²
Paytaxtı: Oslo (876 min nəfər)
Əsas dil: norveç
Dini etiqad: protestantlıq (80% lüteranlar)
Pul vahidi: Norveç kronu
Dövlət quruluşu: konstitusiyalı monarxiya

Norveçin sahilləri qədim buzlaşmanın təsiri ilə çox girintili-çıxıntılıdır, ərazisinin çox hissəsini Skandinaviya dağları tutur. Skandinaviya ölkələri arasında ən şimalda yerləşən Norveç Avropanın çox zəif məskunlaşmış ölkələrindən biridir.

Norveç Skandinaviya yarımadasının sahilləri boyu ensiz və uzun zolaq şəklində şimal-şərqdən cənub-qərbə doğru uzanır, cənubda Şimal dənizinin sahillərində tədricən genişlənir. Onu Danimarkadan Skaqerrak boğazı ayırır. Şimali Atlantikada Yan-Mayen, Şimal Buzlu okeanında Şpitsbergen adaları da Norveçə aiddir. Ölkə ərazisində çoxlu sayda yüksək yaylalar vardır. Əhali əsasən Bergen, Tronheym və Stavanger kimi iri şəhərlərin yerləşdiyi sahilboyu ərazilərdə, eləcə də ölkənin paytaxtı Oslonun da olduğu cənub-şərqdə yaşayır. Ölkənin sahil xətləri 2650 km məsafədə uzansa da, sahil xətlərinin uzunluğu 21347 km-ə qədərdir. Bütün sahillər boyu yüzlərlə ada səpələnmişdir. Onlar sahilləri dəniz dalğalarından qoruyur. Ona görə fyordlar və buxtalar əlverişli təbii limanlar kimi istifadə olunur. Yanvarın orta temperaturu şimalda -2°-4°C, cənubda 2°C, iyulun orta temperaturu şimalda 10°C, cənubda 15°C-dir. Norveçdə minlərlə göl, yüzlərlə çay və onların qolları vardır. Ən böyük göl olan Myosa 368 km² sahəyə malikdir. Göl Oslodan 70 km şimalda yerləşir. Norveçin ərazisinin 3%-ə qədərini tutan məhsuldar torpaqlar ölkənin cənub-şərqindədir. Dənli bitkilər, əsasən çovdar, yulaf, arpa, həmçinin yem və kökmeyvəli bitkilər becərilir. Heyvandarlıqda donuz, qoyun və iri buynuzlu mal-qara saxlanılır. Norveç ərazisinin 1/4 hissəsi meşələr ilə örtülür. Ona görə sellüloz-kağız sənayesi mühüm əhəmiyyət kəsb edir. Norveç dünyada ən böyük ticarət donanmalarından birinə malikdir. Balıq ehtiyatlarının tükənməsinə baxmayaraq onun illik ovu 2,6 mln. ton təşkil edir. Norveçdə ənənəvi sənaye sahələrinin payı mebel, elektronika məhsullarının istehsalı, yüngül, kimya və neft emalı, neft-kimya, elektrometallurgiya sənayesinin (alüminium əridilməsi) inkişafı ilə əlaqədar tədricən azalır. 1969-cu ildə Norveçin Şimal dənizi sahillərində (İlk yataq Ekofiks-Fild) iri neft-qaz yataqları kəşf edilməsi təsərrüfat strukturunun tam dəyişməsinə səbəb oldu. Bu gün Norveç Qərbi Avropada ən böyük neft hasilatçısıdır, sukada 2,5 mln. barrel neft çıxarılır. Elektrik enerjisinin 99%-i SES-lərdə alındığına görə neftin çox hissəsi ixrac olunur. Ona görə Norveç dünyada əhalinin həyat səviyyəsinin ən yüksək olduğu ölkələrdən biridir.

İsveç Krallığı

Sahəsi: 449 964 km²
Əhalisi: 9,4 mln nəfər (2010)
Əhalinin sıxlığı: 20,9 nəfər/km²
Paytaxtı: Stokholm (1 981 min nəfər)
Əsas dil: isveç
Dini etiqad: protestantlıq (90% lüteranlar)
Pul vahidi: İsveç kronu
Dövlət quruluşu: konstitusiyalı monarxiya

İsveç Skandinaviya ölkələri arasında ərazisi ən böyük, əhalisinin sayı ən çox olan dövlətidir. Yüksək inkişaf etmiş sənayeyə, intensiv kənd təsərrüfatına malik olan İsveçdə əhalinin sosial təminatı yüksək səviyyədədir. Ölkənin şimalındakı Laplandiya regionunda milli azlıqlara aid 80 min nəfərə qədər saam xalqı nümayəndələri yaşayır (əvvəllər laplandiyalılar adlanırdılar).

İsveçin şərqdə Baltik dənizinə və Botnik körfəzinə, qərbdə isə qısa məsafədə Şimal dənizinə çıxışı vardır. Ölkənin qərb hissəsi dağlıqdır, şimal-qərbdəki Kyolen dağlarında ən yüksək zirvələr yerləşir (Kebnekayse dağı, 2111 m). Mərkəzi, cənub və şərq regionları nisbətən hamardır, əsasən yaylalar və alçaq təpələr olan düzənliklərdən ibarətdir. Dəniz iqlimindən kontinentala keçən mülayim iqlim hakimdir. Stokholmda yanvarın orta temperaturu -10°C, iyul 18°C-dir. Sahəsi 1 km²-dən böyük olan göllərin sayı 4 mindən çoxdur, ən böyük göl olan Venern 5585 km² sahə tutur. İsveçin ərazisinin yarıya qədəri meşələrlə örtülür, çox hissəsi şimalda yerləşir. O, dünyada kağız və meşə materialları istehsal edən aparıcı ölkələrdən biridir. Əkinçilik üçün torpaqların 7%-ə qədəri yararlıdır, şəkər çuğunduru, darı əkilir. Lakin intensiv üsullardan və müasir texnologiyalardan istifadə etməklə buğda,arpa, kartofa olan tələbat ödənilir. Burada donuzçuluq və maldarlıq inkişaf etmişdir. Enerjinin 40%-i SES-lərdə istehsal olunur və çox hissəsi sənayedə istifadə edilir. Yerli faydalı qazıntılar emal olunur. İsveçdə dəmir filizi və əlvan metalların böyük ehtiyatları vardır. Kömür və neft Norveç, Rusiya və başqa ölkələrdən gətirilir. İsveçin ən böyük şəhəri olan Stokholm materiklə qədim və müasir körpülərlə birləşdirilən çoxsaylı adalarda səpələnmişdir. Şəhər İsveçin ikinci böyük limanı, maşınqayırma, kommunikasiya və kompüter texnologiyaları, nəşriyyat, kimya və metal emalı sənaye sahələrinin yerləşdiyi ən böyük sənaye mərkəzidir. Avtomobil, gəmi, elektron məhsulları istehsal olunur. Stokholmda milli qanunverici orqan olan Rikstaq yerləşir, şəhərin kənarında İsveç Kral ailəsinin iqamətgahı vardır. Ölkənin və regionun ən böyük limanı isə yük dövriyyəsi 39,5 mln. t (2001) olan Höteborq şəhəridir. Ölkənin cənubunda digər böyük liman və ticarət mərkəzi Malmye şəhəridir. 2000-ci ildə Eresun nəqliyyat kompleksinin tikintisi başa çatdıqdan sonra şəhərin strateji əhəmiyyəti artmışdır. Bura uzunluğu 3,5 km olan tunel, 7,8 km olan körpü, 4 km olan süni ada daxildir. Onlar Malmye və Danimarkanın paytaxtı Kopenhageni birləşdirir.

Finlandiya Respublikası

Sahəsi: 338 145 km²
Əhalisi: 5,5 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 16,3 nəfər/km²
Paytaxtı: Helsinki (1082 min nəfər)
Əsas dillər: fin, isveç
Dini etiqad: protestantlıq (lüteranlar)
Pul vahidi: avro
Dövlət quruluşu: respublika

Finlandiyanın düzənlik ərazisinin çox hissəsini bataqlıqlar, göllər və meşələr tutur. Ölkənin bütün ərazisi IV dövr buzlaşması dövründə qalın buz qatı ilə örtülü olmuşdur. Ona görə müasir landşaftında buzlaqların izi aydın gürünür.

Finlandiya qərbdə geniş məsafədə Botnik körfəzinin, cənubda Fin körfəzinin sahillərinə çıxır. Ərazi hamardır, orta hündürlüyü 120 m-dən 190 m-ə qədər olan düzənliklər vardır. Fin körfəzinin sahillərində Turun, yaxud Turku arxipelaqı 6500 qranitdən ibarət adalar və qayalı şxerlərdən ibarətdir, bunlardan yalnız 35-də əhali yaşayır. Onlar qərbdə Aland adalarına qədər uzanır. Buz qatının ağırlığı ilə

Qədim buzlaşmanın Finlandiyanın reyefində izləri

yer səthi bir neçə yüz metr çökmüşdür. Buzlaqlar çəkildikdən sonra ərazi hər il 1 sm qalxır. Finlandiyanın şimalında ərazisinin 1/4 hissəsi Qütb dairəsindən yuxarıda yerləşir. Laplandiya adlanan bu ərazilər təpələrdən ibarətdir, şimal-qərbdə Norveç ilə sərhəddə dağlara keçir. Yayda burada 73 gün Günəş bütün sutka ərzində səmada görünür və qütb gündüzləri müşahidə olunur. Qışda isə uzun qütb gecələri əmələ gəlir, Günəş 51 sutka üfüqdən yuxarı qalxmır. Mülayim kontinental iqlim şəraitində yay qısa, isti, qış sərt keçir.Helsinkidə yanvarın orta temperaturu -11°C, iyul 19°C-dir, il ərzində 600-650 mm yağıntı düşür. Meşələr ölkə ərazisinin 75%-ə qədərini tutur. Finlandiyada 1100 bitki növü vardır. Cənubda ağcaqovaq və qarağac ağaclarından ibarət enliyarpaqlı meşələr yayılır. Lakin ölkənin çox hissəsini şam və küknardan ibarət tayqa meşələri örtür. Meşələrdə vəhşi qaz və qu, məməlilərdən tülkü, canavar və vaşaq yaşayır. İxrac gəlirlərinin xeyli hissəsi oduncaq, meşə materialları, kağız və cavan ağac növlərinin satışından əldə edilir (2000-ci ildə 30%). Neft və kömür olmadığına görə yanacaq kimi odun və şimaldakı bataqlıqlarda çıxarılan torf istifadə olunur. Finlandiyada 87 min göl vardır ki, onlar da ölkə ərazisinin 10%-ə qədərini tutur. Sahəsi 4400 km² olan və cənub-şərqdə yerləşən Sayma ən böyük göldür. O, ətrafdakı daha 120 göl ilə su mübadiləsinə malikdir (göllərdə 14 min ada vardır). Sonda sular Rusiyadakı Ladoqa gölünə axır. Finlandiya 1323-cü ildən 1809-cu ilə qədər

İsveçin hakimiyyəti altında olmuşdur. İki illik Rusiya-İsveç müharibəsindən sonra 1809-cu ildə Rusiyanın müstəmləkəsinə çevrilmişdir. 1917-ci ildə müstəqillik əldə edənə qədər ərazi Böyük Rusiya Knyazlığı kimi müxtariyyət statusuna malik olmuşdur. 1550-ci ildə əsası qoyulan Helsinki Fin körfəzinin sahilindəki kiçik yarımadada yerləşir. Şəhər ölkənin sənaye və ticarət mərkəzidir. Şəhərdə və onun ətrafında ölkə əhalisinin 20%-i yaşayır. Finlandiyada meşə, ağac emalı, poliqrafiya, toxuculuq, kimya məhsulları, gəmilər istehsal olunur, dəmir filizi çıxarılır. İxrac gəlirlərinin yarısından çoxunu metallurgiya, metal emalı, maşınqayırma və elektron sənayesi məhsulları təşkil edir. Dənli və yem bitkiləri, kartof, kətan əkilir, südlük mal-qara saxlanılır.

Danimarka Krallığı

Sahəsi: 43094 km², Qrenlandiya ilə birlikdə 2220,1 min km²
Əhalisi: 5511 min nəfər (2010)
Əhalinin sıxlığı: 127,9 nəfər/km²
Paytaxtı: Kopenhagen (1168 min nəfər)
Əsas dil: danimarka
Dini etiqad: protestantlıq (95% lüteran)
Pul vahidi: Danimarka kronu
Dövlət quruluşu: konstitusiyalı monarxiya

Danimarka Avropanın materik hissəsində yerləşən ölkədir. Skandinaviya ölkələrinə nisbətən əhalisi az olsa da, daha sıx məskunlaşmışdır. Ölkənin ərazisi Yutlandiya yarımadasında və 406 adada yerləşir. Danimarka dünyada həyat səviyyəsi ən yüksək olan ölkələrdən biridir.

Danimarkanın Yutlandiyanın cənubunda Almaniya ilə 68 km quru sərhəddinə malikdir. Yarımada ölkə ərazisinin 70%-ni təşkil edir. Qalan ərazilər əsasən şərqdə yerləşən adaların payına düşür. Danimarkanın nəzarətində iki

daxili idarəetmə hüququna malik olan ada vardır. Onlara Farer adaları və ən böyük ada olan Qrenlandiya aiddir. Danimarka dünyanın ən hamar və geniş düzənliyə malik ölkələrindən biridir. Bütün ərazinin dəniz səviyyəsindən orta yüksəkliyi 30 m-ə qədərdir. Yalnız Baltik dənizində sahəsi 588 km² olan Bornxolm adasında qayalardan ibarət təpəliklər vardır. Danimarka mülayim iqlim qurşağında yerləşir. Yay istidir, orta temperatur 25°C-yə çatır, qış sərin, yağıntılı olur, orta sutkalıq temperatur 0°C ətrafında olur. Bu isə həmin enliklər üçün səciyyəvi olan orta göstəricidən 10°C yuxarıdır. Sənaye və xidmət sferası ölkədə mühüm yer tutur, maşınqayırmada nəqliyyat vasitələri, yeyinti və meşə sənayesi məhsulları istehsal olunur. Təbii qazın böyük ehtiyatları vardır, külək enerjisindən geniş istifadə olunur. Təsərrüfatda yüksək səviyyədə intensiv olan, yeni maşın və texnologiya tətbiq olunan kənd təsərrüfatı mühüm rol oynayır. Bu sahədə ölkə ərazisinin 3/2 hissəsi istifadə olunur. Becərilən məhsullar arasında dənli bitkilər, xüsusilə buğda, arpa, çovdar üstünlük təşkil edir, heyvandarlıq, xüsusilə də donuzçuluq və maldarlıq inkişaf etmişdir. Ətlik-südlük maldarlıq kənd təsərrüfatı məhsullarının 9/10 hissəsini verir. İri balıqçılıq

Ölkədə şəhərlərin çoxu sahilboyu ərazilərdə yerləşir

donanmasının (2500 gəmi) köməyi ilə ildə 1 mln. ton balıq ovlanır. Ölkənin adı ərazini 500-cü ildə işğal etmiş İsveç tayfaları olan danların adından götürülmüşdür. Esberqdən 25 km cənub-şərqdə yerləşən ölkənin ən qədim şəhəri olan Ribe hələ 850-ci ildə beynəlxalq ticarət mərkəzi olmuşdur. Danimarkalılar tam olaraq danlar və digər Skandinaviya xalqlarının nəsilləridir. Onlar əhalinin 96%-ni təşkil edir. Almaniya ilə sərhəddə etnik almanlar yaşayır. Ölkədə Türkiyə, İran, Pakistan, Somali və Balkan ölkələrindən gəlmiş çoxlu immiqrant vardır.

Farer adaları

Sahəsi: 1399 km²
Əhalisi: 48,8 min nəfər (2007)
Əhalinin sıxlığı: 34,9 nəfər/km²
Paytaxtı: Torsxavn (17 min nəfər)
Əsas dillər: danimarka, farer
Dini etiqad: protestantlıq (lüteranlıq)
Pul vahidi: Farer kronu
Dövlət quruluşu: Danimarkanın özünü idarəetmə hüququ olan mülkü

Farer adaları Atlantik okeanının şimalında, Norveç, İslandiya və B.Britaniya arasında yerləşir. Adalar Danimarkanın ərazisidir. Arxipelaqa daxil olan 34 adadan 18-i məskunlaşmışdır.

Farer adaları vulkan mənşəlidir. Bəzi adalarda nazik torpaq qatı yaranmışdır. Burada ilin əksər vaxtları güclü küləklər əsdiyindən ağaclar azdır. Sahil boyunca su quşları məskən salır. Əksər ərazilər sıx çəmənliklərlə örtülmüşdür. Bu yerli sakinlərin ənənəvi məşğuliyyəti olan qoyunçuluğun inkişafına şərait yaradır. Adanın ətrafında zəngin balıq ehtiyatı (əsasən treska və pikşa) və dəniz məhsullarının olması sakinlərin balıqçılıqla məşğuliyyətinə imkan verir. 1999-cu ildə Danimarka ilə Böyük Britaniya arasında müqavilə imzalanmışdır. Bu, şelf zonalarında neft hasilatına imkan verəcəkdir.

İslandiya Respublikası

Sahəsi: 102 819 km²
Əhalisi: 319 min nəfər (2010)
Əhalinin sıxlığı: 3,0 nəfər/km²
Paytaxtı: Reykyavik (201 min nəfər)
Əsas dil: island
Dini etiqad: protestantlıq (87% lüteran)
Pul vahidi: İslandiya kronu
Dövlət quruluşu: respublika

İslandiya Atlantik okeanının şimalında cavan, ən böyük vulkan mənşəli adada yerləşir. Sayı digər ölkələrə nisbətən az olan əhalinin əsas məşğuliyyəti balıqçılıqdır. Subarktik dəniz iqlimi şəraitində Qolfstrim cərəyanının yumşaldıcı təsiri hiss olunur. Yanvarın orta temperaturu 0°C, iyul 12°C-dir, il ərzində 500 mm-dən 4000 mm-ə qədər yağıntı düşür.

İslandiya Şotlandiyadan 798 km şimal-qərbdə yerləşir. Adanın dəniz səviyyəsindən orta hündürlüyü 600 m-dən 950 m-ə qədərdir. Ərazisinin 15%-i buzla örtülüdür. Bu səbəbdən onun hərfi mənası "buzlar ölkəsi" deməkdir. Şərqdə və şimal-qərbdə sahil xətləri dərin körfəzlər, sıldırım qayalar və fyordlarla kəskin parçalanmışdır, çox girintili-çıxıntılıdır. Cənub sahilləri nisbətən alçaqdır. Geoloji cəhətdən İslandiyada ərazi cavandır. Ada Orta Atlantika silsiləsinin suyun səthinə qalxması nəticəsində yaranmışdır. Onun mərkəzindən Yer qabığının böyük qırılma zonası olan rift dərəsi keçir. Ona görə də ada dünyanın ən fəal vulkan fəaliyyəti zonalarından biridir. İslandiyanın ilk sakinləri Skandinaviyadan olan normanlar və İrlandiyadan gəlmiş keltlər olmuşdur. Onların nəsilləri ölkənin bütün müasir əhalisini təşkil edir. Əhalinin 2/3 hissəsi paytaxtda yaşayır. Burada İslandiyada olan yeganə universitet və əsası 930-cu ildə qoyulan dünyada ilk qanunverici orqan-Altinq yerləşir. Ada əvvəlcə Norveçin, sonra Danimarkanın mülkü olmuşdur. Yalnız XX əsrdə respublika elan edilmiş və müstəqillik qazanmışdır. Təsərrüfatın əsasını balıqçılıq və onun məhsullarının emalı sənayesi təşkil edir. Bu sahə ölkəyə gələn ixrac gəlirlərinin 70%-ni verir. Məhsulların xeyli hissəsi Almaniya və Böyük Britaniyaya ixrac olunur. Elektrik enerjisi çoxsaylı SES-lər və Geo TES-lərdə istehsal olunur. Qeyzerlərə İslandiyanın məşhur Böyük Qeyzer mənbəyinə (vadisinə) görə belə ad verilmişdir.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı

Sahəsi: 244 088 km²
Əhalisi: 62,2 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 254,8 nəfər/km²
Paytaxtı: London (8 278 min nəfər)
Əsas dil: ingilis
Din: protestantlıq (40 mln nəfər), katolisizm (6 mln. nəfər), islam (1,5 mln. nəfər), hinduizm (500 min nəfər), iudaizm (350 min nəfər)
Pul vahidi: funt sterlinq
Dövlət quruluşu: konstitusiyalı monarxiya

Birləşmiş Krallığın ərazisinə Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi və çoxlu kiçik adalar daxildir. Ölkənin tərkibində dörd tarixi əyalət vardır. Bu əyalətlərə İngiltərə, Şotlandiya, Uels və Şimali İrlandiya aiddir. Yaxınlıqda yerləşən Men adası, Fransanın şimal sahillədində olan Normand adaları (Hernsi və Cersi adaları) da Böyük Britaniya mülkləridir. Bütün müstəmləkə əraziləri üçün xüsusi muxtariyyət rejimi müəyyən edilmişdir. Onlar qanunverici orqanlara malik olsalar da, xarici işlər Britaniya Hökumətinin səlahiyyətindədir.

İsti Qolfstrim cərəyanının təsiri ilə ölkədə çoxlu yağıntıları, eyni enlikdə yerləşən digər ərazilərə nisbətən daha ılıq (orta temperatur 4°C) qışı olan mülayim dəniz iqlimi formalaşır. Ölkənin cənub hissəsi digər ərzilərə nisbətən daha isti (iyulun orta temperatu-

ru 18°C), qərb hissəsi isə rütubətlidir. Böyük Britaniyanın cənubunda və cənub-şərqində ovalıqlar, Şotlandiya, Uels və İngiltərənin şimalında dağ silsilələri yerləşir. Şimali İrlandiya təpəli düzənliklər və alçaq dağlar rayonudur. Şotlandiyanın ərazisinin yarısını dağlıq yaylalar və sahilboyu çoxsaylı adalar təşkil edir. Uelsin şimalından cənubuna təxminən bütün ərazini Kembri dağları tutur. İngiltərənin çox hissəsi düzənlikdir, bəzi yerlərdə maili yüksəkliklərə rast gəlinir, şimalda təpəliklər və alçaq dağ tirələri yüksəlir. Böyük şəhərlərin əksəriyyəti çayların sahilindədir, London Temza, Nyukasl isə Tayn çayı sahilində yerləşir. Ən uzun olan Severn çayı (354 km) Mərkəzi Uelsdən İngiltərənin cənub-şərqinə tərəf axır. İngiltərənin şimal-qərbində olan mənzərəli göllər diyarında buzlar çayların vadilərini dərinləşdirmiş, onlar sonradan göllərə çevrilmişdir. Burada İngiltərəninən yüksək zirvəsi olan Skofell piki (978 m) yüksəlir. Uelsin ən yüksək nöqtəsi Snoudon dağıdır (1085 m). Ben-Nevis Şotlandiyanın və bütün Britaniya adalarının ən yüksək zirvəsidir (1343 m). Ölkədə ən böyük göl olan Lox-Ney Şimali İrlandiyada Belfastdan 20 km qərbdə yerləşir. XX əsrin əvvəlindən meşələr salınsa da, Böyük Britaniya Avropada ən az meşə sahəsinə malik ölkələrdən biridir. Şotlandiyada iynəyarpaqlı ağaclar, əsasən şam bitir. Digər regionlarda enliyarpaqlı ağaclar olan vələs, göyrüş, palıd və şabalıq yayılmışdır. Ən böyük vəhşi heyvan olan nəcib marala Şotlandiyada və İngiltərənin cənub-qərb hissəsindəki Kornuoll yarımadasında olan Eksmurda rast gəlinir. Meşələrdə kiçik məməlilər olan tülkü, siçovul, yereşən (yer siçovulu), dələ yaşayır. Təbii mühitin qorunması üçün ölkə ərazisinin 7%-də milli parklar, qoruqlar yaradılmışdır. Onlar arasında Göllər diyarı, Uelsin şimalında Snoudoniya və Midlsbrodan 15 km cənubda olan Nort-York-Murs daha məşhurdur. Böyük Britaniya ərazisinin çox hissəsini əkinlər və geniş otlaqlar tutur. Kənd təsərrüfatında işçi qüvvəsinin yalnız 1%-i çalışır. Yüksək əmək məhsuldarlığı və bol məhsul yığılmasını təmin edən müasir texnologiyanın tətbiq edilməsi nəticəsində Böyük Britaniya özünün ərzağa və heyvandarlıqda yemə olan tələbatının 60%-ni təmin edir. Ölkədə 11 mln. baş mal-qara vardır (2001). Böyük Britaniya 1760-1820-ci illərdə dünyada ilk sənaye inqilabı baş verən ölkədir. Bu zaman manufakturadan iri maşınlı istehsala keçid baş verdi. Bu gün əvvəllər aparıcı mövqe tutan daş kömür hasilatı, me-tallurgiya, gəmiqayırma və digər ağır sənaye sahələrinin rolu azalır. Əvəzində sürətlə inkişaf edən xidmət sahələri, yüksək texnologiyalı, elmtutumlu sahələr, kimya və əczaçılıq sənayesi, sənaye texnologiyası tədqiqatı, elektronika və maşınqayırma sahələrinin rolu yüksəlir. Şimal dənizinin sahillərində böyük neft və təbii qaz yataqları kəşf edilmişdir. Böyük Britaniya Aİ-də ən böyük enerji ehtiyatlarına malikdir. Bu gün dünyada iqtisadi potensialına görə Böyük Britaniya altıncı böyük ölkə, mühüm beynəlxalq ticarət mərkəzidir. Böyük Britaniya əhalisinin sayına görə Avropada Rusiya, Almaniya və Fransadan sonra dördüncü yeri tutur. Əhalinin 90%-i iri

Stonxenc meqalit sitayiş kompleksidir. Şaquli daş qayalarından ibarət nəhəng tikilidir (b.e.ə. 3200-1000-ci illərə aiddir)

şəhərlərdə və onların ətrafında məskunlaşmışdır. XX əsrdə urbanizasiya rayonları genişlənmiş, yeni şəhərlər yaranmışdır. London və Birmingem arasında Milton-Keynes, Birmingem ətrafında aqlomerasiya formalaşmışdır. Uelsin cənub sahilində Suonsi, Kardiff və Nyuport şəhərləri yerləşir. Şotlandiyanın iki böyük şəhəri olan Qlazqo və Edinburq Şimali Şotlandiya yaylasının cənubundadır. İngiltərənin ən sıx əhali məskunlaşan hissəsi London şəhərinin də yerləşdiyi cənub-şərq zonasıdır. Ölkənin paytaxtı London 43-cü ildə romalılar tərəfindən salınmışdır, indi isə dünyanın ən müasir şəhərlərindən biridir. Onun təsərrüfatının inkişafında xidmət sahələri, o cümlədən maliyyə və bank işi, sığorta, ticarət və turizm aparıcı rol oynayır. Çoxsaylı tarixi abidələr milyonlarla turist cəlb edir. Kelt xalqlarının b.e.ə. I minillikdə bura köçməsi, I əsrdə romalıların işğalı, V-VI əsrlərdə ingilis-saksların, IX-XI əsrlərdə vikinqlərin, 1066-cı ildə normanların ərazini tutması Böyük Britaniyanın tarixində öz izlərini buraxmışdır. Əhalinin əksəriyyəti bu işğalçılar və yerli əhalinin nəsilləridir. Ölkədə yaşayan etnik qruplar arasında keçmiş müstəmləkələrindən olan miqrantlar, həmçinin yəhudilər, çinlilər və Avropa ölkələrindən gələnlər çoxdur. Şotlandiya, Şimali İrlandiya və Uelsin bəzi rayonlarında kelt dillərində danışsalar da, əsas ünsiyyət dili ingilis dilidir. İngilis dili ingilis-sakson və normanların danışdığı fransız dilinin qarışması əsasında formalaşmışdır. Böyük Britaniya mürəkkəb siyasi tarixə malikdir. Ada-da İngiltərə və Uels XVI əsrdə birləşmişdir. Şotlandiyanın da daxil olduğu Böyük Britaniya Krallığı 1707-ci ildə birləşmə haqqında Akta görə yaradılmışdır. 1801-1920-ci illərdə Böyük Britaniya və İrlandiya vahid dövlətdə olmuşdur. 1921-ci ildə olan müqaviləyə görə 6 qraflıqdan başqa İrlandiya adasının qalan hissəsi müstəqil dövlət kimi ayrılmışdır. Son vaxtlarda ölkənin tərkibində olan əyalətlərdə yerli orqanlara müəyyən səlahiyyətlər verilmişdir. 1999-cu ildə Şotlandiyada Parlament, Uelsdə Milli Məclis yaradılmışdır. Şimali İrlandiya Assambleyası sayı çox olan protestantlar və azlıq təşkil edən katoliklər arasındakı münaqişəni nizamlamağa çalışır. Böyük Britaniyanın rəsmi dövlət başçısı hakimiyyəti irsən keçən Şahzadədir. Həqiqi hakimiyyət isə İcmalar Palatasında səs çoxluğuna malik olan Siyasi Partiya başçısı liderinin seçildiyi Baş Nazirə məxsusdur. Aşağı palata ilə yanaşı, yuxarı qanunverici orqan olan Lordlar palatası da Vestminster sarayında qərar tutur.

İrlandiya Respublikası

Sahəsi: 70285 km²
Əhalisi: 4,5 mln nəfər (2010)
Əhalinin sıxlığı: 64 nəfər/km²
Paytaxtı: Dublin (1046 min nəfər)
Əsas dillər: ingilis, irland (gel)
Dini etiqad: katolilisizm (93%), protestantlıq (3%)
Pul vahidi: avro
Dövlət quruluşu: respublika

İrlandiya Avrasiyanın ada dövlətlərindən biri olmaqla qərb kənarında yerləşir. O, eyni adlı adanın çox hissəsini tutur. Ölkədə ilboyu yaşıl çəmənliklər geniş ərazidə yayılır, mənzərəli dağlar, göllər vardır.

İrlandiya və Böyük Britaniya adaları 11 min il əvvəl buzlaqların əriməsi və okean səviyyəsinin qalxması nəticəsində Avropadan ayrılmışdır. İrlandiyanın mərkəzini geniş düzənliklər tutur, kənarlarda əksər sahilboyu ərazilərdə yüksələn dağlarla əhatə olunur. Düzənliklər əsasən ovalıqlardan ibarətdir, orta hündürlük dəniz səviyyəsindən orta hesabla 90 metrdən çox deyildir. O, çox yerdə alçaq tirələr, təpələr, çay və göllərin dərələri ilə parçalanmışdır. Ölkənin ən böyük (372 km) çayı olan Şannon öz başlanğıcını şimalda götürür, Limerikdən cənubda uzun estuari əmələ gətirir. Şimali Atlantika cərəyanının isti suları İrlandiyanın iqlimini yumşaldır, adada mülayim dəniz iqlimi formalaşır. Adada qış çox soyuq keçmir. Qışda orta sutkalıq temperatur 4,5°C-dən 7°C-yə qədər olur. Bu, eyni enlikdə yerləşən digər ərazilərə nisbətən 14°C yüksəkdir. Yay isə əksinə sərindir, orta temperatur 17°C-dən çox olmur. İsti okean cərəyanları və Atlantik okeanından əsən küləklər bol yağıntılar gətirir. Orta hesabla hər üç günün ikisində adada hava yağıntılı keçir. Cənub-qərbdə yüksələn dağlarda yağıntıların miqdarı 2500 mm-ə çatır. Yüksək rütubətliyinə görə ölkənin çox hissəsini il boyu sıx otlar, mamır və çəmən gülləri örtür. Ona görə ölkəni "zümrüd adası" adlandırırlar. Ərazinin 10%-ni torflu bataqlıqlar tutur, burada nadir yabanı bitkilər bitir. Torf yanacaq və gübrə kimi istifadə edildiyinə görə bataqlıqlar yox olmaq təhlükəsi qarşısındadır. Ölkədə 120-dən artıq yerli quş növü, müxtəlif məməli heyvanlar (dağ keçisi, siçovul, dovşan və tülkü) yaşayır. İrlandiyada 9 min il əvvəl insan məskunlaşmışdır. Təxminən 2400 il əvvəl bura materikdən keltlər gəlmişdir. Bu vaxtdan başlayaraq uzun müddət İrlandiya Avropadan təcrid olunmuş, Roma imperiyasının tərkibinə qatılmamışdır. Ona görə irlandlar özünəməxsus zəngin mədəniyyətini və məxsusi dillərini yaratmışlar. XII əsrin sonundan başlayaraq ingilislər İrlandiyanı işğal etməyə başlamışlar. 1919-1921-ci illərdə aparılan azadlıq müharibəsi gedişində İrlandiya Böyük Britaniyadan dominion statusu almağa nail olmuş, 1949-cu ildə müstəqil respublika elan edilmişdir. Lakin Şimali İrlandiya metropolun tərkibində qalmışdır. Uzun illərin B.Britaniya hakimliyi dövründə ingilis dili ən geniş yayılmış dil olaraq qalmışdır, irland dili məktəblərdə keçilir, ondan yalnız kənd əhalisi ünsiyyət vasitəsi kimi istifadə edir. Burada şəkər çuğunduru, kartof və taxıl becərilir. Heyvandarlıqda çoxlu sayda donuz saxlanılır, dağların yamaclarında qoyun otarılır, ölkənin mərkəzi və cənubunda maldarlıqla məşğul olurlar. Hazırda kənd təsərrüfatı mühüm sahə olaraq qalır. Kənd təsərrüfatında işçi qüvvəsinin 6%-i məşğul olur. Elektronika və kompüter istehsalı, həmçinin kimya, yeyinti və tikiş sənayesində daha çox işçi çalışır. 2008-2009-cu illərdə bank və tikinti sahələrində olan böhran ölkənin təsərrüfatına ciddi ziyan vurmuşdur. Mənzərəli təbiəti, qədim tarixi və nadir mədəniyyəti ilə tanış olmq üçün 2009-cu ildə İrlandiyaya 6,9 mln. nəfər turist gəlmişdir.

Kilmer abbatlığı

Belçika Krallığı

Sahəsi: 30528 km²
Əhalisi: 10 800 min nəfər
Əhalinin sıxlığı: 353,8 nəfər/km²
Paytaxtı: Brüssel (1076 min nəfər)
Əsas dillər: holland (flamand), fransız, vallon, alman
Dini etiqad: katolisizm (75%), protestantlıq (22,2%)
Pul vahidi: avro
Dövlət quruluşu: konstitusiyalı monarxiya

Belçika Qərbi Avropanın inkişaf etmiş ölkələrindən biridir. O, Lüksemburq və Niderland ilə birlikdə Benilyuks birliyində birləşir. Ölkə əhalisinin 97%-i şəhərlərdə yaşayır. Ona görə dünyanın ən urbanizasiyalaşmış ölkələrindən biridir.

Belçikanın şimalında landşaft dəniz səviyyəsindən bir neçə metr yüksəkliyə qalxan, çayların mənsəbi və kanallar şəbəkəsi ilə kəsilən sahilboyu hamar ovalıqlardan ibarətdir. Bütün sahilboyu ərazidə Avropada ən geniş yayılan nəhəng qum dyunları zolağı uzanır. Cənubda ölkənin ən məhsuldar torpaqlarının yayıldığı mərkəzi plato yerləşir. Ölkənin cənub-şərqində orta yüksəkliyi 460 m olan, sıx enliyarpaq meşələr ilə örtülmüş Arden dağlıq rayonu yüksəlir. Belçikanın ən böyük çayı olan Myoz (Maas) digər çaylarla kanallar vasitəsi ilə birləşdirilərək 1600 km uzunluğunda daxili su nəqliyyatı şəbəkəsi əmələ gətirir. Onların çoxunda iri gəmilər üzə bilir. Belçikanın Antverpen şəhərinin də yerləşdiyi Şeld çayının estuarisində okeana çıxışı vardır. Belə əlverişli coğrafi mövqe Belçikanın böyük ticarət ölkəsinə çevrilməsinə səbəb olmuşdur. O, yüksək inkişaf etmiş sənayeyə və intensiv və kənd təsərrüfatına (güllər, meyvə-tərəvəz becərilir) malik ölkədir.

Təsərrüfatın əsas sahələri qara metallurgiya, ağır maşınqayırma, kimya və neft-kimya sənayesi, almaz cilalama, xalça və parça istehsalı sənayesidir. Elektrik enerjisinin 2/3 hissəsi AES-lərdə alınır. Böyük xammal ehtiyatları olmadığından Belçika onu başqa ölkələrdən idxal edir, hazır məhsullar və yarımfabrikatlar ixrac edir. Milyon tonlarla idxal və ixrac məhsulları Şimal dənizindən 80 km aralıda yerləşən Antverpen limanından keçməklə daşınır. Şəhər Avropanın ən böyük limanlarından biridir.

Belçika üç federal dairəyə bölünür. Bu bölgü əslində flamand və vallonlar arasındakı çoxəsrlik dil fərqinə uyğun gəlir. Flamandlar holland (niderland) dilinin flamand dialektində, vallonlar fransız dilinin vallon dialektində danışırlar. Onlar əsasən Ardenin qollarında yaşayan əhali arasında qalmışdır. Şimal əyaləti olan Flandriyada əsasən flamandlar, cənub əyaləti Valloniyada fransızdilli belçikalılar məskunlaşır. Bütün ölkədə yazılarda flamand və fransız dilindən istifadə olunur. Belçikanın şərqində kiçik almandilli icma yaşayır.

Ölkənin paytaxtı Brüssel və şəhər ətrafının daxil olduğu üçüncü dairədə əhali qarışıqdır. Əhalinin 10%-i paytaxt Brüsseldə yaşayır. Şəhər beynəlxalq işgüzarlıq mərkəzidir. Burada Avropa İttifaqının inzibati mərkəzi və NATO-nun mənzil-qərargahı yerləşir.

Böyük Lüksemburq Hersoqluğu

Sahəsi: 2586 km²
Əhalisi: 494 min nəfər (2009)
Əhalinin sıxlığı: 191,0 nəfər/km²
Paytaxtı: Lüksemburq (130 min nəfər)
Əsas dillər: lüksemburq, alman, fransız
Dini etiqad: katolisizm (87%), protestantlıq (13,0%)
Pul vahidi: avro
Dövlət quruluşu: konstitusiyalı monarxiya

Avropanın cırtdan ölkələrindən biri olan Lüksemburq Almaniya, Belçika və Fransanın əhatəsində yerləşir. Ölkə mühüm maliyyə mərkəzidir, Avropa Məhkəməsi yerləşdiyi ərazidir. Ölkədə yumşaq qışı, sərin yayı olan mülayim-dəniz iqlimi səciyyəvidir. Yanvarın orta temperaturu 1°C, iyul 18°C-dir. Yağıntıların illik miqdarı 730 mm-dir.

Lüksemburq iki coğrafi vilayətə ayrılır. Şimal hissədə, ərazinin 1/3-də ensiz vadiləri olan gursulu çaylara malik, səthi sıx meşələrlə örtülən təpələr çoxdur. Cənubdakı maili düzənlikdə (2/3-sində) çəmənliklər, meşələr və üzümlüklər yayılmışdır. Cənub-qərb iri qara metallurgiya, kimya və yeyinti sənayesi müəssisələrinin yerləşdiyi iri sənaye rayonudur. Kənd təsərrüfatında üzümçülük, şərabçılıq, heyvandarlıq sahələri vardır. Lüksemburqda əhalinin həyat səviyyəsi Avropada ən yüksək göstəricilərə malikdir. Ölkədə yaşayan işçi qüvvəsinin 1/3-i xarici vətəndaşlardır. Onların əksəriyyəti 200-dən çox bankda, o cümlədən Aİ-də hökumətlərarası kredit təşkilatı olan Avropa İnvestisiya Bankında işləyir. Əhalinin əksər hissəsi 2 və ya 3 dildə danışır. Məhkəmələrdə əsasən fransız dili, mətbuatda və ədəbiyyatda alman dilindən istifadə edilir. Bir neçə əsr qonşu ölkələrin tərkibində olmuş Lüksemburq 1839-cu ildə müstəqillik qazanmışdır. Turizm inkişaf etmişdir.

Niderland Krallığı

Sahəsi: 41526 km²
Əhalisi: 16,6 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 400,0 nəfər/km²
Paytaxtı: Amsterdam (1497 min nəfər), Haaqa (Hökumətin iqamətgahı; 1008 min nəfər)
Əsas dillər: holland, friz
Dini etiqad: katolisizm (34%), protestantlıq
Pul vahidi: avro
Dövlət quruluşu: konstitusiyalı monarxiya

Niderland dünyada mütləq hündürlüyü az olan, ərazisində ovalıqların geniş yayıldığı ölkələrdən biridir. Quruda Almaniya və Belçika ilə sərhədlərə malik olan Niderland Şimal dənizinin sahillərində yerləşir. Ərazisinin okean suları basmasından qorunması üçün sahillərdə hündür bəndlər qurulmuşdur.

Niderlandın ərazisini coğrafi xüsusiyyətinə görə iki fərqli hissəyə ayırmaq olar: şimalda və qərbdə az ərazi tutan Aşağı Niderland, cənub-şərqdə alçaq təpəliklərdən ibarət kiçik sahə tutan Yuxarı Niderland yerləşir. Yuxarı Niderlandın orta yüksəkliyi dəniz səviyyəsindən 50 m-ə qədərdir. Yüksək tirələr, dağlar olmadığına

görə ölkənin bütün ərazisində iqlim eynidir. Burada Qərb küləklərinin təsiri ilə qış mülayim (orta temperatur -2°C), yay sərin (orta temperatur 17°C) keçir. İllik yağıntının miqdarı 730 mm-dir. Holland dilində Niderland "alçaq ərazi" deməkdir. Ölkə ərazisinin 1/3-nə qədəri okean səviyyəsindən aşağıda yerləşir. Suların qurudulması nəticəsində ərazilər genişlənmiş və çayların mənsəbi bəndlərlə bərkidilmişdir. Regionda XIII əsrdən başlayaraq suların ovalıqlara axmasının qarşısını almaq üçün bəndlər, artıq suların okeana vurulması məqsədilə yel dəyirmanları qurulur. XIX əsrdə ölkədə 9 mindən çox yel dəyirmanı olmuşdur. Bəndlərlə əhatə olunan qurudulmuş ərazilər polderlər adlanır. Hazırda Niderlandda 5000-dən çox qurudulmuş sahələr-polderlər mövcuddur. Onlardan ən böyüyü şlüzlər qurulan bəndlərlə Vaddenze və Eysselmer körfəzlərinə ayrılmış Zeyder-Ze körfəzi sahillərində yerləşir. Qurutma işləri nəticəsində körfəzin daxili hissəsi olan Eysselmer körfəzi gölə çevrilmiş, sahəsi 1650 km²-azalmışdır. Bəndlər qurulmasa ərazisinin yarıya qədəri Şimal dənizi və çayların suları altında qalardı. Dünyanın sənaye cəhətdən ən yüksək inkişaf etmiş və ən sıx məskunlaşmış ölkələrindən birinin mərkəzində yerləşən Rotterdam balıqçı qəsəbəsinin yerində yaranmışdır. XX əsrin iki Dünya müharibəsində güclü dağıntılara məruz qalsa da, sonrakı dövrlərdə inkişaf edərək dünyanın ən böyük dəniz limanına, neft emalı və ticarət-maliyyə fəaliyyətinin əsas mərkəzinə çevrilmişdir. Şəhərdə kimya, gəmiqayırma, yüngül və yeyinti sənayesi müəssisələri vardır. Rotterdam Avropanın iki mühüm çayı olan Reyn və Maas çaylarının mənsəbində, Şimal dənizindən 30 km məsafədə, əlverişli İCM-də yerləşir. Şəhər dənizlə Yeni su yolu kanalı ilə birləşir. Burada yüklənib boşaldılan on minlərlə yük barjlarında Avropanın mərkəzində olan Almaniya, Fransa və b. ölkələrə xammal və hazır məhsullar daşınır. Bu nəhəng liman eyni vaxtda 300 iri yük gəmisini qəbul edir. İldə orta hesabla Niderland limanlarından, o cümlədən Rotterdamdan 600 mln. tona qədər yük keçir. Buradan boru kəmərləri ilə neft və neft məhsulları ölkənin başqa rayonlarına, Almaniyaya, Belçikanın Antverpen şəhərinə göndərilir. Orta əsr kilsələri, qədim binalar və yel dəyirmanları olan şəhər mühüm turizm mərkəzlərindən biridir. Niderland dünyada əhalinin ən sıx yaşadığı ölkələrdən biridir. Əhalinin xeyli hissəsini keçmiş müstəmləkələrdən gələn immiqrantlar təşkil edir. Ölkə ərazisinin yarısı kənd təsərrüfatı məqsədləri üçün istifadə olunur. Bu sahə dünyada ən qabaqcıl, intensiv və yüksək məhsuldarlığı ilə seçilir. Dənli bitkilər, tərəvəz, kartof, gül becərilir, südlük maldarlıq inkişaf edir. Niderland iqtisadi potensialına görə dünyanın ilk 20 ölkəsindən biridir. Təsərrüfatda nəqliyyat və ticarət xidməti, turizm sənayesi, elm tutumlu, yüksək texnologiyaya əsaslanan sahələr, kimya və elektron sənayesi, güllərin ixracının böyük rolu vardır.

Külək enerjisindən ölkədə geniş istifadə olunur

Almaniya Federativ Respublikası

Sahəsi: 357021 km²
Əhalisi: 82 220 min nəfər (2010)
Əhalinin sıxlığı: 230,3 nəfər/km²
Paytaxtı: Berlin (4298 min nəfər)
Əsas dil: alman
Dini etiqad: protestantlıq (42%), katolisizm (42%)
Pul vahidi: avro
Dövlət quruluşu: respublika

Almaniya dünyanın iqtisadi cəhətdən ən qüdrətli dövlətlərindən biri olmaqla, iqtisadi potensialına görə Avropada birinci, dünyada dördüncü yeri tutur. XX əsrdə iki dövlətdən ibarət olan, hər biri fərqli ictimai sistemdə inkişaf edən AFR və ADR 1990-cı ildə vahid ölkədə birləşmişdir.

Ölkə Aİ-nin fəaliyyətində mühüm rol oynayır.

Almaniya Avropanın mərkəzində yerləşməklə, cənubda Alp dağlarından şimalda Baltik və Şimal dənizlərinin sahillərinə qədər 880 km məsafədə uzanır. Hər iki dənizdə ölkəyə məxsus olan çoxsaylı adalar vardır. Onlar arasında Baltik dənizində Ryugen, Xiddenze və Femarn adaları, Şimal dənizində Şimali və Şərq Friz adaları sahəsinə görə fərqlənir. Almaniya quruda 9 ölkə ilə həmsərhəddir, sərhədlərinin ümumi uzunluğu 3621 km-dir. Şimali Almaniyanın relyefinin çox hissəsi geniş ərazi əhatə edən sonuncu buzlaşma dövrünün qalın buz örtüyünün geoloji fəaliyyəti prosesində formalaşmışdır. Almaniyanın landşaftı müxtəlifliyinə görə fərqlənir. Burada sıx meşələrlə örtülmüş təpələr və dağlar, düzənliklər, göllər və çoxsaylı meandrlı çaylar vardır. Ölkəni üç böyük coğrafi vilayətə ayırmaq olar. Şimalda Polşadan Niderlanda qədər qumlu düzənliklərin bataqlıqlar və süpürgə kolluqları ilə növbələşdiyi ovalıq ərazilər yerləşir. İkinci böyük coğrafi vilayət ölkənin mərkəzi hissələrini tutan yaylalardır. Burada bir-birinin ardınca düzülən təpələr, dağlar, çay vadiləri və platolar vardır. Ən yüksək nöqtəsi dəniz səviyyəsindən 1142 m yuxarı qalxır. Almaniyanın cənub hissəsini, yamaclarının aşağı hissəsində sıx meşələr bitən təpələr və dağlar tutur. Almaniyanın cənubunda Bavariya Alpı kimi tanınan Alp dağlarının qolları yüksəlir. Ölkə ərazisinin 30%-ni meşələr tutur. Bu ərazilərin 1/3-i fıstıq, palıd, tozağacından ibarət enliyarpaqlı ağaclarla örtülür. Qalan hissəsi küknar, şam və başqa iynəyarpaqlı ağaclardan ibarətdir. Meşələrin yarısı dövlətə və yerli hakimiyyət orqanlarına məxsusdur. Fermerlər və meşə-ağac tədarükü şirkətləri tez boy atan, ağac emalı və kağız istehsalında istifadə olunan iynəyarpaqlı ağaclar əkirlər. Almaniyanın cənub-şərqində yerləşən Bavariya meşələri Qərbi Avropada ən böyük sahə tutan dağ meşələridir. Ən məşhur Şvartsvald meşələri ölkənin cənub-qərbində yayılır və 5100 km² sahə tutur. Mənzərəli meşələr və göllər çoxlu turist cəlb edir. Ölkənin demək olar ki, bütün ərazisində dəniz iqlimindən kontinentala keçən mülayim iqlim səciyyəvidir. Yağıntılar il boyu bərabər paylanır, uzun müddət buludlu hava olsa da həmişə yağış yağmır. Ölkədə

havanın orta illik temperaturu 9°C-dir. Az hallarda temperaturun kəskin dəyişməsi baş verir. Lakin mövsümlər üzrə temperaturda kəskin fərqlər yaranır. Qışda ovalıqlarda orta temperatur 1,5°C, dağlarda isə -6°C-dir. İyulda orta temperatur düzən ərazilərdəki 18°C-dən cənubda yüksəkliklərlə əhatə olunan vadilərdə 20°C-yədək dəyişir. Cənubda yerləşən Bavariya rayonundakı Alp dağlarında müəyyən vaxtlarda dağlardan vadilərə doğru isti və güclü fön (fyon) külәkləri əsir. Onlar bəzən dağlarda qarın sürətlə əriməsinə səbəb olur ki, bu da daşqınlara gətirib çıxarır. Uzun vegetasiya dövrü, illik yağıntıların 700 mm-dən çox (dağlarda 1600-2000 mm) olması, kəskin temperatur tərəddüdlərinin olmaması çox sahəli kənd təsərrüfatının, xüsusilə də heyvandarlığın inkişafı üçün əlverişlidir. Almaniyada 27 mln. baş donuz, 13 mln. baş iri buynuzlu mal-qara, 110 mln.baş toyuq bəslənir. Ölkə dünyanın on ən böyük taxıl, o cümlədən buğda və arpa istehsal edən ölkələrindən biridir. Əhalinin 3%-nin kənd təsərrüfatında çalışmasına baxmayaraq, Almaniya böyük kartof, müxtəlif kökümeyvəlilər və pivə istehsalında istifadə olunan mayaotu istehsalçısıdır. Ərzaq və içki məhsullarının istehsalı işçilərin sayına görə ölkənin ən mühüm təsərrüfat sahələrindən biridir. Almaniya ABŞ-dan sonra dünyada ikinci pivə istehsalçısıdır, şərab istehsal edən on ən böyük ölkədən biridir. Reyn və mozel şərabları daha məşhurdur. Almaniyanın ən böyük çayı olan Reyn İsveçrədə Alp dağlarından başlanır, Almaniya və Niderlandın ərazisi və sərhədləri boyu axaraq Şimal dənizinə tökülür. Bütün Reyn boyu milyonlarla ton yük daşıyan nəhəng barjalar üzür. Uzunluğu 171 km olan Mayn-Dunay kanalı 1992-ci ildə açılmışdır. Kanal Şərqi Avropanın ən böyük çayı olan Dunayı Reynlə birləşdirir, yüklərin Avropanın mərkəzi regionlarına çatdırılmasına imkan verir. Reyn və Dunaydan başqa, Almaniyadan daha 10 böyük çay, o cümlədən Elba, Ems və Mayn çayları axır. Çayların hamısı bütün axını boyu gəmiçiliyə yararlıdır və hazır məhsulların daşınmasında mühüm rol oynayırlar. Almaniya dünyada ixracın həcminə görə ikinci yeri tutur. Müasir Almaniyanın iqtisadi zənginliyi və iqtisadi gücünün əsasını emal sənayesi təşkil edir. Onun əsas müəssisələri Avropanın ağır sənaye mərkəzlərindən biri və ölkənin qərbində olan Rurda cəmlənmişdir. Məişət texnikasından dəzgah və avadanlıqlara qədər müxtəlif avadanlıqlar istehsal edilən emal sənayesində ölkənin işçi qüvvəsinin 25%-i çalışır. Almaniyada sənayenin aparıcı sahələrinə qara və əlvan metallurgiya, maşınqayırma, kimya, hasilat və neft-kimya sənayesi sahələri aiddir. Lakin xidmət sahələri və elmtutumlu yüksək texnologiyalı sahələr, o cümlədən elektron sənayesi getdikcə daha çox əhəmiyyət kəsb edir. 2005-ci ildə Almaniya dünyada avtomobil istehsalında 3-cü yeri tutmuşdur. Almaniya təbiətin mühafizəsinə xüsusi diqqət yetirən ilk qərb ölkələrindən biridir. Hazırda ölkənin qanunverici orqanı olan parlamentdə "Yaşıllar" Partiyasına xeyli yer məxsusdur. Yüklər və sərnişinlər əsasən avtomobil yolları ilə daşınır. Ölkədə yolların uzunluğu 644 min km-dir. Bir çox iri şəhərlər yüksək sürətli dəmir yolu xətləri ilə birləşmişdir. Bu yollarda 280 km/saat sürətlə İCE (intersiti-ekspress) qatarları şütüyür. Ölkə çox böyük ticarət donanmasına malikdir. Bremen və Hamburq əsas dəniz limanlarıdır. Frankfurt şəhərində Avropanın ən böyük hava limanlarından biri yerləşir. 3 min il əvvəl Du-

Elba çayının sahilində yerləşən Drezden şəhəri

nay və Reyn çaylarının vadilərində bir neçə tayfa məskunlaşırdı. Romalılar bu əraziləri tayfalardan biri olan almanların adı ilə Almaniya adlandırırdılar. XIX əsrə qədər regionda çoxsaylı ayrı-ayrı knyazlıqlar olmuş, 1871-ci ildə onlar vahid dövlət formasında birləşmişdir. 1918-ci ildə Birinci Dünya müharibəsindəki məğlubiyyət təsərrüfata ciddi zərbə vurmuşdur. 1919-cu il Versal sülh müqaviləsinə görə Almaniya silahlı qüvvələrin sayını azaltmalı, Antanta üzvü ölkələrinə böyük təzminat ödəməli, ərazisinin bir hissəsini ətraf ölkələrə, o cümlədən Elzas və Lotaringiya sənaye rayonunu Fransaya qaytarmalı idi. 1933-cü ildə Adolf Hitlerin başçılığı ilə ölkədə faşist diktaturası bərqərar oldu. 1939-cu ildə Almaniyanın Polşaya müdaxiləsi ilə İkinci Dünya müharibəsi başlandı, lakin 1945-ci ildə ölkənin qeyd-şərtsiz məğlub olmasından sonra onun ərazisi ABŞ, Sovet İttifaqı, Fransa və Böyük Britaniya qoşunlarının nəzarət zonalarına uyğun olaraq 4 hissəsyə bölündü. 1949-cu ildə işğal olunmuş ərazilərdə iki Alman dövləti yaradıldı. Sovet qoşunlarının nəzarətində olan ərazilərdə Almaniya Demokratik Respublikası (Şərqi Almaniya), qalan üç ərazidə Almaniya Federativ Respublikası yaradıldı. 1990-cı il oktyabrın 3-də birləşən Almaniya 16 torpaqdan ibarət federativ respublikadır.

Fransa Respublikası

Sahəsi: 547030 km²
Əhalisi: 63,0 mln nəfər (2010)
Əhalinin sıxlığı: 115,2 nəfər/km²
Paytaxtı: Paris (10600 min nəfər)
Əsas dil: fransız
Dini etiqad: katolisizm (84%), protestantlıq (2%)
Pul vahidi: avro
Dövlət quruluşu: respublika



Fransa Qərbi Avropada sahəsinə görə birinci, əhalisinin sayına görə ikinci yeri tutur. Daim dünyanın aparıcı ölkələrindən biri olan Fransa zəngin siyasi, iqtisadi və mədəni tarixə malikdir. Müstəmləkələrinin xeyli hissəsini itirsə də, onların bir hissəsi hazırda da qalır və 127 min km² ərazi tutur.

Fransanın ərazisinin 60%-i dəniz səviyyəsindən 250 m-ə qədər yüksəklikdə yerləşir. Bu ərazilərin çox hissəsini nadir hallarda möhkəm dağ süxurlarının səthə çıxdığı, maili yüksəklikləri və geniş çay dərələri olan alçaq təpəliklərdən ibarət düzənliklər tutur. Ölkənin şimal-qərbindəki Bretan və Normandiya əyalətlərində təpələr daha geniş ərazidə yayılır. Dağlar Fransanın cənubu və şərqində yüksəlir. Şimal-şərqdə zirvələri hamarlanmış Vogez dağ silsiləsinin 200 mln. il yaşı vardır. Onlardan cənubda 1710 m yüksəkliyə qalxan və İsveçrədə də davam edən Yura dağları yerləşir. Lakin ən yüksək zirvələr Alp dağlarındadır. Onlar arasında qitənin ən yüksək nöqtəsi olan Monblan dağı (4807 m) fərqlənir. Cənubda yüksələn, ölkənin 15%-ni tutan Mərkəzi massiv 300 mln. il əvvəl yaranmış, Alp dağlarının yaranması prosesində intensiv aşınmaya məruz qalmışdır.

Alp dağlarının yüksəlməsi bu dağ massivində vulkan fəaliyyətini gücləndirmiş, 10 min il əvvəl fəaliyyət dayanmışdır. Bu dövrdən ərazidə soyumuş lava kütlələri və sönmüş vulkanların iti uclu konusları qalmışdır (onlar "pyui" adlanır). Ölkənin bir neçə böyük çayı, o cümlədən Luara öz başlanğıcını Mərkəzi massivdən götürür. Onunla birlikdə Sena, Rona və digər iri çaylar geniş məhsuldar vadilər yaratmışdır. Bu ərazilər əkinçiliyin əsas mərkəzləridir. Ölkənin cənub-qərbində möhtəşəm dağ sistemi olan Pireney İspaniya ilə təbii sərhəd rolunu oynayır. Fransanın ərazisi Avropada yerləşən 96 və 4 xarici departamentə bölünür. Xarici departamentlərə Cənubi Amerikada Qviana, Karib dənizində Martinika və Qvadelupa, Hind okeanında Reyunon aiddir. Hazırda dünyanın ayrı-ayrı regionlarında Fransanın bir neçə müstəmləkəsi qalmışdır.

Fransa şimalda və qərbdə Atlantik okeanının, cənubda Aralıq dənizinin suları ilə yuyulur. Okean sahillərinin çox hissəsini Biskay körfəzi tutur. Aralıq dənizinin sahillərində məşhur turizm şəhərləri (Nittsa, Kann, Mentona, Antib) olan Fransa Rivierası zonası və ya Lazur sahilləri yerləşir. Belə coğrafi mövqe onun tarix boyu güclü ticarət və müstəmləkə dövləti olmasına imkan vermişdir. Sahilboyu yerləşən bəzi şəhərlər iri limana çevrilmişdir, onlar arasında Havr, Marsel, Dyunkerk, Ruan, Nant-Sen-Nazer, Bordo daha böyük əhəmiyyət kəsb edir. Fransa Böyük Britaniyadan La-Manş və Pa-de-Kale boğazları ilə ayrılır. Bu su məkanının 30 km-lik ensiz hissəsində 1994-cü ildə Avrotunel çəkilmişdir. Tunel dəmir və avtomobil yolu ilə iki ölkəni birləşdirir.

Fransanın iqlimi mülayimdir, bununla yanaşı müəyyən regional fərqlər də vardır. Ölkənin şimalı və qərbində Atlantik okeanından əsən küləklər hesabına nüsbi rütubətlik yüksək, hava çox rütubətli və dəyişkəndir. Bu ərazilərdə yay sərin, qış yumşaq keçir. Paris ətrafındakı İl-de-Frans regionunda dəniz iqlimindən kontinental iqlimə keçid tipi formalaşır. Yazda və payızda bol yağıntılar düşür, yayda ildırım çaxır. Ölkənin şərqində və Mərkəzi massiv sahəsində yay və qış temperaturları arasında xeyli fərqlər yaranır. Bu regionların iqlimi kontinentala yaxındır. Cənubda Aralıq dənizi iqlim tipi üstünlük təşkil edir. Yayda orta sutkalıq temperatur 17°-29°C arasında olur, qışda isə az hallarda 0°C-dən aşağı düşür. Cənubi Fransada güclü, quru və soyuq mistral küləkləri əsir. Bəzən bir neçə gün əsən küləklərin sürəti 130 km/saata qədər çatır və əkinçiliyə ciddi ziyan vurur. Şimaldakı ovalıqlarda il ərzində 300 mm, dağlarda bəzi yerlərdə 1300 mm-ə qədər yağıntı düşür. Fransa dünyada kənd təsərrüfatı məhsullarını istehsal və ixrac edən ən mühüm ölkələrdən biridir. Burada taxıl və kökümeyvəli bitkilər, qulançar, kətan, tut ağacı, tütün əsas bitkilərdir. Ölkədə 20 mln. başdan çox iribuy-nuzlu mal-qara, 300 mln. baş quş saxlanılır. Geniş ərazilərdə meyvə bağları yayılmışdır. Üzüm, alma və başqa meyvələrin məhsullarının çox hissəsi içkilər və şirə (sous) hazırlanmasında istifadə olunur. Fransa özünün şərabları və tünd spirtli içkiləri ilə məşhurdur. Onlar ənənəvi olaraq istehsal olunduğu regiona görə adlanır: şampan, burqund, bordo, konyak və s. Fransa dünyada ikinci böyük pendir istehsalçısıdır. İkinci Dünya müharibəsindən sonra Fransa iri sənaye dövlətinə çevrilmişdir. Belə sürətli inkişafa ölkənin zəngin təbii sərvətləri, o cümlədən dəmir filizi ehtiyatları imkan vermişdir. Dəmir filizinin ehtiyatlarına görə Fransa Avropada qabaqcıl yerlərdən birini

Parisdə Luvr sarayı

tutur. Fransada atom energetikası güclü inkişaf etmişdir, elektrik enerjisinin 84%-i AES-lərdə istehsal olunur. Ölkə Avropada iri maşınqayırma mərkəzi kimi tanınır, müxtəlif təyinatlı texnika, avtomobil, elektronika, meşə sənayesi məhsulları istehsal olunur. Aviasiya-kosmos, kimya, radioelektronika, gəmiqayırma sahələri yüksək ixtisaslı kadrlardan istifadə edilməsinə əsaslanır. Fransa qəbul edilən turistlərin sayına görə dünyada birinci yeri tutur. Ölkəyə 2008-ci ildə 79 mln. nəfərdən çox turist gəlmişdir. Fransanın təsərrüfatında ən böyük rol turizmə məxsusdur. Pireneyin ətəyindəki dini ziyarət mərkəzi olan Lurd şəhəri və Alp dağlarındakı qış dağ-xizək kurortlarından mənzərəli çay dərələri, Luara qəsrləri və Aralıq dənizinin Lazur sahillərinin dəbdəbəli kurortlarına qədər geniş çeşidli mərkəzlər turistlər üçün çox maraqlıdır. Paris təkcə ölkənin paytaxtı deyil, həm də onun siyasi, mədəni və işgüzar-biznes təsiri bütün ölkəyə və ətraf ərazilərə yayılır. Parisin mərkəzi Sena çayında 2200 il əvvəl kelt tayfası olan parizilərin öz məskənlərini saldıqları kiçik Siti adasıdır. O dövrdən sonra buradakı çayın meadrında Paris şəhəri inkişaf etmişdir. Şəhərin tarixi inkişafını əks etdirən çoxsaylı memarlıq abidələrinə Müqəddəs Məryəm kilsəsi, Sorbon Universiteti və Luvr muzeyi aiddir. Məhz Parisdə 1789-1799-cu illərdə olmuş Böyük Fransa inqilabı nəticəsində ölkəni 1300 il idarə etmiş Şahzadələrin hakimiyyəti devrilmiş və respublika təsis edilmişdir. Əhalinin 90%-i yerli sakinlər olan fransızlardır. Qədimdə Fransanın ərazisində keltlər yaşamışlar. B.e.ə. II əsrdə bu ərazilərə romalılar gəlməyə başladılar və keltləri qallar adlandırdılar. Ona görə ölkənin tarixi adı Qalliyadır. B.e.ə. I əsrin ortalarında bütün Qalliya Roma imperiyasının tərkibinə qatılmışdır. 2600 il əvvəl qədim yunanlar hazırda iri şəhər və liman olan Marselin yerində Massiliya ticarət məntəqəsinin əsasını qoymuşlar. V əsrdə Xalqların Böyük köçü prosesində Qalliyaya alman tayfaları daxil olmuşdur. Cənubdan və cənub-qərbdən qərbi qotlar, şərqdən və cənub-şərqdən burqundlar, şimal və şimal-şərqdən franklar gəlirdilər. V əsrin sonunda demək olar ki, bütün Qalliya Frank Şahzadəsi I Xlodviq tərəfindən tutulmuş və Frank dövlətinin əsas hissisinə çevrilmişdir. X əsrdən ölkə Fransa adlanır. X əsrin birinci yarısında ölkənin şimal-qərb hissəsində norman istilaçıları qərar tutdular. Ona görə bu ərazilər Normandiya adlanır. Fransa bu əraziləri 1202-1204-cü illərdə geri almışdır. XVI əsrdə ölkədə mütləq hakimiyyət qurulmuşdur. XVIII-XX əsrlərdə Fransa müstəmləkə dövlətinə çevrilmişdir. Şimali Afrikanın çox hissəsi, Qərbi Afrikanın bir hissəsi, Karib dənizi hövzəsində, Cənub-Şərqi Asiyada ərazilər və Sakit okeanda çoxlu adalar Fransanın müstəmləkəsi olmuşdur. Bu regionlardan, xüsusilə Şimali Afrikadan ölkəyə xeyli sayda miqrantlar gəlmişdir. Ölkədə portuqal, italyan, ispan və türk icmaları da vardır.

Korsika adası

XVIII əsrin sonunda ada Fransanın tərkibinə qatılmışdır. Korsika Aralıq dənizində sahəsinə görə dördüncü yeri tutur. Adanın 2/3 hissəsini qranitdən ibarət dağlar tutur, burada 20 zirvənin hündürlüyü 2000 m-dən yuxarıdır. Korsikada 299 min nəfər əhali yaşayır. B.e.ə. I minillikdə Korsikada iber və liqur tayfaları məskunlaşmışdır. B.e.ə. III əsrdə ərazini romalılar işğal etmişdir. İlkin orta əsrlərdə adaya yunanlar və alman tayfaları (qotlar, franklar, lanqobardlar) gəlmiş və yerli əhali ilə qarışmışlar. Korsikalıların mədəniyyətinə buranı IX əsrdə işğal etmiş ərəblər, sonralar XI-XIV əsrlərdə adaya hakim olmuş pizanlar və genuyalıların böyük təsiri olmuşdur.

Monako Knyazlığı

Sahəsi: 2 km²
Əhalisi: 33,8 min nəfər (2009)
Əhalinin sıxlığı: 16,9 min nəfər/km²
Paytaxtı: Monako (1,0 min nəfər)
Əsas dillər: fransız, moneqask
Dini etiqad: katolisizm (95%)
Pul vahidi: avro
Dövlət quruluşu: konstitusiyalı monarxiya

Monako Aralıq dənizinin sahillərində yerləşir. Quruda hər tərəfdən Fransa ilə əhatə olunan ölkədə dağlar üstünlük təşkil edir. Mülayim iqlim turizmin inkişafına şərait yaradır. Aralıq dənizi iqlimi şəraitində orta temperatur yanvarda 9°C, iyulda 24°C-dir. İllik yağıntılar 1340 mm təşkil edir.



Monako sahəsinə görə dünyanın ən kiçik dövlətləri arasında axırdan ikinci yeri tutur. Ölkənin ərazisi 1964-cü ildən sonra qurutma işləri nəticəsində 20% artmışdır. Əhalisinin 1/4 hissəsindən azı yerli sakinlərdir. Vergilər aşağı olduğundan burada əhalinin qalan hissəsini böyük iş adamları və biznesmenlər təşkil edir. Ölkənin təsərrüfatında kosmetika, radioelektronika, kimya və yüngül sənayesinin rolu xidmət sahələrinə nisbətən çox cüzidir. Bu sahələrə banklar və sığorta şirkətlərinin fəaliyyəti, turizm sənayesi daxildir. Monako artıq 700 ildən çoxdur ki, Qrimaldi sülaləsi tərfindən idarə olunur. Milli Şura Şahzadə ilə birlikdə ölkənin idarə olunmasında iştirak edir.

İsveçrə Konfederasiyası

Sahəsi: 41285 km²
Əhalisi: 7,8 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 188,9 nəfər/km²
Paytaxtı: Bern (346 min nəfər)
Əsas dillər: alman, fransız, italyan, İsveçrə retoromanı
Dini etiqad: protestantlıq (43,5%), katolisizm
Pul vahidi: İsveçrə frankı
Dövlət quruluşu: respublika

İsveçrə Avropada dağların daha geniş sahə tutduğu ölkədir. Onun ərazisinin 60%-ni Alp dağları tutur. İsveçrə yüksək inkişaf etmiş və çoxmillətli ölkədir.

İsveçrənin ərazisində olan yüksək dağ zirvələri yaşıllıqlara bürünmüş vadilər və platolarla (yaylalarla) əvəz edilir. Ölkənin 20%-ə qədəri meşələr ilə örtülür. Əsas çaylar olan Reyn və Rona əks istiqamətlərdə axaraq müxtəlif dənizlərə - Şimal və Aralıq dənizlərinə tökülür. Ölkənin qərbində Atlantik okeanından əsən küləklər rütubətli hava gətirir, bol yağıntılara səbəb olur. Şərqində isə iqlim bir qədər quru olur və mövsümü temperaturlar arasında kəskin fərqlər əmələ gəlir. Vadilərdə

və düzənliklərdə iqlim mülayimdir. Alpdan cənubdakı düzənliklərdə nisbətən istidir, Aralıq dənizi iqliminə yaxındır. Ölkə ərazisinin 2/3 hissəsini iki dağ sistemi tutur. Qərbdə Yura dağları Fransa ilə təbii sərhəd rolunu oynayır. Alp və Yura dağları arasında orta yüksəkliyi 395 m-ə çatan alçaq təpəliklərdən ibarət İsveçrə yaylası ayrılır. İsveçrədə Alp dağları sisteminin 1/5 hissəsi yerləşir. Dağlar ölkənin şərqindən qərbinə doğru uzanaraq onun bütün mərkəzi və cənub hissələrini tutur. Cənub-qərbdə İtaliya ilə İsveçrənin sərhəddində Alplar daha mənzərəlidir. Hündürlüyü 4000 metrdən çox olan məşhur zirvələrə Matterxorn (4477 m) və Düfur (4634 m) aiddir. Alp regionunun dağlıq relyefi kənd təsərrüfatının inkişafı üçün az əlverişlidir. İntensiv texnologiyanın istidafə edilməsi nəticəsində əhali özünü bir çox ərzaq məmulatları, o cümlədən ət, süd məhsulları və buğda ilə tam təmin edir, kartof, şəkər çuğunduru, arpa, darı, üzüm əkilir. İsveçrədən süd məhsulları, pendir və şokalad dünyanın bir çox ölkələrinə ixrac edilir. Elektrik enerjisi istehsal edilən sürətli çaylardan başqa ölkədə digər təbii enerji ehtiyatları yoxdur. İdxal edilən xammallar emal edilir və onlardan az istifadə edilən və bahalı məhsul istehsalı, o cümlədən saatlar, dərman, elektron və əl işi olan məmulatları hazırlanır. Digər ölkələrlə birlikdə dağ sistemlərini yarıb keçən tunellər tikilmişdir. Ölkənin dünya okeanına çıxışı olmasa da, 170 ticarət gəmisindən ibarət milli donanmaya malikdir. Gəmilər xarici ölkələrin limanlarında, Reyn çayında olan Bazel şəhərində lövbər salır. Ölkənin ərazisi kiçik olsa da sakinlər bir çox dillərdə – 63,7%-i alman, 18%-i fransız, 4%-i italyan dilində danışır. Alman dilinin İsveçrə ləhcəsi ədəbi alman dilindən kəskin fərqlənsə də, qəzetlərdə və çap materiallarında ədəbi alman dilindən istifadə olunur. Fransız dilində ölkənin qərbində və Cenevrə rayonunda daha çox adam danışır. Dördüncü rəsmi dil olan İsveçrə retoroman dilində cənub-şərqdə əhalinin 1%-dən azı danışır. 200 ilə yaxındır ki, ölkədə heç bir müharibə və münaqişələrdə iştirak etmir, 1815-ci ildən siyasi bitərəfliyini saxlayır. Ölkənin daxili vəziyyəti sabit qalmış, maliyyə və bank mərkəzi kimi zənginləşmişdir. Burada və digər xidmət sahələrində işçi qüvvəsinin yarısı çalışır. Ölkədə bir çox böyük beynəlxalq təşkilatlar, o cümlədən Cenevrə şəhərində Qırmızı Xaç və Ümumdünya Səhiyyə Təşkilatlarının mənzil-qərargahı yerləşir. Burada BMT-nin Avropa mənzil-qərargahı da fəaliyyət göstərir. Ölkə bu təşkilata 2002-ci ildə üzv olmuşdur.

Avstriya Respublikası

Sahəsi: 83858 km²
Əhalisi: 8400 min nəfər (2010)
Əhalinin sıxlığı: 100,2 nəfər/km²
Paytaxtı: Vyana (1984 min nəfər)
Əsas dil: alman
Dini etiqad: katolisizm (78%)
Pul vahidi: avro
Dövlət quruluşu: respublika

Avsrtiya Alp dağlarının şərq hissəsində və onun ətəklərində yerləşir. Onun ərazisinin 2/3 hissəsini Alp dağları tutur. Ölkə özünün tarixi və mədəniyyət mərkəzləri, ecazkar dağ mənzərələri ilə məşhurdur.

Avstriyada olan dağ silsilələri çoxsaylı aşırımlarla parçalanır. Yüksək dağlıq əyalət olan Ti-rolda 300-dən çox zirvənin hündürlüyü 3000 m-dən yuxarıdır. Əyalətin ən böyük

şəhəri İnsbrukdur. Ölkədə mülayim-kontinental iqlim hakimdir. Orta temperatur ərazinin yüksəkliyindən asılıdır. Yay qısa və mülayim-isti keçir (iyulun orta temperaturu 18°C), qış isə soyuqdur (yanvarın orta temperaturu -2°C) və vadilərdə üç ay və daha çox davam edir. Orta hesabla 800 mm, qərbdə olan dağlarda 2100 mm yağıntı olur. Ölkənin ərazisindən çoxlu çaylar, o cümlədən Dunay və onun mühüm qolu olan İnn axır. Dağ silsilələri əksər yerlərdə vadilərlə ayrılır. Dağların yamacının aşağı sahələri isə bir qayda olaraq sıx meşələr ilə örtülür. Məhsuldar torpaqlar ölkənin şimal-şərq hissəsində yerləşir. Dağların vadilərində südlük heyvandarlıq inkişaf etmişdir, buğra, arpa, şəkər çuğunduru əkilir, şərab istehsal olunur. Avstriyanın sürətlə axan dağ çaylarının hid-roenerji potensialından istifadə etməklə elektrik enerjisinin 70%-i SES-lərdə istehsal edilir. Ucuz elektrik enerjisinin əsas hissəsi sənayedə çuqun, polad və alüminium istehsalı üçün istifadə olunur, bir hissəsi qonşu ölkələrə satılır. İstehsal olunan yarımfabrikatlar dəzgahlar, yük avtomobilləri və digər maşınqayırma məhsullarının hazırlanmasında, kimya sənayesində istifadə olunur. Sənayedə sənətkarlıq məmulatları, o cümlədən çini, billur qablar, zərgərlik məmulatları istehsal edilir. Sənayenin əsas hissəsi ölkənin paytaxtı Vyana rayonunda yerləşir. Avstriya əhalisinin 20%-ə qədəri burada yaşayır. Şəhər ölkənin 9 federal torpağından (əyalətindən) biri sayılır. Avstriyanın indiki əraziləri qədim dövrlərdən məskunlaşır. VI-VII əsrlərdən burada alman, az sayda slavyan tayfaları yaşamış, əvvəllər romalılarla birləşmiş olan kelt əhalisi ilə assimilyasiyaya uğramışlar. Ölkə XIII əsrdə tanınmışdır. Avstriya imperiyasının çiçəklənməsi (1867-ci ildə yaradılmışdır) dövründə onun ərazisinə Macarıstan, Çexiya, İspaniya, İtaliyanın bir hissəsi, Polşa daxil olmuşdur. 1945-ci ildə sovet, amerikan, britan və fransız hərbi birləşmələri ölkəni azad etmiş və öz nəzarətində saxlamışlar. Ölkə 1955-ci ildə öz müstəqilliyini bərpa etmiş, 1995-ci ildə Avropa İttifaqına qəbul olunmuşdur.

Lixtenşteyn Knyazlığı

Sahəsi: 160 km²
Əhalisi: 35400 nəfər (2009)
Əhalinin sıxlığı: 221,3 nəfər/km²
Paytaxtı: Vadus (6000 nəfər)
Əsas dil: alman
Dini etiqad: katolisizm (80%)
Pul vahidi: İsveçrə frankı
Dövlət quruluşu: konstitusiyalı monarxiya

Lixtenşteyn Avropanın cırtdan ölkəsidir. Ölkə dünyanın kiçik dövlətləri siyahısında altıncı yeri tutur, Reyn çayı ilə Alp dağları arasında yerləşir.

Lixtenşteyndə qış şaxtalı və qarlı keçir, yay isə isti olur. İldə 1000 mm yağıntı olur. Belə şərait üzüm və buğda becərilməsinə imkan verir. Reynətrafı düzənlikdə südlük heyvandarlıq inkişaf edir, donuz, qoyun saxlanılır. Sənayedə metal, kimya, toxuculuq, əczaçılıq, yeyinti məhsulları, mebel, keramika məmulatı istehsal olunur. 1719-cu ildə yaradılmış knyazlıq öz müstəqilliyini qoruyub saxlamışdır. Vergilərin aşağı olması xarici iş adamları və bankirləri bura cəlb edir. Gəlirlərin təxminən 1/10 hissəsi poçt markalarının satışından əldə edilir. İsveçrə Knyazlığın maraqlarını xarici ölkələrdə təmsil edir. Sənaye müəssisələrinin çoxu İsveçrə şirkətlərinin filiallarıdır. Lixtenşteyn Avropa İttifaqının üzvü deyildir.

Cənubi Avropa
İspaniya Krallığı

Sahəsi: 504782 km²
Əhalisi: 47,1 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 93,3 nəfər/km²
Paytaxtı: Madrid (6123 min nəfər)
Əsas dillər: ispan, katalon, bask, qalis
Dini etiqad: katolisizm (94%)
Pul vahidi: avro
Dövlət quruluşu: konstitusiyalı monarxiya

İspaniya vaxtilə dünyanın ən böyük müstəmləkə imperiyalarından olmuşdur. Lakin hazırda bu müstəmləkələrdən və onlardan gələn gəlirlərdən məhrum olan ölkə ciddi iqtisadi böhran keçirir. Avropada böyükyüyünə görə dördüncü, iqtisadi potensialına görə beşinci, əhalisinin sayına görə yeddinci ölkədir. İspaniya zəngin mədəniyyətə və tarixə malikdir.

İspaniya Pireney yarımadasında yerləşir və onun 4/5 hissəsini tutur. Ölkə Fransadan Pireney dağları ilə ayrılır. Tərkibinə Balear və Kanar adaları, Afrika sahillərində üç kiçik adalar qrupu daxildir. İspaniyanın sahillərini Atlantik okeanı və Aralıq dənizinin suları yuyur. Şimali Afrika ilə yarımada arasında Cəbəlüttariq boğazı yerləşir. Mərakeş ərazisində olan Seuta və Melilya əraziləri də İspaniyaya aiddir. Pireney yarımadasının cənubunda, Cəbəlüttariq boğazında 1713-cü ildən Böyük Britaniyanın mülkü olan Cəbəlüttariq yerləşir. 6,5 km² sahəsi olan bu quru parçasında 28 min nəfər əhali yaşayır. Onların əksəriyyəti turizm və dənizçiliklə məşğul olur. Uzun illərdir ki, İspaniya və Böyük Britaniya bu ərazilərə yiyələnmək uğrunda mübarizə aparır. 2002-ci ilin noyabrında aparılmış referendumun nəticələrinə görə burada yaşayan sakinlər Böyük Britaniyanın himayəsində yaşamağa üstünlük vermişdir. Ölkənin şimal-şərqində Pireney dağları yüksəlir, şimal-qərbdə, Atlantik okeanının sahilləri boyu Kantabriya dağları uzanır, sonra Portuqaliya ərzisinə daxil olur. Kantabriya dağlarından Aralıq dənizinə tərəf İberiya dağları, Mesetadan cənubda isə Syerra-Morena və Əndəlus dağları (Kordilyer-Betika) uzanır. İspaniyanın mərkəzində ölkə ərazisinin yarısını tutan Meseta (Kastiliya) yaylası ayrılır. Sahəsi 210 min km² olan yayla dəniz səviyyəsindən orta hesabla 700 m yüksəkliyə malikdir, çox hissəsi meşəsiz quraq ərazilərdir. Mesetanın mərkəzi sahələrində Mərkəzi Kordilyer dağ silsiləsi yerləşir. Yaylada Qvadiana, Duero və Taxo kimi iri çaylar və onların qolları axır. İspaniyanın çox hissəsi üçün isti Aralıq dənizi iqlim tipi səciyyəvidir. Bəzi şimal rayonlarında qışda temperaturu 0°C-dən aşağı düşür. Cənub sahillərində yerləşən Malaqada orta illik temperatur 13,9°C qeydə alınır. Ölkə ərazisinin çox hissəsində yağıntıların orta illik miqdarı 600 mm-dən azdır. İqlimi isti olan Mesetada tez-tez quraqlıq olur. Bir çox rayonlarda əkinlər suvarılır. Ənənəvi aqrar ölkə olan İspaniyada sit-rus meyvələri, şəkər çuğunduru, dənli bitkilər, zeytun, üzüm (ildə 6 mln. t) becərilir. 1970-ci illərdən sonra

maşınqayırmanın avtomobil, gəmi, dəzgah, telekommunikasiya avadanlıqları istehsalı, neft-kimya, kimya, yüngül və yeyinti sahələri inkişaf edir. XV əsrin sonunda Şahzadə İzabella və ondan sonra Ferdinandın hakimiyyəti dövründə İspaniya vahid dövlət kimi birləşdi. Ölkənin hakimiyyət dairələri uzaq dəniz ekspedisiyaları təşkil edərək öz mülklərini genişləndirməyə çalışırdılar. Kolumbun kəşf etdiyi Yeni Dünyaya can atan konkistadorlar az vaxtda onun bütün ərazilərini fəth etdilər. XV əsrin sonunda İspaniya böyük müstəmləkə imperiyasına çevrildi, Şimali, Mərkəzi, Cənubi Amerikanın əksər əraziləri və Karib dənizindəki bəzi adalar ölkənin əsarətinə keçdi. Avropada isə Portuqaliya, Niderland, Avstriya, Fransa, Almaniya və İtaliyanın bir hissəsi İspaniyaya tabe idi. XVII əsrin ortalarından başlanan müharibələr və daxili münaqişələr nəticəsində 1714-cü ildə ölkə Avropada olan mülklərindən, 1825-ci ildə Cənubi Amerikada olan müstəmləkələrindən məhrum oldu. 1980-ci illərdə emal sənayesi və turizmin inkişafı ilə əlaqədar İspaniyada iqtisadi yüksəliş baş vermişdir. Yüksək inkişaf etmiş istehsal sahələrinin yaradılması və xidmət sferasının genişlənməsi prosesində əhalinin kəndlərdən şəhərlərə miqrasiyası başlanmışdır. Hazırda əhalinin 78%-i şəhərlərdə yaşayır. Ölkənin paytaxtı olan Madrid Meseta yaylasının mərkəzində yerləşir. İspaniyanın ikinci böyük şəhəri olan Barselona (2,4 mln nəfər) Aralıq dənizi sahillərində mühüm liman, ətrafda əhalinin sıx məskunlaşdığı iri sənaye regionunun mərkəzidir. XV əsrə qədər İspaniya finikiyalı, kelt, yunan, karfagen, sonradan roma, şərqi qot və ərəb xalqlarının işğalına məruz qalmışdır. İlkin vaxtlarda ispan torpaqlarında iber tayfaları yaşayırdı. Onlar b.e.ə. I minillikdə yarımadaya gəlmiş kelt tayfaları ilə qarışmışdır. B.e.ə. III-II əsrlərdə əraziyə romalılar, V əsrdə alman mənşəli şərqi qot tayfaları hücum etmiş, 711-718-ci illərdə bütün İspaniyanı ərəblər və bərbərlər işğal etmişdir. Müsəlman memarlıq üslubu ölkənin arxitektura üslubuna bir neçə əsr öz təsirini göstərmişdir. İspaniyada yaşayan xalqlara şimalda basklar, şərqdə və şimal-şərqdə kataloniyalılar aiddir. XX əsrdə də ölkənin tarixi mübarizələrdə keçmişdir. 1936-1939-cu illərdə olan vətəndaş müharibəsindən sonra 1975-ci ilə qədər general Fransisko Franko diktator olmuşdur. 1970-ci illərin sonunda qəbul edilmiş yeni konstitusiyaya görə 17 tarixi vilayət və 2 şəhərə muxtariyyət verilmiş, yerli dillərdə dərslər keçirilməsinə icazə verilmişdir. İspaniya turistlər arasında ən məşhur olan üç ölkədən biridir. 2003-cü ildə ölkənin turizmdən əldə etdiyi gəlirlər 40,0 mlrd. dollardan çox olmuşdur. Lakin son bir neçə ildə turistlərin sayı azalmağa doğru gedir (2009-2010-cu illərdə 10%). Onları isti iqlim, Aralıq dənizinin gözəl çimərlikləri, Barselona, Madrid və Valensiya kimi iri tarixi incəsənət və arxitektura mərkəzləri valeh edir. Hər il ölkəyə 50 mln. nəfərdən çox turist gəlir. Onların çox hissəsi Almaniya və Böyük Britaniyanın payına düşür. Aralıq dənizində yerləşən Balear adaları, Atlantik okeanında olan Kanar adaları çox tanınmış istirahət mərkəzləridir. Balear adalarına üç böyük ada daxildir (Mayorka, Menorka və İvisa). Kanar adaları vulkan mənşəli dağların qalıqlarıdır. Daşlıqlardan ibarət olan torpaqlar üzərində seyrək bitki örtüyü əmələ gəlir. Lakin Günəşin il boyu şəfəq saçması və qışın yumşaq keçməsi turizmin inkişafına, ixrac üçün banan və pomidor becərilməsinə əlverişli şərait yaradır.

İspaniyada alçaq təpələrdən ibarət yaylalar çoxdur

Portuqaliya Respublikası

Sahəsi: 92391 km²
Əhalisi: 10,7 mln nəfər
Əhalinin sıxlığı: 115,8 nəfər/km²
Paytaxtı: Lissabon (2 900 min nəfər).
Əsas dil: portuqal
Dini etiqad: katolisizm (90%)
Pul vahidi: avro
Dövlət quruluşu: respublika

Portuqaliya Avropanın cənub-qərb kənarında, Atlantik okeanının sahilində yerləşir. Belə mövqe ölkənin tarixən güclü dəniz dövləti olmasına, geniş ərazilərdə müstəmləkə sistemi qurmasına imkan vermişdir. Ona görə xarici ölkələrdə yaşayan portuqalların sayı onun öz əhalisinin sayından dəfələrlə çoxdur. Portuqaliyada kənd əhalisinin payı digər Qərbi Avropa ölkələrinə nisbətən daha yüksəkdir.

Pireney yarımadasının cənub-qərb hissəsini əhatə edən Portuqaliya şimalda və şərqdə İspaniya ilə həmsərhəddir. Ölkənin şimalında olan dağların yüksək zirvələri qışda qarla örtülür. Ərazinin 35%-ni tutan meşələr də əsasən şimalda yayılır. Ən böyük çayı olan Teju (Taxo) öz başlanğıcını Qərbi İspaniyadan götürür, ölkəni şimal və cənub hissələrə ayırır. Daha iki böyük çay – Doru (Duera) və Qvadiana da İspaniyadan başlanır. Teju çayından cənuba doğru Portuqaliyanın relyefi geniş düzənliklərdən ibarətdir və cənubdakı sahillərdən dağlarla ayrılır. Ölkənin cənubunda Atlantik okeanı sahillərində tarixi Alqarvi əyaləti yerləşir. Çox mənzərəli buxtaları, qumlu çimərlikləri və yumşaq iqlimi olan Alqarvi avropalıların sevimli yay istirahəti yerlərindən biridir. Ölkənin şimalında okean iqlimi, cənubda Aralıq dənizi iqlimi hakimdir. Yanvarın orta temperaturu 10°C, iyul 22°C-dir. İl ərzində 400-800 mm, dağlarda 1200 mm-dən 2500 mm-ə qədər yağıntı olur. Portuqaliya 18 inzibati dairəyə və 2 muxtar vilayətə ayrılır. Ölkəyə Atlantik okeanında yerləşən Madeyra və Azor adaları daxildir. Madeyra adası Portuqaliyadan təxminən 1000 km cənub-qərbdə yerləşir. Ada subtropik və tropik bitkilərlə zəngindir, məşhur istirahət mərkəzidir. Azor adaları Lissabon şəhərindən 1200 km qərbdə yerləşir, 9 vulkanik adadan və bir neçə mərcan rifindən ibarətdir. Ölkə əhalisinin 30%-dən çoxu kəndlərdə yaşayır. Lakin onların yalnız 10%-i əkinçiliklə məşğul olur, zeytun, üzüm və meyvələr, dənli bitkilər yetişdirilir. Portuqaliya öz şərabları, xüsusilə madeyra və portveyn (Portu şəhərinin şərəfinə adlandırılmışdır) ilə məşhurdur, iri buynuzlu mal-qara saxlanılır. Son 20 il ərzində Portuqaliyada ciddi iqtisadi islahatlar aparılmışdır. Yüngül sənaye müəssisələrinin (tikiş, ayaqqabı, yeyinti və sellüloz-kağız) sayı artmışdır. Portuqaliya volfram konsentratının istehsalına görə dünyada aparıcı yer tutur. Sənayenin sellüloz, kağız, keramika, gəmi təmiri, avtomobilqayırma sahələrinin əhəmiyyəti böyükdür. Lissabon və Portu kimi iri dəniz limanları balıqçılıq donanmasının bazasıdır. Atlantik okeanında treska, xek, makrel, paltus və ançous tutulur. Balıq ovunun 1/3-ni isə sardina təşkil edir. Sahilboyu dayazlıqda dəniz ilbizi və digər molyusklar ovlanır. XV əsrdən başlayaraq portuqal dənizçiləri Bartolomeu Diaş, Vasko da Qama, Fernan Magellan və başqaları dünya okeanına çıxaraq, Böyük Coğrafi kəşflər dövründə dünya əhəmiyyətli proseslərə başçılıq etmişlər. Portuqaliya Afrikada, Cənubi Amerikada və Asiyada geniş ərazilərə sahib olmuşdur. Onun Afrikadakı müstəmləkələri (Anqola, Mozambik, Madaqaskar) yalnız 1975-ci ildə müstəqillik qazandılar. 1999-cu ildə Portuqaliya Şərqi Asiyadakı sonuncu müstəmləkəsi Aomını (Makao) Çinə təhvil verdi. Bu ərazi 1680-ci ildə işğal edilmişdir. VIII əsrin əvvəllərində Portuqaliyanın ərazisini Şimali Afrikadan olan ərəblər və bərbərlər işğal etdilər. 1143-cü ildə ***Rekonkista*** (VIII-XV əsrlərdə Pireney yarımadası xalqlarının ərəblərə qarşı mübarizəsi) zamanı Portuqaliyanın ərəblərdən azad olması İspaniyadan daha tez baş verdi. O zamandan bəri ölkəni yerli, bəzi hallarda qonşu ölkələrin monarxları idarə edirdilər. 1910-cu ildə Portuqaliya respublika elan olundu.

İtaliya Respublikası

Sahəsi: 301 277 km²
Əhalisi: 60,5 min nəfər
Əhalinin sıxlığı: 200,8 nəfər/km²
Paytaxtı: Roma (3 402 min nəfər)
Əsas dil: italyan
Dini etiqad: katolisizm (90%)
Pul vahidi: avro
Dövlət quruluşu: respublika

Dünyanın ən yüksək inkişaf etmiş ölkələrindən biri olan İtaliya Appenin yarımadasının bütün ərazisini tutur. Qədim sivilizasiyanın əsas mərkəzlərindən biri olan ölkə bu gün dünyanın əsas iqtisadi güc mərkəzlərindəndir.İtaliya 1860-1871-ci illərdə vahid dövlət kimi birləşmişdir, hazırda yüksək inkişaf etmiş aqrar-sənaye ölkəsidir. Ölkənin daxilində Avropanın iki müstəqil cırtdan dövləti - San-Marino və Vatikan yerləşir.

İtaliyanın şimal-şərqini geniş Padan düzənliyi tutur. Düzənlikdən İtaliyanın ən uzun çayı olan Po (uzunluğu 652 km) axır. İtaliyanın qərb sahilləri boyu şimalda Genuyadan şərqdə Neapola qədər bir-birindən dağlar və təpələrlə ayrılmış ovalıqlar növbələşir. İtaliyada ən məhsuldar torpaqlar Padan düzənliyindədir. Ona görə də burada əhali sıx məskunlaşmışdır. Bura ölkənin əsas kənd təsərrüfat rayonudur və dənli bitkilər, üzüm, zeytun, meyvə-tərəvəz becərilir. Şimalda Dolomit Alpları yüksəlir. Əksər dağların zirvəsi dolomit çöküntülərindən təşkil olunduğuna görə ona belə ad verilmişdir. Alp dağlarının cənubunda böyük göllər – Komo, Qarda və Laqo-Macore yerləşir. Sürətlə axan dağ çayları hidroenerji ehtiyatları ilə zəngindir.

Elektrik enerjisinin demək olar ki, yarısı çaylarda istehsal olunur. Appenin dağları bütün ölkə boyu şimaldan cənuba doğru uzanır. İtaliyanın paytaxtı Roma şəhərindən şərqdə, Qran-Sasso massivində onun hündürlüyü 3000 m-ə çatır. Appenin yarımadasının qərb sahilindən Siciliyaya qədər uzanan tektonik çat üzərində fəaliyyətdə olan vulkanlar, o cümlədən Neapol yaxınlığındakı Vezuvi (1279 m) və Siciliyadakı Etna vulkanları (3323 m) yerləşir. Ölkənin istənilən yerindən dənizlərə məsafə 230 km-dən çox deyil.

İtaliya yumşaq Aralıq dənizi iqlimi, mənzərəli gölləri, dağları, rəngkarlıq, heykəltəraşlıq əsərləri, memarlıq abidələri, həmçinin dağ-xizək mərkəzləri və dəniz kurortları ilə məşhurdur. Bu amillər ölkənin dünyanın ən böyük beş turizm mərkəzlərindən birinə çevrilməsinə imkan vermişdir. 2008-ci ildə İtaliyaya 43 milyon nəfər turist səyahət etmişdir. Ölkə ərazisində 100 min tarixi abidə vardır. Qədim zamanlarda İtaliya Roma imperiyasının mərkəzi, daha sonra XIV əsrdə İntibah (Renessans) dövrünün beşiyi olmuşdur. Bu dövrdə İtaliyada elm, fəlsəfə və incəsənət görünməmiş dərəcədə inkişaf etmişdir. İtaliya dünyaya dahi rəssamlar, yazıçılar, bəstəkarlar bəxş etmişdir. Ölkə opera sənətinin vətəni sayılır.

İtaliya 20 inzibati dairəyə ayrılmışdır. Lakin çox vaxt iki İtaliya – Şimali və Cənubi İtaliya seçilir. İkinci Dünya müharibəsindən sonra Şimal ölkənin əsas sənaye mərkəzi olmuşdur. Burada kimya məhsulları, çuqun, polad, toxuculuq məhsulları, məişət texnikası, ildə 1 milyondan çox avtomobil istehsal edilir. Şimali İtaliyanın şəhərlərində, o cümlədən Milanda, Turində "Fiat", "Olivetti" kimi məşhur italyan avtomobilqayırma şirkətləri fəaliyyət göstərir. Şimali İtaliya bütün Avropanın ən yüksək inkişaf etmiş regionlarından biridir. Region ölkənin kasıb və işsizliyin hökm sürdüyü cənubundan kəskin fərqlənir. Ölkənin cənubu üçün parçalanmış dağlıq relyef və quraq torpaqlar səciyyəvidir. Yerli əhali əsasən əkinçiliklə məşğuldur. Əkinçilik ənənəvi üsullarla aparılır. Əhalinin bir hissəsi kiçik sənaye müəssisələrində çalışır. Yoxsulluq əhalini şimala köçməyə vadar edir. Ölkə əhalisinin 2/3 hissəsi şəhərlərdə yaşayır.

İtaliyanın tərkibinə iki böyük ada – Siciliya və Sardiniya daxildir. Aralıq dənizində ən böyük ada olan Siciliya yarımadanın cənub-qərb qurtaracağından Messina boğazı ilə ayrılır. Siciliya adasının ərazisi əsasən hündürlüyü 200-500 m olan dağlıq yayladan ibarətdir. Adanın şimalında dağlar və bir neçə vulkan vardır. Məşhur Etna vulkanı Avropada fəaliyyətdə olan ən böyük vulkandır. Siciliyanın quru və mülayim iqlimi sitrus bitkiləri, üzüm və zeytun yetişdirilməsinə imkan verir. Adanın təsərrüfatında balıq ovu mühüm rol oynayır. Ölkənin balıqçı gəmilərinin ¼-i burada lövbər salır. Ada dünyanın aparıcı kükürd ixracatçısıdır. Burada, həmçinin dəmir və kömür yataqları da mövcuddur.

Böyüklüyünə görə ikinci ada olan Sardiniya Appenin yarımadasının qərbində yerləşir. Sardiniya adasının relyefi dağlıqdır. Adanın cənub-qərbində yerləşən düzənlik sahələr əkinçilik üçün yararlıdır. Sardiniyada becərilən kənd təsərrüfat bitkilərinə dənli bitkilər, üzüm, zeytun və tütün aiddir. Adada mis, sink, qurğuşun və duz çıxarılır. 1,6 milyon nəfər əhali əsasən sahilboyu şəhərlərdə yaşayır. İnzibati mərkəz olan Kalyari həm də ən böyük limandır. Yerli əhali öz adət-ənənəsini və sardiniya dilini qoruyub saxlamağa çalışır. Bu dil roman dil qrupuna daxildir, latın dilinə çox yaxındır.

Yunanıstan Respublikası

Sahəsi: 131 957 km²
Əhalisi: 11 300 min nəfər (2010)
Əhalinin sıxlığı: 85,6 nəfər/km²
Paytaxtı: Afina (Pirey limanı və şəhərətrafı ilə birlikdə 3 188 min nəfər)
Əsas dil: yunan
Dini etiqad: pravoslav
Pul vahidi: avro
Dövlət quruluşu: respublika

Yunanıstan dünyanın ən böyük sivilizasiyalarından birinin vətənidir. Burada həmin dövrlərdən çoxsaylı qədim tikililər, arxitektura abidələri qalmışdır. Onlar bu gün ölkədə turiz-min inkişafına imkan verən amillərdən biridir. Yunanıstan 1453-1830-cu illərdə Türkiyənin əsarəti altında olmuşdur. Yunanıstan Avropa İttifaqına 1981-ci ildə daxil olmuşdur.

Yunanıstanın ərazisi 4000 km məsafədə uzanan sahil xətlərinə malik, çox parçalanmış materik hissədən və 2000-dən çox adadan ibarətdir. Onlardan yalnız 154-ü məskunlaşmışdır. Adalar və arxipelaqlar Yunanıstan ərazisinin 20%-ni təşkil edir. Ölkənin materik hissəsi Balkan yarımadasının cənubunda yerləşməklə, Egey dənizinin şimal və qərb sahillərini əhatə edir. Patraikos və Korinf kimi iki böyük körfəz Korinf bərzəxi vasitəsi ilə materikə birləşən Peloponnes yarımadasını ondan ayırır. 1893-cü ildə bərzəxdən kanal çəkilmişdir. Bu kanal Egey və İoniy dənizlərini birləşdirir. Ölkənin 80%-i orta hündürlüyə malik dağlar və yaylalardan ibarətdir. Ən böyük dağ silsiləsi Egey dənizinə tərəf alçalan Pind dağlarıdır. Onlar cavandır, hələ də formalaşma prosesi davam edir. Bununla əlaqədar regionda tez-tez zəlzələlər baş verir. Ölkədə Aralıq dənizi iqlim tipi hakimdir. Qış yağıntılı və mülayim keçir. Orta sutkalıq temperatur 10°C-dir. Yayı isə quraq və isti keçir, iyulda orta temperatur 28°C-dir. Ölkə ərazisinin 44%-ni meşə və kolluqlar tutur. Şimalda yayılan meşələrdə vəhşi pişik, cüyür, boz ayı və qaban yaşayır. Əkinçiliyə yararlı torpaqlar ölkə ərazisinin 22%-ni təşkil edir, qalan sahələr dağlardan, daşlıq boş yerlərdən və meşələrdən ibarətdir. Torpaqların az olmasına və bir çox yerlərdə eroziyaya məruz qalmasına baxmayaraq, əmək qabiliyyətli əhalinin 20%-i kənd təsərrüfatında çalışır. Təsərrüfatların əksəriyyəti kiçikdir və miras olaraq ailə daxilində qalır. Əsasən zeytun, üzüm, tütün, pambıq və sitrus bitkiləri becərilir. Kənd təsərrüfatının əsas ixrac məhsulu tütün, pambıq, zeytun yağı və pendirdir. Heyvandarlıqda qoyun və keçi saxlanmasına üstünlük verilir. Aralıq dənizində balıq ehtiyatının qorunması məqsədilə balıq ovu dövlət tərəfindən ciddi şəkildə nizamlanır. Yunanıstanın ən böyük adası olan Krit sahəsinə görə (8336 km²) Aralıq dənizində beşinci yeri tutur. Onun ərazisini üç dağ silsiləsi kəsib keçərək dərin və mənzərəli dərələr əmələ gətirmişdir. B.e.ə. III minillikdə Krit adasında Minoy mədəniyyəti inkişaf etmişdir. Bu da öz növbəsində böyük yunan mədəniyyətinin beşiyi olmuşdur. Bu sivilizasiyanın mərkəzi Afina şəhəri idi. Hələ qədim Yunanıstanda, Peloponnesdən

Afina şəhərinin görünüşü

Qədim Yunanıstanda yaradılmış memarlıq abidələrinin qalıqları hazırki dövrə qədər gəlib çatmışdır

şimal-qərbdə yerləşən Olimpiya şəhərində hər dörd ildən bir Olimpiya oyunları keçirilirdi (b.e.ə. 776-cı ildən 394-cü ilə qədər). 1896-cı ildə Afinada I Olimpiya oyunları keçirildi, hazırda hər dörd ildən bir keçirilir.

Yunanıstanın təsərrüfatı əsasən turizm (ildə 10 milyon nəfər) və kənd təsərrüfatına əsaslanır. Ölkədə boksit, nikel, daş kömür, pirit istisna olmaqla, mineral ehtiyatlar azdır. Sənaye maşınqayırma, neft hasilatı, kimya, eləcə də toxuculuq, sement, telekommunikasiya avadanlıqları istehsalı və yeyinti sənayesi sahələrindən ibarətdir. Avtomobil, gəmilər, məişət elektrotexnika avadanlıqları, toxuculuq məhsulları, şərab, zeytun yağı istehsal olunur. Yunanıstan dünyada ən böyük ticarət donanmasına malik ölkədir. Pirey şəhəri 2500 il əvvəl Saronikos körfəzinin sahilində Afinanın avanportu kimi yaranmışdır. Hazırda ölkənin ən böyük limanıdır və yük dövriyyəsi ildə 10 milyon tondur.

Andorra Knyazlığı

Sahəsi: 465 km²
Əhalisi: 88,8 min nəfər (2009)
Əhalinin sıxlığı: 191 nəfər/km²
Paytaxtı: Andorra-la-Velya (38 min nəfər)
Əsas dillər: katalon, ispan, fransız
Dini etiqad: katolisizm
Pul vahidi: avro
Dövlət quruluşu: parlamentli dövlət

Andorra Pireney yarımadasında, İspaniya və Fransa arasında yerləşən kiçik knyazlıqdır. Ərazi 1278-ci ildə kiçik knyazlıq kimi yaranmışdır, Fransa və İspaniyanın Seo-de-Urxel şəhəri yepiskopunun birgə idarəçiliyi altında yerləşir.

Ölkənin bütün ərazisi dağlardan ibarətdir. İqlim kontinentaldır. Yay burada quru, nisbətən isti (iyulda orta temperatur 26,1°C) keçir, qışda çoxlu qar yağır, temperatur çox aşağı (yanvarda orta temperatur -1,3°C) olur. Ölkə ərazisinin 4%-i əkinçilik üçün yararlıdır, qalan hissəsi isə meşələrlə örtülüdür. Qışda Andorrada olan qalın qar örtüyü ildə 10 milyondan çox turistin bura gəlmisinə imkan verir. Andorra haqqında ilk məlumat 805-ci ilə aiddir. 1993-cü ildə qəbul edilmiş yeni konstitusiyaya görə Andorra suveren dövlətdir. Həmin ildə ölkə BMT-yə qəbul edilmişdir, onun müdafiəsinə Fransa və İspaniya məsuliyyətlidir. Yerli andorralılar əhalinin 30%-ni təşkil edir. Qalan sakinlər isə Fransa (7%) və İspaniyadan (43%) gəlmiş immiqrantlardır. Ölkənin əsas gəliri turizmdən və ofşor biznesindən əldə edilir. Burada xaricilər vergidə azaddır. Kənd təsərrüfatında tütün əkilir, qoyun saxlanılır, sənayedə tütün məmulatları, pendir, mineral sular istehsal olunur.

San-Marino Respublikası

Sahəsi: 61 km²
Əhalisi: 31,3 min nəfər (2009)
Əhalinin sıxlığı: 513 nəfər/km²
Paytaxtı: San-Marino (5,0 min nəfər)
Əsas dil: italyan
Dini etiqad: katolisizm
Pul vahidi: avro
Dövlət quruluşu: respublika

San-Marino Avropanın cırtdan ölkələrindən biridir, sahəsinə görə üçüncü kiçik ölkədir. O, hər tərəfdən İtaliyanın ərazisi ilə əhatə olunmuşdur. San-Marino IV əsrdən məlumdur.



Ölkə İtaliyanın mərkəzində, Appenin dağlarının qollarından birində, üç dağ zirvəsi olan Titano yüksəkliyinin yamaclarında yerləşir, uzunluğu 14 km-dir. Hər üç yüksəklik orta əsr qalalarının adı ilə (La-Rokka, La-Çesta və İl-Montale) adlanır. Yüksəkliyin şimal-şərq yamacları Romanya düzənliyinə zəif meylli şəkildə enir, cənub-qərbdə isə təpəliklər uzanır. San-Marinodan keçməklə Auza və San-Marino çayları axır. Əvvəllər ölkənin təsərrüfatında kənd təsərrüfatı və daş hasilatı mühüm rol oynayırdı. Bu gün San-Marinonun gəlirinin 60%-i turizmdən əldə olunur. Aralıq dənizi iqlimi şəraitində yanvarın orta temperatur 6,0°C, iyulda 25°C-dir. Mənzərəli landşaft, qədim tarixi və yumşaq iqlimi hər il buraya 3,0 mln. nəfər turist cəlb edir. Onların 75%-i italyanlardır. Kənd təsərrüfatının aparıcı sahələri üzümçülük, zeytunçuluq, taxılçılıq, iri buynuzlu mal-qara və donuz saxlanmasıdır. Ölkədə İtaliyanın maşınqayırma və başqa şirkətlərinin filialları yerləşir, toxuculuq məhsulları istehsal olunur.

Vatikan (Müqəddəs Taxt-tac)

Sahəsi: 0,44 km²
Əhalisi: 1000 nəfər
Əhalinin sıxlığı: 2300 nəfər/km²
Paytaxtı: Vatikan (860 nəfər)
Əsas dillər: italyan, latın
Dini etiqad: katolisizm (Vatikan - Roma-katolik kilsəsinin dünya üzrə mərkəzidir)
Pul vahidi: avro
Dövlət quruluşu: teokratik monarxiya

Vatikan İtaliyanın paytaxtı Roma şəhərinin bir məhəlləsini əhatə edir. O, dünyada ən kiçik müstəqil dövlətdir. Vatikanda dünya katoliklərinin mənəvi başçısı, Roma katolik kilsəsinin lideri Roma Papasının iqamətgahı yerləşir.

Vatikanın sxematik planı

Vatikan Roma şəhərindən orta əsr qala divarları ilə ayrılır. Bütün məhsulları, o cümlədən ərzaq, zəruri mallar və elektrik enerjisi idxal edilir. Vatikan özünəməxsus təsərrüfat strukturuna malikdir. Ölkənin əsas gəlir mənbələrinə katolik kilsələrdən olan köçürmələr, müxtəlif ölkələrdə yayaşan dindarlardan daxil olan ianələr aiddir. Ölkəyə gələn yüz minlərlə turistdən alınan giriş haqqı, onlar üçün hazırlanmış suvenirlər, dini kitabların satışından əldə edilən mənbələr dövlət gəlirlərinin xeyli hissəsini təşkil edir. Ölkə bir çox şirkətlərin səhmlərinə malikdir. Vatikan teokratik idarə olunma formasına malikdir, dövlət başçısı eyni zamanda dini idarənin də başçısıdır. Roma-katolik kilsəsi tərəfindən Papa seçilən şəxs ömürlük ölkədə ali hakimiyyətə malik olur. Roma Papasının təhlükəsizliyini 100 nəfərdən ibarət, İsveçrə qvardiyası adlandırılan Vatikan ordusu qoruyur.

Malta Respublikası

Sahəsi: 316 km²
Əhalisi: 414 min nəfər (2009)
Əhalinin sıxlığı: 1267 nəfər/km²
Paytaxtı: Valletta (şəhərətrafı ilə 204 min nəfər)
Əsas dillər: malta, ingilis
Dini etiqad: katolisizm (91%)
Pul vahidi: avro
Dövlət quruluşu: respublika

Malta Aralıq dənizində Avropa ilə Afrika arasında, əlverişli strateji mövqedə yerləşir. Adalar 2000 ildən çoxdur ki, mühüm ticarət mərkəzlərindən biridir. Aralıq dənizi iqlimi şəraitində maydan oktyabra qədər orta temperatur 25°C qeydə alınır.

Malta Siciliya adasından 90 km cənubda yerləşir. Arxipelağın ən böyük adası olan Maltanın uzunluğu 27 km, eni 14,5 km-dir. Adanın 137 km-ə çatan qayalardan ibarət sahillərində alçaq sıldırım qayalar, buxtalar və təbii havanlar (limanlar) çoxdur. Əlverişli təbii şəraiti, mənzərəli landşaft, səfalı dəniz havası, isti quru iqlim turizmin inkişafına imkan verir. Sahillərdən uzaqlaşdıqca relyefdə, yamaclarında əkinçilik üçün istifadə edilən terraslar qurulmuş alçaq təpəliklər üstünlük təşkil edir. Bu terraslarda yem bitkiləri, güllər və sitrus meyvələri yetişdirilir, mal-qara saxlanılır. Şirin suyun əsas mənbəyi təmizlənmiş dəniz suyudur. Şimal-qərbdə yerləşən Qotso adası ilə Malta arasında gəmi-bərələr işləyir. Burada əhali az yaşasa da, daha məhsuldar torpaqlar buğda, üzüm, sitrus bitkiləri, müxtəlif meyvə-tərəvəz becərilməsinə imkan verir. Sənayedə toxuculuq müəssisələri vardır. Strateji əlverşli mövqeyinə görə Malta müxtəlif vaxtlarda finikiyalıların, ərəblərin, karfagenlilərin, romalıların, normanların işğalı altında olmuşdur. Malta son vaxtlara qədər B.Britaniyanın müstəmləkəsi olmuş, 1964-cü ildə müstəqillik qazanmışdır. Malta 2004-cü ildən Avropa İttifaqının üzvüdür. Təsərrüfatın əsasını gəmiçilik, ticarət və turizm təşkil edir. Yanacaq, xammal və bəzi ərzaq növləri idxal olunur.

Kipr Respublikası

Sahəsi: 9251 km², (bunun 3355 km²-i Şimali Kipr Türk Respublikasına aiddir)
Əhalisi: 1041 min nəfər (Şimali Kipr Türk Respublikası daxil olmaqla (2009)
Əhalinin sıxlığı: 112,5 nəfər/km²
Paytaxtı: Nikosiya (284 min nəfər)
Əsas dillər: yunan, türk
Dini etiqad: provoslavlıq (80%), islam (18%)
Pul vahidi: avro
Dövlət quruluşu: respublika



Kipr Kiçik Asiya yarımadasının cənubunda yerləşir. Sahəsinə görə dənizdə üçüncü yeri tutan ada hazırda siyasi-inzibati cəhətdən iki hissəyə bölünmüşdür. Yunan icması 2004-cü ildə Aİ-yə daxil olmuşdur. Ölkədə mis ehtiyatları olduğuna görə adı da bu elementə görə verilmişdir.



Kiprin mərkəzində düzənliklər yerləşir, şimalı və cənubunda dağlar yüksəlir. Cənub-qərbdə Troodos dağları geniş ərazi tutur. Alçaq otlar və kollardan ibarət olan bitki örtüyü geniş yayılmışdır. Meşələr yalnız dağların yamaclarında 500 m-dən yuxarıda qalmışdır. Burada palıd, sərv, hələb şamı bitir. Ərazinin 10%-ni otlaqlar təşkil edir. Buğda, kartof, tütün, badam, zeytun və üzüm becərilir, zeytun yağı istehsal olunur. Orta illik temperaturu 20,5°C olan isti Aralıq dənizi iqlimi hakimdir. Yanvarın orta temperaturu 10°- 15°C, iyulda 25°- 35°C-dir. Yağıntıların orta illik miqdarı 300-500 mm-ə qədərdir, Troodos dağlarının bəzi yerlərində 1050 mm-ə qədər yağıntı düşür. Kipr qədim Egey mədəniyyətinin mərkəzlərindən biridir. 395-ci ildən ada Bizans imperiyasının tərkibinə daxil olmuşdur. Sonralar buranı ərəblər və səlib yürüşçüləri zəbt etmişdir. Kipr 1571-1878-ci illərdə Osmanlı imperiyasının, 1878-1959-cu illərdə Böyük Britaniyanın müstəmləkəsi olmuşdur. Yunan icmasının sakinləri əhalinin 78%-ni, türk icması 18%-ni təşkil edir. Ada 1960-cı ildə müstəqillik qazanmış, 1963-cü ildən yunanlar və türklər arasında silahlı münaqişələr başlanmışdır. Nəticədə 1974-cü ildə Türkiyə adaya qoşun çıxararaq şimalda onun 1/3-ni tutmuşdur. 1983-cü ildə bu ərazilərdə Şimali Kipr Türk Respublikası təşkil olunmuşdur. 1964-cü ildən münaqişə zolağında BMT-nin sülhməramlı qüvvələri yerləşir. Sənaye mərkəzlərinin çox hissəsi türklərə aid olan ərazilərdə cəmlənir, kimya, yüngül sənaye məhsulları istehsal olunur. Adanın təsərrüfatında turizmin böyük rolu vardır.

Şərqi Avropa
Macarıstan Respublikası

Sahəsi: 93030 km²
Əhalisi: 10 031 min nəfər (2010)
Əhalinin sıxlığı: 107 nəfər/km²
Paytaxtı: Budapeşt (1 915 min nəfər)
Əsas dil: macar
Dini etiqad: katolisizm (51,9%), protestantlıq (kalvinizm 15,9%, lüterantlıq 3%)
Pul vahidi: forint
Dövlət quruluşu: respublika

Macarıstan Mərkəzi Avropada yerləşir, Dünya okeanına çıxışı olmayan ölkələrdən biridir. Ölkə qarışıq tipli iqtisadi sistemə malikdir, 2004-cü ildən Avropa İttifaqının üzvüdür.

Dunay çayı Macarıstanı iki hissəyə ayırır. Şərqdə Macarıstanın ərazisinin yarısından çoxunu tutan Orta Dunay ovalığı uzanır və Alfyold düzənliyi adlanır. Ölkənin şimal sərhədləri boyu dağlar yüksəlir. Düzənliyin mərkəzində şimaldan cənuba Macarıstanın ikinci böyük çayı Tisa axır. Dunay çayından qərbdə isə təpəlik region olan Transdanubiya yerləşir. Burada, Mərkəzi Avropanın ən böyük şirin sulu gölü olan Balatonun sahilləri boyu Bakon dağları yüksəlir. Macarıstanda mülayim-kontinental iqlim hakimdir, qış soyuq və yağıntılı, yay isti və sərin, yaz və payız isə bol yağıntılı olur. Yanvarın orta temperaturu -3°C, iyul 21°C-dir. Yağıntıların illik miqdarı cənub-qərbdə 900 mm, şimal-şərqdə 450 mm-ə qədərdir. Orta Dunay ovalığında yayılmış qara torpaqlar çox məhsuldardır. Belə şərait, həmçinin iqlimin mülayim və quru olması, bitkilərin vegetasiya dövründə bol yağıntı düşməsi əkinçiliyin inkişafına səbəb olmuşdur. Geniş ərazidə meyvə bağları, üzümlüklər, taxıl, o cümlədən qarğıdalı və tərəvəz becərilir. Heyvandarlıq, əsasən donuzçuluq və quşçuluq istiqamətində inkişaf etdirilir. İkinci Dünya müharibəsinə qədər Macarıstan kənd təsərrüfatı ölkəsi olmuşdur. Müharibədən sonra Macarıstanın 1949-1989-cu illərdə onun daxil olduğu sosializm sistemi ölkələrinin maliyyə dəstəyi ilə sənayenin inkişafı başlanmışdır. Sənayenin əsas sahələri arasında polad, alüminium və sement istehsalı fərqlənir. Gön-dəri, avtomobil, elektronika, əczaçılıq, və dəzgahqayırma, eləcə də mineral gübrə, toxuculuq və yeyinti məhsulları istehsalı da mühüm əhəmiyyət kəsb edir. Sənayenin inkişafı ətraf mühitin həddən artıq çirklənməsinə gətirib çıxarmışdır. Balaton gölü, Dunay çayının qolları və enliyarpaqlı meşələr daha çox ziyan görmüşdür. XIX əsrdə Macarıstanın ərazisi daha böyük idi. Onun tərkibinə Xorvatiya, Transilvaniya, Slovakiya və Zakarpatye də daxil olmuşdur. Lakin Birinci Dünya müharibəsindən sonra ölkə sərhədboyu əyalətlərini itirmişdir. Bu gün ölkə əhalisinin 95%-i 1100 il əvvəl Macarıstana gəlmiş və burada məskunlaşan qədim tayfaların nəsilləri olan macarlardır (madyarlar). Əhalinin qalan hissəsi almanlar (2,6%), rumınlar (1,9%), serblərdir (2%). Budapeşt şəhəri üç qədim şəhərin birləşməsindən əmələ gəlmişdir: Obuda X əsrdə ölkənin birinci mərkəzi şəhəri olmuşdur, Dunayın qərb sahilindəki Buda Macar krallığının paytaxtı idi, şərq sahildəki Peşt sənaye və ticarət mərkəzi kimi inkişaf etmiş, uzun müddət alman hökmdarlarının tabeçiliyində qalmışdır. 1849-cu ildə Dunay çayı üzərində Buda və Peşt şəhərlərini birləşdirən ilk körpü salınmışdır. Budapeşt ölkənin ikinci mühüm şəhəri olan və Şərqi Macarıstanın əkinçilik regionunda yerləşən Debretsen şəhərindən doqquz dəfə böyükdür. Macar tələbələrinin yarısından çoxunun təhsil aldığı universitetlər və institutlar Budapeştdə yerləşir. Xarici şirkətlərin ölkəyə qoyduğu sərmayənin 2/3-si bu şəhərin payına düşür. Hər il Macarıstana gələn 10 milyon turistin əksəriyyəti Budapeşt şəhərini ziyarət edir.

Çexiya Respublikası

Sahəsi: 78864 km²
Əhalisi: 10 468 min nəfər (2010)
Əhalinin sıxlığı: 132,7 nəfər/km²
Paytaxtı: Praqa (1 427 min nəfər)
Əsas dil: çex
Dini etiqad: katolisizm (85%), protestantlıq
Pul vahidi: çex kronu
Dövlət quruluşu: respublika



Çexiya Avropanın mərkəzində yerləşir və alçaq dağlıqdan ibarət olan ölkədir. Çexiya 2004-cü ildən Avropa İttifaqının üzvüdür. Mərkəzi Avropanın keçmiş sosialist ölkələri arasında Çexiya sənayenin yüksək inkişaf səviyyəsinə görə fərqlənir.

1993-cü il yanvarın 1-də Federativ Respublika olan Çexoslovakiya Çexiya və Slovakiya kimi iki yeni dövlətə parçalandı. Çexiya yeni yaranan iki dövlətdən ərazicə daha böyüyüdür, sıx məskunlaşmışdır və iqtisadiyyatı sürətlə inkişaf edir. Çexiyanın okeana çıxışı yoxdur. Ölkə Adriatik dənizindən 322 km, Baltik dənizindən isə 326 km məsafədə yerləşir. Çexiyanın sərhədlərinin əksər hissəsi dağlar boyu keçir, Karpat dağları onu Slovakiyadan ayırır. Ostrava şəhərindən qərbdə yerləşən Sudet dağları Polşa ilə bütün sərhədlər boyu keçir. Alçaq dağların əhatəsində Çexiya massivi kimi tanınan, böyük ərazi tutan yayla yerləşir. Yaylanın mərkəzi hissəsi təpəliklər və alçaq dağlarla ayrılan bir neçə düzənlikdən ibarət Çex çökəkliyi adlanır. Ölkə şərqdə yerləşən Moraviya, qərbdə yerləşən və Bogemiya adlanan iki böyük tarixi regiondan ibarətdir. Çexiya rütubətli və mülayim-kontinental iqlimə malikdir. Qış soyuq (yanvarın orta temperaturu -3°C), yay isə isti keçir (iyulun orta temperaturu 18°C). Sibirdən əsən şərq küləkləri qışda şaxta gətirir, dağlarda bol qar yağır. İl ərzində düzənliklərdə 500-600 mm, dağlarda 1800 mm-ə qədər yağıntı olur. Ölkə ərazisinin 2/3 hissəsini meşələr tutur. Taxıl, mayaotu və kökmeyvəli bitkilər (kartof, şəkər çuğunduru), meyvələr becərilir. Əkilən torpaqların sahəsi ölkə ərazisinin 38%-ni tutur. Heyvandarlıqda donuzçuluq və quşçuluğun əhəmiyyəti çoxdur. Yüz ildən artıqdır ki, Çexiyada daş kömür yataqlarının istismarına, mis, qurğuşun və sink xammallarının istifadə edilməsinə əsaslanan ağır sənaye inkişaf edir. İqtisadi müstəqilliyin qazanılmasından sonra sənaye müəssisələrinin yenidən qurulmasına böyük vəsait xərclənir. Təsərrüfatın aparıcı sahələri maşınqayırma və kimya sənayesi, elektronika, rezin, asbest istehsalı, əlvan metallurgiya, çuqun və polad istehsalı, yeyinti və toxuculuq sahələridir. 2008-ci ildə ixrac olunan məhsulun 28%-i, idxalın isə 29%-i ölkənin əsas ticarət tərəfdaşı olan Almaniya ilə aparılmışdır. Çexiya ərazisində əhali məskunlaşmasının tarixi 5 min ildən artıqdır. Çexlər isə 1500 ildən çoxdur ki, burada yaşayır. Çexiyanın paytaxtı olan Praqa XVI əsrdən Avropanın iri şəhərlərindən biri olmaqla mədəniyyət, incəsənət və təhsil mərkəzi kimi inkişaf etmişdir. Bu gün Praqa Avropanın gözəl şəhərlərindən və turizm mərkəzlərindən biridir. Turizm sənayesinin inkişafına görə hər il ölkəyə təxminən 6 mln. nəfərdən çox xarici turist gəlir.

Praqa şəhəri

Polşa Respublikası

Sahəsi: 312 685 km²
Əhalisi: 38 200 min nəfər (2010)
Əhalinin sıxlığı: 122,2 nəfər/km²
Paytaxtı: Varşava: 2 220 min nəfər
Əsas dil: polyak
Dini etiqad: katolisizm (89,5%)
Pul vahidi: zlota
Dövlət quruluşu: respublika



Polşa Mərkəzi Avropanın şimalında yerləşən ən böyük dövlətidir. Ölkənin indiki sərhədləri 1945-ci ildə formalaşmışdır. Polşa XX əsrin 90-cı illərində Şərqi Avropada ictimai-siyasi dəyişiklər başlanan ilk dövlətdir.

Polşanın ərazisi əsasən düzənlikdən ibarətdir. Şimalını alçaq təpəliklər, cənubda, ərazinin 1/3-ni isə yaylalar tutur. Cənub sərhədləri boyu Karpat dağları yüksəlir. Karpat dağlarına daxil olan Tatra dağ silsiləsində mütləq hündürlüyü 2400 m-dən çox olan zirvələr vardır. Yay isti, qış isə soyuq keçir. Rusiya və Skandinaviyadan gələn soyuq qütb hava kütlələri ölkənin cənubundan və qərbindən gələn isti hava axınları ilə toqquşur. Yaz və payız müxtəlif iqlim şəraitinə malik iki dövrə ayrılır. Sahillərdə mülayim-dəniz, şərqdə mülayim-kontinental iqlim hakimdir. Yanvarın orta temperaturu -1°C-dən-5°C-yə qədər, iyulda Baltik dənizi sahillərində 17°C, mərkəzdə 20°C olur. İllik yağıntıların miqdarı 600 mm-dir. Mərkəzdə olan düzənliklərdə yağıntıların miqdarı 450 mm-ə, dağlarda isə 1450 mm-ə çatır. Qışda dağlıq əraziləri tamamilə, düzən ərazilərinin isə yarıya qədəri qar ilə örtülü olur. Polşanın gəmiçiliyə yararlı çay və göl yollarının ümumi uzunluğu 3990 km-dir. Odra (Oder) çayı Çexiyadan başlanır, Qərbi Polşadan axaraq, bəzi yerlərdə onun Almaniya ilə sərhəddindən keçir. Odranın uzunluğu 854 km-dir, Visla çayı ilə kanal vasitəsilə birləşir. Visla Polşanın ən uzun çayıdır, Karpat dağlarından Qdansk körfəzinə qədər 1047 km məsafədə bütün axını boyu gəmiçiliyiə yararlıdır. Visla çayının sahillərində Polşanın bir neçə böyük şəhəri, o cümlədən Krakov (745,0 min nəfər) və paytaxt Varşava yerləşir. Faydalı qazıntıların və məhsuldar torpaqların böyük ehtiyatlarına malik olan Polşa, daş kömür ehtiyatlarına görə dünyada 9-cu yeri tutur. Ölkədə həmçinin, mis, kükürd, gümüş, sink və qurğuşun ehtiyatları da vardır. Katovitse ətrafındakı sənaye rayonu Avropanın ən iri sənaye mərkəzlərindən biridir. Qara və əlvan metallurgiya, maşınqayırma, gəmiqayırma, kimya, toxuculuq, tikiş, sement istehsalı sənayenin əsas sahələridir. Əsas kənd təsərrüfatı bitkilərinə taxıl, xüsusilə də buğda və arpa, həmçinin kartof, şəkər çuğunduru, kələm və yem bitkiləri aiddir. Polşanın ərazisinin 30%-i meşələrlə örtülür. Polşanın sərhədləri tarix boyu bir neçə dəfə dəyişmişdir. Ölkənin adı VIII-IX əsrlərdə Odra və Visla çaylarının arasındakı ovalıqda məskunlaşmış polyan tayfalarının adından götürülmüşdür. Polşa özünün inkişafı dövrü olan XV əsrdə öz sərhədlərini genişləndirdi və Avropanın ən böyük dövlətinə çevrildi. 1772-1795-ci illərdə isə Polşa ərazisi qüdrətli ölkələr olan Avstriya, Prussiya və Rusiya arasında bölüşdürülmüş, ölkə xəritədən silinmişdir. Ölkə Rusiyanın əsarətindən 1918-ci ildə azad oldu. Lakin 1939-cu ildə Almaniya tərəfindən işğal edildi. Bu hadisə İkinci Dünya müharibəsinin başlanğıcı oldu. XX əsrin ortalarından sonuna kimi Polşa sosializm düşərgəsinə daxil olmuşdur. 1989-cu ildə Mərkəzi və Şərqi Avropanın ilk ölkəsi kimi kommunist rejimindən azad oldu. Növbəti ildə "Həmrəylik" Həmkarlar Birliyinin lideri Lex Valensa ölkənin prezidenti seçildi. Ölkə 2004-cü ildə Avropa İttifaqına daxil olmuşdur.

Slovakiya Respublikası

Sahəsi: 49 036 km²
Əhalisi: 5 412 min nəfər (2010)
Əhalinin sıxlığı: 111 nəfər/km²
Paytaxtı: Bratislava (452 min nəfər)
Əsas dillər: slovak, macar
Dini etiqad: katolisizm (60,3%), protestantlıq (8,4% slovak evanqelist kilsəsi)
Pul vahidi: avro
Dövlət quruluşu: respublika

Slovakiya Mərkəzi Avropada yerləşir. Ölkənin okeana çıxışı yoxdur. Ərazisi kiçik olan bu ölkə 1993-cü ildə Çexoslovakiyanın parçalanması nəticəsində yaranmışdır.

Slovakiyanın şimalı və qərbinin çox hissəsini dağlar tutur, cənub rayonlarında isə taxıl, kartof və qarğıdalı becərilən məhsuldar ovalıqlar yerləşir. Slovakiya qışı soyuq, yayı isti olan mülayim- kontinental iqlimə malikdir. Düzənliklərdə yanvarın orta temperaturu -1°C-dən 3°C-yə qədər, iyulda 19°C-dən 21°C-yə qədərdir. İl ərzində düzənliklərdə 650-750 mm, dağlarda 1500 mm-ə qədər yağıntı düşür.

Əhalisinin 85,6%-i min ildən artıqdır ki, bu regionda yaşayan slovaklardan, 10,7%-i isə etnik macarlardan ibarətdir. Bunun tarixi səbəbi XI əsrdə Slovakiyanın Macar Krallığının tərkibinə qatılması, Bratislavanın isə XVI-XVIII əsrlərdə bu krallığın paytaxtı olmasıdır. 1918-1993-cü illərdəölkə Çexoslovakiyanın tərkibində olmuş, 1993-cü ildə müstəqil dövlətə çevrilmişdir. 2004-cü ildən Slovakiya Avropa İttifaqının üzvüdür.

Slovakiya mis, qurğuşun, dəmir və liqnit (qonur kömür) ehtiyatlarına malikdir. Lakin neft və qazın çox hissəsini idxal edir. Əsas enerji mənbələri Vaqa və digər çaylar üzərindəki SES-lərdir, AES-lər də tikilir. Bratislava şəhərindən 40 km cənub-şərqdə yerləşən Qabçikovada, Dunay çayı üzərində böyük SES və bənd tikilməsi ətraf mühitin mühafizəsi üçün təhlükə yaradır. Slovakiyada sənaye sahələrindən atılan tullantılar ətraf mühiti həddən artıq çirkləndirmişdir. Belə vəziyyət meşələr və daxili suların mühafizəsi üçün ciddi təhlükə yaradır. Kimya, qara metallurgiya və avtomobilqayırma sahələrində xeyli işçi işləyir. Pivə və qoyun pendiri istehsal edən yeyinti sənayesi müəssisələrində min nəfərdən çox işçi çalışır.

Ölkənin sənaye müəssisələri əsasən Bratislavanın ətrafında və cənub-şərqdə Koşitse şəhəri rayonunda yerləşir. Şimalda yerləşən Tatra dağlarında 300-dən artıq zirvə vardır.

Dağların yamaclarının aşağı hissəsi sıx şam və küknar ağaclarından ibarət meşələrlə örtülür, ayı və qartal yaşayır. Tatra dağları il boyu turizm mərkəzi kimi istifadə olunur.

Sloveniya Respublikası

Sahəsi: 20 273 km²
Əhalisi: 2100 min nəfər (2010)
Əhalinin sıxlığı: 103,6 nəfər/km²
Paytaxtı: Lyublyana (330 min nəfər)
Əsas dil: sloven, macar, italyan
Dini etiqad: katolisizm (58%), islam
Pul vahidi: avro
Dövlət quruluşu: respublika

Sloveniya keçmiş Yuqoslaviyanın tərkibində olmuşdur. Ölkə 1991-ci ildə ondan ayrılaraq öz müstəqilliyini qazanmış, 2004-cü ildən isə Avropa İttifaqının üzvüdür.

Sloveniya Balkan yarımadasının şimalında yerləşir. Cənub-qərbdə çox kiçik məsafədə Adriatik dənizinə çıxışı vardır. Onun sahil zolağının uzunluğu 46,6 km-dir. Şimal və şimal-qərbdə ərazisinin çox hissəsini tutan dağların yamaclarının aşağı sahələri meşələr ilə örtülüdür. Sloveniyanın demək olar ki, yarısını örtən meşələrdə ayı, canavar və vaşaq yaşayır. Ölkənin cənub-qərb hissəsini bitki örtüyündən məhrum, əhəngdaşlı süxurlardan ibarət Karst yaylası tutur. Milyon illər ərzində yağış sularından yaranan eroziya burada Avropada ən ecazkar mağaralar sistemini yaratmışdır. Belə mağaralardan biri Postoynadakı Postoynska-Yamadır. Salonlar və qalereyalar sistemi ilə birlikdə bu mağaranın uzunluğu 16 km-dən çoxdur. Karst yaylası rayonunda Sloveniyadan axan böyük çaylar yerin altına keçir və bu əhəngdaşılı mağaraların labirinti boyu axırlar. Mülayim-kontinental iqlimə malik olan Sloveniyada yay isti (iyulun orta temperaturu 20°C), qış isə soyuq (yanvarın orta temperaturu -1°C) keçir. Ölkə əhalisinin 45%-i, əsasən kiçik kənd təsərrüfatı kommunalarında yaşayır. Onların əhalisi iri buynuzlu mal-qara və qoyun saxlamaqla məşğul olur, kartof, buğda, qarğıdalı, meyvə yetişdirirlər. İqlimin daha isti olduğu Sloveniyanın şimal-şərqində şərabçılıq istehsalın əsas sahəsi olaraq qalır. Sloveniya ərazisində qonur kömür, qurğuşun, sink, uran ehtiyatları vardır və onlar sənaye əhəmiyyətlidir. Bu sahədə maşınqayırma, elektrotexnika, toxuculuq, kimya, mebel, yeyinti məhsulları istehsal olunur. Slovenlərin 85%-i slavyan mənşəli olsa da siyasi müstəqilliyini çox tez itirmişdir. Uzun müddət başqa xalqların əsarəti altında olmalarına baxmayaraq, onlar öz dilini, mədəniyyətlini, milli sənətkarlığı və adət-ənənələrini qoruyub saxlaya bilmişlər. Sloveniyada həyat şəraiti, səhiyyə və təhsil səviyyəsi yüksəkdir.

Xorvatiya Respublikası

Sahəsi: 56 542 km²
Əhalisi: 4 435 min nəfər (2010)
Əhalinin sıxlığı: 79 nəfər/km²
Paytaxtı: Zaqreb (786 min nəfər)
Əsas dillər: serb, xorvat
Dini etiqad: katolisizm(87,8%), protestantlıq, islam (1,3%)
Pul vahidi: kuna
Dövlət quruluşu: respublika

Xorvatiya bir dövlət kimi IX əsrdə formalaşmışdır. XX əsrdə keçmiş Yuqoslaviyanın tərkibində olmuş, 1991-ci ildə müstəqil dövlətə çevrilmişdir.

Xorvatiya Mərkəzi Avropa ölkələri ilə Aralıq dənizi hövzəsi regionu arasında yerləşir. Ölkənin şərq sərhəddindən Dunay çayı keçir. Cənubdakı sərhəd xətti Bosniya və Herseqovinanı üçbucaq şəklində əhatələyir. Xorvatiyanın qərb sərhəddi Adriatik dənizinin sahilləri boyu keçir. Burada 20 km məsafədə Bosniya və Herseqovina dəniz sahilinə çıxa bilir. Ona görə Dubrovnik şəhəri daxil olmaqla Xorvatiya ərazisinin kiçik bir hissəsi ölkənin əsas hisəsindən ayrılmışdır. Cənubda Çernoqoriya ilə kiçik sərhəddə malikdir. Xorvatiyanın qərb hissəsi Dalmasiya vilayəti kimi tanınır, bura daşlı və əsasən boş ərazidir. Adriatik dənizinin səviyyəsinin qalxıb sahilboyu dağ vadilərini su basdığı zaman burada kiçik, qayalı adalar və yarımadalar yaranmışdır. Ölkənin qərb hissəsinin iqlimi Aralıq dənizi tiplidir, şərqində isə qışı soyuq keçən kontinentaliqlim hakimdir. Sahillərddə yanvarın orta temperaturu 9°C, iyulunku 25°C-dir. Zaqrebdə müvafil olaraq yanvar 0°C, iyul 22°C-dir. Ölkə ərazisinin 1/5 hissəsi əkinçilikdə istifadə olunur. Ən məhsuldar torpaqlar isə ölkənin şərqində yerləşir. Burada donuzçuluq, quşçuluq və südlük heyvandarlıq inkişaf etdirilir. Ərazinin təqribən 2/3 hissəsini taxıl əkinləri tutur. Bununla yanaşı qarğıdalı, kətan, üzüm, günəbaxan, kartof, soya və şəkər çuğunduru da becərilir. Xorvatiya mineral ehtiyatlarla, o cümlədən neft və kömürlə zəngindir. 1990-cı illərdəki silahlı toqquşmalardan sonra ölkə sənayesinin bərpasına sərmayə qoyulur. Gəmiqayırma, maşınqayırma, kimya, elektrotexnika, elektron, əczaçılq, yeyinti, toxuculuq sənayenin əsas sahələridir. Turizm bərpa edilmiş və yenidən ölkə təsərrüfatının əsas sahəsinə çevrilmişdir.

Adriatik dənizinin dalmasiya tipli sahilləri

Makedoniya Respublikası

Sahəsi: 25 713 km²
Əhalisi: 2 049 min nəfər (2010)
Əhalinin sıxlığı: 82 nəfər/km²
Paytaxtı: Skopye (527 min nəfər)
Əsas dillər: makedon, alban
Dini etiqad: provaslavlıq (64,7%), katolisizm (4%), islam (33,3%)
Pul vahidi: dinar
Dövlət quruluşu: respublika

Makedoniya keçmiş Yuqoslaviyanın tərkibindən ayrılmışdır. Ərazi b.e.ə. IV-III əsrlərdə qüdrətli Qədim Yunan imperiyasının bir hissəsi olmuşdur. Ölkənin dünya okeana çıxışı yoxdur.

Ölkə ərazisinin çox hissəsini dərin vadiləri olan dağlar, dik yamacları olan təpəliklər və meşə massivləri tutur. Makedoniyada 34 dağ zirvəsi 2000 m-dən yüksəkdir. Kontinental iqlim hakimdir. Yanvarın orta temperaturu 9°C, iyul 25°C-dir, ildə 1100 mm yağıntı düşür. Ölkənin ərazisində olan ən böyük göl Oxrid gölü, ən uzun çay Vardar çayıdır. Skopye ölkənin ən böyük və gözəl şəhəridir. 1961-ci ildə zəlzələ

nəticəsində tamamilə dağılmış və yenidən qurulmuşdur. Hazırda ölkənin əsas sənaye və ticarət mərkəzidir. Maşınqayırma, elektrotexnika, kimya, tütün emalı sahələri vardır. Becərilən bitkilərə taxıl, qarğıdalı, düyü kimi dənli bitkilər, tütün, pambıq, lalə, meyvə, üzüm becərilməsi daxildir. Bal, mum, arı südü və digər məhsullar istehsal edilir. Ölkədə spirtli içkilər istehsal olunur. Əhalinin 2/3 hissəsi makedoniyalı slavyanlar, qalan hissəsi isə alban (25,2%), türk (4%), serb, rumın (2,7%) və qaraçılardan ibarətdir.

Serbiya Respublikası

Sahəsi: 77 474 km²
Əhalisi: 7 350 min nəfər
Əhalinin sıxlığı: 131 nəfər/km²
Paytaxtı: Belqrad (1 597 min nəfər)
Əsas dillər: serb, alban
Dini etiqad: pravoslavlıq, katolosizm, islam
Pul vahidi: dinar
Dövlət quruluşu: respublika

Serbiya uzun müddət keçmiş Yuqoslaviyanın tərkibində olmaqla yanaşı, onun siyasi mərkəzini təşkil etmişdir. 2006-cı ildə ölkənin müasir sərhədləri formalaşmış və müstəqil respublika olmuşdur. Lakin onun tərkibindəki Kosovo əyaləti də onun tərkibindən ayrılaraq öz müstəqilliyini elan etmişdir.

Serbiya 1946-cı ildə İosip Broz Tito tərəfindən yaradılmış Yuqoslaviya Federativ Sosialist Respublikasına (YFSR) daxil olmuşdur. 1990-cı illərin əvvəllərində dörd respublika – Bosniya və Herseqovina, Xorvatiya, Makedoniya və Sloveniya Yuqoslaviyadan ayrılaraq müstəqilliyini elan etdilər. 2002-ci ildə Serbiya və Çernoqoriya İttifaq Dövləti yaradaraq Yuqoslaviyanın varisi oldular. 2006-cı ilin mayında keçirilən referendumda Çernoqoriyanın əhalisi bu ittifaqdan çıxmağa səs verdi, 2006-cı ilin iyununda Çernoqoriya və Serbiya müstəqil dövlət oldular. Serbiyanın dənizə çıxışı yoxdur. Ölkənin cənubunda Dinar yaylası, şimalında Qərbi Dunay (Orta Dunay) ovalığı yerləşir. Buradan çoxlu qolları olan Dunay çayı axır. Serbiya kontinental iqlimə malikdir. Yanvarın orta temperaturu 6°C, iyulunku 26°C-dir. Respublikanın təbii sərvətlərinə kömür və su ehtiyatları aiddir. Onlar ölkənin özünü elektrik enerjisi ilə tam təmin etməsinə imkan verir. Bundan əlavə Serbiya boksit, dəmir, mis, sink, qurğuşunun böyük ehtiyatlarına malikdir. Sənayedə elektron, metal emalı, dəri, yeyinti məhsulları, kənd təsərrüfatında taxıl, kartof, çətənə, tütün, meyvə istehsal olunur. Əhalinin əsas hissəsini serblər təşkil edir. Albanlar ölkənin cənubundakı Kosovada yaşayırlar. Kosovada serblər və albanlar arasında münaqişə 1990-cı illərin əvvəlindən davam edir. 1999-cu ildə

NATO sülhməramlı tədbir keçirərək müharibə edən tərəfləri tərksilah etməyə məcbur oldu. Kosovada yaşayan albanların əksəriyyəti öz müstəqil dövlətlərini yaratmaq üçün mübarizə aparır. 2008-ci ildə onlar birtərəfli qaydada Serbiyanın tərkibindən çıxmışlar. Bir neçə ölkə onun müstəqilliyini tanısa da Serbiya tanımadığına görə müstəqil dövlət hesab etmək olmaz.

Çernoqoriya Respublikası (Monte-Neqro Respublikası)

Sahəsi: 13 812 km²
Əhalisi: 685 min nəfər (2007)
Əhalinin sıxlığı: 49,6 nəfər/km²
Paytaxtı: Podqoritsa (159 min nəfər).
Əsas dillər: serb, xorvat
Dini etiqad: pravoslavlıq (74,2%), katolisizm (3,5%), islam (17,7%)
Pul vahidi: avro
Dövlət quruluşu: respublika

Çernoqoriya 2006-cı ilə qədər Serbiya və Çernoqoriyanın tərkibinə daxil olmuşdur. Sahəsi kiçik olan bu ölkə Avropanın yeni müstəqil dövlətlərindən biridir. Adriatik dənizinin sahilində yerləşən ölkənin yarısı meşələrlə örtülüdür.

2006-cı ilin mayında Çernoqoriyanın vətəndaşları öz müstəqil dövlətlərini yaratmağa səs verdilər. Çernoqoriyalılar ölkə əhalisinin 43%-ni təşkil edir. Ölkədə həmçinin albanlar(5%), xorvatlar və serblər(32%) də yaşayırlar. Çernoqoriya ərazisinin yarısını meşələrlə örtülmüş Dinar Alpları təşkil edir. Burada Aralıq dənizi iqlimi, daxili rayonlarda mülayim-kontinental iqlim hakimdir. Podqoritsada yanvarın orta temperaturu 6°C, iyul 26°C-dir. Əsas sənaye sahələri polad və alüminium istehsalı, duz emalı, yeyinti (ət-süd sənayesi) məhsulları istehsalıdır. Əkinçilikdə taxıl, zeytun, tütün, əncir, üzüm, tərəvəz, kartof və sitrus meyvələri yetişdirilir.

Bosniya və Herseqovina Respublikası

Sahəsi: 51 129 km²
Əhalisi: 4500 min nəfər (2007)
Əhalinin sıxlığı: 88 nəfər/km²
Paytaxtı: Saraevo (393 min nəfər).
Əsas dillər: bosniya, serb, xorvat
Dini etiqad: islam (40%), pravoslavlıq (31%), katolisizm (15%)
Pul vahidi: Bosniya markası
Dövlət quruluşu: respublika

Bosniya və Herseqovina 1992-ci ildə keçmiş Yuqoslaviyadan ayrılaraq müstəqil dövlət olmuşdur. Ölkədə gedən vətəndaş müharibəsi onun təsərrüfatına və əhalinin həyat şəraitinə mənfi təsir göstərmişdir. Hazırda müharibənin mənfi nəticələri aradan qaldırılır.

Bosniya və Herseqovinanın şimalının relyefi əsasən dağlıqdır, cənubda isə daha məhsuldar rayonları olan düzənliklər yerləşir. Yanvarın orta temperaturu 0°C, iyul 20°C-dir. İl ərzində düzənliklərdə 800-1000 mm, dağlarda 1500 mm yağıntı olur. Şimalda dənli bitkilər və kətan, cənubda tütün, qarğıdalı, kartof, tütün,

şəkər çuğunduru, meyvə, çətənə və pambıq becərilir. Sənayenin hasilat, cihazqayırma, ağac emalı, kimya sahələri vardır. Ölkə ərazisinin xeyli hissəsi əhəng daşlı yaylada yerləşir. Bu rayonda yeraltı çaylar axır, çoxlu mineral bulaqlar vardır. Ölkənin demək olar ki, yarısı palıd, şam və fıstıq ağaclarından ibarət meşələr ilə örtülüdür. Regionun ən qədimdən məskunlaşan əhalisi illiriyalılardır. Eramızın I əsrində bu ərazilər Roma imperiyasının əsarətinə düşmüş, VI-VII əsrlərdə isə burada slavyanlar məskunlaşmışdır. Ölkənin əsas əhalisi və ən böyük etnik qrup müsəlman bosniyalılardır (48%). Serblər 37%, xorvatlar 14% təşkil edir. Müsəlmanlar serb və xorvat mənşəlidirlər. 1463-1878-ci illərdə osmanlıların hakimiyyəti zamanı islamı qəbul etmişlər. Qanlı vətəndaş müharibəsindən sonra əhalinin bir hissəsi köçüb getmişdir. Hazırda ölkə özünü idarə edən Serbiya Respublikasından, həmçinin Bosniya və Hersoqovinadan ibarətdir.

Albaniya Respublikası

Sahəsi: 28 748 km²
Əhalisi: 3,6 mln nəfər (2010)
Əhalinin sıxlığı: 125,3 nəfər/km²
Paytaxtı: Tirana (484 min nəfər)
Əsas dil: alban
Dini etiqad: islam (70%), pravoslavlıq (20%), katolisizm (10%)
Pul vahidi: lek
Dövlət quruluşu: respublika

Albaniya Avropanın ən kasıb və geridə qalmış ölkəsidir. XX əsrdə digər ölkələrdən uzun müddət təcrid olunmuş halda yaşaması onun iqtisadi inkişafına mənfi təsir göstərmişdir.

Albaniya Balkan yarımadasının qərb hissəsində yerləşir. Ölkə Adriatik dənizin sahilindədir. Onun ərazisini iki coğrafi regiona bölmək olar. Qərbdə sahilboyu düzənliklər yerləşir. Bataqlıqlaşmış ərazilər olmasına baxmayaraq, burada torpaqlar məhsuldardır və intensiv şəkildə becərilir, əhali olduqca sıx məskunlaşmışdır. Albaniya ərazisinin qalan hissəsini dağlar və yüksəkliklər tutur. Sahil boyu Aralıq dənizi iqlimi, dağlarda kontinental iqlim yaranır.Tiranada yanvarın orta temperaturu 7°C, iyul 24°C-dir. Albaniyanın əsas çayları dağlıq ərazidən başlayaraq qərbə doğru axır və Adriatik dənizinə tökülür.

Əmək qabiliyyətli əhalinin yarıya qədəri kənd təsərrüfatında məşğuldur. Becərilən əsas bitkilərə buğda, qarğıdalı, kartof, tütün, meyvə-tərəvəz, şəkər çuğunduru, pambıq aiddir. Dağlıq ərazilərdə ənənəvi olaraq qoyunçuluqla məşğul olurlar, onların sayı 1,9 mln. başa çatır. Albaniya Avropada əhalinin ən monoetnik quruluşa malik ölkələrindən biridir, onların 95%-ni etnik albanlar təşkil edir, yunanlar, rumınlar yaşayır. Albaniyanın qara və əlvan metal, neft-qaz ehtiyatları ilə zəngin olmasına baxmayaraq, Avropada ən kasıb ölkələrdən biridir. Gənclərin çoxu iş axtarmaq üçün ölkəni tərk edir. Ona görə də xaricidə ölkənin özünə nisbətən daha çox alban yaşayır.

Bolqarıstan Respublikası

Sahəsi: 110 993 km²
Əhalisi: 7 607 min nəfər (2010)
Əhalinin sıxlığı: 67 nəfər/km²
Paytaxtı: Sofiya (1 247 min nəfər)
Əsas dillər: bolqar, türk
Din: provoslavlıq (83%), islam (12%)
Pul vahidi: lev
Dövlət quruluşu: respublika



Bolqarıstan keçmiş sosializm sisteminə daxil olan ölkələrdən biridir. Ölkə Avropanın cənub-şərqində yerləşir, ərazisinin çox hissəsini dağlar tutur. Qədim tarixə malik olan Bolqarıstanın Qara dənizə çıxışı vardır. Ənənəvi olaraq ölkədə kənd təsərrüfatının rolu böyükdür.

Bolqarıstanın relyefi çox müxtəlifdir. Burada dağlıq yaylalar, düzənliklər, təpələr və dağlar vardır. Ölkədə iki böyük dağ silsiləsi yerləşir. Onlardan biri mərkəzdən keçməklə qərbdən şərqə uzanan Balkan dağları, digəri isə cənub-qərbdə yerləşən Rodopi dağlarıdır. Balkan dağları Bolqarıstanın şimalındakı məhsuldar Aşağı Dunay düzənliyini cənubdakı Yuxarı Frakiya ovalığından ayırır. Rodopi dağlarının silsilələri cənubda Bolqarıstanla Yunanıstan arasında təbii sərhəd rolunu oynayır. Dağlardakı meşələrdə canavar, vəhşi pişiklər, sığın və ayı yaşayır. Bolqarıstanın iqlimi mülayimdir. Cənubda və Qara dəniz sahillərində qışda hava daha mülayim, yayda ölkə üzrə orta göstəricilərə nisbətən daha istidir. Burada iqlim Aralıq dənizi iqlim tipinə yaxındır, iyulun orta temperaturu 29°C-dir. Pleven rayonunda yanvarın orta temperaturu 1,7°C, iyul 23,6°C-dir, ildə 550 mm yağıntı düşür. Əhalinin 84%-i bolqarlardan, 9%-i isə türk mənşəli xalqlardan ibarətdir. Başqa az-saylı xalqlardan makedoniyalılar və qaraçılar da vardır. Ölkə əhalisinin 70%-i şəhərlərdə yaşayır. Ölkənin paytaxtı Sofiya şəhərinin əsası I əsrdə qoyulmuşdur. Şəhər əvvəlcə Serdika, IX əsrdən Sredets adlanmışdır. Hazırkı Sofiya adını hələ VI əsrdə burada tikilmiş Müqəddəs Sofiya kilsəsinin adı ilə XIV əsrdə almışdır, 1879-cu ildən ölkənin paytaxtıdır. XV əsrin sonlarından 1878-ci ilədək Bolqarıstan Osmanlı imperiyasının tərkibində olmuş, ölkə 1908-ci ildə tam müstəqillik qazanmışdır. Sosializm sistemi dağıldıqdan sonra 1990-cı ildə Bolqarıstan çoxpartiyalı demokratik dövlətə çevrilmişdir. Ölkə hələ də iqtisadi müstəqilliyə uyğunlaşır. Avropa bazarlarında rəqabət qabiliyyətli olması üçün kənd təsərrüfatı və sənaye sahələri yenidən qurulur. Taxıl, şəkər çuğunduru, tütün, günəbaxan, meyvə-tərəvəz becərilir. Müxtəlif içkilər, tütün, ətriyyat, metallar, maşınqayırma, o cümlədən avtomobil əsas sənaye məhsullarıdır. Turizm sahəsi inkişaf etdirilir. Bolqarıstan 2007-ci ildən Avropa İttifaqının üzvüdür.

Rumıniya Respublikası

Sahəsi: 237 500 km²
Əhalisi: 22,3 mln nəfər (2007)
Əhalinin sıxlığı: 94 nəfər/km²
Paytaxtı: Buxarest (2 100 min nəfər)
Əsas dillər:rumın, macar
Dini etiqad: provoslavlıq (87%), protestantlıq
Pul vahidi: ley
Dövlət quruluşu: respublika



Rumıniya keçmiş sosializm sisteminə daxil olan ölkələrdən biridir. Ölkə 1878-ci ildə Türkiyə müstəmləkəsindən azad olmuş, öz müstəqilliyini qazanmışdır. Onun ərazisi düzənliklər və dağların növbələşməsindən ibarətdir.

Rumıniya Mərkəzi və Şərqi Avropanın beş ölkəsi ilə həmsərhəddir, strateji cəhətdən əhəmiyyətli olan Qara dənizə çıxışı vardır. Rumıniya və Bolqarıstanın sərhədlərinin çox hissəsindən keçən Dunay çayı ölkənin daxilində yükdaşımalar üçün mühüm nəqliyyat magistralı rolunu oynayır. Dunay çayı Qara dənizə töküldüyü yerdə böyük ərazi tutan delta əmələ gətirir. Rumıniyanın şimal və mərkəzi ərazisinin çox hissəsini Şərqi və Cənubi Karpat dağları tutur. Ölkənin şərqindən qərbinə uzanan Cənubi Karpatlarda (Transilvaniya Alpları) Rumıniyanın ən hündür zirvəsi olan Moldoyanu dağı (2544 m) yüksəlir. Şərqi və Cənubi Karpat dağları arasında geniş və təpəlik Transilvaniya yaylası yerləşir. Yayla qərbdə faydalı qazıntılarla zəngin olan Qərbi Rumıniya dağları ilə əhatə olunur. Ölkənin cənubunda Aşağı Dunay ovalığı yerləşir. Ölkədə mülayim-kontinental iqlim yaranır, Buxarestdə yanvarın orta temperaturu 1,0°C, iyul 25°C-dir, yağıntıların illik miqdarı 300-800 mm-dir. Rumıniya ərazisinin 1/4 hissəsini tutan meşələrdə canavar, maral, ayı, qaban və vaşaq yaşayır. Ölkə torpaqlarının 45%-i əkinçilik üçün yararlıdır. Taxıl, günəbaxan, kartof, meyvə-tərəvəz, üzüm becərilir. Sənaye sahələri üçün lazım olan xammalların çox hissəsini idxal etmək lazım gəlir. Rumıniyanın mühüm təbii sərvətlərinə onun məhsuldar torpaqları, sürətlə axan, bəndlərlə qarşısı kəsilmiş və elektrik enerjisi verən çayları aiddir. Ölkə kömür, qurğuşun, sink, mis və kükürd yataqları ilə zəngindir. Sənaye və kənd təsərrüfatı məhsullarını ixrac etmək üçün Konstansa limanından istifadə edilir. Ölkədə metallurgiya, kimya, ağac emalı, sellüloz-kağız, mebel, yeyinti və yüngül sənaye sahələri inkişaf etmişdir. Rumıniya 2007-ci ildən Avropa İttifaqının üzvüdür.

Estoniya Respublikası

Sahəsi: 45 227 km²
Əhalisi: 1 340 min nəfər (2010)
Əhalinin sıxlığı: 30 nəfər/km²
Paytaxtı: Tallin (432 min nəfər)
Əsas dillər: eston, rus
Dini etiqad: protestantlıq (lüteranlar 70%), provoslavlıq (20%)
Pul vahidi: avro
Dövlət quruluşu: respublika



Estoniya keçmiş SSRİ məkanına daxil olsa da, lakin MDB-yə aid olmayan respublikadır. Ölkə Baltik dənizinin sahillərində, əlverişli İCM-də yerləşir. Sıx meşələr, alçaq təpələr və uzun sahil xətti (3,8 min km) şimalda yerləşən bu kiçik Baltikyanı ölkənin relyefinin ən mühüm elementləridir.

Estoniyanın ərazisi ovalıqlardan ibarətdir, 2/3 hissəsi dəniz səviyyəsindən 50 m-ə qədər yüksəkdir. Ölkədə dəniz iqlimindən kontinentala keçid tipi hakimdir. Yanvarın orta temperaturu -6°C, iyul 16°C-dir. Burada 7000-ə qədər çay və onun qolları, ölkə ərazisinin 5%-ni tutan 1000-ə qədər göl vardır. Ən böyük gölü olan Çud gölü (estonlar onu Peypus adlandırır) sahəsinə görə Estoniyanın ən iri, Avropanın isə beş ən böyük şirinsulu göllərindən biridir. Estoniyanın Rusiya ilə sərhəddinin çox hissəsi bu göldən keçir. Estoniya ərazisinin 10%-ni sahilyanı adalar təşkil edir. Onlardan ikisi ən böyükdür. Saarema adasının əhalisi əsasən iribuynuzlu mal-qara və ev quşları saxlamaqla, Xiyumaada yaşayan, çoxu isveç mənşəli olan əhali isə əsasən balıqçılıqla məşğul olur. Ölkə ərazisinin 45%-ni tutan meşələr inkişaf etmiş kağız-sellüloz, oduncaq və mebel sənayesini xammal ilə təmin edir. Sənayenin əsas sahələrinə metal emalı, maşınqayırma, dağmədən sənayesi, tikinti materialları istehsalı, neft emalı, kimya, toxuculuq məhsulları istehsalı aiddir. Ehtiyatı 10 mlrd.t olan yanar şist, fosforit əsas təbii sərvətdir. Estoniya Avropada əhalisinin sıxlığı ən az olan ölkədir. Ölkə bu regionda 2 min il əvvəl formalaşmış eston xalqının adına görə belə adlanmışdır. Əhalinin 2/3 hissəsini dil və mədəniyyətlərinə görə finlərə daha yaxın olan yerli estonalar təşkil edir. Milli azlıqlar arasında ən böyük qrupu ruslar təşkil edir (26%). Estonların 70%-i şəhərlərdə yaşayır. Böyük şəhərlərə əsası XIII əsrdə qoyulmuş, ölkənin paytaxtı Tallin, sənaye mərkəzi Narva (70 min nəfər), yay istirahəti yeri olan və ölkənin əsas rayonlarına nisbətən isti iqlimi ilə seçilən Pyarnu aiddir. Estoniya 2004-cü ildən Avropa İttifaqının üzvüdür.

Latviya Respublikası

Sahəsi: 64 610 km²
Əhalisi: 2 261 min nəfər (2010)
Əhalinin sıxlığı: 35,0 nəfər/km²
Paytaxtı: Riqa (787 min nəfər)
Əsas dillər: latış, rus
Dini etiqad: protestantlıq (lüteranlıq), katolisizm, pravoslavlıq
Pul vahidi: avro
Dövlət quruluşu: respublika

Latviyada digər Baltikyanı ölkələrə nisbətən sənaye daha yaxşı inkişaf etmişdir. Dənizə çıxışının olması ticarət və balıqçılığın inkişaf etdirilməsinə imkan verir.

Latviya düzənlik ölkədir. Ölkə ərazisinin 98%-i dəniz səviyyəsindən 200 m-ə qədər yüksəklikdədir. Şimal-qərb sahil xəttinin bir hissəsi əyilərək Riqa körfəzini əmələ gətirir. Riqa körfəzinin əlverişli və isti havasında Latviyanın paytaxtı və ən böyük limanı olan Riqa şəhəri yerləşir. Qərb sahilində digər mühüm limanlar olan, donmayan Liyepaya (98 min nəfər) və Ventspils (47 min nəfər) yerləşir. Ölkədə bol

yağıntıları olan mülayim iqlim yaranır, 550-800 mm yağıntı düşür. Yanvarın orta temperaturu -5°C, iyul 18°C-dir. Latviyada mindən artıq çay axsa da, onlardan yalnız 17-nin uzunluğu 90 km-dən artıqdır. Ən uzun çayı olan Dauqava (Qərbi Dvina) Rusiyanın qərb hissəsindən başlanır, Belarus ərazisindən keçərək Latviya ərazisinə daxil olur və Riqa körfəzinə tökülür. Dauqava dekabrdan aprelədək donur, dayazlıqlar və meandrları çoxdur. Ona görə də ağır yüklü gəmilər üçün yararlı deyil. Lakin, SES-lərdə elektrik enerjisinin alınması və ölkənin daxili ərazilərindən meşə materiallarını sahildəki limanlara çatdırmaq üçün böyük əhəmiyyəti vardır. Latviya ərazisinin 40%-i meşələrlə örtülüdür. Meşələrin yarısı şam ağaclarından ibarətdir, palıd ağacları da geniş sahələr tutur. Ağaca tələbatın olması meşə və ağac emalı sənayesinin inkişafına imkan verir. Latviya ərazisinin 10%-ni böyük torf ehtiyatlarının cəmləndiyi bataqlıqlar tutur. Latviyanın şərqində son vaxtlar yeni neft yataqları kəşf edilmişdir. Kənd təsərrüfatının aparıcı sahəsi südlük-ətlik maldarlıqdır, donuz saxlanılır, kartof, kətan, buğda, çovdar əkilir. Maşınqayırma və metal emalı, kimya, əczaçılıq, məhsulları, sellüloz-kağız istehsalı, neft və ağac emalı sənayenin əsas sahələridir. Əhalinin 60%-i şəhərlərdə, o cümlədən 1/3-i paytaxtda yaşayır. Ölkə sakinlərinin 60%-ni latışlar, 28%-ni ruslar, qalan hissəsini ukraynalılar, beluslar və polyaklar təşkil edir. Latışlar əsasən kəndlərdə yaşayır, şəhərlərdə azlıq təşkil edirlər. Ölkə XIII əsrin ikinci yarısından 1561-ci ilə kimi Latviya və Estoniya ərazisində alman səlibçiləri tərəfindən yaradılmış Livoniya knyazlıqlar konfederasiyasının tərkibində olmuşdur. 1562-ci ildən sonra Latviyanın bir hissəsi İsveç və Polşa arasında bölüşdürüldü. XVIII əsrdə isə I Pyotr Latviyanı Rusiya imperiyasına birləşdirmişdir. 1920-ci ildə Latviya müstəqillik qazanmış, lakin onu 20 il saxlaya bilmişdir. 1940-cı ildə Sovet İttifaqı ölkəni yenidən işğal etmişdir. 1991-ci ildə yenidən müstəqillik qazanan respublika 1922-ci ildəki kostitusiyasını bərpa etmişdir. 2004-cü ildən Avropa İttifaqının üzvüdür.

Riqa şəhərindən bir görüntü

Litva Respublikası

Sahəsi: 64 610 km²
Əhalisi: 3 350 min nəfər (2010)
Əhalinin sıxlığı: 55 nəfər/km²
Paytaxtı: Vilnüs (570 min nəfər)
Əsas dillər: litva, rus
Din: katolisizm (81%), provoslavlıq
Pul vahidi: avro
Dövlət quruluşu: respublika

Litva keçmiş SSRİ məkanına daxil olan respublikalardan biri olsa da, ondan ayrılan ilk müstəqil dövlətlər sırasına daxildir. Ən cənubda yerləşən Baltikyanı ölkədir. Qərbdən kiçik məsafədə dənizə çıxışı vardır.

Litvanın landşaftı 20-dən artıq göl və çaylarla bir-birindən ayrılan düzənliklər və alçaq təpəliklərdən ibarətdir. Litvanın ən uzun çayı olan, uzunluğu 937 km-ə çatan Nemanın (Nyamunas) sutoplayıcı hövzəsi ölkə ərazisinin demək olar ki, hamısını əhatə edir. Ölkənin Baltik dənizi sahilləri dünyada çıxarılan kəhrəbanın əsas hissəsini verir. ***Kəhrəba*** qədim ağacların daşlaşmış qətranıdır. Ondan müxtəlif bəzək əşyaları düzəldilir. Burada uzunluğu 95 km olan Kurş dili dar qumsal yarımada formasında Rusiyanın Kaliningrad vilayətindən Litvanın Klaypeda limanına qədər uzanır, Kurş körfəzini Baltik dənizindən ayırır. Yüksəkliyi 70 m və eni 1 km-ə qədər olan dyunlar (qum təpələri) çox yerlərdə şam meşələri ilə örtülüdür. Ərazisinin 1/4 hissəsini meşə sahələri tutur. Yanvarın orta temperaturu -5°C, iyul 17°C-dir. Yağıntıların orta illik miqdarı 540 mm-dən 930 mm-ə qədərdir. Litva 760 il əvvəl güclü, müstəqil dövlət olmuşdur. Lakin XVI əsrdə Polşanın, XVIII əsrdə Rusiyanın əsarəti altına düşmüşdür. Litva 1919-cu ildə müstəqillik qazanmış, 1940-cı ildə Sovet İttifaqı bütün Baltikyanı ölkələri işğal etmişdir. 1991-ci ildə o, yenidən suverenlik əldə etmişdir. Litvalılar ölkə əhalisinin 85%-ni təşkil edir. Ölkədə polyaklar, ruslar (hər biri 7%), ukraynalılar və digər millətlər də yaşayır. Sənayenin əsas sahələrinə maşınqayırma, kimya, metal emalı, toxuculuq, yeyinti aiddir. Taxıl bitkiləri, şəkər çuğunduru əkilir. Litva 2004-cü ildə Avropa Birliyinə daxil olmuşdur.

Moldova Respublikası

Sahəsi: 33 873 km²
Əhalisi: 4100 min nəfər (2010)
Əhalinin sıxlığı: 121,1 nəfər/km²
Paytaxtı: Kişinyov (755 min nəfər)
Əsas dillər: moldovan, rus, ukrayna, qaqauz
Dini etiqad: provoslavlıq, katolisizm
Pul vahidi: Moldova leyi
Dövlət quruluşu: respublika

Moldova keçmiş sovet respublikaları arasında əhalisi ən sıx, ərazisi kiçik olan ölkədir. Avropanın ən kasıb ölkələrindən biri olan Moldovanın okeana çıxışı yoxdur.

Moldovanın ərazisinin əsas hissəsini təpəli düzənliklər tutur, onların dəniz səviyyəsindən orta yüksəkliyi 140 m-dən hündür deyil. Ölkənin qərbində Reut və Prut çayları arasında hündürlüyü 430 m-dək olan, meşələrlə örtülmüş Kodru yüksəkliyi yerləşir. Mülayim-kontinental iqlim şəraitində yanvarın orta temperaturu -4°C, iyul 21°C-dir. Yağıntıların orta illik miqdarı 350 mm-dən 600 mm-ə qədərdir.

Moldova ərazisinin 35%-i enliyarpaq ağaclardan ibarət meşələrlə örtülür. Ölkənin ən uzun çayı olan Dnestr onun şərqindən axa-

raq Ukraynada Qara dənizə tökülür. Moldova ərazisinin 70%-i məhsuldar qara torpaqlarla örtülür. Taxıl, tütün, meyvə, qarğıdalı, tərəvəz, şəkər çuğunduru və günəbaxan, cənubda üzüm yetişdirilir. 1991-ci ildə ölkə müstəqillik əldə etdikdən sonra şərabçılıq güclü inkişaf etmişdir. Kənd təsərrüfatı Moldovanın ixracının əksər hissəsini təmin edən mühüm təsərrüfat sahəsidir. Ölkənin əmək qabiliyyətli əhalisinin 41%-i bu sahədə çalışır. Moldova əhalisinin yarısından çoxu kənd yerlərində yaşayır. Sənaye məhsulunun 42%-ni yeyinti sənayesi verir, meyvə-tərəvəz konservi, şərab, şəkər, yağ istehsal olunur. Moldova Mineral-xammal ehtiyatı az, mühüm nəqliyyat magistrallarından uzaqda yerləşir. Ölkə əhalisinin 2/3 hissəsini moldovanlar təşkil edir. Əhalinin 25%-ni ukraynalılar və çox hissəsi Dnestr çayından şərqdə yaşayan ruslar təşkil edir. 1990-cı ildə bu ərazidə rəsmi orqanlar tərəfindən tanınmayan, qondarma Dnestryanı Respublika yaradılmışdır. Moldovada sayı 153 min nəfərə qədər olan provoslav qaqauzlar yaşayır. Onlar bir neçə əsr əvvəl bura gəlmiş türkdilli köçərilərin nəsilləridir. 1994-cü ildə qaqauzların kompakt yaşadıqları ərazilərdə Qaqauz Muxtar Ərazi Qurumu yaradılmışdır (Mərkəzi Komrat).

Ukrayna Respublikası

Sahəsi: 603 700 km²
Əhalisi: 46 600 min nəfər (2007)
Əhalinin sıxlığı: 77,2 nəfər/km²
Paytaxtı: Kiyev (2 923 min nəfər)
Əsas dillər: ukrayna, rus
Dini etiqad: provoslavlıq (76%), katolisizm (14%)
Pul vahidi: qrivna
Dövlət quruluşu: respublika

Ukrayna keçmiş Sovet respublikaları arasında iqtisadi potensialına və əhalisinin sayına görə Rusiyadan sonra ikinci, sahəsinə görə üçüncü yeri tutur. Müstəqillik illərində ölkədə iqtisadi islahatlar aparılmasına baxmayaraq xeyli problemlər vardır. Ölkə cənubda Qara dəniz sahillərinə çıxışa malikdir.

Ukrayna ərazisinin əsas hissəsi münbit torpaqların yayıldığı çöllərdən və yüksəkliklərdən ibarətdir. Şimalda şam, küknar və palıd ağaclarından ibarət sıx meşə massivləri vardır. Cənub-qərbində Şərqi Karpat dağları, Krım yarımadasında Krım (Tavr) dağları yerləşir. Ukrayna böyük su ehtiyatlarına malikdir. Ölkədən Dnestr, Cənubi Buq, Prut, Desna kimi bir neçə iri çay axır. Ukraynanın əsas çayı Avropada uzunluğuna (2201 km) görə Volqa və Dunaydan sonra üçüncü yeri tutan Dneprdir. Çay Ukraynada 984 km məsafədə axır. Ukraynanın cənubda Qara və Azov dənizlərinə çıxışı vardır. Çoxlu çay töküldüyünə görə suyu aşağı duzluluğa malik olan Azov dənizi dayazdır. Cənubda Qara dənizlə dar Kerç boğazı ilə birləşir. Ukraynada yayı isti, qışı soyuq keçən kontinental iqlim hakimdir. Krım yarımadasının sahillərində quru isti yayı, yumşaq yağışlı qışı olan Aralıq dənizi iqlim tipi səciyyəvidir. Ölkənin şimalında və qərbində (700 mm/il) yağıntılar çox düşür, dağlarda isə tez-tez güclü qar yağır. Karpat dağlarında ildə orta hesabla 1500 mm, Krım dağlarında 1000 mm yağıntı düşür. Ukrayna ərazisinin 2/3-ni çöllər tutur. Ölkə məhsuldar qara torpaqları ilə məşhurdur.

Əkinçiliyə yararlı torpaqlar buğda, qarğıdalı, düyü, arpa, qarabaşaq, darı və digər bitkilərdən yüksək məhsuldarlıq əldə etməyə imkan verir. Burada xeyli miqdarda şəkər çuğunduru, kartof, meyvə-tərəvəz də becərilir. Heyvandarlıqda iri buynuzlu mal-qara, donuz, qoyun və ev quşları saxlanılır. 1986-cı ildə Çernobıl AES-də baş verən qəza nəticəsində Ukrayna torpaqlarının bir hissəsi radioaktiv çirklənməyə məruz qalmışdır. Kənd təsərrüfatı ilə əlaqəli olan kənd təsərrüfatı maşınqayırması və yeyinti sənayesində köhnə avadanlıqlardan istifadə edilir. Ukraynada əhalinin 73%-ni ukraynalılar, 22%-ni ruslar təşkil edir. Hesablamalara görə dünyada olan mineral ehtiyatların 5,0%-i Ukraynanın payına düşür. Ölkə dünyada manqan və titanın ehtiyatlarına görə birinci yeri, dəmir filizinin ehtiyatına görə üçüncü yeri tutur. Ukraynada 2007-ci ildə 56,7 mln. tondan artıq dəmir filizi çıxarılmışdır. Ölkənin sənaye kompleksinin əsasını metallurgiya və maşınqayırma təşkil edir, bu sahələrə aid müəssisələr şərqdə, Donbass-Krivoy Roq-Xarkov rayonunda cəmlənmişdir. Ölkədə çox zəngin daş kömür ehtiyatları vardır. Kömür yataqları onun şərqində, Donetsk (Donbass) kömür hövzəsində yerləşir. Hasilatın indiki səviyyəsində ehtiyatlar 300 ilə kifayətdir. Lakin neft və qaz ehtiyatları azdır və tələbatın 80%-ni idxal etməli olur.

Karpat dağlarının bir hissəsi Ukraynada yerləşir.

Belarus Respublikası

Sahəsi: 207 546 km²
Əhalisi: 10,0 min nəfər (2010)
Əhalinin sıxlığı: 50 nəfər/km²
Paytaxtı: Minsk (1 829 min nəfər)
Əsas dillər: belorus, rus
Dini etiqad: provoslavlıq(80%), katoliszm
Pul vahidi: belorus rublu
Dövlət quruluşu: respublika

Belarus Avropanın dünya okeanına çıxışı olmayan ölkələrindən biridir. Relyefi əsasən ovalıqlardan ibarət olan ölkənin şimalında çoxlu göllər vardır, cənubunda bataqlıqlar geniş sahə tutur. Belarus 1991-ci ildə Sovet İttifaqının tərkibindən çıxaraq müstəqil dövlət olmuşdur.

Belarusun ərazisini kəsib keçən dağ silsiləsi ölkəni iki ovalıq regiona ayırır. Şimalda bir neçə maili təpələr və ölkədəki 11 min gölün çox hissəsi yerləşir. Cənub hissəsində isə Pripyat çayı və onun qollarının hövzələrinə aid olan bataqlıqlaşmış geniş ovalıq vardır. "Belarus meşələri" adlandırılan bu region Avropada ən böyük qurudulmamış bataqlıqdır. Polesye (meşələr) nəhəng tektonik çökmədə yerləşir və buzlaq

çöküntüləri ilə yaranmışdır. Qərbdə, Polşa ilə sərhəddə "Belovejskaya Puşşa" milli parkı yerləşir. Burada zebu sürüsü qorunur. Mülayim-kontinental iqlim şəraitində yanvarın orta temperaturu -4°C, iyul 16°C-dir, ildə 550-700 mm yağıntı düşür. İkinci Dünya müharibəsi zamanı 2 mln. nəfərdən çox belarus həlak olmuşdur. 1986-cı ildə Ukraynanın Çernobıl şəhərində nüvə reaktorunun partlaması nəticəsində əmələ gələn radioaktiv yağıntıların 70%-i Belarusun ərazisinə düşmüşdür. Nəticədə burada 3 mln. nəfər insan ciddi ziyan çəkdi, torpaqlar, su hövzələri, çaylar radiasiyaya məruz qaldı və zəhərləndi. Meşələrin 15%-i, əkinə yararlı torpaqların 20%-i hazırda da normadan artıq radioaktiv şüalanma zonasıdır. Əmək qabiliyyətli əhalinin 14%-i kənd təsərrüfatında çalışır, taxıl, şəkər çuğunduru, kətan, kartof becərilir, südlük və südlük-ətlik mal-qara, donuz saxlanılır. Lakin sənayenin rolu təsərrüfatda daha böyükdür. Belarusda əvvəlki dövrlərdə çoxsaylı ağır və emaledici sənaye müəssisələri yaradılmışdır. Maşınqayırmada avtomobil, yükünü özü boşaldan maşın, soyuducu, televizor istehsal olunur, kimyəvi lif və gübrə buraxılır. Ölkənin sənaye müəssisələri paytaxt Minsk və onun ətrafındakı şəhərlərdə cəmlənmişdir. Burada kənd təsərrüfat və məişət texnikası, avtomobil, dəzgah və s. istehsal edilir. Belarusun əsas ticarət müttəfiqi Rusiya Federasiyasıdır. İdxalın 32%-i, ixracın demək olar ki, yarısı Rusiyanın payına düşür.

Rusiya Federasiyası

Sahəsi: 17 075 400 km²
Əhalisi: 141 904 min nəfər (2010)
Əhalinin sıxlığı: 8,3 nəfər/km²
Paytaxtı: Moskva (12 410 min nəfər)
Əsas dillər: rus, tatar, ukrayna, çuvaş, başqırd, çeçen, mordva
Dini etiqad: provoslav, islam
Pul vahidi: rubl
Dövlət quruluşu: respublika



Rusiya Federasiyası sahəsinə görə dünyanın ən böyük ölkəsidir. Ölkə Avrasiyanın bütün ərazisi boyu enlik istiqamətində uzanır. Ona görə 9 saat qurşağında yerləşir. Hazırda ölkədə ciddi siyasi, iqtisadi və sosial islahatlar həyata keçirilir.

Rusiya dünyanın ən qüdrətli ölkələrindən biridir. Qərbdən şərqə 10000 km, şimaldan cənuba 4000 km məsafədə uzanır. Şimaldan cənuba uzanan Ural dağları ölkənin Avropa hissəsini Asiya hissəsindən ayırır. Ölkənin böyük ərazisində kontinental iqlim hakimdir. Amma ölkədə müxtəlif iqlim şəraiti, bitki və heyvanlar aləmi müşahidə olunur. Dünyada təbii yanacağın və bir çox metalların aparıcı hasilatçıları sırasına daxildir. Rusiya 1991-ci ildə suveren dövlət olmuşdur. Lakin keçid dövründə bir çox çətin siyasi və sosial-iqtisadi problemləri həll etməyə çalışır. Rusiyanın tərkibində 83 inzibati-ərazi subyekti vardır. Onlara 21 respublika, 9 ölkə, 46 vilayət, 2 federal əhəmiyyətli şəhər (Moskva və Sankt-Peterburq), 1 muxtar vilayət aiddir. Əhalinin 73%-i şəhərlərdə yaşayır. Rusiyanın Avropa hissəsi ölkənin iqtisadi cəhətdən daha yaxşı inkişaf etmiş regionudur. Regionun cənubunda Qafqaz dağları ucalır. Rusiyanın ən yüksək zirvələri buradadır. Region cənubda Qara və Xəzər dənizlərinə, şimalda Barens dənizinə çıxışa malikdir. İsti Şimali Atlantika cərəyanı qışda Barens dənizinin cənub-qərb hissəsini donmağa qoymur və kabotaj gəmiçilik marşrutu il boyu açıq qalır. Onun sahilində donmayan Murmansk limanı yerləşir. Ölkənin Avropa hissəsinə Rusiyanın qalan sahəsindən Litva və Latviya vasitəsilə ayrılan Kaliningrad anklavı da daxildir. Ural dağları 280 milyon il əvvəl, Şərqi Avropa və Sibir litosfer tavalarının yaxınlaşması nəticəsində yaranmışdır. Dəniz səviyyəsindən orta hündürlüyü 600 m-dir. Ural faydalı qazıntılarla zəngindir. Burada kömür,

dəmir filizi, qızıl, platin, qurğuşun, mis, xrom, nikel, manqan, sink, boksit və nadir metallar vardır, qiymətli və yarımqiymətli daşlar çıxarılır. Orta və Cənubi Uralda dağ-mədən və emal sənayesinin inkişafı əsasında böyümüş sənaye şəhərləri olan Yekaterinburq (1,3 mln nəfər), Perm, Ufa, Çelyabinsk, Maqnitoqorsk yerləşir. Rusiyanın Avropa hissəsində dənli, yem bitkiləri, meyvə-tərəvəz becərilir, ölkənin kartof, şəkər çuğunduru, arpa, yulaf, çovdar becərilir.

Qədim Rus dövləti IX əsrin ortalarında bir neçə Şərqi Slavyan knyazlıqlarının birləşməsi nəticəsində yaranmışdır. 988-989-cu illərdə Rusiyada xristianlıq rəsmi dövlət dini olmuşdur. Qədim Rusiyanın inkişafı Yaroslav Mudrının (1019-1054) hakimiyyəti dövründə olmuşdur. XIII əsrin ortalarından başlayaraq 200 ildən artıq müddətdə Rusiya monqol-tatarların əsarəti altında yaşamışdır. Rus knyazları öz ərazilərində hakimiyyətini saxlasa da, Qızıl Ordanın xanlarına xərac verməli idilər, həmçinin onlardan knyaz olmaq icazəsi də alırdılar. XIV-XVI əsrlərdə Moskva ətrafında mərkəzləşmiş Rus dövləti yarandı. XV əsrin sonlarında onun ərazisi qərbdə Finlandiyadan şərqdə Urala qədər uzanırdı. XVI-XIX əsrlərdə Şimal əraziləri, Volqaboyu, Ural, Sibir, Uzaq Şərq, Qafqaz Rusiyaya birləşdirildi. Əsası 1147-ci ildə qoyulan Moskva uzun illər Rusiyanın paytaxtı olmuşdur. 1712-ci ildə I Pyotr paytaxtı Sankt-Peterburq şəhərinə köçürdü. İndi Sankt-Peterburq Rusiyanın ikinci böyük şəhəri, iri dəniz limanı və sənaye mərkəzidir. Burada maşınqayırma, metallurgiya, kimya və poliqrafiya müəssisələri yerləşir. Rusiya çoxmillətli dövlətdir, burada 100-ə qədər xalq yaşayır. Əhalinin 3/4 hissəsi Avropa hissəsindəki şəhərlərdə məskunlaşmışır. Bu regiondan Avropanın ən böyük çayı olan Volqa axır. Uzunluğu 3530 km olan bu su arteriyası bütün axını boyu gəmiçiliyə yararlıdır. Rusiyanın Monqolustan və Çinlə həmsərhəd olan ərazilərinin çox hissəsini dağ silsilələri, o cümlədən Yablonovoy və Stanovoy dağları tutur. Rusiyanın Asiya hissəsini coğrafi cəhətdən dörd geniş regiona bölmək olar. Onlara cənub dağlıq vilayəti, Qərbi Sibir düzənliyi, Orta Sibir yaylası və Uzaq Şərq aiddir. Buradakı geniş ərazilər demək olar ki, mənimsənilməmişdir. Sibirdə dünyanın ən böyük meşə massivləri yerləşir. Nəhəng Sibir çaylarının üzərindəki

SES-lərdə Rusiyanın elektrik enerjisinin 80%-i istehsal edilir. Anqara çayında SES-lər daha çoxdur. Qərbi Sibir ovalığı Uraldan şərqdə yerləşir, yer kürəsinin ən böyük düzənliklərindən biridir. Düzənliyin sahəsi 3 mln. km²-dir, eni qərbdən şərqə 1900 km, uzunluğu şimaldan cənuba 2500 km-dir. Ərazisinin yarıdan çoxu dəniz səviyyəsindən 100 m hündürlükdədir, yalnız cənubda və şərqdə 250 m-dən yuxarı qalxır. Qərbi Sibirdə 300-dən çox neft-qaz yataqları tapılmışdır. Dünyadakı qaz ehtiyatlarının 33%-i və hasilatının 28%-i Rusiyanın payına düşür. Tümen vilayətində Nijnevartovsk yaxınlığındakı Samotlor yatağı dünyanın dörd nəhəng neft yatağından biridir. Tümendə həmçinin, böyük qaz yataqları da tapılmışdır. Öz başlanğıcını buradan götürən qaz xətləri nəinki Rusiyanın Avropa hissəsini, həm də Mərkəzi və Qərbi Avropanı da təbii qazla təmin edir. Yenisey Rusiyanın ən bolsulu çayıdır, 3540 km məsafə qət edir və Kara dənizinə tökülür. Çay dənizə saniyədə 19 milyon litr su gətirir. Anqara ilə birlikdə çayın ümumi uzunluğu 5540 km-dir. Hövzəsi Qərbi Sibir ovalığı ilə Orta Sibir yaylası arasında sərhəd rolunu oynayır. Orta Sibir yaylası dəniz səviyyəsindən 300-1000 m hündürlükdə yerləşir. Yayla 3,5 mln. km²-dən ibarət böyük ərazini əhatə edir. Qədim kristallik süxurlardan ibarət yaylanın səthi dərin çay dərələri ilə kəsilmiş, cənubda və şərqdə dağ silsilələri ilə əhatələnmişdir. Şimalda Şimali Sibir ovalığı yerləşir. Şərqi Sibir və Uzaq Şərq mineral ehtiyatlarla çox zəngindir. Neft çıxarılan əsas rayonlardan biri də Saxalin adasıdır. Şərqi Sibir böyük kömür yataqlarına malikdir. Krasnoyarsk diyarında, Yakutiya və İrkutsk vilayətində yerləşən Tunqus hövzəsi kömür ehtiyatına görə (2 trln. ton) həm Rusiyanın, həm də dünyanın ən böyük yatağıdır. Sonrakı yerdə Yakutiya və Krasnoyarsk diyarında olan Lena hövzəsi gəlir ki, onun ehtiyatı 1,6 trln. ton qiymətləndirilir. Rusiyada iki böyük almaz yatağı rayonu vardır. Onlara Rusiyanın Avropa bölgəsindəki Arxangelsk vilayəti, bütün

Baykal gölü dünyanın ən mühüm incilərindən biridir

minerallar və elementlərin rast gəlindiyi Yakutiya aiddir. Rusiyanın Uzaq Şərqi dağlıq və çox parçalanmış relyefə malikdir. Kamçatkada çoxlu qeyzer, qaynar bulaqlar və 160 vulkan vardır ki, onların 28-i fəaliyyətdədir. Hündürlüyü 4750 m olan Klyuçi Sopkası Sibirin və Uzaq Şərqin ən uca zirvəsidir. Kamçatka Rusiyanın zəlzələ və vulkanlar baş verən regionlarına daxildir. Vulkanlar həlqəsi Kuril adalarında da davam edir. Kuril adalarında 100 vulkan vardır ki, onlardan 40-ı fəaliyyət göstərir. Kuril adalarının cənubunda olan bəzi adalara görə Rusiya ilə Yaponiya arasında mübahisələr gedir. Rusiyanın ərazisindən 100 000-dən çox çay axır. Ölkənin ən böyük çayları onun şərq hissəsindədir. Ob və İrtış çayları Qərbi Sibir ovalığından keçərək 5409 km məsafədə axıb Kara dənizinə tökülür. Şərqi Sibirdə axan Lena çayının uzunluğu 4400 km-dir. Laptevlər dənizinə töküldüyü yerdə çay, sahəsi 30 000 km² olan delta əmələ gətirir. Cənubi Sibirdə ən böyük, sahəsi 31,5 min km² olan Baykal gölü yerləşir. Gölün uzunluğu 636 km, eni 15-80 km, dərinliyi 1637 m-dir. Baykal dünyanın ən dərin şirinsulu gölüdür. Rusiyanın şirin su ehtiyatlarının 87%-i, dünya şirin su ehtiyatlarının 20%-i burada toplanır. Tektonik mənşəli göl 15-20 mln. il əvəl yaranmışdır.

ASİYA

Mərkəzi Asiya
Şərqi Asiya
Cənub-Şərqi Asiya
Cənubi Asiya
Cənub-Qərbi Asiya

ASİYA

Mərkəzi Asiya
Qazaxıstan Respublikası

Sahəsi: 2 717 300 km²
Əhalisi: 16,3 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 6 nəfər/km²
Paytaxtı: Astana (639 min nəfər)
Əsas dillər: qazax, rus
Dini etiqad: islam (47%), provoslav (44%)
Pul vahidi: təngə
Dövlət quruluşu: respublika

Qazaxıstan ərazisinə görə dünyanın doqquzuncu, Mərkəzi Asiyanın isə ən böyük dövlətidir. Mineral ehtiyatlarla zəngin olan ölkə son vaxtlarda müstəqil olsa da, sürətlə inkişaf edir. Yaxın zamanlarda dünyanın aparıcı ölkələrindən birinə çevrilə bilər. 1997-ci ildə ölkənin paytaxtı Almatıdan Astanaya köçürülmüşdür.

Ölkənin şimal və mərkəzi rayonlarında ərazinin 40%-dən çoxunu tutan çöl zonası yayılır. Cənuba doğru çöllər yarımsəhralar və səhralarla əvəz olunur, şərqdə isə mütləq hündürlük tədricən artır, mineral xammalla zəngin olan yaylaya keçir, sonra tədricən Altay dağları ilə əvəz olunur. Ölkənin ən yüksək nöqtəsi olan Xan-Tenqri (6995 m) zirvəsi cənub-şərqdə, Qazaxıstan, Qırğızıstan və Çinin sərhəddində yerləşir. Ölkənin ən aşağı nöqtəsi isə okean səviyyəsindən -132 m aşağıda olan Karagiye çökəkliyidir, Xəzər dənizinin sahilləri də okean səviyyəsindən 27 m aşağıdadır. Qazaxıstan kəskin kontinental iqlimə malikdir, çox böyük mövsümü və sutkalıq temperatur fərqi yaranır. Yanvarın orta temperaturu -3°C-dən -19°C-yə qədər, iyulun orta temperaturu 19°-dən 29°C-yə qədər olur. Dağlıq ərazilərdə orta hesabla il ərzində 1500 mm-dək yağıntı düşür. Qalan ərazilərdə 200 mm-dən 400 mm-ə qədər, səhralarda isə 100 mm-dən də az yağıntı olur. Ən böyük göl olan Balxaş 17,4 min km² sahə tutur. Özbəkistanla sərhəddə olan Aral dənizinə tökülən Amudərya və Sırdərya çaylarının suyundan səmərəsiz istifadə edilməsi nəticəsində onlar artıq demək olar ki, gölə su gətirmir. 1960-cı ildən sonra dənizin sahəsi 80% azalmışdır. Ətraf ərazilər kənd təsərrüfatına yararsız olan səhraya çevrilmiş, təbii kompleks, o cümlədən balıqlar məhv olmuş, ətraf təsərrüfat sistemi, məntəqələr dağılmışdır. Təsərrüfat sahələrinin və hərbi-kosmik sənayenin fəaliyyəti, xüsusilə Semipalatinsk rayonunda nüvə sınaqlarının keçirilməsi nəticəsində, Qazaxıstanda təbii mühitin tarazlığının pozulması ciddi problem olaraq qalır. Ən böyük etnik qrup olan qazaxlar əhalinin 51%-ni təşkil edir. Qazaxlar tarixən köçəri həyat sürmüş, XX əsrdə onların çoxu oturaq həyata keçməyə məcbur olmuşdur. Ruslar əhalinin 30%-ə qədərini təşkil edir, digər sayı çox olan milli azlıqlara ukraynalılar (3,7%), tatarlar, özbəklər (2,5%) aiddir. Qazaxıstanın təsərrüfatı üçün hasilat sənayesi mühüm əhəmiyyət kəsb edir. Ölkə bir çox

Medeo Qazaxıstanın mənzərəli guşələrindən biridir

mineralların (qurğuşun, sink, xrom, volfram, kömür, dəmir və nikel filizləri) böyük ehtiyatlarına malikdir. Xəzər dənizinin şelf zonasında iri neft və qaz yataqları tapılmışdır. Onların istismarı üçün xarici şirkətlər cəlb olunur. Sutkada 1,5 mln. barrel neft hasil olunur. Kənd təsərrüfatı süni suvarmadan çox asılıdır. Əkin sahələrinin çox hissəsini taxıl, pambıq, günəbaxan, şəkər qamışı, tütün, meyvə-tərəvəz tutur. Mərkəzi rayonlarda qoyunçuluq inkişaf etmişdir.

Özbəkistan Respublikası

Sahəsi: 447400 km²
Əhalisi: 28,1 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 62,8 nəfər/km²
Paytaxtı: Daşkənd (2 210 min nəfər)
Əsas dillər: özbək, rus, tacik, qazax
Dini etiqad: islam (sünni təriqəti, 80%), xristianlıq (pravoslavlıq)
Pul vahidi: som
Dövlət quruluşu: respublika



Özbəkistan Mərkəzi Asiyada əhalisinin sayı və sıxlığı ən çox olan ölkədir. Mineral ehtiyatların müxtəlif və zəngin olmasına baxmayaraq ölkədə yoxsulluq və işsizlik ciddi problem olaraq qalır. Ölkənin tərkibində Qaraqalpaq MR vardır.

Özbəkistan dünyada iki ölkədən biridir ki, həm özünün, həm həmsərhəd olduğu ölkələrin

okeanlara birbaşa çıxışı yoxdur (ikinci ölkə Lixtenşteyndir). Ölkənin ərazisinin 1/3 hissəsini tutan cənub və cənub-şərq rayonları dağlar və dağətəyi sahələrdən ibarətdir. Onlar qonşu Qırğızıstan və Tacikistandakı dağlarla birləşir. Ölkə ərazisinin qalan böyük bir hissəsini səhralar təşkil edir. Yanvarın orta temperaturu -7°C-dən 3°C-yə qədər, iyulda 26°-30°C arasında qeydə alınır. Bütün ərazilərdə yağıntılar azdır və 200-400 mm arasında düşür. Kənd təsərrüfatı yalnız süni suvarma şəraitində mümkündür, əsasən şərqdə və Amudərya çayının məhsuldar vadisində cəmlənmişdir. Çay və göl sularının suvarmada həddən artıq istifadə olunması Aral gölündə suyun azalmasına gətirib çıxarmışdır. Özbəkistanda becərilən əsas bitki pambıqdır. Çəltik, tütün, meyvə-tərəvəz və bostan bitkiləri də becərilir və əksər hissəsi ixrac edilir. Taxılçılıq tələbatın yalnız 1/3 hissəsini ödəyir, qalan hissəsi isə idxal olunur. Heyvandarlıqda qaragül cinsli qoyun, ipəkqurdu saxlanılır. Özbəklər ölkə əhalisinin 80%-ni, ruslar 5,5%-ni, taciklər 5%-ni, qazaxlar 3%-ni, tatarlar isə 1,5%-ni təşkil edir (1996). Ölkənin cənub və şərq hissəsi daha sıx məskunlaşmışdır. Yaşı bir neçə min il ilə ölçülən Səmərqənd (b.e.ə. VI əsr) və Buxara (I əsr) şəhərlərində islam mədəniyyəti abidələri qorunub saxlanılır. Kimya, yüngül və yeyinti məhsulları, avtomobil və təyyarəqayırma, əlvan metallar, kənd təsərrüfatı texnikası istehsal olunur. Qızılqum səhrasında hasil edilən qızıldan zərgərlik məmulatları istehsal edilir.

Türkmənistan Respublikası

Sahəsi: 488100 km²
Əhalisi: 5,2 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 10,7 nəfər/km²
Paytaxtı: Aşqabad (828 min nəfər)
Əsas dillər: türkmən, özbək, rus
Dini etiqad: islam (sünni təriqəti, 89%)
Pul vahidi: manat
Dövlət quruluşu: respublika

Türkmənistan Mərkəzi Asiyada əhalisi az olan, seyrək məskunlaşmış ölkədir. Dünyadan müəyyən qədər təcrid olunmuş halda yaşayan ölkə ərazisinin çox hissəsini səhralar tutur.

Türkmənistanın təqribən 4/5 hissəsini geniş və hamar Qaraqum səhrası tutur. Burada bəzən temperatur 50°C-yə qədər qalxır. İqlim quru və kəskin kontinentaldir: qışda orta temperatur -4°C-dir, bəzən -30°C-yə qədər azalır, səhrada 150 mm, dağlarda 400 mm yağıntı düşür. Ölkədə əsas problemlərdən biri şirin su ilə səmərəli təminatdır. Şirin su çatışmadığına görə əksər sakinlərin sağlamlığında problemlər müşahidə olunur. Əsas su arteriyası olan Amudərya ölkənin şərqindən keçir. Əfqanıstan ilə sərhəddə yaxın suyun bir hissəsi dünyanın ən böyük irriqasiya qurğusu olan Qaraqum kanalı ilə Aşqabada yönəldilir. Uzunluğu 1100 km olan bu kanal suvarılan torpaqlarda pambıq, buğda, qarğıdalı, üzüm və tərəvəz becərilmsinə imkan verir. Ölkənin kənd təsərrüfatında heyvandarlıq mühüm rol oynayır, qaragül qoyun cinsləri, keçi, dəvə və cins atlar saxlanılır. Türkmənistanın ən böyük şəhəri və paytaxtı olan Aşqabad 1948-ci ildə zəlzələ nəticəsində tamamilə xarabalığa çevrilmiş, sonra tamamilə yenidən qurulmuşdur. Hazırda pambıq parça və toxuculuq sənayesi mərkəzi kimi məşhurdur. Gəlirlərin həcminə görə bu sahələr neft və təbii qaz ixracından geri qalır. Türkmənistanda əhalinin həyat səviyyəsi aşağıdır. Hökumət bu sahədə əsaslı tədbirlər görməyə tələsmir.

Tacikistan Respublikası

Sahəsi: 143 100 km²
Əhalisi: 7,6 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 53,1 nəfər/km²
Paytaxtı: Düşənbə (695 min nəfər)
Əsas dillər: tacik, özbək, rus
Dini etiqad: islam (sünni təriqəti 90%, şiələr 5%)
Pul vahidi: tacik rublu
Dövlət quruluşu: respublika

Tacikistan Mərkəzi Asiyada ən kiçik və ən kasıb ölkədir. Onun ərazisinin yarısından çoxu okean səviyyəsindən 3000 m-dən yüksəkdə yerləşir. Ölkənin tərkibində Dağlıq Bədəxşan MR vardır. Burada şiə ismaillilər yaşayır.

Tacikistanın ərazisinin 90%-dən çoxunu dağlar tutur. Ən yüksək piklər Pamir yaylasında yerləşir (İsmail Somoni piki, 7495 m). Yayı isti olan kontinental iqlim hakimdir, yüksək dağlarda temperatur azalır. Yanvarın orta temperaturu 2°C-dən -2°C-yə qədər, iyulda 31°C-dir.

Buzlaqlarla qidalanan çoxsaylı dağ çaylarında kifayət qədər elektrik enerjisi alınır. Bu enerji həm alüminium sənayesinin tələbatını

ödəyir, həm də qonşu ölkələrə ixrac edilir. Ərazinin yalnız 6%-i əkinçilik üçün yararlıdır. İrriqasiya ölkənin düzənlik rayonlarının bir qismində pambıq, taxıl, tütün, tərəvəz, meyvə, tut ağacları becərilməsinə imkan verir. Sovet dövründə pambıq əkinlərinin genişlənməsi nəticəsində Tacikistanın özünü qida məhsulları ilə təmin etməsi problemə çevrildi. Lakin son illər beynəlxalq maliyyə təşkilatları ölkənin kənd təsərrüfatına kömək edir.

Qaraqul gölü

Tacikistan mineral ehtiyatlarla zəngindir. O cümlədən civə, gümüş, qızıl və dünyanın kəşf edilmiş uran ehtiyatlarının 10%-dən çoxu burada cəmlənir. Lakin sərt dağlıq relyef yataqların istismarını və daşınması işlərini xeyli çətinləşdirir.

Taciklər farslara yaxın olan xalqlardır, fars dil qrupuna aiddirlər və ölkə əhalisinin 80%-ni təşkil edirlər. Ən böyük milli azlıq olan özbəklərin əhali arasında payı 5% təşkil edir. Pamir yaylasında demək olar ki, hər bir vadidə ayrıca tayfa yaşayır. 1991-ci ildə müstəqilliyini elan etdikdən sonra baş verən vətəndaş müharibəsi və ölkədən ixtisaslı rus fəhlələrinin emiqrasiya etməsi sənayedə ciddi tənəzzülə gətirib çıxardı. Ölkədə alüminium, kimya məhsulları, sement, toxuculuq, dəri, yeyinti məhsulları istehsal olunur. Əhalinin 60%-dən çoxu yoxsul yaşayır, səhiyyə olduqca aşağı səviyyədədir.

Qırğızıstan Respublikası

Sahəsi: 198 500 km²
Əhalisi: 5363 min nəfər (2010)
Əhalinin sıxlığı: 27,0 nəfər/km²
Paytaxtı: Bişkek (835 min nəfər)
Əsas dillər: qırğız, rus, özbək
Dini etiqad: islam (sünni təriqəti, 75%), provoslavlıq 20%)
Pul vahidi: som
Dövlət quruluşu: respublika

Qırğızıstan keçmiş Mərkəzi Asiya Respublikaları arasında ən dinamik inkişaf edən ölkədir. Buna böyük mineral-xammal ehtiyatlarının olması imkan verir.



Qırğızıstanın landşaftını ölkənin bütün ərazisini kəsib-keçən və Çində də davam edən dağlar müəyyən edir. Zirvəsi daim qar və buzlarla örtülü olan bu dağların mütləq hündürlüyü 7000 m-dən çoxdur. Onların arasında yaşıllığa

Tyan-Şan dağlarında yazda hər tərəf gül-çiçəyə bürünür

bürünən dağarası vadilər (çökəkliklər) yerləşir.

Tyan-Şan dağlarında yerləşən mənzərəli İssık-Kul dərinliyinə görə dünyada dördüncü dağ gölüdür. Kontinental iqlimə malik olan vadilərdə orta temperatur yayda 27°C (iyul), qışda -4°C (yanvar) olur. Yağıntıların illik miqdarı Tyan-Şanın şərqində 180-250 mm, cənub-qərbində 900-1000 mm-dir. Qırğızıstanda böyük daş kömür, sürmə, civə, uran, sink, qalay, volfram, qurğuşun, nadir metallar və təbii qaz yataqları vardır. 1992-ci ildə ehtiyatının həcmi 5500 ton qiymətləndirilmiş qızıl yatağı tapılmışdır. Onun ehtiyatına görə Qırğızıstan dünyada yeddinci yerdə durur. Sənayenin əlvan metallurgiya, maşınqayırma, yeyinti və toxuculuq sahələri vardır. Ölkənin ərazisinin yalnız 7%-ə qədərinin əkinçilik üçün yararlı olmasına baxmayaraq, kənd təsərrüfatında digər sahələrə nisbətən daha çox adam çalışır. Hər yerdə ətlik-südlük mal-qara, qoyun, keçi, barama və at saxlanılır. Əkinçilikdə taxıl bitkiləri, şəkər çuğunduru, pambıq, tütün və tərəvəz becərilən ölkə özünü əsas ərzaq məhsulları ilə təmin edə bilər.

Qırğız dindarlar əsasən islam dininin sünni təriqətinə mənsubdurlar. Ölkə siyasi cəhətdən qeyri-sabitdir. 2005-ci ildə, az vaxt sonra 2010-cu ildə baş vermiş dövlət çevrilişlərində hökumət dəyişmişdir.

Monqolustan

Sahəsi: 1564100 km²
Əhalisi: 2,8 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 2,0 nəfər/km²
Paytaxtı: Ulan-Bator (1072 min nəfər)
Əsas dil: monqol
Dini etiqad: buddizm (80% lamaizm)
Pul vahidi: tuqrik
Dövlət quruluşu: respublika

Monqolustan geniş əraziləri əhatə edən, uczus-bucaqsız dağlarda, çöllərdə və səhralarda yerləşən ölkədir. Zəngin faydalı qazıntı yataqlarına malik olsa da, zəif iqtisadi potensial hələlik onları mənimsəməyə imkan vermir.

Monqolustanın ərazisinin çox hissəsi hündürlüyü 900 m-dən 1500 m-ə qədər olan platolardan (yaylalardan) ibarətdir. Onu dağlar kəsir, xüsusilə qərb hissəsində dağlar üstünlük təşkil edir. Burada hündürlüyü 4000 m-dən yüksək olan Monqol Altayı dağları yüksəlir (Nayramdal, 4362 m). Dağlarda hələ də məhv olmaq təhlükəsində olan qar bəbiri yaşayır. Şimal-şərq və şimal-qərb rayonlarının çölləri qoyun, iri buynuzlu mal-qara, keçi sürüləri və at ilxıları üçün təbii otlaqlardır. Monqolustanın cənub-şərqində Qobi səhrası yerləşir. Bu böyük və soyuq səhra qərbdən şərqə 1600 km, şimaldan cənuba təqribən 950 km məsafədə uzanır. Onun landşaftı üçün bitki örtüyündən məhrum olan daşlıq sahələr səciyyəvidir, qum dyunları yoxdur. Qobi ərazisində dağ massivləri və tirələr, lavanın soyuyub sıxlaşması nəticəsində yaranan bazalt sütunlarına rast gəlinir. Qobinin cənub-şərq hissəsi qurudur və burada canlı aləm demək olar ki, yoxdur. Qalan ərazilərdə cod otlar, tikanlı və alçaq boylu kollar bitir. Regionda az sayda olan kiçik göllərin və artezian quyularının sularından istifadə olunur.

Monqolustanda yüksək sutkalıq temperatur amplituduna (30°C-dək) malik quru və kəskin kontinental iqlim hakimdir. Yay adətən çox qısa, sərin keçir, az miqdarda yağıntılı olur, aydın günlərin sayı çoxdur. İyulun orta temperaturu 15°C-dən 26°C-yədək, yanvarın orta temperaturu isə -15°C-dən -35°C-dək aşağı düşür. Qış çox uzun və şaxtalı olur. Xüsusilə, sərt keçən qışı yerli əhali "jud" adlandırır. Onlar əhalinin əksər hissəsinin həyatının asılı olduğu mal-qaranın məhvinə səbəb olur. Heyvan sürülərini otarmaqla məşğul olan köçərilər Monqolustan əhalisinin 40%-ni təşkil edir. Kənd təsərrüfatında heyvandarlıq üstünlük təşkil edir, iri buynuzlu mal-qara, qoyun, at, dəvə saxlanılır, əkinlər torpaqların 1%-ə qədərini tutur. Əkinçilikdə buğda, kartof, tərəvəz və yem bitkiləri əsas yer tutur. Təsərrüfatda heyvandarlıq məhsulları olan yun və dəri emalı mühüm yer tutur, toxuculuq, yeyinti məhsulları istehsal olunur. Monqolustan mineral ehtiyatlarla zəngindir. Burada dəmir filizi, kömür, qurğuşun, mis, molibden, qalay və uran vardır. Sərt iqlim şəraiti və vəsaitin olmaması təbii ehtiyatların hasilatına imkan vermir. XVIII əsrdə bura Böyük Monqol imperiyasının mərkəzi olmuşdur. Hazırda isə Monqolustan Asiyanın ən geridə qalmış ölkələrindən biridir. Bütün Monqolustanda avtomobil yollarının uzunluğu 50 min km, dəmir yollarının uzunluğu isə 2,1 min km-dir. İndi bir çox monqol kəndliləri və köçəriləri şəhərlərdə yaşamağa üstünlük verirlər. Əhalinin 36%-i yoxsulluq həddindən aşağı şəraitdə yaşayır.

Şərqi Asiya
Çin Xalq Respublikası

Sahəsi: 9 560 790 km²
Əhalisi: 1338,1 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 140,0 nəfər/km²
Paytaxtı: Pekin (16,8 mln. nəfər)
Əsas dillər: çin (standart), onun u, kanton, syan, qan, xakka, yue, min dialektləri
Dini etiqad: ənənəvi çin inancları, daosizm, konfusianlıq, buddizm
Pul vahidi: yuan
Dövlət quruluşu: respublika

Çin əhalinin sayına görə dünyada birinci yeri tutur. 5000 il əvvəl burada Qədim dünyanın ən inkişaf etmiş sivilizasiyalarından biri yaranmışdır. Hazırda Çində təsərrüfat davamlı olaraq inkişaf edir və saysız-hesabsız möcüzələr yaranır. Dünya təsərrüfatında Çinin rolu getdikcə artır.

Çinin Sakit okeanda sahil xətlərinin uzunluğu 14500 km-dir, quruda isə 14 ölkə ilə sərhəddinin uzunluğu 22000 km-dir. İqlim və landşaftın böyük müxtəlifliyinə görə fərqlənən Çinin ərazisində üç böyük region ayırmaq olar: cənub-qərb, şimal-qərb və şərq. Cənub-qərbdə az məskunlaşmış, soyuq dağlıq rayon olan, ölkə ərazisinin 1/4 hissəsini tutan, dünyanın ən yüksək Tibet dağlıq yaylası yerləşir. Ölkənin çox hissəsi soyuq səhralar, bataqlıqlar və duzlu göllərdir. Ölkənin çoxsaylı əhalisinin 80%-ə qədəri əsasən Şərqi Çində yaşayır. Bu ərazi az hallarda okean səviyyəsindən 400 m-dən yuxarı qalxır, az yerlərdə yaylalara da rast gəlinir. Ölkənin şərqindən bir neçə əsr ərzində məhsuldar torpaqlara malik olan geniş subasar düzənliklər və deltalar yaradan çoxsaylı çaylar axır. Çinin ən böyük, Asiyanın ən uzun çayı olan Yantsızı (Çantszyan) çayına 700-dən çox qol birləşir, uzunluğu 6380 km-

dir. Başlanğıcını Kunlun dağlarından götürən Yantsızı Şanxay şəhərindən şimalda Sakit okeana tökülür. Çinin şimal-qərb rayonunu, əsasən, ovalıq relyefə malik geniş səhraları və dağ silsilələri olan yaylalar tutur. Onlardan şərqdə Mərkəzi Çinin şimalını, ölkə ərazisinin 27%-ni tutan Qobi səhrası yerləşir. İnsanların meşələri qırması və sərhəd rayonlarında quraq torpaqları əkinçilik üçün intensiv istifadə etməsi ilə əlaqədar səhranın ərazisi ildə 1550 km² genişlənir. Şimal küləkləri güclü qum fırtınaları yaradır, onlar şəhərlərə, kəndlərə daxil olaraq nəqliyyatın işini çətinləşdirir, kənd təsərrüfatına ciddi ziyan vurur. Səhralaşmanın qarşısını almaq məqsədilə "Böyük Yaşıl səd" salınması üçün layihə hazırlanmışdır. Layihəyə görə Qobi səhrasının cənub sərhədləri boyu bir neçə milyon ağacın əkilməsi nəzərdə tutulmuşdur, layihə 70 il ərzində yerinə yetirilməlidir. Çin nadir bitki və heyvanlar aləmi ilə zəngindir. Onlar arasında fərqlənən böyük panda və ya bambuk ayısı yalnız Qərbi Çinin meşələrində yaşayır. Hazırda onların sayı 1500-ə qədərdir. Yaşlı ana ayının çəkisi 125 kq-a qədər olur. Bu iri heyvanların əsas yemi bambuk ağacının kökü və cavan budaqlarıdır. Ağacın qidalılığı aşağı olduğuna görə pandalar sutkada 16 saat qidalanmalı olur.

Çinin geniş ərazisi iqlim xüsusiyyətlərinə görə bir-birindən kəskin fərqlənir. Temperatur şimaldan cənuba, yağıntılar isə şimal-qərbdən cənub-şərqə doğru artır. Ölkənin şimal-şərq hissəsi isti və rütubətli (yayda), uzun və soyuq (qışda), illik yağıntıların miqdarı 750 mm-ə qədər olur. Mərkəzi ovalıqlar Çinin ən isti rayonlarıdır, ildə 750-1100 mm yağıntı düşür. Cənubda rütubətlik yüksəkdir, subtropik rayonlarda musson iqlimi hakimdir. Şimal-qərbin quru kontinental iqlimi üçün qışın soyuq olması səciyyəvidir. Mütləq hündürlüyün çox olması və okeandan uzaqlığına görə ən sərt iqlim şəraiti Çinin qərbində formalaşır. Yağıntılar azdır, Tibet dağlıq yaylasının çox hissəsində ilin on ayı

havanın temperaturu mənfi olur.

Çində əmək qabiliyyətli əhalinin yarıya qədəri kənd təsərrüfatında çalışır. Cənubi Çində becərilən torpaqların üçdə birində ölkənin mühüm ərzaq məhsulu olan çəltik əkilir. Çəltik Cənubi Çinin becərilən əsas kənd təsərrüfatı bitkisidir. Buğda, qarğıdalı, darı, arpa, yağlı bitkilər, soya, kökümeyvəli bitkilər (kartof, yerkökü), şəkər çuğunduru, şəkər qamışı əkinləri də böyük sahə tutur. Araxis, pambıq və çay istehsalında Çin dünyada qabaqcıl yer tutur. Ev heyvanlarının və quşların sayına görə də Çin birinci ölkədir. Burada 500 mln. baş donuz, 610 mln. ördək, 3600 mln. toyuq vardır. Əhalinin qida rasionunda balıq mühüm rol oynayır, onun illik ovu 36 mln. ton təşkil edir. Tutulan balığın çox hissəsi şirinsulu çaylar, göllər və balıqçılıq təsərrüfatlarının payına düşür.

Çin daş kömür, neft, təbii qaz, dəmir filizi, volfram, titan, mis, qalay, boksit ehtiyatları ilə zəngindir. Dəmir filizi yataqlarının çox hissəsi ölkənin şimal-şərq hissəsində yerləşir və bura qara metallurgiyanın mərkəzidir. Çində müəyyən edilən 160 neft yatağının 75%-i ölkənin şərqində yerləşir. 2008-ci ildə Çində sutkada 3,8 mln. barrel neft çıxarılmışdır və ölkənin şərqindəki köhnə yataqlarda neft tükənir. Elektrik enerjisi almaq üçün kömürlə işləyən İES-lərdən çox istifadə olunur. Ona görə şəhərlərdə havanın çirklənməsi yüksək səviyyədədir. Çin KP hakimiyyətə gəldiyi ilk vaxtlardan fəal sənayeləşmə siyasəti aparır. Qara metallurgiya, neftçıxarma, neft emalı, kimya, yüngül sənaye, avtomobil, dəmir yolu, ağır və kənd təsərrüfatı maşınları istehsalı yüksək inkişaf səviyyəsinə çatmışdır. Çində dünya üzrə ən böyük toxuculuq sənayesi kompleksi yaradılmışdır. 2001-ci ildə bu sahədə çalışanların sayı 4,1 mln. nəfər olmuşdur. 1980-ci illərin sonundan başlayaraq Çinə xarici investisiyalar qoyulur, xarici şirkətlərlə birgə müəssisələr yaradılır. Son 20 ildə müxtəlif mülkiyyət formalı obyektlər təşkil olunur. İqtisadi artım ölkənin şərqində və sahil rayonlarında müşahidə olunur. Bu rayonlarda hər birinin əhalisi 1 mln. nəfərdən çox olan 20-dən çox şəhər yerləşir. Ölkənin paytaxtı olan Pekin və sənaye-ticarət mərkəzi olan Şanxay şəhərləri də (17,8 mln. nəfər) onlar arasındadır. Çinin siyasi tarixi çox keşməkeşli olmuşdur. Qomindan hökumətini Milli Partiya yaratmışdır, 1912-ci ildə yaradılmış, 1931-ci ildə hakim partiyaya çevrilmişdir. Çin KP 1921-ci ildə yaradılmışdır. Çan Kayşinin başçılıq etdiyi qomindan hökuməti ilə uzun illər ərzində olan qarşıdurmadan sonra hakimiyyətə 1949-cu ildə gəlmişdir. 1945-1949-cu illərdə olan vətəndaş müharibəsi 12 mln. nəfər insanın həyatı bahasına başa gəlmişdir. Nəticədə Çan Kayşi Tayvana qaçmış, 1 oktyabr 1949-cu ildə Mao Tszedunun başçı olduğu Çin XR elan edilmişdir. Onun rəhbərliyi ilə Çin KP tərəfindən ölkədə bir sıra əhəmiyyətli iqtisadi islahatlar həyata keçirildi. Bununla yanaşı, "böyük sıçrayış" siyasəti ölkənin inkişafına mənfi təsir göstərdi. Bu dövrdə iqtisadi artım sürətləndirilmiş templə getməklə, istehsal vasitələrinin ictimailəşdirilməsi həyata keçirilirdi. Kənd təsərrüfatı kooperativlərinin ləğv edilməsi və "xalq kommunalarının" yaradılması məhsul yığımının azalmasına və 20 mln. nəfərdən çox insanın aclıqdan ölməsinə gətirib çıxardı. "Mədəni inqilab" (1966-1976) təsərrüfatda böhranı daha da dərinləşdirdi, minlərlə insan edam edildi. Hesablamalara görə 1949-cu ildə Çinin əhalisi 500 mln. nəfər olmuşdur. 2009-cu il üçün onların sayı iki dəfədən çox artmışdır. 1970-ci illərdə ailələrdə ikinci uşağın doğulmasına ciddi qadağa qoyulmuşdur. Ailənin ciddi planlaşdırılması doğumun xeyli azalmasına gətirib çıxarsa da, hal-hal ölkədə 11,0 mln. uşaq dünyaya gəlir. Əhalinin sayına onun orta ömür müddətinin yüksəlməsi də təsir edir. 1950-ci illərdən başlayaraq səhiyyə xidmətinin yaxşılaşması nəticəsində orta ömür müddəti iki dəfə artmış və hazırda 70 yaşdan yuxarı qalxmışdır. Şəhərlərin inkişafı və sənayeləşməyə baxmayaraq ölkə əhalisinin 57%-i kəndlərdə yaşayır. Hökumət müxtəlif yollarla kənd əhalisinin şəhərlərə miqrasiyasının qarşısını

Səma məbədi (XV əsr)-Pekində yerləşən bu memarlıq abidəsi taxtadan qurulmuşdur, bir mismar da istifdə edilməmişdir. Çin imperatorları bol məhsul diləmək üçün burada ibadət etmişlər.

almağa çalışır. Buna baxmayaraq şəhər əhalisi sürətlə artmaqda davam edir. Başqa ölkələrlə müqayisədə Çində iri şəhərlərin sayı çoxdur. Onlardan 60-da əhalinin sayı 1 mln. nəfərdən artıqdır. Çinin ərazisində 55-dən çox müxtəlif etnik qrup yaşayır, lakin əhalinin 91,5%-ni xanlar (çinlilər özlərini belə adlardırır) təşkil edir. Ən böyük milli azlıq olan çjuanların sayı 17 mln. nəfərdən çoxdur. Ölkədə, həmçinin, 8,6 mln. nəfər xueytszu və 7,2 mln. nəfər uyğur yaşayır. Əhalinin yarısından çoxu özünü ateist hesab edir, 1/5-i ənənəvi yerli xalq inanclarına etiqad edir. Çində əhalinin xeyli hissəsi buddizm, daosizm, islam və xristianlığın müxtəlif cərəyanlarına inanır. Çin ərazisində 5 muxtar rayon ayrılır. Onlara Daxili Monqolustan, Quansi-Çjuan, Sintszyan-Uyğur, Tibet və Ninsya-Xuey aiddir. Tibet muxtar rayonu Çinin cənub-qərb hissəsində olan Tibet yaylasında yerləşir. Üç tərəfdən ərazi möhtəşəm dağlarla əhatə olunur. Tibet Çinin ərazisinin 20%-ni tutsa da, onun əhalisi cəmi 2,8 mln. nəfərdir. Onların arasında etnik tibetlilər 90%-dən çoxdur. Tibetin paytaxtı Lxasa şəhəridir. Çinin hökumət qüvvələri Tibeti 1950-1951-ci illərdə işğal etdi. 1959-cu ildə muxtar rayonda Çinə qarşı olan üsyan yatırıldıqdan sonra dalay-lama Hindistana qaçmağa məcbur oldu. Bu vaxtdan Tibet Çinin idarəçiliyi altında yerləşir. Çinin cənubunda B.Britaniyanın keçmiş müstəmləkəsi Honkonq yerləşir. Şəhər 1898-ci ildən B.Britaniyanın idarəçiliyi altında olmuş, 1997-ci ildə Çinə qaytarılmışdır. Honkonq (Syanqan) dünya miqyaslı ticarət və maliyyə mərkəzlərindən biridir. Toxuculuq, sonradan elektron sənayesinin inkişafı, ticarət-maliyyə fəaliyyəti bu rayonu çiçəklənən iqtisadi zonaya çevirmişdir. 1000 km² ərazidə 7 mln. nəfər yaşayır. Ona görə dünyanın ən sıx məskunlaşmış rayonlarından biridir. B.Britaniya ilə olan müqaviləyə görə Honkonqa Xüsusi inzibati rayon statusu verilmişdir. Belə statusu 1999-cu ildə keçmiş Portuqaliya müstəmləkəsi Makao da almışdır. 2,5 min il əvvəl Çjou sülaləsi dövründə Çin mədəniyyətinin mühüm tərkib hissəsindən biri filosof Konfusinin (b.e.ə. 551-479) təlimi idi. Sin sülaləsinin az müddət davam edən hakimiyyəti dövründə (b.e.ə. 221-207) bütün Çin ərazisi birləşdirilmiş, ölkənin şimalında Böyük Çin səddi tikilmişdir. Xan (b.e.ə. 206-b.e. 220-ci ili), Tan (618-907) və Sin (960-1279) sülalələrinin dövründə elmin, incəsənətin və ədəbiyyatın çiçəklənməsi baş vermişdir. Monqolların işğalı ilə Sun sülaləsinin hakimiyyətinə son qoyuldu, onlar Yuan sülaləsini hakimiyyətə gətirərək 1279-cu ildən ölkəni idarə etməyə başladılar, bütün dövlət vəzifələrini monqollar tuturdular. 1368-ci ildən Çini Min sülaləsi idarə etmişdir. Çində son sülalə olan Mancur Sin sülaləsi 1644-cü ildə hakimiyətə gəlmiş, 1912-ci ildə ölkədə respublika quruluşu yaradılana qədər hakimiyyətdə olmuşdur.

Lxasada Potala sarayı (XVII əsr) - Tibetin mənəvi rəhbəri dalay-lamanın iqamətgahıdır

Tayvan

Sahəsi: 36179 km² (Kinmen və Matsu adaları daxil olmaqla)
Əhalisi: 23 120 min nəfər (2010)
Əhalinin sıxlığı: 639 nəfər/km²
Paytaxtı: Taybey (6776 min nəfər)
Əsas dillər: çin, min, xakka
Dini etiqad: ənənəvi Çin inancları, daosizm, konfusianlıq, buddizm
Pul vahidi: yeni Tayvan dolları
Dövlət quruluşu: respublika

Tayvan adası özünəməxsus tarixi inkişafa malikdir. 1949-cu ildə devrilmiş qomindan (əksinqilabçı patiya) hökumətinin Çindən qaçmış tərəfdarları Taybeyi "Çin Respublikasının" paytaxtı elan etdilər. Ada müstəqil dövlət kimi mövcud olsa da, Çin onu özünün ərazisi hesab edir. Əksər ölkələr Tayvanı tanımır.

Ölkə böyük Tayvan adasından, bir sıra kiçik adalardan, o cümlədən Penxuledao (Peskador) adalarından ibarətdir, Çinin sahillərindən 165 km məsafədə yerləşir. Ərazisinin 60%-dən çoxunu tutan dağların 150 zirvəsi 3000 m-dən yüksəkdir. Dağların yamacının əksər hissəsini meşələr örtmüşdür. Əhalinin çox hissəsi qərbdə və cənubda yerləşən geniş dənizsahili düzənliklərdə yaşayır. Şimalı subtropik, cənubu tropik iqlim qurşağına daxil olan adanın ərazisinə çoxlu yağıntı düşür. Kənd təsərrüfatında çəltik, qarğıdalı, şəkər qamışı, çay, ananas və banan becərilir. Gəlirin 2%-dən azı kənd təsərrüfatının payına düşür. Təsərrüfatda balıq məhsullarının ixracı mühüm rol oynayır. Onun əsas alıcısı Yaponiyadır. Mineral-xammal ehtiyatları ilə az təmin olunan Tayvan böyük iqtisadi nailiyyətlər əldə etmişdir. Bu gün ada çox güclü sənaye rayonudur, onun sənayesinin 4/5 hissəsi ixrac istiqamətlidir, radioelektronika, cihazqayırma, toxuculuq, kimya sənayesi məhsulları, avtomobillər üçün mühərriklər istehsal edilir. 1990-cı illərin əvvəlindən Tayvan kompüterlər və onların hissələrinin istehsalında ilk beşliyiə daxildir. Sənayenin baza sahələri müəssisələrinin əsas hissəsi Qaosyun ətrafında cəmlənir. Tayvan həyat səviyyəsinə görə Asiyada qabaqcıl yerlərdən birini tutur. İkinci Dünya müharibəsində Yaponiya məğlub olduqdan sonra ada Çinə qaytarıldı. 1949-cu ildə Çində Kommunist Partiyası hakimiyyətə gəldikdən və Çin XR elan edildikdən sonra devrilmiş qomindan hökumətinin üzvləri, o cümlədən Çinin keçmiş başçısı Çan Kayşi adaya qaçdılar. Kommunist hökumətini tanımayan Çan Kayşi burada özünün idarəetmə sistemini yaratdı. 1971-ci ilə qədər BMT-də daimi nümayəndəsi olmuşdur. 1980-ci ildə Çin adanın "bir dövlət-iki sistem" prinsipi əsasında sülh yolu ilə birləşməsi kursunu elan etmişdir. 1991-ci ildə Tayvan hökuməti ölkənin üç mərhələdə birləşməsi proqramını irəli sürdü. Tayvan hökuməti Çinlə birləşməyə ciddi müqavimət göstərir. Dünyanın on ən böyük ordusundan birinə malik olan Tayvan onun saxlanmasına külli miqdarda vəsait sərf edir.

Koreya Xalq Demokratik Respublikası (KXDR)

Sahəsi: 122 762 km²
Əhalisi: 24 052 min nəfər (2010)
Əhalinin sıxlığı: 195,9 nəfər/km²
Paytaxtı: Pxenyan (3,7 mln. nəfər)
Əsas dil: koreya
Dini etiqad: ənənəvi yerli dinlər, çxondoqye, buddizm, konfusianlıq
Pul vahidi: vona
Dövlət quruluşu: respublika

Şimali Koreyanın təsərrüfatı durğunluq dövrü keçirir. "Koreya tipli sosializm" qurmaq siyasəti KXDR-i dünyadan təcrid etmişdir. Heç bir nəticə əldə etməyən siyasi və iqtisadi sistem əhalini çox çətin sosial vəziyyətdə yaşamağa məcbur edir.

KXDR Koreya yarımadasının şimal yarısını əhatə edir. Ərazinin 4/5 hissəsini meşələrlə örtülmüş dağlar tutur. Ölkənin şimal və şərq hissələrində olan dağlar daha çox mütləq hündürlüyə malikdir. Şimalda ölkənin ən hündür zirvəsi olan Pektusan (2744 m) vulkanı yerləşir. Şərq sahillərinin çox hissəsini dənizə tərəf sıldırım yamaclarla enən qayalar tutur. Koreya yarımadasının bu hissəsinin iqlimi kontinentaldır, yay isti, qış isə soyuq keçir. Yanvarda orta temperatur -4°C, iyulda 24°C-dir. Qışda Sibirdən soyuq küləklər əsir, yayda isə Şərqi Asiyadan gələn mussonlar bol yağıntı gətirir. Qərbdə yerləşən ovalıqlar ölkə ərazisinin 1/5 hissəsini tutur. Məhz burada əhalinin çoxu məskunlaşıb və əkinə yararlı torpaqları cəmlənib. Becərilən əsas bitkilərə çəltik, buğda, soya, arpa, qarğıdalı, kartof, tərəvəz aiddir. Əsas istehsal sahələrinə qara və əlvan metallurgiya, maşınqayırma, neft emalı, kimya, toxuculuq sənayesi, kömür, dəmir filizi, volfram, sink-qurğuşun, molibden, mis, alüminium filizi, qrafit hasilatı aiddir. SES-lərdə alınan elektrik enerjisi hesabına ölkə tələbatının 2/3 hissəsini ödəyir. 1995-ci ildən 1999-cu ilə qədər olan çoxsaylı quraqlıqlar və daşqınlar əkin yerlərinə ciddi ziyan vurmuşdur. Bu isə 2,0 milyon nəfər insanın aclıqdan ölümünə səbəb olmuşdur. Bizim eranın əvvəlində Koreya yarımadası ərazisində üç dövlət mövcud olmuşdur. X əsrdə bütün yarımada Korye dövlətinin hakimiyyəti altında birləşmişdir. Sonra ölkə Çinin, 1910-cu ildə Yaponiyanın əsarətinə keçmişdir. İkinci Dünya müharibəsindən sonra qalıb ölkələr arasında olan razılaşmaya əsasən yarımada sovet (şimal) və amerikan (cənub) nəzarət zonalarına bölünmüşdür. 1948-ci ildə şimalda KXDR, cənubda Koreya Respublikası yaradılması elan edilmişdir. 1950-1953-cü illərdə iki ölkə arasında baş verən qanlı müharibədə 1 mln. nəfər yerli əhali, min nəfərə qədər xarici əsgər həlak olmuşdur. 1953-cü ildə atəşkəs haqqında imzalanmış müqaviləyə görə ölkələrin quru sərhəddində 4 km eni olan demilitarizasiya zonası ayrıldı, sərhəddə qoşunlar yerləşdirildi. Lakin gərginlik hələ də davam edir. 1980-ci illərin axırlarından iki ölkə arasında əlaqələr yaranmış, 1992-ci ilin fevralında barışıq, hücum etməmək, əməkdaşlıq və mübadilə haqqında razılaşma imzalanmışdır.

Koreya Respublikası

Sahəsi 99 461 km²
Əhalisi 50 034 min nəfər (2006)
Əhalinin sıxlığı: 503,1 nəfər/km²
Paytaxtı Seul (21,3 mln. nəfər)
Əsas dil: koreya
Dini etiqad: buddizm (51%), protestantlıq, katolisizm, konfusianlıq
Pul vahidi: vona
Dövlət quruluşu: respublika

Koreya Respublikası (əvvəllər Cənubi Koreya) Asiyanın inkişaf etmiş ölkələrindən biridir, təsərrüfatı hazırda da yüksək sürətlə inkişaf edir. Ölkə Koreya yarımadasının cənub yarısını tutur, dünyanın iqtisadi möcüzələrindən biri hesab olunur.



Koreyanın 2/3 hissəsini dağlar tutur. Ən yüksək zirvələr Cedjudo adasında Xallasan (1950 m) və şimalda yüksələn Soraksan dağlarıdır (1708 m). Ovalıqlar dənizlərin sahilləri boyu, çayların hövzələrində yerləşir və məhsuldar allüvial çöküntülərlə örtülür. Ən böyük ovalıqlar qərbdə və cənubdadır. Ölkəyə aid olan 3 mindən çox adanın əksəriyyəti Sarı dənizdə, sahilə yaxın yerləşir, ensiz boğazlarla bir-birindən ayrılır. Ən böyüyü ölkənin cənubundakı Çedjudo adasıdır. Yarımadanın cənub sahilləri çox mənzərəlidir və çoxsaylı turist cəlb edir. Burada musson iqlimi hakimdir. Qışda yarımada Sibirdə yaranan soyuq hava kütlələrinin təsiri zonasında yerləşir, quru, şaxtalı hava yaranır. Yay mussonları isə okeandan ılıq rütubətli hava gətirir. Şərq sahillərində ən böyük ada və əsas balıqçılıq bazası Ullındodur. 2006-ci ildə Koreya 3,0 mln. ton balıq ovlamışdır. Koreya əhalinin etnik tərkibinin yekcinsliyi ilə fərqlənir. Əhalinin 99%-ni təşkil edən koreyalılar 2 min ildən artıqdır ki, burada yaşayırlar. 1950-ci ildən 1990-cı ilə qədər əhalinin sayı iki dəfə artmışdır. Onlar ölkə üzrə qeyri-bərabər paylanır, əhalinin şəhərlərə intensiv miqrasiyası nəticəsində urbanizasiya səviyyəsi 81%-ə yüksəlmişdir. Kənd əhalisi qərb, cənub-qərb və şərq hissələrdə yerləşən çəltik əkini əyalətlərində cəmlənib. Becərilən əsas bitkilərə çəltik, kartof, qarğıdalı, soya, batat, tərəvəz və taxıl aiddir. Heyvandarlıqda mal-qara, donuz, ev quşları saxlanılır. 1960-cı illərə qədər Koreya təsərrüfatı zəif inkişaf edən, əsasən kənd təsərrüfatı ölkəsi idi. 1962-ci ildən xarici investisiyaları, ilk növbədə yapon və amerikan kapitalını cəlb etməklə iqtisadi inkişaf proqramları həyata

Kral sarayı

keçirilməyə başladı. İqtisadi strategiya beşillik planlar çərçivəsində reallaşırdı. Alınmış maliyyə vəsaitlərinin məqsədyönlü və səmərəli istifadə edilməsi "Seul iqtisadi möcüzəsinin" əsas sirridir. Nəticədə Koreya Respublikası əsl sənaye nəhənginə çevrildi. Əsas inkişaf edən sahələrə gəmiqayırma (dünya üzrə 15%-i istehsal olunur), avtomobilqayırma, elektrotexnika, yüksək texnologiyalı elektron texnikası istehsalı aiddir. Sənaye məhsullarının çox hissəsi Samsunq və Hunday kimi böyük şirkətlərdə istehsal olunur. Ölkənin ən böyük limanı olan Pusan (4 mln. nəfər) Seuldan sonra ikinci böyük şəhərdir. Dəmir filizi, kömür, mis, qızıl, gümüş, əhəngdaşı, kaolin gili və talk yataqları istismar olunur. Ölkə ən böyük volfram istehsalçısıdır. Gətirilən xammal əsasında neft emalı müəssisələri yaradılmışdır. İstehsal olunan elektrik enerjisinin 38%-i AES-lərin payına düşür.

Yaponiya

Sahəsi 377 819 km²
Əhalisi 127 918 min nəfər (2010)
Əhalinin sıxlığı: 338,6 nəfər/km²
Paytaxtı Tokio (37520 min nəfər)
Əsas dil: yapon
Dini etiqad: sintoizm (50%), buddizm (45%)
Pul vahidi: iena
Dövlət quruluşu: konstitusiyalı monarxiya





Bu ada dövləti Asiyanın gündoğan hissəsində, Sakit okeanın sahillərində yerləşir. Qədim və zəngin mədəniyyəti olan bu ölkə XX əsrdə dünyanın ən yüksək inkişaf etmiş dövlətlərindən birinə çevrilmişdir. Bu, dövlət məmurları və adi vətəndaşların ölkəsinə olan hədsiz sevgisi, əməksevərliyi, qanunlara və adətlərə əməl edilməsi, daim inkişafa çalışmaq inancı sayəsində mümkün olmuşdur. Çox ölkələr yaponların bu keyfiyyətlərinə həsəd apara bilər.

Yaponiya Sakit okeanda 2900 km məsafədə uzanan 4 mindən artıq adadan ibarət arxipelaqda yerləşir. Ölkə dörd iri adadan ibarətdir. Xokkaydo, Honsyu, Sikoku və Küsü adaları ilə yanaşı ətrafda çoxsaylı kiçik adalar da vardır. Küsü adasının cənubunda qövs formasında sıra ilə Rükü adaları yerləşir. Dörd böyük ada bir-birinə çox yaxın yerləşmiş, tunellər, körpülər və bəndlərlə birləşdirilmişdir. Bu adalar birlikdə Yaponiyanın quru ərazisinin təqribən 98%-ni tutur. Ölkə əhalisinin də böyük bir hissəsi bu adalarda yaşayır. Yaponiyada subtropik musson iqlim tipi hakimdir, şimalda mülayim iqlim səciyyəvidir. Xokkaydo adasına və Xonsyu adasının şimalına Sibirdən əsən küləklər, eləcə də soyuq okean cərəyanları (Oya-Sio) təsir edir. Ona görə burada yay az davam edir, sərt qışda yağan güclü qar uzun müddətə əriyir. Xokkaydo adasının ən böyük şəhəri olan Sapporo məşhur qış idman mərkəzidir. Honsyu adasının cənubu, Sikoku və Küsüdə yay uzun, isti və rütubətli keçir, qış isə isti Sakit okean küləkləri və isti Kurosio cərəyanının təsiri ilə mülayim olur. İyundan oktyabradək tez-tez tayfunlar yaranır. Bol leysan yağışları və güclü küləklər (100-150 km/saatdan 200-250 km/saata qədər) evlərə, tikililərə, təsərrüfata ciddi ziyan vurur. Rükü adalarında subtropik iqlim yaranır. Yaponiyada iqlim çox rütubətlidir, regiondan asılı olaraq kəskin fərqlər vardır. Xokkaydo adasında illik yağıntıların miqdarı ən az - 1000 mm olur, Honsyu adasının mərkəzindəki dağlarda isə 3800 mm-ə çatır.

Landşaft müxtəlifliyi

Yapon adalarının rütubətli iqlimi bitkilərin müxtəlifliyinə və zəngin olmasına təsir göstərir. Zəngin bitki örtüyünün 17 mindən artıq növü vardır. Meşələr ölkə ərazisinin 60%-ni tutur, əsasən iynəyarpaqlı ağaclar bitir, Honsyu adasının xeyli hissəsində isə enliyarpaqlı ağaclar yayılmışdır. Yaponiyada iri heyvanlardan ayı, çöl donuzu, maral və meymun növlərindən biri olan yapon makakası yaşayır. Burada 400-dən artıq quş növü vardır. Yaponiya üç litosfer tavasının qovşağında yerləşir. Onun landşaftı milyon illər ərzində tavaların hərəkəti nəticəsində formalaşmşdır. Relyefdə dağlar üstünlük təşkil edir. Sahilboyu yerləşən düzənliklərdə ölkənin demək olar ki, bütün şəhərləri yerləşir. Yaponiyada olan 200-dən çox vulkanın 77-si fəaliyyətdədir. Çoxsaylı qaynar su mənbələrinin mövcud olması və vaxtaşırı yaranan sunami hadisələri regionda yer qabığının sabit olmadığını göstərir. Burada hər il 800-1000 zəlzələ baş verir. Ölkənin milli simvolu olan Fudziyama vulkanı ən yüksək zirvədir (3776 m), sonuncu dəfə 1707-ci ildə püskürmüşdür. Ölkədə 2011-ci ildə baş vermiş 9 bal gücündə zəlzələ son dövrlərin ən böyük təbii fəlakətlərindən biridir. Zəlzələ ölkənin təsərrüfatına ciddi ziyan vurmuş, xeyli insan itkisinə səbəb olmuşdur.

Kənd təsərrüfatında məhsul istehsalının əsas hissəsi əkinçiliyin payına düşür. Honsyu və Xokkaydo adalarında düzənliklərin hamısı becərilir. Ölkənin 13%-ə qədəri əkinə yararlı olsa da, sakinlər özünü ən mühüm ərzaq məhsulu olan çəltik ilə təmin edir. Çəltik əkinləri becərilən torpaqların 40%-ni tutur. Bundan başqa kartof, şəkər çuğunduru, soğan, xiyar, meyvə də yetişdirilir. Yaponiya balıq və digər dəniz məhsullarının ovlanmasına görə dünyada ilk yerlərdən birini tutur. Onlar əhalinin qida rasionunda mühüm əhəmiyyətə malikdir. Ölkə dünyada ən böyük balıqçılıq donanmasından birinə malikdir, süni hövzələrdə balıq və molyusklar yetişdirilir. Otlaqların çatışmaması, dəniz məhsullarının zəngin olması ilə əlaqədar iri heyvandarlıq kompleksləri yoxdur.

Yaponiya kəskin parçalanmış relyefə malik olduğuna görə quru sahəsinin yalnız 1/5-i yaşayış üçün yararlıdır, buna baxmayaraq, dünyada ən sıx məskunlaşmış ölkələr arasında 10-cu yeri tutur. Honsyu adasındakı şəhərlərdə ölkə əhalisinin 4/5 hissəsi yaşayır. Paytaxtı Tokio dünyanın ən böyük meqapolisidir. Yaponiya birmillətli ölkədir, onun əhalisinin 99%-ni yaponlar təşkil edir. Milli azlıqlara koreyalılar və Xokkaydo adasında yaşayan aynilər aiddir. Uzunömürlülər ölkəsində əhalinin orta ömür müddəti sürətlə artır (80,8 il). Əhalinin 22%-i 65 yaşdan yuxarı yaşa malikdir. Yaponların əksəriyyəti buddizmə sitayiş edir, lakin yapon mentalitetinin əsasında həmişə təbiət qüvvələri və nəsillərə ehtiram edən sintoizm durur. Ölkə uzun müddət dünyadan təcrid olunduğuna görə ətraf təsirlərə məruz qalmamış, adət-ənənələr müstəqil inkişaf etmişdir. Yaponlar çox mütaliə edən xalqlara aiddir. Hər gün ölkədə 68,5 mln. nüsxə qəzet, hər il 1,5 milyard kitab satılır (2008). Yaponiyanın sənayeləşməsi XIX əsrin sonundan başlanmışdır. Bu dövrdə ölkə öz imperiyasının sərhədlərini genişləndirərək Şərqi Asiyada xeyli əraziləri işğal etmişdir. İkinci

Fudziyama vulkanı

Dünya müharibəsi Yaponiyanın təsərrüfatına ciddi ziyan vurmuşdur. Lakin təsərrüfat az vaxtda bərpa edilmiş, dünyanın aparıcı ölkələrindən birinə çevrilmişdir. 1990-cı illərdə ən yüksək inkişaf etmiş və zəngin ölkələrdən biri oldu. Sənaye məhsulları istehsalının həcminə görə Yaponiya dünyada ilk yerlərdən birini tutur. Nəhəng müəssisələrlə yanaşı, əsasən yüngül və yeyinti sənayesində çoxsaylı kiçik obyektlər də işləyir. Yaponiya mürəkkəb elm tutumlu sahələrdə məhsul istehsalında dünyada birinci yeri tutur, planetin sənaye robotlarının yarısı burada istehsal olunur. Ölkədə metallurgiya, maşınqayırma, kimya, yüngül, ağac emalı sənayesi yüksək inkişaf etmişdir. Kustar sənaye geniş yayılmışdır. Yaponiya polad əridilməsinə, gəmi, sement, elektrik enerjisi istehsalına, neft emalına görə dünyanın qabaqcıl ölkələrindən biridir. Yaponiya dünyada yeganə imperiya sayılır. İmperator rəsmi mərasimlərdə, milli bayramlarda iştirak edir. Ölkədə real hakimiyyət Baş Nazirə məxsusdur.

Cənub-Şərqi Asiya
Tailand Krallığı

Sahəsi: 513 115 km²
Əhalisi: 68,1 min nəfər (2010)
Əhalinin sıxlığı: 132,7 nəfər/km²
Paytaxtı: Banqkok (11971 min nəfər)
Əsas dillər: tay, laos, çin
Dini etiqad: buddizm (94%), islam (4%)
Pul vahidi: bat
Dövlət quruluşu: konstitusiyalı monarxiya

Tailand regionda sabit və sülhsevər siyasət aparan ölkədir. Ölkə sənaye və turizmin sürətli inkişafına görə fərqlənir, Asiyada "Yeni sənaye ölkələrindən" biridir.

Tailandın ərazisi əsasən düzənlikdən ibarətdir. Lakin onun ərazisində bir neçə dağ

silsiləsi vardır və şimalda dağlar daha yüksək və çətin keçilən qayalıqlardan ibarətdir. Şimal-şərq hissədə ölkənin ¼-ni tutan Korat yaylası yerləşir. Yaylanın səthi hamar olsa da, məhsuldarlığı aşağıdır, suvarılan sahələrində çəltik becərilir. Mərkəzdə olan məhsuldar ovalıqlar daha sıx məskunlaşmışdır. Ölkənin paytaxtı Banqkokun da yerləşdiyi bu region "Tailandın düyü piyaləsi" adlanır. 2008-ci ildə ölkədə 30 mln. ton düyü istehsal edilmişdir, dünya bazarına bu dənli bitkini ixrac edən üç ölkədən biridir. Tailandın cənub hissəsində kauçuk ağacı (heveya) becərilir və balıq ovlanır. Şimal və mərkəzi hissəsi ilə müqayisədə cənubdakı Malakka yarımadasında yağıntılar təxminən iki dəfə artıq düşür. Orta illik temperatur düzənliklərdə 22°-29°C-dir. Tailand təbii ehtiyatlarla zəngindir. Burada kömür, qa-

lay, qurğuşun, sink, qiymətli daşlar çıxarılır. Neft hasilatı azdır, təbii qaz yataqları intensiv istifadə olunur. Ölkə ərazisinin 28%-i, xüsusilə şimal və sahilboyu qiymətli bərk oduncaqlı ağaclardan ibarət meşələrlə örtülmüşdür. Cəngəlliklərdə bir çox heyvan növləri, o cümlədən fil, bəbir (nadir hallarda bozumtul bəbir), himalay və malay ayısı, pələng, timsah, maral, hibbon və 50-dən artıq ilan növü vardır. 1970-1980-ci illərdən başlayaraq Tailandda sənaye istehsalı sürətlə inkişaf edir. Ən mühüm sahələrə kompüter və onların hissələri, elektrik transformatorları, yarımkeçiricilər, mikrosxemlər, toxuculuq və plastik kütlələrin istehsalı daxildir. Sənaye müəssisələri və nəqliyyat obyektlərinin çoxu Banqkokda və onun ətrafında cəmlənir. Ona görə Banqkok dünyanın çirkli havası olan şəhərlərindən biridir. Xidmət sahəsində turizm üstünlük təşkil edir. Ölkəyə 2007-ci ildə 14 milyon nəfər turist gəlmişdir. Tailandın əhalisinin 75%-ni tay qrupuna aid olan siam, çjuan, şan, tay, bui, lao xalqları təşkil edir. Hesab edilir ki, onlar bura Cənub-Qərbi Çindən 2 min il əvvəl gəlmişlər. Çinlilər əhalinin 11%-ni təşkil edir. Ölkədə müsəlman-malaylar, kxmerlər və vyetnamlılar da yaşayır. Ucqar şimal və şimal-şərqdəki təpələr arasında sayı 650 min nəfər, özünəməxsus dili və mədəniyyəti olan tayfalar yaşayır. Cənub-Şərqi Asiyanın əksər xalqlarından fərqli olaraq Tailandda müxtəlif etnik qruplar arasında ziddiyyətlər yoxdur. Tayların 80%-nin etiqad etdiyi buddizm mühüm sülhsevər qüvvə roluna malikdir.

Myanma Respublikası

Sahəsi: 676 577 km²
Əhalisi: 56,5 mln. nəfər (2006)
Əhalinin sıxlığı: 83,5nəfər/km²
Paytaxtı: Yanqon (920,0 min nəfər)
Əsas dillər: birma, şan, karen, maqaxi
Dini etiqad: buddizm (89%), xristian (6%), islam (4%)
Dövlət quruluşu: respublika

Myanma kənd təsərrüfatı ölkəsidir, Cənub-Şərqi Asiyada aşağı inkişaf səviyyəsi ilə fərqlənir. Ölkə ərazisinin çox hissəsi qiymətli ağac növlərinə malik meşələrlə örtülür.

Myanma Banqladeş, Hindistan, Çin, Laos və Tailandla həmsərhəddir. Ölkə ərazisində olan yüksək dağların çox hissəsi keçilməz silsilələrdən ibarətdir. Nal formasında ölkənin qərb, şimal və şərq sərhədləri boyu yüksələn dağlar şimalda maksimum yüksəkliyə malikdir. Burada Cənub-Şərqi Asiyanın ən yüksək nöqtəsi olan Kxaka-

borazi (5881 m) zirvəsi yerləşir. Myanmanın mərkəzi hissəsində Çinduin və İravadi çaylarının vadiləri və deltalarının əmələ gətirdiyi ovalıqlar yerləşir. Məhsuldar torpaqlar və əlverişli iqlim şəraiti ilə əlaqədar bura ölkənin kənd təsərrüfatı mərkəzinə çevrilmişdir. Bu sahədə əhalinin yarısından çoxu çalışır. Ən isti aylar olan mart və apreldə havanın orta temperaturu 30°-32°C, yanvarda şimalda 13°C, cənubda isə 20°-25°C-dir. Yağıntıların illik miqdarı düzənliklərdəki 500 mm-dən dağlarda 3500 mm-ə qədər artır. Ölkə əhalisinin başlıca qidası və mühüm ixrac məhsulu düyüdür. Bununla yanaşı, paxlalı bitkilər, qarğıdalı, şəkər qamışı, küncüt, araxis, pambıq və ədviyyat da becərilir. Öz başlanğıcını Tibet yaylasının Çinə aid hissəsindən götürən İravadi çayı Myanmanın şimalından cənubuna axır. Onun suyu ilə çəltik sahələri suvarılır və balıq tutulur. 1400 km məsafədə gəmiçiliyə yararlı olan İravadi çayı, xüsusilə, yerli əlaqələr üçün mühüm nəqliyyat magistralıdır. Myanmanın ərazisinin təqribən yarısı meşələrlə örtülmüşdür. Meşələr əsasən dağlarda az mənimsənilmiş və çətin keçilən ərazilərdə qalmışdır. Möhkəm oduncağa malik olan tik və çəhrayı ağacları daha böyük əhəmiyyət kəsb edir. Meşələrdə balaca panda, Asiya kərgədanı, pələng kimi nadir heyvan növləri yaşayır. Myanmanın əsas mineral-xammal ehtiyatlarına neft, təbii qaz, əlvan metal filizləri (qurğuşun, sink, qalay, mis), qızıl, gümüş, həmçinin səfir (göy yaqut) və yaqut aiddir. Kənd təsərrüfatının rolu böyükdür. Zəif inkişaf etmiş sənaye obyektlərində kənd təsərrüfatı məhsulları və meşə materialları emal edilir. Birmalılar (myanmalılar) əhalinin 68%-ni təşkil edir. Qalan hissəsi çoxsaylı kiçik etnik qruplardır (9% şan, 7% karen, kaçin, 3% çin). 1948-ci ildə ölkə müstəqillik əldə etdikdən sonra kiçik xalqlar öz dilini, mədəniyyətini və dini mənsubiyyətini qorumaq üçün mübarizə aparır. Əhalinin çoxu kəndlərdə və kiçik şəhərlərdə yaşayır. Myanma Cənub-Şərqi Asiyada Budda təlimlərinin yayılmağa başladığı ilk ölkədir. Əhalinin 89%-i bu dinə inanır.

Vyetnam Sosialist Respublikası

Sahəsi: 329315 km²
Əhalisi: 88,9 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 270,0 nəfər/km²
Paytaxtı: Hanoy (2632 min nəfər)
Əsas dillər: vyetnam, txo, tay
Dini etiqad: buddizm (90%-dən çox), katolisizm, əcdadlarının ibadətlərinin davamçıları
Pul vahidi: donq
Dövlət quruluşu: respublika

Vyetnamda böyük çay deltaları, dağ silsilələri və sahil boyu düzənliklər vardır. Əhali XX əsrdə uzun illər davam edən müharibələrdə yoxsulluq şəraitində yaşamışdır.

Vyetnamın ərazisi Sakit okean sahillərində 3200 km məsafədə, "S" hərfi formasında yerləşir. Ölkənin şimal-qərb hissəsini dağlar tutur. Burada ölkənin ən hündür nöqtəsi olan Fanşipan zirvəsi (3143 m) yerləşir. Ərazinin təqribən 2/3 hissəsini dağlıq yaylalar əhatə edir. Bu uzun dağlar qərbdə ölkənin əvvəlcə Laosla, sonra Kamboca ilə dövlət sərhəddinin çox hissəsini təşkil edir. Dağların yamaclarının çox hissəsi meşələrlə örtülmüşdür. Müəyyən təmizlənmiş sahələrdə çay plantasiyaları, qəhvə və kauçuk ağacları becərilir. Ölkənin şərq hissəsini Bakbo (Tonkin) körfəzi və Cənubi Çin dənizi boyu uzanan sahilboyu əraziləri düzənliklər tutur.

Vyetnamda musson iqlim tipi hakimdir. Cənubda orta temperatur dekabrda 26°-dən apreldə 29°C-yə qədər, şimalda isə yanvarda 15°C-dən iyulda 28°C-yə qədər dəyişir. Yayda və payızda musson küləkləri leysan yağışlar gətirir, arabir tayfunlar əmələ gəlir. Şimalda olan Xonqxa və ya Qırmızı çayının, cənubda axan Mekonq çayının geniş münbit deltalarındakı torpaqlarda əhalinin çox hissəsi məskunlaşmışdır. Tayfunlar zamanı təhlükəli olduğuna görə, kəndlərin müdafiəsi üçün bəndlər çəkilmişdir. Vyetnam Cənub-Şərqi Asiyada kənd əhalisi çox olan ölkədir. Əhalinin cəmi 30%-i şəhərlərdə yaşayır. Ölkənin təsərrüfatında əkinçilik, xüsusilə də çəltikçilik mühüm rol oynayır. Şəkər qamışı, pambıq, çay, tütün, araxis, cənubda isə kauçuk ağacı becərilir. Vyetnam dünyada qəhvənin ən böyük beş ixracatçılarından biridir.

B.e.ə. II əsrdə ölkə az vaxtda Çinin əsarətində olmuşdur. X əsrdə azadlıq mübarizəsi nəticəsində müstəqil Vyetnam dövləti yaradılmışdır. XIX əsrdə ölkəni Fransa işğal etmişdir. 1954-cü ildə Fransa qoşunları çıxarıldıqdan sonra Vyetnam Kommunist yönəmli Şimal və ABŞ-ın müdafiə etdiyi cənuba bölünmüşdür. ABŞ 1965-ci ildə ölkəyə qoşun yeritdi, Şimal və Cənub arasında müharibə başlandı. Bu, ABŞ-a 55 min nəfər əsgərin ölümü bahasına başa gəldi. 1973-cü ildə müharibənin dayandırılması və regionda sülhün bərpası haqqında müqavilə imzalandı.

Xo Şi Minin Məqbərəsi

1976-cı ildə ölkənin birləşməsi başa çatdı və Vyetnam Sosialist Respublikası elan edildi. Uzun illər Cənubun paytaxtı olan Xoşimin (keçmiş Sayqon) ölkənin ən böyük şəhəri (3,5 mln. nəfər) və əsas limanıdır. Yüngül və yeyinti sənayesi ənənəvi sahələrdir. Qara və əlvan metallurgiya, kimya, maşınqayırma, mebel, gəmiqayırma, toxuculuq sənayesi, tikinti materialları istehsalı inkişaf edir. Vyetnam faydalı qazıntılarla zəngindir. Onlar arasında neft və təbii qazın əhəmiyyəti çoxdur, sutkada 305 min barrel neft hasil olunur. Ölkədə dəmir filizi, qalay, sink, mis, xrom hasil olunur, zəngin hidroenerji ehtiyatlarına malikdir. Heyvanat aləmi çox müxtəlifdir, sahilboyu sular balıq, krevet, krab və molyussklar ilə zəngindir. Çaylar və göllərdə çoxlu şirin su balıqları vardır. 2005-ci ildə 2,7 mln. ton dəniz məhsulları ovlanmışdır. 1990-cı ildən Vyetnamda turistlərin cəlb edilməsinə başlanmışdır.

Kamboca

Sahəsi: 181 035 km²
Əhalisi: 15,1 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 83,4 nəfər/km²
Paytaxtı: Pnompen (1,8 mln. nəfər)
Əsas dillər: kxmer
Dini etiqad: buddizm (95%), islam, xristianlıq
Pul vahidi: riel
Dövlət quruluşu: konstitusiyalı monarxiya

Kamboca Cənub-Şərqi Asiyada yerləşir. Qədim tarixə malik olan bu qeyri-adi və gözəl ölkədə XX əsrin ikinci yarısından sonra daim daxili münaqişələr baş vermişdir. Ona görə dünyanın ən geri qalmış ölkələrindən biridir.

Ölkənin mərkəzində yüksək məhsuldar torpaqları olan Kamboca ovalığı yerləşir. O, regionunn ən böyük çayı olan Mekonqun su toplayıcı hövzəsidir. Çay öz başlanğıcını Tibet yaylasından götürür və Cənubi Çin dənizinə tökülür. Ovalıqdan şimalda və cənub-qərbdə dağ silsilələri yüksəlir. Ölkənin şimal-şərqində isə davamı Vyetnamın ərazisinə keçən dağlıq yayla yerləşir. Cənub-Şərqi Asiyanın ən böyük gölü olan Tonlesap Kamboca ovalığının mərkəzində yerləşir. Bu kiçik gölün sahəsi mövsümlərdən asılı olaraq çox dəyişir. Quraq mövsümdə onun dərinliyi 1-3 m-ə qədər, sahəsi 2700 km²-ə qədər azalır. Yağıntılı mövsümdə isə Mekonq çayı daşaraq gölün səviyyəsini qaldırır, sahəsi 10300 km²-ə, dərinliyi isə 9-14 m-ə çatır. Tropik iqlimi olan ölkədə orta illik temperatur 26°-30°C arasında dəyişir. Kamboca aqrar ölkədir. Suvarılan ovalıqlarda çəltik becərilir. Çəltik əkilən torpaqların 80%-ni tutur. Becərilən digər bitkilərə manqo, banan, ananas aiddir. Ölkənin şərqində kauçuk ağacı, qarğıdalı, istiot, küncüt və manikok yetişdirilir. Kamboca ərazisinin çox hissəsini tropik meşələr örtür. Çox qiymətli, möhkəm oduncaqlı tik, qırmızı və palisandr ağaclarının tədarük əhəmiyyəti çoxdur. Son 50 ildə meşələrin sahəsi iki dəfə azalmışdır. Kamboca da balıqçılıq inkişaf etdirilir, mal-qara saxlanılır. Əksər sənaye müəssisələri kənd təsərrüfatı məhsulları, balıq və ağac emal edir. Kamboca 1863-cü ildə Fransanın müstəmləkəsinə çevrilmişdir. 1953-cü ildə müstəqillik əldə etdikdən sonra az müddətdə sabitlik bərqərar olmuşdur. 1970-ci ilin martında dövlət çevrilişi baş vermiş və Pnompen (Pol-Pot) rejimi yaradılmışdır. Sonrakı on ildə ölkəni viran qoyan vətəndaş müharibəsi getmiş, bir neçə dəfə siyasi rejim və dövlət quruluşu dəyişilmişdir. 1993-cü ildə yeni konstitusiya qəbul edilmiş və monarxiya quruluşu bərpa olunmuşdur.

Laos Xalq Demokratik Respublikası

Sahəsi: 236 800 km²
Əhalisi: 6,4 mln. nəfər
Əhalinin sıxlığı: 27,0 nəfər/km²
Paytaxtı: Vyentyan (698 min nəfər)
Əsas dillər: laos, kxmer
Dini etiqad: buddizm (58%), ənənəvi yerli dinlər
Pul vahidi: kip
Dövlət quruluşu: respublika

Laos Cənub-Şərqi Asiyada ən az əhalisi olan ölkədir. Bu dağlıq ölkə milli və mədəni müxtəlifliyi ilə seçilir.

Laosun ərazisinin 70%-dən çoxunu dağlar tutur. Ən yüksək və çətin keçilən sahələr ölkənin şimalındadır. Burada ölkənin ən hündür zirvəsi olan Bia dağı (2819 m) yerləşir. Laosun ərazisinin

55%-ni meşələr örtür. Möhkəm oduncağa malik olan tik (hind palıdı) və palisandr ağacları daha qiymətlidir. Ölkənin faunası zəngin və müxtəlifdir. Laos meşələrində pələng, bəbir, pantera, vəhşi camış, meymun və ayı yaşayır. Sürü halında yaşayan hind filləri qalmışdır. Laosda musson tipli tropik iqlimin iki mövsümü – yağıntılı və quraq mövsümləri vardır. Yağıntılı mövsüm maydan oktyabr ayına qədər davam edir, demək olar ki, hər gün leysan yağır. Bu dövrdə ölkənin mərkəzi rayonlarında 1300 mm-dən 2300 mm-dək yağıntı düşür, cənubda onun miqdarı 3000 mm-i ötür. Havanın orta temperaturu yanvarda 14°-23°C, iyulda isə 28°-30°C arasında dəyişir. Laosun Tailand və Myanma ilə qərb sərhəddinin çox hissəsi meandrlı Mekonq çayı üzrə keçir. Laos ərazisində çayın uzunluğu 1800 km-dən çoxdur. Mekonq çayının vadisində allüvial çöküntülər toplanır və məhsuldar torpaqlar formalaşır. Bura Laosda ən geniş ovalıq ərazidir, ölkənin kənd təsərrüfatı əkinləri və şəhərlərinin çoxu burada cəmlənib. Çaylar əsas əlaqə vasitələridir. Lakin onların bəzilərində çoxsaylı astanalar və şəlalələr olduğuna görə

Mekonq çayı

gəmiçilik məhduddur. Ölkənin ərazisində 65-dən çox müxtəlif etnik qrup yaşayır. Əhalinin böyük əksəriyyəti əkinçiliklə məşğul olur. Becərilən əsas bitki çəltikdir. Qəhvə, batat, qağıdalı, pambıq, maniok, tütün də becərilir. İri buynuzlu mal-qara, əsasən su camışı və donuz saxlanılır. Laos Cənub-Şərqi Asiyada okeana çıxışı olmayan yeganə dövlətdir. Sərhədlərin çox hissəsində yerləşən sıldırım dağlar və meşələr ticarətin və sənayenin inkişafına mane olur. Yüklər əsasən çaylar vasitəsilə, xüsusilə, Luanqpxabanq şəhərindən cənuba gəmiçiliyə yararlı olan Mekonq çayı ilə daşınır. 1994-cü ildə Laos və Tailandı avtomobil yolu ilə birləşdirən, Byentyandan başlanan "Dostluq körpüsü" adlanan yol çəkilmişdir. Ölkədə qızıl, gümüş, mis, qalay, qiymətli daşlar hasil edilir. Laosda axan çaylar mühüm hidroenerjisi və daxili tələbat üçün istifadə edilən balıq ehtiyatlarına malikdir. Meşələrin çox hissəsi qırılsa da, Laos qiymətli ağac növləri olan palisandr, tik və çəhrayı ağac ixrac edən əsas ölkələrdən biridir. Emal sənayesi müəssisələri aqrar xammalların emalı və ağac tədarükü ilə məşğul olur. Büdcənin gəlirlərinin mühüm mənbələrindən biri kustar sənayedir. Meşələrdə fil, meymun, pələng, bəbir, donuz yaşayır, quşlar (tutu quşu, qırqovul, tovuz quşu) çoxdur. Müxtəlif qruplaşmaların hakimiyyət uğrunda 20 ildən çox davam edən mübarizəsindən sonra 1975-ci ildə Laosda sosializm və təkpartiyalı sistemi quruldu. Dövləti Laos Xalq İnqilab Partiyası idarə edir. Onun ən böyük ticarət müttəfiqi Tailanddır.

Bruney Sultanlığı

Sahəsi: 5765 km²
Əhalisi: 417,8 min nəfər (2010)
Əhalinin sıxlığı: 72,5 nəfər/km²
Paytaxtı: Bəndər-Seri-Beqavan (283 min nəfər)
Əsas dillər: malay, çin, ingilis
Dini etiqad: islam (70%), buddizm (13%), xristianlıq (10%)
Pul vahidi: Bruney dolları
Dövlət quruluşu: konstitusiyalı monarxiya (sultanlıq)



Bruney Sultanlığı Kalimantan adasının şimal-qərb sahillərində yerləşir. Ölkə 1984-cü ildə öz müstəqilliyini qazanmışdır, təbii yanacaq xammalları ilə zəngindir.

Bruney qərb və şərq hissələrdən ibarətdir. Ölkə Cənubi Çin dənizinə çıxır, yalnız Malayziya ilə quru sərhəddinə malikdir. Bruney manqr kolluqları ilə əhatə olunmuş sahilboyu uzanan ensiz düzənliklərdən və rütubətli tropik meşələrlə örtülən təpəliklərdən ibarətdir. Cənub-şərqdə ölkənin ən yüksək nöqtəsi olan Paqon piki (1850 m) yerləşir. Bruneyə aid olan 33 ada onun ərazisinin 1,4%-ni təşkil edir. Ekvatorial iqlimi olan Bruneydə yağıntıların illik miqdarı 2000-2700 mm-dən çoxdur, il ərzində temperatur az tərəddüd edir, 24°-31°C arasında dəyişir. Bruneyin ərazisinin 80%-ə qədəri rütubətli ekvatorial meşələrlə örtülmüşdür. Meşələrdə hind fili, bəbir, meymun, müxtəlif sürünənlər və quşlar yaşayır. XVI əsrdə feodal idarəetmə quruluşu olan Bruney müstəqil dövlət kimi Kalimantan adasının çox hissəsini tutmuşdur. Sultanlıq XIX əsrin sonlarına qədər mövcud olmuşdur. 1888-ci ildə Bruney Böyük Britaniyanın mülkünə daxil edilmişdir. Hazırda yerli əhali olan iban və kadazanlar (idaanlar) ölkə əhalisinin cəmi 3%-i qədərdir, əhalinin 2/3-ni malaylar təşkil edir. Ən iri milli azlıqlara çinlilər (11,2%) və hindlilər (17,5%) daxildir. XX əsrin əvvəllərində Bruneydə neft olması müəyyən edilmiş, 1929-cu ildə ilk böyük neft yatağı kəşf edilmişdir. Təsərrüfatının əsasını neft və təbii qazın hasilatı (sutkada 175 min barrel) təşkil edir. Bəzi ölkələrdən fərqli olaraq Bruneydə neft gəlirləri əhalinin həyat səviyyəsinin yüksəlməsinə də səbəb olmuşdur. Bruneydə düyü, saqo və kokos palmaları, kauçuk ağacı (heveya), batat, banan, ananas becərilir. Əhali donuz, camış, toyuq, ördək və başqa ev heyvanları da saxlayır. Sənayedə yeyinti məhsulları, tikiş, tikinti materialları istehsal olunur. 1980-ci ildən ölkəyə turistləri cəlb etmək üçün hökumət bir sıra tədbirlər görür. Ən böyük dəniz limanı Muarada və beynəlxalq hava limanı Bəndər-Seri-Beqavanda yerləşmişdir.

Malayziya

Sahəsi: 329 847 km²
Əhalisi: 28,9 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 87,6 nəfər/km²
Paytaxtı: Kuala-Lumpur (qanunverici və diplomatik, 4815 min nəfər), Putracayya (inzibati, 12 min nəfər)
Əsas dillər: malay, çin, tamil, iban
Dini etiqad: islam (sünni təriqəti, 60%), ənənəvi çin inancları, hinduizm (6,3%), buddizm (19,2%)
Pul vahidi: ringqit
Dövlət quruluşu: konstitusiyalı monarxiya

Malayziya ərazisi adada və yarımadada yerləşən az sayda ölkələrdən biridir. Onun zəngin təbii sərvətləri vardır, regionun çoxmillətli ölkələrinə aiddir. Son 30 ildə Malayziyanın iqtisadiyyatı sürətlə inkişaf edir. Ona görə Asiyanın "yeni sənaye ölkələri" sırasına daxil olmuşdur.

Malayziya Cənubi Çin dənizi ilə iki regiona ayrılır. Onlar bir-birindən 650 km məsafədə yerləşir. Qərbi Malayziya ölkə ərazisinin 40%-ni əhatə edir və Malakka yarımadasının cənubunu tutur. Şərqi Malayziya isə Kalimantan adasının şimal-şərq hissəsini əhatə edir, Sabah və Sarawak ştatlarına bölünür. Ölkə materikdə Tailand ilə, Kalimantan adasında isə İndoneziya ilə həmsərhəddir. Qərbi Malayziyanın mərkəzində dağ silsilələri, cənubunda bataqlıqlaşmış ovalıqlar, şərqdə meşələrlə örtülən ensiz düzənlik zolağı yerləşir. Qərb hissədə məhsuldar geniş düzənliklər vardır. Bura Malayziyanın ən inkişaf etmiş və sıx məskunlaşmış hissəsidir. Şərqi Malayziyada ölkə əhalisinin 20%-dən çoxu yaşayır. Bura sahil boyu bataqlıqlaşmış düzənliklərdən, meşələrlə örtülən yüksək təpələr və vadilərdən təşkil olunur. Onlar tədricən dağlara keçir. Sabah ştatında ölkənin ən hündür nöqtəsi olan Kinabalu (4101 m) zirvəsi yüksəlir.

Malayziyanın böyük iqtisadi nailiyyətlər əldə etməsinə onun zəngin təbii sərvətləri imkan vermişdir. Sabah və Saravakda iri neft yataqları istismar olunur, gündəlik hasilat 725 min barreldir. Ölkədə təbii qaz, dəmir və mis filizi, boksit, daş kömür, qızıl ehtiyatları müəyyən edilmişdir. Malayziya dünyanın ən böyük qalay istehsalçılarından biridir. Qərbi Malayziyada meşələrin çoxu qırılmışdır. Saravak ştatının ərazisi Yer kürəsinin ən qədim tropik meşələri ilə örtülür. Malayziya möhkəm və qiymətli oduncaq ixrac edən əsas ölkələrdən biridir. Malayziyada əmək qabiliyyətli əhalinin 13%-i kənd təsərrüfatında çalışır. İstehsal edilən əsas ərzaq bitkisi və sakinlərin əsas qida məhsul düyüdür. Lakin yığılan məhsul tələbatı

tam ödəmir, Tailand, Hindistan, Pakistan və Vyetnamdan düyü idxal olunur. Çay, tropik meyvələr, şəkər qamışı, ilk növbədə təbii kauçuk və palma yağı ixrac edilən məhsullardır. Palma yağından sabun, maz, marqarin, mətbəx yağı istehsalında istifadə olunur. Son vaxtlara qədər Malayziya kauçuk istehsalında aparıcı ölkə idi, hazırda da ilk beş ölkədən biridir. İşçi qüvvəsinin çox hissəsi sürətlə inkişaf edən sənaye sahələrinə cəlb edildiyinə görə kauçuk ağacı sahələrində yağlı palma əkilir, onun yığımında texnikadan istifadə imkanları böyükdür. Palma yağı istehsalına görə ölkə artıq dünya liderinə çevrilmişdir, kakao istehsalında ilk onluğa daxildir. Quşçuluq və donuzçuluq yüksək sürətlə inkişaf edir.

Petronas Tvin Tauers

Malayziyada 30 min il əvvəl ilk insanlar məskən salmışdır. Malakka yarımadasının yerli əhalisi (semanqalar, senoylar, cakunlar) 60 min nəfərdən çoxdur. Şərqi Malayziyada ən böyük etnik qruplar ibanlar və kadazanlardır (idaanlar). Kalimantan adasının şimal sahilləri boyu düzənliklərdə əhalinin çox hissəsi yerləşmişdir. Burada əsasən malaylar yaşayır, ölkənin yerli əhalisi isə adanın daxilində cəmlənir. Çinlilər daha çox şəhərlərdə və şəhərətrafı ərazilərdə məskunlaşmışlar. Əhalinin 50%-ni malaylar (malayziyalılar), 24%-ni çinlilər, 8%-ə qədərini isə Hindistandan olan mühacirlər təşkil edir. Bundan başqa Malayziyada əsasən Filippin və İndoneziyadan gəlmiş 1 milyon nəfərə qədər immiqrant yaşayır.

1970-ci illərin əvvəllərində ölkədə ixracın 70%-ni təbii kauçuk və qalay təşkil edirdi. Sonrakı iki onillik ərzində iqtisadi vəziyyət tanınmaz dərəcədə dəyişmiş və artıq 2000-ci ildə ixracın 75%-ni sənaye məhsulları təşkil etmişdir. Hazırda işçi qüvvəsinin 36%-i sənayedə çalışır. Ənənəvi ixrac məhsullarına neft və təbii qaz da əlavə olunmuşdur. Asiyanın əksər ölkələri ilə müqayisədə Malayziya inkişaf etmiş sənayeyə malikdir. İstehsal edilən paltar, elektrik avadanlıqları, elektrik məişət cihazları, avtomobil, kimyəvi preparatlar ixrac edilir. Bu gün Malayziya elektron avadanlıqları ixrac edən aparıcı ölkələrdən biridir. Corctaun və Kuala-Lumpurun ətrafındakı şəhərlər sürətlə inkişaf edən kompüter sənayesinin əsas mərkəzlərdir.

XV əsrdə yarımadanın ərazisi Malakka sultanlığı tərəfindən birləşdirilmişdir. 1511-ci ildə ərazi Portuqaliya tərəfindən işğal edilmişdir. XVIII əsrin sonu, XIX əsrin əvvəlində ingilislər Qərbi Malayziyanı tutdular, 1888-ci ildə Sabah və Savarak üzərində onların protektoratlığı elan edildi. İkinci Dünya müharibəsində ölkə Yaponiyanın işğalı altında olmuşdur. 1945-ci ildə Malayziyada yenidən ingilis müstəmləkə hakimiyyəti qurulmuşdur. 1963-cü ildə Malayziya Federasiyası yaranmış, 1965-ci ildə Sinqapur onun tərkibindən çıxmışdır.

İndoneziya Respublikası

Sahəsi: 1 904 413 km²
Əhalisi: 235,5 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 123,7 nəfər/km²
Paytaxtı: Cakarta (13660 min nəfər)
Əsas dillər: indoneziya, yava, sundan, madur, minanqkabau
Dini etiqad: islam (sünni təriqəti, 80%), protestantlıq (6%), katolisizm (4%), hinduizm (2%), konfusianlıq
Pul vahidi: İndoneziya rupisi
Dövlət quruluşu: respublika



İndoneziya əhalisinin sıxlığı ən yüksək olan ölkələrdən biridir. Onun ərazisi Malayya arxipelaqı və Yeni Qvineya adasının qərbini tutur.

İndoneziyanın tərkibinə 13700 ada daxildir, adalar ekvatorun 1/8-də yerləşir. Onların əksəriyyətində dağlar və düzənliklər növbələşir. Böyük adalardan ən şərqdə olan Sumatra adası Qərbi Malayziya və Sinqapurdan Malakka boğazı ilə ayrılır. Yeni Qvineya adasının qərbindəki İrian-Caya əyaləti ölkənin ən qərb hissəsini tutur. Əhalinin böyük əksəriyyəti beş böyük adada - Yava, Sumatra, Sulavesi (Selebes), Kalimantanın çox hissəsi və Yeni Qvineya adasının qərb hissəsində yaşayır. Ölkədə ekvatorial iqlim hakimdir, illik temperatur amplitudu aşağıdır, havanın illik orta temperaturu 23°-30°C təşkil edir. Papuanın yüksək dağlıq ərazilərində qar yağır. Musson iqlimi şəraitində yağıntıların paylanmasında kəskin fərqlər vardır. Düzənlikdə 1600-2200 mm arasında, Kalimantan, Sumatra, Sulavesi və Papua adalardakı dağlıq rayonlarda 3000 mm-dən çox yağıntı düşür. Hər gün qısamüddətli leysan yağır.

İndoneziya yüksək təhlükəli seysmik zonadadır. Ölkədə 128 fəaliyyətdə olan vulkan vardır, onların 22-si Yava adasındadır. İndoneziyada ən məşhur vulkanlardan biri Krakataudur (813 m). 1883-cü ildə vulkanın püskürməsi bəşəriyyət tarixində ən güclü partlayışla müşayət olmuş, yerləşdiyi adanın 3/4-nü məhv etmişdir. Uğultunun səsi 4 min km aralıda, Brisbendə eşidilmiş, vulkan külləri Hind okeanının digər tərəfində yerləşən Madaqaskar adasına gedib çıxmışdır. Bu zaman yaranan nəhəng sunami dalğalarının hündürlüyü 40 metrə çatmış, sahillərdə baş verən dağıntılarda 36 min nəfər insan həlak olmuşdur. 2004-cü ildə ölkənin şimal-qərbində olan zəlzələdə 275 min nəfər, o cümlədən İndoneziyada 100 min nəfərdən artıq insan həlak olmuşdur.

Relyefin müxtəlifliyi, isti və rütubətli iqlim, həmçinin coğrafi mövqe ilə əlaqədar İndoneziya bitki aləminin çox müxtəlifliyi ilə fərqlənir. Burada 35 min bitki növü vardır. Rütubətli ekvatorial meşələr geniş ərazi tutur. İndoneziya toxunulmaz həmişəyaşıl enliyarpaqlı meşə massivinə görə Amazondan sonra dünyada ikinci yeri tutur. XX əsrin əvvəllərində ölkə ərazisinin 82%-ni rütubətli tropik (ekvatorial) meşələr tuturdu. Lakin kağız, meşə və ağac emalı sənayesi inkişaf etdikcə geniş miqyasda tədarük aparılmışdır. 1990-cı illərin axırlarında hər il meşə sahələri 20 min km² azalırdı. Bu isə yüzlərlə heyvan növləri, o cümlədən oranqutanlar üçün məhv olmaq təhlükəsi yaradır. Adaların təcrid olunması

nəticəsində burada bir çox nadir və endemik heyvan növlərinə rast gəlinir. Onlara planetin ən böyük kərtənkələsi olan 4 metrlik komond kərtənkələsi və ya əjdaha aiddir. Onlara yalnız Flores adasından qərbdə olan kiçik Rinko və Komodo adalarında rast gəlinir.

Flores adasında müxtəlif rəngli, 3 Kelimutu gölündən ikisi

Hazırda kənd təsərrüfatı İndoneziyada əsas istehsal sahəsidir. Ölkənin cəmi 20%-i becərilsə də xeyli miqdarda müxtəlif məhsullar toplanır. Əhalinin əsas qida məhsulu düyüdür, lakin yığılan məhsul tələbatı ödəmir, ətraf ölkələrdən idxal edilir. Becərilən digər mühüm bitkilərə manikok, qarğıdalı, soya, yağlı palma, araxis və batat aiddir. İndoneziyanın əsas kənd təsərrüfatı vahidləri iri plantasiyalardır. Ölkə dünyada təbii kauçuk istehsalında ilk üçlüyə daxildir, qəhvə yığımına görə üçüncü yeri, tütün, kokos ləpəsi, kakao və bir sıra ədviyyatlar ixracında aparıcı yerlərdən birini tutur. 2008-ci ildə dünya üzrə çayın 4%-i (151 mln. ton) burada yığılmışdır. Əhalisinin sayı çox olsa da, ev heyvanlarının sayı azdır: 15 milyon baş keçi, 12 milyon baş iri buynuzlu mal-qara, 10 milyon baş donuz vardır. Toyuq-cücənin sayı isə 1 milyarddan artıqdır. İndoneziyalıların çoxu balıq ovu ilə məşğul olur, son vaxtlar balıqçılıq intensiv inkişaf edir. İndoneziyada mineral sərvətlərin böyük ehtiyatları vardır. Ölkə qalay, mis, qızıl, boksit, nikel, almaz yataqları ilə zəngindir, dünyada təbii qazın ən böyük ixracatçılarından biridir. Neftin ehtiyatları və hasilatına görə İndoneziya Cənubi və Cənub-Şərqi Asiya ölkələri arasında qabaqcıl yer tutur. 2008-ci ildə sutkada 1,1 mln. barrel neft hasil edilmişdir, lakin o, getdikcə azalır. Ucqar rayonlarda neft yataqlarının axtarışı aparılır, SES-lərin tikilməsi üçün layihələr hazırlanır. Kənd təsərrüfatı və xammal ixracı mühüm rol oynasa da, son 40 ildə sürətlə sənayeləşmə aparılır. Yeyinti, toxuculuq, tikiş, ayaqqabı, neft emalı, kimya, ağac emalı sənayesi üzrə iri sənaye müəssisələri, qalay və mis əridilməsi zavodları tikilmişdir. Ölkədə yüksək texnologiya tələb edən elektron və aerokosmik texnika məhsulları da istehsal edilir.

Timor-Leste Demokratik Respublikası

Sahəsi: 14874 km²
Əhalisi: 1,2 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 80,8 nəfər/km²
Paytaxtı: Dili (212 min nəfər)
Əsas dillər: tetum, portuqal
Dini etiqad: katolisizm, islam, tayfa dinləri
Pul vahidi: ABŞ dolları
Dövlət quruluşu: respublika

Timor-Leste Respublikası (Şərqi Timor) XXI əsrdə yaranmış ilk dövlətdir. Ölkə 2002-ci ilin mayında uzun sürən müharibədən sonra öz müstəqilliyini elan etmişdir. Respublikanın ərazisi Timor adasının şərq yarısını tutur.

Şərqi Timorun tərkibinə, həmçinin, Palau adası və Okusi-Ambeno anklavı da aiddir. Anklav adanın İndoneziyaya aid olan sahəsində yerləşir. Şərqi Timorun relyefi əsasən dağlıqdır. Daxili ərazilərdə dağlar 2963 m-ə qədər yüksəlir, şimalda dağlar sahillərə qədər uzanır. Cənubda çayların deltaları və bataqlıqlara malik olan geniş sahilboyu düzənlik yerləşir. Ekvatorial iqlimə malik olan ölkədə il ərzində temperatur daim yüksəkdir (orta illik 30°C), yağıntıların

miqdarı çox dəyişir. Adanın cənubunda şimala nisbətən daha çox yağıntı düşür, şimalda isə maydan noyabra qədər quraqlıqlar da baş verir. Şərqi Timorun təsərrüfatı kənd təsərrüfatın-dan çox asılıdır. Əhalinin əsas qida məhsulu qarğıdalıdır. Bundan başqa düyü, mani-kok, yams, sorqo, şəkər qamışı, qəhvə, kokos palması, kauçuk ağacı, darı və batat da becərilir. Kəndlərdə satış üçün camış, inək, keçi və ev quşları da saxlanılır. Qəhvə, kokos ləpəsi, oduncaq və səndəl ağacı ixrac olunur. Ölkənin sahilyanı və şelf ərazilərində neft və təbii qaz yataqları kəşf olunmuşdur. 2005-ci ildə onun birgə istismar edilməsi haqqında Avstraliya ilə müqavilə imzalanmışdır. Şərqi Timoru Portuqaliya XVI əsrdə işğal etmiş, 1975-ci ilə qədər onun müstəmləkəsi olmuşdur. Portuqaliya Şərqi Timorun müstə-qilliyini tanıdıqdan sonra İndoneziya onu işğal etmiş, 1976-cı ildə ölkəsinin bir əyaləti elan etmişdir. Sonrakı dövrlərdə daim gedən azadlıq uğrunda mübarizədə 100 min nəfərdən çox insan ölmüşdür. 1999-cu ildə keçirilən refe-rendumda sakinlərin 4/5-ü müstəqillik üçün səs vermişdir. Sonrakı vaxtlarda ölkə BMT-nin idarəçiliyi altında olmuşdur. Şərqi Timor dünyanın ən kasıb ölkələrindən biridir. Azadlıq mübarizəsi dövründə ölkənin təsərrüfatı, nəqliyyat infrastrukturu, sənaye obyektləri dağılmışdır. Şərqi Timorun inkişaf etməsi üçün beynəlxalq yardımların verilməsi lazımdır.

Filippin Respublikası

Sahəsi: 300 076 km²
Əhalisi: 94,0 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 313,3 nəfər/km²
Paytaxtı: Manila (11,5 mln. nəfər)
Əsas dillər: taqal, ingilis, bisay, ilokan, pilipino
Dini etiqad: katolisizm (81%), islam (5%), buddizm (2,5%), protestant (11,6%)
Pul vahidi: Filippin pesosu
Dövlət quruluşu: respublika

Filippin Sakit okean sahillərində, Malay arxipelaqının şimal hissəsində yerləşir. Ölkə çoxlu sayda adalardan ibarətdir.

Filippinə daxil olan 7107 adanın az bir hissəsi məskunlaşmışdır. İki böyük ada olan Luson və Mindanao ölkə ərazisinin 2/3-ni əhatə edir. Daha doqquz adanın ümumi sahəsi 2500 km²-dən çoxdur, adaların yarısından azının adı vardır. 350 adanın sahəsi 1,6 km²-dən çoxdur, adaların əksəriyyəti vulkan mənşəlidir. Dağlar fəaliyyətdə olan vulkan həlqəsinin bir hissəsidir. Filippində çoxlu vulkan vardır, ən hündür zirvəsi olan Apo vulkanı (2954 m) Mindanao adasında yerləşir. Filippində tropik iqlim hakimdir, orta illik temperatur 27°C, yağıntıların orta illik miqdarı 2030 mm, ən çoxu isə 4500 mm-dir. Ölkə ərazisinin 1/3-ni tutan meşələrdə 10 mindən artıq ağac növü, kol və ayıdöşəyi bitir, onlardan 60 növünün əmtəə əhəmiyyəti vardır. Ölkədə 700-dən çox quş növü, çoxsaylı sürünənlər (timsah, ilan, tıspağa, kərtənkələ) iri və xırda məməli heyvan növləri yaşayır. Dənizlərdə 2 mindən artıq balıq növü mövcuddur, onların çoxu ov əhəmiyyəti kəsb edir. Filippin Yerin ən fəal seysmik zonası olan Sakit okean odlu qurşağında yerləşir. Ona görə tez-tez zəlzələlər olur. Adalarda 20-yə qədər fəaliyyətdə olan vulkan vardır. Onlar arasında Luson adasında olan

Pinatubo altı əsrlik yuxudan sonra 1991-ci ildə qəfil ayılmışdır. 1993-cü ildə Filippinin ən fəal vulkanı olan Mayon (2462 m) püskürmüşdür. Ölkədə sentyabrdan dekabra qədər yağıntı mövsümü vaxtı qasırğalar baş verir. BMT-nin Humanitar Yardımların paylanması üzrə İdarəsinin məlumatlarına görə Filippin dünyada ən çox fəlakətlərə məruz qalan ölkədir (2002). Filippində kənd təsərrüfatının əhəmiyyəti çoxdur. Ölkə ərazisinin 45%-i becərilir. Daxili tələbatı ödəmək üçün çəltik, qarğıdalı, batat, tərəvəz, qəhvə, kakao becərilir. Şəkər qamışı, tütün, kokos palması, tropik meyvələr, sitrus bitkiləri əsasən ixrac üçün toplanır. Əhali iri buynuzlu mal-qara və donuz saxlayır. Balıqçılıq inkişaf etdirilir, 2007-ci ildə 4,7 mln. ton balıq ovlanmışdır. Neft emalı, kimya, metallurgiya sənayesi müəssisələri vardır. Kustar məhsullar istehsalının əhəmiyyəti çoxdur. Dağ-mədən sənayesi məhsulları ixrac olunur. 1521-ci ildə ispanlar adaları işğal etdilər və onu vəliəhd II Filippin adına adlandırdılar. 1896-1898-ci illərdə olan inqilab nəticəsində müstəqil Filippin Respublikası elan edilsə də, 1899-1901-ci illərdə müharibədən sonra ABŞ ölkəni öz müstəmləkəsinə çevirdi. Filippin 1946-cı ildə müstəqil respublika olmuşdur. Bu gün ölkədə 100-dən çox etnik qrupun nümayəndəsi yaşayır. Əhalinin 95%-ni təşkil edən filippinlilərə 80 dildə danışan 90 xalq daxildir. Rəsmi dil taqal olsa da, ingilis dili də geniş yayılmışdır. Filippin Asiyada yeganə ölkədir ki, əhalinin çox hissəsi xristian-katolikiərdir. Müsəlmanlar əsasən Midanao adasında yaşayırlar.

Sinqapur Respublikası

Sahəsi: 704 km² (adalar 40 km²)
Əhalisi: 5,2 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 8667 nəfər/km²
Paytaxtı: Sinqapur (5,2 mln. nəfər)
Əsas dillər: çin, ingilis, malay, tamil
Dini etiqad: buddizm (42,5%), islam (14,9%), xristianlıq (14,6%), Çinin ənənəvi yerli dinləri, konfusianlıq, daosizm (8,5%), hinduizm (4%)
Pul vahidi: Sinqapur dolları
Dövlət quruluşu: respublika

Kiçik adada yerləşən Sinqapur inkişaf səviyyəsinə görə qitənin ən qabaqcıl ölkələrdən biridir. Burada əhalinin həyat səviyyəsi Qərbi Avropadan heç də aşağı deyil.

Sinqapur Malakka yarımadasının cənubunda yerləşir, Malayziyadan ensiz Coxor boğazı ilə ayrılır. Onların sahilləri bənd üzərində avtomobil və dəmir yolları ilə birləşmişdir. Ölkəyə böyük Sinqapur və 58 kiçik ada daxildir.

Relyef düzənlik və təpələrdən ibarətdir. Ekvatorial iqlim şəraitində orta illik temperatur 27,2°C-dir. Ən isti və ən soyuq ayların temperaturları

arasında 1°C fərq olur. Bol yağıntıların əsas hissəsi noyabr-mart aylarında düşür, onların illik miqdarı 2420 mm-dir. Yaxın vaxtlara qədər geniş əraziləri örtən tropik meşələrin çox hissəsi qırılmış, bataqlıqlar qurudulmuş, torpaqlar mənimsənilmişdir. Əsasən qoruqlarda qalan meşələr ölkənin 55%-ni örtür. Maniok, tütün, ananas, heveya ağacı becərilir. Hazırda şəhər dünyanın üçüncü böyük limanıdır. Yanacaq və xammallar idxal edilir. Ona görə emal sənayesi, o cümlədən yığma istehsal sahələri inkişaf etdirilir. Qalay əridilməsi və kauçuk emalı sahələrinin əhəmiyyəti vardır. Kimya, neft emalı, radio və elektrotexnika sənayesi, gəmi təmiri və gəmiqayırmanın əhəmiyyəti getdikcə artır, üzən qazma qurğuları istehsal olunur. 1980-ci illərdən ölkədə qabaqcıl texnologiya təkcə istehsalda yox, intellektual xidmət sahəsində də inkişaf edir. Sinqapur indi dünyanın maliyyə mərkəzlərindən biridir. Onun gəlirlərinin ¼-i maliyyə və işgüzar xidmətlərdən əldə edilir. Sinqapur dünyanın ən sıx məskunlaşmış ölkələrindən biridir. Əhalinin 77%-i çinlilər, 14%-i malaylar, 7%-i hindlilərdir.

Sinqapur şəhərinin görünüşü

Cənubi Asiya
Pakistan İslam Respublikası

Sahəsi: 796095 km² (Pakistana aid 83716 km² mübahisəli şimal əraziləri (Gilgit, Baltistan və Dia-mir nəzərə alınmadan)
Əhalisi: 184,8 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 232,1 nəfər/km²
Paytaxtı: İslamabad (1,6 mln. nəfər)
Əsas dillər: urdu, pəncab, puştu, sinqxi, sirayki, ingilis
Dini etiqad: islam (97%)
Pul vahidi: Pakistan rupisi
Dövlət quruluşu: respublika

1947-ci ildə B.Britaniyanın Cənubi Asiyada olan müstəlakələrində iki dövlət yaranmışdır: mərkəzdə Hindistan Respublikası, onun şərqində və qərbində əsasən müsəlmanların yaşadığı Pakistan Respublikası (Şərqi Pakistan Şərqi Benqaliya da adlanırdı). Mədəni və siyasi fikir ayrılığına görə 1971-ci ildə Şərqi Pakistanda müstəqil Banqladeş Respublikası yarandıqdan sonra, qərbdə müasir Pakistan qalmışdır. Ölkənin paytaxtı İslamabad 1960-cı ildən sonra salınmış yeni şəhərdir. Mənası islam mərkəzi deməkdir.



Pakistanda Hind çayının sol sahillərində düzənliklər yerləşir, qərbdə onlar dağlar və yüksəkliklərlə əhatə olunur. Ucqar şimalda Hindquş silsiləsi yüksəlir, şimal-şərqində isə Himalay dağlarının qolları ölkənin ərazisinə daxil olur. Qərbdə Toba-Kakar, Süleyman və Makran dağları yüksəlir. Düzənliklərin eni 80 km-dən 330 km-ə qədər dəyişir. Bu ərazilər Pakistanın ən sıx məskunlaşmış və məhsuldar regionudur. Region üç hissəyə ayrılır: şimal Pəncab (beş çay məkanı), orta sahə Sind və Hind çayının aşağı axarı, həmçinin ölkənin cənub-şərqində yerləşən Tar səhrası. İqlim rayonun dəniz səviyyəsindən olan yüksəkliyindən asılı olaraq dəyişir. Düzənliklərdə yanvarın orta temperaturu 12°-16°C, iyulda 30°-35°C arasında olur. Pakistanda yağıntıların miqdarı azdır, düzənliklərdə 250 mm, dağlarda 150 mm yağıntı düşür, tez-tez quraqlıq olur.

Əmək qabiliyyətli əhalinin 43%-i kənd təsərrüfatında çalışır. Pakistanda çoxlu miqdarda kənd təsərrüfatı məhsulları istehsal edilir, ölkə özünü taxıl ilə təmin edir. Güclü toxuculuq sənayesi üçün xammal olan pambığın dünya üzrə əsas istehsalçılarından biridir, pambıq, düyü, qarğıdalı, kartof ixrac edir, ildə 64 mln.t şəkər qamışı istehsal olunur (2000). Heyvandarlıqda camış, keçi, qoyun, dəvə saxlanılır. Təsərrüfatın inkişafı sahəsində bir çox ekoloji problemlər vardır, quraqlıq olur, torpaqlar şoranlaşır. Ölkənin əhalisinin 35%-i şəhərlərdə yaşayır. Sahildə yerləşən Karaçi Pakistanın əsas limanı və ən çox əhalisi olan şəhəridir. Böyüklüyünə görə ikinci yerdə Laxor durur. Heydərabad ağır sənaye mərkəzidir. Pakistanda min illər ərzində bu ərazilərə gələn çoxlu etnik qruplar (pəncablılar, puştunlar, sinqxlər, belucilər, mühacirlər) yaşayırlar. Ən böyük qrup olan pəncablılar ölkə əhalisinin 45%-ni təşkil edir, onların dili daha geniş yayılmışdır. İkinci yerdə olan puştular sinqxlərlə birlikdə əhalinin 30%-ni təşkil edir. Müstəqillik əldə etdikdən sonra Hindistandan köçüb gələn müsəlmanlar və onların nəsilləri urdu dilində danışır və mühacirlər adlanır. Pəncablılar Pakistanın elitası hesab olunur. Pakistanın hazırkı əraziləri tarixən farsların, hunların, türklərin və ərəblərin təcavüzünə məruz qalmışdır. Avropalı tacirlər bu ərazilərə XVI əsrdə gəlmişdir, artıq XVIII əsrin ortalarında bütün region Böyük Britaniyanın əsarəti altında olmuşur. 1947-ci ildə müstəqilliyini elan edən Pakistanda siyasi qeyri-sabitlik davam edir, dövlət çevrilişləri, siyasi liderlərin qətlləri baş verir. Cammu və Kəşmir əyalətləri Hindistanla Pakistan arasında mübahisəli ərazilərdir.

Hindistan Respublikası

Sahəsi: 3287263 km²
Əhalisi: 1188,8 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 361,6 nəfər/km²
Paytaxtı: Dehli (15048 min nəfər, Yeni Dehli – 321,8 min nəfər)
Əsas dillər: hind, teluqu, benqal, maratx, tamil, qucarat, kannada, urdu, malayalam, oriya, pəncab, assam, ingilis
Dini etiqad: hinduizm (82%), islam (12%), sikhizm
Pul vahidi: rupi
Dövlət quruluşu: respublika

Hindistan zəngin mədəniyyətə və tarixə malik, çoxsahəli təsərrüfatı və milli-etnik tərkibi olan ölkədir.

Hindistan dünyanın sahəsinə görə yeddinci və əhalisinin sayına görə ikinci ölkəsidir. Ərazisinin çox hissəsi Hind okeanına daxil olan böyük yarımadada yerləşir. Ölkəni qərbdə Ərəbistan dənizinin, şərqdə Benqal körfəzinin, cənubda Hind okeanının suları yuyur. Hindistanın qonşu Çin və Pakistan ilə mübahisəli əraziləri vardır. Hindistanın ərazisi üç böyük təbii vilayətə ayrılır. Onlara Himalay dağları, çöküntü süxurlarının

toplanması nəticəsində formalaşan Hind-Qanq ovalığı və yarımadada yerləşən Dekan yaylası daxildir. Himalay planetimizin ən cavan və hündür dağ silsiləsidir və bütün Şimali Hindistanda 2300 km məsafədə uzanan nəhəng geoloji sədd əmələ gətirir. Düzənliklərdə yanvarın orta temperaturu şimalda 15°C, cənubda 27°C, may ayında orta temperatur 28°C-dən 35°C-yə qədərdir. Yağıntıların orta illik miqdarı Tar səhrasında 60-100 mm, Şərqi Himalayda 3000-6000 mm, dünyanın ən rütubətli yeri olan Çerapuncidə 12000 mm-dir. Himalaydan cənubda qum çöküntüləri və ərazidən axan çayların, xüsusilə də Qanq və Braxmaputra çaylarının gətirdiyi çöküntülərin toplanmasından yaranan məhsuldar düzənliklər yerləşir. Hindistan çaylarının çoxu, o cümlədən Qanq çayı Himalay dağlarından başlanır. Düzənliyin ərazisi hamar olub, eni 280 km-dən 320 km-ə qədər, uzunluğu isə Pakistanla sərhəddən Qanq çayının mənsəbinə qədər olmaqla 2400 km-dir. Hindistanın şimalının landşaftını Hind, Qanq və Braxmaputra kimi böyük çayların hövzələri təşkil edir. Enli, sakit axan Qanq çayının uzunluğu 2500 km-dir və onun sutoplayıcı hövzəsi ölkə ərazisinin ¼-ni əhatə edir. Pakistanla sərhəddin keçdiyi Tar səhrası Hindistanın şimal-qərbində yerləşir. Ölkənin fauna və florası çox müxtəlifdir - yüksək dağlardakı arktik bitkilərdən tropik çiçəklərə qədər, Himalayda yaşayan qar bəbirlərindən istiliksevən kərgədan, pələng (uzunluğu 3 m, çəkisi 200 kq) və başqa pişikkimilərə qədər heyvanların nümayəndələri yaşayır. Hindistanda 1100 növdən çox quş vardır, onların bir çoxu rəngarəng lələklərinə görə fərqlənir, çoxsaylı sürünənlər, o cümlədən kral kobraları və digər sürünənlər yaşayır. Hindistanın kənd təsərrüfatında əmək qabiliyyətli əhalinin 52%-i çalışır, toxuculuq, cut və şəkər istehsalı kimi sənaye sahələrini xammal ilə təmin edir. Əksər kəndlilər torpaqları yüzillərlə davam edən ənənəvi üsullarla becərsə də, Hindistanda əkin sahələri və məhsuldarlığı artırmağa imkan verən yeni irriqasiya üsulları, müasir texnika və gübrələrdən geniş istifadə edilir. Hazırda suvarma nəticəsində Hindistanın yarısı becərilir, torpaqların 60%-də dənli bitkilər, əsasən çəltik əkilir. 1970-ci illərin sonundan başlayaraq o, özünü bu mühüm ərzaq bitkisi ilə təmin edir, həm də düyü ixracına görə dünya-



Qandi Saqar məbədi

da ikinci yeri tutur. Hindistanda pambıq, cut, araxis, küncüt, raps, arpa, darı, qarğıdalı, tütün, şəkər qamışı, qəhvə və mühüm ixrac məhsulu olan çay becərilir. Sahil boyu bütün ərazilərdə və böyük çaylarda balıqçılıqla məşğul olurlar. Ovlanan balıqların 75%-dən çoxu okeanın payına düşür. Hindlilərin özünəməxsus və rəngarəng yeməkləri vardır. Onların rasionunda bitki tərkibli qidalar, dəniz məhsulları, eləcə də düyüdən hazırlanmış yeməklər üstünlük təşkil edir. Yeməyə mütləq ədviyyat (istiot, hil, zirə, kurkuma) əlavə olunur. Hindistan dünyada ədviyyat becərilməsinə görə birinci yeri tutur. Hindlilərin əksəriyyəti vegetariandır, inəyi müqəddəs heyvan hesab edirlər. Lakin heyvandarlıq və quşçuluq kənd təsərrüfatında mühüm rol oynayır. 282 milyon baş iribuynuzlu mal-qara və 94 milyon camış süd almaq və qoşqu qüvvəsi kimi istifadə olunur. Hindistan müxtəlif mineral-xammal yataqlarına - neft, kömür, sink, mis, gümüş və qızıl - malikdir. Ölkədə güclü emal sənayesi, o cümlədən poladəritmə və maşınqayırma sahələri formalaşmışdır. Avtomobilqayırma ölkənin minik və yük maşınlarına olan tələbatının çox hissəsini ödəyir. Hindistan dünya bazarında dərman preparatları çıxaran iri ölkələrdən biridir. 1990-cı illərdən xarici investisiyalar ölkədə telekommunikasiya, radioelektronika, həmçinin reaktiv təyyarələr və kosmik gəmilərin istehsalı kimi ən müasir sahələrin inkişaf etdirilməsinə imkan verir. Hindistanın kino sənayesi hər il digər ölkələrə, hətta ABŞ-a nisbətən daha çox kinofilm istehsal edir. Hindistanın Mumbay şəhəri ətrafında yerləşən "Xəyal fabriki" Bollivud adlanır. Hər gün orta hesabla 2 yeni film çəkilir. Dünyanın quru sahəsinin cəmi 2%-ni tutan Hindistanda planetin əhalisinin 15%-i yaşayır. Şəhər əhalisinin sayı 340 milyon nəfərdən çoxdur. Hindistanda dünyanın on ən böyük meqapolisindən - üçü yerləşir: Mumbayda (Bombeydə) 18,2 mln. nəfər, Dehlidə 15,1 mln. nəfər, Kəlküttədə 14,3 mln. nəfər əhali yaşayır. Ölkədə iki dövlət dili, 17 geniş yayılmış və bir neçə yüz çoxsaylı insanın danışdığı dil vardır, hind dili onlar arasında daha çox istifadə olunur. Əhalinin 81%-i hinduizmə sitayiş etsə də, Hindistan dünyada ən çox müsəlman (154 milyon nəfər) yaşayan ölkədir. Digər din davamçılarına 60 milyon nəfər xristian, 20 milyon nəfərə qədər sikx, həmçinin buddistlər, parslar və caynlar aiddir. 1947-ci ildə ingilis müstəmləkəsindən azad olan Hindistanda iki il sonra müasir konstitusiya qəbul edilmişdir. Çoxpartiyalı sistemə malik olan ölkə dünyada ən çox (619,5 mln. nəfər) seçiciyə malikdir, federativ idarəetmə sistemi vardır. Hindistan geniş idarəetmə səlahiyyətlərinə malik 25 ştata, 7 məhdud inzibati hüquqları olan əraziyə bölünür. Hər bir ştata prezident tərəfindən beş il müddətinə təyin edilən qubernator başçılıq edir. Parlament tipli respublika olan Hindistanda Baş Nazir və hökumət parlamentə hesabat verir. Qanunverici orqan Ştatlar Palatası (Racya-Sabha) və Xalq Palatasından (Lok-Sabha) ibarətdir. 12,4 mln. nəfər əhalisi olan Cammu və Kəşmir ştatı Hindistan və Pakistanın şimal sərhədlərinə yaxın yerləşir. Bu gözəl diyarda dünyanın ikinci hündür nöqtəsi olan Çaqori dağı (8611 m) yüksəlir. Ştatın kimə məxsus olması sahəsində Hindistan və Pakistan arasında münaqişələr uzun illərdir ki davam edir. Pakistan əhalisi əsasən müsəlmanlardan ibarət olan ştatı özünə birləşdirmək istəyir, Hindistan isə öz ərazilərindən əl çəkmək istəmir, yerli əhali arasında referendum keçirilməsinə imkan vermir. Bu səbəbdən Hindistan dünyada ən çoxsaylı (1 mln. nəfər) orduya malikdir.

Banqladeş Xalq Respublikası

Sahəsi: 147570 km²
Əhalisi: 164,4 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 1114,1 nəfər/km²
Paytaxtı: Dəkkə (12797 min nəfər)
Əsas dillər: benqal, ingilis
Dini etiqad: islam (sünni təriqəti, 84%), hinduizm (16%)
Pul vahidi: taka
Dövlət quruluşu: respublika

Banqladeş Hind okeanına aid olan Benqal körfəzinin sahillərində yerləşir. 1947-ci ildən Pakistanın əyaləti olmuşdur. Banqladeş 1971-ci ildə əvvəllər Pakistana aid olmuş Şərqi Pakistan əyalətinin ayrılaraq müstəqil dövlətə çevrilməsi nəticəsində yaranmışdır.

Banqladeşin çox hissəsini iki böyük çayın – Qanq və Braxmaputra çaylarının əmələ gətirdiyi ovalıq tutur. Çayların deltaya gətirdiyi lil və iqlim şəraiti kənd təsərrüfatı üçün olduqca əlverişlidir. Ölkədə 2000-3000 mm, bir çox regionlarına isə hər il 5000 mm-dən çox yağıntı düşür, ərazinin təxminən 2/3 hissəsi ilin müəyyən vaxtlarında su altında qalır. Tufanla müşayət olunan və sürəti 240 km/saat olan küləklər dənizdə hündürlüyü yeddi metrə çatan dalğalar yaradır. Yanvarın orta temperaturu 12°C-dən 25°C-yə qədər, ən isti ay olan apreldə 23°C-dir. Banqladeş cutun dünya üzrə aparıcı istehsalçısıdır, onun lifindən kəndir, buraz, səbət və sarğı kağızı hazırlanır. İxrac üçün şəkər qamışı və çay becərilir. Ümumilikdə, əhalinin 73%-nin yaşadığı Banqladeş kəndləri üçün kiçik torpaq sahələrində natural təsərrüfatlar səciyyəvidir. Əkilən mühüm bitkilərə düyü, mərcimək kimi paxlalı bitkilər, kartof, buğda və tərəvəz aiddir. Balıq və xərçəng (krevet) əhalinin mühüm qida məhsuludur, ixrac edilən əsas məhsullar sırasına daxildir. 1990-cı illərin sonundan təbii qaz yataqlarının kəşfiyyatı və istismarı üçün xarici investisiya cəlb edilməsinə maraq göstərilir. Hasil edən təbii qaz boru kəmərləri ilə sənaye mərkəzi olan Dəkkə şəhərinə və iri Çittaqonq limanına göndərilir. Metallurgiya, əczaçılıq, kənd təsərrüfatı məhsullarının emalı (cut, çay, şəkər tütün, gön-dəri) əsas sənaye sahələridir.

Nepal Respublikası

Sahəsi: 147181 km²
Əhalisi: 28,0 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 190,2 nəfər/km²
Paytaxtı: Katmandu (1150 min nəfər)
Əsas dillər: nepal, maytxil, bxocpur
Dini etiqad: hinduizm (80,6%), buddizm (10,7%), islam (4,2%)
Pul vahidi: Nepal rupisi
Dövlət quruluşu: respublika

Nepal Himalay dağlarının ən yüksək sahələrində yerləşir. Son vaxtlarda (2008-ci il) ölkənin siyasi idarəetmə sistemi dəyişmiş və respublika olmuşdur. Dünyanın ən yüksək zirvəsinin yerləşdiyi Nepalda turizm əsas valyuta mənbəyidir və əhalinin davamlı məşğulluğunu təmin edir.



Okean sahillərindən uzaqda yerləşən və uca dağlarla dünyanın digər ərazilərindən təcrid olunan Nepal əsrlər boyu izolyasiyada olmuş, onun hakimləri ölkəyə xarici vətəndaşların və xarici təsirlərin daxil olmasına imkan verməmişlər. Ərazisinin 4/5 hissəsini dağlar tutan Nepalda dünyadakı on ən uca zirvədən səkkizi, o cümlədən Comolunqma (Everest, 8848 m) yüksəlir. Ölkənin cənubunda hamar relyef - düzənliklər və bataqlıqlar yerləşir. Bu rayonlar pələng, bəbir və fillərin yaşadığı möhkəm cinsli ağaclar və bambuk kollarından ibarət meşələrlə örtülür. Nepal beş iqlim tipi zonasında yerləşir. Katmanduda yanvarın orta temperaturu 10°C, iyulda 34,5°C-dir. Nepallıların çoxu cənubdakı düzənlikdə və ən böyük şəhəri olan Katmandunun da yerləşdiyi mərkəzi vadidə yaşayırlar. Nepal əhalisinin 90%-i əkinçilik və heyvandarlıqla məşğul olur.



Patanda Şahzadə meydanı (Nepal)

Onlar düyü, qarğıdalı, buğda, kartof, pambıq, cut, tütün əkir, camış və keçi saxlayırlar. Dağlıq relyef və okeana çıxışın olmaması səbəbindən Nepalda sənaye sahələrini inkişaf etdirmək çətindir. Kiçik müəssisələrin əsas məhsulu xalça, cut, dəri, tütün və toxuculuq məmulatlarıdır. Turizm və alpinizm ölkənin xəzinəsiə xeyli gəlir gətirir. Himalayda yaşayan kənd əhalisi, xüsusən də şerplər alpinistlərə xidmət edir.

Butan Krallığı

Sahəsi: 46500 km²
Əhalisi: 2,0 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 43,0 nəfər/km²
Paytaxtı: Tximpxu (90 min nəfər)
Əsas dillər: dzonqke (bxotiya), nepal, assam
Dini etiqad: buddizm (lamaistlər 70%), hinduizm (25%), islam (5%)
Pul vahidi: ngultrum
Dövlət quruluşu: monarxiya



Butan Çin və Hindistan arasında, yüksək dağlıqda yerləşən kiçik dövlətdir. Hələlik az öyrənilmiş Butana avropalıların gəlişinə rəsmən 1974-cü ildən sonra icazə verilmişdir.

Butanın ərazisi relyef xüsusiyyətlərinə görə fərqlənən üç rayona ayrılır. Şimal hissəsi, zirvələri 7300 m-dən yuxarı qalxan Böyük Himalayda yerləşir. Ölkənin mərkəzini yüksəkliyi az olan Kiçik Himalay tutur. Dağ zirvələrinin arasında geniş məhsuldar vadilər yerləşir. Cənubda

təpəli düzənlik uzanır, burada yerləşən Duars əyaləti ensiz zolaq şəklində cənub sərhəddi boyunca uzanır və sıx meşə ilə örtülür. Vadilərdə yanvarın orta temperaturu -4,5°C, iyulda 17°C-dir. İl ərzində 1000 mm-dən 5000 mm-ə qədər yağıntı düşür. Butanda əhalinin 63%-i kənd təsərrüfatı ilə məşğul olur. Ölkə ərazisinin cəmi 3%-ni təşkil edən becərilən torpaqlar Kiçik Himalayda cəmlənir. Düyü, qarğıdalı, kartof, buğda, hil və sitrus bitkiləri yetişdirilir, qoyun və iri buynuzlu mal-qara saxlanılır. Soyuq iqlimi olan dağ yamaclarında yakları ətinə və yununa görə saxlayırlar, həmçinin qoşqu qüvvəsi kimi istifadə olunur. Yaşlı əhalinin yalnız 47%-i savadlıdır, şəhər əhalisi 36%-dir. Sənayenin toxuculuq, sement, ağac emalı, yeyinti, kustar sənaye sahələri vardır. Butanın əsas ticarət tərəfdaşı Hindistandır, idxalın 63%-i, ixracın 86%-i onun payına düşür. Butan çox qapalı buddistlər ölkəsidir.

Şri-Lanka Demokratik Sosialist Respublikası

Sahəsi: 65610 km²
Əhalisi: 20,7 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 315,5 nəfər/km²
Paytaxtı: Kolombo (inzibati paytaxt), Kotte (Şri-Cavardene-pura-Kotte; qanunvericilik paytaxtı, birlikdə əhalinin sayı 2477 min nəfər)
Əsas dillər: sinqal, tamil, ingilis
Dini etiqad: buddizm (70%), hinduizm (15%), islam (7%), katolisizm (8%)
Pul vahidi: Şri-Lanka rupisi
Dövlət quruluşu: respublika

Şri-Lanka Hindistanın cənub-şərq sahilləri yaxınlığında adadır. 1948-ci ilə qədər Seylon adı ilə Böyük Britaniyanın müstəmləkəsi olmuşdur. 1983-cü ildən 2009-cu ilə qədər ölkədə qanlı vətəndaş müharibəsi getmişdir.

Şri-Lankada sahilboyu ovalıqlar, mərkəzi və cənub hissələrdə hündürlüyü 1500 m-dən yüksək olan dağ massivləri yerləşir. Ölkə ekvatordan bir neçə dərəcə şimal enliyindədir. Ona görə ada üçün ekvatorial iqlim səciyyəvidir (orta illik temperatur 27°C). Mərkəzdə olan yaylalarda nisbətən sərin və mülayim iqlim hakimdir. İllik yağıntıların miqdarı orta hesabla 1200 mm-dir, lakin ölkənin cənub-qərbindəki bəzi rayonlarda 250-5000 mm yağıntı düşür. Bu rütubətli zona əhalinin ən sıx məskunlaşdığı yerlərdir. Mineral-yanacaq ehtiyatlarına malik olmayan Şri-Lanka elektrik enerjisi istehsalında SES-lərdən istifadə edir. Dəmir filizi və qrafit ehtiyatları, eləcə də qiymətli və yarımqiymətli daşlar vardır, onların bir hissəsi ixrac edilir. Əhalinin 32%-ə qədəri kənd təsərrüfatında çalışır. Çəltik ilk növbədə daxili tələbat üçün becərilir. 2007-ci ildə çəltik yığımı 2,7 mln. ton olmuşdur. Ayrı-ayrı illərdə ölkə düyü və bir çox ərzaq məhsulları idxal edir. Çay plantasiyaları ölkədə əkilən torpaqların yalnız 12%-ni tutsa da, onun ixracına görə dünyada qabaqcıl yer tutur. Ölkənin mərkəzindəki yaylalarda becərilən Seylon çayının əla dadı və xoş ətri vardır. 2008-ci ildə 318,5 min t məhsul toplanmışdır. Şri-Lankada ən böyük etnik qrupları buddizmə sitayiş edən və əhalinin 74%-ni təşkil edən sinqallar və

əhalinin 9%-ni təşkil edən hinduist tamillərdir. Hər iki xalq adaya 1400 il əvvəl gəlmişdir. 1983-cü ildə gərginlik qanlı vətəndaş müharibəsinə çevrilmişdir. Ölkənin şimalı və şərqində yaşayan tamillərin əksəriyyəti müstəqillik istəyir. Hökumət qüvvələri ilə üsyançılar arasındakı münaqişədə 70 min nəfər insan həlak olmuşdur. 2002-2003-cü illərdə atəşkəs haqqında aparılan danışıqlarda tamillərə geniş muxtariyyət verilməsi razılaşdırılmışdır. 2009-cu ildə hökumət üsyançılar üzərində tam qələbə çalmışdır.

Maldiv Respublikası

Sahəsi: 298 km²
Əhalisi: 313,7 min nəfər (2010)
Əhalinin sıxlığı: 1052,7 nəfər/km²
Paytaxtı: Male (104,4 min nəfər)
Əsas dil: divexi (maldiv)
Dini etiqad: islam
Pul vahidi: rufiya (Maldiv rupisi)
Dövlət quruluşu: respublika

Maldiv Respublikasının ərazisini təşkil edən Maldiv adaları 1196 adadan ibarətdir, onlardan yalnız 195-də yaşayış vardır. Adaların hündürlüyü 2 m-dən çox deyil. Qlobal istiləşmə nəticəsində okean səviyyəsinin qalxması bu adaların suyun altında qalması təhlükəsini yaradır.

Hind okeanında Madaqaskar və Şri-Lanka adasından başqa digər adalar böyük deyil. Bu adaların əksəriyyətində zəngin bitki örtüyü vardır. Torpaq və relyef şəraitinin yaxşı olmasına baxmayaraq ərazinin kiçik olması kənd təsərrüfatının inkişafına mane olur. Burada yerləşən ada dövlətlərinin iqtisadiyyatını əsasən turizmdən gələn gəlirlər təşkil edir. Maldiv və Seyşeldə hər il minlərlə turistin istirahəti üçün gözəl şərait vardır. Maldiv uzunluğu 760 km olan vulkan mənşəli sualtı yüksəkliyin üzərində



sıra ilə düzülmüş 26 mərcan adaları qrupundan ibarətdir. Kiçik adalarda ağ qumlardan ibarət çimərliklər palma və başqa bitkilərin yaratdığı kölgələrlə əhatə olunmuşdur. Tropik qurşaqda yerləşən Maldivin iqlimi çox isti olur, orta temperatur 26,7°C-dir. Rütubətli mövsümi küləklər olan yay mussonları, əsasən, maydan avqusta qədər, ildə orta hesabla 1520-2500 mm yağıntı gətirir. Becərmək üçün yararlı torpaqlar çox məhduddur. Burada kokos palması, çörək ağacı, papayya, banan və meyvə yetişdirilir. Sənayedə toxuculuq məhsulları, suvenirlər, kiçik gəmilər hazırlanır, tor toxunur. Təsərrüfatın əsasını sürətlə inkişaf edən turizm və balıqçılıq təşkil edir. Bu sahələr valyuta gəlirlərinin hamısını təmin edir. 2009-cu ildə adalara 650 min nəfər turist gəlmişdir.

Tropik enliklərdə atollar geniş yayılmışdır

Cənub-Qərbi Asiya
Suriya Ərəb Respublikası

Sahəsi: 185180 km² (İsrailin işğal etdiyi Colan təpəliyi daxil olmaqla)
Əhalisi: 22,5 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 121,5 nəfər/km²
Paytaxtı: Dəməşq (2,1 mln. nəfər)
Əsas dillər: ərəb, kürd
Dini etiqad: islam (90%), provoslavlıq (10%)
Pul vahidi: Suriya funtu
Dövlət quruluşu: respublika

Suriya Türkiyə, İraq, Livan, İordaniya və İsrail ilə həmsərhəddir. 1967-ci ildə İsrail-Ərəb müharibəsi zamanı İsrail ölkənin Colan təpəliyi adlanan kiçik bir hissəsini (1 min km²) işğal etmişdir.

Suriyanın ərazisi coğrafi cəhətdən üç zonaya ayrılır. Qərbdə, sahilboyu düzənliklərdə ölkənin ən münbit torpaqlarının yayıldığı ərazilərdə əhali sıx məskunlaşır. Suriyanın Aralıq dənizi sahilləri 180 km məsafədə uzanır. Yanvarın orta temperaturu 12°C, iyulda 26°C-dir. Daxili rayonlarda yayda temperatur 50°C-yə qədər qalxır. Ən böyük dəniz limanları Latakiya və Tartusdur. Sahilboyu düzənlikləri ölkənin başqa rayonlarından məhsuldar vadiləri olan dağ silsilələri ayırır. Dağlardan şərqdə yaylalardan ibarət olan Suriya səhrası yerləşir. Onun bir hissəsi qonşu İordaniya ərazisinə, İraqın qərbinə və Səudiyyə Ərəbistanın şimalına keçir. Ölkənin şimalında məhsuldar torpaqlara malik düzənliklər yerləşir. Fərat çayı üzərində tikilmiş bənd ölkənin elektrik enerjisinin 35%-ə qədərini verir. Suriyada sənayenin əsas inkişaf etmiş sahələrinə neft emalı, neft-kimya, yeyinti, toxuculuq, habelə tikinti materialları istehsalı aiddir. Bu sahələrdə əsas müəssisələr dövlətə məxsusdur. Özəl sahələrdə ipək, dəri və şüşə məmulatları istehsal edilir. 1974-cü ildən neft çıxarılması və ixracı ölkənin əsas valyuta mənbəyini təşkil edir. Suriya ərazisindən keçən neft kəmərləri həm Suriya neftini, həm də İraq və Səudiyyə Ərəbistanından ötürülən nefti Aralıq dənizindəki limanlara çatdırır. Ölkənin ən böyük sənaye şəhərləri Dəməşq, Hələb (Aleppo, əhalisi 2,33 mln. nəfər), Homsdur. 1960-cı illərə qədər Suriya əsasən aqrar ölkə olmuşdur. Hazırda əmək qabiliyyətli əhalinin 17%-ə qədəri kənd təsərrüfatı ilə məşğul olur. Ölkə ərazisinin 30%-i kənd təsərrüfatına yararlıdır. Sahilboyu ensiz zolaqda taxıl, meyvə, tərəvəz, zeytun, tütün, sitrus bitkiləri və pambıq becərilir. Suriya zeytun yağı istehsalına görə dünyada beşinci yeri tutur. Qərbdə Colan təpəliyi və Dəməşqdən Hələbə qədər, şərqdə Əl-Həsaka şəhərinə qədər böyük ərazidə yerləşən yarıquraq yaylada Suriya buğdası və arpa, Fərat çayının vadisində isə mühüm əmtəə məhsulu olan pambıq becərilir. Suriya səhrasının şimalında becərilməyən geniş ərazilər 14,5 mln. baş qoyunun və 1,1 mln. keçinin otarılması üçün istifadə edilir. XVI əsrdən 1918-ci ilədək Suriya Osmanlı imperiyasının tərkibində olmuşdur. İndi ölkə əhalisinin 90%-ni təşkil edən Suriya ərəbləri VII əsrdə buranı işğal etmiş və 800 il hökmran olmuş ərəblərin nəsilləridir. Müsəlman sünnilərlə yanaşı, ölkədə şiələr, ismaililər, ələvilər yaşayır. Türkiyə ilə sərhəddə kürdlər və kərküklər (türklər) yaşayır. Suriyanın paytaxtı Dəməşq dünyanın ən qədim şəhərlərindən biridir.

İsrail Respublikası

Sahəsi: 20400 km² (İşğal edilmiş Şərqi Yerusəlim və Colan təpəliyi, həmçinin İordan çayının qərb sahilləri və Qəzza bölgəsi istisna olmaqla)
Əhalisi: 7,6 mln. nəfər (Şərqi Yerusəlim və Colan təpəliyi daxil olmaqla) (2010)
Əhalinin sıxlığı: 372 nəfər/km²
Paytaxtı: Təl-Əviv (şəhərətrafı ilə 1,1 mln. nəfər), Yerusəlim (757 min nəfər)
Əsas dillər: ivrit və ərəb
Dini etiqad: iudaizm (80%), islam və xristianlıq
Pul vahidi: Yeni şekel
Dövlət quruluşu: respublika

1948-ci ildə Ərəb ölkələrinin əhatəsində yəhudilər üçün İsrail dövləti, Fələstin ərəbləri üçün Fələstin yaradılmışdır. Lakin İsrail 1967-ci ildə Fələstinin ərazisini (Qəzza bölgəsi və İordan çayının qərb sahillərini) də işğal etmişdir. Fələstinin dövlət müstəqilliyinin bərpa edilməsi, sərhədlərin toxunulmazlığının təminatı uzun illərdir ki, həll edilməmiş problem olaraq qalır. Buna görə ərəblərlə yəhudilər arasında hərbi münaqişələr davam edir.

İsrail Aralıq dənizinin şərq sahilində yerləşir. İsrailin landşaftı müxtəlifdir. Aralıq dənizinin sahilləri boyu uzanan düzənliyin eni bəzi yerlərdə 40 km-ə çatır. Bu ərazidə ölkə əhalisinin yarısından çoxu, sənaye müəssisələrinin əsas hissəsi və kənd təsərrüfatına yararlı sahələrin əksəriyyəti yerləşir. Sahilboyu düzənlikərdən şərqdə, şimaldan cənuba doğru, hündürlüyü 500-1000 m arasında olan yayla uzanır. Ölkənin şərq sərhədləri boyu iri tektonik qırılma zonasında Ölü dəniz yerləşir. İsrailin cənubunu təpəlik Neqev səhrası tutur. İsraildə müasir irriqasiya üsulları və mütərəqqi texnologiyaların tətbiq edilməsi kənd təsərrüfatı məhsulları istehsalının artmasına imkan verir. Ölkədə buğda, çəltik, zeytun, meyvə-tərəvəz güllər becərilir. İsrailin təsərrüfatının əsasını sənaye

və xidmət sahələri təşkil edir. Ölkədə metallurgiya, maşınqayırma, o cümlədən, hərbi sənaye məhsulları da daxil olmaqla, gəmiqayırma və aviasiya texnikaları istehsalı dinamik inkişaf etdirilir. Yeni elmi nailiyyətlər tibbi cihazlar, kompüterlər, robotlar, optik liflər (kabellər), dərman və kimyəvi preparatlar istehsalında istifadə edilir. İsrail almazın təmizlənməsi və cilalanması üzrə dünyanın başlıca mərkəzlərindən biridir. Almaz (brilliant) ixracı valyuta gəlirlərinin 25%-ni təmin edir. İsrail ilə geniş ticarət aparan ölkələr sırasına Avropa ölkələri və Yaponiya da daxildir. Ölkə əhalisinin 81%-ni yəhudilər, 19%-ni ərəblər təşkil edir. 2006-cı ildə HAMAS təşkilatı Fələstində hakimiyyətə gəldikdən sonra gərgin vəziyyət yaranmışdır. Problemin həlli üçün Fələstinin özündə Vahid Milli Başırıq Hökuməti yaradılmalıdır.

Fələstin Ərazisi (İordan çayının qərb sahili və Qəzza bölməsi)

Sahəsi: 6,3 min km²
Əhalisi: 4,86 mln. nəfər
Əhalinin sıxlığı: 771,4 nəfər/km²
Əsas dil: ərəb
Dini etiqad: islam (sünnilər 75%,)

Fələstin İsrailin ərazisində muxtariyyətdir. Tərkibinə İordan çayının qərb sahili, burada yerləşən İerixon, Nablus, Ramalla və Xevron şəhərləri (5,9 min km²), Qəzza bölməsi (0,4 km²) və Yerusəlim şəhərinin şərqi daxildir. 1994-cü ildə Qəzza bölgəsində Fələstinə daxili idarəetmə hüququ verilməsi haqqında müqavilə imzalanmış, 1995-ci ildə İordan çayının qərb sahilinə də yayılmışdır. 1996-cı ildə keçirilən seçkilərdə qanunverici orqan yaradılmışdır. Regiondan kənarda 4,0 mln. nəfər fələstinli yaşayır.

1947-ci ildə BMT-nin Qətnaməsinə əsasən Fələstin ərazisində əvvəllər mövcud olmuş Yəhudi çarlığının varisi kimi yəhudi İsrail dövləti yaradıldı. Ərəb ölkələri tərəfindən müdafiə olunan fələstinlilər BMT-nin torpaqların bölünməsi haqqında təklifini rədd etdilər. Bu qarşıdurma on minlərlə insanın həyatı bahasına başa gələn silahlı qarşıdurmaya və müharibəyə səbəb oldu. 1967-ci ildə İsrail Fələstin torpaqlarını işğal edərək, İordan çayının qərb sahillərində və Qəzza bölgəsində öz qəsəbələrini tikməyə başladı.

Subtropik qurşağın Aralıq dənizi iqlim tipində yay isti, quru, qış yumşaq keçir, mərkəzi və şərq rayonlarında 500 mm, Ölü dəniz sahillərində 50 mm yağıntı olur. Kənd təsərrüfatında sitrus meyvələri, zeytun, tərəvəz, üzüm, bostan məhsulları becərilir, xırda buynuzlu mal-qara saxlanılır. Sənayedə paltar, ayaqqabı, dəri məhsulları, mebel, cilalanmış tikinti daşları istehsal olunur.

Livan Respublikası

Sahəsi: 10201 km²
Əhalisi: 4,6 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 450 nəfər/km²
Paytaxtı: Beyrut (1,5 mln. nəfər)
Əsas dil: ərəb
Dini etiqad: islam (60%), provoslav (40%)
Pul vahidi: Livan funtu
Dövlət quruluşu: respublika

Livan Aralıq dənizinin şərq sahilində ensiz zolağı əhatə edir. Uzun sürən vətəndaş müharibəsindən sonra ölkədə yenidən tikinti-quruculuq işləri aparılır. Livanın ərazisi sahilboyu ovalıqdan, iki dağ silsiləsi və onların arasındakı geniş ərazidə uzanan, məhsuldar Bekaa vadisindən ibarətdir.



Livanın ərazisində iki iqlim tipi ayrılır: sahilboyu yayı isti və quraq, qışı mülayim və yağıntılı keçən subtropik iqlim, Bekaa vadisində isə yayı isti və quru, qışı isə soyuq və küləkli keçən iqlim

yaranır. Beyrutda yanvarın orta temperaturu 14°C, iyulda 28°C-dir. İllik yağıntıların miqdarı 400 mm-dən 1000 mm-ə qədərdir. Vadidən Əl-Litani çayı axır, Bekaanın cənub hissəsini su ilə təmin edir, qayalar arasındakı ensiz tuneldən keçərək dənizə tökülür. Çay üzərində tikilmiş SES vadidə yerləşən şəhər və qəsəbələri elektrik enerjisi ilə təmin edir, dağarası vadiləri suvarmaq üçün istifadə olunur. Regionun digər ölkələri ilə müqayisədə Livana kifayət qədər çox yağıntı düşür. Taxıl, paxlalılar, tütün, sitrus meyvələri, tərəvəz və üzüm əkilir. Vaxtilə bütün ölkəni örtən, onun simvolu sayılan sidr meşələri hazırda cəmi 8% ərazidə qalmışdır. Livanda əhalinin dini tərkibi çox mürəkkəbdir. Burada 15-dən çox dini icma vardır. Fələstinli qaçqınlarla əlaqədar olan problemlər 1975-ci ildə vətəndaş müharibəsinə səbəb olmuş və 15 il davam etmişdir. Müharibəni 1990-cı illərdə dayandırmaq mümkün olmuşdur. Livanda böyük turizm ehtiyatları vardır. Onlara turistlərin dincəlməsi üçün gözəl çimərliklər, 3 min il əvvəl qədim finikiyalılar tərəfindən salınmış Tir və Sadan şəhərləri aiddir.

İordaniya Həşimilər Krallığı

Sahəsi: 89342 km²
Əhalisi: 6,5 mln. nəfər
Əhalinin sıxlığı: 72,8 nəfər/km²
Paytaxtı: Əmman (1,7 mln. nəfər)
Əsas dil: ərəb
Dini etiqad: islam (sünni təriqəti, 92%), xristianlıq
Pul vahidi: İordaniya dinarı
Dövlət quruluşu: konstitusiyalı monarxiya

İordaniya Ərəbistan yarımadasının şimal-qərbində yerləşir. Ölkə 1946-cı ildə müstəqillik əldə etmişdir. İordaniya Yaxın Şərqdə yanacaq ehtiyatları olmayan az sayda ölkələrdən biridir.

İordaniyada üç coğrafi rayon ayrılır: qərb hissədə İordan çayının vadisi, şərqində səhralar, onların arasında isə yarımquraq təpələr və yaylalar yerləşir. İordaniyanın qərbində yayı isti (orta temperatur 40°C), quraq, qışı mülayim və yağıntılı keçən (orta temperatur 15°C) Aralıq dənizi iqlimi hakimdir. Ölkənin qalan hissəsində səhra iqlimi yaranır. Burada yağıntıların miqdarı ildə 250 mm-dən azdır. Şirin su çatışmazlığı İordaniyanın əsas problemidir. Ölkədə fosforitdən başqa digər mühüm ehtiyatlar, o cümlədən neft yataqları yoxdur. Fosforit, potaş və

B.e.ə. II minillikdə Petra şəhərində qırmızı qumlardan ibarət qayalarda çoxlu məbədlər yonulmuşdur

mineral gübrə ixrac edilir. Neft emalı, kimya, toxuculuq, sement istehsalı sahələri vardır. Ərazinin 5%-ə qədəri əkinçilik üçün yararlıdır. Bu torpaqlarda pomidor, qarğıdalı, meyvə-tərəvəz, buğda, zeytun becərilir. 2008-ci ildə ölkədə 1,5 mln. baş qoyun olmuşdur. Çayın uzunluğu 160 km-dir, dağlarda okean səviyyəsindən 3000 m hündürlükdən başlanır, - 408 m alçaqda, qurunun ən alçaq məntəqəsi olan Ölü dənizə tökülür. Suvarma zamanı məhsuldar olan torpaqlar və yumşaq iqlim şəraiti vadidə ildə üç-dörd dəfə məhsul götürməyə imkan verir. İordan çayının suyu suvarma və əhalinin ehtiyaclarının ödənilməsi məqsədilə intensiv olaraq istifadə edilir. İsrail və İordaniyanı ayıran çayın suyundan səmərəli istifadə məsələsi iki ölkə arasında danışıqlarda fəal müzakirə olunur.

İraq Respublikası

Sahəsi: 434128 km²
Əhalisi: 31,5 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 72,6 nəfər/km²
Paytaxtı: Bağdad şəhəri (6,2 mln. nəfər)
Əsas dillər: ərəb, kürd, türkman
Dini etiqad: islam (şiələr 65% və sünni təriqəti 32%), xristianlar (3%)
Pul vahidi: İraq dinarı
Dövlət quruluşu: respublika

İraq Yaxın Şərqin qədim dövlətlərindən biridir. Məhsuldar torpaqlar, neft ehtiyatları onu dünyanın ən zəngin dövlətlərindən birinə çevirə bilərdi. Lakin Qərbin digər xalqları idarə etmək və təbii ehtiyatları ucuz istismar etmək siyasəti və yerli rəhbər dairələrin hakimiyyət hərisliyi bir çox hallarda imkanların gerçəkliyə çevrilməsinə səbəb olmur. 1979-cu ildən 2003-cü ildə ABŞ-ın işğalına qədər diktator olmuş Səddam Hüseynin devrilməsindən sonra ölkədə qeyri-sabit rejim davam edir, hər gün baş verən terror hadisələri onlarla dinc insanın ölümünə səbəb olur.

İraq İran körfəzinə uzunluğu 58 km olan, lakin strateji baxımdan çox əhəmiyyətli çıxışa malikdir. İraqın ərazisi əsasən düzənliklərdən ibarətdir, yalnız şimalda və şərqdə dağlar yüksəlir. Mərkəzi və cənub rayonlarında çay vadilərinin məhsuldar torpaqları və marş bataqlıqları üstünlük təşkil edir. Qərb hissəsini Suriya səhrası tutur. O, geniş daşlıq düzənlikdir, bəzi yerlərdə səthi qumla örtülmüşdür. Müvəqqəti daşqın axınlarının məcrası olan vadilər ilin çox hissəsində quru olur, yalnız qış yağışları zamanı su ilə dolur. Düzənlikdə və səhrada yay çox isti (orta temperatur 34°C), qışda isə olduqca mülayim keçir (orta temperatur 11°C). Şimal-şərqdə, xüsusilə də dağlarda hava olduqca sərin və rütubətlidir, dağlarda 500 mm, cənub-şərqdə 60-100 mm yağıntı düşür. İraqda zəngin faydalı qazıntı yataqları vardır. İraq ərazisində, Dəclə və Fərat çaylarının vadisində, qədimdən şumerlərin, babillərin və assuriyalıların sivilizasiyalarının mövcud olduğu Mesopotamiya (Çaylararası) kimi tanınan rayon yerləşir. Çaylararası təbii və süni su yolları (çaylar və kanallar) və gölləri olan çox məhsuldar torpaqlara malik düzənlikdir. Bu ərazilər artıq 6,0 min ildən çoxdur ki, becərilir, dünya sivilizasiyasının ilk əkinçilik mədəmiyyəti mərkəzidir. Hazırda da iraqlıların çoxu bu ərazilərdə yaşayır. Onlar heyvandarlıqla məşğul olur, dənli bitkilər və meyvə becərirlər. 1991-ci il

müharibəsinə qədər dünyada xurma istehsalının 80%-ni İraq verirdi. Ölkənin cənubunda Dəclə və Fərat çaylarının birləşməsindən əmələ gələn Şətt-ül-Ərəb çayının ətrafında qamışlıqdan ibarət bataqlıqlaşmış ərazilər yerləşir. Burada yaşayan "bataqlıq" (göl) ərəbləri ovçuluq və balıqçılıqla məşğul olurlar. İraqda neft 1927-ci ildə tapılmış, 1945-ci ildən geniş miqyasda çıxarılmasına başlanmışdır. 1990-cı ilə qədər İraq neft çıxarılmasına görə dünyada üçüncü yeri tuturdu. Neft ixracatından dövlətin əldə etdiyi böyük maliyyə vəsaitləri ölkənin iqtisadiyyatının yenidən qurulmsına və dinamik artımına imkan verirdi. 1980-ci ildə İraq İrana qarşı müharibəyə başladı. 1988-ci ildə atəşkəsin elan edilməsi haqqında sülh müqaviləsi bağlandı. 300 min nəfərdən çox iraqlı həlak oldu, təsərrüfat xeyli dərəcədə dağıdıldı. Küveytlə mübahisəli neft yataqları haqqında danışıqlar uğursuz başa çatdıqdan sonra Səddam Hüseyn bu ölkəyə qarşı müharibəyə başladı. 1990-cı ilin avqustunda İraq ordusu Küveytə soxuldu. 1991-ci ilin yanvarında ABŞ və onun müttəfiqləri İraqa qarşı kütləvi aviazərbələr endirdilər. Yerüstü əməliyyatlar prosesində Küveyt İraqın işğalından azad edildi, İraqın bir hissəsi tutuldu. Neftin ixracına yalnız 1996-cı ildə "Ərzaq əvəzinə neft" proqramı çərçivəsində, yəni az miqdarda BMT-nin nəzarəti altında icazə verildi. 2003-cü ilin martında ABŞ başda olmaqla beynəlxalq koalisiya qüvvələri İraqı işğal etdi. Dörd həftə davam edən döyüşlərdən sonra onlar ölkənin çox hissəsini tutdular. Səddam Hüseyni devirdilər, edam etdilər.

Səudiyyə Ərəbistanı Krallığı

Sahəsi: 2149690 km²
Əhalisi: 29,2 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 13,6 nəfər/km²
Paytaxtı: Ər-Riyad (4,55 mln. nəfər)
Əsas dil: ərəb.
Dini etiqad: islam (sünni təriqəti)
Pul vahidi: rial
Dövlət quruluşu: mütləq monarxiya

Səudiyyə Ərəbistanı Ərəbistan yarımadasının əsas hissəsini tutur, İran körfəzi hövzəsində ən böyük və zəngin ölkədir. Avropa, Asiya və Afrikanı birləşdirən yolların üzərində yerləşməsi, Dünya okeanına birbaşa çıxışının olması (İran körfəzi və Qırmızı dəniz vasitəsilə) onun əlverişli iqtisadi-coğrafi mövqeyini müəyyən edir.

Səudiyyə Ərəbistanı yeddi ölkə ilə həmsərhəddir, Bəhreyn ilə körpü vasitəsilə birləşmişdir. Uzunluğu 2640 km olan dəniz sərhəddinin 1760 km-i Qırmızı dənizdə, qalanı isə İran körfəzindədir. Qırmızı dənizin sahilləri boyu eni 15 km-dən 65 km-ə qədər düzənlik, onun ardınca isə paralel uzanan sıra dağlar mövcuddur. Dağlar şimaldan cənuba doğru yüksəlir, cənubda ölkənin ən yüksək zirvəsi Səid dağı (3133 m) yerləşir. Şimal-şərq hissəni maksimal hündürlüyü 1800 m-ə çatan geniş yayla tutur, İran körfəzinə doğru getdikcə hündürlük azalır. Cənubda və cənub-şərqdə dünyanın ən böyük qumlu səhrası olan Rub-əl-Xali yerləşir. Burada illərlə yağıntı düşmür. Səudiyyə Ərəbistanının iqlimi isti və qurudur. Yayda temperatur gündüz 50°C-yə qədər yüksələ bilir. Buna baxmayaraq gecələr hava sərin keçir, qışda hətta şaxtalar olur. Yağıntı çox az düşür.

Ər-Riyad dünyanın ən müasir şəhərlərindən biridir

Ölkənin paytaxtı Ər-Riyadda ildə cəmi 85 mm yağıntı olur. Lakin Əsir dağlarında yağıntı bundan üç-dörd dəfə çox qeydə alınır. Səudiyyə Ərəbistanında daimi çay və göllər yoxdur. Kənd təsərrüfatında heyvandarlığın ənənəvi sahələri olan dəvə, qoyun, keçi, eşşək və at saxlanılır. Köçəri bədəvilər mal-qara sürüləri ilə bir otlaqdan digərinə gedirlər. Əkinçilik üçün yararlı (münbit) torpaqlar yalnız ölkənin cənub-qərbindəki Əsir dağları regionunda və şimalda səpələnmiş vahələrdə vardır. İrriqasiyanın müasir üsullarının tətbiqi sayəsində əkinçilik dinamik inkişaf edən sahəyə çevrilmişdir. Dəniz suyu geniş miqyasda sənaye üsulu ilə şirinləşdirilərək böyük ərazilər suvarılır. Suvarma dairəvi fırlanan qurğularla aparıldığından səhranın ortasında dairəvi əkinlər yayılmışdır. Əsas mədəni bitkilərə buğda, arpa, xurma, meyvə-tərəvəz və hətta bostan bitkiləri aiddir. Səudiyyə Ərəbistanında ilk neft 1936-cı ildə tapılmışdır. 2008-ci ildən ölkədə gündə 9,8 mln. barrel neft çıxarılmışdır. Bu yanacaq xammalının dünya üzrə ehtiyatlarının 22%-i Səudiyyə Ərəbistanının payına düşür. Neftin ixrac məhsulları arasında payı 97% təşkil edir. Neft yataqları əsasən ölkənin şərqində, İran körfəzi sahillərində və şelf zonasında yayılmışdır. Hasil edilən neft ümumi uzunluğu 17 min km olan boru kəmərləri ilə liman şəhərlərinə göndərilir, oradan da ixrac olunur. Neft gəlirlər neft-kimya, metal emalı və əczaçılıq kimi sənaye sahələrinin yaradılmasına yönəldilmişdir. Səudiyyə Ərəbistanı OPEK təşkilatında aparıcı yer tutur. Belə mövqe ölkəyə bir çox beynəlxalq problemlərin həllinə təsir göstərmək imkanı verir. Səudiyyə Ərəbistanı Krallığı XX əsrin əvvəllərində Əmir Əbdül Əziz əs-Səidin (1880-1953) ərəb əmirliklərinin birləşdirilməsi uğrunda mübarizəyə başladığı dövrdə yaranmışdır. 1932-ci ildə Əbdül Əziz əs-Səidin Şahzadə olduğu Səudiyyə Ərəbistanı Krallığının yaradılması elan edildi. Şahzadənin ölümündən sonra onun mütləq hakimiyyəti miras olaraq oğullarına keçdi. 1993-cü ildə Şahzadə Fəhd 60 nəfərdən ibarət Məşvərət Şurası təsis etdi. Ölkənin bölündüyü 13 quberniyanın başçısına böyük səlahiyyətlər verildi. Ölkədə heç bir siyasi partiya yoxdur, mətbuat ciddi nəzarətdə saxlanılır. Sitayiş edənlərin sayına görə dünyada ikinci din olan İslam Səudiyyə Ərəbistanı ərazisində yaranmışdır. İslam dininin yaradıcısı Məhəmməd Peyğəmbər (s) (570-632) Qırmızı dəniz sahilindəki Ciddə limanından 70 km aralı yerləşən Məkkə şəhərində anadan olmuşdur. Allahın hökmü ilə hərəkət etdiyinə əmin olan Məhəmməd Peyğəmbər (s) insanlara yeni dinin yaranmasını elan etdi. Lakin 622-ci ildə o, doğma şəhəri Məkkədən 340 km şimalda yerləşən Mədinə şəhərinə köçməyə məcbur olur. Burada müsəlman birliyi yaradılır. Müsəlmanlar hicri tarixinin başlanmasını Məhəmməd Peyğəmbərin (s) bu köçməsindən hesablayırlar. 630-cu ildə müsəlmanlar zəfərlə yenidən Məkkəyə qayıdır. O, vaxtdan bura müqəddəs şəhər hesab olunur. Məkkəyə Həcc ziyarətinə gələnlər və Əl-Məscid-Əl-Hərəmi ziyarət edir. Məscidin həyətində Kəbə yerləşir, onun daxilində müqəddəs qara daş dayanır. Kəbənin özülü 10×12 m, hündürlüyü 15 m-dir. Hər il 2 milyona yaxın zəvvar Məkkəyə həcc ziyarətinə gedir. Həcc zamanı ziyarətçilər Məhəmməd Peyğəmbərin (s) dəfn edildiyi, Mədinə şəhərində olan Peyğəmbər məscidini də ziyarət edirlər.

Küveyt Əmirliyi

Sahəsi: 17818 km²
Əhalisi: 3,08 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 174 nəfər/km²
Paytaxtı: Əl-Küveyt (1290 min nəfər)
Əsas dil: ərəb
Dini etiqad: islam (sünnilər 70% və şiələr 30%)
Pul vahidi: dinar
Dövlət quruluşu: konstitusiyalı monarxiya

Küveyt əmirin başçılığı ilə idarə olunan kiçik ərəb dövlətidir. Neftin hasilatından əldə olunan gəlirlər ölkənin çiçəklənməsini və əhalinin həyat səviyyəsinin yüksəldilməsini təmin etmişdir. Küveytdə 800 min nəfər yerli əhali, 1,5 mln. nəfər müqavilə ilə işləyən xarici miqrant yaşayır.

Küveyt İran körfəzinin şimal sahilində yerləşir. Onun ərazisinə əksəriyyətində yaşayış olmayan bir neçə ada daxildir. Ölkənin landşaftı hamar düzənliklərdən ibarətdir. Küveytin şimal yarısında daşlı səhralar, cənubda isə üzərində dyunlar olan qumlu səhralar yerləşir. Ölkənin ən hündür yeri (289 m) Səudiyyə Ərəbistanı və İraqla sərhəddə yüksəlir. Yanvarda orta temperatur 13°C, iyulda 37°C-dir. Əl-Küveytdə illik yağıntıların miqdarı 100-125 mm-dir. Şirin suya olan tələbatı dəniz suyunu sənaye üsulu ilə şirinləşdirən qurğular vasitəsi ilə ödənilir. Məhsuldar torpaqlar faktiki olaraq yox-

Əl-Küveyt şəhəri

dur. Paytaxtdan 50 km qərbdə yerləşən Əl-Cəhrə vahəsində əkinçiliyə yararlı torpaqlar vardır. Qalan təbii bitki arealları şimal-şərqdə və bəzi sahilboyu şoranlaşmış bataqlıqlarda səpələnmişdir. Şəhərlərdə yaşıllıqlar salınması üçün xaricdən gətirilən torpaqlardan istifadə olunur. Yeyinti sənayesinin yeganə sahəsi balıqçılıqdır. Xərçəng (krevet) ovu daha çox gəlir gətirir. Küveytdə yerin təki dünya əhəmiyyətli neft və qaz ehtiyatları ilə zəngindir, ölkə dünya neft ehtiyatının 10%-nə malikdir. 2009-cu ildə gündə 2,3 milyon barrel neft çıxarılmışdır. İraq müharibə zamanı neft hasilatı və neft emalı müəssisələrinin xeyli hissəsini məhv etmiş və 700 neft quyusunu yandırmışdır. Bu yanğınlar ətraf mühitə böyük zərbə vurdu. Müharibədən sonra Küveyt beynəlxalq koalisiyanın hərbi xərclərini kompensasiya etdi, silahlı qüvvələrini möhkəmləndirmək üçün böyük məbləğlər sərf etdi. Artıq 1993-cü ildə neftin ixracından əldə edilən gəlirlər müharibədən əvvəlki səviyyəyə çatmışdır.

Bəhreyn Krallığı

Sahəsi: 716 km²
Əhalisi: 1,3 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 1815 nəfər/km²
Paytaxtı: Manama (290 min nəfər)
Əsas dillər: ərəb
Dini etiqad: islam (75% şiələr, 25% sünnilər)
Pul vahidi: dinar
Dövlət quruluşu: mütləq monarxiya



İran körfəzində kiçik arxipelaqı tutan Bəhreyn Krallığı Qətər və Səudiyyə Ərəbistanı arasında yerləşir.



Bəhreyn arxipelaqında yerləşən adalar böyük deyildir. Ən böyük olan Bəhreyn adasının uzunluğu cəmi 48 km-dir. Onun ərazisi torpaq bəndlərlə Səudiyyə Ərəbistanı ilə, yaxınlıqdakı Mühərrək və Sitra adaları ilə birləşdirilmişdir. Onlardan birində beynəlxalq aeroport yerləşir. Adaların iqlimi isti və quraqdır, tropikdən subtropikə keçid tipidir. İl ərzində 100 mm-dən az yağıntı düşür. Yanvarın orta temperaturu 16°C, iyul-avqustda 37°C-dən çoxdur. Xaricdən gətirilmiş torpaqlar, suvarma və drenaj tətbiq etməklə müəyyən miqdarda meyvə-tərəvəz becərilir. 1861-ci ildən adalar Böyük Britaniyanın protektorluğunda olmuşdur. Bəhreyn 1971-ci ildə tam müstəqillik əldə etmişdir. Ölkə İran körfəzində böyük həcmdə neft çıxaran ilk dövlətdir. Hazırda neftin ehtiyatları çox azalmış və yaxın 10-20 ilə qədər tükənə bilər. Ölkədə neft emalı, neft-kimya, alüminium, kimyəvi preparatlar və plastik kütlə istehsal edən müəssisələr yaradılmışdır, okean gəmiləri təmir olunur. Balıq tutulur, krevet ovlanır, mirvari toplanır. Bir çox sakin inkişaf edən sığorta və bank işi sahələri ilə məşğul olur. Ölkədə dini qanunlar çox ciddi olmadığından qonşu Səudiyyə Ərəbistanının sakinləri əylənmək üçün bura gəlir.

Qətər Əmirliyi

Sahəsi: 11427 km²
Əhalisi: 1,7 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 148,8 nəfər/km²
Paytaxtı: Doha (723 min nəfər)
Əsas dil: ərəb (40%)
Dini etiqad: islam (sünni təriqəti)
Pul vahidi: rial
Dövlət quruluşu: mütləq monarxiya

BƏƏ və Səudiyyə Ərəbistanı ilə həmsərhəd olan Qətər Əmirliyi İran körfəzinə doğru irəliləmiş yarımadada yerləşir.



Qətərin ərazisinin böyük hissəsi qumlu səhralardır, qərb sahillərində alçaq təpələr vardır. İsti və quru səhra iqlimi şəraitində temperatur 12°C-dən 35°C-yə qədərdir. Noya-

brdan may ayına qədər düşən yağıntının orta illik miqdarı 100 mm-dən çox olmur. Ölkədə şirin suya olan tələbatı ödəmək üçün artezian quyuları və kəhrizlər qazılır. Lakin ölkə dəniz suyunun şirinləşdirilməsindən asılıdır. Qətərdə neft ehtiyatı nisbətən az olsa da, təbii qaz ehtiyatına görə dünyada üçüncü yeri tutur. Əkinçilik üçün istifadəyə yararlı torpaqlar az olsa da, suvarma şəraitində tərəvəz və qarpız becərilir. Kənd təsərrüfatı məhsulları əhalinin ərzağa olan tələbatının yalnız 10%-ni ödəyir. Təsərrüfatın mühüm sahəsi balıqçılıqdır. İldə 50 min ton balıq ovlanır. Dövlət təsərrüfatın neftdən asılılığını azaltmaq üçün balıqşılıq və kənd təsərrüfatının inkişafına dəstək verir. Əhalinin ənənəvi məşğuliyyət sahələrindən biri də mirvari toplanmasıdır. Neft emalı, gübrə, sement, polad istehsalı, təbii qaz sıxılması müəssisələri vardır. Əmirliyin hər beş sakinindən yalnız biri Qətərdə doğulmuşdur. Neft hasilatının inkişafı xarici ölkələrdən, xüsusilə də İran, Pakistan və Hindistandan işçi qüvvəsinin axınına imkan vermişdir. Qətərin yerli sakinləri bədəvilərdir. Əhalinin 80%-dən çoxu şəhərlərdə yaşayır. Qətər irsən keçən monarxiya quruluşuna malikdir. Dövlətin başçısı əl-Tani sülaləsindən olan əmirdir. Neft və qazın satışından əldə olunan gəlirlər hesabına Qətər zəngin dövlətə çevrilmişdir. Ölkədə vətəndaşlar gəlir vergisindən azad etmişdir, pulsuz təhsil və tibbi xidmət alırlar. Xarici ölkələrdə, xüsusilə ABŞ-da təhsil almaq üçün dövlət maliyyə vəsaiti ayırır.

Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ)

Sahəsi: 83600 km²
Əhalisi: 5,7 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 64,6 nəfər/km²
Paytaxtı: Əbu-Dabi (578 min nəfər)
Əsas dillər: ərəb, ingilis
Dini etiqad: islam (sünnilər 85%, şiə təriqəti 11%)
Pul vahidi: dirhəm
Dövlət quruluşu: federativ monarxiya (əmirliklər birliyi)

BƏƏ yeddi əmirliyin federasiyasıdır. İran körfəzinin sahillərində yerləşən bu ölkənin ərazisini qumlu səhralar tutur.

BƏƏ-nin landşaftı orta hündürlüyü 150 m-ə olan qədər hamar düzənliklərdən ibarətdir. Ölkənin şərqində, Oman ilə sərhəddə ayrı-ayrı zirvələri 1527 m-ə çatan dağlar yerləşir. Uzunluğu 1318 km-ə çatan sahil xəttlərinin əsas hissəsi İran körfəzinin payına düşür, az sahədə Oman körfəzinə çıxış vardır. Oman İran körfəzinə nisbətən daha dərin və balıq ehtiyatları ilə daha zəngindir. Bu, balıqçılığın inkişafına zəmin yaratmışdır. 2009-cu ildə 90 min ton balıq ovlanmışdır. BƏƏ-də quru tropik iqlim hakimdir. Yağıntıların illik miqdarı 50 mm-dən azdır, dağlarda isə 150-300 mm-ə qədər artır. Dubayda yanvarın orta temperaturu 19°C, iyulda 33°C-dir. Belə şəraitdə yalnız suvarma tətbiq etməklə əkinçilik mümkündür. BƏƏ 1971-ci ildə yeddi əmirliyin (Əbu-Dabi, Dubay, Şərcə, Əcmən, Ümm-əl-Kayvayn, Ras-əl-Hayma və Fücəyrə) federasiyası kimi yaradılmışdır. B.Britaniya qoşunlarının regiondan çıxarılmasına qədər ölkə Müqaviləli Oman adlanırdı. Əbu-Dabi əmirliyi ölkə ərazisinin 87%-ni tutur. Onun paytaxtı olan Əbu-Dabi həm

Okeanda yaradılmış "Palma" adası

də BƏƏ-nin paytaxtıdır. Sənaye müəssisələri əsasən Əbu-Dabi, Dubay, Əcmən və Şərcə şəhərlərində yerləşir. Şərcə şəhəri əhalisinin sayına görə ölkədə üçüncü yeri tutur. 1968-ci ildən sonra şəhər əhalisinin sayı xarici fəhlələr hesabına 25 dəfə artmışdır. Burada azad iqtisadi zona yaradılması ticarətin inkişafına imkan vermişdir. Neft hasilatı və emalı BƏƏ-nin təsərrüfatının əsasını təşkil edir. BƏƏ-də Yerin təkində dünyanın neft ehtiyatlarının 8%-i cəmlənir, sutkalıq hasilat 3,0 milyon barrel təşkil edir. Dubaydan 30 km cənubda dünyada ən böyük süni hava (liman) yaradılmışdır. Burada İran körfəzinin Ərəb ölkələri sahillərində ən böyük liman tikilmişdir. BƏƏ-də neftdən gələn vəsaitlər hesabına təsərrüfatın digər sahələri inkişaf etdirilir. Ölkədə neft emal olunur, alüminium, gübrə, sement istehsal edilir, turizm sənayesi və xidmət sahələri genişləndirilir, yüksək keyfiyyətli nəqliyyat şəbəkəsi yaradılır.

Oman Sultanlığı

Sahəsi: 309500 km²
Əhalisi: 3,1 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 10 nəfər/km²
Paytaxtı: Məsqət (829 min nəfər)
Əsas dil: ərəb
Dini etiqad: islam (75% müsəlman-ibaditlər)
Pul vahidi: rial
Dövlət quruluşu: mütləq monarxiya

Oman İran körfəzinə girişdə strateji mövqe tutur. Böyük neft ehtiyatının olmasına baxmayaraq Oman regionda zəif inkişaf etmiş ölkələrdən biridir. Ölkənin ərazisinə Hörmüz boğazında anklav ərazi olan Musandam yarımadası da daxildir. Oman orta əsrlərin siyasi sistemi əsasında idarə olunur.



Omanın 3/4 hissəsini səthi düzənlik olan səhralar tutur. Şimalda, Oman körfəzinin sahili boyu uzanan ensiz ovalığa hündürlüyü 3000 m-dən çox olan dağlar birləşir. Ərəbistan dənizinin sahili boyunca uzanan ensiz düzənlik daxildə yerləşən səhralardan təpələrlə ayrılır. Ölkənin dəniz sərhədlərinin uzunluğu 2092 km-dir. Burada dərin fyordlar, qumlu çimərliklər, mənqr pöhrəlikləri olan laqunlar, mərcan rifləri, qayalıqlar insanı özünə cəlb edir. İqlimi isti və qurudur, yağıntıların illik miqdarı 110 mm-dən çox deyil. Əsasən qışda və yayın əvvəlidə düşür, əkinçilik isə zəif inkişaf etmişdir. Sahillərdə iqlim rütubətlidir. Orta illik temperatur 28°C-

dir. Suvarma tətbiq etməklə əsasən, sitrus meyvələri, buğda, ixrac üçün limon və xurma becərilir. Balıqçılıq mühüm sahədir, sahilboyu kiçik kəndlərdə yaşayanlar üçün bu sahənin əhəmiyyəti daha çoxdur. Ölkəni idarə edən Sultan hökuməti və yerli nümayəndələrin şurasını təyin edir. Ölkədə siyasi partiyalar və qanunverici orqan yoxdur. Neft emalı, kimya, yeyinti, sement istehsalı sahələri vardır. Təsərrüfatın əsas sahəsini ehtiyatları 1964-cü ildə müəyyən edilən neft təşkil edir. 1967-ci ildən onun sənaye üsulu ilə hasilatı aparılır. Əldə olunan gəlirlər əsasında müasir infrastruktur və xidmət sahələri yaradılır.

Yəmən Respublikası

Sahəsi: 527970 km²
Əhalisi: 23,6 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 44,7 nəfər/km²
Paytaxtı: Sənа (1708 min nəfər)
Əsas dil: ərəb
Dini etiqad: islam (sünni təriqəti 53%)
Pul vahidi: rial
Dövlət quruluşu: respublika

Yəmən Ərəbistan yarımadasının quraq cənub-qərb kənarında, dağlıq ərazidə yerləşir. 1990-cı ildə yaradılan Yəmən regionda ən gənc dövlətdir. Neft-qaz ehtiyatları az olduğuna görə ətraf ölkələrdən inkişafına görə geri qalır.

Yəmən şimalda Səudiyyə Ərəbistanı, şərqdə Oman ilə həmsərhəddir. 1992-2000-ci illərdə çoxillik mübahisələrdən sonra bu ölkələrlə sərhədlər müəyyən edilmişdir. Yəmənə bir neçə ada daxildir, onlardan ən böyüyü 3579 km² sahəsi olan Sokotra adasıdır. Əlverişli strateji mövqeyinə görə Yəmənin ərazisi qədim dövrlərdən məskunlaşmışdır. Ölkənin əsas limanı və ən böyük şəhərlərindən biri olan Ədən hələ 2 min il əvvəl regionda ən mühüm ticarət mərkəzi olmuşdur. Ölkənin landşaftı müxtəlifdir. Qırmızı dəniz sahilindəki yarımsəhra düzənliklər dərin vadiləri olan dağlar və yaylalarla əvəz olunur. Şərq rayonlarını tutan alçaq yaylalar Rub-əl-Xali səhrasına qədər uzanır. Yanvarın orta temperaturu 20°-25°C, iyulda 21°-32°C-dir. Regionda yağıntının miqdarı müxtəlifdir, cənub sahillərində onlar il ərzində 100 mm-dən az olduğu halda, qərbin dağlıq ərazilərdə 750 mm-ə qədər artır. Ölkənin ən rütubətli rayonlarında əhali daha sıx məskunlaşır. Burada ölkənin paytaxtı və ən böyük şəhəri Sənа, digər böyük şəhərlər olan İbb və Taiz yerləşir.

Yəmən əhalisinin çox hissəsi ənənəvi tayfa birliyini saxlayan müsəlman-ərəblərdir. Əksər kişilər keçmişdə olduğu kimi qurşaqda xəncər (cambiya) gəzdirir. Ölkədə kənd əhalisinin payı 75%-dir. Bu, Ərəb dünyasında ən yüksək göstəricilərdən biridir. Taxıl, sitrus bitkiləri və xurma becərilir. Dağların yamacı boyu salınmış terras əkinçiliyi qədim ənənəyə malikdir. Burada taxıl, son vaxtlarda pomidor və digər tərəvəz növləri becərilir. Yəmən 1200 ildir mokko qəhvəsi ixrac edən ölkə olaraq qalır. Onun əsas ixrac məhsulu olan neft valyuta gəlirinin əsas hissəsini verir. Neft və təbii qaz hasilatı təsərrüfatın inkişafında və əhalinin həyat səviyyəsinin yüksəlməsində mühüm əhəmiyyətə malikdir. Digər sahələrə neft emalı, toxuculuq, əczaçılıq, yeyinti, ayaqqabı, sement istehsalı sahələri aiddir. Bununla belə, Yəmənin təsərrüfatı xarici ölkələrdən olan köməkdən çox asılıdır. Yəmən Respublikası 1990-cı ildə Yəmən Ərəb Respublikası (Şimali Yəmən) və Yəmən Xalq Demokratik Respublikasının (Cənubi Yəmən) birləşməsi nəticəsində yaranmışdır. Bir il sonra yeni dövlət Küveyt böhranı zamanı İraqı dəstəklədi. Səudiyyə Ərəbistanı və Küveyt cavab olaraq yəmənli fəhlələri ölkələrindən qovdular. Bu da ölkə təsərrüfatına böyük zərbə vurdu və işsizlik 30%-ə çatdı. Siyasi vəziyyət şimal və cənub əhalisinin qarşıdurması ilə gərginləşirdi və nəticədə 1994-cü ildə başlanan vətəndaş müharibəsi cənubluların məğlubiyyəti ilə başa çatdı.

Türkiyə Respublikası

Sahəsi: 779452 km²
Əhalisi: 73,6 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 94,4 nəfər/km²
Paytaxtı: Ankara (4,3 mln. nəfər)
Əsas dil: türk
Dini etiqad: islam (sünni təriqəti, 99%)
Pul vahidi: Türkiyə lirəsi
Dövlət quruluşu: respublika

Türkiyə Cənubi Avropa və Asiyanı birləşdirir. Geniş ərazisi malik olan ölkənin çox hissəsini yüksək dağlar tutur, üç tərəfdən dənizlə əhatə olunduğuna görə uzun məsafədə sahil xətlərinə malikdir. Türkiyə çoxəsrlik tarixə malik olan imperiyanın varisidir. 1918-ci ildə Osmanlı imperiyasının süqutundan sonra B.Britaniya, Fransa və digər ölkələrin qoşunlarına qarşı M.Kamalın (Atatürk) başçılığı ilə aparılan qanlı mübarizədən sonra 29 oktyabr 1923-cü ildə Türkiyə Respublikası yaranmışdır. Bu, xalqın milli liderinin başçılığı ilə dövlətin müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizəsinin şanlı tarix səhifəsidir.

Türkiyənin ərazisinin 97%-i Asiyada yerləşir. Bu ərazilər Kiçik Asiya və ya Anadolu adlanır. Qalan Avropaya aid olan hissə Frakiya adlanır. Ölkənin az bir hissəsi Avropada yerləşsə də Avropanın siyasi həyatında, beynəlxalq və regional təşkilatların fəaliyyətində yaxından iştirak edir, Avropa İttifaqına daxil olmaq üçün müraciət etmişdir. Türkiyə kəskin parçalanmış relyefə malik olan dağlıq ölkədir. Onun ərazisinin 80%-nin dəniz səviyyəsindən hündürlüyü 500 m-dən çoxdur, bütün ərazi Alp-Himalay dağlıq qurşağına daxildir. Ölkə ən böyük tektonik qırılmalarda yerləşdiyinə görə tez-tez güclü zəlzələlər baş verir. Şimalda Qara dənizin sahilləri boyu hündürlüyü 3937 m olan Pont dağları uzanır. Ölkənin cənubunda Tavr (Toros) dağları yüksəlir, maksimum yüksəklik 3726 m-ə çatır. Dağlar əhəngdaşılardan təşkil olunduğuna görə burada, çoxsaylı yeraltı mağaralar, dərin dərələr yaranmışdır. Onların sahilboyu yamacları meşələrlə örtülmüşdür. Ölkənin qərbində və mərkəzində geniş ərazi tutan Anadolu yaylası yerləşir, şərqdə Ermənistan yaylasının bir hissəsi Türkiyə ərazisinə keçir, burada ölkənin ən yüksək zirvəsi olan Ağrıdağ (5137) yüksəlir. Bu ərazilərdə ölkənin ən böyük su hövzəsi olan Van gölü yerləşir ki, sahəsi 3713 km²-dir. Sahilboyu ərazilərdə ovalıqlar vardır. Türkiyənin şimal sahilləri Qara dənizin uzunluğu 1595 km olan sahilləri boyu keçir. Cənub və qərb sahillərini Aralıq və Egey dənizlərinin suları yuyur. Egey

Pamukqalada əhəngdaşlı terraslar

dənizinin sahilləri həddən artıq parçalanmışdır. Burada ölkənin sahillərində olan 159 adadan çoxu yerləşir. Şimal-qərbdə olan Mərmərə dənizi Bosfor boğazı ilə Qara dənizə, Dardanel boğazı ilə Egey dənizinə birləşir. Dənizin sahəsi 11,14 min km²-dir, ölkənin Avropa və Asiya hissəsi arasında yerləşir. İqlim şəraiti mütləq yüksəklikdən və dənizlərdən olan məsafədən asılıdır. Qara dəniz sahili vilayətlərdə yay isti keçir, qış yüksək rütubətliyi ilə fərqlənir (yağıntı 3000 mm), güclü leysan yağışları yağır, yumşaq keçir. Digər sahilboyu ərazilərdə də yay isti olsa da, nisbətən quraqdır, yağıntılar əsasən qışda düşür. Daxili rayonlarda quru, kontinental iqlim yaranır (300-900 mm). Yanvarın orta temperaturu 5°C-dən 15°C-yə qədər, iyulda 15°-32°C, qərb sahillərində 16°C-dən 25°C-yə qədərdir. Taxıl, pambıq, zeytun, uzum, tütün, meyvə-tərəvəz əkilir. Bu məhsullar ölkənin ərzağa olan tələbatını ödəyir. Əmək qabiliyyətli əhalinin 29%-i kənd təsərrüfatında çalışır. Türkiyə mineral ehtiyatlarla, o cümlədən kömür, xrom, polimetal filizləri ilə zəngindir. Elektrik enerjisinin 2/3 hissəsini SES-lər verir. Sənayedə toxuculuq, tikiş, kimya əczaçılıq, yeyinti, maşınqayırma sahələri vardır. Türkiyədən tarix boyu ticarət yolları keçmişdir. Kiçik Asiya tarixdə bir çox sivilizasiyaların, o cümlədən xett, friqi və lidiya mədəniyyətinin beşiyi olmuş, sonradan farslar, yunanlar, romalılar, ərəblər, IX-X əsrlərdən sonra səlcuq türklərinin hakimiyyətinə keçmişdir. Müasir türklər Mərkəzi Asiyadan gələn türkdilli xalqların yerli əhali ilə qarışması nəticəsində formalaşmışdır. Onlar əhalinin 80%-ni təşkil edir, 12 mln. nəfər kürd yaşayır.

Gürcüstan Respublikası

Sahəsi: 69492 km²
Əhalisi: 4632 min nəfər (2010)
Əhalinin sıxlığı: 67 nəfər/km²
Paytaxtı: Tbilisi (1,5 mln. nəfər)
Əsas dillər: gürcü, rus, türk
Dini etiqad: provoslav, islam (şiə təriqəti, 11%)
Pul vahidi: lari
Dövlət quruluşu: respublika



Gürcüstan SSRİ-nin dağılmasından sonra müstəqil olan respublikalardan biridir. Onun Qara dənizə çıxışı vardır, ərazisinin çox hissəsini dağlar tutur. Tərkibində olan Abxaziya və Cənubi Osetiya özünü müstəqil elan etdikdən sonra Gürcüstan postsovet məkanının qaynar nöqtələrindən birinə çevrilmişdir. Rusiya ilə gərgin siyasi münasibətlər yarandığına görə MDB-yə üzvlükdən çıxmışdır.

Ölkənin şimalda Rusiya ilə olan dövlət sərhədləri Baş Qafqaz silsiləsinin suayrıcı xətti üzrə keçir. Burada Qafqazın hündürlüyünə görə üçüncü zirvəsi olan Şxara dağı (5068 m) yüksəlir. Cənubda Türkiyə və Ermənistan ilə sərhədləri Kiçik Qafqaz dağlarından keçir. Dağ silsilələri arasında qərbdə Kolxida ovalığı, şərqdə Kartli düzənliyi və Alazan vadisi yerləşir. Gürcüstanın Qara dəniz sahili əraziləri (Kolxida ovalığı) əvvəllər bataqlıq olmuşdur. Hazırda məhsuldar əkin sahələrinə çevrilmişdir. Tbilisidə

yanvarın orta temperaturu 3°C, iyulda 25°C-dir. İldə 500 mm yağıntı düşür. Regionun isti və rütubətli subtropik iqlimi sitrus bitkiləri, çay, tütün, üzüm becərilməsinə imkan verir. Gürcüstanın şərqində iqlim kontinentaldır, qış quru keçir, yağıntılar az olur. Qafqazın yüksək zirvələrinin çoxu daimi qar və buzlaqlarla örtülür. Nisbətən alçaq hissələrdə tozağacı, fıstıq və palıd ağaclarından ibarət meşələr yayılır. Onlar ölkə ərazisinin 40%-ni örtür. Dağların geniş ərazi tutmasına baxmayaraq, tarixən buradan qədim ticarət yolları keçmişdir. Tarixi keçmiş burada əhalinin çoxmilli tərkibinin formalaşmasına səbəb olmuşdur. Əhalinin 70%-ni gürcülər təşkil edir, qalan hissəyə 100-dən çox millətin nümayəndəsi daxildir. Onlar arasında türklər (5,7%), ermənilər (6%), abxazlar, acarlar, osetinlərin sayı çoxdur. Əhalinin çox hissəsi yoxsul yaşayır. Aparılan islahatlar, Qərb ölkələri ilə əlaqələrin nizamlanması, nəqliyyat-kommunukasiya xətlərinin onun ərazisindən keçməsi iqtisadi inkişafa imkan verir.

Ermənistan Respublikası

Sahəsi: 29743 km²
Əhalisi: 3238 min nəfər (2010)
Əhalinin sıxlığı: 108,9 nəfər/km²
Paytaxtı: Yerevan (1, 4 mln. nəfər)
Əsas dil: erməni
Dini etiqad: xristianlıq
Pul vahidi: dram
Dövlət quruluşu: respublika

Ermənistan SSRİ-nin süqutundan sonra yaranmışdır. O, Asiyada kəskin parçalanmış relyefə malik dağlıq ölkələrdən biridir, dəniz səviyyəsindən orta hündürlüyü 1800 m-ə yaxındır.

Ölkədə yüksək dağların arasında vadilər yerləşir. Dağlardan axan çoxsaylı çaylar hid-

roenerji ehtiyatları ilə zəngindir. Ermənistanda çoxlu dağ gölləri, şəlalələr vardır. Ölkənin ən böyük gölü olan Sevan (Göyçə) Kiçik Qafqaz dağlarında yerləşir, 940 km² sahəyə malikdir, ölkənin şirin su ehtiyatlarının 85%-ni özündə toplayır. Fəal seysmik zonada yerləşən Ermənistanda 1988-ci ildə baş verən zəlzələ təsərrüfata ciddi ziyan vurmuş, ölkənin ikinci böyük şəhəri olan Gümrünü dağıtmışdır. İqlim kontinentaldır, Yerevanda yanvarın orta temperaturu 7°C, iyulda 27°C-dir, 400 mm-dən 2500 mm-ə qədər yağıntı düşür. Əvvəllər inkişaf etmiş maşınqayırma, kimya, toxuculuq, yeyinti sənayesinə malik olan ölkədə hazırda sənaye durğun vəziyyətdədir. Kənd təsərrüfatında kartof, arpa, buğda, tütün, meyvə-tərəvəz, üzüm, yem bitkiləri becərilir. Azərbaycanın ərazisinin bir hissəsini işğal etməsi ətraf ölkələrlə əlaqələrə mənfi təsir edir. Hazırda dünyanın monoetnik ölkələrindən biridir. Əhalinin 96%-ni ermənilər təşkil edir. Xaricdə yaşayan ermənilər ölkə əhalisinə nisbətən daha çoxdur.

İran İslam Respublikası

Sahəsi: 1641918 km²
Əhalisi: 75,1 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 45,7 nəfər/km²
Paytaxtı: Tehran (13,4 mln. nəfər, 2006)
Əsas dil: fars, türk, kürd
Dini etiqad: islam (şiə təriqəti)
Pul vahidi: rial
Dövlət quruluşu: islam respublikası

İran eyni adlı körfəzin sahilində əhalisinin sayına görə birinci, ərazisinin böyüklüyünə görə ikinci dövlətdir. O, çox böyük neft və təbii qaz ehtiyatlarına malikdir, zəngin tarixi keçmişi vardır, geniş ərazisi milli-etnik tərkibinin müxtəlifliyinə səbəb olur. Əhalinin 50%-ni farslar, 35%-ni azəri türkləri təşkil edir. Artıq 200 ilə yaxındır ki, Azərbaycanın bir hissəsi İranın əsarəti altındadır, millət və Vətən ikiyə bölünmüş olaraq qalır.

İran quruda yeddi dövlət ilə həmsərhəddir, uzun su sərhədlərinə malikdir. Onun sahillərini Xəzər dənizinin, İran və Oman körfəzlərinin suları yuyur. İranın landşaftının başlıca xüsusiyyəti ərazisində böyük dağ silsilələri və yaylanın olmasıdır. Qərbdə Zaqros və Kuxrud dağları, şərqdə intensiv parçalanmış Şərqi İran dağları, şimalda Elburs dağlarının zirvələri və Kopetdağ, cənubda Makran dağları yüksəlir. Ölkənin ən yüksək nöqtəsi Elburs dağlarında olan Dəmavənd dağıdır (5604 m). Ölkənin paytaxtı Tehran dağların cənub yamaclarında, 1070 m yüksəklikdədir. Mərkəzdə orta hündürlüyü 1220 m-ə çatan İran dağlıq yaylası yerləşir. Dağlıq yaylanın şimal-şərq və şərq hissələrini geniş Dəşti-Kəbir (180 min km²) və Dəşti-Lüt (166 min km²) səhraları tutur. İran ərazisində bir neçə iqlim zonası yaranır: ölkənin çox hissəsində kəskin temperatur amplituduna malik olan quru subtropik iqlim, İran və Oman körfəzləri sahillərində tropik iqlim, Xəzər dənizi sahillərində yüksələn dağlıq ərazilərdə rütubətli subtropik iqlim (yağıntı 1500 mm), ölkənin qalan ərazilərində az yağıntısı olan (200-250 mm) quru tropik və subtropik iqlim hakimdir. Yanvarın orta temperaturu 19°C, iyulda 32°C-dir. Xəzər dənizinə çoxlu xırda çaylar tökülür.

Əkinçilik suvarma şəraitində olur, buğda, çəltik, pambıq, tütün, üzüm, püstə becərilir, meyvə quruları hazırlanır. İranın təsərrüfatının inkişafı təbii sərvətlərin istismarına əsaslanır. Neft və qazın ixracından gələn gəlirlər 85%-dir. İranda yerin təkində dünyanın kəşf edilmiş neft ehtiyatının 11%-i, təbii qaz ehtiyatının 20%-i cəmlənmişdir. Məhəmməd Rza Pəhləvi Şahın hakimiyyəti dövründə (1953-1979) ölkədə təsərrüfatın yenidən qurulması tədbirləri həyata keçirilmiş, neft emalı və neft-kimya sahələri inkişaf etdirilmiş, mədənlərdən Bəndər Abbas və Abadan limanlarına boru kəmərləri çəkilmiş, maşınqayırma, toxuculuq və sement sənayesi obyektləri yaradılmışdır. İranda islamın iki əsas qolundan biri olan şiəlik hakim mövqeyə malikdir.

siyasi rəhbər olan ali dini lider - Ayətullah siyasi və hüququ strukturların şəriət qanunlarına uyğun olmasına nəzarət edir. 1980-1988-ci illərdə olan İran-İraq müharibəsi ölkənin təsərrüfatına ciddi ziyan vurdu, 400 min nəfər insan müharibədə həlak oldu. Ölkə rəhbərliyinin müxtəlif ölkələrdə terrorçu və radikal islamçı qruplaşma və təşkilatlara dəstək verməsi, Buşir şəhərində AES-in tikintisindən sonra İranın nüvə silahı əldə etmək niyyətini açıqlaması ABŞ və Qərb ölkələri tərəfindən narazılıqla qarşılandı. BMT İranı nüvə texnologiyalarından istifadəni dayandırmağa çağırır.

Əfqanıstan Respublikası

Sahəsi: 652,1 min km²
Əhalisi: 29,1 mln. nəfər (2010)
Əhalinin sıxlığı: 44,6 nəfər/km²
Paytaxtı: Kabil (2536 min nəfər)
Əsas dillər: dari (50%), puştu (35%), özbək və türkmən (11%)
Dini etiqad: islam (sünni təriqəti 80%, şiələr)
Pul vahidi: əfqani
Dövlət quruluşu: respublika

Ərazisinin 3/4 hissəsi dağlardan ibarət olan Əfqanıstan dörd əsrdir ki, vətəndaş müharibəsi şəraitində yaşayır. Ona görə dünyanın kasıb ölkələrindən biridir.

Əfqanıstanın ərazisində yüksələn dağlar arasında onun mərkəzində uzanan Hindquş dağları fərqlənir. 800 km məsafədə yerləşən dağlar Pakistana və Tacikistana da keçir. Ən yüksək zirvələr 7000 m-dən yuxarı qalxır, dağlıq ərazinin okean səviyyəsindən orta hündürlüyü 4300 m-dir. Hindquş dağları şimaldakı düzənlik ərazilərlə qalan rayonlar arasında təbii sərhəd rolunu oynayır. Ölkənin şimalındakı düzənliklər əsas əkinçilik rayonlarıdır. Burada düyü,

qarğıdalı, buğda, şəkər çuğunduru, meyvə, pambıq, bostan-tərəvəz və fındıq becərilən məhsuldar torpaqlar vardır. Qaragül qoyun cinsləri, keçi saxlanılır. Hindquş dağlarından cənubda və cənub-qərbdə hündürlüyü 1000 m-dək olan axarsız təpəlik yayla yerləşir. Yaylanın çox hissəsini qumlu Registan səhrası və gilli Dəşti-Marqo səhrası tutur. Bu ərazilər, çayların vadilərindən başqa, demək olar ki, məskunlaşmamışdır. Onlar arasında Hilmənd ölkənin ən uzun çayıdır. Çay öz başlanğıcını Kabildən 80 km cənubda götürür, ölkənin xeyli hissəsindən keçərək İranda, Dəşti-Marqo səhrasında quruyur. Onun vadisində bir neçə vahələr vardır. Əfqanıstanın iqlimi kəskin kontinentaldır, cənubda səhra iqlimidir və yüksəklikdən asılı olaraq dəyişir. Qışda hava soyuq, yayda isə isti olur, cənubdakı səhralarda temperatur 45°C-yə qədər yüksəlir. İldə 300 mm-ə qədər yağıntı düşür. Kabildə yanvarın orta temperaturu -1°C, avqustda 23°C-dir, ildə 200-400 mm yağıntı düşür. Quraqlıqlar əkinçilik üçün ciddi çətinliklər yaradır. Əfqanıstanın müstəqil dövlət kimi yaradılmasında puştun tayfasının nümayəndəsi olan Əhməd Şah Dürraninin xüsusi rolu olmuşdur. 200 il ərzində ölkədə məhz puştunlar hökmranlıq etmişdir. Hazırda onlar ölkə əhalisinin 35%-ni təşkil edir, puştu dilində danışırlar. Böyük şəhərlərdə və ölkənin şimal-şərqdə yaşayan taciklər dari dilində danışır və

əhalinin 25%-ni təşkil edirlər, əsas məşğuliyyət sahələri əkinçilik və ticarətdir. Mərkəzi hissələrdə xəzərlər yaşayır. Əhalinin 19%-ni təşkil edən xəzərlər monqol mənşəlidirlər, şiə təriqətinə etiqad edirlər. Şimal-qərbdə türkmənlər (3%), şimalda özbəklər (8%) yaşayır, hər ikisi, müsəlman-sünnülərdir, əsas məşğuliyyəti əkinçilik və maldarlıqdır. Türkmənlər, həmçinin, mahir xalça toxuyanlar kimi tanınırlar. Ölkədə pambıq, yun emal olunur, toxuculuq, tikiş məhsulları, ayaqqabı istehsal olunur, qablar, milli geyimlər hazırlanır.

2001-ci ildə ABŞ öz müttəfiqləri ilə Taliban hökumətini devirdi və Milli Keçid hökuməti quruldu. Ölkədə NATO-nun başçılığı ilə koalisiya qüvvələri yerləşir, islahatlar aparılsa da, Taliban qruplaşması ilə münaqişələr davam edir. Partlayışlar, ölüm, terror bu gün Əfqanıstanda adi hadisələrdir, minlərlə insanın həyatı daim təhlükədədir.

AZƏRBAYCANIN FİZİKİ VƏ İQTİSADİ-SOSİAL COĞRAFİYASI

Azərbaycanın fiziki-coğrafi şəraiti

Azərbaycanın iqtisadi, siyasi və sosial coğrafiyası

Azərbaycanın fiziki-coğrafi şəraiti

Azərbaycan Respublikası 38°25′-41°55′ şimal enlikləri və 44°50′-50°51′ şərq uzunluqları arasında yerləşir. Ölkə şimalda Rusiya Federasiyası (390 km), şimal-qərbdə Gürcüstan Respublikası (480 km), qərbdə Ermənistan Respublikası (1007 km), cənub-qərbdə Türkiyə Respublikası (15 km), cənubda İran İslam Respublikası (765 km) ilə həmsərhəddir. Şərq sahilləri Xəzər dənizinin suları ilə yuyulur. Azərbaycan, Türkmənistan və İran arasında Xəzər dənizinin şelf zonasının bölünməsi hələlik tam nizamlanmamışdır. Ölkənin quru sərhədlərinin uzunluğu 2052,6 km, sahil xətlərinin uzunluğu 780 km-dir. Sahəsi 86,6 min km², əhalisinin sayı 9235,1 min nəfər, o cümlədən şəhər əhalisi 4888,7 min nəfər (52,9%), kənd əhalisi 4346,4 min nəfərdir (47,1%, 01.01.2012). Paytaxtı Bakı şəhəridir. Azərbaycanın tərkibində, ölkənin əsas hissəsindən Ermənistan ilə ayrılan Naxçıvan Muxtar Respublikası, 66 rayon, 13 şəhər rayonu, 77 şəhər, 257 qəsəbə, 1719 kənd ərazi dairəsi, 4260 kənd yaşayış məntəqəsi ayrılır. Ölkədə 1718 bələdiyyə yaradılmışdır. 28 may Respublika günüdür. 1918-ci il mayın 28-də Şərqdə ilk müstəqil dövlət olan Azərbaycan Demoqrafik Respublikası (ADR) yaradılmışdır. Pul vahidi manatdır.

1995-ci ildə qəbul edilmiş konstitusiyaya görə Azərbaycan demokratik respublikadır. Ölkənin başçısı olan Prezident ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilir. Qanunverici hakimiyyəti 5 il müddətinə seçilən, 125 deputatdan ibarət olan birpalatalı Milli Məclis həyata keçirir. İcraedici hakimiyyət Prezident tərəfindən təyin edilən, Milli Məclisdə təsdiq edilən Hökumətə məxsusdur, onun başçısı Baş Nazirdir. Məhkəmə hakimiyyətini Ali Məhkəmə həyata keçirir.

Ölkə ərazisinin yarıya qədərini ***dağlar*** tutur. Şimal-şərqdə yerləşən Böyük Qafqaz silsiləsində Baş Qafqaz (Bazardüzü d., 4466; Tufan d., 4191 m), Yan silsilə (Şahdağ d., 4243 m), Qovdağ (Qovdağ d., 2437 m) və Nialdağ (Yelligədik d., 2322 m) silsilələri ayrılır. Qərbdə yerləşən Kiçik Qafqaz dağlarında Qarabağ (Böyük Kirs d., 2725 m), Murovdağ (Gamış d., 3724 m), Şahdağ (Şahdağ d., 2901 m), Şərqi Göyçə (Keti d., 3399 m) və Qarabağ yaylası (Dəlidağ d., 3616 m) ayrılır. Naxçıvan MR-də Zəngəzur (Qapıcıq d., 3904 m) və Dərələyəz (Kükü d., 3120 m) silsilələri yerləşir. Cənubda İran ilə sərhədlər boyu Talış dağları yüksəlir (Kömürgöy d., 2493 m). Dağlar Talış, Burovar və Peştəsər silsilələrindən ibarətdir. Ən böyük ovalıq olan Kür-Araz ölkənin mərkəzi və şərq hissələrini əhatə edir. Ovalıqda Şirvan, Cənub-Şərqi Şirvan, Mil, Muğan, Qarabağ düzləri ayrılır. Şimal-şərqdə Xəzər dənizinin sahilləri boyu ensiz zolaq şəklində Samur-Dəvəçi (Şabran) ovalığı, cənub-şərqdə Lənkəran ovalığı yerləşir. ***Geoloji quruluşu*** Alp qırışıqlığı sisteminə aid olan Böyük Qafqaz və Kiçik Qafqaz meqaantiklinoriumları, 20 km-ə qədər qalınlığı olan Kaynozoy yaşlı çöküntülərlə örtülmüş Kür depressiyası və Xəzər dənizinin çökəkliyi ilə müəyyən olunur. Böyük Qafqaz əsasən terrigen çöküntülərdən təşkil olunur. Azərbaycanda 200-ə qədər palçıq vulkanı vardır. Kiçik Qafqaz-da vulkanogen mənşəli süxurlar geniş yayılır. Azərbaycanın ərazisi ***faydalı qazıntılarla*** zəngindir. Ölkənin ərazisində böyük neft ehtiyatları vardır. Onların ümumi ehtiyatları Xəzərin şelf zonasının ən iri yataqları da daxil olmaqla 2,0-2,2 mlrd. ton qiymətləndirilir. Ən mühüm perspektivli yataqlara "Azəri", "Günəşli", "Çıraq", "Şahdəniz", "Şimali Abşeron", "İnam", "H.Z.Tağıyev" aiddir. Təbii qazın kəşf edilmiş ehtiyatları 2,55 trln. m³-dir, proqnoz ehtiyatları Xəzərin şelf zonasında toplanır. Dəmir filizinin ümumi ehtiyatları 246 mln. ton, sübut edilmiş ehtiyatları 233 mln. tondur, tərkibində dəmir oksidinin miqdarı 43%-dir. Daşkəsən ən mühüm dəmir filizi yatağıdır. Bu rayonda alüminium xammalı olan alunit də hasil olunur. Misin ümumi ehtiyatları 640 min



ton, metalın tərkibində faydalı elementlər orta hesabla 0,61%-dir. 1952-ci ildən yeraltı üsullarla istismar edilən Parağaçay mis-molibden yatağında ehtiyatlar artıq tükənmişdir. Mis-kolçedan filizləri Gədəbəydə, molibden-porfir ehtiyatları Ordubad rayonunda müəyyən edilmişdir. Qurğuşun ehtiyatları 1,66 mln. tondur (metalın xüsusi çəkisi orta hesabla 1,54%). Böyük Qafqazda bir neçə kolçedan-polimetal filizi yataqları vardır, ən böyüyü Filizçaydır. Burada sink ehtiyatlarının əsas hissəsi yerləşir. Onun ümumi ehtiyatları 3,7 mln. ton, təsdiq edilmiş ehtiyatları 3,6 mln. ton qiymətləndirilir. Azərbaycanda qızılın ümumi ehtiyatları 50 ton, təsdiq edilmiş ehtiyatları 10 tondur. Ölkədə çoxsaylı mineral bulaqlar, o cümlədən isti su mənbələri vardır. Onların əsasında balneoloji kurortların yaradılması zəruridir. Naftalanda müalicə əhəmiyyətli neft ehtiyatları əsasında kurort yaradılmışdır.

Ölkənin çox hissəsi ***subtropik iqlim qurşağında*** yerləşir. Azərbaycan ərazisində bir neçə iqlim tipi ayrılır. İqlim şəraiti mərkəzdə və cənub-şərqdəki quru və rütubətli subtropikdən Böyük Qafqazın yüksək dağlıq rayonlarında dağ-tundra iqlimi tipinə qədər dəyişir. Orta illik temperatur düzənliklərdəki 15°C-dən dağlarda 0°C-yə qədər dəyişir. Orta iyul temperaturu düzənliklərdə 26°C, yüksək dağlarda 5°C, orta yanvar temperaturu uyğun olaraq 3°C və -10°C-dir. Yay isti və quru keçir. Ölkə ərazisində yağıntılar qeyri-bərabər paylanır: düzənliklərdə 200-300 mm, dağətəyi zonalarda 300-900 mm, yüksək dağlarda 1000-1400 mm-dir. Düzənliklərdə yağıntıların ən çox miqdarı (1700 mm-ə qədər) Lənkəranda, əsasən də qışda düşür. Yayda bütün Kür-Araz ovalığında, xüsusilə onun şərq hissəsində rütubət çatışmazlığı hiss olunur. Ona görə əkinçilik yalnız suvarma şəraitində mümkün olur.

Ölkə ərazisində 850 ***çay*** 5 km-dən çox məsafədə axır, lakin onlardan yalnız 21-nin uzunluğu 100 km-dən çoxdur. Azərbaycanın çaylarının əksəriyyəti ölkə ərazisində şimal-qərbdən cənub-şərqə tərəf axan Kür çayının hövzəsinə aiddir. Kür çayı Türkiyədə yerləşən, Qızılgədik dağında 2740 m yüksəklikdən başlanır, uzunluğu 1515 km, hövzəsinin sahəsi 188 min km², su sərfi 580 m³/san., illik axımı 18 km³-dir. Kürün ən böyük qolu olan Araz İran ilə dövlət sərhəddindən axır. Araz çayı Türkiyədə Bingöl silsiləsində 2990 m yüksəklikdən başlanır, uzunluğu 1072 km, hövzəsinin sahəsi 102 min km², su sərfi mənsəbdə 131 m³/san.-dir. Digər iri qollara Gürcüstan ilə sərhəddən axan Qanıx (Alazan) və Qabırrı (İori), həmçinin Tərtər çayları aiddir. Kiçik qolların bir hissəsinin suyu suvarmaya və su təminatına sərf edildiyinə görə Kürə çatmır və quruyur. Rusiya ilə sərhəddən axan Samur da böyük çaylara aiddir, uzunluğu 216 km-dir. Kür çayı üzərində ölkənin ən böyük su anbarı olan Mingəçevir 625 km² sahə tutur, 16 km³ həcmə malikdir. Su anbarı Mingəçevir SES-in fəaliyyətini təmin edir. Çay üzərində, həmçinin Şəmkir, Yenikənd, Varvara su anbarları və SES-ləri tikilmişdir. Mühüm əhəmiyyəti olan su anbarlarına Araz çayı üzərində Araz su qovşağı, Tərtər çayı üzərində Sərsəng, Abşeronda Ceyranbatan da aiddir. Sarısu (67 km²), Ağgöl (56,2 km²), Ağzıbirçala (37 km²), Candar, Masazır, Göygöl, Maralgöl və Batabat ən mühüm göllərdir. Kür-Araz ovalığında olan əkin sahələrinin suvarılması üçün uzunluğu 175 km olan Yuxarı Qarabağ, uzunluğu 125 km olan Yuxarı Şirvan kanalları və Abşeron yarımadasının su ilə təminatı üçün Samur-Abşeron kanalı çəkilmişdir (182 km).

Xəzər dənizi Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İranın əhatəsində yerləşir. Təbii çökəklikdə yerləşdiyinə və Dünya okeanı ilə əlaqəsi olmadığına görə bu su hövzəsinə ***göl***, sahəsi böyük olduğuna, duzluluq, suyun axımı və temperaturun paylanması kimi hidroloji xüsusiyyətlərinə görə ***dəniz*** deyilir. Suyun səviyyəsinin -28 m olduğu vəziyyətdə sahəsi 376,3 min km², suyunun həcmi 78081 km³-dir. Bəzi xalqlar ona Kaspi də deyirlər. Bu adların hər ikisi vaxtilə onun sahillərində yaşamış

tayfaların adı ilə bağlıdır (tarixdə dənizin 70-dən çox adı olmuşdur). Xəzər dənizi şimaldan-cənuba 1130 km, qərbdən-şərqə ən çox 435 km, ən az yerdə 196 km uzanır. Onun orta dərinliyi 208 m, maksimum dərinliyi Lənkəran çökəkliyində 1025 m-dir. Şimal hissədə Volqa çayı çoxlu çöküntü gətirdiyinə görə burada dərinlik minimuma çatır və 5 m-dən azdır. Xəzərin sahil xətlərinin uzunluğu 6,5-6,7 min km, adalarla birlikdə 7 min km-dir. Rusiyanın ərazisindən Xəzər dənizinə Volqa, Terek, Sulak çayları tökülür. Volqa çayının payına dənizə gətirilən çay sularının 82%-i düşür. Türkmənistandan Xəzərə Atrek çayı, Qazaxıstandan Ural və Emba çayları, İrandan Səfidrud və Korkan çayları axır. Xəzərin sutoplayıcı hövzəsinin sahəsi 3,5 mln.km²-dir. Dənizdə şimaldan-cənuba doğru dərinliyin dəyişməsi ilə əlaqədar onun hidroloji xüsusiyyətləri və fauna elementləri dəyişir. Şimal hissə dayazdır, Volqa çayının təsiri ilə duzluluq 1-2‰-yə qədərdir. Burada suyun temperaturu qışda 1°C-dən az olur və sular donur. Mərkəzi hissədə yerləşən Dərbənd çökəkliyi 40°-44° şm. e.-ləri arasında qalan sahələri tutur. Bura nisbətən dərindir, duzluluq 5-10‰-dir. Suyun temperaturu qışda 5°-8°C arasında dəyişir. Xəzərin cənub zonası 44° şm.e.-dən aşağıda yerləşir. Dənizin bu sahələri daha dərindir. Lənkəran çökəkliyi də məhz cənub zonasındadır. Onun cənubunda və cənub-şərqində duzluluq 10-13,5‰-yə qədər yüksəlir. Burada qışda temperatur 10°C-dən yüksək olur. Yayda dəniz suyunun temperaturu 20°C-dən yuxarı qalxır. Azərbaycanın sahillərində və ondan cənubda olan ərazilərdə suyun temperaturu 24°-26°C arasında dəyişir. Xəzər dənizinə il ərzində düşən yağıntıların miqdarı 71 min km³-dir. Çaylar isə bura 300 km³ su gətirir. Dənizin səthindən ildə 376 km³ su buxarlanır. Burada düşən yağıntıların miqdarı 71 mm su layına, buxarlanan suyun miqdarı 400 mm su layına bərabərdir. Eyni zamanda Qara-Boğaz-Qol körfəzinə ildə 12 km³ su axır və onun hamısı buxarlanır. Deməli, Xəzər dənizi ildə 17 kub km su itirir. Qara-Boğaz-Qol körfəzində duzluluq 350-358‰-dir. Volqa çayının gətirdiyi suların təsiri ilə dənizdə sular saat qərəbinin hərəkət istiqamətinin əksinə dövr edir. Xəzər daxili dəniz olduğuna görə qabarma olmur. Bu su hövzəsi vaxtilə (6 mln. il əvvəl) Tetis okeanının bir hissəsi olmuşdur. Müasir Xəzər dənizi 5-7 min il əvvəl yaranmışdır. Ona görə də Xəzər relikt (qalıq) mənşəlidir. O vaxtdan burada suitilər də qalmışdır. Bu heyvanlara əsasən şimaldə rast gəlinir. Bəzən onlar Abşeronun sahillərində də üzür. İndiki dövrdə Xəzər dənizinin 3 əsas problemi vardır. Onlara ekoloji, bioloji və səviyyə tərəddüdü problemləri aiddir.

Kür-Araz ovalığında, Abşeronda şoranlıq və şorakətlər olan boz və boz-qonur ***torpaqlar*** üstünlük təşkil edir. Dağətəyi zonalarda yayılan şabalıdı torpaqlarda boz torpaqlar kimi düzgün suvarma tətbiq edildikdə yüksək məhsuldarlıq əldə etmək olur. Orta dağlıq zonada qəhvəyi və qonur dağ-meşə torpaqları, yüksək sahələrdə çimli, torflu və ibtidai dağ-çəmən torpaqları yayılır. Lənkəran ovalığı sarı və podzollaşmış sarı torpaqların yayılması ilə səciyyələnir.

Ölkədə 4200 ***bitki növü***, o cümlədən 435 ağac və kol bitir. Azərbaycanın düzənlikləri üçün yarımsəhra və quru çöl bitkiləri səciyyəvidir. Dağlarda yüksəklik qurşaqlığı yaranır, 600-800 m-dən 2000 m yüksəkliyə qədər əsasən palıq, fıstıq və vələs ağaclarından ibarət enliyarpaqlı meşələr yayılır. Onlardan yuxarıda subalp və alp çəmənlikləri əmələ gəlir. Eldar şamı, azat, şümşad, qaraçöhrə, Kürün deltasında və Qızılağac körfəzində Xəzər şanagülləsi, Lənkəranda dəmirağac, şabalıdyarpaq palıd endemik bitki növləridir. Heyvanların 12 min növü vardır, o cümlədən 92 məməli növü, 350 quş növü, 49 sürünən yaşayır. Qızılağac qoruğunda 200-ə yaxın quş növü qışlama keçirir. Xəzər dənizi, Kürün deltası balıq ehtiyatları ilə zəngindir, nərə, ağ balıq və bölgə daha mühün əhəmiyyət kəsb edir. Lakin onların mühafizəsi və artırılması üçün ciddi tədbirlər görülməsi lazımdır.



Xəzər dənizində 1332 növ fauna və flora, o cümlədən 111 növ balıq, 574 növ bitki vardır. Dənizotu, yosun, su çiçəyi Xəzərdə əsas bitki növləridir. Dənizdə yaşayan balıqlara nərə, ağ balıq, kilkə, şamayı, ilanbalığı, naxa, siyənək, qızıl balıq, çəki, bölgə, kütüm, çapaq, xəşəm və s. aiddir. Xəzər dənizində dünyanın başqa su hövzələrindən gətirilmiş balıq növlərinə qorbuşa, kefal, keta, hambuziya, ağ amur, qalınalın və s. aiddir. Xəzər dənizi Azov dənizi ilə birlikdə dünyada nərə və ağ balıq ovlanan, qara kürü istehsal edilən əsas mərkəzlərdir. Xəzər dənizinin payına ovlanan nərə və ağ balığın 80%-i, istehsal olunan qara kürünün 90%-i düşür. Xəzərin sahillərində çoxlu su quşları yaşayır.

Respublikanın ərazisində müxtəlif relyef formalarına uyğun landşaft komplekslər yaranır. Ona görə də burada bir-birindən fərqlənən fiziki-coğrafi vilayətlər ayrılır. Böyük Qafqaz, Kiçik Qafqaz, Kür-Araz, Lənkəran və Orta Araz ölkədə ayrılan ***fiziki-coğrafi vilayətlərdir***. Onlara bəzən təbii vilayətlər də deyilir. Azərbaycanın fiziki-coğrafi vilayətlərə ayrılması, onların rayonlara bölünməsi zamanı geomorfoloyi strukturlar və landşaft elementlərinin ümumiliyi əsas amil kimi nəzərə alınır. Onların əsasında burada Böyük Qafqaz və Kür-Araz fiziki-coğrafi vilayətlərinin daxil olduğu Qafqaz ölkəsi, Kiçik Qafqaz, Lənkəran və Orta Araz (Naxçıvan) fiziki-coğrafi vilayətlərinin aid edildiyi Ön Asiya ölkəsi ayrılır. Onlar isə fiziki-coğrafi rayonlaşmada daha kiçik bölgülər sayılan 5 fiziki-coğrafi vilayətə və 19 fiziki-coğrafi rayona bölünür.

Azərbaycanın fiziki-coğrafi vilayətləri və rayonları

Vilayətlərin sərhədləri
Rayonların sərhədləri

I Böyük Qafqaz fiziki-coğrafi vilayəti
- 1 - Samur-Şabran rayonu
- 2 - Qonaqkənd rayonu
- 3 - Zaqatala-Lahıc rayonu
- 4 - Şamaxı rayonu
- 5 - Qobustan-Abşeron rayonu

II Kür dağarası çökəkliyi fiziki-coğrafi vilayəti
- 6 - Qanıx-Əyriçay rayonu
- 7 - Acınohur-Ceyrançöl rayonu
- 8 - Qazax-Qarabağ rayonu
- 9 - Küdrü-Şirvan rayonu
- 10 - Arazboyu rayonu
- 11 - Kür-Araz (Mərkəzi Aran) rayonu

III Kiçik Qafqaz fiziki-coğrafi vilayəti
- 12 - Gəncə rayonu
- 13 - Qarabağ dağları rayonu
- 14 - Qarabağ vulkanik yaylası rayonu
- 15 - Həkəri rayonu

IV Lənkəran fiziki-coğrafi vilayəti
- 16 - Lənkəran rayonu
- 17 - Talış rayonu

V Orta Araz fiziki-coğrafi vilayəti
- 18 - Şərur-Ordubad rayonu
- 19 - Günnüt-Qapıcıq rayonu

Azərbaycanın iqtisadi, siyasi və sosial coğrafiyası

2009-cu il siyahıyaalmasına görə ***əhalinin sayı*** 8922,4 min nəfər olmuşdur. Onların 4414,4 min nəfərini kişilər (49,5%), 4542,1 min nəfərini qadınlar (50,5%) təşkil etmişdir. Hər 1000 nəfər kişiyə görə qadınların sayı 1021,2 nəfər olmuşdur. Əhalinin əsas hissəsini azərbaycanlılar (8172,8 min nəfər və ya 91,6%), ləzgilər (180,3 min nəfər və ya 2,0%), ruslar (119,3 min nəfər və ya 1,3%) və ermənilər (120,3 min nəfər və ya 1,3%) təşkil edir. Ölkədə, həmçinin talışlar (112,0 min nəfər), avarlar, türklər, tatarlar, yəhudilər və başqa millərlərin nümayəndələri yaşayır. Əhali arasında təbii artımın yüksək səviyyədə olması səciyyəvidir. 2011-ci ildə doğulan uşaqların sayı 176,1 min nəfər, ölənlərin sayı 53,8 min nəfər olmuş, təbii artım 122,3 min nəfər təşkil etmişdir. Müvafiq olaraq əhalinin hər 1000 nəfərinə görə doğum əmsalı 19,4, ölüm əmsalı 5,9, təbii artım əmsalı 13,5 olmuşdur. XX əsrin 90-cı illərinin ortalarından başlayaraq bu göstəricilər azalsa da (2003-cü ildə hər 1000 nəfərə doğum əmsalı 14,0, təbii artım 8,0 qeydə alınmışdır), 2000-ci illərin ortalarından başlayaraq yüksəlmə müşahidə olunur. Hər 1000 diri doğulan uşağa görə körpə ölümü əmsalı 11 olmuşdur. Əhalinin orta ömür müddəti 73,6 il, o cümlədən qadınlar üçün 76,2 il, kişilər üçün 70,9 il təşkil edir. Keçid dövründə əhalinin Rusiya, Türkiyə, İran, BƏƏ, Kanada və Qərbi Avropa ölkələrinə (Almaniya, Niderland) və Kanadaya miqrasiyası intensiv olaraq getmişdir. Rusdilli əhalinin əsas hissəsi (ruslar, ermənilər, yəhudilər) köçub ölkəni tərk etmişdir. Əhalinin orta sıxlığı hər km²-də 87 nəfərdir. Abşeron yarımadasında və Lənkəran ovalığında əhali daha sıx məskunlaşır. Dağətəyi zonalar, Xəzər dənizi və çayların sahilləri boyu əhalinin sıxlığı yüksəkdir. Ölkənin ən böyük şəhərinə Bakı ilə yanaşı, Gəncə, Sumqayıt, Mingəçevir, Naxçıvan, XırdalanŞ Şirvan, Şəki, Lənkəran da aiddir. İqtisadi fəal əhalinin sayı 4375,2 min nəfərdir. Onların 37,9%-i kənd və meşə təsərrüfatında, 14,5%-i ticarət sahələrində, 8,0%-i təhsildə, 7,0%-i sənayedə, 4,1%-i nəqliyyat və anbar təsərrüfatında, 3,8%-i əhaliyə göstərilən səhiyyə və sosial xidmət sahələrində çalışır (2011). Regionlarda əhalinin iş yerləri ilə təminatı ciddi problem kimi qarşıda durur. 1996-cı ildən ölkənin iqtisadi potensialının tədricən bərpasına başlanmışdır. 2011-ci ildə ÜDM-in həcmi 51157,5 mln. manat, əhalinin hər nəfərinə görə 5650,8 manatdır. ÜDM-in 54,6%-ni sənaye, 11,6%-ni sosial və fərdi xidmətlər, 8,2%-ni tikinti, 6,5%-ni ticarət və xidmətlər, 5,3%-ni kənd və meşə təsərrüfatı, 4,9%-ni nəqliyyat və anbar təsərrüfatı, 8,9%-ni digər sahələr verir. Hazırda xidmət sahələri, tikinti, nəqliyyat, kənd təsərrüfatında olan obyektlərin çoxu özəlləşdirilmişdir. Neft-qaz hasilatı, emalı, elektroenergitika, metallurgiya, maşınqayırma, kimya sənayesi obyektləri isə hələlik dövlət mülkiyyətində qalır. İqtisadiyyatda məşğul olanların 73,9%-i özəl sektorun payına düşür. Sənayedə istehsal olunan məhsulların 76,0%-ni yanacaq faydalı qazıntılarının hasilatı, 19,2%-ni emal sənayesi, o cümlədən 8,1%-ni neft məhsullarının emalı, 5,2%-ni yeyinti sənayesi, 1,7%-ni metallurgiya, 1,3%-ni maşınqayırma, 1,2%-ni tikinti materialları istehsalı sahələri, 1,0%-ni kimya, 0,3%-ni yüngül sənaye müəssisiələri verir. Elektrik enerji istehsalı, təbii qaz, suyun hasilatı və bölünməsi sahələri sənaye məhsullarının 4,6%-ni verir (2008). ***Elektroenergitika*** təbii qaz, mazut və hidroenerji ehtiyatlarından istifadə edilməsi əsasında fəaliyyət göstərir. 2011-ci ildə 20,3 mlrd. kVt-saat elektrik enerjisi istehsal edilmişdir (1991-ci ildə 23,5 mlrd. kVt-saat). Elektrik enerjisinin 85%-ni İES-lər, 15%-ni SES-lər verir. Son vaxtlar qeyri-ənənəvi enerji mənbələrindən istifadə edilməsi sahəsində işlər aparılır. Ölkənin enerji sisteminin əsasını Mingəçevirdə yerləşən, gücü 2,4 MVt olan Azərbaycan DRES və Şirvan şəhərində olan DRES (1,2 MVt) təşkil edir. Bakı, Sumqayıt, Gəncə şəhərləri ətrafında da İES-lər vardır. Son vaxtlarda Bakı, Astara, Şəki, Xaçmaz,

Quba, Naxçıvanda Modul İES-lər, Sanqaçalda İES (gücü 300 MVt) tikilmişdir. Azərbaycanda SES-lərin müəyyən edilmiş ümumi gücü 788 min kVt təşkil edir. Kür çayı üzərində kaskad SES-lər qurulmuşdur, Tərtər çayı üzərində Tərtər SES tikilmişdir (hazırda işğal edilmiş ərazilərdə qalmışdır). Araz çayı üzərində gücü 22 min kVt olan "Araz su qovşağı" tikilmişdir və İran ilə birgə istismar edilir. Naxçıvan MR-in enerji ilə təminatı problemi artıq həll edilmişdir. Ölkənin enerji sistemi yüksək gərginlikli xətlərlə Rusiya, İran və Türkiyənin enerji sisteminə qoşulmuşdur. Hazırda Azərbaycan ərazisində quruda 36, şelf zonasında 14 neft yatağı uzun müddətdir ki, istismar olunur. Onların çoxunda ehtiyatlar artıq tükənmişdir. 1994-cü ildən başlayaraq ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə və digər ölkələrin maliyyə-texniki dəstəyi ilə Xəzərin şelf zonası və daha dərin sahələrdə olan yataqların istismarı aparılır. "Azəri", "Çıraq" və "Günəşlinin" dərin sahələrində istismarın genişləndirilməsi üçün müqavilələr imzalanmışdır. Ölkədə 2010-cu ildə 50,8 mln. ton, 2011-ci ildə 45,6 mln. ton neft hasil edilmişdir. Quruda da neft hasilatının bərpası və genişləndirilməsi üçün xarici ölkələrin neft şirkətləri ilə müqavilələr imzalanmışdır. Ölkənin təbii qaza illik tələbatı 8-9 mlrd. m³-dir. 2011-ci ildə 25,7 mlrd. m³ təbii qaz hasil edilmişdir (2003-cü ildə 5,1 mlrd. m³). Təbii qaz əsasən "Şahdəniz" yatağında çıxarılır. Onun hasilatının genişlənməsi Bakı-Ərzurum ixrac qaz kəmərinin çəkilməsinə və onun ixracına imkan vermişdir. Rusiya və İrana da müəyyən qədər təbii qaz satılır. Avropaya təbii qaz ixrac edilməsi üçün Transanadolu təbii qaz kəməri çəkilməsi haqqında ("TANAP") müqavilə imzalanmış, "Nabukko" qaz kəmərinin çəkilməsi layihəsi müzakirə olunur. ***Neftin emalı*** Bakı Neftayırma və Bakı Neft-Yağ zavodlarında həyata keçirilir. Kimya və neft-kimya sənayesinə karbohidrogen xammalından üzvi-sintez xammalları, sintetik kauçuk və bir çox hazır məhsullar, məsələn, sintetik yuyucu tozlar, fosfor gübrəsi və üzvi xlor məhsulları istehsalı üçün sulfanol istehsal edən edən müəssisələr aiddir. Əsas istehsal mərkəzləri Bakı və Sumqayıt şəhərləridir. ***Metallurgiya müəssisələri*** bu şəhərlərlə yanaşı, Gəncədə, Daşkəsəndə və Gədəbəydə də vardır. Sumqayıtda yerləşən Boru Prokat zavodunda neft sənayesi üçün borular, prokat istehsal olunur. Bakı Poladəritmə zavodunda təkrar xammallar emaldan keçir. Daşkəsəndə hasil olunan dəmir filizi xammalının əridilməsi üçün Gəncə şəhərində Metallurgiya zavodu tikilir. Alüminium əridilməsi üçün Sumqayıt (100 min ton gücündə) və Gəncədə (200 min ton gücündə) müəssisələr fəaliyyət göstərir. Gədəbəydə qızıl, gümüş və mis ehtiyatlarının mənilsənilməsi üçün "Azərqızıl" Dövlət Şirkətinin ABŞ-ın "R.V.İnvestment Qrup Servisis PLS" şirkəti ilə müştərək müəssisəsi işləyir. ***Maşınqayırma sənayesinin*** əsasını Bakı şəhərində olan Neft-Mədən avadanlıqları müəssisələri təşkil edir. Bu sahənin zavodları arasında neft sənayesinə xidmət edən elektrotexnika sənayesi və cihazqayırma müəssisələri fərqlənir. Gəncə, Naxçıvan və Şamaxıda yığma maşınqayırma zavodları vardır. Bakı Soyuducular zavodonun fəaliyyəti bərpa edilmişdir. Bakının ətrafında yerləşən Sahil qəsəbəsində Dərin Dəniz Özülləri zavodu fəaliyyət göstərir, Gəmiqayırma zavodu tikilir. Şamaxıda eyni zamanda "Star" Televizor və Məişət Avadanlıqları zavodları yaradılmışdır. ***Yüngül sənayedə*** pambıqtəmizləmə, ipək parça və xalça toxunması əsas sahələrdir. Pambıqtəmizləmə zavodları Aran iqtisadi rayonunda yerləşir. Pambıq Parça Kombinatları Bakı, Gəncə və Mingəçevirdə vardır. Şəki ipək parça toxunmasının mərkəzidir. Xalçaçılıq respublikanın hər yerində yayılır. Gəncə, Bakı, Quba, Qusar, Şabran xalça toxunmasının əsas mərkəzləridir. Lakin yüngül sənaye ciddi tənəzzül dövrü keçirir. Bu sahənin inkişafı üçün mövcud müəssisələrin yenidən qurulması və regionlarda yenilərinin yaradılması lazımdır. ***Yeyinti sənayesi*** ət-süd məhsullarının emalı, meyvə-tərəvəz və balıq konservi, qənnadı,

konditer, şərab məhsullarının istehsalı, mineral suların doldurulması, çay, bitki yağlarının istehsalı sahələri ilə təmsil olunur. Bu sahədə son dövrlərdə İmişlidə Şəkər, Qəbələ, Biləsuvar, Masallıda və s. şəhərlərdə Meyvə-Tərəvəz konservi müəssisələri tikilmiş, Xaçmazda və Lənkəranda yenidən qurulmuşdur. Ölkədə həyata keçirilən ***torpaq islahatı*** nəticəsində kənd əhalisinə pay torpaqları verilmişdir. Özəlləşdirilən müəssisələrin torpağı və əmlakı əsasında 1191 kollektiv, 156 kənd təsərrüfatı məhsulları istehsalı kooperativi, 2651 ailə kəndli təsərrüfatı yaradılmışdır, 843,2 min ailə fiziki şəxs kimi fəaliyyət göstərir. Kənd təsərrüfatı məhsullarının 99,7%-ni özəl bölmə verir. Ölkə ərazisinin 55,0%-i və ya 4756,5 min hektarı kənd təsərrüfatına yararlıdır. Ümumi ərazinin 1432,6 min hektarı və ya 16,6%-i suvarılan torpaqlardır. Kənd təsərrüfatına yararlı torpaqların 1808,4 min hektarını əkin yerləri (181,6 min hektarı işğal altındadır), 224,7 min hektarını çoxillik əkmələr, 117,6 min hektarını biçənəklər, 2560,0 min hektarını örüşlər, 45,7 min hektarını dincə qoyulmuş torpaqlar təşkil edir. Ölkə üzrə həyətyanı sahələr 258,1 min hektar (227,6 min hektarı kənd təsərrüfatına yararlıdır), meşə sahələri 1038,8 min hektardır. Kənd təsərrüfatı məhsulları istehsalında bitkiçilik üstünlük təşkil edir və 51,7% paya malikdir (2011). Şirin suyun 67%-i kənd təsərrüfatında istifadə olunur (4,7-6,0 mlrd. m^3). Torpaqların özəlləşdirilməsindən sonra texniki bitkilərin (pambıq, üzüm, tütün, çay) əkin sahələri azalmış, ərzaq və taxıl bitkilərinin əkinləri genişlənmişdir. 2011-ci ildə 967 min ha taxıl əkini sahəsindən 2458,4 min ton, 11,2 min hektar günəbaxan əkini sahəsindən 19,9 min ton, 42,8 min hektar pambıq əkini sahəsindən 66,3 min ton, 65,2 min hektar kartof sahəsindən 938,5 min ton, 81,1 min hektar tərəvəz sahəsindən örtülü və təkrar əkinlər daxil olmaqla 1214,8 min ton, 33,3 min hektar bostan əkini sahəsindən 478 min ton məhsul yığılmışdır. Həmçinin, 765,8 min ton meyvə, 137 min ton üzüm istehsal edilmişdir. Subtropik meyvələrdən nar, əncir, xurma, feyxoa, qərzəkli meyvələr (qoz, fındıq, şabalıd), həmçinin zeytun, zəfəran, çay becərilir. Ölkədə 2670,5 min baş qaramal, o cümlədən 1282,6 min baş inək və camış, 8510,1 min baş qoyun və keçi, 23122,3 min baş quş saxlanılır. Onların hamısı şəxsi təsərrüfatların payına düşür. Azərbaycan özünün əsas ərzaq məhsullarına olan daxili tələbatını təmin edə bilmir. Azərbaycanda ***dəmir yolu*** xətlərinin ümumi uzunluğu 2,1 min km, o cümlədən elektrikləşdirilmiş yolların uzunluğu 1,3 min km-dir. Türkiyə ilə dəmir yolu əlaqəsi yaradılması üçün Bakı-Tbilisi-Axalkalaki-Qars dəmir yolu xətti çəkilir. Astara-Rəşt-Qəzvin xəttinin çəkilməsi şimal-cənub nəqliyyat dəhlizinin yaradılmasına imkan verər. Avtomobil yollarının uzunluğu 19,0 min km, o cümlədən bərk örtüklü yolların uzunluğu 18,8 min km-dir. Bakı-Ağstafa, Bakı-Astara, Bakı-Yalama əsas dəmir və avtomobil magistrallarıdır. Magistral dəmir yolu xətlərindən Yevlax-Balakən, Yevlax-Ağdam-Xankəndi, Quşçu-Alabaşlı, Osmanlı-Astara qolları, avtomobil maristrallarından Yevlax-Balakən, Yevlax-Laçın, Bakı-Şamaxı-Kürdəmir, Yevlax-Ağcabədi-Bəhramtəpə xətləri ayrılır. Qaz kəmərlərinin uzunluğu 4,9 min km, neft kəmərləri 1631 km-dir. Xəzərin Azərbaycan sektorunda hasil olunan neftin daşınması üçün Bakı-Novorossiysk (1346 km), Bakı-Supsa (920 km) və Bakı-Ceyhan (1730 km) ixrac neft kəmərləri çəkilmişdir. Bakı Xəzər hövzəsində ən böyük limandır. Bakı-Həştərxan, Bakı-Mahaçqala, Bakı-Ənzəli əsas xətlər, Bakı-Türkmənbaşı və Bakı-Aktau gəmi-bərə yollarıdır. Son vaxtlar Abşeronun şimalında Qazaxıstan neftinin dünya bazarına çıxarılması üçün Dübəndi limanı tikilmişdir. Ələt qəsəbəsi ətrafında müasir liman kompleksi tikilir. Hava nəqliyyatının inkişafı üçün aeroportlar yararılmışdır. Onlara Bakı, Gəncə, Naxçıvan, Lənkəran, Zaqatala, Qəbələ şəhərləri ətrafında yerləşən hava limanları aiddir.

İQTİSADİ-COĞRAFİ RAYONLAŞDIRMA VƏ İNZİBATİ RAYONLAR

Böyük Qafqaz təbii-iqtisadi zonası

Abşeron iqtisadi-coğrafi rayonu

Quba iqtisadi-coğrafi rayonu

Şəki-Zaqatala iqtisadi-coğrafi rayonu

Dağlıq Şirvan iqtisadi-coğrafi rayonu

Kür-Araz təbii-iqtisadi zonası

Aran iqtisadi-coğrafi rayonu

Kiçik Qafqaz təbii-iqtisadi zonası

Gəncə-Qazax iqtisadi-coğrafi rayonu

Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonu

Kəlbəcər-Laçın iqtisadi-coğrafi rayonu

Lənkəran təbii-iqtisadi zonası

Lənkəran-Astara iqtisadi-coğrafi rayonu

Naxçıvan təbii-iqtisadi zonası

Naxçıvan iqtisadi-coğrafi rayonu (Naxçıvan MR)

İQTİSADİ-COĞRAFİ RAYONLAŞDIRMA VƏ İNZİBATİ RAYONLAR

Respublikanın ayrı-ayrı əraziləri təbii şəraitinə, təbii ehtiyatlarına, təsərrüfatın sahə və ərazi quruluşuna, tarixi inkişaf xüsusiyyətlərinə, məskunlaşmanın inkişaf səviyyəsinə görə bir-birindən fərqlənir və təbii-iqtisadi zonalara ayrılır. Bu zonaların daxilində təsərrüfatın ixtisaslaşma istiqamətləri, perspektiv inkişafı nəzərə alınmaqla iqtisadi-coğrafi rayonlar bölünür. İqtisadi rayonların ayrılması zamanı təsərrüfatın ixtisaslaşma istiqamətləri əsas amil kimi götürülür. ***İqtisadi coğrafi rayon*** - ölkə miqyasında təsərrüfatın ixtisaslaşma istiqamətlərinə görə fərqlənən ərazilərdir. Hər bir iqtisadi-coğrafi rayon özünəməxsus İCM-ə, təbii şəraitə, təbii ehtiyatlara, təsərrüfat quruluşuna və əhalinin milli tərkibinə malikdir.

Təsərrüfatın ixtisaslaşması və kompleks inkişafı iqtisadi-coğrafi rayonun əsas əlamətləridir. Azərbaycanda iqtisadi-coğrafi rayonlar oxşar təsərrüfat quruluşuna, təbii ehtiyatlara və məskunlaşma xüsusiyyətlərinə malik olan inzibati rayonların qruplaşdırılması ilə ayrılır. İqtisadi-coğrafi rayonlar bir-birindən fərqlənsə də, onlar bəzi əlamətlərinə görə oxşar da ola bilərlər. Bu əlamətlərə təbii şəraitin və ehtiyatların eyniliyi, qonşuluq, əhalinin məskunlaşması səviyyəsinin ümumiliyi, təsərrüfat quruluşunda olan oxşarlıq aid edilə bilər. 1995-ci ildə aparılan rayonlaşdırmaya əsasən respublikada 10 iqtisadi-coğrafi rayon ayrılır. Onlara Abşeron, Quba-Xaçmaz, Şəki-Zaqatala, Dağlıq Şirvan, Gəncə-Qazax, Yuxarı Qarabağ, Kəlbəcər-Laçın, Aran, Lənkəran-Astara və Naxçıvan iqtisadi-coğrafi rayonları aiddir. Bu iqtisadi rayonlar 5 təbii-iqtisadi zonada birləşir. Təbii-iqtisadi zonalar əsasən fiziki-coğrafi vilayətlərə uyğun gəlir.

Azərbaycan Respublikasının iqtisadi-coğrafi rayonları

Bakı şəhəri inzibati-ərazi dairəsi

Böyük Qafqaz təbii-iqtisadi zonası
Abşeron iqtisadi-coğrafi rayonu

Abşeron iqtisadi-coğrafi rayonunun tərkibinə Bakı və Sumqayıt şəhərləri, Abşeron, Xızı inzibati rayonları daxildir. İqtisadi-coğrafi rayon ölkənin şərqində, Xəzər dənizinin sahillərində yerləşir və əlverişli iqtisadi-coğrafi mövqeyə malikdir. Sahəsi 5,42 min km²-dir və ölkə ərazisinin 6,3%-ni əhatə edir. Rayonun relyefi dağətəyi təpəli düzənliklər və alçaq dağlıqdan ibarətdir. Quru subtropik iqlim səciyyəvidir.

İqtisadi-coğrafi rayonda əhalinin sayı 2651,4 min nəfərdir və ölkə əhalisinin 28,7%-i burada yaşayır. Əhalinin orta sıxlığı hər km²-ə 489,2 nəfər, urbanizasiya səviyyəsi 98,5%-dir. Abşeron iqtisadi-coğrafi rayonu neft, təbii qaz, əhəng daşı, sement xammalı, kvars və tikinti qumları ehtiyatlarına malikdir. Abşeron yarımadasında zəngin balneoloji ehtiyatlar, bundan başqa bol günəş və külək enerjisi ehtiyatları vardır. Müalicə əhəmiyyətli mineral sular səthə çıxır (Şıx, Suraxanı). Çoxlu palçıq vulkanı (Keyrəki, Lökbatan və s.) yayılmışdır. Abşeronda sənayenin bütün sahələri inkişaf etmişdir. Neft və qazçıxarma, neft-kimya, əsas kimya, qara və əlvan metallurgiya, maşınqayırma (neft-mədən avadanlığı, elektrotexnika, gəmi təmiri), energetika, yüngül və yeyinti sənayesi əsas təsərrüfat sahələridir. Kənd təsərrüfatının əsasını şəhərətrafı təsərrüfat kompleksinə daxil olan südlük-ətlik maldarlıq, quşçuluq, qoyunçuluq, tərəvəzçilik, bostançılıq, üzümçülük, gülçülük və quru subtropik meyvəçilik təşkil edir. İqtisadi-coğrafi rayonda aqroiqlim şəraiti zeytun, zəfəran, badam, püstə, əncir, ağ və qara şanı üzüm növləri, qarpız kimi kənd təsərrüfatı məhsullarının yetişdirilməsinə imkan verir. Abşeron iqtisadi-coğrafi rayonu inkişaf etmiş infrastruktura malikdir.

Bakı – Azərbaycan Respublikasının paytaxtı, ölkənin əsas sənaye, sosial-mədəni, elm, təhsil mərkəzidir. Bakı şəhəri Abşeron yarımadasının cənubunda yerləşir. Xəzərin sahilində ən böyük liman, mühüm nəqliyyat qovşağıdır. Sahəsi 2130 km², əhalisinin sayı 2122,3 min nəfər, şəhər ərazi dairəsində əhalinin sıxlığı 996 nəfər/km²-dir (01.01.2012). Əhalinin milli tərkibində azərbaycanlılar (1848107 nəfər və ya 90,34%), ruslar (108525 nəfər və ya 5,30%), tatarlar (25171 nəfər və ya 1,23%), ləzgilər (24868 nəfər və ya 1,22%), ukraynalılar (21071 nəfər və ya 1,03%), yəhudilər (6056 nəfər və ya 0,30%), gürcülər (2226 nəfər və ya 0,11%) və türklər (2081 nəfər və ya 0,10%) üstünlük təşkil edir. Bakı şəhəri 11 inzibati rayona bölünür, tabeliyində 59 qəsəbə vardır. Əhalisinin sayına görə Qaraçüxur (81,1 min nəfər), Bakıxanov (70,6 min nəfər), Binə (54,0 min nəfər), Biləcəri (45,8 min nəfər), Maştağa (43,1 min nəfər), Hövsan (38,9 min nəfər), Lökbatan (35,8 min nəfər) Mərdəkan (23,3 min nəfər) və Badamdar (21,6 min nəfər) qəsəbələri fərqlənir (01.01.2012). Şəhərin mərkəzi hissəsi və Bakı buxtasından ətraflara doğru relyefin mütləq hündürlüyü tədricən artır və amfiteatr formasındadır. Dənizsahili ərazilər okean səviyyəsindən 27 m aşağıda yerləşir. Bakı şəhərində orta temperatur yanvarda 3°-4°C, iyulda isə 25°-26°C-dir. İllik yağıntıların miqdarı 247 mm-dir. Bakıda ilin çox hissəsində güclü şimal küləyi olan xəzri, cənub və cənub-şərq küləyi olan gilavar əsir. 1967 ildən şəhərdə metropoliten fəaliyyət göstərir. Arxeoloji qazıntılar Abşeron yarımadasının qədim dövrlərdən yaşayış məskəni olduğunu göstərir. Bakı şəhəri V əsrdən məlumdur. Bakının tarixi-memarlıq abidələrindən ən mühümü İçəri şəhərdir. Burada müxtəlif dövrlərə aid 50-dən çox tarixi-memarlıq abidələri (Şirvanşahlar sarayı, XII əsrə aid Qız qalası, XI əsrə aid Sınıq qala və s.) vardır. Bakı şəhərində 124 xəstəxana, 390 məktəbəqədər müəssisə, 365 orta ümümtəhsil müəssisəsi, 125 kütləvi kitabxana, 32 muzey, 1215 sənaye müəssisəsi vardır (2012).

Sumqayıt şəhəri – Abşeron yarımadasının şimal-qərbində, Xəzər dənizinin sahillərində yerləşir. Şəhər Bakıdan 35 km şimal-qərbdə, Sumqayıt çayının mənsəbində, ovalıq sahədə salınmışdır. İqtisadi potenisialına görə Sumqayıt ölkədə ikinci, əhalisinin sayına görə üçüncü yeri tutur. Şəhərin sahəsi 80 km², əhalisinin sayı 318,7 min nəfər, şəhər ərazi dairəsində əhalinin sıxlığı hər km²-də 3984 nəfərdir (01.01.2012). Əhalinin milli tərkibində azərbaycanlılar (302461 nəfər və ya 97,74%), ləzgilər (3488 nəfər və ya 1,13%), ruslar (2143 nəfər və ya 0,69%) və talışlar (475 nəfər və ya 0,15%) üstünlük təşkil edir (2009). Şəhər ərazi dairəsinə H.Z.Tağıyev (21,2 min nəfər) və Corat (12,9 min nəfər) qəsəbələri tabedir (01.01.2012). Şəhər quru subtropik iqlim zonasında yerləşir. Yanvarın orta temperaturu 3,1°C, iyul 24,6°C-dir. İllik yağıntıların miqdarı 185 mm-dir. Sumqayıt 1949-cu ildə şəhər statusu almışdır. Şəhərdə 116 sənaye müəssisəsi fəaliyyət göstərir, 52 ümumtəhsil məktəbi, 57 məktəbəqədər uşaq müəssisəsi, 17 klub, 22 kitabxana, 2 muzey, 17 səhiyyə müəssisəsi vardır (2012). Əsas ali və orta təhsil mərkəzlərinə Sumqayıt Dövlət Universiteti, Azərbaycan Müəllimlər İnstitutunun Sumqayıt filialı, Texnologiya İnstitutu, Sumqayıt Dövlət Texniki Kolleci aiddir. AMEA-nın Polimer Materialları İnstitutu, "Azərkimya" Layihə İnstitutu vardır. Boru Prokat zavodu, Alüminium zavodu, kimya, yüngül və yeyinti sənayesi müəssisələri iqtisadi bazanın əsasını təşkil edir.

Ölkədə son vaxtlarda müasir infrastruktur obyektləri tikilir. Bakıda müasir tipli mehmanxana kompleksi

Abşeron rayonu

1:300 000

Abşeronda çoxlu sayda şorsulu göllər vardır

Abşeron rayonunda zəngin tarixi-memarlıq abidələri qorunur. Goradildə Əbdürəhman məscidi (1861-1905), Saray qəsəbəsində Kəsrani türbələri və Karvansara, Hamam (XVIII əsr), Novxanı kəndində Şah Sultan Hüseyn məscidi (XVII əsr), Fatmayı kəndində Hacı Heybət məscidi (XVII əsr), Salam məscidi (XVIII əsr), Masazır kəndində məscid (XVIII əsr), türbə (XIX əsr) və s. vardır. Məmmədli kəndində olan "Yanardağın" qorunması üçün Tarix-mədəniyyət və təbiət qoruğu təşkil edilmişdir. Kənddə XIX əsrə aid Şahsevən məscidi yerləşir.

Abşeron inzibati rayonu – 04.01.1963-cü ildə təşkil edilmişdir. Abşeron rayonu Böyük Qafqazın cənub-şərq hissəsini tutur, Abşeron yarımadasının qərbi və Qobustan alçaq dağlıq sahəsində yerləşir.

Sahəsi 1361,4 km², əhalinin sayı 195,1 min nəfər, o cümlədən şəhər əhalisi 161,5 min nəfər, kənd əhalisi 33,6 min nəfərdir (01.01.2012). Mərkəzi Xırdalan şəhəridir (əhalisi 93,6 min nəfər). Əhalinin sıxlığı 143 nəfər/km²-dir. Rayonda 1 şəhər, 8 qəsəbə, 6 kənd ərazi dairəsi, 7 kənd yaşayış məntəqəsi vardır.

Rayonun relyefində quru dərələr, yarğanlar, təpələr və çökəkliklər geniş sahə tutur. Xəzərin sahilləri okean səviyyəsindən 27 metr aşağıdadır. Cənub-şərqdə Kiçik Hərəmi-Ələt tirəsi uzanır. Tabaşir, Paleogen, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Çoxlu palçıq vulkanı vardır. Onlar arasında olan "Yanardağ" Məmmədli kəndi yaxınlığında yerləşir, Torağay vulkanı 400 m yüksəlir.

Rayonun düzən ərazilərində quru subtropik, qalan ərazilərdə mülayim-isti iqlim hakimdir. Yanvarda orta temperatur 2,5°C, iyulda 26°C-dir. Yağıntıların illik miqdarı 110-550 mm arasında olur. Rayonun ərazisində çay şəbəkəsi seyrəkdir, yayda quruyur. Onlara Pirsaat, Sumqayıt, Ceyrankeçməz və onların qolları aiddir. Masazır gölü və Ceyranbatan su anbarı rayonun ərazisində iri su hövzələridir. Abşeronda boz-qonur, şorakətvarı boz-qonur, şabalıdı, dağ-şabalıdı torpaqları yayılır. Yarımsəhra və quru çöl bitkiləri geniş ərazidə yayılır. Heyvanat aləminə yenot, çöl siçanı, sürünənlər, kəklik, göyərçin, qaraqarın, bağrıqara quşları aid edilir.

Abşeronun kənd təsərrüfatında dənli, bostan-tərəvəz bitkiləri, zeytun, üzüm, kartof becərilir. Əsas sənaye müəssisələri Xırdalan şəhərində yerləşir. Rayonda "Azbentonit", "Mətanət-A", Duz Zavodu, Ət emalı şirkətləri vardır.

Xızı inzibati rayonu - 08.08.1930 ildə təşkil edilmişdir. 04.12.1956 ildə ləğv olunaraq ərazisi Sumqayıt şəhərinə, Siyəzən, Dəvəçi (Şabran) və Mərəzə (Qobustan) rayonlarına verilmiş, 24.04.1990 ildə yenidən bərpa edilmişdir. Rayon Böyük Qafqazın şimal-şərq yamaclarında yerləşir. Şərqdə Xəzər dənizi ilə əhatə olunur. Xızı rayonu Azərbaycanı Rusiya ilə birləşdirən nəqliyyat yolları üzərindədir. Sahəsi 1853 km², əhalinin sayı 15,3 min nəfər, o cümlədən şəhər əhalisi 7,7 min nəfər, kənd əhalisi 7,6 min nəfərdir (01.01.2012). Mərkəzi Xızı şəhəridir (əhalisi 1,3 min nəfər). Əhalinin sıxlığı 8 nəfər/km²-dir. Rayonda 1 şəhər, 3 qəsəbə, 8 kənd ərazi dairəsi, 25 kənd yaşayış məntəqəsi vardır. Əhalisinin sayına görə Giləzi (3,3 min nəfər), Şurabad (1,9 min nəfər), Altıağac (1,2 min nəfər) qəsəbələri (01.01.2012), Sitalçay (2087 nəfər) və Yeni Yaşma (1861 nəfər) kəndləri fərqlənir (2009).

Rayonun relyefində alçaq dağlıq və düzənliklər üstünlük təşkil edir. Ən yüksək nöqtə Dübrar dağıdır (2205 m). Ərazinin Yaşma-Giləzi xəttindən Xəzərsahilinə qədər hissəsi okean səviyyəsindən 27 metrə qədər aşağıdır. Geoloji quruluşunda Tabaşir, Paleogen, Neogen və Antropogen çöküntüləri geniş yayılmışdır.

Düzənliklərdə yaranan quru subtropik iqlim dağlıq ərazilərdə mülayim-isti iqlim tipinə keçir. Yanvarın orta temperaturu düzənlikdə 2,5°C, dağlarda -4,5°C, iyulda isə düzən ərazilərdə 26°C, dağlarda 19,0°C qeydə alınır. İl ərzində 110-550 mm arasında yağıntı düşür. Rayonun ərazisindən Ataçay, Tuğ, Sumqayıt çayları axır, çoxlu bulaqlar vardır. Yayılmış əsas torpaq tiplərinə şorakətvarı boz-qonur, şabalıdı, açıq şabalıdı, tünd şabalıdı tipləri aiddir. Əsasən yarımsəhra və quru çöl bitkiləri bitir. Xızı rayonunun şimal-qərb hissəsində meşələr və dağ çəmənlikləri vardır. Onların qorunması üçün Altıağac Milli Parkı və Altıağac qoruğu yaradılmışdır. Milli parkın bir hissəsi Siyəzən

rayonu ərazisinə keçir. Əsas heyvan növlərinə qonur ayı, çöl donuzu, cüyür, yenot, çöl siçanı, quşlardan berkut, kəklik aiddir, çoxlu sürünənlər yaşayır.

Xızı rayonunun kənd təsərrüfatında dənli bitkilər, bostan-tərəvəz məhsulları, üzüm, kartof becərilir. Heyvandarlıqda maldarlıq və qoyunçuluq əsas yer tutur. Sənaye müəssisələri azdır, bu sahə zəif inkişaf etmişdir. Son vaxtlarda rayonda istirahət və turizm mərkəzləri yaradılır.

Xızı son vaxtlarda şəhərlər sırasına daxil edilmişdir

Quba-Xaçmaz iqtisadi-coğrafi rayonu

İqtisadi-coğrafi rayonunun tərkibinə Xaçmaz, Quba, Qusar, Şabran və Siyəzən inzibati rayonları daxildir. İqtisadi rayon Böyük Qafqazın şimal-şərq yamaclarında, Baş Qafqaz sıra dağlarının suayrıcı xətti ilə Xəzər dənizi arasında yerləşir. Sahəsi 6,96 min km²-dir və ölkə ərazisinin 8,0%-ni əhatə edir. Əsas relyef formalarına Baş Qafqaz sıra dağları, Yan silsilə, Qusar maili düzənliyi, Şollar düzü və Samur-Dəvəçi (Şabran) ovalığı aiddir. İqtisadi rayonda əhalinin sayı 505,4 min nəfər, o cümlədən şəhər əhalisi 170,9 min nəfər, kənd əhalisi 334,5 min nəfərdir. Ölkə əhalisinin 5,5%-i burada yaşayır. Əhalinin orta sıxlığı hər km²-ə 73 nəfər, urbanizasiya səviyyəsi 33,8%-dir (01.01.2012). Neft, təbii qaz, yanar şist, qum, çınqıl, gil əsas təbii sərvətlərdir. İqtisadi rayon sıx çay şəbəkəsinə və bol su ehtiyatlarına malikdir, ərazinin 10-11%-i meşələrlə örtülmüşdür. Nabran-Yalama zonasında, Xəzər dənizinin sahillərində olan meşələr, qızmar yay və qumluqlar əsas istirahət zonalarıdır. Kənd təsərrüfatı tərəvəz və meyvə istehsalı üzrə ixtisaslaşmışdır. Bundan başqa üzüm, kartof, günəbaxan və bostan məhsulları yetişdirilir. İqtisadi rayonun əhali məskunlaşan hər yerində taxıl əkilir, düzənlik ərazisində südlük-ətlik istiqamətli maldarlıq, dağətəyi və dağlıq zonasında isə qoyunçuluq inkişaf etmişdir. İqtisadi rayonda kənd təsərrüfatının inkişafı yüngül və yeyinti sənayesinin inkişafına təkan vermişdir. Aqrar-sənaye kompleksinin əsasını meyvə-tərəvəz konservi istehsalı (Xaçmaz, Quba), xalça toxuculuğu (Quba, Qusar, Xaçmaz, Şabran), tikinti materialları (qum-çınqıl) hasilatı sahələri təşkil edir. Neft və qaz hasilatı (Siyəzən) iqtisadi-coğrafi rayonun ağır sənaye əsasıdır. Son vaxtlarda Xaçmazda və Qubada Modul İES-lər qurulmuşdur. İqtisadi rayon ərazisindən keçən telekommunukasiya xətləri ölkənin nəqliyyat-iqtisadi əlaqələrinin inkişafında mühüm rola malikdir.

Şabran inzibati rayonu - 08.08.1930 ildə təşkil edilmişdir. 04.01.1963 ildə ləğv edilərək ərazisi Abşeron rayonuna verilmiş, 06.01.1965 ildə yenidən təşkil olunmuşdur. 02.04.2010-cu ilə qədər Dəvəçi rayonu adlanmışdı. Şabran rayonu Böyük Qafqazın şimal-şərq yamaclarında, Azərbaycanı Rusiya Federasiyası ilə birləşdirən nəqliyyat-kommunikasiya xətləri üzərində, əlverişli İCM-də yerləşir. Rayonun sahəsi 1088,2 km², əhalisinin sayı 53,9 min nəfər, o cümlədən şəhər əhalisi 23,3 min nəfər, kənd əhalisi 30,6 min nəfərdir (01.01.2012). Mərkəzi Şabran şəhəridir (əhalisi 23,3 min nəfər). Rayonda 1 şəhər, 16 kənd ərazi dairəsi, 68 kənd yaşayış məntəqəsi vardır. Rayondan axan Vəlvələ, Gilgil, Şabran, Dəvəçi çayları Xəzər dənizinə tökülür. Xəzərin sahilində Dəvəçi limanı (Ağzıbirçala gölü) yerləşir. Şabranın dağlıq sahələrində qəhvəyi dağ-meşə, dağ-şabalıdı, şabalıdı və açıq şabalıdı, ovalıq sahədə boz-qonur, boz-çəmən, allüvial-çəmən, çəmən-meşə torpaqlar, dənizin sahilində qumluqlar yayılmışdır. Bitki örtüyü əsasən kollu və seyrək meşəli çəmənliklərdən, yovşanlı-şoranotulu yarımsəhralardan ibarətdir. Dağların yamacında fıstıq ağaclarından ibarət meşəliklər yayılır. Taxıl, tərəvəz, kartof, üzüm, bostan bitkiləri becərilir. Heyvandarlıqda maldarlıq və qoyunçuluq əsas yer tutur. Sənayesinin əsasını emal və toxuculuq müəssisələri təşkil edir. Sənaye obyektlərinə "Şabran-Dəyirman" ASC, "Şabran-Broyler "Quşçuluq fabriki, "Pirəbədil" xalça sexi, süd qəbulu və emalı məntəqəsi daxildir. Çayların yatağında qum-çınqıl hasil olunur. Rayonun tarixi-memarlıq abidələrinə Dəmir dövrünə aid Ağmuł yaşayış yeri, V-VI əsrlərə aid Çıraqqala, Şabran şəhəri arxeoloji abidəsi, orta əsrlərə aid Almastəpə, Dağbilici, Rustəpə yaşayş yerləri, Beşbarmaq səddi, XIX əsrə aid məscidlər aid edilə bilər. Çıraqqala və Şabran şəhəri tarixi-memarlıq abidələri qoruq elan olunmuş və beynəlxalq turizm marşrutuna daxil edilmişdir.



Çıraqqala tarixi əhəmiyyətli abidələrdən biridir

Şabran rayonunda Xəzərin sahilləri boyu yerləşən Samur-Dəvəçi (Şabran) ovalığı okean səviyyəsindən 27 mertə qədər aşağıdır, mütləq hündürlük Dübrar silsiləsində 2205 metrə çatır. Əsas faydalı qazıntılara neft, çınqıl, qum aiddir, müalicə əhəmiyyətli mineral sular səthə çıxır. Yarımsəhra və quru çöl iqlimi, dağlara doğru getdikcə şimalda yağıntıları bərabər paylanan mülayim-isti, cənubda yayı quraq keçən mülayim-isti iqlim, sonra isə qışı quraq keçən mülayim-isti iqlim formalaşır. Yanvarın orta temperatur -3°C-dən 1,5°C-yə qədər, iyulda 14°C-dən 25°C-yə qədər olur. Yayı quraq keçir. Yağıntıların illik miqdarı 300-650 mm-ə çatır.

Quba rayonunda memarlıq abidələrinə Baba Rüstəm Türbəsi (XVIII əsr), Ərdəbil məscidi (XIX əsr), Qala (XVII əsr), Hamam və Körpü (XIX əsr), Xınalıqda Atəşpərəstlər məbədi (IX əsr), Şeyx Şalbuz məscidi (XIX əsr), Yerfi kəndi ətrafında Qala (XIX əsr) və Müdafiə qülləsi (XI-XII əsrlər), Ağbil kəndində Türbə (XVI əsr), Muçu kəndi ətrafında orta əsrlərə aid yaşayış yeri aiddir.

Eroziya prosesləri dağların intensiv aşınmasına səbəb olur

Quba inzibati rayonu - 08.08.1930-cu ildə təşkil edilmişdir. Böyük Qafqazın şimal-şərq yamaclarında, Baş Qafqaz sıra dağlarının suayrıcı xətti ilə Samur-Dəvəçi (Şabran) ovalığı arasında yerləşir. Rayonun sahəsi 2574 km², əhalisinin sayı 157,6 min nəfər, o cümlədən şəhər əhalisi 38,7 min nəfər, kənd əhalisi 118,9 min nəfərdir (01.01.2012). Mərkəzi Quba şəhəridir (əhalisi 23,9 min nəfər). Əhalinin sıxlığı 61 nəfər/km²-dir. Rayonda 1 şəhər, 7 qəsəbə, 27 kənd ərazi dairəsi, 149 kənd yaşayış məntəqəsi vardır. Rayonun relyefi dağətəyi maili düzənliklər, orta və yüksək dağlıq sahələrdən ibarətdir. Şimal-şərq hissədə Qusar maili düzənliyi və Samur-Dəvəçi (Şabran) ovalığı yerləşir. Cənub-qərbdə sərhəd Baş Qafqaz silsiləsinin suayrıcısı boyu keçir. Baş Qafqaz silsiləsinə paralel olaraq Yan silsilə uzanır. Burada Yarımsa, Yerfi, Mıxtökən, Təngi silsilələri qollar formasında ayrılır. Rayon ərazisində Qızılqaya (3726 m), Babadağ (3629 m), Şahnəzər (2874 m) zirvələri yüksəlir. Geoloji yaşına görə Yura, Tabaşir, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntılara yanar şist, çınqıl, qum, gil aiddir, mineral bulaqlar səthə çıxır. Düzənlik və dağətəyi sahələrdə yağıntıları bərabər paylanan mülayim isti, yüksək dağlıqda soyuq və dağ-tundra iqlimi hakimdir. Yanvarda orta temperatur -2°C-dən -14°C-yə qədər, iyulda 5°C-dən 23°C-yə qədərdir. Yağıntıların illik miqdarı düzənliklərdən dağlara doğru 500 mm-dən 900 mm-ə qədər artır, əsas hissəsi payızda düşür. Rayonun ərazisindən axan Qudyal, Qaraçay, Vəlvələ çayları Xəzər dənizi hövzəsinə aiddir. Əsasən torflu və çimli dağ-çəmən, qonur dağ-meşə, qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Dağlıq sahələrdə alp və subalp çəmənləri geniş sahə tutur, bundan aşağılarda fıstıq, vələs və palıd ağaclarının üstünlük təşkil etdiyi enliyarpaqlı dağ meşələri yayılır. Bitki və heyvanat aləmi Şahdağ milli parkında qorunur. Quba ölkənin əsas meyvəçilik rayonu kimi tanınır. 2011-ci ildə 14480 ha sahədən 117480 t meyvə və giləmeyvə yığılmışdır. Rayonun kənd təsərrüfatında dənli, bostan-tərəvəz bitkiləri, günəbaxan, üzüm, kartof becərilir. Burada konsentrat sexi, 4 meyvə emalı sexi vardır.

Xaçmaz inzibati rayonu – 08.08.1930-cu ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə ləğv olunmuş, ərazisi Quba və Qusar rayonlarına verilmiş, 06.01.1965-ci ildə yenidən təşkil edilmişdir. Xaçmaz rayonu Azərbaycandan Rusiyaya gedən yollar üzərində, əlverişli İCM-də yerləşir. Şimalda Rusiya Federasiyası ilə həmsərhəddir, şərqdə Xəzər dənizinin suları ilə yuyulur, Samur-Dəvəçi (Şabran) ovalığında yerləşir. Bu ərazilərdə Antropogen yaşlı çöküntülər yayılır. Rayonda yarımsəhra və quru çöl iqlimi, qərbdə yayı quraq keçən mülayim-isti iqlimlə əvəz olunur. Orta temperatur yanvarda 1,2°C, iyulda 23°-24°C-dir. Yağıntıların illik miqdarı 300-450 mm-dir, əsasən payızda düşür. Rayonun ərazisindən axan Samur, Qusar, Qudyal, Qara, Vəlvələ çayları Xəzər hövzəsinə aiddir, qərbindən Samur-Abşeron kanalı keçir. Çəmən-meşə, şabalıdı və açıq-şabalıdı, Xaçmazda yayılan əsas torpaq tipləridir. Burada çəmənlik və kolluqlar yayılmışdır, sahilboyu düzənliklərdə meşələr vardır. Heyvanlar aləminə çöl donuzu, yenot, qırqovul, qutan, ördək, kəklik və s. aiddir. Sahilboyu sular balıqla (külmə, çəki, kilkə, şamayı və s.) zəngindir. 2012-ci ildə Samur-Yalama milli Parkı yaradılmışdır. Xaçmazın kənd təsərrüfatında dənli bitkilər, əsasən buğda becərilməsi, tərəvəzçilik, meyvəçilik və heyvandarlıq mühüm yer tutur. Rayonda kartof, günəbaxan, üzüm, bostan bitkiləri becərilir. "Qafqaz" Konserv zavodu, Üzüm emalı zavodu, Çörək kombinatı, Pivə zavodu fəaliyyət göstərir. Çayların yatağında qum-çınqıl hasil olunur. Xaçmaz rayonu ərazisində Dəmir dövrünə aid Şəhərgah yaşayış yeri (Tel kəndi), Müqtədirtəpə yaşayış yeri (IX-XIII əsrlər), Tunc dövrünə aid Padartəpə yaşayış yeri, XIX əsrə aid Kilsə, Şıxlar kəndi ətrafında XV əsrə aid Şeyx Yusif Türbəsi, Məscid (XVI əsr), Altıguşəli Türbə (XIX əsr)və s. mühafizə olunur.

Xaçmaz rayonu

Xaçmaz şəhərində istirahət mərkəzi

Xaçmaz rayonunun sahəsi 1046 km², əhalisinin sayı 164,5 min nəfər, o cümlədən şəhər əhalisi 64,1 min nəfər, kənd əhalisi 100,4 min nəfərdir (01.01.2012). Mərkəzi Xaçmaz şəhəridir (əhalisi 39,9 min nəfər). Əhalinin sıxlığı 157 nəfər/km²-dir. Rayonda 2 şəhər, 12 qəsəbə, 24 kənd ərazi dairəsi, 137 kənd yaşayış məntəqəsi vardır. Əhalisinin sayına görə Xudat şəhəri (15,8 min nəfər), Yeni Həyat (1,9 min nəfər), Müqtədir (2,1 min nəfər), Arzu (1,3 min nəfər) qəsəbələri (01.01.2012), Qusarçay (5019 nəfər), Köhnə Xaçmaz (3855 nəfər), Yalama (2436 nəfər), Çarxı (3102 nəfər), Nərəcan (2853 nəfər), Ləcət (2221 nəfər) və Qaraqurdlu (2132 nəfər) kəndləri fərqlənir (2009).

Qusar rayonu

1:380 000



Qusarın ərazisinin çox hissəsini dağlar tutur

Qusar rayonunun sahəsi 1542 km², əhalisinin sayı 90,5 min nəfər, o cümlədən şəhər əhalisi 19,5 min nəfər, kənd əhalisi 71,9 min nəfərdir (01.01.2012). Mərkəzi Qusar şəhəridir (əhalisi 17,4 min nəfər). Əhalinin milli tərkibində azərbaycanlılar (7956 nəfər və ya 9,06%), ləzgilər (79629 nəfər və ya 90,63%), türklər (102 nəfər və ya 0,12%) və xınalıqlılar (20 nəfər və ya 0,02%) üstünlük təşkil edir (2009). Rayonda 1 şəhər, 1 qəsəbə, 27 kənd ərazi dairəsi, 88 kənd yaşayış məntəqəsi vardır. Samur qəsəbəsində 2,1 min nəfər əhali yaşayır (01.01.2012). Əhalisinin sayına görə Hil (5023 nəfər), İmamqulukənd (2707 nəfər), Urva (2381 nəfər) və Gədəzeyxur (2355 nəfər) kəndləri fərqlənir (2009).

Qusar inzibati rayonu - 08.08.1930-cu ildə yaradılmışdır. Yarandığı dövrdən 15.03.1938-ci ilə qədər Hil rayonu adlanmışdır. Qusar rayonu Böyük Qafqazın şimal-şərq yamaclarında yerləşir. Rayon Baş Qafqaz sıra dağlarının suayrıcı xəttindən Samur-Dəvəçi (Şabran) ovalığına qədər uzanır. Rusiya ilə dövlət sərhəddi boyu Sudur silsiləsi yerləşir. Rayonun şimal-şərq kənarında Samur-Dəvəçi (Şabran) ovalığı, mərkəzi sahələrində Qusar maili düzənliyi, cənub-qərb hissəsində Baş Qafqaz və Yan silsilələri (Şahdağ zirvəsi, 4243 m, Yarudağ, 4116 m) ayrılır. Ərazinin geoloji quruluşunda Yura, Tabaşir, Neogen və Antropogen yaşlı gil, qum, əhəngdaşı və s. çöküntülər yayılmışdır. Düzənlik və dağətəyi sahələrdə yağıntıları bərabər paylanan mülayim-isti, yüksək dağlıqda soyuq və dağ-tundra iqlimi hakimdir. Yanvarın orta temperaturu düzənlikdəki 1°C-dən yüksək dağlıqda -14°C-yə qədər, iyulda müvafiq olaraq 22°C-dən 5°C-yə qədər azalır. İllik yağıntıların miqdarı 500-900 mm-dir. Rayonun ərazisindən axan Samur və Qusar çayları Xəzər dənizinə tökülür. Samur-Abşeron kanalı burada yerləşən Samur qəsəbəsi yaxınlığından başlanır. Yayılan torpaqlara torflu və çimli dağ-çəmən, qonur dağ-meşə, tipik və karbonatlı dağ-meşə, qəhvəyi dağ-meşə və allüvial-çəmən tipləri aiddir. Dağlarda bitki örtüyü alp və subalp çəmənlərindən, maili düzənlikdə enliyarpaqlı meşələrdən (fıstıq, vələs, palıd) ibarətdir. Çəmən və kolluqlar geniş sahə tutur. Rayonda Şahdağ milli parkı və Qusar yasaqlığı yaradılmışdır. Qusar rayonunun kənd təsərrüfatında dənli və paxlalı bitkilər, əsasən buğda becərilir, tərəvəzçilik, meyvəçilik və heyvandarlıq (maldarlıq, qoyunçuluq) mühüm yer tutur. Bundan başqa rayonda kartof, üzüm də becərilir. Sənayedə konserv zavodu, şərab emalı müəssisəsi, meyvə-tərəvəz soyuducuları vardır. Rayonun ərazisində Həzrə kəndi ətrafında 1544 ilə aid Şeyx Cüneyd məqbərəsi, Qalaxur yaşayış yeri (IV-XVI əsrlər) vardır. İlkin orta əsrlərə aid Qızlartəpə yaşayış yeri (IV-VII əsrlər), Qurupel yaşayış yeri (III-VII əsrlər), orta əsrlərə aid Kalaysuvar yaşayış yeri (Samur qəsəbəsi), Qızılgül və Ağaxantəpə yaşayış yerləri, "Yeddi qardaş, bir bacı" yaşayış yeri, XVII əsrə aid Xudat qalası, XVIII-XIX əsrlərə aid məscidlər və s. memarlıq abidələri vardır.

Siyəzən inzibati rayonu - 11.02.1940-cı ildə təşkil edilmiş, 04.12.1959-cu ildə ləğv olunaraq ərazisi Şabran rayonunun tərkibinə qatılmış, 02.04.1992-ci ildə yenidən bərpa edilmişdir. Siyəzən Samur-Dəvəçi (Şabran) ovalığında, Xəzərin sahilindədir. Rayonun sahəsi 703,4 km², əhalisinin sayı 38,9 min nəfər, o cümlədən şəhər əhalisi 23,4 min nəfər, kənd əhalisi 13,6 min nəfərdir (01.01.2012). Mərkəzi Siyəzən şəhəridir (əhalisi 24,3 min nəfər). Əhalinin sıxlığı 56 nəfər/km²-dir. Rayonda 1 şəhər, 1 qəsəbə, 9 kənd ərazi dairəsi, 32 kənd yaşayış məntəqəsi vardır. Gilgilçay qəsəbəsində 1000 nəfər əhali yaşayır (01.01.2012). Əhalisinin sayına görə Yenikənd (3067 nəfər), Böyük Həmyə (1938 nəfər), Zarat (1410 nəfər) və Eynibulaq (930 nəfər) kəndləri fərqlənir (2009). Rayonun relyefi cənub-qərbdə alçaq dağlıq sahələrdən ibarətdir. Şimal-şərq hissə Samur-Dəvəçi (Şabran) ovalığına daxildir. Xəzər sahili ərazilər okean səviyyəsindən 27 metr aşağıda yerləşir. Dübrar silsiləsinin cənub-şərq kənarları Siyəzən rayonu ərazisindədir və mütləq hündürlük 1283 metrə çatır. Vərəftə silsiləsi (Sərəkü d, 958 m) də rayonun ərazisindən başlanır. Geoloji quruluşunda Təbaşir, Neogen və Antropogen yaşlı çöküntülər yayılmışdır. Faydalı qazıntılardan neft, təbii qaz, əhəng daşı, çınqıl, gil yataqları vardır. Müalicə əhəmiyyətli mineral sular (Qalaaltı) səthə çıxır. Ovalıq və dağətəyi zonalarda yarımsəhra və quru çöl iqlimi, alçaq dağlıq sahələrdə yayı quraq keçən mülayim-isti iqlim yaranır. Havanın orta temperaturu yanvarda 1,5°C, iyulda 23°-25°C-dir. Yay isti və quraq keçir. Yağıntıların illik miqdarı 200-400 mm-dir. Rayon ərazisində axan Gilgil və Ata çayları

1:240 000

Xəzər dənizinə tökülür. Dağlarda qəhvəyi dağmeşə, aşağı hissələrdə şabalıdı və açıq şabalıdı, ovalıqda boz-qonur torpaqlar, sahillərdə qumluqlar yayılmışdır. Əsas bitki örtüyü yovşanlı və yovşanlı-şoranotulu yarımsəhralardan və dəniz sahili qumluq bitkilərdən ibarətdir. Heyvanat aləminə tülkü, boz dovşan, yenot, çöl siçanı, quşlardan göyərçin, qaraqarın bağrıqara və su quşları (qızılqaz, bəzgək, cüllüt) aiddir. Altıağac Milli parkının bir hissəsi Siyəzəndə yerləşir. Rayonun təsərrüfatının əsasını neft sənayesi təşkil edir. Əkinçilikdə dənli-paxlalı bitkilər, meyvə-tərəvəz, kartof, üzüm, bostan bitkiləri becərilir. Heyvandarlıqda maldarlıq, qoyunçuluq, quşçuluq, balıqçılıq sahələri mühüm əhəmiyyət kəsb edir. "Siyəzənneft" NQÇİ, "Siyəzən-Broyler" ATSC, Kərpic zavodu müəssisələri vardır, çaylarda çınqıl hasil olunur. Rayonun tarixi abidələrinə Tunc dövrünə aid Nekropol, V-VI əsrlərə aid Çıraqqala, Xəlil türbəsi (XVIII əsr), Karvansara qalıqları (XV-XVIII əsrlər), orta əsrlərə aid Dindağ müdafiə qalası daxildir.

Beşbarmaq dağı

Şəki-Zaqatala iqtisadi-coğrafi rayonu

İqtisadi-coğrafi rayonun tərkibinə Balakən, Qax, Qəbələ, Oğuz, Şəki və Zaqatala inzibati rayonları daxildir. Şəki-Zaqatala Azərbaycanın şimal-qərbində, Böyük Qafqaz dağlarının cənub yamaclarında və Qanıx-Əyriçay vadisində yerləşir. Sahəsi 8,96 min km²-dir və ölkə ərazisinin 10,3%-ni əhatə edir. İqtisadi rayonda əhalinin sayı 581,7 min nəfər, o cümlədən şəhər əhalisi 160,7 min nəfərdir. Ölkə əhalisinin 5,7%-i burada yaşayır. Urbanizasiya səviyyəsi 27,6%-dir (01.01.2012). Əhali əsasən dağətəyi ərazilərdə yaşayır. İqtisadi rayonun ərazisi faydalı qazıntılarla zəngindir. Qafqazın iri polimetal yataqlarından biri olan Filizçay burada yerləşir. Meşələr ərazinin 27%-ni örtür, əsas hissəsi Balakən və Zaqatala rayonlarının payına düşür. Çaylarda baş verən sel hadisələri ciddi problemlər yaradır. Bura ölkənin seysmik cəhətdən fəal olan zonalarına daxildir. Kənd təsərrüfatının əsasını taxılçılıq, tütünçülük, qərzəkli meyvəçilik, tərəvəzçilik, üzümçülük təşkil edir, çay, kartof, çəltik, günəbaxan, qızılgül becərilir. Sənaye zəif inkişaf etmişdir, kənd təsərrüfatı məhsullarını emal edən yüngül və yeyinti sənaye sahələri üzrə ixtisaslaşmışdır. Yeyinti sənayesində bağçılıq, tütünçülük və heyvandarlıq məhsulları emal olunur. Yüngül sənayenin əsasını Şəkidə olan müəssisələr təşkil edir. Tütünçülüyün inkişafı və əvvəllər fəaliyyət göstərən (Şəki, Qəbələ, Balakən və Zaqatalada) tütün-fermentasiya zavodlarının bərpası zəruridir. Şəki-Zaqatala iqtisadi-coğrafi rayonu mənzərəli təbiətinə görə ölkənin mühüm istirahət-turizm regionlarından biridir. Qəbələdə böyük istirahət-turizm mərkəzləri fəaliyyət göstərir. Yevlax-Balakən dəmir və avtomobil yollarından istifadə olunur. Dəmir yolu xətti 1986-cı ildə istifadəyə verilmişdir. Zaqatala və Qəbələdə son vaxtlar hava limanları tikilmişdir, Şəkidə də aeroport vardır.

Şəki inzibati rayonu – 08.08.1930-cu ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə ləğv edilərək Oğuz (Vartaşen) rayonuna verilmiş, 06.01.1965-ci ildə yenidən təşkil olunmuşdur. 15.03.1968 ilə qədər Nuxa rayonu adlanmışdır. Şəki rayonu Böyük Qafqazın cənub yamacında yerləşir. Rayonun sahəsi 2432,8 km², əhalisinin sayı 175,7 min nəfər, o cümlədən şəhər əhalisi 66,1 min nəfər, kənd əhalisi 109,6 min nəfərdir (01.01.2012). Mərkəzi Şəki şəhəridir (əhalisi 63,7 min nəfər). Rayonda 1 şəhər, 2 qəsəbə, 31 kənd ərazi dairəsi, 68 kənd yaşayış məntəqəsi vardır. Şəki rayonunun şimalı Baş Qafqaz silsiləsinin cənub yamaclarına, mərkəzi hissəsi Qanıx-Əyriçay vadisinə, cənubu Acınohur alçaq dağlığına daxildir. Baş Qafqaz silsiləsindən cənuba doğru Qaflan (Qaflan d., 2879 m), Layski, Qaraquzey, Qızılçay köndələn tirələri ayrılır. Acınohur alçaq dağlığı Daşüz-Əmirvan (829 m) və Xocaşen (Xoşavənd d., 717 m) silsilələrindən ibarətdir. Dağlar arasında Şəki rayonunda Acınohur çökəkliyi (100-200 m) və Şəki yaylası (200-400 m) ayrılır. Mütləq hündürlük Baş Qafqaz silsiləsinin suayrıcında 3683 m-ə qədər (Seyidyurd d.) yüksəlir. Faydalı qazıntılara mis, titan, molibden, qum, gil çınqıl, əhəngdaşı və s. aiddir. Mineral bulaqlar səthə çıxır. Yanvarın orta temperaturu 1°C-dən -10°C-yə qədər, iyulda alçaq ərazilərdə 26°C, dağlarda 10°C qeydə alınır. Yağıntıların orta illik miqdarı 400-1400 mm arasında dəyişir. Rayondan axan çaylar Əyriçay (Şin, Kiş) və Kür çaylarının (Əlican) hövzəsinə aiddir. Əyriçay üzərində su anbarı vardır. Əsas torpaq tiplərinə çimli dağ-çəmən, qonur dağ-meşə, qəhvəyi dağ-meşə, şabalıdı, çəmən-boz, şorakətvarı boz-qonur növləri aiddir. Baş Qafqaz hissəsində alp və subalp çəmənləri, meşələr (fıstıq, vələs, palıd) geniş sahə tutur. Təbiəti mühafizə üçün Şəki yasaqlığı yaradılmışdır. Şəki rayonunun kənd təsərrüfatında taxıl, tütün, kartof, bostan-tərəvəz məhsulları, üzüm, günəbaxan, meyvə becərilir. Sənayedə "Şəki-İpək" ASC, Modul İES, tikinti materialları hasilatı obyektləri vardır.

Şəki Xan sarayı

Şəki şəhəri Azərbaycan tarixində mühüm yer tutur. Şəhərdə XVIII əsrə aid Şəki xanlarının evi, Qala divarları, Gileyli məscidinin minarəsi; XVIII-XIX əsrlərə aid Aşağı Karvansaray, Yuxarı Karvansaray; XIX əsrdən qalan Ağvanlar hamamı vardır. Rayonda VI əsrə aid "Gavur" qalası; orta əsrlərə aid Qudula qala yeri; Aydınbulaqda Ağcaqala qülləsi; Kiş kəndi yaxınlığında orta əsrlərə aid Kiş məbədi, XV əsrdən qalan "Gələrsən görərsən" qalası qorunur.

Balakən rayonu

Böyük Qafqazın cənub yamacları sıx çay şəbəkəsinə malikdir

Balakən rayonunun şimal-şərqində dağlıq, cənub-qərbində düzənlik relyef üstünlük təşkil edir. Baş Qafqaz silsiləsinin suayrıcında, Quton (3648 m), Tinov-Rosso (3385 m) və Qorida (3007 m) zirvələri yüksəlir. Silsilədən Qubax, Böyük Qubax qolları ayrılır. Qanıx-Əyriçay vadisinin bir hissəsi rayona daxildir. Düzənlik hissədə Antropogen, dağlıq hissələrdə isə Yura və Tabaşir yaşlı çöküntülər yayılmışdır. Polimetal (Kasdağ) və gil yataqları vardır. Qanıx-Əyriçay vadisində qışı quraq keçən mülayim-isti iqlim hakimdir, yuxarı qalxdıqca, yağıntıları bərabər paylanan mülayim-isti iqlim, bütün fəsillərdə bol yağıntı alan soyuq iqlim, yüksək dağlarda dağ-tundra iqlimi yaranır. Yanvarda orta temperatur 1°C-dən -6°C-yə qədər, iyulda 15°C-dən 25°C-yə qədər olur. Yağıntıların illik miqdarı 600-1600 mm-dir. Rayon sıx çay şəbəkəsinə malikdir, əsasən Balakən və Mazım çaylarının hövzəsindədir. Katex çayı aşağı axarında Balakən rayonundan keçir. Rayondan keçən çayların hamısı Qanıx çayı hövzəsinə daxildir. Çimli dağ-çəmən, qonur və qəhvəyi dağ-meşə və çəmən-meşə torpaqları yayılır. Rayonun şimalı və şimal-şərqində meşələr (palıd, fıstıq, vələs və s.) geniş yer tutur. Yüksək dağlıq yerlərdə subalp və alp çəmənləri yayılır. Dağ keçisi (tur), maral, cüyür, qonur ayı, köpgər (qarapaça), çöl donuzu, meşə və daşlıq dələsi, süleysin əsas heyvan növləridir. Quşlardan Qafqaz tetrası, qafqaz uları, qartal, şahin, qırqovul yaşayır. Zaqatala qoruğunun çox hissəsi Balakən rayonu ərazisindədir.

Balakən inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə ləğv olunaraq Zaqatala rayonunun tərkibinə daxil edilmiş, 06.01.1965-ci ildə bərpa olunmuşdur. Balakən respublikanın şimal-qərb kənarında, Böyük Qafqazın cənub yamaclarında və Qanıx-Əyriçay vadisində yerləşir. Şimalda Rusiya Federasiyası, cənubda və qərbdə Gürcüstan Respublikası ilə həmsərhəddir. Rayonun sahəsi 923,0 km², əhalisinin sayı 92,1 min nəfər, o cümlədən şəhər əhalisi 10,4 min nəfər, kənd əhalisi 81,7 min nəfərdir (01.01.2012). Mərkəzi Balakən şəhəridir (əhalisi 9,4 min nəfər). Əhalinin sıxlığı 100 nəfər/km²-dir. Rayonda 1 şəhər, 1 qəsəbə, 18 kənd ərazi dairəsi, 57 kənd yaşayış məntəqəsi vardır. Qabaqçöl qəsəbəsində 1,0 min nəfər əhali yaşayır (01.01.2012). Əhalisinin sayına görə Katex (7134 nəfər), Qullar (5882 nəfər), Mahamalar (4276 nəfər), Tülü (5816 nəfər), Hənifə (4693 nəfər) və Qaysa (3602 nəfər) kəndləri fərqlənir (2009). Rayonda kənd təsərrüfatının əsas sahələrinə taxılçılıq, tütünçülük, meyvəçilik aiddir. Heyvandarlıqda maldarlıq, baramaçılıq və arıçılıq aparıcı yer tutur. "Balakən-Konserv" ASC, "Balakən-tütün" ASC, kərpic və asfalt zavodları vardır. Rayonda polimetal filizinin Filizçay, Tenros, Kasdağ yataqları müəyyən edilmişdir. Balakən rayonu ərazisində qədim memarlıq abidələri kimi b.e.ə. II-I əsrlərə aid Küp qəbirləri nekropolu, V-VIII əsrlərə aid yaşayış yerinin xarabalıqları; XII-XIII əsrlərə aid "Pəri qalası", yeraltı su anbarı; XIV əsrə aid Türbə və Məscid; XVII əsrdən qalan Dördbucaqlı qala; XVII-XIX əsrlərə aid minarəli Məscid; Məbəd (1780); XIX əsrdən qalan qala vardır.

Qax inzibati rayonu 08.08.1930-cu ildə təşkil olunmuşdur. 04.01.1963-cü ildə ləğv edilərək Zaqatala rayonuna verilmiş, 17.06.1964-cü ildə bərpa olunmuşdur. İnzibati rayon Böyük Qafqazın cənub yamaclarında yerləşir, şimal-şərqdə Rusiya Federasiyası, cənub-qərbdə Gürcüstan Respublikası ilə həmsərhəddir. Rayonun sahəsi 1493,8 km², əhalisinin sayı 54,1 min nəfər, o cümlədən şəhər əhalisi 12,5 min nəfər, kənd əhalisi 41,6 min nəfərdir (01.01.2012). Mərkəzi Qax şəhəridir (əhalisi 12,5 min nəfər). Əhalinin sıxlığı 36 nəfər/km²-dir. Rayonda 1 şəhər, 16 kənd ərazi dairəsi, 58 kənd yaşayış məntəqəsi vardır. Əhalisinin sayına görə Qax İngiloy (2949 nəfər), Güllük (2375 nəfər), Qum (2016 nəfər), Almalı (1942 nəfər) və Əlibəyli (1812 nəfər) kəndləri fərqlənir (2009). Əsas torpaq tiplərinə çimli dağ-çəmən, qonur və qəhvəyi dağ-meşə, çəmən-meşə, şabalıdı və açıq şabalıdı, karbonatlı dağ-qara tipləri aiddir. Dağların yamaclarında alp və subalp çəmənləri, palıd, fıstıq, vələs ağaclarının üstünlük təşkil etdiyi meşələr geniş sahə tutur. Rayonda nəcib maral, canavar, dağ keçisi, köpgər, ayı, vaşaq, meşə pişiyi, çöl donuzu və s. heyvanlar yaşayır, Qafqaz uları, Qafqaz tetrası, qırqovul, turac, kəklik və s.quşlar vardır. Rayonda İlisu Dövlət Təbiət qoruğu yaradılmışdır. Qax əsasən taxılçılıq, tütünçülük, meyvəçilik rayonudur, kartof, tərəvəz, üzüm və bostan bitkiləri də əkilir. Heyvandarlıqda mal-qara, qoyun saxlanılır. Rayonda kənd təsərrüfatı məhsullarının emalı ilə "Qax-Taxıl", "Qax-Konserv", "Qax-Tütün" ATSC-ləri məşğul olur, qumçınqıl kombinatı, meyvə şirəsi istehsalı və fındıq emalı zavodları vardır. "İlham", "Günəş", "Kapital-N" firmaları, "Şahmar" LTD, "Sadiq" MMC mineral və süfrə sularının qablaşdırılması ilə məşğul olur. Qax rayonunda bir neçə yaşayış məskənləri və kurqanlar (Eneolit-Dəmir, Tunc dövrlərinə aid) aşkar edilmişdir. İlisu Tarixi-Mədəniyyət Qoruğunda V-VII əsrlərə aid Alban məbədi, XVII əsrə aid Came məscidi qorunur. Rayonda IX-XIV əsrlərə aid "Cinli" qala; XII-XIII əsrlərə aid Məbəd kompleksi; XV-XVI əsrlərə aid "Pəri qalası"; XVI əsrə aid Məbəd, Qala qapısı və divarları; XVI-XVII əsrlər Hacı Tapdıq məscidi; XVIII əsrə aid məscid vardır.

İlisu şəlaləsi

Qax rayonu

Qax rayonu Baş Qafqaz silsiləsinin cənub yamacında (Ahvay d., 3481 m, Qaraqaya d., 3465 m), Qanıx-Əyriçay vadisində və Acınohur alçaq dağlığında yerləşir. Acınohur alçaq dağlığında Daşüz, Xocaşen silsilələri və Acınohur düzü ayrılır. Rayonda Yura, Tabaşir, Neogen və Antropogen yaşlı çöküntülər səthə çıxır. Kvars, inşaat materialları mühüm təbii sərvətlərdir. Acınohurda yarımsəhra və quru çöl iqlimi, Qanıx-Əyriçay vadisində qışı quraq keçən mülayim-isti iqlim, dağların yamaclarında yağıntıları bərabər paylanan mülayim-isti, bütün fəsillərdə bol yağıntısı olan soyuq iqlim, yuxarıda dağ-tundra iqlim tipləri yaranır. Yanvarın orta temperaturu 2°C-dən -10°C-yə qədər, iyulda alçaq ərazilərdə 25°C, dağlarda 10°C qeydə alınır. Yağıntıların orta illik miqdarı 500-1600 mm arasında dəyişir. Baş Qafqazın cənub yamaclarından axan Kürmük, Şəki rayonundan gələn Əyriçay Qanıx çayına tökülür.

Qəbələ rayonu

1:400 000



Son vaxtlarda rayonda çoxlu istirahət və turizm mərkəzi yaradılır

Qəbələ rayonunun relyefində dağlar üstünlük təşkil edir. Şimalda Baş Qafqaz silsiləsinin cənub yamacları, mərkəzi hissələrdə Qanıx-Əyriçay vadisi, cənubda Acınohur alçaq dağlığı yerləşir. Ən yüksək zirvələrə Bazardüzü (4466 m), Bazaryurd (4126 m), Tufan (4191 m), Raqdan (4020 m) və Rüstəmboz (3527 m) aiddir. Acınohur ön dağlığında Qəbələ yaylası və Axarbaxar silsiləsi (647 m) əsas oroqrafik vahidlərdir. Dağlarda Yura, Tabaşir yaşlı, mərkəzi və cənub hissələrdə isə Neogen və Antropogen dövrlərinə aid çöküntülər yayılır. Sənaye əhəmiyyətli gillər, şist, əhəng daşı, çınqıl, çay daşı yataqları və mineral bulaqlar vardır.

Qəbələ inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə ləğv olunaraq Ağdaş rayonuna verilmiş, 17.06.1964-cü ildə bərpa olunmuşdur. 1930-cu ildən 07.02.1991-ci ilə qədər Qutqaşen rayonu adlanmışdır. İnzibati rayon Böyük Qafqazın cənub yamaclarında yerləşir, şimalda Rusiya Federasiyası ilə həmsərhəddir. Rayonun sahəsi 1548,6 km², əhalisinin sayı 97,2 min nəfər, o cümlədən şəhər əhalisi 33,1 min nəfər, kənd əhalisi 64,1 min nəfərdir (01.01.2012). Mərkəzi Qəbələ şəhəridir (əhalisi 12,8 min nəfər). Əhalinin sıxlığı 63 nəfər/km²-dir. Rayonda 1 şəhər, 3 qəsəbə, 56 kənd ərazi dairəsi, 60 kənd yaşayış məntəqəsi vardır. Vəndam qəsəbəsində 9,2 min nəfər, Nicdə 5,9 min nəfər, Bumda 5,2 min nəfər əhali yaşayır (01.01.2012). Yanvarın orta temperaturu 3°C-dən -14°C-yə qədər, iyulda alçaq ərazilərdə 25°C, dağlarda 5°C qeydə alınır. Yağıntıların orta illik miqdarı 500-1600 mm arasında dəyişir. Əsas çaylara Türyan, onun qolları olan Tikanlı, Dəmiraparan, Bum və Həmzəli çayları, Göyçay hövzəsinə daxil olan Vəndam çayı aiddir. Nohurqışlaq su anbarının əhəmiyyəti çoxdur. Rayon ərazisini çimli dağ-çəmən, qonur və qəhvəyi dağ-meşə, şabalıdı və çəmən-meşə torpaq tipləri örtür. Şimalda alp və subalp çəmənlikləri, palıd, fıstıq, vələs ağaclarından ibarət dağ meşələri, mərkəzi hissədə kollar və seyrək meşələr olan çəmənliklər, cənubda isə yovşanlı və yovşanlı-şoranotulu yarımsəhra bitkiləri, kserofit seyrək meşəliklər geniş sahə tutur. Şahdağ milli parkının bir hissəsi rayonun ərazisindədir. Qəbələdə taxılçılıq, meyvəçilik, tərəvəzçilik, kartofçuluq kənd təsərrüfatının əsas sahələridir, üzüm, günəbaxan və bostan bitkiləri də əkilir. Heyvandarlıq mühüm rol oynayır. Rayonda kənd təsərrüfatı məhsullarının emalı ilə "Qəbələ-Konserv" ASC məşğul olur. Müəssisə Qafqazda ən böyük emal müəssisələrindən biridir. Rayonda Balıqyetişdirmə zavodu, Fındıq emalı sexləri vardır. Rayonun ərazisində olan memarlıq abidələrinə Antik dövr və orta əsrlər Qədim Qəbələ şəhəri və Səlbir qalası; Daşmir yaşayış yeri (III-IX əsrlər); Axıtəpə yaşayış yeri (V-XIV əsrlər); Yedditəpə yaşayış yeri (V-VIII əsrlər); IX-XIV əsrlərə aid Gavur qalası, Pirəşərif qalası, Ustacan qalası və Nic kəndində qala; Şeyx Məhəmməd türbəsi (XV əsr); İmam Baba türbəsi (XVIII-XIX əsrlər); Səkkizguşəli məscid (XIX əsr) aiddir.

Oğuz inzibati rayonu - 08.08.1930-cu ildə təşkil edilmiş, 07.02.1991-ci ilə qədər Vartaşen rayonu adlanmışdır. Oğuz rayonu Böyük Qafqazın cənub yamaclarında yerləşir, şimalda Rusiya Federasiyası ilə həmsərhəddir. Rayonun sahəsi 1220,0 km², əhalisinin sayı 41,3 min nəfər, o cümlədən şəhər əhalisi 7,0 min nəfər, kənd əhalisi 34,3 min nəfərdir (01.01.2012). Mərkəzi Oğuz şəhəridir (əhalisi 7,0 min nəfər). Əhalinin sıxlığı 34 nəfər/km²-dir. Rayonda 1 şəhər, 14 kənd ərazi dairəsi, 33 kənd yaşayış məntəqəsi vardır. Əhalisinin sayına görə Xaçmaz (6284 nəfər), Kərimli (3187 nəfər), Padar (2305 nəfər) və Bayan (1745 nəfər) kəndləri fərqlənir (2009). Böyük Qafqazın cənub yamacları üçün hakim olan mülayim-isti iqlim yuxarı qalxdıqca soyuq iqlimlə əvəz olunur, sonra dağ-tundra iqliminə qədər dəyişir. Yanvarın orta temperaturu 0°C-dən -14°C-yə qədər, iyulda alçaq ərazilərdə 25°C, dağlarda 5°C qeydə alınır. Yağıntıların orta illik miqdarı 600-1600 mm arasında dəyişir. Rayon ərazisindən axan çaylar Əlican (Daşağıl, Ağlıq), Əyriçay və Türyan (Qalaçay, Nəzərçay, Filfili) çaylarının hövzələrinə aiddir. Əsas torpaqlara dağ-çəmən, qəhvəyi və qonur dağ-meşə və çəmən-meşə tipləri daxildir. Dağların yüksək sahələrində alp və subalp çəmənlikləri vardır. Meşələrdə palıd, fıstıq, vələs ağacları geniş sahədə yayılır. Oğuzda əsas əkinçilik sahələrinə taxılçılıq, meyvəçilik aiddir, üzüm, tərəvəz, kartof, günəbaxan, bostan bitkiləri əkilir. Heyvandarlıqda maldarlıq, qoyunçuluq, arıçılıq inkişaf etmişdir. Meyvə-tərəvəz konservləri, mineral sular istehsal olunur, şüşə zavodu işləyir.

Oğuz rayonu 1:270 000



Rayonun şimal hissəsində Baş Qafqaz silsiləsinin cənub yamacları, mərkəzi hissəsində Qanıx-Əyriçay vadisi, cənubunda isə Acınohur alçaq dağlığı əsas relyef formaları kimi ayrılır. Baş Qafqaz silsiləsindən Qazdağ, Qaynararxac, Fiy və Qoşunkar (Çaldaş d., 3468 m) qolları ayrılır. Maksimum hündürlük isə 3879 m-dir (Məlkəmud d.). Rayonun şimalında Yura və Tabaşir yaşlı çöküntülər, mərkəzi və cənub hissəsində isə Antropogen, qismən də Neogen yaşlı çöküntülər yayılmışdır. Gil ehtiyatları və mineral bulaqlar vardır.

Dağarası çökəklikdə əkin sahəsi



Zaqatala inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. Rayon Böyük Qafqazın cənub yamaclarında və Qanıx-Əyriçay vadisində yerləşir, şimal-şərqdə Baş Qafqaz silsiləsinin suayrıcısı boyu Rusiya ilə, cənub-qərbdə Qanıx çayı boyu Gürcüstan ilə həmsərhəddir. Rayonun sahəsi 1348 km², əhalisinin sayı 121,3 min nəfər, o cümlədən şəhər əhalisi 31,6 min nəfər, kənd əhalisi 89,7 min nəfərdir (01.01.2012). Mərkəzi Zaqatala şəhəridir (əhalisi 20,9 min nəfər). Rayonda 1 şəhər, 1 qəsəbə, 27 kənd ərazi dairəsi, 60 kənd yaşayış məntəqəsi vardır. Şimalda və şimal-şərqdə Baş Qafqaz silsiləsinin cənub yamacları, cənub və cənub-qərbdə Qanıx-Əyriçay vadisi yerləşir. Baş Qafqaz silsiləsindən Həmzəqov (Quton d., 3648 m), Çinçar, Mahatur, Qumbaş (Xutor d., 2844 m) qolları ayrılır. Polimetal (Katex) və gil yataqları vardır. Qanıx-Əyriçayda hakim olan mülayim-isti iqlim yuxarı qalxdıqca dağ-tundra iqliminə qədər dəyişir. Orta temperatur yanvarda düzənliklərdə 1°C, yüksək dağlıq sahələrdə -10°C, iyulda müvafiq olaraq düzənliklərdə 24°C, dağlarda 5°C qeydə alınır. Yağıntıların illik miqdarı 600-1600 mm arasında dəyişir. Katex, Tala, Muxax, Qara, Muğanlı çayları Qanıx çayı hövzəsinə aiddir. Əsasən çəmən-meşə, qonur və qəhvəyi dağ-meşə, çimli dağ-çəmən torpaqları yayılır. Kənd təsərrüfatıda meyvəçilik, taxılçılıq, kartofçuluq, tərəvəzçilik üstünlük təşkil edir, üzüm, çay, tütün, günəbaxan və bostan bitkiləri əkilir. Tarixi-memarlıq abidələrinə Qəbizdərədə Alban məbədinin qalıqları (II-VI əsrlər); Yuxarı Çardaxlarda Qız qalası mağarası, atəşpərəstlik məbədi (V əsr); Mamruxda Alban kilsə qalıqları (VI əsr); Əliabadda XVII əsrə aid məscid və minarə; Car kəndi ərtafında Çingiz qala (XVI əsr), Şeytan qalası (XVII əsr) və Məscid (XVII əsr); rayon mərkəzində kilsə (1830); XIX əsrə aid məscidlər (Kələntəroba, Cümə, Həsənoba) aiddir.

Dağlıq Şirvan iqtisadi-coğrafi rayonu

Dağlıq Şirvan iqtisadi-coğrafi rayonu Ağsu, İsmayıllı, Qobustan və Şamaxı rayonlarını əhatə edir. İqtisadi rayon Böyük Qafqazın cənub-şərq ətəkləri və Şirvan düzündə yerləşir. Sahəsi 6,06 min km² olan Dağlıq Şirvan ölkə ərazisinin 7%-ni əhatə edir. İqtisadi rayonun ərazisinin çox hissəsinin dağlıq zonadan ibarət olması təsərrüfatın inkişafında problemlər yaradır. Region seysmik cəhətdən fəal zonada yerləşir. İqlim şəraiti çox müxtəlifdir, əsasən mülayim-isti və soyuq iqlim tipləri yaranır. Aqroiqlim şəraiti dağlarda dəmyə şəraitində, düzənliklərdə suvarma ilə kənd təsərrüfatı məhsulları becərilməsinə imkan verir. Dağlıq Şirvan iqtisadi-coğrafi rayonunda əhalinin sayı azdır və region zəif məskunlaşmışdır. İqtisadi rayonda əhalinin sayı 289,9 min nəfər, o cümlədən şəhər əhalisi 90,7 min nəfərdir. Ölkə əhalisinin 3,1%-i burada yaşayır. Əhalinin orta sıxlığı hər km²-ə 48 nəfər, urbanizasiya səviyyəsi 31,3%-dir (01.01.2012). İqtisadi rayonda olan əsas faydalı qazıntılara yanar şist, çınqıl, qum, əhəng və digər tikinti materialları aiddir. Dağlıq zonalar müalicə və kurort əhəmiyyətli mineral sularla zəngindir. Tərkibi əsasən kükürdlə, hidrokarbonatlarla zəngin olan bulaqların suyundan müalicə və içmək məqsədi ilə istifadə edilir. Şamaxı və İsmayıllı rayonlarının iqlim-balneoloji şəraiti, meşələr (8%) əsas sərvətlərə daxildir. Kənd təsərrüfatının əsasını taxılçılıq, meyvəçilik, tərəvəzçilik, üzümçülük təşkil edir, kartof, günəbaxan becərilir. Heyvandarlığın başlıca sahəsi maldarlıq və qoyunçuluqdur, arı saxlanılır, baramaçılıq üçün əlverişli şərait vardır. Sənaye zəif inkişaf etmişdir. Şamaxıda maşınqayırma müəssisələri fəaliyyət göstərir. Kənd təsərrüfatı məhsulları emal edilir. Yüngül sənaye tikiş və xalçaçılıq sahələri ilə təmsil olunur. Yeyinti sənayesində əsas yeri şərabçılıq tutur. Tikinti materialları istehsalı (Şamaxı və Qobustan rayonlarında daş karxanaları, kərpic zavodu) müəssisələri vardır. Lahıc qəsəbəsində misgərlik məmulatları, Basqal kəndində və Şamaxı şəhərində ipək və kələğayı sexləri fəaliyyət göstərir. İqtisadi rayon magistral yollardan kənarda yerləşir. Bakı-Şamaxı-Ağsu-Kürdəmir avtomobil yolu rayon ərazisindən keçir. Padar stansiyası ilə Çöl Göylər kəndi arasında dəmiryol xətti çəkilmişdir.

Ağsu inzibati rayonu 08.10.1943-cü ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə ləğv edilərək ərazisi Kürdəmir və Şamaxı rayonlarına birləşdirilmiş, 06.01.1965-ci ildən bərpa olunmuşdur. Rayon Böyük Qafqazın cənub-şərq ətəklərində və Şirvan düzündə yerləşir. Sahəsi 1020,1 km², əhalisinin sayı 73,2 min nəfər, o cümlədən şəhər əhalisi 20,2 min nəfər, kənd əhalisi 53,0 min nəfərdir (01.01.2012). Mərkəzi Ağsu şəhəridir (əhalisi 20,2 min nəfər). Əhalinin sıxlığı 72 nəfər/km²-dir. Rayonda 1 şəhər, 23 kənd ərazi dairəsi, 79 kənd yaşayış məntəqəsi vardır. Əhalisinin sayına görə Gəgəli (3769 nəfər), Kəndoba (2297 nəfər) və Ərəbuşağı (1883 nəfər) kəndləri fərqlənir (2009). Rayonun relyefi şimalda və şimal-şərqdə Böyük Qafqaza daxil olan dağlardan, cənubda Şirvan düzündən ibarətdir. Burada Nialdağ, Hinqar, Ləngəbiz silsilələri, Qaraməryəm tirəsinin şərq kənarları yerləşir. Mütləq hündürlük şimalda 1000 metrə çatır. Dağlarda Paleogen və Neogen yaşlı, düzənlikdə isə Antropogen yaşlı çöküntülər yayılır. Gil yataqları, meşələr, bulaqlar əsas sərvətlərdir. Rayonun cənubunda yarımsəhra və quru çöl iqlimi, dağətəyi zonada yayı quraq keçən mülayim-isti iqlim yaranır. Orta temperatur yanvarda -3°C-dən 0°C-yə qədər, iyulda isə 25°-27°C arasında dəyişir. Yağıntıların illik miqdarı 400-600 mm-ə çatır, əsasən yazda və payızda düşür. Rayonun ərazisindən Ağsu və Girdiman çayları axır, cənubdan Yuxarı Şirvan kanalı keçir. Ağsu şəhərinə yaxın Cavanşir su

Ağsu rayonu

1:280 000

anbarı tikilmişdir. Rayonda əsas torpaq tiplərinə karbonatlı qəhvəyi dağ-meşə, dağ şabalıdı (boz-qəhvəyi), açıq şabalıdı, allüvial-çəmən, boz və boz-çəmən növləri aiddir. Dağlarda meşələr və kolluqlardan ibarət bitki örtüyü yaranır. Heyvanlar aləminə ayı, çöl donuzu, çaqqal, porsuq, canavar, tülkü və s., quşlara kəklik, turac, çalağan daxildir. Gürzə, kələz kimi sürünənlərə rast gəlinir. Pirqulu qoruğunun bir hissəsi rayonun şimalında yerləşir. Kənd təsərrüfatında taxılçılıq və meyvəçilik mühüm yer tutur, tərəvəz, kartof, üzüm, bostan, günəbaxan, pambıq bitkiləri becərilir. Sənayedə "Mehman" MMC-də şərab, "Ağsu-Şərab-3" ASC-də alkoqollu içkilər, "Büllur" MMC və "Miri Qrand" MMC-də meyvə şirələri istehsal olunur.

Ağsu rayonunda Eneolit dövrünə aid Qırlartəpə yaşayış yeri; Tunc dövrünə aid Xanyurdu kurqanı; Tunc və Dəmir dövrlərinə aid Qaraçuxa nekropolu; Qaraçıbulaq (b.e.ə. III-I əsrlər); orta əsrlərə aid Xəzinə dağ, Cavanşir yaşayış yeri, Yeni Şamaxının qalıqları; Şeyx Dursun türbəsi (1457); Xaraba şəhər yeri (XVI-XVIII əsrlər); Qız qalası (tarixi məlum deyil); Pir Bəxtiyar türbəsi (XX əsr) yerləşir.

İsmayıllı rayonu

1:360 000

Baş Qafqaz silsiləsinin (Əsəd d., 3471 m) cənubu, Qovdağ (Qovdağ d., 2437 m), Nialdağ və Ləngəbiz silsilələrinin qərb kənarları rayona daxildir. Mütləq hündürlük Baş Qafqaz silsiləsində 3629 m-ədək (Babadağ) dəyişir. Cənubda Xocaşen silsiləsi (Xoşavənd d., 717 m) yüksəlir. Gil yataqları, mineral bulaqlar (Diyallı, Qalacıq, Qırxbulaq, Bədo), meşələr əsas təbii ehtiyatlardır. Rayonun cənubunda qışı quraq keçən mülayim-isti iqlim formalaşır. Dağlarda yuxarı qalxdıqca onlar yağıntıları bərabər paylanan mülayim-isti və soyuq iqlimlə, suayrıcıya yaxın sahələrdə dağ-tundra iqlim tipi ilə əvəz olunur.

İsmayıllı inzibati rayonu 24.11.1931-ci ildə təşkil edilmişdir. Rayon Böyük Qafqazın cənub yamaclarında yerləşir. Sahəsi 2064 km², əhalisinin sayı 81,7 min nəfər, o cümlədən şəhər əhalisi 17,7 min nəfər, kənd əhalisi 64,0 min nəfərdir (01.01.2012). Mərkəzi İsmayıllı şəhəridir (əhalisi 15,3 min nəfər). Əhalinin sıxlığı 40 nəfər/km²-dir. Rayonda 1 şəhər, 2 qəsəbə, 35 kənd ərazi dairəsi, 108 kənd yaşayış məntəqəsi vardır. Basqal qəsəbəsində 1,5 min nəfər, Lahıc qəsəbəsində 0,9 min nəfər əhali yaşayır (01.01.2012). Yanvarın orta temperaturu düzənlik və dağətəyi zonalarda 1°C-dən yüksək dağlıqda -10°C-yə qədər, iyulda düzən ərazilərdə 25°C, dağlarda 16°C qeydə alınır. Yağıntıların orta illik miqdarı 500-1000 mm arasında dəyişir. İsmayıllıdan axan Göyçay, onun qolları olan Ahoh, Əyriçay və Girdiman çayları, Ağsu çayının qolu Sulut Kür hövzəsinə aiddir. Pirsaat çayı da bu rayondan başlanır. Suya tələbatın ödənilməsi üçün Aşıq Bayramlı və Yekəxana su anbarları tikilmişdir. Dağ şabalıdı, açıq və tünd-şabalıdı, qəhvəyi və qonur dağ-meşə, çimli və torflu dağ-çəmən torpaqları yayılmışdır. Lokal formada qaratorpaqlara da rast gəlinir. Yüksək dağlıqda subalp və alp çəmənlikləri, orta dağlıqda kollar və seyrək ağaclardan ibarət çəmənliklər, dağ meşələri vardır. Heyvanat aləminə nəcib maral, dağ keçisi, köpgər, ayı, meşə pişiyi, canavar, tülkü, yenot, cüyür, çöldonuzu aiddir. Rayonun ərazisində İsmayıllı dövlət qoruğu və yasaqlığı təşkil olunmuşdur. Son vaxtlarda yaradılmış Şahdağ milli parkının bir hissəsi İsmayıllıdadır. Kənd təsərrüfatında taxıl əkinləri geniş sahə tutur, bundan başqa meyvə, üzüm, kartof, tərəvəz, günəbaxan da əkilir. Heyvandarlıqda maldarlıq, qoyunçuluq, arıçılığın əhəmiyyəti çoxdur, barama saxlanması imkanları böyükdür. Sənayenin əsas sahələrinə xalça toxunması (Gülüstan MMC), süfrə suları, şərab (İsmayıllı-Şərab-1), süd məhsulları, tikinti materialları (qum-çınqıl), kərpic istehsalı aiddir. Rayondakı Lahıc və Basqal Dövlət Tarix-Mədəniyyət qoruqlarında yüzlərlə memarlıq abidələri mühafizə olunur. Onlara I-V əsrlərə aid yaşayış yerləri; Qız qalası (VII əsr); XIII-XIV əsrlərə aid yaşayış yeri; Qasımxan qalası (XVI əsr); Haput qəbiristanlığı (XVI-XVII əsrlər); Girdiman qalası (XVII əsr); orta əsrlərə aid Xankəndi yaşayış yeri, Xapaya qalası; məscid (XIX əsr) daxildir.

Qobustan inzibati rayonu 08.10.1943-cü ildə Mərəzə rayonu kimi təşkil edilmişdir. 04.12.1959-cu ildə ləğv edilərək Şamaxı rayonuna birləşdirilmiş, 24.04.1990-cı ildə bərpa olunmuşdur. Qobustan Böyük Qafqazın cənub-şərq kənarını tutur. Sahəsi 1369,4 km², əhalisinin sayı 41,8 min nəfər, o cümlədən şəhər əhalisi 8,5 min nəfər, kənd əhalisi 33,3 min nəfərdir (01.01.2012). Mərkəzi Qobustan şəhəridir (əhalisi 8,1 min nəfər). Əhalinin sıxlığı 31 nəfər/km²-dir. Rayonda 1 şəhər, 1 qəsəbə, 15 kənd ərazi dairəsi, 31 kənd yaşayış məntəqəsi vardır. Heyvanlardan çöl donuzu, tülkü, canavar, boz dovşan, çöl siçanı, ilan, kərtənkələ, quşlardan kəklik, göyərçin yaşayır. Qobustan əsasən taxılçılıq və heyvandarlıq rayonudur. Əkinlərin çox hissəsini taxıl sahələri tutur. Kartof, tərəvəz, meyvə, bostan bitkiləri, üzüm də becərilir. Sənayesi tikinti materialları, qum-çınqıl istehsalı, heyvandarlıq məhsullarının emalından ibarətdir. "Azbentonit" MMC-nin bentonit gili sexi, daş karxanaları, qum-çınqıl hasilatı sexləri, Asfalt zavodu əsas sənaye müəssisələridir. Rayonun ərazisində 30-a yaxın maddi-mədəniyyət, tarixi-arxeoloji və memarlıq abidələri vardır. Onlara Qobustan və Çelov yaşayış yerləri (Antik dövr, İlk Orta və Orta əsrlər), kurqanlar (Tunc dövrü və ilk Orta əsrlərə aid Şıxzəyirli), Küp qəbirləri və Şərar nekropolları (Antik dövr və İlk Orta əsrlər), Diri Baba türbəsi (1402), məscid (X əsr), Kolanı kəndinndə istehkam (ilkin orta əsrlər), karvansaralar (XV-XVII əsrlər) və s. aiddir.

Qobustan rayonunun relyefi alçaq dağlıqdan ibarətdir, şimalda Meysəri (Haçaqaya d., 1241 m) və Yurtandağ silsilələri (Yurtdandağ d., 898 m), mərkəzdə Mərəzə yaylası, Gicəki tirəsi (Gicəki d., 1047 m) əsas oroqrafik vahidlərdir. Neft, təbii qaz və yanar şist yataqları, tikinti materialları, çoxlu bulaqlar və palçıq vulkanı vardır. Rayonda yayı quraq keçən mülayim-isti iqlim tipi formalaşır. Şimalda qışı quraq keçən mülayim-isti iqlim tipi kiçik ərazi tutur. Yanvarda orta temperatur -1,0°C-dən 3°C, iyulda 22,7-27,0°C-yə qədər qeydə alınır. Yağıntıların orta illik miqdarı şimal-qərbdə 500 mm, cənub-şərqdə 150 mm, Qobustan şəhərində 379 mm-dir. Yay quraq keçir. Qobustan ölkədə ən seyrək çay şəbəkəsinə malik olan ərazilərdən biridir. Cənubda Pirsaatçay, şərqdə Ceyrankeçməz, şimalda Sumqayıtçayın hövzəsinə aid olan Qozluçay, Cigilçay və Cəngiçay axır. Şabalıdı və açıq şabalıdı, boz-qonur, şorakətvarı boz-qonur torpaqlar yayılmışdır. Dağ kserofitləri, yarımsəhra və quru çöl bitkiləri geniş ərazi tutur.

Şamaxı inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. Şamaxı Böyük Qafqazın cənub-şərqində yerləşir. Sahəsi 1610 km², əhalisinin sayı 95,3 min nəfər, o cümlədən şəhər əhalisi 48,3 min nəfər, kənd əhalisi 50,4 min nəfərdir (01.01.2012). Mərkəzi Şamaxı şəhəridir (əhalisi 36,8 min nəfər). Əhalinin sıxlığı 59 nəfər/km²-dir. Rayonda 1 şəhər, 5 qəsəbə, 33 kənd ərazi dairəsi, 57 kənd yaşayış məntəqəsi vardır. Əhalisinin sayına görə Sabir (3,3 min nəfər), Şəhriyar (2,5 min nəfər), Mədrəsə (2,2 min nəfər) qəsəbələri (01.01.2012), Dağ Göylər (6792 nəfər), Quşçu (3717 nəfər), Çarhan (2823 nəfər) və Ərəbuşağı (1883 nəfər) kəndləri fərqlənir (2009). Rayonun şimal hissəsi əsasən dağlıq relyefə malikdir və Baş Qafqaz silsiləsinin suayrıcısına qədər yüksəlir. Cənub yamaclarda Nialdağ, Meysəri və Ləngəbiz silsilələri, Qızmeydan yaylası yerləşir. Rayonun cənubu Şirvan düzünə qədər uzanır. Palçıq vulkanları vardır. Rayonun dağlıq hissələrində Təbaşir yaşlı, alçaq dağlıq və dağətəyi zonalarda Paleogen yaşlı, cənubda Antropogen yaşlı çöküntülər yayılır. Faydalı qazıntılara bitum, gil, əhəngdaşı, qum-çınqıl aiddir. Mineral bulaqlar (Çuxuryurd) vardır. Rayon ərazisində Şirvan düzündən Dübrar silsiləsinə qədər yarımsəhra və quru çöl, dağətəyi zonada yayı quraq keçən mülayim-isti, yağıntıları bərabər paylanan mülayim-isti, bütün fəsillərdə bol yağıntısı olan soyuq iqlim tipləri yaranır. Yanvarda orta temperatur 2°C-dən -4°C-yə qədər, iyulda alçaq ərazilərdə 25°C, dağlarda 15°C-dir. Yağıntıların orta illik miqdarı dağlara doğru 300 mm-dən 800 mm-ə qədər artır. Rayonun ərazisindən Pirsaat, Cigil, Qozluçay və s. çaylar axır. Çimli dağ-çəmən, qonur və qəhvəyi dağ-meşə, şabalıdı, boz-qonur, şorakətvarı boz-qonur torpaq tipləri vardır. Palıd, vələs, ardıc, saqqızağacı və s. ağaclardan ibarət meşələr yayılır. Yüksək dağlarda subalp və alp çəmənləri geniş sahə tutur. Dağ-çöl və yarımsəhra bitkilərinə rast gəlinir. Canavar, tülkü, boz dovşan, meşə pişiyi, xallı maral, daşlıq dələsi, qum siçanı, ilan, quşlardan kəklik, qırqovul, göyərçin əsas heyvan növləridir. Şamaxıda Şahdağ milli parkının və Pirqulu Dövlət Təbiət Qoruğunun bir hissəsi buraya düşür. Rayonun kənd təsərrüfatında taxılçılıq və üzümçülük üstünlük təşkil edir, meyvə, kartof, tərəvəz, günəbaxan və bostan bitkiləri əkilir. Heyvandarlıqda maldarlıq, qoyunçuluq və arıçılıq inkişaf edir. Şamaxıda "Star LTD" Televizor zavodu, Türkiyənin "Evsen" şirkətlər qrupuna aid Məişət Cihazları zavodu və "Azsamand" Avtomobil zavodu fəaliyyət göstərir. Rayonda kənd təsərrüfatı məhsullarının emalı ilə məşğul olan şərab ("Şamaxı-Şərab-1" ATSC, "Mədrəsə-Şərab" ATSC), süfrə suları, tikinti materialları istehsalı müəssisələri vardır. Rayonda Pedaqoji və Mədəni-Maarif Texnikumları, AMEA-nın N.Tusi adına Pirqulu Astrofizika Rəsədxanası, S.Ə.Şirvani adına Ölkəşünaslıq muzeyi, M.Ə.Sabirin ev muzeyi vardır. Şamaxı rayonunda Antik dövrə aid nekropol; Tunc və Dəmir dövrlərinə aid Kurqanlar kompleksi (6 ədəd); Gülüstan qalası (VIII-XV əsrlər); Bala Bəhmən və Arazbar arxları (XV əsr); Şahəndan gümbəzi (XVII əsr); XVII əsrə aid Türbələr kompleksi (8 ədəd); Körpü (1826); orta əsrlərə aid Dədəgünəş Piri, Məlikçobanlı nekropolu, Məlikçobanlı və Küllücə yaşayış yerləri, Quşçu qəbiristanlığı, Qalacıq yaşayış yeri qorunur.

Şamaxı şəhərində Cümə məscidi



Pirquluda Astrofizika rəsədxanası

Kür-Araz təbii-iqtisadi zonası

Aran iqtisadi-coğrafi rayonu

Aran iqtisadi-coğrafi rayonu respublika əhəmiyyətli Mingəçevir, Şirvan və Yevlax şəhərlərini, Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Yevlax və Zərdab inzibati rayonlarını əhatə edir. İqtisadi rayon əsasən Kür-Araz ovalığında yerləşir, əlverişli İCM-ə malikdir. Ovalığın ərazisinin mərkəzi və şərq hissələri okean səviyyəsindən aşağıda yerləşir, səthi hamardır. Dəniz və çay çöküntüləri düzənliyin çox hissəsini örtür. İqtisadi rayonun ətrafda olan dağlara yaxın sahələrinin səthi meyllidir. Yayı quraq keçən yarımsəhra və quru çöl iqlimi səciyyəvidir.

İqtisadi rayonun sahəsi 21,43 min km² olmaqla ölkə ərazisinin 24,7%-ni əhatə edir. Əhalinin sayı 1863,5 min nəfər, o cümlədən şəhər əhalisi 708,3 min nəfərdir. Ölkə əhalisinin 20,2%-i burada yaşayır. Əhalinin orta sıxlığı hər km²-ə 87 nəfər, urbanizasiya səviyyəsi 38,0%-dir (01.01.2012). İqtisadi rayonun düzən relyefi, bol aqroiqlim ehtiyatları, Kür və Araz çayları kimi su arteriyaları, suvarma şəraitində məhsuldar olan torpaqlar kənd təsərrüfatı işləri aparılması və əhalinin məskunlaşması üçün əlverişli təbii şərait yaradır. Kür çayının sahillərində tuğay meşələri yerləşir. Aran iqtisadi-coğrafi rayonunun əsas yeraltı sərvətlərinə neft, təbii qaz, yodlu-bromlu mədən suları, müxtəlif tikinti materialları (əhəngdaşı, qum-çınqıl) aiddir. Bu ehtiyatlar əsasən rayonun mərkəzi və şərq hissəsində cəmlənir. Aran iqtisadi-coğrafi rayonu inkişaf etmiş sənaye sahələrinə malikdir. Sənaye potensialının əsas hissəsi şərqdə yerləşən Şirvan, Salyan və Neftçala şəhərlərində, şimal-qərbdə olan Mingəçevir və Yevlax şəhərlərində cəmlənmişdir. Neft və qazçıxarma, elektroenergetika, kimya, tikinti materialları istehsalı iqtisadi-coğrafi rayonun inkişaf etmiş və ixtisaslaşmış sahələridir. Şirvan şəhəri ətrafında, Salyan və Neftçala rayonlarında net-qaz hasil olunur. Mingəçevir və Şirvan şəhərində DRES-lər, Mingəçevir və Varvarada SES-lər işləyir. Mingəçevir ölkənin mühüm energetika bazasıdır. Ölkədə istehsal edilən elektrik enerjisinin 60%-ni bu iqtisadi rayon verir. Kimya sənayesi üzrə Mingəçevir, Salyan və Neftçala şəhərlərində müəssisələr fəaliyyət göstərir. Salyanda Plastik Kütlə zavodu, Neftçalada Yod-Brom zavodu yerləşir. İqtisadi rayonda becərilən pambığın ilkin emalı pambıqtəmizləmə zavodlarında həyata keçirilir. Bu sahə yüngül sənaye məhsullarının əsas hissəsini verir. Bununla yanaşı, pambıq parça istehsalı (Mingəçevir), yunun ilkin emalı (Yevlax), xalçaçılıq (Hacıqabul) üzrə müəssisələr vardır. Lakin onların fəaliyyətində ciddi prorlemlər yaranmışdır. Ona görə yüngül sənayenin rolu hələlik aşağıdır, onun əvvəlki rolunun qaytarılması vacibdir. Yeyinti sənayesi sahəsində kifayət qədər xammal bazası olsa da, onlardan az istifadə olunur, emal müəssisələri şəbəkəsi zəifdir. Meyvə-tərəvəz və balıq konservləri, ət-süd və digər heyvandarlıq məhsullarının emalı sahəsində çoxsaylı müəssisələr yaradılması imkanları vardır. Aran iqtisadi-coğrafi rayonu ölkənin mühüm kənd təsərrüfatı rayonudur. Əkinçilik yalnız suvarmaya əsaslanır. Pambıqçılıq, quru subtropik meyvəçilik və bostançılıq kənd təsərrüfatının ixtisaslaşmış sahələridir. Həmçinin taxıl, üzüm, kartof, şəkər çuğundru, günəbaxan, yem bitkiləri əkilir. Heyvandarlığın inkişafı üçün təbii imkanlar kifayət qədərdir və onlardan istifadə edilərək mal-qara, qoyun saxlanılır. Aran iqtisadi-coğrafi rayonu ölkə və regional əhəmiyyətli magistral dəmir və avtomobil yolları üzərində yerləşir. Bakı şəhərini ölkənin əksər inzibati rayon mərkəzləri, Gürcüstan, İran İR və Türkiyə ilə birləşdirən nəqliyyat yolları onun ərazisindən keçir. Son vaxtlar beynəlxalq yükdaşımaların çoxalması bu yolların əhəmiyyətini artırmışdır. Bakı-Tiflis-Ceyhan, Bakı-Supsa neft kəmərləri, Bakı-Ərzurum qaz kəməri də bu rayonun ərazisindən keçir.

Mingəçevir şəhər ərazi dairəsi. 04.02.1954-cü ildə şəhər statusu alan Mingəçevir Kür çayının sol sahilində, çayın üzərindəki eyni adlı su anbarının cənub-şərq sahilində yerləşir. Sahəsi 130 km², əhalisinin sayı 98,8 min nəfər, sıxlığı 760 nəfər/km²-dir (01.01.2012). Əhalinin milli tərkibində azərbaycanlılar (95700 nəfər və ya 99,37%) üstünlük təşkil edir. Ruslar (413 nəfər və ya 0,43%), ləzgilər (52 nəfər və ya 0,05%), türklər (16 nəfər və ya 0,02%) də yaşayır (2009). Şəhər yarımsəhra və quru çöl iqlimi zonasına düşür. Orta temperatur yanvarda 2,7°C, iyulda 27,6°C-dir. Yağıntıların illik miqdarı 304 mm-dir. Mingəçevir şəhəri Kür çayı üzərində hidrotexniki kompleksin tikintisi ilə əlaqədar inkişaf etmişdir. Burada olan ən böyük sənaye obyektlərinə Mingəçevir SES və Azərbaycan DRES aiddir. Şəhərdə elektrotexnika sahəsinə aid "Azərkabel", "Azərelektroizolit" zavodları, kimya və neft-kimya sənayesinə aid Şüşə lifi və Rezin-Texniki Məmulatları zavodları, Toxuculuq Kombinatı, Ət-Süd Kombinatı, Çörək zavodu, Dəmir-Beton Məmulatları zavodu, qum-çınqıl karxanası vardır. Şəhərdə 56 sənaye

obyekti qeydə alınmışdır. Mingəçevir şəhərində Politexnik İnstitutu, Azərbaycan Müəllimlər İnstitutunun filialı, Tibb Məktəbi, Bakı Bədən Tərbiyəsi və İdman Kollecinin şöbəsi, 22 ümumtəhsil məktəbi, 21 uşaq bağçası, 9 şəhər xəstəxanası, Doğum evi, Dövlət Dram Teatrı, Tarix muzeyi, 17 kitabxana, 8 klub vardır (2012). Mingəçevir Arxeoloji Kompleksinə Bozdağ silsiləsinin cənub ətəklərində, Kür çayının hər iki sahilində b.e.ə. III minillikdən (Tunc dövründən) XVII əsrə qədərki dövrə aid abidələr aiddir. Bura 4 yaşayış yeri, 4 böyük qəbiristanlıq daxildir.

Şirvan (Şirvan şəhər ərazi dairəsi) Kür çayının sol sahilində, Şirvan düzündə yerləşən şəhərdir. Şirvana 04.01.1963-cü ildə şəhər statusu verilmişdir. Yarandığı vaxtdan 18.03.2008-ci ilə qədər Əli Bayramlı şəhəri adlanmışdır. Şəhərin inzibati ərazi dairəsinə Bayramlı (2,5 min nəfər) və Hacıqəhərmanlı (2,3 min nəfər) qəsəbələri də daxildir. İnzibati ərazi dairəsinin sahəsi 30 km², əhalisinin sayı 80,0 nəfər, o cümlədən Şirvan şəhərinin əhalisi 75,2 min nəfərdir (01.01.2012). Əhalinin sıxlığı 1600 nəfər/km²-dir. Əhalinin milli tərkibində azərbaycanlılar (76849 nəfər və ya 99,73%) üstünlük təşkil edir. Ruslar (194 nəfər və ya 0,25%) da yaşayır (2009). Şəhər yayı isti və quru, qışı mülayim keçən yarımsəhra və quru çöl iqlim tipində yerləşir. Yanvarın orta temperaturu 0°-3°C, iyulda 25-28°C-dir. Yağıntıların orta illik miqdarı 300 mm-dir. Şirvan Azərbaycanın mühüm sənaye şəhərlərindən biridir. Şəhərin ətrafında neft və təbii qaz çıxarılır. Şəhərdə Yağ-Piy Kombinatı, Çörək zavodu, Pambıqtəmizləmə zavodu fəaliyyət göstərir. Ən iri sənaye obyekti Şirvan DRES-dir. Hazırda şəhərdə 700 MVt gücündə yeni DRES tikilir. Şirvan şəhərində 16 orta ümumtəhsil, 5 məktəbəqədər məktəb, Pedaqoji Texnikum, 3 muzey, 12 klub, 14 kitabxana, 5 xəstəxana vardır (2012).

Ağcabədi rayonu

1:370 000

Yuxarı Qarabağ kanalı

Ağcabədi rayonun relyefi düzənlikdir, şimal-şərqdən cənub-qərbə doğru tədricən yüksəlir (300 m), şərq hissəsi okean səviyyəsindən aşağıdır. Ərazilər Antropogen dövrünün allüvial və dəniz mənşəli çöküntüləri ilə örtülür. Gil yataqlarından istifadə etmək olar. Ağcabədidə qış mülayim, yay isti və quru keçir. Ona görə yarımsəhra və quru çöl iqlim tipi yaranır. Yanvarın orta temperaturu 1,2-1,8°C, iyul isə 25-26°C-dir. Yağıntıların orta illik miqdarı 300-400 mm-dir. Çay şəbəkəsi seyrəkdir. Şimal-şərqdə Zərdab rayonu ilə sərhəd boyu Kür çayı axır, Kiçik Qafqazdan başlanan çaylar (Qarqar, Qarasu, Şapartı çayları) aşağı axarında rayonun ərazisindən keçir. Lakin onlar müvəqqəti axarlıdır. Rayonun ərazisindən Yuxarı Qarabağ kanalı və Baş Mil-Qarabağ kollektoru keçir. Şorsulu göllər (Ağgöl, şorgöl) vardır. Boz-çəmən, boz, bataqlıq-çəmən, allüvial-çəmən torpaqları yayılır. Mərkəzi hissələrdə şoran və şorakət torpaq sahələrinə rast gəlinir. Quru çöl və yarımsəhra tipli bitkilər formalaşır. Kür çayı sahilində kolluqlar və seyrək tuğay meşələri yayılır.

Ağcabədi inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə ləğv edilərək ərazisi Ağdam rayonuna verilmiş, 06.01.1965 ildə yenidən yaradılmışdır. Rayon Kür-Araz ovalığına aid Mil və Qarabağ düzlərində, Kür çayının sağ sahilində yerləşir. Sahəsi 1756 km², əhalisinin sayı 125,7 min nəfər, o cümlədən şəhər əhalisi 47,7 min nəfər, kənd əhalisi 78,0 min nəfərdir (01.01.2012). Mərkəzi Ağcabədi şəhəridir (əhalisi 39,5 min nəfər). Əhalinin sıxlığı 71 nəfər/km²-dir. Rayonda 1 şəhər, 1 qəsəbə, 39 kənd ərazi dairəsi, 44 kənd yaşayış məntəqəsi vardır. Heyvanat aləminə ceyran, canavar, çaqqal, tülkü, bataqlıq qunduzu, porsuq, boz dovşan, Kiçik Asiya qum siçanı, sürünənlərə Levantin gürzəsi, Aralıq dənizi tısbağası və göl qurbağası aiddir. Ağcabədi rayonu ərazisində Ağgöl milli parkı və Ağgöl yasaqlığı yaradılmışdır. Milli parkda qışlayan su quşları (soltan toyuğu, turac, qırqovul, ördək, qaz, qutan, bəzgək), çöl donuzu, porsuq, su qunduzu mühafizə olunur. Burada 15 heyvan növü, 20 balıq növü və 40 bitki növü vardır. Ağcabədi əsasən taxılçılıq, pambıqçılıq və heyvandarlıq rayonudur. Meyvə, kartof, şəkər çuğunduru, bostan-tərəvəz bitkiləri, günəbaxan becərilir. Rayonda "Pambıq" ATSC, taxıl və "Atra" Süd emalı müəssisələri vardır. Ağcabədi rayonu tarixi-memarlıq abidələri ilə zəngindir. Antik dövrə aid olan Səngərtəpə, Qaratəpə yaşayış yerləri və Qaragöbər nekropolu; Tunc dövrünə aid Gavurtəpə və Üçtəpə yaşayış yerləri, Üçtəpə və Şahtəpə kurqanları, Qasımtəpə və Hüseynbəy kurqanları; Eneolit və Tunc dövrlərinə aid Çaqqallıtəpə və Boyatqala yaşayış yeri; Tunc və Dəmir dövrlərinə aid Yolçəkəntəpə, Aşıxlıtəpə kurqanları; Eneolit dövrünə aid Toyrətəpə yaşayış yeri; b.e.ə. I minilliyə aid yaşayış yeri əhəmiyyətinə görə seçilir. Orta əsrlərə aid Əmirəhməd və Solaxaytəpə yaşayış yerləri vardır. Rayon mərkəzində XX əsrdə tikilmiş məscid yerləşir.

Ağdaş inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. Ağdaş rayonu Şirvan düzünün şimal-qərbində, Acınohur alçaq dağlığı və Kür çayı arasında, onun sol sahilində yerləşir. Sahəsi 1048 km², əhalisinin sayı 102,3 min nəfər, o cümlədən şəhər əhalisi 33,5 min nəfər, kənd əhalisi 68,8 min nəfərdir (01.01.2012). Mərkəzi Ağdaş şəhəridir (əhalisi 29,6 min nəfər). Əhalinin sıxlığı 97 nəfər/km²-dir. Rayonda 1 şəhər, 2 qəsəbə, 41 kənd ərazi dairəsi, 72 kənd yaşayış məntəqəsi vardır. Əhalisinin sayına görə Ləki qəsəbəsi (3,6 min nəfər, 2012-ci il), Yuxarı Ləki (3443 nəfər), Orta Ləki (2746 nəfər), Abad (1781 nəfər), Aşağı Ləki (1673 nəfər) və Qaradeyin (1640 nəfər) kəndləri fərqlənir (2009). Rayonda boz-çəmən və qəhvəyi dağ-meşə torpaqları yayılır. Yarımsəhra və quru çöl tipli bitkilər bitir. Kür çayı sahillərində tuğay meşələri, rayonun şimalında ardıc və saqqız ağaclarından ibarət seyrək arid meşələr vardır. Canavar, çaqqal, tülkü, çöl donuzu, dovşan, çöl siçanı, quşlardan bildirçin, qutan, kəklik, dovdaq, turac, qırqovul, kərkəs, sürünənlərdən gürzə və göl qurbağası əsas heyvan növləridir. Burada yaradılan Türyançay qoruğunda ardıc, saqqızağacı, püstə ağacları, turac, kəklik, mühafizə olunur. Ağdaş taxılçılıq və heyvandarlıq rayonudur. Əkinçilikdə pambıqçılıq, tərəvəzçilik, bostançılıq, meyvəçilik, kartofçuluq inkişaf etmişdir. Sənaye sahəsində "Ağdaş-Pambıq" ATSC, "Orelay" şirniyyat firması, "Kükəl" kərpic zavodu, "Damla" Un fabriki, "Arşınmalçı" tikiş-trikotaj müəssisəsi və s. yaradılmışdır. Rayonda XVIII əsrdə inşa olunmuş karvansara, Surxay qalası, tarix-diyarşünaslıq muzeyi və musiqi məktəbi tarixi abidə kimi mühafizə olunur. Türyançay qəsəbəsi ətrafında orta əsrlərə aid şəhər yaşayış yeri, Ağdaş şəhərinə yaxın ərazilərdə Qızılbaşlar məscidi (1891); Hacı Osman məscidi (XIX əsr); Qarabəy karvansarayı (XIX əsr) qorunur.

Ağdaş rayonu

1:300 000

Ağdaş Ölkəşünaslıq muzeyinin eksponatları

Ağdaş rayonunun səthi əsasən düzənlik, şimalda dağlıqdır. Burada Xocaşen silsiləsi (609 m) yüksəlir. Düzənlik hissədə Antropogen yaşlı, dağlarda isə Neogen dövrünə aid çöküntülər yayılır. Sənaye əhəmiyyətli gil yataqları vardır. Rayonda qışı mülayim, yayı isti və quru keçən yarımsəhra və quru çöl iqlim tipi hakimdir. Yanvarın orta temperaturu 1,2-1,9°C, iyul isə 26,4°C-dir. Yağıntıların orta illik miqdarı 300-400 mm-dir. Rayonun ərazisindən Türyan çayı, cənub-qərbdə Bərdə rayonu ilə sərhədi boyu Kür çayı axır. Baş Şirvan kollektoru Ağdaş rayonu ərazisindən başlanır, Yuxarı Şirvan kanalı buradan keçir. Türyan çayında su qovşağı yaradılmışdır.

Mücirəddin Beyləqaninin heykəli

Beyləqan rayonu

Beyləqan inzibati rayonu - 24.01.1939-cu ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə ləğv edilərək İmişli rayonuna verilmiş, 06.01.1965-ci ildə yenidən yaradlmışdır. 1939-cu ildən 18.03.1989 ilə qədər Jdanov, sonra Beyləqan rayonu adlanmışdır. Rayon Mil düzündə yerləşir, cənub-şərqdə Araz çayı boyu İran İR ilə həmsərhəddir. Sahəsi 1131,1 km², əhalisinin sayı 89,7 min nəfər, o cümlədən şəhər əhalisi 37,3 min nəfər, kənd əhalisi 52,4 min nəfərdir (01.01.2012). Mərkəzi Beyləqan şəhəridir (əhalisi 15,5 min nəfər). Rayonda 1 şəhər, 16 qəsəbə, 20 kənd ərazi dairəsi, 25 kənd yaşayış məntəqəsi vardır. Beyləqan rayonu Mil düzünün cənub-qərbində yerləşir. Ərazisinin şimalı okean səviyyəsindən aşağıdadır. Rayonda Antropogen yaşlı çöküntülər səthə çıxır. Faydalı qazıntılara çınqıl, qum və gil yataqları aiddir. Yanvarın orta temperaturu 1,5°-1,8°C, iyul isə 26°C-dir. Yağıntıların orta illik miqdarı 300 mm-dir. Rayonun şimal-şərq sərhədindən Kür çayı, cənub-şərq sərhədindən Araz çayı axır. Yuxarı Qarabağ və Mil kanalları, Baş Mil-Qarabağ kollektoru Beyləqan ərazisindən keçir. Əsas torpaq tiplərinə boz, çəmən-boz, allüvial-çəmən tipləri aiddir. Yovşanlı və yovşanlı-şoranotlu yarımsəhra bitkiləri geniş sahə tutur. Şimalda yerləşən Ağgöl milli parkı su quşlarının əsas yaşayış yeridir. Beyləqanda taxılçılıq və heyvandarlıq kənd təsərrüfatının əsas sahələridir. Əkinçilikdə pambıq, tərəvəz, bostan bitkiləri, meyvələr, kartof, üzüm, şəkər çuğunduru, günəbaxan becərilir. Sənayedə "Beyləqan-Pambıq", "Beyləqan-Taxıl" ASC-ləri, "Aran-Qala" LTD firması, "Büllur" spirtsiz içkilər müəssisəsi fəaliyyət göstərir, tikinti qumu hasil olunur. Rayon ərazisində olan tarixi-arxeoloji abidələrə Tunc dövrünə aid Çardaxlı yaşayış yerləri; antik dövrə aid olan küp qəbirləri nekropolu; b.e.ə. VII-IV əsrlər Qaratəpə yaşayış yeri; b.e.ə. VII-VI əsrlərə aid Sarıtəpə qəbiristanlığı; orta əsrlərə (V əsr) aid Beyləqan yaşayış yeri (Örənqala), Kültəpə yaşayış yeri (XI-XIII əsrlər) və Təzəkənd yaşayış yeri daxildir.

Bərdə inzibati rayonu - 08.08.1930-cu ildə təşkil edilmişdir. Bərdə rayonu Qarabağ düzündə, Kür çayının sağ sahilində yerləşir. Sahəsi 957 km², əhalisinin sayı 146,6 min nəfər, o cümlədən şəhər əhalisi 38,5 min nəfər, kənd əhalisi 108,1 min nəfərdir (01.01.2012). Mərkəzi Bərdə şəhəridir (əhalisi 38,5 min nəfər). Əhalisinin sayına görə Ləmbəran (4941 nəfər), Kətəlparaq (3228 nəfər), Yeni Daşkənd (2498 nəfər) və Otuzikilər (2429 nəfər) kəndləri fərqlənir (2009). Rayonda 1 şəhər, 34 kənd ərazi dairəsi, 110 kənd yaşayış məntəqəsi vardır. Bərdə rayonu Qarabağ düzünün şimal hissəsindədir. Rayonda mütləq hündürlük Kür çayından Kiçik Qafqaza doğru tədricən artır. Bu ərazilər Antropogen dövrünə aid çöküntü süxurları ilə örtülür. Gil, çınqıl və qum yataqları əsas ehtiyatlardır. Yanvarın orta temperaturu 2,1°C, iyul isə 26,2°C-dir. Yağıntıların orta illik miqdarı 250-330 mm-dir, əsasən yazda və payızda düşür. Rayonun ərazisindən axan Tərtər və Xaçın çayları Kürün sağ qollarıdır. Kür Ağdaş və Zərdab rayonları ilə sərhədi boyu axır. Əsas torpaq tiplərinə boz və boz-çəmən torpaqları, Kürün sahillərində allüvial-çəmən torpaqları aiddir. Təbii bitki örtüyü yarımsəhra və quru çöl tiplidir. Kür çayı sahilində seyrək tuğay meşələri yayılır. Əsas heyvan növlərinə canavar, çaqqal, tülkü, çöl donuzu, boz dovşan, süleysin, Kiçik Asiya qum siçanı, quşlardan dovdaq, bəzgək, qaz, ördək, turac, qırqovul, sürünənlərdən Qafqaz gürzəsi, su ilanı və göl qurbağası aiddir. Rayon ərazisində Bərdə yasaqlığı yaradılmışdır, qırqovul, turac qorunur. Bərdə ölkənin əsas kənd təsərrüfatı rayonlarından biridir. Taxılçılıq, pambıqçılıq, tərəvəzçilik-bostançılıq və heyvandarlıq kənd təsərrüfatının əsas sahələridir. Meyvə, kartof, şəkər çuğunduru, günəbaxan becərilir. "Qarabağ-Pambıq" ASC, "Yağ-Pendir" ASC, "Fərid" inşaat müəssisəsi fəaliyyət göstərir, pendir, mahlıc, tikinti qumu istehsal olunur.

Bərdə rayonunda Hacılı kəndində antik dövrə aid Şortəpə yaşayış yeri və nekropolu; Güloğlular kəndində Səkkizguşəli türbə (XVIII əsr), Köhnə qəbiristanlıq (orta əsrlər); Bərdə şəhərində Axsadan Baba türbəsinin xarabalıqları (XIV əsr), İmamzadə məscidi (XVII əsr), Bəhmən Mirzə türbəsi (XVIII əsr), İbrahim məscidi (XVIII-XIX əsrlər); Kələntərli kəndində məscid (XIX əsr) və hamam (XVIII əsr) kimi memarlıq abidələri mühafizə olunur.

Rayonda qədim körpünün qalıqları

Biləsuvar rayonu

1:390 000



Biləsuvar şəhərində abidə kompleksi

Biləsuvar inzibati rayonu - 08.08.1930-cu ildə yaradılmışdır. 04.01.1963-cü ildə ləğv edilərək Cəlilabad rayonuna verilmiş, 06.01.1965-ci ildə yenidən təşkil olunmuşdur. 19.38.1938-ci ildən 07.02.1991-ci ilə qədər Puşkin rayonu adlanmışdır. Biləsuvar rayonu Muğan düzündə yerləşir, qərbdə İran İR ilə həmsərhəddir. Sahəsi 1397 km², əhalisinin sayı 92,3 min nəfər, o cümlədən şəhər əhalisi 20,9 min nəfər, kənd əhalisi 71,4 min nəfərdir (01.01.2012). Mərkəzi Biləsuvar şəhəridir (əhalisi 20,9 min nəfər). Rayonda 1 şəhər, 22 kənd ərazi dairəsi, 25 kənd yaşayış məntəqəsi vardır. Relyef düzənlikdir, şərqdə bir hissəsi okean səviyyəsindən aşağıdır (-16-20 m). Antropogen yaşlı çöküntülər yayılır. Yay isti və quru, qış mülayim keçir. Yanvarın orta temperaturu 2,4°C, iyul 26°C-dir. Yağıntıların orta illik miqdarı 320-350 mm-dir, əsasən payızda düşür.

Göyçay inzibati rayonu - 08.08.1930-cu ildə təşkil edilmişdir. Göyçay rayonu Şirvan düzünün şimalında, Böyük Qafqazın cənub ətəklərində yerləşir. Sahəsi 739 km², əhalisinin sayı 112,4 min nəfər, o cümlədən şəhər əhalisi 36,1 min nəfər, kənd əhalisi 76,3 min nəfərdir (01.01.2012). Mərkəzi Göyçay şəhəridir (əhalisi 36,1 min nəfər). Rayonda 1 şəhər, 25 kənd ərazi dairəsi, 55 kənd yaşayış məntəqəsi vardır. Rayonun səthi əsasən düzənlikdir. Şimal sahələr alçaq dağlıq relyefə malikdir. Acınohur alçaq dağlığına aid Xocaşen silsiləsinin cənub kənarları və Qaraməryəm tirəsi (Qaraquş d., 437 m) Göyçayın şimalını tutur. Neogen (Pleystsen) və Antropogen yaşlı çöküntülər yayılır. Yayı quru keçən yarımsəhra və quru çöl iqlimi hakimdir, qış mülayim keçir. Yanvarın orta temperaturu 1,9°C, iyul 26,4°C-dir. Yağıntıların orta illik miqdarı 400-500 mm-dir, əsasən yazda və payızda düşür. Ərazidən axan Göyçay çoxlu qollara parçalanır və gətirmə konusu yaradır. Şilyan çayı rayondan keçərək Ucar rayonuna daxil olur. Boz-çəmən, qəhvəyi dağmeşə, şabalıdı, açıq-şabalıdı yayılan əsas torpaq tipləridir. Bitki örtüyü efemerli-yovşanlı və yovşanlı-şoranotulu yarımsəhra qrupuna aiddir, dağ kserofit (quraqlığa davamlı) bitki qrupları geniş yayılır. Seyrək saqqızağacı-ardıc meşələri və arid kolluqlar vardır. Heyvanlar aləminə canavar, tülkü, boz dovşan, çöl siçanı aiddir. Türyançay qoruğunun bir hissəsi Göyçay rayonunun ərazisinə keçir. Kənd təsərrüfatının əsasını taxılçılıq, meyvəçilik və heyvandarlıq təşkil edir. Pambıq, üzüm, tərəvəz-bostan bitkiləri, kartof əkilməsinin əhəmiyyəti çoxdur. Rayonda Yem, Kərpic, Çörək, Konserv, Şərab zavodları, Tikiş fabriki, Quşçuluq fabriki, "Göyçay-Süd" ATSC fəaliyyət göstərir. Asfalt zavod işləyir, tikinti sənayesi üçün çınqıl və çaydaşı hasil olunur. Rayonun ərazisində qorunan tarixi-arxeoloji abidələrə Qaraməryəmdə b.e.ə. III əsrə aid küp qəbirləri nekropolu; İncə kəndi ətrafında b.e.ə. I – b.e.-nın I əsrlərinə aid küp qəbirləri nekropolu; I-II əsrlərə aid Qəbiristanlıq; Şahsoltanlıda orta əsrlər yaşayış yeri; XIX əsrə Hacı Cəlil məscidi, 1903-cü ilə aid olan məscid və yeraltı hamam aiddir.

Bolqar çayının aşağı axarı rayon ərazisindədir, üzərində eyni adlı su anbarı tikilmişdir. Son dövrlərdə Əzizbəyov adına kanaldan Araz çayının daşqın sularının axıdılması üçün istifadə olunur. Şabalıdı, açıq şabalıdı, boz-çəmən, allüvial-çəmən, şoran torpaqlar yayılmışdır. Yarımsəhra və quru çöl tipli bitkilər yayılır. Rayonun kənd təsərrüfatında taxılçılıq, pambıqçılıq və heyvandarlıq əsas yer tutur. Kartof, tərəvəz, bostan bitkiləri, şəkər çuğunduru, günəbaxan və meyvə yetişdirilir. Rayonda "Biləsuvar-Pambıq" ATSC, Meyvə-Tərəvəz konservi, Süd emalı müəssisəsi fəaliyyət göstərir.

Biləsuvar rayonunda olan tarixi-arxeoloji və memarlıq abidələrə Tunc dövrünə aid Qoşatəpə kurqanları; dəmir dövrünə aid Şəhriyar qalası, Ceyrantəpə kurqanı; orta əsrlərə aid Şəhriyartəpə və İçəri Ağdam yaşayış yerləri, Şəhriyar və Ağdam qalaları aid edilə bilər.

Göyçay rayonu

1:200 000



Göyçayda dağların ətəyində otlaq sahəsi

Hacıqabul rayonu

1:350 000

Pir Hüseyn xanəgahı



Hacıqabul rayonunda xeyli tarixi-arxeoloji və memarlıq abidələri vardır. Pir Hüseyn xanəgahı (XI-XIV əsrlər) tarixi-memarlıq qoruğu elan edilmişdir. Orta əsrlərə aid Qubalıbaloğlan kəndində köhnə qəbiristanlıq; Udullu kurqanları və kromlexi (dini mərasim tikililəri) və Udullu qəbiristanlığı; türbə (XV əsr) və körpü (XVII-XIX əsrlər) tarixi əhəmiyyət kəsb edir.

Hacıqabul inzibati rayonu - 24.01.1939-cu ildə Qazıməmməd rayonu kimi təşkil olunmuş, 04.12.1959-cu ildə ləğv edilərək Əli Bayramlı rayonuna verilmiş, 24.04.1990-cı ildə bərpa edilmişdir. 2008-ci ildə rayon mərkəzi Qazıməmməd şəhərinin adı dəyişdirilmiş və Hacıqabul adlanmışdır. Hacıqabul rayonu Şirvan düzündə, Kür çayının sol sahilində yerləşir. Sahəsi 1640 km^2, əhalisinin sayı 68,3 min nəfər, o cümlədən şəhər əhalisi 34,8 min nəfər, kənd əhalisi 33,5 min nəfərdir (01.01.2012). Mərkəzi Hacıqabul şəhəridir (əhalisi 25,6 min nəfər). Əhalinin sıxlığı 42 nəfər/km^2-dir. Rayonda 1 şəhər, 5 qəsəbə, 13 kənd ərazi dairəsi, 25 kənd yaşayış məntəqəsi vardır. Əhalisinin sayına görə Navahı (3142 nəfər), Rəncbər (3041 nəfər), Abdulabad (2970 nəfər), Qarasu (2552 nəfər) və Qubalıbaloğlan (2715 nəfər) kəndləri fərqlənir (2009). Hacıqabul rayonu Şirvan düzünün və Böyük Hərəmi silsiləsinin (Babikum d., 576 m) cənub-şərq hissəsini əhatə edir. Şirvan düzünə aid sahələr okean səviyyəsindən aşağıda yerləşir. Neogen və Antropogen yaşlı çöküntülər səthə çıxır. Palçıq vulkanları vardır. Əsas faydalı qazıntılara neft (Böyük və Hərəmi, Padar yataqları), qaz, gil, gəc aid edilir. Rayonda yarımsəhra və quru çöl iqlimi hakimdir, yay isti və quru, qış mülayim keçir. Yanvarın orta temperaturu 2,0°C, iyul 26°C-dir. Yağıntıların orta illik miqdarı 250-370 mm-dir, əsasən yaz-payız aylarında düşür. Rayonun ərazisindən Kür və Pirsaat çayları axır. Pirsaat çayı üzərində su anbarı tikilmişdir. Hacıqabul gölü rayonun ərazisindədir. Boz-qonur, boz-çəmən, şoran torpaqlar üzərində yarımsəhra bitki örtüyü əmələ gəlir. Ceyran, qırmızıquyruq qum siçanı, kələz, gürzə, turac, kəklik, qırqovul, göyərçin əsas heyvan növləridir. Rayonda kənd təsərrüfatının əhəmiyyəti çoxdur. Burada taxılçılıq aparıcı sahədir, pambıq, tərəvəz, bostan bitkiləri, kartof əkilir, heyvandarlıq inkişaf etmişdir. Broyler-Quşçuluq SC, Qubanın "SAF" şirkətinin filialı vardır.

İmişli inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. 19.07.1938-ci ilə qədər Qaradonlu rayonu adı ilə mövcud olmuşdur. Araz çayı rayonun mərkəzindən keçdiyinə görə İmişli rayonu Mil və Muğan düzlərində yerləşir. Cənubda Araz çayı boyu İran İR ilə həmsərhəddir. Sahəsi 1821 km^2, əhalisinin sayı 118,6 min nəfər, o cümlədən şəhər əhalisi 37,8 min nəfər, kənd əhalisi 80,8 min nəfərdir (01.01.2012). Mərkəzi İmişli şəhəridir (əhalisi 33,3 min nəfər). Əhalinin sıxlığı 65 nəfər/km^2-dir. Rayonda 1 şəhər, 2 qəsəbə, 27 kənd ərazi dairəsi, 48 kənd yaşayış məntəqəsi vardır. Bəhramtəpə qəsəbəsində 4,5 min nəfər əhali yaşayır (2012). Əhalisinin sayına görə Sarxanlı (6011 nəfər), Cəfərli (3601 nəfər), Qaralar (3643 nəfər), Məzrəli (3487 nəfər) və Aranlı (3905 nəfər) kəndləri fərqlənir (2009). İmişli rayonu Kür-Araz ovalığında yerləşir, səthi şimal-şərqə doğru alçalır. Ərazisinin çox hissəsi okean səviyyəsindən aşağıdır (-5-10 m). Rayonda Antropogen yaşlı çöküntülər yayılır. Faydalı qazıntılara neft (Muradxanlı), çınqıl və qum yataqları aiddir. Bu ərazilərdə yayı quraq keçən yarımsəhra və quru çöl iqlimi formalaşır, qış mülayim keçir. Yanvarın orta temperaturu 1,6°C, iyul 26,1°C-dir. Yağıntıların orta illik miqdarı 300 mm-dir. Rayonun şimalında, Kürdəmir və Zərdab rayonları ilə sərhədləri boyu Kür çayı, mərkəzi hissəsindən Araz çayı axır. Sarısu gölünün çox hissəsi İmişli rayonu ərazisindədir. Araz çayı üzərində tikilmiş Bəhramtəpə su anbarından Baş Muğan və Əzizbəyov kanalları başlanır. Yuxarı Qarabağ kanalı bura xeyli su gətirir. Rayonda çoxlu sayda şorsulu göllər vardır. Boz-çəmən, bəzi yerlərdə boz və bataqlıq-çəmən torpaqları yayılır. Onlar üzərində yarımsəhra və quru çöl bitki örtüyü (yovşan, şoranotu, qamış, bataqlıq bitkiləri və s.) yayılıb. Heyvanlar aləminə çöl donuzu, canavar, tülkü, boz dovşan, Kiçik Asiya qum siçanı, qırmızıquyruq siçan, quru qurbağası, quşlardan qırqovul, turac, sultan toyuğu dovdaq aiddir.

1:400 000



İmişli rayonu inkişaf etmiş kənd təsərrüfatı və sənaye sahələrinə malikdir. Kənd təsərrüfatıda taxılçılıq, pambıqçılıq, heyvandarlıq, quşçuluq və s. inkişaf etmişdir. Meyvələr, tərəvəz-bostan bitkiləri, kartof, şəkər çuğunduru, günəbaxan becərilir. Rayonda Muradxanlı Neft-Mədən İdarəsi, Pambıqtəmizləmə və Şəkər zavodları, Ət və Yağ-Pendir kombinatları, "İmişli Broyler"MMC əsas müəssisələrdir. Neft, qaz kondensat, mahlıc, asfalt, dəmir-beton məmulatları və çınqıl əsas sənaye məhsullarıdır. İmişli rayonu ərazisində Qızılkənddə Tunc və Dəmir dövrlərinə aid Yedditəpə kurqanı; orta əsrlərə aid Qızıltəpə (Qızılkənd k.) və Abıştəpə (Aranlı k.) yaşayış yerləri; Qaradonluda IX-XIII əsrlərdən qalan yaşayış yeri və s. tarixi-arxeoloji və memarlıq abidələri vardır.

Kürdəmir rayonu

1:330 000

Son dövrlərdə ölkədə üzüm əkinləri genişləndirilir

Kürdəmir inzibati rayonu - 08.08.1930-cu ildə təşkil edilmişdir. Rayon Şirvan düzündə, Kür çayının sol sahilində yerləşir. Sahəsi 1631,5 km², əhalisinin sayı 107,5 min nəfər, o cümlədən şəhər əhalisi 21,3 min nəfər, kənd əhalisi 86,2 min nəfərdir (01.01.2012). Mərkəzi Kürdəmir şəhəridir (əhalisi 18,3 min nəfər). Əhalinin sıxlığı 66 nəfər/km²-dir. Rayonda 1 şəhər, 2 qəsəbə, 21 kənd ərazi dairəsi, 59 kənd yaşayış məntəqəsi vardır. Karrar və Qarabucaq qəsəbələrinin hər birində 1,5 min nəfər əhali yaşayır (2012-ci il). Əhalisinin sayına görə Sığırlı (6130 nəfər), Xırdapay (5734 nəfər), Atakişili (5680 nəfər), Şilyan (4733 nəfər), Qarasu (3888 nəfər)və Yenikənd (3247 nəfər) kəndləri fərqlənir (2009). Kürdəmirdə relyef hamar düzənlikdən ibarətdir. Rayonun cənub hissəsi okean səviyyəsindən aşağıda (-9-13 m) yerləşir. Düzənlikdə Antropogen yaşlı çöküntülər yayılmışdır. Mollakənddə neft ehtiyatları vardır. Yayı quraq, qışı mülayim keçən yarımsəhra və quru çöl iqlimi hakimdir. Orta temperatur yanvarda 1,4°C, iyulda 27,3°C-dir. Yağıntıların orta illik miqdarı 360-375 mm-dir, əsasən yazda və payızda düşür. Rayonun çay şəbəkəsi seyrəkdir, cənubundan axan Kür çayı İmişli rayonu ilə sərhəd təşkil edir. Girdiman və Ağsu çaylarının aşağı axını Kürdəmir rayonundan keçir. Lakin çayların suyu az olduğuna görə quruyur və Kürə çatmır. Baş Şirvan kollektoru rayonun mərkəzindən, Yuxarı Şirvan kanalı şimalından keçir. Ərazidə boz-çəmən, boz və bataqlıq-çəmən torpaqlar yayılır. Yarımsəhra bitkiləri, kserofit kolluqlar və tuğay meşələri üstünlük təşkil edir. Çöl donuzu, bataqlıq qunduzu, qum siçanı, canavar, tülkü, gəmiricilər, Qafqaz kələzi, gürzə əsas heyvan növləridir. Bəzgək, ördək, qaz, turac, kəklik, dovdaq və s. quşlar qışlayır. Kürdəmirdə taxılçılıq və heyvandarlıq kənd təsərrüfatının əsas sahələridir. Meyvəçilik (narçılıq), tərəvəzbostançılıq, pambıqçılıq, üzümçülük, kartofçuluq, balıqçılıq, quşçuluq və maldarlıq inkişaf etmişdir. Sənaye müəssisələrinə "Kürdəmir-Pambıq", "Kürdəmir-Taxıl", "Kürdəmir-Broyler" ATSC-ləri, "Şərq" MMC, Çörək zavodu aiddir. Kürdəmir rayonunda olan arxeoloji abidələrə Sığırlıda orta əsrlərə aid Qaratəpə yaşayış yeri və qəbiristanlıq; Ərəb Qubalıda şəhər yaşayış yeri daxildir.

Neftçala inzibati rayonu - 11.02.1940-cı ildə təşkil edilmişdir. 04.12.1959-cu ildə ləğv edilərək ərazisi Salyan rayonu ilə birləşdirilmiş, 18.04.1973-cü ildə bərpa olunmuşdur. Neftçala rayonu Kür-Araz ovalığının şərqində, Xəzər dənizinin sahilində yerləşir. Sahəsi 1451,7 km², əhalisinin sayı 82,2 min nəfər, o cümlədən şəhər əhalisi 38,9 min nəfər, kənd əhalisi 43,3 min nəfərdir (01.01.2012). Mərkəzi Neftçala şəhəridir (əhalisi 20,9 min nəfər). Rayonda 1 şəhər, 3 qəsəbə, 14 kənd ərazi dairəsi, 48 kənd yaşayış məntəqəsi vardır. Əhalisinin sayına görə Bankə (7,4 min nəfər), Həsənabad (6,6 min nəfər) və Xıllı qəsəbələri (4,0 min nəfər, 2012-ci il), Aşağı Surra (4618 nəfər), Xol Qarabucaq (2533 nəfər) və Yuxarı Qaramanlı (1614 nəfər) kəndləri fərqlənir (2009). Bəzi yerlərdə şoranlıqlara rast gəlinir. Bitki örtüyündə yarımsəhra və quru çöl tipləri üstünlük təşkil edir, Kürün sahillərində tuğay meşələri az sahə tutur, ağyarpaq qovaq, qarağac, uzunsaplaq palıd, çinar, iydə, söyüd ağacları, yulğun kolları bitir. Neftçalada taxılçılıq, pambıqçılıq, yemçilik və heyvandarlıq kənd təsərrüfatının əsas sahələridir. Tərəvəz-bostan bitkiləri, meyvələr, kartof, üzüm becərilir. Sənayedə "Anşad-Petrol" Müştərək Neft və Qazçıxarma İdarəsi, "Neftçala-Pambıq", "Neftçala-Taxıl", "Neftçala Yod-Brom" müəssisələri vardır. Neftçalada tarixi-arxeoloji əhəmiyyət kəsb edən abidələr vardır. Onlara II-XIII əsrlərə (Boyat k.), II-XVII əsrlərə (Xol Qaraqaşlı k.), VIII-XIV əsrlərə (Ərəbqardaşbəyli k.), XII-XIV əsrlərə (Bankə q.) və XII-XVII əsrlərə (Xıllı q.) aid yaşayış yerləri; II-IV əsrlərə (Boyat k.) və XII-XVII əsrlərə (Xıllı q.) aid nekropol; rayon mərkəzində Heydər Almazovun türbəsi (1894) və XIX əsrə aid məscid (Xıllı q.) aiddir.

Neftçala rayonu

1:370 000

Neftçala rayonunun relyefi hamar düzənliklərdən ibarətdir, Cənub-Şərqi Şirvan və Salyan düzlərində, qismən də Muğan düzündə yerləşir. Bütün ərazilər okean səviyyəsindən 22-27 m aşağıdadır, Antropogen yaşlı dəniz və çay çöküntüləri ilə örtülür. Faydalı qazıntılara neft (Neftçala və Xıllı yataqları), təbii qaz (Dirovdağ yatağı), yodlu-bromlu sular, xörək duzu, tikinti qumu aiddir. Yayı quraq, qışı mülayim keçən yarımsəhra və quru çöl iqlim hakimdir. Orta temperatur yanvarda 3,2°C-yədək, iyulda 25,5°C-dir. İl ərzində orta hesabla 300 mm olan yağıntıların çox hissəsi payızda düşür. Kür çayı, Bala Kür kanalı, Kür çayından çəkilən və Salyan rayonundan gələn Aquşa kanalı Salyan düzündə olan torpaqların suvarılması üçün istifadə olunur. Hazırda burada su ilə təminat üçün yeni istiqamətdə kanal çəkilir (Kür-Xol Qarabucaq).

Saatlı rayonu

1:250 000

Saatlı rayonunda əsas sənaye müəssisəsinə "Saatlı Pambıq" ATSC-nin emal zavodu, "Şəki İpək" ASC-nin Pambıqçılıq İdarəsi ("CTS-Aqro") və pambıq qəbulu məntəqəsi, Meyvətərəvəz Konserv zavodu aiddir. Saatlı rayonunda b.e.ə. II-I əsrlərə aid (Azad kənddə); antik dövrə aid (Sarıcallarda); II-III əsrlərdən qalan (Məmmədabad kəndində) nekropol əsas tarixi-arxeoloji abidələrdir.

Rayonda sıx suvarma şəbəkəsi yaradılmışdır

Saatlı inzibati rayonu - 25.05.1943-cü ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə Sabirabad rayonuna birləşdirilmiş, 06.011965-ci ildə bərpa olunmuşdur. Saatlı rayonu Kür-Araz ovalığının mərkəzi hissəsində, Muğan düzündə, az hissəsi Mil düzündə yerləşir.

Sahəsi 1180,5 km², əhalisinin sayı 97,0 min nəfər, o cümlədən şəhər əhalisi 17,9 min nəfər, kənd əhalisi 79,1 min nəfərdir (01.01.2012). Mərkəzi Saatlı şəhəridir (əhalisi 17,9 min nəfər). Əhalinin sıxlığı 82 nəfər/km²-dir. Rayonda 1 şəhər, 35 kənd ərazi dairəsi, 43 kənd yaşayış məntəqəsi vardır. Əhalisinin sayına görə Qara Nuru (6258 nəfər), Şirinbəyli (4423 nəfər), Qıraqlı (3622 nəfər), Nəsimi (3496 nəfər) və Fətəli (3171 nəfər) kəndləri fərqlənir (2009).

Saatlı rayonunun ərazisi düzənlikdir və dəniz səviyyəsindən aşağıda (-12-16 m) yerləşir. Antropogen dövrünə aid çöküntülər yayılmışdır. Yayı quraq, qışı mülayim keçən yarımsəhra və quru çöl iqlimi hakimdir. Yanvarın orta temperaturu 1,4°C, iyul 26,2°C-dir. Yağıntıların orta illik miqdarı 290-300 mm-dir, əsasən payızda düşür. Rayonun ərazisindən Araz çayı, şimal sərhədindən Kür çayı axır, onlardan Sabir adına, Gümüşarx, Baş Muğan və Aşağı Muğan suvarma kanalları başlanır. Mil-Muğan kollektoru buradan keçir. Araz çayı Kür ilə Saatlıda qovuşur. Düzənliklərdə sıx suvarma kanalları şəbəkəsi yaradılmışdır.

Rayonda boz-çəmən, boz, şorakət, bataqlıq-çəmən torpaqları yayılmışdır. Yarımsəhra və quru çöl bitkiləri yayılır. Heyvanat aləminə çöl donuzu, qum siçanı, su qunduzu, canavar, tülkü, dovşan, çaqqal, quşlardan bəzgək, göyərçin, turac, dovdaq, sürünənlərdən ilan, quru qurbağası və s. daxildir. Çaylarda balıq ehtiyatları (nərəkimilər, çəki, sıf) vardır.

Saatlı əsasən kənd təsərrüfatı rayonudur, əsas sahələrə pambıqçılıq və taxılçılıq aiddir, tərəvəzçilik, meyvəçilik, üzümçülük, kartofçuluq inkişaf edir, günəbaxan əkilir. Heyvandarlıq sahələrinin (maldarlıq, qoyunçuluq) əhəmiyyəti çoxdur.

Sabirabad inzibati rayonu - 08.08.1930-cu ildə təşkil edilmişdir. Kür-Araz ovalığının mərkəzi hissəsində, Şirvan və Muğan düzlərində yerləşir. Sahəsi 1469,6 km², əhalisinin sayı 158,9 min nəfər, o cümlədən şəhər əhalisi 29,0 min nəfər, kənd əhalisi 129,9 min nəfərdir (01.01.2012). Mərkəzi Sabirabad şəhəridir (əhalisi 29,0 min nəfər). Əhalinin sıxlığı 108 nəfər/km²-dir. Rayonda 1 şəhər, 24 kənd ərazi dairəsi, 74 kənd yaşayış məntəqəsi vardır. Əhalisinin sayına görə Qalağayın (5888 nəfər), Cavad (3611 nəfər), Yolçubəyli (3821 nəfər), Qaratəpə (3207 nəfər) və Ulacalı (3745 nəfər) kəndləri fərqlənir (2009). Sabirabad rayonunun ərazisi düzənlikdir və okean səviyyəsindən 16-21 m aşağıdır. Düzənliklər Antropogen dövrünə aid çöküntülərlə örtülür. Rayonda yerli əhəmiyyətli qum və gil yataqları vardır.

Ərazi yarımsəhra və quru çöl iqliminə malikdir, yay isti və quru, qış mülayim keçir. Orta temperatur yanvarda 1,8°C, iyulda 26,5°C-dir. Yağıntıların orta illik miqdarı 300-310 mm-dir, əsasən yaz-payız aylarında düşür. Kür çayı uzun məsafədə rayonun inzibati sərhədləri boyu axır. Sarısu gölünün şərq hissəsi Sabirabad rayonunda yerləşir. Kür çayından başlanan suvarma kanalları (Gümüşarx) vardır. Baş Şirvan kollektoru rayonun şimalından, Baş Mil-Muğan kollektoru cənubundan keçir.

Boz-çəmən və bataqlıq-çəmən torpaqları yayılmışdır. Yarımsəhra və quru çöl bitkiləri üstünlük təşkil edir. Kür çayının sahillərində tuğay meşələri qorunur. Heyvanlar aləminə çöl donuzu, bataqlıq qunduzu, canavar, tülkü, boz dovşan, qum siçanı, quşlardan ördək, turac, göyərçin aiddir. Su və bataqlıq quşlarının qışlama yerləri vardır. Sabirabad respublikanın iri taxılçılıq, pambıqçılıq, bostançılıq və heyvandarlıq rayonudur. Burada kartof, tərəvəz, meyvə, üzüm, günəbaxan becərilir. Sənaye müəssisələrində meyvə şirələri, meyvə-tərəvəz konservi, mahlıc istehsal olunur.

1:340 000

Kür və Araz çayları Sabirabadda qovuşur (Suqovuşan)

Sabirabad rayonu ərazisində b.e.ə. V-II əsrlərə (Qaratəpə k.) və III-II əsrlərə aid (Cavad k.) nekropollar, b.e.ə. V-I əsrlərə aid küp qəbirləri nekropolu və yaşayış yeri (Surra k.) müəyyən edilmişdir. Orta əsr yaşayış yerləri kimi şəhər xarabalıqları III-XVIII əsrlərə (Cavad k.), I-III (Qalağayın k.) və III-VII əsrlərə (Qaratəpə k.) aiddir. Baba Səməd türbəsi (XVIII əsr); XIX əsrə və 1902-ci ilə aid məscid və hamam (1900) tarixi-memarlıq əhəmiyyətinə malikdir.

Salyan rayonu

Şirvan qoruğunda ceyranlar

Salyan rayonunun relyefi Kür-Araz ovalığına daxil olan düzənliklərdən ibarətdir. Hərəmi silsiləsinin cənub-şərq kənarları (155 m) rayon ərazisinə daxil olur. Az ərazi tutan tirələr və təpəliklər (Mişovdağ və s.) vardır. Rayonun çox hissəsi okean səviyyəsindən 20-27 m-ə qədər aşağıda yerləşir. Neogen və Antropogen yaşlı çöküntülər səthə çıxır, palçıq vulkanları (Qalmaz, Mişovdağ və s.) vardır. Əsas faydalı qazıntılara neft (Mişovdağ, Kürovdağ, Qarabağlı və Kürsəngə yataqları), təbii qaz, tikinti daşı, gil, Xəzərin sahillərində olan qumlar aiddir. Rayonda yayı quru, qışı mülayim keçən yarımsəhra və quru çöl iqlimi hakimdir. Yanvarın orta temperaturu 2,5°C, iyul 26,2°C-dir. Yağıntıların orta illik miqdarı 350-350 mm-dir. Kür çayı aşağı axarında Salyan rayonu ərazisindən axır, sahilərində axmazlar, sağ sahilində Duzdağ gölü yerləşir. Ceyran, tülkü, canavar, qırmızıquyruq çöl siçanı, Kiçik Asiya qum siçanı, gürzə, turac, dovdaq, bəzgək, göyərçin və s. yaşayır. Şirvan milli Parkı, Şirvan qoruğu və Bəndovan yasaqlığı rayon ərazisindədir.

Salyan inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. İnzibati rayon Cənub-Şərqi Şirvan və Salyan düzlərində yerləşir. Şərqdən kiçik məsafədə Xəzər dənizinə çıxışı vardır. Sahəsi 1790 km², əhalisinin sayı 126,5 min nəfər, o cümlədən şəhər əhalisi 41,4 min nəfər, kənd əhalisi 85,1 min nəfərdir (01.01.2012). Mərkəzi Salyan şəhəridir (əhalisi 36,8 min nəfər). Əhalinin sıxlığı 71 nəfər/km²-dir. Rayonda 1 şəhər, 2 qəsəbə, 18 kənd ərazi dairəsi, 48 kənd yaşayış məntəqəsi vardır. Qaraçala qəsəbəsində 4,4 min nəfər əhali yaşayır (2012). Əhalisinin sayına görə Arbatan (5770 nəfər), Kürsəngi (3959 nəfər), Şorsulu (3362 nəfər), Xələc (3185 nəfər) və Xıdırlı (3172 nəfər) kəndləri fərqlənir (2009). Boz-qonur, boz-çəmən, çəmən-bataqlıq, şoran torpaqlar geniş ərazidə yayılmışdır. Onlar üzərində yarımsəhra və quru çöl bitki örtüyü (yovşan, şoran, saksaul, gəvən, efemerlər) formalaşır, Kürün sahillərində tuğay meşələri (söyüd, çinar, qovaq, iydə ağacları, yulğun kolları) qorunur. Salyan ölkənin taxılçılıq və heyvandarlıq rayonlarından biridir. Əkinçilikdə taxılçılığın rolu böyükdür, pambıq, bostan-tərəvəz bitkiləri, üzüm, kartof, meyvə, günəbaxan becərilir. Heyvandarlıq inkişaf etmişdir. Əsas sənaye müəssisələrinə "Salyan Oyl" LTD şirkəti, "Salyan Pambıq" ATSC, "Plastik kütlə emalı" ASC, "Salyan-Taxıl" ATSC, "Salyan-Çörək" ATSC müəssisələri aiddir. Rayonda Kərpic və Pivə zavodları fəaliyyət göstərir. Salyan rayonunda çoxlu sayda tarixi-memarlıq abidələri qorunur: B.e.ə. II-III əsrlərə aid Kürsəngi küp qəbirləri nekropolu; Marışlıda b.e.ə. II minilliyə aid nekropol; b.e.ə. I minilliyə aid Babacanlı yaşayış yeri; orta əsrlərə aid Qarabağlı, Yuxarı Xələc yaşayış yerləri, Xurşud nekropolu və yaşayış yeri, Şorsulu nekropolu; Marışlı yaşayış yeri (XI-XV əsrlər), Salyanda Məscid (XIX əsr).

Ucar inzibati rayonu 24.01.1939-cu ildə təşkil edilmişdir. Ucar rayonu Şirvan düzündə yerləşir. Sahəsi 853 km², əhalisinin sayı 80,7 min nəfər, o cümlədən şəhər əhalisi 17,1 min nəfər, kənd əhalisi 63,6 min nəfərdir (01.01.2012). Mərkəzi Ucar şəhəridir (əhalisi 17,1 min nəfər). Əhalinin sıxlığı 95 nəfər/km²-dir. Rayonda 1 şəhər, 15 kənd ərazi dairəsi, 29 kənd yaşayış məntəqəsi vardır. Əhalisinin sayına görə Qazyan (6162 nəfər), Bərgüşad (6017 nəfər), Yuxarı Şilyan (4378 nəfər), Lək (3746 nəfər), Qaradağlı (3440 nəfər) və Alpout (3405 nəfər) kəndləri fərqlənir (2009). Ucar rayonunun səthi hamardır, şərq hissəsi okean səviyyəsindən aşağıda yerləşir (-2,0 m). Bu ərazilərdə Antropogen dövrünə aid çöküntülər yayılır. Rayonda yayı quraq, qışı mülayim keçən yarımsəhra və quru çöl iqlimi formalaşır. Orta temperatur yanvarda 1,4°C, iyulda 27,3°C-dir. Yağıntıların orta illik miqdarı 300-400 mm-dir, əsasən yaz-payız mövsümlərində düşür. Ucar ərazisindən Göyçay, Türyan və Qarasu çayları axır. Baş Şirvan kollektoru rayonun cənubundan keçir. Kollektorun ətrafında Qarasu bataqlığı sahəsində bataqlıq-çəmən torpaqları yaranmışdır. Boz-çəmən torpaqları geniş ərazidə yayılır. Onların üzərində yarımsəhra bitki örtüyü formalaşır. Heyvanat aləminə çöl donuzu, canavar, çöl siçanı, bataqlıq qunduzu, dovdaq, bəzgək aiddir. Ucar taxılçılıq və heyvandarlıq rayonudur. Əkinlərin çox hissəsini taxıl sahələri tutur, pambıq, meyvə, bostan-tərəvəz bitkiləri, kartof becərilir. Sənaye müəssisələrində pambıq, konserv, asfalt, metal və ağac məmulatları istehsal olunur. Rayonun ərazisində antik dövrə aid Bağman Bərgüşad nekropolu vardır.

Rayonun uşaq xəstəxanası

Ucar rayonu

1:220 000



Yevlax rayonu

1:320 000

Yevlax rayonunda Kürün sahillərində çoxlu axmazlar vardır. Boz-çəmən, allüvial-çəmən, şorakətvari boz-qonur torpaq tipləri yayılmışdır. Əsasən yarımsəhra bitki örtüyü formalaşır. Kür çayı sahilində tuğay meşələri vardır. Çöl donuzu, çöl pişiyi, canavar, tülkü, çaqqal, boz dovşan, oxlu kirpi, quşlardan ördək, qırqovul, turac, kəklik, sürünənlərdən gürzə, göl qurbağası əsas heyvan növləridir. Kür çayı və Mingəçevir su anbarında çəki, çapaq, külmə, sıf, xəşəm balıqları vardır. Türyançay qoruğunun bir hissəsi Yevlax rayonu ərazisindədir. Qoruqda ardıc və saqqız ağacları, qırqovul, kəklik mühafizə olunur. Yevlax aqrar-sənaye rayonudur, taxıl əkinləri geniş sahə tutur, pambıq, meyvə, üzüm, kartof, bostan-tərəvəz bitkiləri, günəbaxan əkilir.

Yevlaxın düzən relyefi kənd təsərrüfatının inkişafına imkan verir

Yevlax inzibati rayonu 05.02.1935-ci ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə ərazisi ləğv edilərək Ağdaş, Bərdə və Qasım İsmayılov (indiki Goranboy) rayonlarına verilmiş, 06.01.1965-ci ildə yenidən təşkil olunmuşdur. Yevlax rayonu Şirvan və Qarabağ düzlərində yerləşir. Sahəsi 1540 km², əhalisinin sayı 121,2 min nəfər, o cümlədən şəhər əhalisi 65,9 min nəfər, kənd əhalisi 55,3 min nəfərdir (01.01.2012). Mərkəzi Yevlax şəhəridir (əhalisi 58,7 min nəfər). Əhalinin sıxlığı 79 nəfər/km²-dir. Rayonda 1 şəhər, 3 qəsəbə, 18 kənd ərazi dairəsi, 46 kənd yaşayış məntəqəsi vardır. Aran qəsəbəsində 6,5 min nəfər əhali yaşayır (2012). Əhalisinin sayına görə Qoyunbinəsi (2779 nəfər), Salahlı (2592 nəfər), Havarlı (2521 nəfər) və Tanrıqulular (2342 nəfər) kəndləri fərqlənir (2009). Rayonun səthi düzənlikdir, şimal və şimal-qərbdə alçaq tirələr-təpəliklər yüksəlir. Onlara Xocaşen (452 m; Oğurca d., 376 m) və Bozdağ silsilələri (Qazanlı d., 500 m) aiddir. Neogen və Antropogen yaşlı çöküntülər yayılır. Rayonda yayı quraq, qışı mülayim keçən yarımsəhra və quru çöl iqlimi formalaşır. Yanvarın orta temperaturu 1,7°C, iyul 27,3°C-dir. Yağıntıların orta illik miqdarı 300-350 mm-dir, əsasən yazda düşür. Əsas çay sistemlərinə Kür, onun qolları olan Əlican, Korçay, Kürək və İncəçay daxildir. Mingəçevir su anbarının cənub-şərq hissəsi, Varvara su anbarı və SES Yevlax rayonu ərazisindədir. Yuxarı Qarabağ və Yuxarı Şirvan kanalları buradan keçir. Heyvandarlıqda mal-qara, qoyun saxlanılır. Sənaye məhsullarına tikinti materialları (qum, çınqıl, kərpic), pivə, alkoqolsuz içkilər aiddir, "Gilan-Dəri", "Arfa" Mebel, Tikiş müəssisələri vardır. Yevlax rayonunda Xaldan ətrafında antik dövrə aid nekropol; tunc və dəmir dövrlərinə aid Qaramanlı kurqanı; Qaraməmmədlidə orta əsrlərə aid Qoşatəpə kurqanı,yaşayış yeri; Malbinəsi kəndində XIX əsrdə tikilmiş məscid vardır.

Zərdab inzibati rayonu 05.02.1935-ci ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə ləğv edilmiş, ərazisi Ucar rayonuna verilmiş, 06.01.1965-ci ildə yenidən təşkil olunmuşdur. Zərdab rayonu Şirvan düzündə, Kür çayının sol sahilində yerləşir. Sahəsi 855,6 km², əhalisinin sayı 54,8 min nəfər, o cümlədən şəhər əhalisi 11,4 min nəfər, kənd əhalisi 43,4 min nəfərdir (01.01.2012). Mərkəzi Zərdab şəhəridir (əhalisi 10,5 min nəfər). Əhalinin sıxlığı 64 nəfər/km²-dir. Rayonda 1 şəhər, 1 qəsəbə, 26 kənd ərazi dairəsi, 40 kənd yaşayış məntəqəsi vardır. Bəyimli qəsəbəsində 0,9 min nəfər əhali yaşayır (2012). Əhalisinin sayına görə Çallı (2355 nəfər), Qoşaoba (2274 nəfər), Gəlmə (2235 nəfər) və Məhərrəmqasımlı (2028 nəfər) kəndləri fərqlənir (2009). Rayonun səthi düzənlikdir. Ərazisinin çox hissəsi okean səviyyəsindən aşağıda yerləşir, Antropogen yaşlı çöküntülərlə örtülür. Rayonda neft ehtiyatları (Bəyimli yatağı) və gil yatağı vardır. Zərdabda yarımsəhra və quru çöl iqlimi hakimdir, qış mülayim, yay isti və quru olur. Yanvarın orta temperaturu 1,8°C, iyul 26,2°C-dir. Yağıntıların orta illik miqdarı 300-330 mm-dir, əsasən yaz-payız aylarında düşür. Türyan çayının aşağı axını (Qarasu) Zərdab rayonu ərazisindədir. Rayonun cənub və cənub-qərbindən axan Kür çayı Bərdə, Ağcabədi, Beyləqan və İmişli rayonları ilə sərhəd təşkil edir. Kürün sahillərində çoxsaylı axmazlar vardır. Aşağı Şirvan kollektoru rayon ərazisindən keçir. Boz-çəmən torpaqları üzərində yarımsəhra bitkiləri (yovşan, şoranotu, kəvər, efemerlər) bitir. Kür çayının sahilində tuqay meşələri az sahə tutur. Heyvanlar aləminə canavar, tülkü, boz dovşan, ceyran, çöl donuzu, qum siçanı, çöl siçanı, quşlardan turac, bəzgək, qırqovul, berkut, göyərçin, sürünənlərdən gürzə və göl qurbağası aiddir. Zərdab əsasən kənd təsərrüfatı rayonudur. Burada taxıl əkinləri geniş sahə tutur, pambıq, meyvə, kartof, bostan-tərəvəz bitkiləri əkilir.



Zərdab rayonunda heyvandarlıqda maldarlıq və qoyunçuluğun əhəmiyyəti çoxdur. Sənaye məhsullarının (mahlıc, ulyuk, pambıq tiftiyi) əsas hissəsini Pambıqtəmizləmə zavodu verir. Rayonda I əsrə aid küp qəbirləri nekropolu müəyyən edilmişdir.

Kiçik Qafqaz təbii-iqtisadi zonası

Gəncə-Qazax iqtisadi-coğrafi rayonu

Gəncə-Qazax iqtisadi-coğrafi rayonunun tərkibinə respublika əhəmiyyətli Gəncə və Naftalan şəhərləri, Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz inzibati rayonları daxildir. İqtisadi rayon Azərbaycanın qərbində, əlverişli iqtisadi-coğrafi mövqedə yerləşir. Sahəsi 12482 km²-dir, bu da ölkə ərazisinin 14,4%-nə bərabərdir. İqtisadi rayonda əhalinin sayı 1205,2 min nəfər, o cümlədən şəhər əhalisi 557,5 min nəfərdir. Ölkə əhalisinin 13,1%-i burada yaşayır. Urbanizasiya səviyyəsi 46,3%-dir (01.01.2012). Sənaye əhəmiyyətli faydalı qazıntılara dəmir filizi, alunit, flüslü əhəngdaşı, mərmər, gips, seolit, bentonit gili, sement xammalı aiddir. Daşkəsəndə dəmir filizi, Zəylikdə alunit, Xoşbulaq flüslü əhəngdaşı ehtiyatları daha əhəmiyyətlidir. Kür çayının rayon ərazisindən axan hissəsi hidroenerji ehtiyatları ilə zəngindir, dağlıq və dağətəyi zonalar zəngin kurort-rekreasiya ehtiyatlarına malikdir. Gəncə-Qazax iqtisadi potensialına görə Abşerondan sonra ölkədə ikinci yeri tutur. Gəncədə və Daşkəsəndə qara və əlvan metallurgiya xammalının hasilatı və emalı müəssisələri yerləşir. Gəncədə yeni Alüminium zavodu tikilmişdir, Metallurgiya zavodu tikilir, maşınqayırmada avtomobil və kənd təsərrüfatı maşınları istehsalı müəssisəsi fəaliyyət göstərir. Yüngül sənaye üzrə Dəliməmmədlidə Pambıq emalı, Gəncədə Toxuculuq Kombinatı, Gəncə, Qazax və Daşkəsəndə Xalça sexləri vardır. Kənd təsərrüfatı məhsullarının emalına əsaslanan yeyinti sənayesi məhsulları istehsalı əsasən yerli tələbatı ödəyir, şərab, ət-süd məhsulları, qənnadı məmulatı, meyvə-tərəvəz konservi istehsal olunur. Kənd təsərrüfatının əsas ixtisaslaşma sahələri kartofçuluq, üzümçülükdür, taxıl, bostan-tərəvəz bitkiləri, meyvə, günəbaxan və pambıq (Goranboy rayonu) əkilir, heyvandarlıq sahələri inkişaf etmişdir. Gəncə-Qazax iqtisadi-coğrafi rayonu Azərbaycanı Gürcüstan və Qara dənizin sahilləri ilə birləşdirən dəmir və avtomobil yolları üzərində yerləşir. Gəncə və Ağstafa əsas nəqliyyat qovşaqları, Gəncə-Daşkəsən sənaye qovşağıdır. Xəzər dənizindən hasil edilən nefti və qazı dünya bazarına çıxarmaq üçün çəkilən boru kəmərləri iqtisadi-coğrafi rayonun ərazisindən keçir. Əlverişli təbii şəraiti, saf iqlim, mənzərəli dağ-meşə landşaftı, müalicə əhəmiyyətli mineral suları istirahət-müalicə müəssisələrinin yaradılmasına imkan verir. Göygöl və Hacıkənd zonasında istirahət mərkəzləri salınmışdır. Naftalan istirahət-müalicə kompleksi özünün əhəmiyyətinə görə seçilir.

Naftalan (Naftalan şəhər ərazi dairəsi) Naftalana şəhər statusu 28.04.1967-ci ildə verilmişdir. Şəhər Bakıdan 338 km qərbdə, Goran dəmir yolu stansiyasından 18 km məsafədə, Kiçik Qafqazın şimal-şərqindəki dağətəyi düzənliklərdə yerləşir. Naftalan şəhər ərazi dairəsinə Qaşaltı Qaraqoyunlu və Qasımbəyli kəndləri də daxildir. Sahəsi 30 km², əhalisinin sayı 9,3 min nəfər (01.01.2012). Yayı isti keçir (iyulda orta temperatur 26,7°C), qış yumşaqdır (yanvarda orta temperatur 2,1°C-dir). Yağıntıların orta illik miqdarı 250-310 mm-dir. Burada müalicəvi Naftalan nefti çıxır. Hələ qədimdən təbii şəkildə çıxan bu neftin müalicə əhəmiyyətini bilən insanlar onu dəvə karvanları ilə müxtəlif yerlərə aparırmışlar. Naftalan neftindən müalicə məqsədilə istifadə olunmasına dair ilk yazılı məlumat XII əsrə aiddir. Naftalan neftinin texniki istismarına isə 1887-ci ildən başlanmışdır. Naftalan neftinin dünyada analoqu yoxdur, o nadir müalicəvi əhəmiyyətə malikdir, sümük-oynaq, sinir-əzələ, dəri, ginekoloji, uroloji xəstəliklərin müalicəsində istifadə edilir. Bu neftin əsasında şəhərdə kurort-sanatoriya kompleksi yaradılmışdır.

Gəncə (Gəncə şəhər ərazi dairəsi) Azərbaycanın qədim şəhərlərindən biridir, VII əsrdən şəhər sayılır. 1804-1918-ci illərdə Yelizavetpol, 1918-1935-ci illərdə Gəncə, 20.02.1935-ci ildən 30.12.1989-cu ilə qədər Kirovabad adlanmışdır. Gəncə Bakı şəhərindən 363 km qərbdə, Kiçik Qafqazın şimal-şərq ətəklərində, Gəncə-Qazax düzənliyində və Gəncə çayı sahillərində yerləşir. Şəhərin ərazi dairəsinin sahəsi 110 km², əhalisinin sayı 320,7 min nəfərdir. Hər km²-də 2919 nəfər yaşayır (01.01.2012). Əhalinin milli tərkibində azərbaycanlılar (311813 nəfər və ya 99,54%), bundan başqa ruslar, türklər yaşayır (2009). Gəncə şəhəri Kəpəz və Nizami rayonlarına bölünür. Hacıkənd (0,4 min nəfər) və Göygöl qəsəbələri Gəncə şəhər ərazi dairəsinə daxildir. Gəncə əhalisinin sayına görə respublikanın ikinci, iqtisadi potensialına görə üçüncü şəhəridir. İqlimi mülayim-istidir. Orta temperatur yanvarda 1,1°C, iyulda 25,4°C-dir. Yağıntıların orta illik miqdarı 250-300 mm-dir. Burada 120 iri sənaye müəssisəsi fəaliyyət göstərir. Avtomobil və Alüminium zavodları, Toxuculuq Kombinatı, İEM, "Gəncə-Şərab" əsas müəssisələrdir. Ət-süd, metvə-tərəvəz məhsulları emal olunur. Şəhərdə Kənd Təsərrüfatı Akademiyası, 2 universitet, Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialı fəaliyyət göstərir. Gəncə şəhərinin memarlıq abidələrinə Şah Abbas karvansarayı (XVII əsr); Gəncə qalasının divar qalıqları (XVII əsr); Hasar və darvaza (XVII-XVIII əsrlər); İmamzadə kompleksi (XVII-XIX əsrlər); Türbələr (XVII-XIX əsrlər); Cümə məscidi (1606), Çökək hamam (XVII əsr), Nizami türbəsi (1947) aiddir.

Ağstafa inzibati rayonu 24.01.1939-cu ildə təşkil olunmuş, 04.12.1959-cu ildə ləğv edilərək ərazisi Qazax rayonuna verilmişdir. Rayon 24.04.1990-cı ildə bərpa olunmuşdur. Ağstafa rayonu respublikanın şimal-qərb hissəsində, Kiçik Qafqaz dağları ilə Qabırrı yaylası arasında yerləşir. Sahəsi 1503,7 km², əhalisinin sayı 81,9 min nəfər, o cümlədən şəhər əhalisi 20,3 min nəfər, kənd əhalisi 61,6 min nəfərdir (01.01.2012). Mərkəzi Ağstafa şəhəridir (əhalisi 12,4 min nəfər). Rayonda 1 şəhər, 9 qəsəbə, 24 kənd ərazi dairəsi, 29 kənd yaşayış məntəqəsi vardır. Ağstafa rayonu Gəncə-Qazax maili düzənliyində və Ceyrançöl alçaq dağlığında yerləşir. Səthi əsasən düzənliklərdən (Gəncə-Qazax və Qarayazı düzləri) ibarət olsa da, cənubda (Üçgöl d., 814 m) və şimal-şərqdə alçaq dağlar (Yaylacıq və Çobandağ silsilələri) yüksəlir. Tabaşir, Neogen və Antropogen yaşlı çöküntülər yayılır. Faydalı qazıntılara əhəng daşı, çınqıl, qum aiddir. Cənubda mineral bulaqlar vardır. Yanvarın orta temperaturu 0°C-dən -5°C-yə qədər olur, iyulda isə 18°-25°C arasında dəyişir. Yağıntıların orta illik miqdarı 400-600 mm-dir. Rayonun ərazisindən Kür çayı keçir. Ağstafa və Həsənsu çaylarının aşağı axınları buradadır. Gürcüstanla sərhəddə olan Candar gölü şirin suludur. Dağ-şabalıdı, şabalıdı, açıq şabalıdı və allüvial-çəmən torpaqları yayılmışdır. Yovşanlı-şoranotulu yarımsəhra və quru çöl bitkiləri, Kür çayı sahilində tuğay meşələri yayılır. Heyvanat aləminə canavar, tülkü, çöl donuzu, boz dovşan, çöl siçanı, quşlardan qırqovul, turac, kəklik, göyərçin aiddir. Qarayazı Dövlət qoruğu və Qarayazı-Ağstafa yasaqlığı rayon ərazisində təşkil olunmuşdur. Ağstafa əsasən kənd təsərrüfatı rayonudur. Əsas sahələrə üzümçülük və taxılçılıq aiddir, tərəvəzçilik, meyvəçilik, kartofçuluq inkişaf edir, günəbaxan əkilir. Mineral sular doldurulur. Ağstafa rayonunda tarixi-arxeoloji abidələr kimi Antik dövrə aid Nekropol; Tunc dövrünə aid Cantəpə yaşayış yeri, Nadir bəy təpəsi yaşayış yeri, Sarı Qaznaq qəbiristanlığı; Tunc və Dəmir dövrlərinə aid Qabaqtəpə yaşayış yeri, Qədim yaşayış yeri və qəbiristanlıq (Çoban daşı), Durnatəpə yaşayış yeri, Hasarlıqala qədim yaşayış yeri; XVII əsrdən qalan Qüllə; XIX əsrə aid məscid saxlanılır.

Ağstafa rayonu

1:330 000



Kür çayı

Daşkəsən rayonu

1:280 000

Daşkəsən rayonu Kiçik Qafqazda, Murovdağ və Şahdağ silsilələrinin şimal yamaclarında və Başkənd-Dəstəfur çökəkliyində yerləşir. Ən hündür zirvələrə Böyük Hinaldağ (3367 m), Qoşqar (3361 m) aid edilir. Yamaclar çayların dərin dərələri ilə kəsilmişdir. Yura və Tabaşir çöküntüləri yayılmışdır. Daşkəsən Azərbaycanın əsas metallurgiya bazası kimi tanınır. Burada dəmir filizi (Daşkəsən), kobalt, alunit (Zəylik), barit (Çovdar), qızıl, flüslü əhəngdaşı (Xoşbulaq), mərmər əsas faydalı qazıntılardır. Mineral bulaqları vardır.

Zurnabad su anbarı

Daşkəsən inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmiş, 02.04.1956-cı ilə qədər Dəstəfur rayonu adlanmışdır. 04.01.1963-cü ildə ləğv edilərək ərazisi Xanlar (indiki Göygöl) rayonuna verilmiş, 06.01.1965-ci ildə bərpa olunmuşdur. Daşkəsən rayonu Kiçik Qafqazda yerləşir. Cənub-qərbdə Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 1046,9 km², əhalisinin sayı 33,3 min nəfər, o cümlədən şəhər əhalisi 14,4 min nəfər, kənd əhalisi 18,9 min nəfərdir (01.01.2012). Mərkəzi Daşkəsən şəhəridir (əhalisi 10,7 min nəfər). Rayonda 1 şəhər, 5 qəsəbə, 16 kənd ərazi dairəsi, 43 kənd yaşayış məntəqəsi vardır. İnzibati rayon orta dağlıq zonada qışı quraq keçən mülayim-isti və qışı quraq keçən soyuq iqlim zonasında yerləşir. Yay nisbətən sərin keçir. Yanvarın orta temperaturu -2°C-dən -14°C-yə qədər olur, iyulda isə 6°-20°C arasında dəyişir. İl ərzində orta hesabla 600-900 mm yağıntı düşür. Qoşqar, Şəmkir, Gəncə çayları Kür hövzəsinə aiddir. Qoşqar çayı üzərində Zurnabad su anbarı yaradılmışdır. Çimli dağ-çəmən, qonur və qəhvəyi dağ-meşə torpaqları yayılır, lokal şəkildə qara torpaqlar vardır. Bitki örtüyü alp və subalp çəmənlərindən, dağ meşələrindən (palıd, fısdıq, vələs və s.), kolluq və seyrək meşəli çəmənlərdən ibarətdir. "Qızılca" Dövlət Təbiət Yasaqlığı yaradılmışdır. Kənd təsərrüfatının əsas sahələrinə kartofçuluq və taxılçılıq aiddir, tərəvəz, meyvə əkilir. Daşkəsən rayonu mühüm dağ-mədən sənayesi mərkəzidir. Daşkəsən yatağında dəmir filizi və kobalt, Zəylikdə alunit çıxarılır, mərmər hasilatı aparılır. "Daşkəsən Filizsaflaşdırma" ASC, "Alunit" İstehsalat sahəsi, "Mərmər karxanası" MMC fəaliyyət göstərir. Daşkəsən rayonu ərazisində mühafizə olunan tarixi-arxeoloji və memarlıq abidələrinə Xoşbulaq kurqanları (Tunc və Dəmir dövrləri) və Daşlıtəpə müdafiə qalaçası (Tunc dövrü); Bayan kəndində Məbəd və körpü (XV əsr), kilsə (1863) və monastır (1823); Çovdar kəndində Kilsə (1869) və Qala (1891) aiddir.

Gədəbəy inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. İnzibati rayon Kiçik Qafqazın şimal-qərb yamaclarında yerləşir. Qərbdə və cənub-qərbdə Ermənistan Respublikası ilə həmsərhəddir (123 km). Sahəsi 1290 km², əhalisinin sayı 95,4 min nəfər, o cümlədən şəhər əhalisi 11,0 min nəfər, kənd əhalisi 84,4 min nəfərdir (01.01.2012). Mərkəzi Gədəbəy şəhəridir (əhalisi 11,0 min nəfər). Rayonda 1 şəhər, 46 kənd ərazi dairəsi, 108 kənd yaşayış məntəqəsi vardır. İnzibati rayonda yayı quraq keçən mülayim - isti və qışı quraq keçən soyuq iqlim hakimdir. Yanvarın orta temperaturu -2°-10°C arasında, iyulda isə 10°-20°C arasında dəyişir. Yağıntıların orta illik miqdarı 600-900 mm-dir. Yağıntılar əsasən yazın axırı və yayın əvvəlində düşür. Rayonun sıx çay şəbəkəsinə Axınca, Zəyəm, Cəhri və Şəmkir çayları və onların yuxarı axında olan qolları aiddir. Gədəbəy mineral bulaqlarla zəngindir. Qəhvəyi və qonur dağ-meşə, çimli dağ-çəmən, dağ-qara torpaqlar yayılmışdır. Orta dağlıq zonada kollar və seyrək meşələrdən ibarət çəmənliklər, enliyarpaq meşələr (palıd, fısdıq, vələs ağacları), yüksək dağlarda subalp və alp çəmənlikləri geniş sahə tutur. Gədəbəyin kənd təsərrüfatının əsasını kartofçuluq, taxılçılıq, meyvəçilik tərəvəzçilik və heyvandarlıq təşkil edir. Rayonda kərpic, əhəng istehsal olunur, mineral və süfrə suları (Slavyanka) qablaşdırılır. Son dövrlərdə "Azərqızılın" Emal zavodu tikilmişdir. Gədəbəy rayonu ərazisində Xocalı-Gədəbəy mədəniyyətinə aid (b.e.ə. XIII-VII əsrlər) çoxsaylı tarixi-arxeoloji və tarixi-memarlıq abidələri qeydə alınmışdır. Paleolit dövrünə aid Şirzağa düşərgəsi; Tunc dövrünə aid Xarxar müdafiə qalaçası, Azər və Turşsu müdafiə qalaçaları, Pirdağ qalası, Dəlmə, Sarıdaş müdafiə qalaçaları; Tunc və Dəmir dövrlərinə aid Ağsu, Çapığın, Xınalıtəpə müdafiə qalaçaları, Şıx müdafiə qalaçası; Söyüdlü kəndində Bala Qiyas, Kürzan, Mollalı, Mansıd müdafiə qalaçaları; Məbəd (1535 və 1634); Qalakənddə Koroğlu qalası vardır.

Gədəbəy rayonu Kiçik Qafqazın orta və yüksək dağlıq zonalarında yerləşir. İnzibati rayon Şahdağ silsiləsinin şimal yamaclarını, Başkənd-Dəstəfur çökəkliyinin bir hissəsini əhatə edir. Şahdağ silsiləsindən Şəkərbəy və Qaraarxac qolları ayrılır. Qoşabulaq (3549 m), Qocadağ (3317 m), Qaraarxac (3063 m) ən yüksək zirvələrdir. Dağlarda Yura, Tabaşir və Paleogen yaşlı çöküntülər yayılır. Qara və ağ mərmər, mis, qızıl, firuzə yataqları sənaye əhəmiyyətlidir.

Gədəbəy rayonu, İvanovka kəndi

Goranboy rayonu

1:370 000



Goranboy rayonunda yeni salınmış qəsəbə

Goranboy inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. 08.09.1938-ci ildən 07.02.1991-ci ilə qədər Qasım İsmayılov rayonu adlanmışdır. Həmin vaxtda qonşuluqda mövcud olan Şaumyan rayonu ləğv edilərək ərazisi Goranboya verilmişdir. İnzibati rayon Kiçik Qafqazın şimal-şərq yamaclarında və Gəncə-Qazax düzənliyində yerləşir. Sahəsi 1760 km², əhalisinin sayı 96,9 min nəfər, o cümlədən şəhər əhalisi 20,6 min nəfər, kənd əhalisi 76,3 min nəfərdir (01.01.2012). Mərkəzi Goranboy şəhəridir (əhalisi 6,8 min nəfər). Rayonda 2 şəhər, 6 qəsəbə, 49 kənd ərazi dairəsi, 79 kənd yaşayış məntəqəsi vardır. Goranboyun səthi düzənlikdir, Gəncə-Qazax və Kür-Araz ovalığının qovşağında yerləşir. Şimalda Bozdağ silsiləsi (428 m) yüksəlir, cənub-qərbdə Murovdağ silsiləsinə tərəf yüksəklik artır (Gamış d., 3724 m, Murovdağ d., 3340 m). Yamaclar ayrı-ayrı yerlərdə qobu və dərələrlə kəsilmişdir. Neft (Qazanbulaq, Naftalan), barit (Başqışlaq), gips (Yuxarı Ağcakənd), əhəngdaşı və gil əsas faydalı qazıntılardır. Yarımsəhra və quru çöl, qışı quraq keçən mülayim-isti, qışı quraq keçən soyuq və dağ-tundra iqlim tipləri hakimdir. Yanvarın orta temperaturu dağlarda -10°C-dən düzənliklərdə 1°C-yə qədər, iyulda isə dağlarda 10°C-dən düzənliklərdə 26°C-yə qədər qeydə alınır. Yağıntıların orta illik miqdarı 300-400 mm-dən dağlarda 600-900 mm-ə qədər olur. Rayondan axan Kürək, Goran, Korçay və İncə çayları Kür hövzəsinə aiddir. Bozçəmən, şabalıdı, qonur və qəhvəyi dağ-meşə, çimli dağ-çəmən torpaq tipləri yayılır. Yovşanlı və yovşanlı-şoranotulu yarımsəhra bitki örtüyü formalaşır. Dağlarda meşələr vardır. Korçay Dövlət qoruğu rayonun ərazisindədir. Goranboyda kənd təsərrüfatının əsas sahələrinə pambıqçılıq, taxılçılıq və heyvandarlıq aiddir, tərəvəzçilik, meyvəçilik, üzümçülük, kartofçuluq inkişaf edir, günəbaxan əkilir. Sənayedə gips, qum-çınqıl hasil olunur, mahlıc istehsal edilir. Rayonun ərazisində arxeoloji və tarixi-memarlıq abidələri kimi Aul yaşayış yeri (XI-XIII əsrlər); Gülüstan qalası (XII-XVII əsrlər); Səfikürddə Qala (1675) və Türbə (XX əsr); məscidlər (XVII-XIX əsrlər); Rəhimli kəndində Türbə kompleksi (XVIII-XIX əsrlər), Mirzə Adıgözəlbəy türbəsi (XIX əsr) qorunur.

Göygöl inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. Yarandığı vaxtdan 19.07.1938-ci ilə qədər Nərimanov rayonu, 25.04.2008-ci ilə qədər Xanlar rayonu adlanmışdır. Göygöl rayonu Kiçik Qafqazın şimal-şərq yamaclarında yerləşir. Sahəsi 1030 km², əhalisinin sayı 59,1 min nəfər, o cümlədən şəhər əhalisi 23,8 min nəfər, kənd əhalisi 35,3 min nəfərdir (01.01.2012). Mərkəzi Göygöl şəhəridir (əhalisi 17,7 min nəfər). Rayonda 1 şəhər, 6 qəsəbə, 24 kənd ərazi dairəsi, 38 kənd yaşayış məntəqəsi vardır. Rayonun şimal hissəsi Gəncə-Qazax düzənliyində yerləşir. Cənubu Murovdağ silsiləsinin suayrıcısına qədər yüksəlir (3462 m). Kəpəz dağı da buradadır (3066 m). Faydalı qazıntılara kükürd kolçedanı, bentonit gili, əhəngdaşı, əqiq aiddir. Yanvarın orta temperaturu dağlarda -10°C-dən şimalda 1°C-yə qədər olur, iyulda isə 10°-25°C arasında dəyişir. Yağıntıların orta illik miqdarı şimaldan cənuba doğru 250 mm-dən 900 mm-ə qədər artır. Rayondan axan Gəncə, Qoşqar, Kürək çayları Kür hövzəsinə aiddir. Göygöl, Maralgöl, Zəligöl və onların ətrafında çoxlu kiçik göllər vardır. Tünd şabalıdı, qəhvəyi və qonur dağ-meşə, çimli dağ-çəmən torpaqlar yayılmışdır. Şimalda yarımsəhra bitkiləri, cənubda dağların yamaclarında dağ çölləri, fıstıq meşələri, subalp və alp çəmənləri yaranır. Göygöl milli parkı yaradılmışdır. Göygöldə kənd təsərrüfatının əsasını taxılçılıq, kartofçuluq və heyvandarlıq təşkil edir. Burada bostan-tərəvəz bitkiləri, meyvə, üzüm, günəbaxan becərilir. Sənaye müəssisələrində ("Göygöl-Şərab" zavodu) mineral sular, spirtli içkilər, tikinti qumu, çınqıl istehsal olunur.

1:250 000

Göygöl rayonu



Göygöl rayonunun mərkəzində Ağ körpü (XII əsr); İkigöz körpüsü (XVI əsr); Lüteran kilsəsi (1854); İnzibati bina (XIX əsr); Zurnabad kəndində Qala (XII əsr); Dozularda Birgöz körpüsü (XVI əsr) əsas memarlıq abidələridir.

Göygöl Azərbaycanın ən mühüm təbiət incilərindən biridir

1:240 000

Qazax rayonu

Qazax rayonunda tarixi-arxeoloji və memarlıq abidələrinə Tunc və Dəmir dövrlərinə aid Sarıtəpə yaşayış yeri; Didivan qülləsi (VI-VII əsrlər); Xram çayı üzərində Sınıq körpü (XII əsr); Yuxarı Əskipara (V-VIII əsrlər) və Kəmərlidə Alban məbədinin qalıqları (orta əsrlər); Birinci Şıxlıda türbə (XIX əsr); Aslanbəylidə karvansaray (XIX əsr) və məscid (1909) qorunur. Rayonda Göyəzən abidəsinin və Koroğlu məbədinin (IV-V əsrlər) daxil olduğu Avey Dövlət Tarix-Mədəniyyət Qoruğu yaradılmışdır.

Ağstafa su anbarı

Qazax inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. Qazax respublikanın qərbində, Kiçik Qafqazın şimal ətəklərində yerləşir. Qazax rayonu Gəncə-Qazax düzənliyinin qərb kənarında, Kür çayının sağ sahilindədir. Rayon şimal-qərbdə Gürcüstan Respublikası, cənubda və cənub-qərbdə Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 699 km², əhalisinin sayı 91,4 min nəfər, o cümlədən şəhər əhalisi 21,0 min nəfər, kənd əhalisi 70,4 min nəfərdir (01.01.2012). Mərkəzi Qazax şəhəridir (əhalisi 21 min nəfər). Əhalinin sıxlığı 131 nəfər/km²-dir. Rayonda 1 şəhər, 22 kənd ərazi dairəsi, 34 kənd yaşayış məntəqəsi vardır.

Rayonun səthi düzənlik relyefə malikdir və Gəncə-Qazax düzənliyində yerləşir, cənub və cənub-qərb hissəsi alçaq dağlıqdır. Bu hissədə dağların hündürlüyü 900-1000 m-ə çatır. Məşhur Göyəzən dağı da buradadır. Tabaşir və Antropogen yaşlı çöküntülər yayılmışdır. Faydalı qazıntılara seolit, vulkan külü, əhəng daşı, bentonit gili, qum, çınqıl, sement xammalı aiddir. Yarımsəhra və quru çöl, qışı quraq keçən mülayim-isti iqlim tipləri yaranır. Orta temperatur yanvarda -2°C-dən 2°C-yə qədər, iyulda 20-24°C arasında qeydə alınır. İl ərzində orta hesabla 350-700 mm yağıntı düşür. Kür çayı, İncəsu, Ağstafa və Xram çayları rayonun ərazisindən axır. Ağstafa çayı üzərində eyni adlı su anbarı yaradılmışdır. Allüvial-çəmən, şabalıdı, açıq şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Yovşanlı-şoranotulu yarımsəhra və quru çöl bitkiləri, cənub hissəsində dağ meşələri, Kür çayı sahilində tuğay meşələri yayılır. Canavar, tülkü, çöl donuzu, maral, boz dovşan, çöl siçanı, su qunduzu, quşlardan qırqovul, turac, kəklik, göyərçin əsas heyvan növləridir. Qarayazı qoruğunun bir hissəsi Qazax rayonu ərazisindədir.

Qazaxda kənd təsərrüfatının əsasını taxılçılıq, meyvəçilik və heyvandarlıq təşkil edir. Burada bostan-tərəvəz bitkiləri, kartof, üzüm, günəbaxan becərilir. Sənaye müəssisələrində xalça, bentonit, mişar daşı istehsal olunur. Rayonda Bentonit gil zavodu fəaliyyət göstərir, Sement zavodu tikilir.

Samux rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. 28.01.1954-cü ildə ləğv edilərək ərazisi Xanlar (indiki Göygöl) rayonuna birləşdirilmiş, 18.02.1992-ci ildə bərpa olunmuşdur. Samux rayonu Kür çayının hər iki sahilində, Gəncə-Qazax düzənliyində və Ceyrançöl alçaq dağlığında yerləşir. Şimalda Gürcüstan Respublikası ilə həmsərhəddir. Sahəsi 1450 km², əhalisinin sayı 55,0 min nəfər, o cümlədən şəhər əhalisi 20,8 min nəfər, kənd əhalisi 34,2 min nəfərdir (01.01.2012). Mərkəzi Samux şəhəridir (əhalisi 9,1 min nəfər). Əhalinin sıxlığı 38 nəfər/km²-dir. Rayonda 1 şəhər, 6 qəsəbə, 17 kənd ərazi dairəsi, 28 kənd yaşayış məntəqəsi vardır.

Rayonun ərazisində düzənliklər (Gəncə-Qazax) üstünlük təşkil edir. Şimalda və şərqdəki alçaq dağlıq sahələrdə Palantökən, Bozdağ və Xocaşen silsilələri yüksəlir. Neogen, Antropogen yaşlı çöküntülər yayılmışdır. İqlimi mülayim-isti, yarımsəhra və quru çöl tiplidir. Orta temperatur yanvarda 1°C, iyulda 25°C-dir. İllik yağıntı 250 mm-dir. Rayondan Qabırrı, Qanıx, Gəncə və Qoşqar çayları axır və Kür çayına tökülür. Mingəçevir su anbarının qərb kənarları burada yerləşir. Eldar şamı təbii halda Samux rayonu ərazisində bitir. Ceyrançöl sahəsində "Eldar şamı" Dövlət Təbiət qoruğu təşkil edilmişdir.

Samuxda kənd təsərrüfatının əsasını taxılçılıq, meyvəçilik, üzümçülük və heyvandarlıq təşkil edir. Burada bostan-tərəvəz bitkiləri, kartof, günəbaxan becərilir.

Tarixi-memarlıq abidələrinə Kurqanlar (Tunc dövrü); Narlı Qoruq yaşayış yeri, (VIII əsr); Bala Bəhmən və Arazbar arxları (XV əsr); İlan Piri ocağı (XVII əsr) aiddir.

Samux rayonu 1:350 000


GÜRCÜSTAN
TOVUZ RAYONU
QAX RAYONU
ŞƏMKİR RAYONU
DAŞKƏSƏN RAYONU
GÖYGÖL RAYONU
GORANBOY RAYONU
YEVLAX RAYONU
GƏNCƏ
SAMUX
Eldar Şamı qoruğu
Ceyrançöl
Palantökən silsiləsi
Xocaşen silsiləsi
Yevlax silsiləsi
Bozdağ silsiləsi
Mingəçevir su anbarı
Şəmkir su anbarı
Yenikənd su anb.
Qırmızı Samux
Lüksemburq
Yenikənd
Qarayerı
Yenibağ
Alabaşlı
Qaraarx
Samxaraba
Qaraqaşlı
Qaraqoyunlu
Qaraçuxur
Qaraçanta
Qaraçanta
Qaraçanta

1:300 000

Şəmkir rayonu



Şəmki rayonunda arxeoloji və memarlıq abidələri sırasına Çənlibeldə Tunc və Dəmir dövrlərinə aid Hacallı, Ziyadlı, Quzğun müdafiə qalaçaları; Qaracəmirlidə Tunc dövrü və orta əsrlərə aid Girzalıtəpə, Dərəyatağı, Zeynalbəy yaşayış yerləri; Tatarlı kəndində Qız qalası (XVIII əsr); Şəmkir və Koroğlu qalaları (XVII əsr); Lüteran kilsəsi (1909); Aşağı Seyfəlidə Didvan bürcü (XVIII əsr) daxildir.

Şəmkir rayonunda məscid

Şəmkir inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. 07.02.1991-ci ilə qədər Şamxor rayonu adlanmışdır. İnzibati rayon Kiçik Qafqazın şimal-şərq yamaclarında, Gəncə-Qazax düzənliyində və Acınohur alçaq dağlığında yerləşir. Sahəsi 1656,8 km², əhalisinin sayı 199,0 min nəfər, o cümlədən şəhər əhalisi 68,9 min nəfər, kənd əhalisi 130,1 min nəfərdir (01.01.2012). Mərkəzi Şəmkir şəhəridir (əhalisi 39,1 min nəfər). Rayonda 1 şəhər, 7 qəsəbə, 43 kənd ərazi dairəsi, 58 kənd yaşayış məntəqəsi vardır. Rayonun şimalı Ceyrançöl alçaq dağlığı zonasında, mərkəzi hissəsi Gəncə-Qazax düzənliyində, cənub hissəsi isə Murov və Şahdağın alçaq dağlıq və dağətəyi zonalarında yerləşir. Yura, Tabaşir, Neogen və Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntılara mis, molibden, əhəngdaşı, çınqıl, qum aiddir. İnzibati rayonun iqlimi şimalda yarımsəhra və quru çöl, dağların ətəklərində qışı quraq keçən mülayim-isti tiplidir. Cənuba doğru iqlim mülayimləşir. Yanvarın orta temperaturu -2°C-dən 2°C-yə qədər, iyulda isə 24°C-dən 26°C-yə qədərdir. Yağıntıların orta illik miqdarı 350-600 mm-dir. Rayonun ərazisindən Kür çayı və onun qolları olan Zəyəm, Şəmkir, Cəhir çayları keçir. Şəmkir və Yenikənd su anbarları Kür çayının hidroenerji ehtiyatlarından istifadə edilməsinə imkan verir. Qəhvəyi dağ-meşə, tünd şabalıdı, açıq şabalıdı, şabalıdı, dağ-qara və allüvial çəmən-meşə əsas torpaq tipləridir. Kolluq və seyrək meşələr olan çəmənlər, dağ meşələri, Kür çayı sahillərində tuğay meşələri vardır. Maral, canavar, tülkü, boz dovşan, çöl donuzu, süleysin, qum siçanı, çöl siçanı, bataqlıq qunduzu, turac, kəklik, göyərçin əsas heyvan növləridir. Şəmkir yasaqlığında qırqovul qorunur. Şəmkirdə kənd təsərrüfatının əsasını taxılçılıq, kartofçuluq, meyvəçilik və heyvandarlıq təşkil edir. Burada bostan-tərəvəz bitkiləri, üzüm, günəbaxan becərilir. Sənaye müəssisələrinə "Şəmkir-Konyak" ATSC, Zəyəm daş karxanası, Balıq zavodu, Şəmkir SES, Yenikənd SES aiddir, tikinti qumu, mişar daşı, çınqıl hasil olunur.

Tovuz inzibati rayonu 1930-cu ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə ləğv edilərək ərazisi Qazax rayonuna verilmişdir. 17.06.1964-cü ildə bərpa olunmuşdur. İnzibati rayon Kiçik Qafqazın şimal-şərq yamaclarında, Kür çayının hər iki sahilləri boyu Gəncə-Qazax düzənliyi və Acınohur alçaq dağlığında yerləşir. Sahəsi 1903 km², əhalisinin sayı 162,8 min nəfər, o cümlədən şəhər əhalisi 27,5 min nəfər, kənd əhalisi 135,3 min nəfərdir (01.01.2012). Mərkəzi Tovuz şəhəridir (əhalisi 13,7 min nəfər). Rayonda 1 şəhər, 1 qəsəbə, 37 kənd ərazi dairəsi, 102 kənd yaşayış məntəqəsi vardır. Rayonun relyefində cənubda Şahdağ silsiləsinin şimal-şərq kənarları (Çınqıldağ silsiləsi), mərkəzi hissədə Gəncə-Qazax düzənliyi, şimalda Ceyrançöl alçaq dağlığı əsas oroqrafik vahidlərdir. Şimalda, Gürcüstanla sərhəddə Çobandağ silsiləsi (Taxtatəpə d., 763 m) yerləşir. Yura, Tabaşir, Neogen, Antropogen yaşlı çöküntülər yayılmışdır. Əsrik və Zəyəm çayları arasında Proterozoy yaşlı qneyslər və gilli şistlər səthə çıxır. Burada ölkə üzrə ən qədim süxurlar yerləşir. Tikinti materialları olan sement xammalı (Ayıdağ və Koroğlu yataqları) vardır. Yanvarın orta temperaturu 1°C-dən -4°C-yə qədər, iyulda isə 18°C-dən 25°C-yə qədərdir. Yağıntıların orta illik miqdarı 400-700 mm-dir. Rayondan Kür, Axınca, Zəyəm, Əsrik çayları axır. Açıq-şabalıdı, şabalıdı, tünd-şabalıdı, qəhvəyi və qonur dağ-meşə, dağ-qara torpaqlar yayılır. Kürün sahillərindəki allüvial-çəmən torpaqlarında tuğay meşələri yaranır. Şimalda və mərkəzi hissələrdə quru çöl və yarımsəhra bitkiləri, cənubda dağlıq zonalarda palıd və vələs meşələri, subalp və alp çəmənləri vardır. Tovuzda kənd təsərrüfatının əsasını taxılçılıq, kartofçuluq, tərəvəzçilik və heyvandarlıq təşkil edir. Burada bostan bitkiləri, meyvə, üzüm, günəbaxan becərilir. Sənayedə üzüm şərabı, konyak, tikinti qumu, asfalt istehsal olunur.

Tovuz rayonu

1:360 000



Aşağı Mülkülü kəndində "Torpaqqala"

Tovuz rayonunda b.e.ə. II minillik-II əsrə aid və XVI-XVIII əsrlərdən qalan nekropol; kurqan (Tunc dövrü) vardır. Tovuzda olan qalalara rayon mərkəzindəki Əvəztəpə (orta əsrlər); Əlibəylidəki Koroğlu (XVI əsr) və Mülkülü kəndindəki "Koroğlu evi" (orta əsrlər) aiddir. Bayramlı kəndində Türbə kompleksi (3 ədəd, XVII əsr), məscid və körpü (XVII əsr); Düz Qırıqlıda Alı Dədə türbəsi (XIX əsr); Yuxarı Öysüzlüdə türbə və məscid (XIX əsr); Bozalqanlı kəndində Kərbəlayi Əsədin (XVIII əsr), Yuxarı Öysüzlüdə Məhəmməd Ağanın, Nəsib bəyin və Yusif bəyin yaşayış evləri (XIX əsr); Tovuzçayda birtağlı körpü (X əsr) tarixi-arxeoloji və memarlıq abidələri sırasına aiddir.

Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonu

Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonu Xankəndi şəhərini, Ağdam, Cəbrayıl, Füzuli, Xocavənd, Xocalı, Şuşa və Tərtər rayonlarını əhatə edir. İqtisadi rayonun ümumi sahəsi 7248 km²-dir. Bu da respublika ərazisinin 8,4%-nə bərabərdir. Yuxarı Qarabağ Aran və Kəlbəcər-Laçın iqtisadi rayonları arasında yerləşir. Cənubda İran İR ilə sərhəd Araz çayı üzrə keçir. Polimetal filizləri (Mehmanə), tikinti materialları (mərmər, sement xammalı, əhəng daşı), mineral bulaqlar, meşələr əsas təbii sərvətlərdir. İqtisadi rayonda əhalinin sayı 628,8 min nəfər, o cümlədən şəhər əhalisi 206,1 min nəfərdir. Ölkə əhalisinin 6,8%-i burada yaşayır (01.01.2012). Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl rayonlarının əraziləri tamamilə, Ağdam və Füzuli rayonlarının bir qismi qonşu Ermənistan Respublikasının işğalı altındadır. Lakin hazırda 1482 km² sahəni əhatə edən cəbhəyanı ərazilərdə 211,8 min nəfər şəhər əhali yaşayır. İqtisadi rayonun düzən relyefi, bol aqroiqlim ehtiyatları, Kür çayının su ehtiyatları, suvarma şəraitində məhsuldar olan torpaqlar kənd təsərrüfatı işləri aparılması və əhalinin məskunlaşması üçün əlverişli təbii şərait yaradır. Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonunda kənd təsərrüfatının əhəmiyyəti böyükdür. Onun başlıca sahələrinə üzümçülük, taxılçılıq, meyvəçilik və pambıqçılıq aiddir, bostan-tərəvəz bitkiləri əkilir. İqtisadi rayonda heyvandarlıq əsasən ətlik-südlük istiqamətdə inkişaf etmişdir. Sənaye kənd təsərrüfatı xammallarının emalına əsaslanır.

Qarabağ Azərbaycanın qədim məskunlaşma zonalarından biridir (Xocalı rayonunda qədim yaşayış yeri)

Ağdamda məscid

Xankəndi (Xankəndi şəhəri ərazi dairəsi) Azərbaycan Respublikasında şəhərdir. Xankəndi şəhəri Qarqar çayının sahilində, Qarabağ silsiləsinin şərq ətəklərində yerləşir. O, Bakıdan 329 km məsafədədir. Sahəsi 8 km², əhalisinin sayı 53,3 min nəfərdir (01.01.2012). Kərkicahan qəsəbəsi (2,0 min nəfər) Xankəndi şəhər inzibati vahidinə daxildir. Qışı quraq keçən soyuq iqlim tipi yayılıb. Yanvarın orta temperaturu -0,2°C, iyulda isə 22,4°C-dir. İl ərzində orta hesabla 535 mm yağıntı düşür.

Şəhərin bünövrəsini Qarabağ xanı Mehdiqulu xan (Pənahəli xanın oğlu) qoymuşdur. Ona görə Xankəndi adlanmışdır. Ərazi Rusiya tərəfindən işğal edildikdən sonra bura ermənilər yerləşdirilmişdir. 10.08.1923-cü ildə şəhərə S.Şaumyanın adı verilmişdir (Stepanakert). 26.11.1991-ci ildə şəhərin tarixi adı özünə qaytarılmışdır. Şəhər ətrafında Dəmir dövrünə aid kurqan, orta əsrlərə aid küp qəbirləri müəyyən edilmişdir.

1:390 000

Ağdam rayonu

Baş Qərvənd kəndində qala

Ağdam inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. İnzibati rayon Qarabağ silsiləsinin şimal-şərq ətəkləri ilə Kür-Araz ovalığı arasında, qismən Qarabağ düzündə yerləşir. Sahəsi 1150 km², əhalisinin sayı 182,0 min nəfər, o cümlədən şəhər əhalisi 40,9 min nəfər, kənd əhalisi 141,1 min nəfərdir (01.01.2012). Mərkəzi Ağdam şəhəridir. Lakin hazırda inzibati mərkəz Quzanlı qəsəbəsində (3,0 min nəfər) yerləşir. Rayonda 1 şəhər, 14 qəsəbə, 34 kənd ərazi dairəsi, 123 kənd yaşayış məntəqəsi vardır. Ağdam rayonunun bir hissəsi 23 iyul 1993-cü ildə Ermənistan respublikası tərəfindən işğal edilmişdir. Rayonun relyefi əsasən düzənlikdir, şərqdə Qarabağ silsiləsinin yamaclarına doğru mütləq hündürlük artır. Düzənlik sahələrdə Antropogen və Neogen yaşlı, dağların yamaclarında Tabaşir və Yura yaşlı çöküntülər səthə çıxır. Əhəngdaşı (Şahbulaq), sement xammalı (Boyəhmədli və Çobandağ), mərmər (Gülablı), çınqıl və qum kimi tikinti materialı yataqları sənaye əhəmiyyətlidir. Yarımsəhra və quru çöl, qışı quraq keçən mülayim-isti iqlim tipləri yaranır. Yanvarın orta temperaturu -0,2°C-dən 1,8°C-yə qədər, iyulda isə 23°C-dən 26°C-yə qədərdir. Yağıntıların orta illik miqdarı 300-500 mm-dir. Rayonun ərazisindən Xaçın və Qarqar çayları axır, Xaçın və Ağdam su anbarları tikilmişdir. Şabalıdı və açıq şabalıdı, tünd şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Yarımsəhra və quru çöl (ağot, yovşan, qarağan və s.) bitkiləri əmələ gəlir. Bu ərazilərdə çaqqal, canavar, tülkü, vaşaq, kəklik, turac quşları, gəmirici heyvanlar çoxdur. Ağdam rayonunda taxılçılıq, tərəvəzçilik, pambıqçılıq və heyvandarlıq inkişaf etmişdir, kartof, meyvə, bostan bitkiləri, günəbaxan becərilir. Pambıq ilkin emaldan keçir və mahlıc alınır. Ağdam rayonunda qədim insan məskənlərinə Şomutəpə yaşayış yeri (b.e.ə. V-II minilliklər); Şümürlütəpə kurqanı (Tunc dövrü); Qoşatəpə yaşayış yeri (Eneolit dövrü); Baş Qərvənddə İlanlıtəpə yaşayış yeri (Eneolit və Dəmir dövrləri); rayon mərkəzinə yaxın Üzərliktəpə yaşayış yeri (Tunc dövrü); Qarahacılı nekropolu (Tunc dövrü) aiddir. Rayonda Kəngərli (VI əsr) və Şahbulaq kəndlərində (VI-VIII əsrlər) Alban məbədi; Çuxurməhlə kəndində Gülüstan qalası (XII-XVII əsrlər); Xaçındərbətli kəndində Qutlu Musa oğlu türbəsi (1314); Papravənd kəndində 2 türbə (XVIII əsr), orta əsrlərə aid Güllütəpə yaşayış yeri; Ağdam şəhərində Xanoğlu türbəsi (XVIII əsr); Pənah xanın imarəti (XVIII əsr) və məscid (1868) mühüm memarlıq abidələridir.

Cəbrayıl inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə ləğv edilərək Füzuli rayonuna verilmiş, 17.06.1964-cü ildə yenidən yaradılmışdır. İnzibati rayon Qarabağ silsiləsinin cənub ətəkləri ilə Araz çayı arasında yerləşir, cənubda Araz çayı boyu İran İR ilə həmsərhəddir. Sahəsi 1049,8 km², əhalisinin sayı 73,3 min nəfər, o cümlədən şəhər əhalisi 11,7 min nəfər, kənd əhalisi 61,6 min nəfərdir (01.01.2012). Mərkəzi Cəbrayıl şəhəridir. Rayonda 1 şəhər, 4 qəsəbə, 22 kənd ərazi dairəsi, 92 kənd yaşayış məntəqəsi vardır. Rayon 18 avqust 1993-cü ildə işğal edilmişdir. Rayonun cənubunda Arazboyu düzənliklər (İncəçöl, Gəyan düzləri) yerləşir. Düzənliklərin səthi mailidir. Şimal hissəsi Qarabağ silsiləsinin cənub-şərq ətəklərində yerləşir. Bu ərazilər alçaq dağlıq (Dağtumas d., 1580 m) zonaya aiddir. Dağlıq zonada Tabaşir və Yura yaşlı, düzənliklərdə Neogen və Antropogen yaşlı çöküntülər yayılmışdır. İnzibati rayonun cənubunda yayı quru keçən yarımsəhra və quru çöl, şimal-qərbində qışı quraq keçən mülayim-isti iqlim tipləri yaranır. Yanvarın orta temperaturu 0°-2°C arasında, iyulda isə 24°-25°C arasında olur. İl ərzində orta hesabla 400-500 mm yağıntı düşür. Rayondan axan İncə, Çaxmaq çayları qısa və müvəqqəti axarlıdır, Arazın sol qollarıdır. İran İR ilə sərhəd boyu Araz çayı axır. Açıq şabalıdı, şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Yovşanlı-gəvərli yarımsəhra, dağ-kserofit bitki örtüyü əmələ gəlir, canavar, tülkü, süleysin, çöl siçanı, çöl donuzu yaşayır.

Cəbrayıl rayonu

1:300 000



Rayon ərazisində tarixi-arxeoloji və memarlıq abidələrinə Daş dövrünə aid Şıxlar mağarası; Qız qalası (XII əsr); Xudafərin körpüsü (XI-XII əsrlər); Şıxlarda dairəvi (XIV əsr), Xubyarlıda dairəvi və səkkizguşəli türbələr (XVII əsr); Dağ Tumasda Sərdabə (XIII-XIV əsrlər) və mağara (orta əsrlər); rayon mərkəzinə yaxın Ağoğlan nekropolu (orta əsrlər) və Sultan Allahverdi hamamı (XIX əsr) aiddir.

Füzuli rayonu

1:450 000



Füzuli inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. Yarandığı vaxtdan 02.04.1959-cu ilə qədər Karyagin rayonu adlanmışdır. İnzibati rayon Qarabağ silsiləsinin cənub-şərq ətəkləri ilə Araz çayı arasında yerləşir. Cənubda Araz çayı boyu İran İR ilə həmsərhəddir. Sahəsi 1390 km², əhalisinin sayı 119,5 min nəfər, o cümlədən şəhər əhalisi 28,4 min nəfər, kənd əhalisi 91,1 min nəfərdir (01.01.2012). Mərkəzi Füzuli şəhəridir. Lakin hazırda inzibati mərkəz Horadiz şəhərində (7,1 min nəfər) yerləşir. Rayonda 2 şəhər, 16 qəsəbə, 27 kənd ərazi dairəsi, 82 kənd yaşayış məntəqəsi vardır. Rayonun bir hissəsi 23 avqust 1993-cü ildə Ermənistan respublikası tərəfindən işğal edilmişdir.

Rayonun relyefi Araz çayına tərəf alçalan maili düzənliklərdən ibarətdir və Hərəmi düzünə aiddir. Şimal-qərbdə Qarabağ silsiləsinin cənub-şərq ətəkləri alçaq dağlıqdır. Neogen və Antropogen yaşlı çöküntülər səthə çıxır. Tikinti materialları vardır. Rayonun şərqində yayı quru keçən yarımsəhra və quru çöl, şimal-qərbində yayı quraq keçən mülayim-isti iqlim tipləri yaranır. Yanvarın orta temperaturu 0°-1°C arasında, iyulda isə 24°-25°C arasında olur. İl ərzində orta hesabla 400-600 mm yağıntı düşür, əsas hissəsi yazda və payızda yağır. Rayonun ərazisindən keçən Köndələn, Quru, Qozlu və İşxan çayları cənubda İran İR ilə sərhəddən axan Arazın hövzəsinə aiddir. Mil-Muğan su anbarından Baş Mil kanalı başlanır.

Boz və boz-çəmən, şabalıdı torpaqlarda yarımsəhra bitki örtüyü yayılmışdır. Füzulidə kənd təsərrüfatının əsasını taxılçılıq, pambıqçılıq, meyvəçilik və heyvandarlıq təşkil edir. Burada şəkər çuğunduru, bostan-tərəvəz bitkiləri, üzüm, kartof, günəbaxan becərilir. Rayonda çoxlu sayda tarixi-arxeoloji və memarlıq abidələri vardır. Onlara Paleolit dövrünə aid Azıx və Tağlar mağara – düşər-gələri; Qarğabazarda karvansara (1684); Aşağı Veysəlli kəndində Mirəli türbəsi (XIV əsr), Qarğabazarda (XVIII əsr), Əhmədalılarda (XIII əsr), Aşağı Seyidəhmədlidə (XIX əsr) olan Türbələr; Mirzəcamallıda Hacı Ələkbər məscidi (XVII əsr), Qarğabazarda (XVII əsr) məscid; Mirzəcamallıda hamam və körpü (XIX əsr) aiddir. Rayonda yerləşən Azıx mağarası ən qədim insan məskənlərindən biridir.

Xocalı inzibati rayonu 26.11.1991-ci ildə rayon mərkəzinin Əsgəran qəsəbəsindən Xocalıya köçürülməsi nəticəsində yaradılmışdır. 08.08.1930-cu ildən 15.05.1978-ci ilə qədər DQMV tərkibində Stepanakert rayonu, 1978-1991 illərdə Əsgəran rayonu adlanmışdır. Xocalı rayonu Kiçik Qafqazda, Qarabağ silsiləsinin şimal-şərq yamaclarında yerləşir.

Sahəsi 936 km², əhalisinin sayı 26,7 min nəfər, o cümlədən şəhər əhalisi 8,1 min nəfər, kənd əhalisi 18,6 min nəfərdir (01.01.2012). Mərkəzi Xocalı şəhəridir. Rayonda 1 şəhər, 1 qəsəbə, 17 kənd ərazi dairəsi, 50 kənd yaşayış məntəqəsi vardır. Rayon 26 fevral 1992-cü ildə Ermənistan respublikası tərəfindən işğal edilmiş, Xocalı şəhəri yerlə-yeksan edilmiş, əhali soyqırımına məruz qalmışdır.

Ərazisinin səthi dağlıq, mərkəzi hissədə isə düzənlikdir (Xankəndi çökəkliyi). Ən yüksək nöqtələri Qızqala (2843 m), Qırxqız (2827 m) dağlarıdır. Ərazidə Yura, Tabaşir, dağarası çökəkliklərdə və dağətəyi düzənliklərdə Antropogen çöküntüləri yayılmışdır. Faydalı qazıntılara: gil, qum, çınqıl, gillicə, mərmər aiddir. Qışı quraq keçən soyuq iqlim, aşağı zonalarda qışı quraq keçən mülayim-isti iqlim tipləri yaranır. Yanvarın orta temperaturu -1°C-dən 1°C-yə qədər qeydə alınır, iyulda isə 22°-24°C arasında dəyişir. İl ərzində 500-700 mm yağıntı düşür.

Qəhvəyi və qonur dağ-meşə, çimli dağ-çəmən torpaqları yayılmışdır. Qarqar, Badara çayları rayon ərazisindən keçir. Meşələrdə vələs, palıd, fıstıq, cökə, ağcaqayın, göyrüş, qarağac ağacları bitir. Yüksək dağlıq sahələrdə subalp və alp çəmənlikləri yayılmışdır.



Xocalı rayonu Xanyurdu kəndində alban kilsəsi

Xocalı rayonu ərazisində Şuşikənddə Alban məbədi (905), Xocalıda Dairəvi məbəd (1356-1357), Badarada məbəd kompleksi (XVII əsr) vardır. XVIII əsrə aid "Əsgəran qalası" qədim memarlıq abidələrindən biridir. Rayonda son tunc və ilk dəmir dövrlərinə aid nekropol, kurqan çölü; b.e.ə. XIII-VII əsrlərə aid ilk mədəniyyət abidələri (Xocalı-Gədəbəy mədəniyyət nümunələri) müəyyən edilmişdir. Kilsə (XIII əsr); Qırxlar qalası (orta əsrlər); Xocalıda türbə (XVII əsr) qorunur.

Xocavənd rayonu

1:360 000


Şm
C
XANKƏNDİ
KƏNDİ ŞƏHƏR İCRA HAKİMİYYƏTİNƏ TABE ƏRAZİ
AĞCABƏDİ RAYONU
XOCALI RAYONU
ŞUŞA
ŞUŞA RAYONU
LAÇIN RAYONU
XOCAVƏND
FÜZULİ
FÜZULİ RAYONU
UBADLI AYONU
CƏBRAYIL
CƏBRAYIL RAYONU
Qalınqaya d.
286 Daştəpə kurqanı
Yenikənd
Mirikənd
Avdur
Çörəkli
Heşan
Qarakənd
Yemişcan
Ağkənd
Gülmətəpə d. 720
Kuropatkino
Muğanlı
Qağartsi
Qarıtəpə
Qaradağlı
Əmiranlar
Ağburun d. 1961
Cəmiyyət
960 - Güzey d.
Müşkapat
Kiş
631
Xanoba
Güneyçartar
Güneyxırman
Qarabağ silsiləsi
Qarqar silsiləsi
Qarqar silsiləsi
Qarqar

Tərtər rayonu

Dağların ətəkləri yaşayış məntəqələrinin yerləşməsi üçün əlverişli ərazilərdir

1:300 000



Tərtər rayonunda Evoğlu kəndində Tunc dövrünə aid Böyüktəpə, Çaqqallıtəpə və Qurd təpəsi kurqanları, Hüseynli və Sayadtəpə kurqanları; Tunc və Dəmir dövrlərinə aid Xoruzlu, Borsunlu və Dəmirçilər kurqanları, Azad Qaraqoyunluda yaşayış yeri; Talış kəndində Urek məbədi (1279) və Çıraqlıda Alban məbədi (718); Evoğluda orta əsrlərə aid Güllütəpə yaşayış yeri; Suqovuşan və Çıraqlıda kilsələr (1898) vardır.

Şuşa rayonu

Şuşa inzibati rayonu 08.08.1930 ildə DQMV tərkibində təşkil edilmişdir. 04.01.1963-cü ildə ləğv edilərək ərazisi Xankəndi rayonuna verilmiş, 06.01.1965 ildə yenidən müstəqil rayon olmuşdur. İnzibati rayon Kiçik Qafqazda, Qarabağ silsiləsinin suayrıcısı boyu yerləşir. Sahəsi 289,0 km², əhalisinin sayı 30,3 min nəfərdir (01.01.2012). Mərkəzi Şuşa şəhəridir. Rayonda 1 şəhər, 1 qəsəbə, 12 kənd ərazi dairəsi, 37 kənd yaşayış məntəqəsi vardır. Rayon 08 may 1992-cü ildə Ermənistan tərəfindən işğal edilmişdir. Şuşa rayonu Qarabağ silsiləsində və onun yamaclarında yerləşir. Orta temperatur yanvarda -4°C-dən -1°C-yə qədər, iyulda 16°-19°C arasında qeydə alınır. İl ərzində orta hesabla 700-800 mm yağıntı düşür. Qəhvəyi dağ-meşə, qonur dağ-meşə və çimli dağ-çəmən torpaqlarda yüksək dağlıq sahələrdə subalp və alp çəmənləri yaranır. Rayonda dövlət tərəfindən qorunan 248 tarixi abidə var idi. Şuşa şəhəri ətrafında aşağıdakı abidələr vardır: Daş dövrünə aid Şuşa mağara-düşərgəsi; Tunc dövrünə aid kurqan; XVIII əsrə aid Aşağı Gövhərağa məscidi, Qara Böyük xanın bürcü, Pənah xanın sarayı, İbrahim xanın bürcü və İbrahim xanın qəsri; XIX əsrə aid ikimərtəbəli karvansaray.

Şuşanın işğalı Azərbaycan tarixinin qara səhifələrinən biridir

Kəlbəcər-Laçın iqtisadi-coğrafi rayonu

Kəlbəcər-Laçın iqtisadi-coğrafi rayonunun tərkibinə Kəlbəcər, Laçın, Zəngilan və Qubadlı rayonları daxildir. İqtisadi rayonun sahəsi 6,4 min km² olmaqla ölkə ərazisinin 7,4%-ni əhatə edir. İqtisadi rayon ölkənin cənub-qərbində, Qarabağ vulkanik yaylasında və Həkəri çayının hövzəsində yerləşir, İCM-i çox əlverişsizdir. İqtisadi rayonda əhalinin sayı 232,9 min nəfər, o cümlədən şəhər əhalisi 50,0 min nəfərdir. Ölkə əhalisinin 2,5%-i burada yaşayır (01.01.2012). İqtisadi rayonda qızıl, civə, mərmər, xromit, üzlük tikinti daşları, kopal, əqiq, perlit kimi faydalı qazıntı ehtiyatları vardır, mineral bulaqlarla (Kəlbəcərdə İstisu, Laçında Minkənd) zəngindir. Kəlbəcər-Laçın vaxtilə ölkənin heyvandarlıq rayonlarından biri olmuşdur. Bu ərazilərdə tütün, taxıl, üzüm, meyvə əkilir, mal-qara, qoyun, arı saxlanılırdı. İqtisadi rayona daxil olan bütün inzibati rayonlar Ermənistanın işğalı altında olduğuna görə təsərrüfat dağılmışdır.

Kəlbəcər inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. İnzibati rayon Kiçik Qafqazın mərkəzi hissəsində, Tərtər çayının hövzəsində yerləşir, qərbdən Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 3054 km², əhalisinin sayı 83,9 min nəfər, o cümlədən şəhər əhalisi 11,5 min nəfər, kənd əhalisi 72,4 min nəfərdir (01.01.2012). Mərkəzi Kəlbəcər şəhəridir. Rayonda 1 şəhər, 1 qəsəbə, 53 kənd ərazi dairəsi, 145 kənd yaşayış məntəqəsi vardır. Rayon 02 aprel 1993-cü ildə Ermənistan tərəfindən işğal edilmişdir. Relyefi dağlıqdır. Burada Murovdağ (Böyük Hinaldad d., 3367 m), Şərqi Göycə, Mıxtökən, Qarabağ silsilələrinin və Qarabağ yaylasının bir hissəsi yerləşir. Ən yüksək zirvələri Gamış dağı (3724 m) və Dəlidağdır (3616 m). Yura, Təbaşir, Paleogen, Neogen və Antropogenin çökmə, vulkanogen-çökmə və vulkan mənşəli süxurları yayılır. Faydalı qazıntılara civə (Şorbulaq və Ağyataq), qızıl, polimetal, tikinti materialları, perlit aiddir. Mineral sular (İstisu) böyük müalicə əhəmiyyətinə malikdir. Ərazisinin yüksək dağlıq sahələrdə qışı quraq keçən soyuq və dağ tundra iqlimi üstünlük təşkil edir. Yanvarın orta temperaturu -3°C-dən -10°C-yə qədər, iyulda isə 5°C-dən 20°C-yə qədərdir. İl ərzində 700-900 mm yağıntı düşür.

Tərtər ölkənin ən böyük çaylarından biridir. Onun yuxarı axını və qolları (Levçay, Tutqunçay), Bazarçay və Xaçınçay rayon ərazisindən başlanır. Böyük və Kiçik Alagöllər, Zalxagöl, Sərsəng su anbarı rayon ərazisindədir. Çimli dağ-çəmən, qəhvəyi və qonur dağ-meşə torpaqları yaranır. Rayonun mərkəzi və şərq hissələrində enliyarpaqlı meşələr (palıd, fıstıq, vələs), meşə-çöl bitkiləri, yüksək və qismən orta dağlıqda isə alp və subalp çəmənlikləri yayılmışdır. Dağ keçisi, cüyür, qonur ayı, çöl donuzu, daşlıq dələsi, ular, toğlugötürən, qartal əsas heyvan və quş növləridir.

Rayonun tarixi və memarlıq abidələrinə İstisu ətrafında Tunc dövrünə aid yaşayış yeri, Yayıcı (672), Çormanlı (X əsr), Çıldıran (XII əsr), Qozlu (Xatırvank məbədi, 1204), Bazarkənd (1251), Həsənriz (1283) kəndlərində olan Alban Məbədləri aiddir. Müqəddəs Yaqub kilsəsi (635); Gəncəsər monastırı (1238); Kilsə (1668); Uluxan qalası da (XVII əsr) mühüm tarixi abidələrdir.

Kəlbəcər dağlar qoynunda bir diyardır

Laçın rayonu

1:430 000



Laçının işğalı Azərbaycanın dilbər guşələrindən birinin itirilməsi deməkdir

Laçın inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. İnzibati rayon respublikanın cənub-qərbində, Kiçik Qafqaza aid olan Qarabağ silsiləsinin suayrıcısı ilə Qarabağ yaylası arasında yerləşir. Qərbdən Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 1835 km², əhalisinin sayı 71,2 min nəfər, o cümlədən şəhər əhalisi 12,0 min nəfər, kənd əhalisi 59,2 min nəfərdir (01.01.2012). Mərkəzi Laçın şəhəridir. Rayonda 1 şəhər, 1 qəsəbə, 47 kənd ərazi dairəsi, 125 kənd yaşayış məntəqəsi vardır. Rayon 18 may 1992-cü ildə Ermənistan tərəfindən işğal edilmişdir.

Rayonun relyefində dağlar və dağlıq yaylalar üstünlük təşkil edir. Onun şərq hissəsi Qarabağ silsiləsinin qərb yamacında, şimali Mıxtökən silsiləsinin cənub yamaclarında (Dəlidağ d., 3616 m), qərbi Qarabağ vulkanik yaylasında yerləşir (Qızılboğaz d., 3594 m, Böyük İşıqlı d., 3550 m). Dağlarda Yura-Antropogen yaşlı çöküntülər səthə çıxır. Civə, polimetal filizi, tikinti materialları əsas faydalı qazıntılardır. Nazran tipli mineral bulaqlar vardır (Minkənd). Rayonun çox yerində qışı quraq keçən mülayim-isti və soyuq iqlim tipi, Qarabağ yaylasında dağ-tundra iqlimi yaranır. Orta temperatur yanvarda -10°C-dən 0°C-yədək, iyulda 10-22°C-dir. İllik yağıntılar 600-900 mm-dir. Həkəri çayı qolları ilə birlikdə rayonun ərazisindən keçir. Çimli və torflu dağ-çəmən, qəhvəyi və qonur dağ-meşə torpaqları yayılmışdır. Bitki örtüyü kolluq və seyrək meşələri olan çəmənliklərdən, enliyarpaqlı ağaclardan (palıd, vələs, fıstıq) ibarət dağ meşələrindən, subalp və alp çəmənliklərindən ibarətdir. Heyvanlar aləminə dağ keçisi, cüyür, çöl donuzu, sincab, süleysin, çöl siçanı aiddir. Rayon ərazisində, Qaragöl ətrafında Qaragöl Dövlət qoruğu və Laçın yasaqlığı (dağ keçisi, cüyür, çöl donuzu qorunurdu) təşkil edilmişdir.

Laçın rayonunda Hoçaz kəndində mağara-məbəd (V əsr) və məbəd (XVII əsr); Mirik (XV əsr) və Pirçənis kəndlərində (XVII əsr) məbədlər; Həmzə Soltan sarayı (1761); Quşçu kəndində bulaq (XV əsr); XIX əsrə aid körpülər; Soltan Əhməd və Soltan Baba türbələri (XIX əsr) mühüm memarlıq abidələridir.

Qubadlı inzibati rayonu 14.03.1933-cü ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə ləğv edilərək Zəngilan rayonuna verilmiş, 17.06.1964-cü ildə yenidən yaradılmışdır. Qubadlı rayonu Kiçik Qafqazın cənub-qərbində yerləşir. Qərbdən Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 800 km², əhalisinin sayı 37,0 min nəfər, o cümlədən şəhər əhalisi 8,3 min nəfər, kənd əhalisi 28,7 min nəfərdir (01.01.2012). Mərkəzi Qubadlı şəhəridir. Rayonda 1 şəhər, 30 kənd ərazi dairəsi, 93 kənd yaşayış məntəqəsi vardır.

Rayon dağlıq relyefə malikdir. Qarabağ yaylasının cənub-şərq kənarları olan Yazı düzü Bazar və Həkəri çayları arasında 450 m-dək alçalır. Qarabağ silsiləsi cənubda maili İncə düzünə keçir. Yuradan Antropogen dövrünə qədər çöküntülər səthə çıxır. Əqiq və inşaat materialları yatağı vardır. Ərazidə qışı quraq keçən mülayim-isti iqlim tipi yaranır. Yay isti keçir. Yanvarın orta temperaturu 1°-2°C, iyulda 24°-22°C arasında qeydə alınır. İl ərzində 400-600 mm yağıntı düşür. Rayon ərazisindən Bazar (Bərgüşad), Həkəri çayları və onların qolları axır. Həkəri və Bərgüşad çaylarının dərələri məskunlaşma üçün əlverişlidir, kəndlər də əsasən bu ərazilərdə yerləşir. Qəhvəyi dağ-meşə torpaqları üzərində kolluq və seyrək meşələrdən ibarət bitki örtüyü yayılır.Rayonda Qubadlı yasaqlığı yaradılmışdır.

Rayonun ərazisində olan memarlıq abidələrinə mağara-ibadətgah (IV əsr), Göy qala (V əsr); Xələc kəndində məscidin qalıqları (XV-XVI əsrlər); Gürcülü kəndində Türbə (XVII əsr); rayon mərkəzində və Mirlər kəndində məscidlər (XVIII əsr); Mahmudlu kəndində Mədət bulağı və körpü (XIX əsr); Bazar çayı üzərində Laləzar körpüsü (1867) aiddir.

1:300 000

Qubadlı rayonu

Avtomobil nəqliyyatı dağlıq ərazilərdə əsas əlaqə vasitəsidir

1:210 000

Zəngilan rayonu



Zəngilan inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. İnzibati rayon Araz çayının sol sahilində yerləşir. Sahəsi 707 km², əhalisinin sayı 40,8 min nəfər, o cümlədən şəhər əhalisi 18,2 min nəfər, kənd əhalisi 22,6 min nəfərdir (01.01.2012). Mərkəzi Zəngilan şəhəridir. Rayonda 1 şəhər, 5 qəsəbə, 20 kənd ərazi dairəsi, 79 kənd yaşayış məntəqəsi vardır. Rayon 29 oktyabr 1993-cü ildə Ermənistan tərəfindən işğal edilmişdir. Relyefi qərbdə dağlıq, şərqdə düzənlikdir. Orta temperatur yanvarda 1°C, iyulda 25,3°C qeydə alınır. Yağıntıların orta illik miqdarı 400-500 mm-dir, əsas hissəsi yazın sonunda düşür. Rayondan axan Həkəri, Oxçu, Bəsit çayları Araz hövzəsinə aiddir. Düzən və dağətəyi sahələrdə dağ-şabalıdı, dağlıq sahələrdə qəhvəyi dağ-meşə, çayların dərələrində allüvial-çəmən torpaqları yayılır. Ardıc və saqqızağacı meşələri vardır. Bəstiçay Dövlət Təbiət qoruğunda şərq çinarı mühafizə olunurdu. Zəngilan rayonunda Əmirxanlıda olan Qız qalası (XII əsr); Şərifan türbəsi (1304-1305); Hacalı qülləsi (XIV əsr); Hacallıda orta əsrlərə aid Şəhri Şərifan yaşayış yeri; rayon mərkəzinə yaxın və Malatkeşin kəndlərində yerləşən məscidlər (XIX əsr) tarixi-memarlıq abidələridir.

Lənkəran təbii-iqtisadi zonası Lənkəran-Astara iqtisadi-coğrafi rayonu

Lənkəran-Astara iqtisadi-coğrafi rayonunun tərkibinə Astara, Cəlilabad, Lerik, Lənkəran Masallı və Yardımlı inzibati rayonları daxildir. İqtisadi rayon Azərbaycanın cənubunda, İran İR və Türkiyəyə gedən yollar üzərində yerləşir. Şərqdə Xəzər dənizi, qərbdə və cənubda İran İR ilə həmsərhəddir. Sahəsi 6,14 min km²-dir, bu da ölkə ərazisinin 7,1%-nə bərabərdir. Lənkəran ovalığı və Talış dağları əsas oroqrafik vahidlərdir. İqtisadi rayonun ərazisinin 26%-i meşələrlə örtülmüşdür. Region rütubətli subtropik iqlimə malik olmaqla təbii şəraitinə görə ölkənin digər iqtisadi rayonlarından fərqlənir. Əhalinin sayı 855,7 min nəfər, o cümlədən şəhər əhalisi 212,0 min nəfərdir. Ölkə əhalisinin 9,3%-i burada yaşayır. Əhalinin orta sıxlığı hər km²-ə 141 nəfər, urbanizasiya səviyyəsi 24,8%-dir (01.01.2012). Regionda faydalı qazıntılar azdır, qeyri-filizlərdən tikinti qumu, gil, çaydaşı, gips ehtiyatları vardır, zəngin termal və mineral sulara malikdir. İqtisadi rayonda rütubətli subtropik iqlim, məhsuldar torpaqlar, su və əmək ehtiyatları kənd təsərrüfatının inkişafı üçün böyük imkanlar yaradır. Kənd təsərrüfatında faraş tərəvəzçilik, kartofçuluq, üzümçülük, taxılçılıq üstünlük təşkil edir. İqtisadi rayon mühüm sitrus meyvəçiliyi rayonudur. Sahilboyu balıq ovlanır. Sənaye sahələri kənd təsərrüfatı xammallarının emalı əsasında inkişaf etmişdir, bitkiçilik və balıqçılıq məhsullarının emalına əsaslanır. Yeyinti sənayesində balıq emalı, çay, meyvə-tərəvəz konserv və şərab istehsalı mühüm yer tutur, ət, süd, pendir, çörəkbişirmə müəssisələri fəaliyyət göstərir. Bakı-Astara dəmir və avtomobil yolları yük və sərnişinlərin daşımasında, həmçinin Azərbaycanın İran və Türkiyə ilə iqtisadi əlaqələrinin genişlənməsində mühüm rol oynayır. Lənkəranda müasir tələblərə uyğun hava limanı fəaliyyət göstərir. Gözəl landşaft, isti və soyuq mineral sular, əlverişli iqlim şəraiti və inkişaf etmiş nəqliyyat şəbəkəsi rayonda kurort və turizm təsərrüfatının inkişafı üçün əlverişli şərait yaradır.

Astara inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə ləğv edilərək ərazisi Lənkəran rayonuna verilmiş, 06.01.1965-ci ildə bərpa olunmuşdur. İnzibati rayon ölkənin cənubunda, Talış dağlarının suayrıcı xətti ilə Xəzər dənizi arasında yerləşir. Astara cənubda və cənub-qərbdə Astara çayı boyu İran İR ilə həmsərhəddir. Sahəsi 616,4 km², əhalisinin sayı 99,8 min nəfər, o cümlədən şəhər əhalisi 22,6 min nəfər, kənd əhalisi 77,2 min nəfərdir (01.01.2012). Mərkəzi Astara şəhəridir (əhalisi 16,8 min nəfər). Əhalinin sıxlığı 161 nəfər/km²-dir. Rayonda 1 şəhər, 1 qəsəbə, 13 kənd ərazi dairəsi, 90 kənd yaşayış məntəqəsi vardır. Əhalinin milli tərkibində azərbaycanlılar (57932 nəfər və ya 60,2%) və talışlar (38207 nəfər və ya 39,7%) çoxdur. Rayonun relyefində qərb hissədə Talış silsiləsi (Şandan Qalası d., 1816 m), şərqdə Lənkəran ovalığı, mərkəzi hissədə alçaq dağlıq və dağətəyi ərazilər ayrılır. Xəzərin sahillərində dar zolaqda Antropogen, dağlıq və dağətəyi yerlərdə isə Paleogen və Təbaşir çöküntüləri yayılmışdır. Mineral bulaqlar (Ağ körpü, İstisu, Sim, Bi, Toradi) vardır. Yayı quraq keçən və yağıntıları bərabər paylanan mülayim-isti iqlim tipləri hakimdir. Rayonun düzənlik və dağətəyi əraziləri rütubətli subtropik iqlim zonasında yerləşir. Yanvarın orta temperaturu 0°C-dən 4°C-yə qədər, iyulda isə 20°C-dən 25°C-yə qədərdir. Yağıntıların orta illik miqdarı 1400-1700 mm-dir, əsasən payızda düşür. Rayondan Təngərud çayı, cənubda isə Astara çayı axır. Vəşəru çayının yuxarı axını buradan keçir. Qleyli-podzollu sarı, qonur dağ-meşə torpaq tipləri yayılmışdır. Rayonda 37,4 min ha sahə meşələrlə örtülür. Burada relikt şabalıdyarpaq palıd, dəmirağac, ipək akasiyası, azat, həmçinin palıd, vələs, fıstıq, qoz, qızılgöz, cökə ağacları

1:210 000



bitir. Hirkan milli parkı və Hirkan qoruğunun bir hissəsi Astara rayonundadır. Heyvanat aləminə bəbir, vaşaq, xallı maral, ayı, oxlu kirpi, daşlıq dələsi, porsuq, çöl donuzu, quşlardan qırqovul, vağ, qaz, ördək, göyərçin, kəklik, qara leylək aiddir. Kənd təsərrüfatının əsasını sit-rus meyvəçiliyi, çayçılıq və tərəvəzçilik təşkil edir. Burada bostan bitkiləri, kartof becərilir. Sənayedə çay emal olunur, son vaxtlarda Modul İES tikilmişdir. Astarada tarixi-arxeoloji və memarlıq abidələri qorunur (102 abidə qeydə alınmışdır). Onların arasında Astara (XIX əsr), Şahağac (XIX əsr), Pensər (Hacı Teymur məscidi, XIX əsr), Ərçivan (XIX əsr), Maşxan (1905) və Vaqoda (1905) məscidlər, rayon mərkəzində (XII əsr), Şahağac (XII əsr), Ərçivan (minarə qalıqları ilə birgə, XIII əsr) və Maşxanda (Əhməd ibn Kərim türbəsi , 1472) türbələr, Şahağac (1910), Pensər (Məşədi Abu Talib hamamı, XIX əsr) və Ərçivanda (Kərbəlayi Həmid Abdulla hamamı, 1806) hamamlar tarixi-mədəni əhəmiyyət kəsb edir. Pərikeşdə Piyacənapar körpüsü (XIII əsr) qorunur, Maşxanda yaşayış yeri (XIV-XVII əsrlər), Siyakuda Qırxtürbə şəhər yeri (X-XII əsrlər) vardır.

1:380 000



Cəlilabad rayonunun ərazisində çoxsaylı tarixi-arxeoloji abidələr aşkar edilmişdir. Eneolit dövrünə aid Xudutəpədə (Cəlayir k.), Ölütəpədə (Allar k.), Əlikömək təpədə (Üçtəpə k.) qədim yaşayış yerləri vardır. Göytəpə (b. e.ə. VI minillik), Üçtəpə kəndində Fətx təpəsi (b.e.ə. VI minillik) və Təklə kəndində Qıztəpə yaşayış yerləri (b. e.ə. III minillik); rayon mərkəzində Eneolit və Dəmir dövrlərinə aid Mişarçay yaşayış yeri; Tunc dövrünə aid Göytəpədə və Privolnoye də kurqanlar; Uzuntəpədə Tunc və Dəmir dövrlərinə aid nekropol, Dəmir dövrünə aid Kazaçi kurqanı qorunub saxlanılır.

Cəlilabad şəhərində istirahət mərkəzi

Cəlilabad inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. 05.06.1967-ci ilə qədər Astraxanbazar rayonu adlanmışdır. İnzibati rayon Talış dağlarına daxil olan Burovar silsiləsi ilə Salyan və Muğan düzləri arasında yerləşir, qərbdə İran İR ilə həmsərhəddir.

Sahəsi 1441,4 km², əhalisinin sayı 198,8 min nəfər, o cümlədən şəhər əhalisi 57,3 min nəfər, kənd əhalisi 141,5 min nəfərdir (01.01.2012). Mərkəzi Cəlilabad şəhəridir (əhalisi 43,3 min nəfər). Əhalinin sıxlığı 138 nəfər/km²-dir. Rayonda 2 şəhər, 1 qəsəbə, 28 kənd ərazi dairəsi, 117 kənd yaşayış məntəqəsi vardır. Əhalinin milli tərkibində azərbaycanlılar (192136 nəfər və ya 99,9%) çoxdur.

Rayonun ərazisi Talış dağlarına aid olan Burovar silsiləsində (Burovar d., 914 m), şərqdə Muğan və Salyan düzlərində yerləşir, mərkəzi hissələri dağətəyi və alçaq dağlıqdır. Şərqdə bəzi yerlər okean səviyyəsindən aşağı düşür. Antropogen, dağlarda Paleogen və Neogen çöküntüləri yayılmışdır. İnzibati rayonda yarımsəhra və quru çöl və yayı quraq keçən mülayim-isti iqlim tipləri yaranır. Yanvarda orta temperatur 1°-3°C, iyulda isə 24°-26°C arasında dəyişir. Yağıntıların orta illik miqdarı 400-600 mm-dir, payızda daha çox yağır, yay quru keçir. Bolqar, İncə və Göytəpə çayları müvəqqəti axarlıdır.

Allüvial-çəmən, bataqlıq-çəmən, şabalıdı, qəhvəyi dağ-meşə torpaq tipləri yayılır. Yarımsəhra, çöl, dağ-kserofit bitkiləri inkişaf etmişdir.

Cəlilabadda kənd təsərrüfatının əsasını taxılçılıq, üzümçülük, kartofçuluq və heyvandarlıq təşkil edir. Burada bostan-tərəvəz bitkiləri, meyvə, şəkər çuğunduru, günəbaxan becərilir. Sənaye müəssisələrində şərab istehsal olunur. Broyler-Quşçuluq fabriki vardır.

Lerik inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. 19.07.1938-ci ilə qədər Zuvand rayonu adlanmışdır. İnzibati rayon Talış dağlarının şimal-şərq yamaclarında yerləşir, cənubda və cənub-qərbdə İran İR ilə həmsərhəddir.

Sahəsi 1983,6 km², əhalisinin sayı 77,5 min nəfər, o cümlədən şəhər əhalisi 7,9 min nəfər, kənd əhalisi 69,6 min nəfərdir (01.01.2012). Mərkəzi Lerik şəhəridir (əhalisi 7,9 min nəfər). Əhalinin sıxlığı 72 nəfər/km²-dir. Rayonda 1 şəhər, 28 kənd ərazi dairəsi, 161 kənd yaşayış məntəqəsi vardır. Əhalinin milli tərkibində azərbaycanlılar (72228 nəfər və ya 96,92%) və talışlar (2281 nəfər və ya 3,06%) çoxdur.

Lerik rayonunun relyefində Talış, Peştəsər və Dizdoni silsilələri, Zuvand çökəkliyi əsas oroqrafik vahidlərdir. Talış silsiləsindəki Kömürköy (2493 m) və Qızyurdu (2433 m) ən yüksək zirvələrdir. Paleogenin vulaknogen-çökmə süxurları səthə çıxır. İnzibati rayonda Lənkəran ovalığından Talış dağlarının yüksək zirvələrinə doğru yağıntıları bərabər paylanan, yayı quraq keçən mülayim-isti, yarımsəhra və quru çöl və qışı quraq keçən soyuq iqlim tipləri bir-birini əvəz edir. Qış mülayim, yay isti keçir. Yanvarın orta temperaturu 1°C-dən -4°C-yə qədər, iyulda isə 12°C-dən 22°C-yə qədərdir. Yağıntıların orta illik miqdarı 300-800 mm-dir.

Lənkəran, onun qolu Ləkər və Şərətük əsas çaylardır. Dağ-sarı, qonur dağ-meşə, dağ-çəmən torpaqlar üzərində relikt Hirkan meşələrindən (şabalıdyarpaq palıd, dəmirağac, azat) ibarət bitki örtüyü yaranır. Rayonda Zuvand Dövlət Təbiət Yasaqlığı yaradılmışdır.

Lerikdə kənd təsərrüfatının əsasını taxılçılıq, kartofçuluq və heyvandarlıq təşkil edir. Burada tərəvəz bitkiləri, meyvə becərilir. Son vatxlarda bir neçə istirahət kompleksi yaradılmışdır.

Rayonda çoxlu sayda tarixi-arxeoloji memarlıq abidələri qeydə alınmışdır. Bunlara misal olaraq antik dövrə aid Şingədulanda Küp qəbirləri nekropolu, Nodada türbə; Daş dövrünə aid Buzeyir mağarası; Mondigahda

Lerik rayonu

1:950 000



Tunc və Dəmir dövrlərindən qalan Qız yurdu yaşayış yeri və Hiveri nekropolu vardır. Orta əsrlərə aid olan tarixi-arxeoloji mərkəzlərə Noda yaşayış yeri (XII-XVI əsrlər), rayon mərkəzində Dədə Maqsud köhnə qəbiristanlığı, Monidigah (XIII-XIV əsrlər) və Mistanda (XV-XVI əsrlər) yaşayış yeri aiddir. Lerikdə Cabir türbəsi, Orandda Baba Peyda türbəsi, Monidigahda Baba İsa türbəsi (XVII əsr), Çayrudda Gündəb türbəsi yerləşir, Şingədulanda Qız qalası qorunur.

Regionda çaylar əsasən yağış suları ilə qidalanır

Lənkəran rayonu

1:330 000

İstisu qəsəbəsi

Lənkəran inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. İnzibati rayon respublikanın cənub-şərqində, Talış dağları ilə Xəzər dənizi arasında yerləşir. Sahəsi 1539,4 km², əhalisinin sayı 213,2 min nəfər, o cümlədən şəhər əhalisi 84,7 min nəfər, kənd əhalisi 128,5 min nəfərdir (01.01.2012). Mərkəzi Lənkəran şəhəridir (əhalisi 50,8 min nəfər). Əhalinin sıxlığı 138 nəfər/km²-dir. Rayonda 2 şəhər, 8 qəsəbə, 33 kənd ərazi dairəsi, 83 kənd yaşayış məntəqəsi vardır. Əhalinin milli tərkibində azərbaycanlılar (151217 nəfər və ya 73,5%) və talışlar (54125 nəfər və ya 26,31%) çoxdur. Rayonun relyefində əsas yeri şərqdə yerləşən Lənkəran ovalığı tutur. Bu ərazilər Qızılağac körfəzinin sahilləri də daxil olmaqla okean səviyyəsindən aşağıda yerləşir. Qərbdə Peştəsər və Dizdoni silsilələrinin şərq kənarları yüksəlir. Maksimal hündürlük 1100 m-ə çatır. Dağlıq yerlərdə Paleogen dövrünün vulkanogen-çökmə, ovalıqda Antropogenin dəniz və çay mənşəli çökmə süxurları yayılmışdır. Əksər yerlərdə yayı quraq keçən mülayim-isti iqlim tipi yaranır. Orta aylıq temperatur yanvarda 3,7°C, iyulda 24,5°C-dir. Yağıntıların orta illik miqdarı 1400 mm-dir, əsasən payızda düşür. Əsas çaylar olan Lənkəran, Viravul və Viləş Xəzərə axır, Xanbulançay su anbarı tikilmişdir. Podzollaşmış sarı və dağ-sarı, qonur dağ-meşə torpaqlar yayılır. Xəzərin sahillərində bataqlıq-çəmən torpaqlar əmələ gəlir. Ovalıqda çəmənliklər, dağlıq və dağətəyi zonalarda meşələr (dəmirağac, şabalıdyarpaq palıd, azat, vələs) yaranır. Heyvanat aləminə oxlu kirpi, çöl donuzu, süleysin, yenot aiddir. Qızılağac Dövlət Təbiət Qoruğu bir sıra quşların (qaz, ördək, qara leylək, qağayı və s.) qışlaq yeridir. Hirkan qoruğunun bir hissəsi burada yerləşir. Lənkəranda kənd təsərrüfatının əsasını tərəvəzçilik, taxılçılıq, meyvəçilik və heyvandarlıq təşkil edir. Bostan bitkiləri, kartof, üzüm, günəbaxan və çay becərilir. Rayonda Meyvə-Tərəvəz Konserv kombinatı, Balıq kombinatı, Kərpic zavodu, "Pal" Süd məhsulları zavodu, Çay çəkici və Bükücü fabriki, Çayın İlkin emalı müəssisələri vardır, qum-çınqıl hasil olunur. Tarixi-memarlıq abidələrinə aşağıdakılar aiddir: Gəgiranda Antik dövrə aid Şahalakon yaşayış yeri, Tunc dövrünə aid İstisuda "Yeddi qardaş" (7 ədəd) və Haftonidə (7 ədəd) kurqanlar; Gəgiranda Buyək (III-VIII əsrlər), Şağlaküdə Balabənd (XVII-XVIII əsrlər) və Şıxakəran (XV əsr) yaşayış yerləri; Cil, Şıxakəran (XIX əsr) və Gəgiranda (XX əsr) məscidlər; XIX əsrə aid Xəlifə türbəsi (Cil k.), Şeyx Zahid türbəsi (Şıxakəran k.), Hacı Mirzə hamamı və Qala qalıqları (Lənkəran ş.).

Masallı inzibati rayonu 08.08.1930-cu ildə təşkil edilmişdir. İnzibati rayon respublikanın cənub-şərqində, Xəzər dənizi ilə Talış dağları arasında yerləşir. Sahəsi 721 km², əhalisinin sayı 205,8 min nəfər, o cümlədən şəhər əhalisi 32,7 min nəfər, kənd əhalisi 173,1 min nəfərdir (01.01.2012). Mərkəzi Masallı şəhəridir (əhalisi 9,4 min nəfər). Rayonda 1 şəhər, 3 qəsəbə, 33 kənd ərazi dairəsi, 105 kənd yaşayış məntəqəsi vardır. Əhalinin milli tərkibində azərbaycanlılar (181353 nəfər və ya 91,99%) və talışlar (15675 nəfər və ya 7,65%) çoxdur. Rayonun relyefində Lənkəran ovalığı əsas yer tutur, səthi hamar düzənlikdir. Qərbdə Burovar silsiləsinin kənarları yerləşir. Mineral su və gil yataqları vardir. İnzibati rayonda yayı quraq keçən, qərbdə yağıntıları bərabər paylanan mülayim-isti iqlim tipi yayılıb. Yanvarda orta temperatur 2,5°C, iyulda isə 25,6°C olur. Yağıntıların orta illik miqdarı 600-800 mm-dir, əsasən yazda və payızda çox düşür. Buradan axan Viləş çayı Xəzər dənizinə tökülür. Podzollaşmış və sarı dağ-meşə, allüvial-çəmən, Xəzərin sahillərində bataqlıq-çəmən torpaq tipləri yayılır. Ovalıqda çəmən bitkiləri, dağlıq və dağətəyi zona-larda enliyarpaqlı ağaclardan ibarət (palıd, fıstıq, vələs) və Hirkan meşələri (dəmirağac, şabalıdyarpaq palıd) yayılır. Kənd təsərrüfatının əsasını taxılçılıq, tərəvəzçilik, çəltikçilik, kartofçuluq və heyvandarlıq təşkil edir. Bostan-tərəvəz bitkiləri, üzüm, günəbaxan

becərilir. Sənaye müəssisələrində kənd təsərrüfatı məhsulları emal edilir. "Embawood" Mebel fabriki, Kərpic zavodu mühüm sənaye obyektləridir, tikinti materialları istehsal olunan müəssisələr vardır.

Rayonda 117 məscid vardır. Onların əksəriyyəti XIX əsrdə tikilmişdir. Hişgədərədə Tunc dövrünə aid Barzətəpə və Gavurtəpə kurqanları, Xudabaxış yurdu nekropolu; Qızılağacda Dəmir dövrünə aid Xəzitəpə kurqanı vardır. Orta əsr abidələrinə Mahmudavar (XII-XVII əsrlər) və Qızılağac (X-XIII əsrlər) yaşayış yerləri; Ərkivan qalası (IX-X əsrlər) və Mahmudavar kəndində Mahmud qalası (orta əsrlər) və Qızılağac, Ərkivan və rayon mərkzində XIX əsrə aid məscidlər; Qızılağac və Masallıda hamamlar; Hişgədərədə (Nəzəri xanım türbəsi, XIV əsr), Mahmudavarda (Baba Seyidağa türbəsi, XVI əsr) türbələr qorunur.

Yardımlı rayonu

Yardımlı inzibati rayonu 08.08.1930 ildə təşkil edilmişdir. 19.07.1938-ci ilə qədər Vərgədüz rayonu adlanmışdır. İnzibati rayon Talış dağlarının şimal-qərb yamaclarında yerləşir, şimalda, qərbdə və cənub-qərbdə İran İR ilə həmsərhəddir. Sahəsi 667,2 km², əhalisinin sayı 60,6 min nəfər, o cümlədən şəhər əhalisi 6,8 min nəfər, kənd əhalisi 53,8 min nəfərdir (01.01.2012). Mərkəzi Yardımlı şəhəridir (əhalisi 6,8 min nəfər). Rayonda 1 şəhər, 29 kənd ərazi dairəsi, 87 kənd yaşayış məntəqəsi vardır. Əhalinin milli tərkibində azərbaycanlılar (58067 nəfər və ya 99,99%) çoxdur. Rayonun relyefində Talış, Peştəsər və Burovar silsilələri geniş sahə tutur. Dağların yuxarı hissəsi yayı quraq keçən yarımsəhra və quru çöl, şimal yamaclarında yayı quraq keçən mülayim-isti iqlim tipləri yaranır. Yanvarda orta temperatur 2°-3°C, iyulda 20°-24°C-dir. Yağıntıların orta illik miqdarı 300-700 mm-dir, çox hissəsi payızda düşür. Viləş çayı dağlardan keçərək geniş vadi əmələ gətirmişdir. İran İR ilə sərhəddən Bolqar çayı axır. Qonur və qəhvəyi dağ-meşə, az sahədə çimli dağ-çəmən torpaq tipləri yayılır. Kolluq və seyrək meşələr olan çəmənliklər geniş sahə tutur. Zuvand Dövlət Təbiət Yasaqlığının bir hissəsi rayonun ərazisindədir. Yardımlının kənd təsərrüfatının əsasını taxılçılıq və heyvandarlıq təşkil edir, tərəvəz, kartof, meyvə becərilir.

Naxçıvan təbii-iqtisadi zonası Navçıvan iqtisadi-coğrafi rayonu (Naxçıvan Muxtar Respublikası)

Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibinə daxildir. 1920-ci ildə Naxçıvan Sovet Sosialist Respublikası kimi yaradılmış, 1923-1924-cü illərdə Naxçıvan Muxtar Vilayəti kimi mövcud olmuş, 09.02.1924-cü ildə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilmişdir. 1990-cı ildən Naxçıvan Muxtar Respublikası adlanır. Naxçıvan MR şimalda və şərqdə 246 km Ermənistan Respublikası ilə, cənub-qərbdə 13 km Türkiyə ilə, cənubda 204 km İran İR ilə həmsərhəddir. Sahəsi 5,5 min km², əhalisinin sayı 418,5 min nəfər, o cümlədən şəhər əhalisi 121,7 min nəfərdir (01.01.2012). Azərbaycanın ərazisinin 6,4%-i, əhalisinin 4,5%-i MR-in payına düşür. MR 7 inzibati rayona - Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur rayonlarına və paytaxtı Naxçıvan şəhəri ərazi dairəsinə bölünür. Muxtar Respublikanın ərazisinin çox hissəsini Kiçik Qafqaza daxil olan Zəngəzur və Dərələyəz silsilələri və onların Araz çayının dərəsinə doğru ayrılan qolları əhatə edir. Zəngəzur silsiləsi Kiçik Qafqazın ən yüksək silsiləsidir (Qapıcıq d., 3904 m). Bura eyni zamanda Kiçik Qafqazın Azərbaycan Respublikası ərazisində ən yüksək zirvəsidir. Dərələyəz silsiləsi (Küküdağ d., 3120 m) MR-in şimalında yerləşir. MR-in ərazisinin 1/3-ni orta hündürlüyü 600-800 m olan Arazboyu düzənliklər (Sədərək, Şərur, Böyükdüz, Kəngərli, Naxçıvan, Culfa, Ordubad düzləri) tutur. Naxçıvan MR molibden, mis, polimetal, qızıl, sürmə, civə, kobalt, daş duz, dolomit, tikinti materialları (mərmər, qum-çınqıl, tikinti daşı, travertin) ilə zəngindir. 200-dən çox mineral bulaq vardır. Muxtar Respublikanın iqliminə ərazisinin hər tərəfdən dağ silsilələri ilə əhatə olunması, okean və dənizlərdən uzaqda yerləşməsi təsir göstərir. Mütləq maksimal temperatur 44°C-dir (Culfa). Yağıntıların orta illik miqdarı Arazboyu düzənliklərdə 200-300 mm, yüksək dağlarda 500-800 mm-dir. Naxçıvan MR daxili suları Araz çayının hövzəsinə aiddir. Burada təqribən 400 böyük və kiçik çay vardır. Göllərin sayı az, sahəsi və həcmi isə kiçikdir. MR-da Batabat və Qaragöl yüksək dağ göllərinə aiddir. Zəngin heyvanlar aləminə muflon, bezoar keçisi, ayı, vaşaq, tülkü, kirpi, çöl donuzu, çöl pişiyi, kələz, gürzə, quşlardan Xəzər uları, dağ qaranquşu, kəklik, dovdaq aiddir. MR-də Zəngəzur milli parkı yaradılmışdır.

Naxçıvan (Naxçıvan şəhər ərazi dairəsi) Azərbaycanın Respublikasının Naxçıvan MR-də şəhər. Naxçıvan MR-in paytaxtıdır. Azərbaycanın ən qədim şəhərlərindən biridir, yaranma tarixi IV əsrə aid edilir. Naxçıvan şəhəri ərazi dairəsinə 1 şəhər, 1 qəsəbə, 3 kənd ərazi dairəsi, 5 kənd yaşayış məntəqəsi aiddir. Onlara Əliabad qəsəbəsi, Qaracuq (Qaracuq və Bulqan kəndləri), Qaraxanbəyli və Tumbul (Tumbul və Hacıniyyət kəndləri) kənd ərazi dairələri daxildir. Ərazisi 130 km², əhalisinin sayı 86,4 min nəfər, o cümlədən Naxçıvan şəhərində 74,1 min nəfərdir (01.01.2012). Naxçıvan MR-ı iri sənaye, elm mərkəzi və nəqliyyat qovşağıdır. Beynəlxalq aeroportu vardır. Naxçıvan düzündə, Naxçıvançayın sahilindədir. İqlimi kontinentaldır, qışı soyuq keçən yarımsəhra və quru çöl iqlim tipi formalaşır. Yanvarda orta aylıq temperatur -3,8°C, iyulda 26,9°C-dir. Yağıntıların orta illik miqdarı 271 mm-dir. Naxçıvan şəhərində olan sənaye müəssisələrinə son vaxtlarda istifadəyə verilən Modul İES, Qaz-Turbin İES, "Lifan" Avtomobil Şirkətinin yığma istehsal sahəsi, yüngül, yeyinti və tikinti materialları istehsalı üzrə obyektlər daxildir. Qədim memarlıq və tarixi abidələrə Mömünə xatun türbəsi (1186-1187); Yusif Küseyir oğlu türbəsi (1161-1162-ci illər); Rəhim xanın yaşayış evi (XVIII əsr); İsmayıl xan hamamı (XVIII əsr); Buzxana, (XIX əsr); Hüseyn Cavid türbəsi (1996) aiddir.

Babək rayonu

Babək rayonunun relyefi şimalda Dərələyəz silsiləsinin cənub yamaclarından Araz çayına qədər tədricən alçalır. Şərqdə Zəngəzur silsiləsinin ətəklərinə söykənir. Burada Zəngəzur silsiləsindən qollar formasında təpələr və yüksəkliklər ayrılır. Cənubda Naxçıvan maili düzənliyi, cənub-şərqdə Gülüstan düzənliyi yerləşir.

Rayonun ən yüksək zirvələri Keçəltəpə dağı (2740 m) və Buzqov dağıdır (2475 m). Düzənliklərdə Neogen yaşlı, dağlarda isə Təbaşir və Trias yaşlı çöküntülər yayılmışdır.

Rayonun ərazisi faydalı qazıntılarla zəngindir. Nehrəm və Duzdağda daş duz, Nehrəmdə dolomit və başqa tikinti materialları vardır. Burada Sirab, Vayxır, Cəhri mineral bulaqları vardır.

Mömina Xatun türbəsi

1:270 000



Babək inzibati rayonu Naxçıvan MR-in tərkibinə daxildir. 08.08.1930-cu ildə Naxçıvan rayonu kimi yaradılmış, 23.10.1978-ci ildə Babək rayonu adlanmışdır. İnzibati rayon MR-in mərkəzində, Naxçıvan çayının hövzəsində yerləşir. Cənub-qərbdə Ermənistan Respublikası, cənubda İran İR ilə həmsərhəddir. Sahəsi 900 km², əhalisinin sayı 66,9 min nəfər, o cümlədən şəhər əhalisi 3,6 min nəfər, kənd əhalisi 63,3 min nəfərdir (01.01.2012). Mərkəzi Babək qəsəbəsidir (əhalisi 3,6 min nəfər). Rayonda 1 qəsəbə, 26 kənd ərazi dairəsi, 34 kənd yaşayış məntəqəsi vardır. Rayonun cənubunda qışı soyuq keçən yarımsəhra və quru çöl, şimalda isə yayı quraq keçən soyuq iqlim tipi formalaşır. Orta temperatur yanvarda -3°C-dən -10°C-yə qədər, iyulda 15°-28°C-dir. Mütləq maksimal temperatur 43°C, mütləq minimal temperatur -30°C-dir. Yağıntıların illik miqdarı 200-600 mm-dir. Rayonun əsas çaylarına Araz, Naxçıvan və onun qolu Cəhri çayı aiddır. Əlincə çayı şərq kənarından axır. Araz su qovşağı (su anbarı), Uzunoba, Nehrəm, Sirab, Cəhri, Qahab su anbarları və onlardan çəkilmiş suvarma kanalları şəbəkəsi vardır. Boz və bozçəmən, şimalda şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Yarımsəhra və dağ kserofit bitki örtüyü inkişaf etmişdir. Rayonun kənd təsərrüfatında taxılçılıq, üzümçülük, meyvəçilik, bostançılıq, tərəvəzçilik mühüm yer tutur. Sənaye müəssisələrində xörək duzu, mineral su və tikinti materialları istehsal olunur. Sirab Mineral su zavodu, Üzlük Plitələr və Üzüm Emalı zavodları fəaliyyət göstərir. Rayonun ərazisi tarixi arxeoloji abidələrlə zəngindir. Birinci Kültəpə və İkinci Kültəpə arxeoloji abidələri; Sirab kəndində Tunc dövrünə aid Daşqala mağarası; Buzqov yaşayış yeri və nekropolu (b.e.ə. II minillik), Gültəpə və Uzunoba (b.e.ə. III-I minilliklər), Vayxır (b.e.ə. II-I minilliklər); Şıxmahmud (I-III əsrlər), Sirab nekropolları (XII-XVII əsrlər) öyrənilmişdir. Tunc dövrünə aid olan Qızılburun yaşayış yeri; Qızılbulaq məbədləri; İşıqlar (III-XVIII əsrlər); Köhnə Vayxır (orta əsrlər); Nehrəm yaşayış yerləri (V-XVII əsrlər); Çalxanqala (XVII əsr); Gavurqala (XVII əsr); Nehrəmdə Güllü, Hasar, Xəndək, Çaylaq məscidləri və hamam (XIX əsr) tarixi-arxeoloji əhəmiyyət kəsb edir.

Culfa inzibati rayonu Naxçıvan MR-in tərkibinə daxildir. 08.08.1930-cu ildə təşkil edilmişdir. İnzibati rayon Əlincə çayının hövzəsində, Zəngəzur silsiləsinin suayrıcısı ilə Araz çayı arasında yerləşir. Şimal-şərqdə Ermənistan Respublikası ilə, cənubda İran İR ilə həmsərhəddir. Sahəsi 995 km², əhalisinin sayı 43,5 min nəfər, o cümlədən şəhər əhalisi 12,5 min nəfər, kənd əhalisi 31,0 min nəfərdir (01.01.2012). Mərkəzi Culfa şəhəridir (əhalisi 12,5 min nəfər). Əhalinin sıxlığı 44 nəfər/km²-dir. Rayonda 1 qəsəbə, 20 kənd ərazi dairəsi, 24 kənd yaşayış məntəqəsi vardır. Rayonun Ermənistan Respublikası ilə sərhəddi boyu Zəngəzur silsiləsi uzanır. Silsilə Araz çayına doğru alçalaraq Arazboyu düzənliklərə (Culfa düzənliyi və s.) keçir. Rayonun ən yüksək nöqtəsi Dəmirli dağdır (3364 m). Tabaşir, Neogen və Paleogen yaşlı çöküntülər səthə çıxır. Mərgmüş, gəc, gips əsas faydalı qazıntılardır. Mineral sular (Darıdağ, Nəhəcir və s.) çıxır. İnzibati rayonun əksər hissəsində yay quru və isti, qışı soyuq keçən yarımsəhra və quru çöl iqlimi hakimdir, dağların yamaclarında yayı quraq keçən soyuq iqlim tipi yaranır. Orta aylıq temperatur yanvarda -3°C-dən -10°C-yə qədər, iyulda 19°-28°C arasında dəyişir. İl ərzində 200-600 mm yağıntı düşür. Yağıntılar əsasən yazda düşür. Rayonun əsas çaylarına Əlincə və Qaradərə aiddir, çaylar Arazın sol qollarıdır. Əlincə çayı üzərində faydalı həcmi 13 mln. m³ olan Bənəniyar su anbarı qurulmuşdur (1982-87). Dağ-çəmən, qəhvəyi dağ-meşə, şabalıdı, boz, boz-çəmən rayonun əsas torpaq tipləridir. Səhra, yarımsəhra, dağ bitkiləri və subalp çəmənləri yayılmışdır. Muflon, dağ keçisi, tülkü, boz dovşan yaşayır. Culfa taxılçılıq, üzümçülük və heyvandarlıq rayonudur.

Culfa rayonu

1:250 000

B.e.ə. VII minilliyə aid edilən Əshabi-Kəhf ziyarətgahı Culfa rayonunun ərazisindədir. B.e.ə. II-I minilliklərə aid Ərəfsə yaşayış yeri və Culfa nekropolu, Alməmməd mağarası (Daş dövrü) qədim dövrün tarixi abidələridir. Kırna (XI-XVII əsrlər), Boyəhməd, Gülüstanda "Ölən şəhər" yaşayış yerləri (orta əsrlər); Zərişdərə yaşayış yeri və nekropolu (XVI-XVIII əsrlər), Nəhəcir yaşayış yeri və qəbiristanlığı (XIV-XVI əsrlər), Qazançı nekropolu (XVI-XVII əsrlər), Alməmməd piri (orta əsrlər), Gülüstanda qəbiristanlıq (XII-XVII əsrlər) orta əsrlər dövrünə aiddir. Memarlıq abidələrinə Gülüstan kəndində türbə (XIII əsr), Araz çayı üzərində körpü (XII əsr), "Gülüstan" Tarix-mədəniyyət qoruğu ərazisində, Xanəgah kəndində Əlincəqalası (XII-XIII əsrlər), Əliməmməd məbədi (XII əsr) aiddir.

Kəngərli rayonu

1:200 000



Kəngərli rayonunun relyefində şimalda olan Dərələyəz silsiləsindən cənubda Araz çayına doğru mütləq hündürlük azalır. Araz boyu sahə Böyükdüz və Kəngərli düzü adlanır. Dərələyəz silsiləsində Keçəltəpə (2744 m), Qaraquş (2600 m), Anabadgədik (2081 m), Xok (1063 m) zirvələri yüksəlir. Rayonun ərazisində əhəng daşı, travertin (Qarabağlar və Şahtaxtı) yataqları əsas faydalı qazıntılardır. Şahtaxtı-Xok daş karxanaları istismar olunur. Qışı soyuq keçən yarımsəhra və quru çöl iqlimi dağlara doğru yayı quraq keçən soyuq iqlim tipi ilə əvəz olunur. Yanvarın orta temperaturu -3°C-dən -6°C-yə qədər, iyulda isə 20°C-dən 28°C-yə qədər qeydə alınır. Yağıntıların orta illik miqdarı 200-400 mm-dir. Lizbirt və Cəhri əsas çaylara aiddir, əksəriyyəti yay aylarında quruyur.

Kəngərli inzibati rayonu Naxçıvan MR-in tərkibinə daxildir. 19.03.2004-cü ildə təşkil edilmişdir. İnzibati rayon Dərələyəz silsiləsi ilə Araz çayı arasında yerləşir. Cənubda və cənub-qərbdə Araz çayı boyu İran İR, şimalda Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 680 km², əhalisinin sayı 29,2 min nəfər, o cümlədən şəhər əhalisi 5,4 min nəfər, kənd əhalisi 23,8 min nəfərdir (01.01.2012). Mərkəzi Qıvraq qəsəbəsidir (əhalisi 5,4 min nəfər). Əhalinin sıxlığı 43 nəfər/km²-dir. Rayonda 1 qəsəbə, 9 kənd ərazi dairəsi, 10 kənd yaşayış məntəqəsi vardır. Boz, boz-çəmən və dağ-şabalıdı torpaqlar yayılmışdır. Bitki örtüyü yovşan, şoran otu və dağ-kserofitlərindən ibarətdir. Rayonun təsərrüfatında taxılçılıq, tərəvəzçilik, şəkər çuğunduru istehsalı və heyvandarlıq mühüm yer tutur. Rayon ərazisində maddi mədəniyyət qalıqları ilə zəngin xeyli arxeoloji və memarlıq abidələri vardır. Onlara Tunc dövrünə aid Çalxanqala kurqanları və Çalxanqala; Qarabağlarda tarix-memarlıq kompleksi (XII-XIV əsrlər), Gavurqala (X-XII əsrlər) və yaşayış yeri (XII-XVII əsrlər); Qıvraqda nekropol (b.e.ə. III-I minilliklər); Qulalı yaşayış yeri (b.e.ə. III-I minilliklər); Şahtaxtı kəndində küp qəbirləri nekropolu (b.e.ə. I minillik–b.e. I minilliyi), Gavurqala yaşayış yeri, (b.e.ə. II-I minilliklər), məbədlər (b.e.ə. III-I minilliklər), hamam (XVIII əsr) aiddir.

Ordubad rayonu Naxçıvan MR-in tərkibində inzibati rayondur. 08.08.1930-cu ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə ləğv edilərək ərazisi Culfa rayonuna birləşdirilmiş, 06.01.1965-ci ildə bərpa olunmuşdur.

İnzibati rayon Gilan və Ordubad çaylarının hövzələrində, Zəngəzur silsiləsinin suayrıcısı ilə Araz çayı arasında yerləşir. Şimal-şərqdə Ermənistan Respublikası, cənubda Araz çayı boyu İran İR ilə həmsərhəddir. Sahəsi 972 km², əhalisinin sayı 46,9 min nəfər, o cümlədən şəhər əhalisi 10,7 min nəfər, kənd əhalisi 36,2 min nəfərdir (01.01.2012). Mərkəzi Ordubad şəhəridir (əhalisi 10,3 min nəfər). Əhalinin sıxlığı 48 nəfər/km²-dir. Rayonda 1 şəhər, 3 qəsəbə, 27 kənd ərazi dairəsi, 43 kənd yaşayış məntəqəsi vardır.

Ərazidən keçən Gilan, Vənənd, Ordubad və Əylis kimi böyük çaylar Araz hövzəsinə daxildir. İnzibati rayonda yayı quraq keçən soyuq iqlim tipi formalaşıb. Yanvarın orta temperaturu -3°C-dən -10°C-yə qədər olur, iyul ayında isə 10°-25°C arasında dəyişir. İl ərzində 300-800 mm yağıntı düşür, əsasən yazda yağır. Boz, çəmən-boz, allüvial-çəmən, dağ-şabalıdı, qəhvəyi dağ-meşə, çimli dağ-çəmən-bozgır torpaqları yayılmışdır. Arazboyu düzənliklər və qismən alçaq dağlıq sahələr dağ-kserofit bitkiləri, yüksək dağlıq sahələr subalp və alp çəmənləri ilə örtülüdür. Bəbir, ayı, Cənubi Qafqaz muflonu, dağ keçisi, daşlıq dələzi, boz kəklik, ular yaşayır. Zəngəzur milli parkı yaradılmışdır. Ordubadın kənd təsərrüfatında meyvəçilik, taxılçılıq və maldarlıq mühüm yer tutur.

Ordubad rayonunda çoxlu sayda tarixi-arxeoloji və memarlıq abidələri vardır. Ordubad Tarix-memarlıq qoruğunda XV-XIX əsrlərə aid abidələr mühafizə olunur. Onlardan Ordubad şəhərindəki orta əsrlərə aid Sərşəhər məscidini, Anbaras məscidini, Cümə məscidini, Mungis məscidini, Təkeşiyi məscidini, Qeysəriyyəni, 16 əsrə aid hamam binasını, Nüsnüs pirini, Vənənd məscidini (18 əsr), b.e.ə. aid Xaraba Gilan yaşayış yerini və s. göstərmək olar.

Gəmiqaya abidəsi rayon ərazisində yerləşir. Biləv (XIV-XVI əsrlər) və Aza qəbiristanlıqları (XIV-XVI əsrlər); Darkənddə Türbə (XIV əsr) və hamam qalıqları (XIV əsr); Nüsnüsdə İçaxartala (XVI əsr) və Vənənddə (XVIII əsr) məscid; Unusda Monastır (XVII əsr); Aşağı Əylislidə Müqəddəs Foma məbədi (XVII əsr); Aza kəndində Gilan çayda Körpü (1826-cı il) tarixi əhəmiyyət kəsb edir.

Ordubad rayonunun ərazisinin çox hissəsini Zəngəzur silsiləsinin yamacları tutur. Cənubda Arazboyu düzənliklərə daxil olan Ordubad, Dəstə və Yaycı düzləri yerləşir. Naxçıvan MR-in ən yüksək (3904 m) nöqtəsi olan Qapıcıq dağı buradadır. Rayonda Tabaşir və Neogen dövrlərinə aid çöküntülər səthə çıxır. Polimetal (Parağaçay, Ağdərə), molibden, mis (Diağçay), tikinti materialları mühüm faydalı qazıntılarıdır.

1:240 000

Şərur və Sədərək rayonu



Şərur rayonu Naxçıvan MR-in ən qədim yaşayış məskənlərindən biridir. Tənənəmdə Paleolit dövrünə aid Qazma mağara düşərgəsi, Daş dövrünə aid Havuş piri, Axurada Hadi Qalib mağarası; Tunc dövrünə aid Kültəpə və Maxta yaşayış yerləri, Oğlanqala yaşayış yeri (b.e.ə. II-I minilliklər); Oğlanqala (b.e.ə. II-I minilliklər); Qız qalası (orta əsrlər); qala divarları və bürclər (3 ədəd) müəyyən edilmişdir. Havuşda Tamaşalı (II-IX əsrlər), Axurada Muncuqlutəpə (I-III əsrlər) və Tənənəm yaşayış yerləri (XIV-XVIII əsrlər) qorunur.

Sədərək inzibati rayonu Naxçıvan MR-in tərkibinə daxildir. 29.08.1990-cı ildə təşkil edilmişdir. İnzibati rayon MR-in qərb kənarında yerləşir, cənub-qərbdə Türkiyə Respublikası, şimal-qərbdə Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 151 km², əhalisinin sayı 14,6 min nəfər, o cümlədən şəhər əhalisi 2,0 min nəfər, kənd əhalisi 12,6 min nəfərdir (01.01.2012). Mərkəzi Heydərabad qəsəbəsidir (əhalisi 2,0 min nəfər). Əhalinin sıxlığı 97 nəfər/km²-dir. Rayonda 1 qəsəbə, 3 kənd ərazi dairəsi, 3 kənd yaşayış məntəqəsi vardır. Kərki kəndi 19-20 yanvar 1990-cı ildə Ermənistan tərəfindən işğal edilmişdir. Rayonun relyefi şimalda və şərqdə dağlıq (Dəhnə silsiləsi), Arazboyu ərazilərdə düzənliklərdən ibarətdir. Cənub-şərqdə Dəhnə və Vəlidağ yüksəklikləri (1242 m) ilə Şərur düzündən ayrılır. Şimal-qərbdə Ağrı düzənliyi ilə birləşir. 800-940 m. mütləq yüksəkliyə malik olan Sədərək düzü cənuba doğru meyllidir. Düzənlikdə müasir (allüvial-prolüvial), dağlarda Devon, qismən Neogen çöküntüləri yayılmışdır. Burada gil, mərmərləşmiş əhəngdaşı yataqları, mineral su yataqları vardır.

Yayı quraq keçən soyuq, qışı soyuq keçən yarımsəhra və quru çöl iqlim tipləri hakimdir. Yanvarın orta temperaturu -3°C-dən -6°C-yə qədər, iyulda isə 20°C-dən 26°C-yə qədər qeydə alınır. Yağıntıların orta illik miqdarı 200-400 mm-dir. Ərazidən Qaraçay, Çapan çayı və Türkiyə sərhəd boyu Araz çayı axır. Boz, boz-çəmən və qəhvəyi dağ-meşə torpaqları əmələ gəlir. Taxılçılıq, üzümçülük, meyvəçilik-tərəvəzçilik və maldarlıq inkişaf etmişdir. Rayonun cənubunda Eneolit və Erkən Tunc dövrlərinə (b.e.ə. 4-3 minilliklər) aid yaşayış yerləri aşkar edilmişdir. Son Tunc və Erkən Dəmir dövrünə aid Sədərək qalası tarixi əhəmiyyət kəsb edir. Sədərəkdə Koroğlu qalası (XVII-XVIII əsrlər), məscid və hamam (XIX əsr) vardır.

Şərur inzibati rayonu Naxçıvan MR-in tərkibinə daxildir. 08.08.1930-cu ildə təşkil edilmişdir. Yaradıldığı vaxtdan 26.05.1964-cü ilə qədər Noraşen rayonu, bu dövrdən 07.02.1991-ci ilə qədər İliç rayonu adlanmışdır. İnzibati rayon Araz çayının sol sahilində və Arpa çayının hövzəsində yerləşir. Şimal-şərqdə Ermənistan Respublikası ilə, cənubda İran İR ilə həmsərhəddir. Sahəsi 810 km², əhalisinin sayı 107,4 min nəfər, o cümlədən şəhər əhalisi 6,9 min nəfər, kənd əhalisi 100,5 min nəfərdir (01.01.2012). Mərkəzi Şərur şəhəridir (əhalisi 6,9 min nəfər). Rayonda 1 şəhər, 52 kənd ərazi dairəsi, 65 kənd yaşayış məntəqəsi vardır. Rayonun relyefində şimalda Dəhnə silsiləsi (Kömürlüdağ, 2065 m), şərqdə Dərələyəz silsiləsi əsas yer tutur. Arazboyu ərazidə bir-birindən tirələr və yüksəkliklərlə ayrılan maili düzənliklər (Şərur, Tənənəm) yerləşir. Araz çayı sahilində mütləq hündürlük 600-700 m-dir. Düzənlik və dağətəyi zonalarda Antropogen və Neogen yaşlı, dağlarda Devon, Perm, Trias, Tabaşir dövrlərinə aid çöküntülər yayılmışdır. Polimetal filizlər (Gümüşlü), mərmərləşmiş əhəngdaşı əsas faydalı qazıntılardır. Rayonun cənubunda qışı soyuq keçən yarımsəhra və quru çöl, şimalda isə yayı quraq keçən soyuq iqlim tipi formalaşır. Orta temperatur yanvarda -3°C-dən -6°C-yə qədər, iyulda 20°C-dən 26°C-yə qədər dəyişir. Yağıntıların orta illik miqdarı 200-400 mm-dir, əsasən yazda düşür. Rayon ərazisindən axan Arpa, Qaradərə çayları Araz hövzəsinə aiddir. Arpaçay su anbarı yaradılmışdır. Boz və boz-çəmən, şorakətvari boz-qonur, dağ-şabalıdı və qəhvəyi dağ-meşə torpaqları yayılmışdır. Yarımsəhra və dağ-kserofit bitkiləri üstünlük təşkil edir. Heyvan növlərinə dağ keçisi, muflon, canavar, tülkü, boz dovşan, çöl donuzu, daşlıq kəlazi, çöl siçanı, quşlara qırqovul, kəklik, ular, bağrıqara aiddir. Şərurda taxılçılıq, üzümçülük, tərəvəzçilik və heyvandarlıq kənd təsərrüfatında mühüm rol oynayır. Sənaye obyektlərinə şəkər çuğunduru, Konserv və Şərab zavodları, Gümüşlü Dağ-Mədən müəssisəsi aiddir.

Şahbuz rayonu

1:220 000



Şahbuz rayonu Kiçik Qafqazda, Dərələyəz silsiləsinin cənubu və Zəngəzur silsiləsinin qərb yamaclarında yerləşir. Torf, tikinti materialları, tikinti daşları əsas faydalı qazıntılardır. Mineral su mənbələri (Badamlı, Biçənək, Batabat, Karvansara və s.) vardır. Yanvarın orta temperaturu -3°C-dən -10°C-yə qədər, iyulda isə 10°C-dən 25°C-yə qədərdir. Yağıntıların orta illik miqdarı 400-600 mm-dir və əsasən yazda düşür. Rayonun ərazisindən Naxçıvan çayı və onun qolları (Kükü, Şahbuz, Salvardı) axır. Qanlıgöl və Batabat gölündən su anbarları kimi istifadə olunur, Naxçıvançay üzərində Vayxır su anbarı tikilmişdir. Əsas torpaq tipləri dağ-çəmən, qəhvəyi dağ-meşə, tünd şabalıdıdır. Dağ-kserofit bitkiləri, dağ çölləri, subalp və alp çəmənləri əmələ gəlir. Zəngəzur milli parkının bir həssəsi rayon ərazisindədir, çöl donuzu, muflon, dağ keçisi qorunur. Şahbuz əsasən heyvandarlıq rayonudur. Arıçılıq və meyvəçilik də inkişaf etdirilir. Badamlı mineral su zavodu fəaliyyət göstərir.

Şahbuz inzibati rayonu Naxçıvan MR-in tərkibinə daxildir. 08.08.1930-cu ildə təşkil edilmişdir. 04.01.1963-cü ildə ləğv edilərək ərazisi Naxçıvan (indiki Babək) rayonuna verilmiş, 06.01.1965-ci ildə yenidən təşkil olunmuşdur. İnzibati rayon Zəngəzur və Dərələyəz silsilələrinin arasında, Naxçıvan çayının yuxarı axarında yerləşir. Şimalda Ermənistan Respublikası ilə həmsərhəddir. Sahəsi 917 km², əhalisinin sayı 23,6 min nəfər, o cümlədən şəhər əhalisi 3,8 min nəfər, kənd əhalisi 19,8 min nəfərdir (01.01.2012). Mərkəzi Şahbuz qəsəbəsidir (əhalisi 3,2 min nəfər). Əhalinin sıxlığı 26 nəfər/km²-dir. Rayonda 1 qəsəbə, 20 kənd ərazi dairəsi, 23 kənd yaşayış məntəqəsi vardır. Rayon ərazisində Eneolit, Tunc, Dəmir dövrlərinə, antik dövrə və orta əsrlərə aid tarixi-arxeoloji və memarlıq abidələri vardır. Onlara Sələsüzdə Şapurqala (I-X əsrlər), Biçəkək kəndində (XIV-XVII əsrlər), Ağbulaqda Qızıltapılan və Xarabalıq (V-VIII əsrlər), Keçilidə Kolluq (V-VII əsrlər), Mahmudobada Kəhriz (III-VIII əsrlər) və Ordu yurdu (VII-VIII əsrlər) yaşayış yeri aiddir. Kolanı və Quzey (X-XV əsrlər), Şahbuz və Şahbuzkənd (X-XVI əsrlər) nekropolları; Külüs qalası (b.e.ə. II minillik) və Şahpur qalası (VI əsr) tarixi əhəmiyyətinə görə fərqlənir. Sələsüz, (XVIII əsr), Biçənək körpüsü (XVIII əsr) mühüm arxitektura abidələridir. Nursu və Külüs kəndlərində Alban məbədləri tarixi əhəmiyyət kəsb edir.

ŞƏRTİ İŞARƏLƏR





MÜNDƏRİCAT

Materiklər və qitələr ... 6
Yarımadalar ... 6
Adalar ... 7
Arktika ... 8
Antarktika və Antarktida ... 8

AVSTRALİYA VƏ OKEANİYA

Avstraliya İttifaqı ... 12
Okeaniya ... 18
Yeni Zelandiya ... 19

Mikroneziya

Mikroneziya Federativ Ştatları ... 21
Marşall Adaları Respublikası ... 22
Nauru Respublikası ... 22
Kiribati Respublikası ... 23
Quam və Şimali Marian adaları ... 24
Palau Respublikası ... 25

Melaneziya

Papua-Yeni Qvineya Müstəqil Dövləti ... 25
Solomon Adaları ... 26
Vanuatu Respublikası ... 27
Fici Respublikası ... 28
Yeni Kaledoniya ... 29

Polineziya

Tuvalu ... 29
Samoa Müstəqil Dövləti ... 30
Tonqa Krallığı ... 31
Uollis və Futuna ... 32
Şərqi Samoa ... 32
Niue ... 33
Kuk adaları ... 33
Fransa Polineziyası ... 34

AFRİKA
Şimali Afrika

Misir Ərəb Respublikası ... 36
Sosialist Xalq Liviya Ərəb Cünhuriyyəti ... 37
Əlcəzair Xalq Demokratik Respublikası ... 38
Mərakeş Krallığı ... 38
Böyük Səhra Demokratik Ərəb Respublikası (Qərbi Böyük Səhra) ... 39
Tunis Respublikası ... 40
Mavritaniya İslam Respublikası ... 41

Şərqi Afrika

Sudan Respublikası ... 41
Cənubi Sudan Respublikası ... 42
Somali Demokratik Respublikası ... 43
Efiopiya Federativ Demokratik Respublikası ... 44
Eritreya Dövləti ... 44
Cibuti Respublikası ... 45
Keniya Respublikası ... 46
Tanzaniya Birləşmiş Respublikası ... 46
Uqanda Respublikası ... 47
Zambiya Respublikası ... 48
Ruanda Respublikası ... 49
Burundi Respublikası ... 50
Malavi Respublikası ... 50
Komor adaları və Mayotta ... 51
Seyşel Adaları Respublikası ... 52
Reyunon ... 53
Mavriki Respublikası ... 53

Qərbi Afrika

Mali Respublikası ... 54
Qvineya Respublikası ... 54
Syerra-Leone Respublikası ... 55
Liberiya Respublikası ... 56
Toqo Respublikası ... 56
Kot-d'İvuar Respublikası ... 57
Qana Respublikası ... 58
Nigeriya Federativ Respublikası ... 59
Niger Respublikası ... 60
Burkina-Faso Respublikası ... 60
Benin Respublikası ... 61
Qambiya Respublikası ... 62
Qvineya-Bisau Respublikası ... 62
Seneqal Respublikası ... 63
Kabo-Verde Respublikası ... 64

Mərkəzi Afrika

Kamerun Respublikası ... 65
Mərkəzi Afrika Respublikası ... 65
Ekvator Qvineyası Respublikası ... 66
San Tome və Prinsipi Respublikası ... 67
Çad Respublikası ... 67
Qabon Respublikası ... 68
Konqo Demokratik Respublikası ... 68
Konqo Respublikası ... 69
Anqola Respublikası ... 70
Müqəddəs Yelena adası ... 71

Cənubi Afrika

Botsvana Respublikası....72
Namibiya Respublikası....72
Zimbabve Respublikası....73
Mozambik Respublikası....74
Madaqaskar Respublikası....75
Cənubi Afrika Respublikası....75
Svazilend Krallığı....77
Lesoto Krallığı....78

ŞİMALİ AMERİKA

Kanada....80
Amerika Birləşmiş Ştatları....85
Alyaska....93
Havay adaları....94
Qrenlandiya adası....95
Bermud adaları....96

LATIN AMERİKASI

Meksika Birləşmiş Ştatları....98

Mərkəzi Amerika

Qvatemala Respublikası....100
Beliz....101
Honduras Respublikası....102
El-Salvador Respublikası....103
Nikaraqua Respublikası....104
Kosta-Rika Respublikası....105
Panama Respublikası....106

Karib dənizi hövzəsi ölkələri

Kuba Respublikası....107
Kayman adaları....108
Yamayka....109
Baham Adaları Birliyi....110
Terks və Kaykos....110
Haiti Respublikası....111
Dominikan Respublikası....112
Sent-Kits və Nevis Federasiyası....112
Antiqua və Barbuda....113
Dominika Birliyi....114
Sent-Lüsiya....114
Sent-Vinsent və Qrenadina....115
Barbados....116
Qrenada....116
Trinidad və Tobaqo Respublikası....117
Puerto-Riko....118
Virginiya adaları....118
Virginiya adaları (ABŞ)....118
Virginiya adaları (B.Britaniya)....119
Angilya və Montserrat....119
Qvadelupa....120
Martinika....120
Aruba, Kürasao, Sint-Marten....121

CƏNUBİ AMERİKA
And ölkələri

Venesuela Respublikası....122
Kolumbiya Respublikası....123
Ekvador Respublikası....125
Peru Respublikası....126
Boliviya Çoxmillətli Dövləti....127
Çili Respublikası....129

Cənubi Amerikanın şimal-şərqi

Qayana Kooperativ Respublikası....130
Surinam Respublikası....131
Fransa Qviana....131

La-Plata hövzəsi ölkələri

Paraqvay Respublikası....132
Argentina Respublikası....133
Uruqvay Şərq Respublikası....135
Braziliya Federativ Respublikası....135
Folklend adaları....137
Cənubi Atlantika adaları....138

AVROPA
Qərbi Avropa. Şimali Avropa

Norveç Krallığı....140
İsçeç Krallığı....141
Finlandiya Respublikası....142
Danimarka Krallığı....143
Farer adalar....144
İslandiya Respublikası....144

Mərkəzi Avropa

Böyük Britaniya və Şimali İrlandiya
Birləşmiş Krallığı....145
İrlandiya Respublikası....147
Belçika Krallığı....149
Böyük Lüksemburq Hersoqluğu....150
Niderland Krallığı....150
Almaniya Federativ Respublikası....152
Fransa Respublikası....154
Monako Knyazlığı....156
İsveçrə Konfederasiyası....157
Avstriya Respublikası....158
Lixtenşteyn Knyazlığı....159

Cənubi Avropa

İspaniya Krallığı....160
Portuqaliya Respublikası....162
İtaliya Respublikası....163
Yunanıstan Respublikası....164
Andorra Knyazlığı....166
San-Marino Respublikası....167
Vatikan....167
Malta Respublikası....168
Kipr Respublikası....169

Şərqi Avropa

Macarıstan Respublikası....169
Çexiya Respublikası....170
Polşa Respublikası....172
Slovakiya Respublikası....173
Sloveniya Respublikası....174
Xorvatiya Respublikası....174
Makedoniya Respublikası....175
Serbiya Respublikası....176
Çernoqoriya Respublikası....177
Bosniya və Herseqovina Respublikası....177
Albaniya Respublikası....178
Bolqarıstan Respublikası....179
Rumıniya Respublikası....180
Estoniya Respublikası....180
Latviya Respublikası....181
Litva Respublikası....182
Moldova Respublikası....183
Ukrayna Respublikası....184
Belarus Respublikası....185
Rusiya Federasiyası....186

ASİYA. Mərkəzi Asiya

Qazaxıstan Respublikası....190
Özbəkistan Respublikası....191
Türkmənistan Respublikası....192
Tacikistan Respublikası....192
Qırğızıstan Respublikası....193
Monqolustan Respublikası....194

Şərqi Asiya

Çin Xalq Respublikası....195
Tayvan....199
Koreya Xalq Demokratik Respublikası....200
Koreya Respublikası....201
Yaponiya....202

Cənub-Şərqi Asiya

Tailand Krallığı....204
Myanma Respublikası....205
Vyetnam Sosialist Respublikası....206
Kamboca....207
Laos Xalq Demokratik Respublikası....208
Bruney Sultanlığı....210
Malayziya....210
İndoneziya Respublikası....212
Timor-Leste Demokratik Respublikası
(Şərqi Timor)....214
Filippin Respublikası....215
Sinqapur Respublikası....216

Cənubi Asiya

Pakistan İslam Respublikası....217
Hindistan Respublikası....218
Banqladeş Xalq Respublikası....221
Nepal Respublikası....221
Butan Krallığı....222
Şri-Lanka DemokratikSosialist
Respublikası....223
Maldiv Respublikası....224

Cənub-Qərbi Asiya

Suriya Ərəb Respublikası....225
İsrail Respublikası....226
Fələstin Ərazisi (İordan çayının qərb
sahili və Qəzza bölməsi)....227
Livan Respublikası....227
İordaniya Haşimilər Krallığı....228
İraq Respublikası....229
Səudiyyə Ərəbistanı Krallığı....230
Küveyt Əmirliyi....232
Bəhreyn Krallığı....232
Qətər Əmirliyi....233
Birləşmiş Ərəb Əmirlikləri....234
Oman Sultanlığı....235
Yəmən Respublikası....236
Türkiyə Respublikası....237
Gürcüstan Respublikası....238
Ermənistan Respublikası....239
İran İslamRespublikası....239
Əfqanıstan Respublikası....241

AZƏRBAYCAN RESPUBLİKASININ FİZİKİ VƏ İQTİSADİ-SOSİAL COĞRAFİYASI

Azərbaycanın fiziki-coğrafi şəraiti....244
Azərbaycanın iqtisadi, siyasi və
sosial coğrafiyası....250

İQTİSADİ-COĞRAFİRAYONLAŞDIRMA VƏ İNZİBATİ RAYONLAR

İqtisadi-coğrafi rayonlaşdırma və
inzibati rayonlar....254

Böyük Qafqaz təbii-iqtisadi zonası
Abşeron iqtisadi-coğrafi rayonu 255

Bakı şəhəri ərazi dairəsi 256
Sumqayıt şəhəri 256
Abşeron inzibati rayonu 258
Xızı inzibati rayonu 258

Quba-Xaçmaz iqtisadi-coğrafi rayonu 260

Şabran inzibati rayonu 260
Quba inzibati rayonu 263
Xaçmaz inzibati rayonu 263
Qusar inzibati rayonu 266
Siyəzən inzibati rayonu 266

Şəki-Zaqatala iqtisadi-coğrafi rayonu 268

Şəki inzibati rayonu 268
Balakən inzibati rayonu 271
Qax inzibati rayonu 271
Qəbələ inzibati rayonu 274
Oğuz inzibati rayonu 274
Zaqatala inzibati rayonu 276

Dağlıq Şirvan iqtisadi-coğrafi rayonu 277

Ağsu inzibati rayonu 277
İsmayıllı inzibati rayonu 280
Qobustan inzibati rayonu 280
Şamaxı inzibati rayonu 282

Kür-Araz təbii-iqtisadi zonası
Aran iqtisadi-coğrafi rayonu 284

Mingəçevir şəhər ərazi dairəsi 285
Şirvan şəhər ərazi dairəsi 285
Ağcabədi inzibati rayonu 287
Ağdaş inzibati rayonu 287
Beyləqan inzibati rayonu 290
Bərdə inzibati rayonu 290
Biləsuvar inzibati rayonu 293
Göyçay inzibati rayonu 293
Hacıqabul inzibati rayonu 296
İmişli inzibati rayonu 296
Kürdəmir inzibati rayonu 299
Neftçala inzibati rayonu 299
Saatlı inzibati rayonu 302
Sabirabad inzibati rayonu 302
Salyan inzibati rayonu 305
Ucar inzibati rayonu 305
Yevlax inzibati rayonu 308
Zərdab inzibati rayonu 308

Kiçik Qafqaz təbii-iqtisadi zonası
Gəncə-Qazax iqtisadi-coğrafi rayonu 310

Naftalan şəhər ərazi dairəsi 310
Gəncə şəhər ərazi dairəsi 311
Ağstafa inzibati rayonu 311
Daşkəsən inzibati rayonu 314
Gədəbəy inzibati rayonu 314
Goranboy inzibati rayonu 317
Göygöl inzibati rayonu 317
Qazax inzibati rayonu 320
Samux inzibati rayonu 320
Şəmkir inzibati rayonu 323
Tovuz inzibati rayonu 323

Yuxarı Qarabağ iqtisadi-coğrafi rayonu 325

Xankəndi şəhər ərazi dairəsi 325
Ağdam inzibati rayonu 327
Cəbrayıl inzibati rayonu 327
Füzuli inzibati rayonu 330
Xocalı inzibati rayonu 330
Xocavənd inzibati rayonu 333
Tərtər inzibati rayonu 333
Şuşa inzibati rayonu 335

Kəlbəcər-Laçın iqtisadi-coğrafi rayonu 336

Kəlbəcər inzibati rayonu 336
Laçın inzibati rayonu 339
Qubadlı inzibati rayonu 339
Zəngilan inzibati rayonu 341

Lənkəran təbii-iqtisadi zonası
Lənkəran-Astara iqtisadi-coğrafi rayonu 342

Astara inzibati rayonu 342
Cəlilabad inzibati rayonu 345
Lerik inzibati rayonu 345
Lənkəran inzibati rayonu 348
Masallı inzibati rayonu 348
Yardımlı inzibati rayonu 350

Naxçıvan təbii-iqtisadi zonası
Navçıvan iqtisadi-coğrafi rayonu 351

Naxçıvan şəhər ərazi dairəsi 351
Babək inzibati rayonu 353
Culfa inzibati rayonu 353
Kəngərli inzibati rayonu 356
Ordubad inzibati rayonu 356
Sədərək inzibati rayonu 359
Şərur inzibati rayonu 359
Şahbuz inzibati rayonu 361

Ədəbiyyat:

1. Атлас мира. М.: ПКО «Картография», АСТ, 2010. – 424 с.
2. Страны и регионы мира. Экономико-политический справочник. – М. Проспект, 2010. – 704 с.
3. Атлас. Для 10-го класса, М.: ПКО «Картография», 2006.
4. Большая иллюстрированная энциклопедия географии. М.: Махаон. – 2011.
5. Большая географическая энциклопедия. М.: Эксимо, 2007. – 672 с.
6. Большой энциклопедический словарь: В 2 т. – М.: Советская энциклопедия, 1991. Т. 1. – 863 с.; Т. 2. 768 с.
7. Географический энциклопедический словарь: Понятия и термины / Главный редактор А.Ф. Трешников. - М.: Советская энциклопедия, 1988.- 432 с.
8. Azərbaycanın Milli Ensiklopediyası, Bakı, 2007.
9. Azərbaycan Respublikasının Atlası. BKF, 2010.
10. Azərbaycanın turizm Atlası. BKF, 2008.
11. Azərbaycanın regionları -2011. Bakı: DSK, 2012, 651 s.
12. Azərbaycanın inzibati-ərazi quruluşu, 1828-2010-cu illər (Tərtib edəni İ.Qarayev). Bakı: "Səma-Qrafik MMC", 2010, 333 s.
13. Azərbaycanın demoqrafik göstəriciləri – 2011. Bakı, DSK, 2012. 458 s.
14. Eminov Z.N. Coğrafiya. Bakı, Çıraq, 2005, 656 c.
15. Hacıyev Q.Ə., Rəhimov V.Ə. Azərbaycan SSR inzibati rayonlarının iqlim səciyyəsi. "Elm". Bakı, 1977. 270 s.

Kitabda verilən inzibati rayonların xəritələri və onların səhifəsi:

Abşeron (257), Xızı (259), Şabran (261), Quba (262), Xaçmaz (264), Qusar (265), Siyəzən (267), Şəki (269), Balakən (270), Qax (272), Qəbələ (273), Oğuz (275), Zaqatala (276), Ağsu (278), İsmayıllı (279), Qobustan (281), Şamaxı (283), Ağcabədi (286), Ağdaş (288), Beyləqan (289), Bərdə (291), Biləsuvar (292), Göyçay (294), Hacıqabul (295), İmişli (297), Kürdəmir (298), Neftçala (300), Saatlı (301), Sabirabad (303), Salyan (304), Ucar (306), Yevlax (307), Zərdab (309), Ağstafa (312), Daşkəsən (313), Gədəbəy (315), Goranboy (316), Göygöl (318), Qazax (319), Samux (321), Şəmkir (322), Tovuz (324), Ağdam (326), Cəbrayıl (328), Füzuli (329), Xocalı (331), Xocavənd (332), Tərtər (334), Şuşa (335), Kəlbəcər (337), Laçın (338), Qubadlı (340), Zəngilan (341), Astara (343), Cəlilabad (344), Lerik (346), Lənkəran (347), Masallı (349), Yardımlı (350), Babək (352), Culfa (354), Kəngərli (355), Ordubad (357), Sədərək (358), Şərur (358), Şahbuz (360).

"Coğrafiya ensiklopediyası" kitabında verilən Azərbaycanın inzibati rayonlarının xəritələrini təqdim etdiyinə görə Azərbaycan Respublikasının Torpaq və Xəritəçəkmə Komitəsinin sədri, hörmətli akademik Q.Ş.Məmmədova və Komitənin əməkdaşlarına dərin minnətdarlığımızı bildiririk.

Tərtib edənlər:

İqtisad elmləri namizədi ***Eminov Zakir Namin oğlu***

Coğrafiya elmləri namizədi ***Səmədov Qabil Mahmud oğlu***

Coğrafiya ensiklopediyası

Texniki redaktor: Fərid Kərimov
Dizayn: Könül Məlikova
Eldəniz Xocazadə
Könül Səfərəliyeva
Həmidə Əliyeva
Fərid Ələkbərov
Korrektor: Sevda Aşurbəyova

Çapa imzalanmışdır: 01.11.2012. Tiraj: 35000
Formatı: 60x90 1/8. F.ç.v. 46.

"Çaşıoğlu" mətbəəsində çap olunub.
Bakı şəhəri, M.Müşfiq küçəsi 2 E.
Tel: 448-10-45